**İbrahim Bayramov**

# QƏRBİ AZƏRBAYCANIN TÜRK MƏNŞƏLİ TOPONİMLƏRİ

www.preslib.az
PREZİDENT KİTABXANASI

**BAKI – "Elm" - 2002**

# MÜNDƏRİCAT


**Həyatın torpaq yaddaşı (akademik Budaq Budaqov)**
**Giriş**
**Qərbi Azərbaycanın türk mənşəli toponimləri: A | B | V | Q | D | E | Ə | Z | İ | Y | K | G | L | M | N | O | Ö | P | R | S | T | U | Ü | F | X | H | Ç | C | Ş**
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**
a) Azərbaycan dilində
b) Rus dilində
c) Türk dillərində
ç) Erməni dilində
D) Avropa dillərində
E) İnternet səhifəsi
Ə) Xəritələr
**Əsərdə istifadə olunmuş ixtisarlar**

# HƏYATIN TORPAQ YADDAŞI

Ümumtürk dünyasının tərkibinə daxil olan Azərbaycan xalqı öz tarixini yaşamış, taleyinin sahibi olmuş, bütün zamanlarda başqa xalqlara, o cümlədən ermənilərə öz xeyirxahlığını, humanistliyini nümayiş etdirmişdir. Lakin həmişə onlardan xəyanət görmüşdür. Hiylədən, xəbislikdən, xəyanətdən uzaq olan saf təbiətli Azərbaycan xalqının sadəlövhlüyü, sözə inamı daima onu hiyləgər məkrliyinin qurbanı etmişdir.

Tarixi dəlillər göstərir ki, daima etibar etdiyimiz erməni qonşularımız son iki əsr ərzində «Böyük Ermənistan» deyə car çəkmiş, vətənləri olmaya-olmaya tarix boyu özlərinə vətən axtarmış, vətən tapdıqdan sonra isə «Böyük Ermənistan», «türksüz Ermənistan» uğrunda mübarizə aparmışlar.

Böyük mütəfəkkir Cəlaləddin Ruminin - «ya olduğun kimi görün və yaxud da göründüyün kimi ol» müdrik kəlamı erməni xalqının qatı millətçiləri üçün yad olmuş və onlar göründükləri kimi olmağa çalışmamışlar. Onlar üzdə xeyirxah, arxada isə düşmən kimi özlərini aparmış və təmasda olduqları xalqların başını tumarlamış, arxadan isə onlara zəhərli xəncər yarası vurmuşdular. Erməni qaniçənləri çox asanlıqla kütləni öz arxasınca aparmış və yeri gəldikdə qonşu xalqlara qarşı xəyanət niyyətlərini həyata keçirmişlər. Ona görə də ermənilər dünyanın hansı millətləri ilə birgə yaşamışlarsa, həmin millətlər onların xain əməllərinə qarşı mübarizə aparmış və erməniləri öz millətlərinin gözündən salmışlar.

Erməni millətinin Vətəni olmadığından onlar Yer kürəsinin bütün dövlətlərini özlərinə vətən seçmişlər. Buna ikinci səbəb ermənilərin - «vor değ hats, endeğel qats» (çörək harada varsa, orada da yaşa) atalar sözünün olmasıdır. Pərpətöyün toxumu kimi dünyanın hər yerinə səpələnmiş ermənilər təşkilatlanaraq onların hansı qitədə olmasından asılı olmayaraq «Bizim vətən» - deyə haray çəkmişlər.

Son üç əsrdə ermənilər təşkilatlanaraq birinci özlərinə paytaxt, ikincisi vətən yaratmışlar, üçüncüsü isə tapdıqları vətənin ərazisini genişləndirməyə - «Böyük Ermənistan» yaratmağa çalışmışlar. Rusiya ermənilərin bu məkirli siyasətini həyata keçirmək üçün XVII əsrdən başlayaraq ermənilərə dayaq olmuş, istək və arzularını həyata keçirməyə çalışmışdır. Rusiya öz növbəsində Qafqazda öz təsir dairəsini genişləndirmək və potensial düşməni olan Türkiyəyə qarşı uğurlu mübarizə aparmaq üçün ermənilərin satqınlığından, hiyləsindən və qul olmaqlarından məharətlə istifadə etmişdir.

Təbiətən yırtıcı olan erməni ekstremistləri müsəlmanlara «türklərə, azərbaycanlılara qarşı amansız olmuş, kütləvi qırğınlar törətmiş və geniş miqyasda terrorla məşğul olmuşlar.

Vaxtaşırı erməni təcavüzünə, məruz qalan, genosidə uğrayan Azərbaycan xalqı erməni qırğınına laqeyd qalmış, faktiki olaraq onlarla hesablaşmış və vaxt ötdükcə erməni canilərin nişangahına çevrilmişlər.

Son iki əsr ərzində ermənilər azərbaycanlıları öz doğma vətənindən mərhələ-mərhələ deportasiya etmiş, soyqırımına məruz qoymuş və nəhayət - 1988-ci ildə «türksüz (azərbaycanlılarsız) Ermənistan» yaratmışdır.

Təəssüf ki, tarixin bütün mərhələlərində azərbaycanlılar erməni soyqırımına biganə qalmış və heç zaman ciddi və təsirli tədbir görməmişlər.

Erməni eksponsiyasıları 1988-ci ildə son həddə çatdıqlarından 260 mindən artıq azərbaycanlını sonuncu dəfə Ermənistandan deportasiya etdikdə Azərbaycan xalq bir nəfər kimi ayağa qalxaraq böyük qeyrətlə onları Azərbaycan ərazisindən (Dağlıq Qarabağdan başqa) çıxardı. Bu, Azərbaycan xalqının erməni millətinin məkirli niyyətinə ilk, həm də tutarlı cavabı idi.

Erməni milləti qədim Oğuz elini - azərbaycanlıların ata-baba yurdunu tutduqdan sonra oradan sivilizasiyalı xalqa yad olan toponimik genosid həyata keçirdi.

Əslində bu toponimik genosid 1930 - cu illərdən başlayaraq 1992-cı illərə qədər tam həyata keçirilmişdi. Qatı erməni millətçiləri tarixi coğrafiyada və rəsmi dövlət sənədlərində əksini tapmış Qərbi Azərbaycanda olan minlərcə Azərbaycan mənşəlitoponimlərin sonuna çıxmışlar. Bu toponimləri dəyişdirib erməniləşdirdilər. Onlar Azərbaycan mənşəli toponimləri müasir sənədlərdən silmişlər. Lakin tarixin yaddaşına balta vura bilməmişlər. 1998-cı ildə B.Ə.Budaqov və Q.Ə.Qeybullayevin «Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti»nin(1998) işıq üzü görməsi ermənilərin toponimik genosidinə açıq zərbə endirmişdir.

Müəlliflər haqqında danışılan lüğətdə Ermənistanda «ölümə» məhkum olunmuş coğrafi adları həyata gətirmiş, onların dəyişilmə tarixini göstərmiş, köhnə adları bərpa etmiş, uydurma toponimlərin

adını çəkmişlər. Bu fundamental əsər Azərbaycan mənşəli coğrafi adlara tarixi dayaqdır. B.Budaqov və Q.Qeybullayev izahlı lüğətdə bir daha sübut etmişlər ki, azərbaycanlılar indiki Ermənistan ərazisinə gəlmə deyil, aborigen olmuşlar.

**İbrahim** Bayramovun «Qərbi Azərbaycanın türk mənşəli toponimləri» adlı əsəri B.Budaqov və Q.Qeybullayev ənənəsinin yeni davamı kimi qiymətləndirilməlidir.

**İbrahim Bayramov** müqayisəli tədqiqat üsulu ilə Ermənistanda olan coğrafi adları yenidən qələmə almış, onları linqvistik baxımdan həm də yeni zəngin dil materialları ilə izah etmiş, onların kəmiyyət göstəricilərini vermişdir.

**İbrahim Bayramov** bu kitabında Ermənistanda olan Azərbaycan mənşəli coğrafi adları bir daha linqvistik süzgəcdən keçirmiş və bu toponimlərin tədqiqinin gələcəkdə də vacibliyini göstərmişdir.

Ermənistanda (Qərbi Azərbaycanda) olmuş Azərbaycan toponimlərində zəngin tarixi, coğrafi, linqvistik, folklor, arxaik sözlər, terminlər baxımından zəngin materialların olmasını nəzərə alaraq, onları ardı-arası kəsilmədən tədqiq etmək gələcək nəslin də qarşısında duran mühüm elmi problem olaraq qalır.

**BUDAQ BUDAQOV,** *akademik*

# GİRİŞ

Toponimlər canlı sənədlərdir. Elin, obanın tarixinin araşdırılmasında toponimlər əvəzedilməz mənbədir. Toponimlər vasitəsilə xalqın təşəkkülü, tarixi və soykökünü elmi şəkildə öyrənmək mümkündür.

Hər bir el, oba xalq tərəfindən verilən adı ilə tanınır və bu adla da tarixdə yaşayır. Xalqın tarixinə dair ən xırda cizgiləri belə özündə qoruyub saxlayan, zamanın sınağından çıxan yurd adları (toponimlər) dilin ən qədim qatlarını mühafizə edib gələcək nəslə çatdırır.

Bu baxımdan da, yer-yurd adlarının (Toponimlərin) tədqiqi dövrün ən vacib problemlərindən biridir. İndiyə qədər Şimali Azərbaycan toponimləri elmi şəkildə araşdırılmış və dəyərli tədqiqat əsərləri yazılmışdır. Tanınmış tədqiqatçılardan A.Qurbanov, B.Budaqov, A.Axundov, Ə.Hüseynzadə, S.Mollazadə, R.Yüzbaşov, K.Əliyev, T.Əhmədov, Q.Məşədiyev, Q.Qeybullayev, F.Xalıqov, A.Hacıyev və başqa onomaloqlar qiymətli tədqiqat işləri aparmışlar. Bu əsərlər xüsusi elmi əhəmiyyət kəsb edirr

Qeyd edək ki, qədim Oğuz yurdu olan indiki Ermənistan Azərbaycanın tarixi torpaqlarıdır. Bu torpaqlar Azərbaycandan mərhələ-mərhələ qoparılaraq qondarma erməni respublikası yaradılmış və bu gün xalqımız üçün yad, əlçatmaz, ün yetməz bir yerə çevrilmişdir. Həmin vaxtdan da ermənilər yer adlarımızı dəyişdirərək erməni mənşəli adlarla əvəz etmiş, Azərbaycan türklərinin bu ərazidəki izlərini tarixdən silməyə çalışmışlar. Bizim məqsədimiz Ermənistan adlanan Qərbi Azərbaycanın türk mənşəli yer-yurd adlarını tarixi-linqvistik baxımdan tədqiq etməkdir. Bu tədqiqat əsəri məhz belə bir məqsədə xidmət edir.

Məlum olduğu kimi, indi Ermənistan adlanan ərazi Azərbaycanın tarixi torpaqları olmaqla yanaşı, Azərbaycan türklərinin tarixi etnik torpaqları olmuşdur. Ermənilər bu əraziyə kütləvi surətdə 1828-ci il Türkmənçay müqaviləsindən sonra köçürülmüş, ruslara arxalanaraq ərazinin köklü sakinləri olan Azərbaycan türklərini sıxışdırmağa, tarixi etnik vətənlərindən deportasiya etməyə başlamışlar.

Azərbaycanlılar ta qədimdən XX əsrin 80-cı illərinin sonu, 90-cı illərin əvvəllərinə qədər indiki Ermənistan ərazisində yaşamışlar. Bu torpaq Azərbaycan türklərinin ata-baba yurdlarıdır. Onlar zaman-zaman erməni təcavüzünə məruz qalaraq deportasiyaya olunmuşlar. Təkcə XX əsrdə dörd dəfə(1905-1906, 1918-1920, 1948-1953,1988-1991) azərbaycanlılar indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş, soyqırımına məruz qalmışlar. «Türksüz Ermənistan» uğrunda mübarizə aparan ermənilər və onların ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də başa çatdırdılar. Həmin gün Meğri rayonunun ən böyük kəndlərindən biri - Nüvədi kəndi soyqırımına məruz qalaraq kəndin köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olundular. Beləliklə, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər belə azərbaycanlı qalmadı. Halbuki 1828-ci ildə İrəvan şəhərində 7331 nəfər azərbaycanlı, 2369 erməni, İrəvan xanlığının Zəngibasar mahalında 5413 nəfər azərbaycanlı, 603 erməni, Gərnibasar mahalında 4176 nəfər azərbaycanlı, 145 erməni, Vedibasar mahalında 3449 nəfər azərbaycanlı, 15 erməni, Saatlı mahalında 1004 nəfər azərbaycanlı, Seyidli və Axsaxlı mahalında 1754 azərbaycanlı,28 erməni, Sərdarabad mahalında 1837 nəfər azərbaycanlı, 3214 erməni, Dərəçiçək mahalında 1300 nəfər azərbaycanlı, 552 erməni, Göyçə mahalında 5607 nəfər azərbaycanlı, 90 erməni, Naxçıvan xanlığının Dərələyəz mahalında 4583 nəfər azərbaycanlı, 288 erməni yaşamışdır (386, s.543-621).

Türkmənçay müqaviləsindən sonra, 1828-1830 - cu illərdə İran və Türkiyədən İrəvan şəhərinə 1763, Qırxbulaq mahalına 1274, Zəngibasar mahalına 2360, Gərnibasar mahalına 5359, Vedibasar mahalına 1069, Sərdarabad mahalına 377, Karpibasar mahalına 3073,Abaran mahalına 8875. Dərəçiçək mahalına 6798, Göyçə mahalına 8557, Dərələyəz mahalına 2773 erməni köçürülüb yerləşdirilmişdir (386, s.543-622). Bununla da Azərbaycan türklərinin indiki Ermənistan ərazisindən - tarixi-etnik torpaqlarından deportasiyası üçün real zəmin yaradıldı.

1905-1906-cı ildə baş verən erməni azərbaycanlı müharibəsi, 1914 - cü ildə başlanan I dünya müharibəsi və 1918-ci ildə indiki Ermənistanda daşnakların hakimiyyətə gəlməsi nəticəsində azərbaycanlılar ermənilərin soyqırımına məruz qalmışlar. Təkcə 1919-1920-ci illərdə Abaran rayonundan 3691, Allahverdi (indiki Tumanyan) rayonundan 1666, Axta (indiki Razdan) rayonundan 8053, Ağbaba (indiki Amasiya, Axuryan və Qukasyan rayonları) rayonundan 13645, Əştərək rayonundan 11313, Basarkeçər (indiki Vardenis) rayonundan 26238, Gorus rayonundan 1429,

Krasnoselo rayonundan 512, Talin rayonundan 7688, Leninakan (indiki Spitak və Quqark rayonları) rayonundan 3410, Abovyan rayonundan 9436, Qəmərli (Artaşat) rayonundan 24149, Qafan rayonundan 12657, Qurduqulu rayonundan 8490, Qaranlıq (indiki Martuni) rayonundan 3190, .Meğri rayonundan 8508, Yeni Bayazid (indiki Kamo) rayonundan 4077, Sisyan rayonundan 17880, Stepanavan (Calaloğlu) rayonundan 1868, Vağarşabad (Eçmiədzin) rayonundan 27750, Vedi (indiki Ararat) rayonundan 8933, Keşişkənd (indiki Yeğeqnadzor) rayonundan 14837, Paşalı (indiki Vayk) rayonundan 8933 azərbaycanlı deportasiya olunmuşdur (415, s.96-163).

Sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürülmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də «Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 saylı və 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» 754 saylı qərarlarına əsasən 1948-1953 - cü illərdə 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından deportasiya edilmişdir.

1988-1991-ci illərdə isə Rusiyanın köməyi ilə Ermənistan dövləti tərəfindən indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlı deportasiya olunmuşdur. Ümumiyyətlə, XX əsrdə iki milyon azərbaycanlı indiki Ermənistandan - Qərbi Azərbaycandan - tarixi-etnik torpaqlarından qovulmuşlar.

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız Azərbayçan Respublikasının prezidenti H.Əliyev bu tarixi ədalətsizliyə, hüquqi-siyasi qiymət vermiş, bununla bağlı 1997-ci ilin dekabrın 18-də «1948-1953 - cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında», 1998-ci ilin martın 26-da «Azərbaycanlıların soyqırımı» və 22 avqust 2001-ci ildə «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» fərmanlar imzalamışdır. 22 avqust 2001-ci il tarixli fərmanda göstərilir: «Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək, süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək siyasətinin tərkib hissəsini təşkil edirdi. 1935-1989 - cu illərdə Ermənistanda hətta yer adlarına qarşı qərəzli siyasət tətbiq edilmiş və minlərlə Azərbaycan toponimi xəritələrdən silininişdir»

Deməli, həm də indiki Ermənistan ərazisindəki türk mənşəli toponimlərin öyrənilməsi siyasi əhəmiyyət kəsb edir. Bu faktları özündə əks etdirən tarixi sənədlər «toxunulmazlıq» qrifi ilə Ermənistanın arxivlərində, obrazlı ifadə ilə desək, dəmir seyflərdə saxlanılır Yalnız ən etibarlı mənbə ərazinin topo- nimləridir ki, tarixi həqiqətlərə işıq salır, aydınlıq gətirir. Axı hər bir xalq, tayfa «yaşayış məntəqələrinə öz ana dillərində adlar verir. Həmin adlarda tarixin izləri öz əksini tapır» (88, s.3).

Keçmiş SSRİ məkanında erməni tədqiqatçıları belə bir fikir formalaşdırmışlar ki, tarixən «Böyük Ermənistan» olmuş, zaman-zaman «Böyük Ermənistan» parçalanmış və indiki «Kiçik Ermənistan» qalmışdır. Ermənilər də indiki Ermənistanın qədim və köklü sakinləri olmuşlar. Məhz bunun nəticəsi idi ki, belarus toponimisti V.A.Juçkeviç 1980-ci ildə Minskdə çap etdirdiyi «Общая топонимика» əsərində yazırdı: «Erməni mənşəli olmayan adlar Ermənistanda azdır. Ermənistan toponimik cəhətdən SSRİ-nin ən yekcins ərazisidir. Burada başqa dillərə məxsus elementlər (dil elementləri - İ.B.) azdır» (304, s.229). Nicat

Müəllifin bu fikri tarixi faktın və həqiqətin saxtalaşdırılmasından başqa bir şey deyildir. Tarixi faktlardan aydın olur ki, indiki Ermənistanda XIX əsrin əvvəllərinə kimi qeydə alınmış toponimlərin çoxu türk mənşəli olmuşdur. Təkcə bir faktı qeyd etmək istərdik. Z.Qorqodyanın 1932-ci ildə İrəvanda erməni dilində çap olunmuş «1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi» kitabında qeydə alınmış 2310 yaşayış məntəqəsindən təqribən 2000-i türk mənşəlidir (415, s.292). Eyni zamanda Simeon İrəvanlının «Cambr» (XVIII əsr), «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» (427, s. 1991) və b. erməni dilində nəşr edilən digər kitablarda qeydə alınmış türk mənşəli toponimlər tarixi həqiqətlərdən xəbər verir.

E.ə. I, e. I əsrində yaşamış Strabon «Coğrafiya» əsərində (377, s.482-488) indiki Ermənistan ərazisində olan bəzi türk mənşəli toponimlərin (Sakasena, Araksena, Artaksat, Qoqarena) adlarını çəkir.

E.ə. I əsrdə Ön Asiyada böyük dövlət kimi tanınan Urartu ilə bağlı tapılan daş kitabələrdə indiki Ermənistan ərazisində yerləşən Eriaxi, Qelakuni, Urtexuni toponimlərinin (türk mənşəli toponimlərin - İ.B.) adları çəkilir (331 a, s. 329, 424).

«VII əsr erməni coğrafiyası»nda (265, s.38-48) və 1763-1780-cı illərdə erməni kilsəsinin başçısı olmuş Simeon İrəvanlının «Cambr» əsərində (303, s. 119-198) indiki Ermənistan ərazisində yerləşən türk mənşəli toponimlərin adlarının ilkin, qədim formaları, eləcə də bu ərazidə tarixən yaşamış türk tayfalarının adları qeyd edilmişdir.

1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə, 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.22-183) indiki Ermənistanın türk mənşəli toponimləri geniş şəkildə və dəqiqliklə əksini tapmışdır.

XIX əsrin 50-ci illərində rus dilində çap olunmuş İ.Şopenin «Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской Импери» (СП6, 1852), D.D.Paqirevin «Алфавитный указателк пятиверстной карте Кавказского края» (Тифлис, 1913) əsərində, «Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК, вып.: 4, 5, 13, 25, 27, 40, Тифлис, 1884, 1886, 1892, 1898, 1900, 1909), «Кавказский календарь» (Тифлис, 1846, 1878, 1907, 1908, 1916), «Материалы для изучения экономического быта государственных крестьян Закавказского края» (тт. I-IV, Тифлис, 1862-1886) və s. jurnallarda, Акты собранные Кавказской Археографической Комиссией (тт. I-XII, Тифлис, 1866-1904) sənədlər toplusunda, Г.Абихин «Геология армянского нагорья» (Пятигорск, 1899) əsərində, eləcə də indiki Ermənistana səyahət etmiş E.Q. Veydenbaumun (Путеводитель по Кавказу, Тифлис, 1888), S.Anisimovun (Путеводитель по Кавказу , М., 1924) və başqa səyyahların əsərlərində qeydə alınmış indiki Ermənistanın türk mənşəli toponimlər ərazinin toponimlərinin öyrənilməsində əvəzsiz mənbələrdir.

Bununla yanaşı, əsər yazılarkən erməni dilində müxtəlif illərdə çap olunmuş mənbələr də əsas götürülmüşdür. Onlardan Z.Qorqodyanın «1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi» (İrəvan, 1932, erməni dilində), O.Yeğiazaryanın «Əzizbəyov rayonunun mədəniyyət abidələri» (İrəvan, 1955, erməni dilində), K.M.Avetisyanın «Coğrafi adlar lüğəti» (İrəvan, 1969, erməni dilində), T.X.Hakopyan, St.T. Məlik-Baxşyan və O.X.Barseğyanın «Eıməni̇stan və ətraf vilayətlərin toponimlər lüğəti» (I c., İrəvan, 1986, erməni dilində) və s. əsərləri qeyd etmək olar.

«Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası» (Bakı, 1995) əsəri də ərazinin toponimlərinin öyrənilməsində əsas mənbələrdən biridir.

İndiki Ermənistan ərazisindəki toponimlərin tədqiqi sistemli şəkildə, XIX əsrdən başlayır. Ərazinin türk mənşəli toponimlərinin ilk izahına İ.Şopenin yuxarıda göstərilən əsərində rast gəlirik. Bu əsərdə əksini tapan indiki Ermənistanın ərazisindəki toponimlərin, demək olar ki, hamısı türk mənşəlidir. O, bu toponimlərin semantikası ilə bağlı etimoloji təhlil aparmamış, həmin toponimləri rus dilinə tərcümə edərək izah etmişdir. İ.Şopen Qərbi Azərbaycanın toponimlərinin izahında xalq etimologiyasına, təsviri izahlara üstünlük vermiş, elmi faktlara istinad etməmişdir. Bu baxımdan ərazidəki Qanlı Allahverdi, Gümüşlü, Kömürlü dağ, Qarasu, Axuryan çayı, Erivan//Эриван (İrəvan-İ.B.), Oxçaberd, Baş Abaran, Bicni və s. toponimləri düzgün izah etməmişdir (386, s.247-318).

1881-ci ildə Tiflisdə Qafqaz Tədris Dairəsi rəisinin sərəncamı ilə «Сборник материалов для описания местностей и племен Кавказа» (СМОМПТК) adlı jurnalın nəşrinə başlanır. Jurnalın səhifələrində həm də Qərbi Azərbaycanın türk mənşəli toponimləri yeri gəldikcə izah edilmiş, müəyyən toponimlərin hətta etimologiyası verilmişdir. Jurnalın 40-cı cildində (Tiflis, 1909) K.F.Qanın «Опыт объяснения Кавказских географических названий» əsəri çap olunmuşdur. Əsərdə Qafqazın 1991 coğrafi adının izahı verilmişdir. Burada indiki Ermənistan ərazisindəki 110 türk mənşəli toponimin (Abaran, Hamamlı, Artik, Basarkeçər, Gümrü, Dəmirçilər, Koylasar, Artız, Herher, Kotanlı, Kərkibaş və s.) izahı (əksəriyyəti ehtimal və təsviridir) öz əksini tapmışdır. Müəllif bu toponimlərin izahında heç bir elmi faktlara söykənınir.

İndiki Ermənistan ərazisindəki türk mənşəli toponimlərin izahına Avropa tədqiqatçıları da diqqət yetirmişlər. Bu baxımdan H.Hübşmanın 1904 - cü ildə Strassburqda alman dilində çap olunmuş «Qədim erməni coğrafi adları» (H.Hübschman. Die altarmenischen ortsnamen, Strassburg, 1904) əsərinin adını çəkmək olar. Əsərdə indiki Ermənistan ərazisində yerləşən toponimlərdən başqa, Azərbaycanın qədim və tarixi torpaqları olan, bu gün Azərbaycan Respublikasının inzibati ərazisinə daxil olan Naxçıvan, Əlincə, Gəncə, Bərdə, Şərur və s. toponimlərdən Ermənistan toponimləri kimi bəhs edilmişdir ki, bu da tamamilə səhvdir.

H.Hübşman həmin əsərində indiki Ermənistan ərazisində yerləşən Quqark, Abaran, Qafan, Sisyan, Aqarak, İrəvan və b. toponimlərin etimologiyasını verrnəyə çalışmışdırr. Bu toponimlər türk mənşəli olmalarına baxmayaraq, H.Hübşman həmin coğrafi adları ya fars mənşəli, ya da erməni mənşəli hesab etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq erməni alimləri də ərazinin coğrafi adlarını əks etdirən toponimik lüğətlər tərtib etmişlər. Nşana Çivanyanın «Erməni şəxs adları da əlavə olunmuş tarixi, coğrafi və mifoloji adlar lüğəti» (Konstantinopol, 1879; 427, s.VII), H.S.Yefrikyanın bilavasitə indiki Ermənistanın toponimlərindən bəhs edən ilk lüğət bu qəbildəndir. Həmin lüğət «İllüstrasiyalı coğrafi adlar lüğəti» (Vyana, 1900, qədim erməni dilində) adlanır və A-I hərflərini əhatə edir.

Hr.Kapansyan 1940-cı ildə «Историко-лингвистическое значение топонимики древней Армении» adlı əsər yazmışdır. O, qədim yazılı mənbələrdə (Urartu daş kitabələrində, eləcə də başqa erməni yazılı mənbələrində) öz əksini tapan toponimləri tarixi-linqvistik aspektdə izah etmişdir. Hr.Kapansyan əsərində indiki Ermənistan ərazisində tarixən mövcud olmuş və Urartu daş kitabələrində qeydə alınmış Eriaxi (Gümrü rayonu ərazisində), Etiuni (Göyçə gölü ətrafında), Velikuni//Velikuxi (indiki Kamo rayonu ərazisində), Quqark, Aqarak, Əştərak və s. türk mənşəli toponimləri araşdırmışdır (318, s. 6-23,62-63, 80-82).

1986-cı ildə İrəvanda erməni dilində T.X.Hakopyan, St.T.Məlik-Baxşyan və O.X.Barseğyanın müəllifliyi ilə «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» çap edilib. Bu lüğətin 4 cilddən ibarət olması planlaşdırılıb. İndiyə kimi onun yalnız I cildini əldə etmişik. Həmin lüğət A-D (erməni əlifbasında əsasən) hərflərini əhatə edir. Lüğətdə indiki Ermənistan ərazisində yerləşən toponimlərlə yanaşı, Gürcüstan, İran, Türkiyə, Azərbaycanın da toponimləri verilir. Məhz lüğətin «Ermənistan və **ətraf vilayətlərin** (kursiv mənimdir - İ.B.) toponimlər lüğəti» adlarıdınlması ermənilərin İran, Türkiyə, Gürcüstan, o cümlədən Azərbaycana qarşı torpaq iddialarında olduğunu göstərir. Əsərdə «ətraf vilayətlər» adı altında «Böyük Ermənistan» iddiaları ilə yaşayan müəlliflər Azərbaycanın Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Qubadlı, Ağdam, Füzuli, Xanlar, Gəncə, Qazax, Tovuz, Naxçıvan, Şəmkir, Zəngilan və s. rayonlarının toponimlərini verirlər ki, bu da beynəlxalq normalara zidd olmaqla yanaşı, tarixi həqiqətlərin təhrifidir.

Lüğətdə indi Ermənistan adlanan Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin etimoloji təhlilləri bilərəkdən səhv izah edilmiş, tarixi faktlar saxtalaşdırılmışdır. Məhz bunun nəticəsidir ki, Axtala, Abaran, Barana və b. toponimlər (427 s. 114, 307-308, 617-618) elmi baxımdan düzgün izah edilməmiş, erməni mənşəli toponim kimi verilmişdir.

1990-cı ildən Azərbaycan tədqiqatçıları indiki Ermənistanın türk mənşəli toponimlərinin tədqiqinə xüsusi diqqət göstərmişlər. 1995-cı ildə S.Mirmahmudovanın «Ermənistanda türk mənşəli yer adları» lüğəti nəşr edilmişdir. Müəllif indiki Ermənistan ərazisindəki 535 türk mənşəli toponimin lüğətini vermişdir. Müəllif əsərdə təsvirçilikdən qaça bilməmiş, bəzi türk mənşəli toponimlərdəki fərqləndirici əlamət bildirən sözləri (yuxarı, aşağı, böyük kiçik və s.) erməni dilində işlədilən formada (Verin Şorça, Nerkin Gödəkli, Pokr Ayrum, Ağcaqala Nerkin, Axta Nerkin və s.) vermişdir.

Ə.Rüstəmov Zəngəzur bölgəsində yerləşən Qafan, Gorus və Sisyan rayonlarının toponimlərini tədqiq etmiş və 1990-cı ildə «Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonradan müəllif həmin tədqiqatı əsasında «Qədim Oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları» əsərini çap etdirmişdir (231).

Q.Məşədiyev 1990-cı ildə «Zaqafqaziyanın Azərbaycan toponimləri» əsərini yazmış (Bakı, 1990) və 1991-ci ildə «Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsində (СМОМПК) qeydə alınmış Azərbaycan (türk) mənşəli toponimlərin tarixi-linqvistik təhlili» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Q.Məşədiyev bu əsərlərində Cənubi Qafqazın türk mənşəli toponimləri ilə yanaşı, СМОМПТК-da qeyd olunan indiki Ermənistan adlanan ərazinin türk mənşəli toponimlərini də (Gorus, Çəpni, Gözəldərə, Dərələgöz, Qəmərli, Çanaxçı) tədqiqata cəlb etmişdir. Bundan başqa o, əsərinin sonunda Azərbaycan, Gürcüstan və indiki Ermənistan ərazilərindəki türk mənşəli paralel toponimik adların qısa lüğətini vermişdir (204, s. 127-130; 201 s.202-207).

Görkəmli coğrafiyaçı, akademik B.Budaqovun yaradıcıhğında indiki Ermənistanın toponimlərinin tədqiqi əsas yerlərdən birini tutur və bununla bağlı «Elim, obam mənim» (Bakı, 1984), «Çobankərə eli» (Bakı, 1996) əsərlərini yazmışdır. Görkəmli alimin «Türk uluslarının yer yaddaşı»

(Bakı, 1994) əsərinin bölmələrinin biri «Ermənistanın türk toponimləri» (59, s. 158-176) adlanır. Burada indiki Ermənistanın türk mənşəli toponimlərindən bəhs edilir. Akad. B.Budaqov prof. Q.Qeybullayevlə birlikdə «Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti» (Bakı, 1998) əsərini yazmışdır. Bu əsərin Azərbaycan toponimiyasında Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin öyrənilməsində xüsusi yeri vardır.

Qərbi Azərbaycanın toponimlərinin öyrənilməsində Q.Qeybullayevin də xüsusi əməyi vardır. O, indiki Ermənistan toponimiyası ilə bağlı «Qədim türklər və Ermənistan» (Bakı, 1992) əsərini yazmışdır.

Q.Qeybullayev «Qədim türklər və Ermənistan» əsərinin II fəslini («Ermənistanda qədim türk mənşəli toponimlər») Qərbi Azərbaycanın qədim türk mənşəli toponimlərinə həsr etmişdir (169, s. 35-71). Bununla yanaşı, o, indiki Ermənistanın köklü sakinlərinin türklər olduğunu və burada tarixən kimmer, sak, quqark, pasian, kəngər, bulqar, aran, katak, şirak, sadak, gorus, cinli, peçeneq, xəzər, oğuz kimi qədim türklərin yaşadığını təkzibedilməz tarixi faktlar və toponimik materiallar əsasında izah edir(169,s. 72-130).

A.Bayramov indiki Ermənistanın Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin toponimlərini araşdırmış və 1995-ci ildə «Ermənistanın Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin türk toponimləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonradan o, namizədlik dissertasiyasını 1996-cı ildə «Qədim oğuz ellərinin - Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri, Sumqayıt, 1996) adında kitab nəşr etdirmişdir.

İndiki Ermənistanın türk mənşəli toponimlərinin araşdınlması H.Mirzəyevin tədqiqatlannda xüsusi yer tutur. O, aşıq poeziyasında qorunub saxlanılan Qərbi Azərbaycanın türk mənşəli toponimlərini tədqiq edən ilk dilçi alimdir. Təkcə bir faktı qeyd edək ki, H.Mirzəyev 1994-2002-ci illərdə indiki Ermənistanın toponimləri ilə bağlı ciddi elmi əhəmiyyət kəsb edən 80-dən çox məqalə çap etdirmişdir. İndiki Ermənistanın türk mənşəli toponimləri əsasında «Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz» (Bakı, 1997) əsərinin «İzahlar və şərhlər» adlı V fəslində bəhs edir (211, s. 174-257). Bu əsərdə müəllif Qədim oğuz yurdu olan **Keşişkənd** (Yeğeqnadzor), **Paşalı** (Əzizbəyov, Vayk) rayonlarının toponimlərini araşdırmış, onları etimoloji baxımdan izah etmişdir. Bu baxımdan Təhlə, Qarqar, Gədikvəng, Şadıvəng, Alxanpəyəsi, Xalaclar yurdu, Qoşqar, Keti, Murğuz, Herher, Hors, Çivə, Keşişkənd, Sallı, Dərələyəz və s. toponimlərinin izahı uğurludur və xüsusi elmi əhəmiyyət kəsb edir.

Yuxarıda dediklərimizdən aydın olur ki, yazılan məqalələr, kitablar, monoqrafıyalar, müdafiə edilən namizədlik dissertasiyaları Qərbi Azərbaycanın türk mənşəli toponimlərini bütövlükdə əhatə etmir, ərazinin toponimiyası haqqında tam təsəvvür yaratmır. Həm də Qərbi Azərbaycanın oykonim, oronim və hidronimləri, onların yaranma yolları xüsusi tədqiqat obyekti olmamış, onlarda «mühafizə edilmiş leksik və leksik-semantik elementlər» (T.Əhmədov) sistemli şəkildə araşdırılmamışdır. Digər tərəfdən, indiyə qədər aparılan tədqiqatlarda, əsasən, makrotoponimlərdən bəhs edilmişdir. Biz makrotoponimlərlə yanaşı, mikrotoponimləri, burada yaşayan Azərbaycan türklərinin tarixini, yaşayış tərzini bilavasitə özündə əks etdirən urbonimləri, məscid, körpü, qala adlarını da tədqiqata cəlb etmişik.

Qərbi Azərbaycanın türk mənşəli toponimləri tarixin yalddaşına çevrilib, mənəvi soyqırımına məruz qalıb. Əsərdə 29,8 min kv.km ərazini əhatə edən indiki Ermənistanın türk mənşəli mikro və makro toponimləri tarix, coğrafiya və dilçilik sintezində ilk dəfə olaraq tədqiqata cəlb edilir. Eyni zamanda hər bir toponimin coğrafi mövqeyi, tarixi mənbələrdə qeyd edilən adları, toponimlərin müxtəlif fonetik formaları göstərilməklə yanaşı, yaşayış məntəqələrinin taleyi, əhalinin etnik tərkibi tarixi faktlar və statistik rəqəmlərlə verilir. Azərbaycan türklərinin deportasiyası və ermənilərin bu ərazilərə, hansı kəndə nə vaxt köçürülməsi, əsasən, erməni mənbələrinə istinad edilərək şərh olunur.

Tədqiqat prosesində ərazinin türk mənşəli toponimlərinin bir qisminin fonetik və morfoloji dəyişikliyə uğradığı müəyyənləşdirilmiş, onların dil mənsubiyyətinə aydınlıq gətirilmiş, tarixən bu ərazinin toponimlərinin 95%inin türk mənşəli olması elmi əsaslarla izah edilmişdir.

Əsərdə ərazinin türk mənşəli oykonimlərinin məna növləri (antropooykonim, etnooykonim, orooykonim, hidrooykonim, zoooykonim, fitooykonim), oronimlər, hidronimlər və onların quruluşu (sadə, düzəltmə, mürəkkəb) göstərilməklə sistemli şəkildə araşdırılır.

İndiki Ermənistan ərazisi XVIII əsrdə İrəvan xanlığının Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Talin, Seyidli və Axsaqlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək, Göyçə mahallarının,

Naxçıvan xanlığının Dərələyəz mahalının, XIX əsrin 30 - cu illərindən XX əsrin 30 - cu illərinə qədər İrəvan quberniyasının Yeni Bayazid, Eçmiədzin, İrəvan, Şərur-Dərələyəz, Aleksandropol (Gümrü - İ.B.) qəzalarının, Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur, Qazax qəzalarının, Tiflis quberniyasının Loru-Pəmbək qəzasının inzibati ərazi bölgüsünə daxil olmuşdur. 1920-ci il noyabrın 29-da indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra Ermənistan Sovet Şuralar Cəmiyyəti Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyəti 1929 - cu il iyulun 12-də «Ermənistan Sovet Şuralar Cəmiyyəti territoriyasını (ərazisini - İ.B.) rayonlaşdırmaq haqqında» qərar qəbul etmişdir. Qərara əsasən rayon inzibati ərazi vahidi yaradılmışdır. Əsərdə toponimin XIX əsrdə hansı inzibati ərazi vahidinə, sovet hakimiyyəti dövründə isə hansı inzibati ərazi bölgüsünə daxil olduğu göstərilir. Məsələn, Toxluca-İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd.

İndiki Ermənistan ərazisindəki türk mənşəli toponimləri ilk variantlar əsasında, tarixilik baxımından araşdırılması, dilçilik aspektində təhlil edilməsi tədqiqatın əsas elmi yeniliyidir. Bunların hamısı Qərbi Azərbaycanda tarixən yaşamış Azərbaycan türklərinin «etnogenezinə, tarixinə, sosial-məişətinə və məskunlaşdığı coğrafi əraziyə dair mühüm və orijinal mülahizələr» (205, s. 11) söyləməyə imkan verir.

Qərbi Azərbaycanın paralel toponimləri geniş miqyasda tədqiqata cəlb edilir. Ərazinin paralel toponimlərini araşdırmaqda əsas məqsəd onların həm yayılma, həm də komponentləri arasında paralellik müşahidə edilən toponimik vahidlərin ümumi areal xüsusiyyətlərini ortaya çıxarmaqdan ibarətdir (177 a, s.l).

Qərbi Azərbaycan toponimlərinin öyrənilməsinin xüsusi nəzəri və praktiki əhəmiyyəti vardır. Bu toponimlər yerli xalqın - Azərbaycan türklərinin tarixini, türk tayfalarının adını **(quqark, gorus, sak, aynın, qıpçaq, qaraqoyunlu, şirak, peçenek, axta, kəvər və** s.) əks etdirir və tədqiqat nəticəsində aydın olur ki, ərazinin toponimləri həm də qədim türk sözləri **(balıq, yazı, art, bək, kəpəz** və s.), Azərbaycan dili ilə bağlı coğrafi terminlər **(dağ, dərə, düz, təpə, tap, taxt, yal, nüvək, ova, gədik** və s.) əsasında formalaşmışdır. Bütün bunlar Qərbi Azərbaycan toponimlərinin tarixi coğrafiyasının öyrənilməsində xüsusi rol oynayır. Bu əsər Azərbaycan toponimlərinin hərtərəfli öyrənilməsi üçün geniş imkanlar yaradır. Eyni zamanda, toponimiya lüğətlərinin, izahlı onomastik lüğətin yazılmasında istifadə edilə bilər.

Azərbaycan toponimlərinin paralellərinin, türk dillərinin areal toponimiyasının öyrənilməsində də əsərin xüsusi əhəmiyyəti vardır. Əsər yazılarkən türk mənşəli toponimlərin düzgün izahını vermək üçün müxtəlif üsullardan istifadə edilmişdir:

1. Müxtəlif dilli - Azərbaycan, erməni və rus dilli mənbələrdən istifadə edərkən Azərbaycan və erməni mənbələrinə üstünlük vermək;

2. Hər hansı bir mənbədən istifadə edərkən ilk növbədə həmin əsərin yaranma dövrünü, müəllifin mövqeyini və əsərin xarakterini əsaslı faktlarla müəyyənləşdirmək;

3. İstifadə olunan mənbələrin tarixi dövrünü və gerçəkliyini nəzərə almaq;

4. Ərazinin türk mənşəli toponimlərinin izahında diaxron və sinxron tədqiqat üsullarından istifadə etmək;

5. Müəyyən tarixi dövrlər ərzində fonetik və morfoloji dəyişikliyə uğrayan toponimlərin tarixi-linqvistik təhliləsasında ilkin variantını bərpa etmək.

Nəticə olaraq qeyd etmək istərdik ki, Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin öyrənməsi oxucuda Azərbaycan toponimlər sistemi, onların əsas qanunauyğunluqlan, prinsipləri, formalaşma yolları, yaranma səbəbləri, struktur tipləri, semantik növləri, oykonim, oronim və hidronimlər arasındakı əlaqə, xalqımızın etnoqrafıyası, milli təfəkkürü, tarixi coğrafiyası və s. bu kimi problemlərlə bağlı tam elmi təsəvvür formalaşdırır. Eyni zamanda, türk tayfalarının arealı və məskunlaşması, Azərbaycan dilinin qədim leksik-semantik və qrammatik xüsusiyyətləri haqqında müəyyən elmi və obyektiv nəticələrə gəlməyə kömək edir. Ən əsası isə indiki Ermənistan ərazisindəki toponimlərin tədqiqi aydın şəkildə sübut edir ki, indi Ermənistan adlanan Qərbi Azərbaycan, Azərbaycanın tarixi torpaqları olmaqla yanaşı, Azərbaycan türklərinin tarixi etnik torpaqları, Ata yurdudur.

# A

**Abana -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Ağavnadzor kəndindən 14 km şərqdə yerləşirdi. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s. 58) qeyd edilmişdir. Burada 1831-ci ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s. 160). 1840-50-ci illərdə kənd ləğv edilmişdir. İndi ölü kənddir. Toponim e.ə. qarqarlarla birlikdə Qafqaza-Albaniyaya gələn abant (t samiti sonradan ixtisar edilmişdir) etnonimi (287, s.78) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Abaran -** İrəvan xanlığında mahal. İndi Ermənistanda inzibati rayon. Rayonun ərazisi I-V əsrlərdə Ayrarat quberniyasının Niq qəzasının tərkibində olmuşdur (427 s.307-308). Sonra ərəblər tərəfindən işğal edilmişdir. XI-XIII əsrlərdə səlcuqların, XIV-XV əsrlərdə monqolların tabeliyinə keçmişdir. XVI əsrdə rayonunun ərazisi İrəvan qəzasının Abaran nahiyyəsinin tərkibində olmuşdur (143 s. 173-174). XVI əsrdən XIX əsrin 30 - cu illərinə kimi İrəvan xanlığının mahallarından biri (Abaran mahalı) olmuşdur. 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Abaran adlı nahiyyənin (143, s. 54, 109) və Abaran nahiyəsində Abaran kəndinin (143, s. 109) olduğu qeyd edilir.

XIX əsrin 40-cı illərindən 1920-ci ilə kimi İrəvan quberniyasının Eçmiədzin qəzasının tərkibinə daxil olmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra, 1920-1930 - cu illərdə Ermənistan SSR Eçmiədzin qəzasının inzibati ərazi bölgüsünə Baş Abaran adı ilə daxil edilmişdir. 9 sentyabr 1930 - cu ildə Abaran adında rayon yaradılmışdır. Erməni mənbələrində Abaran toponiminin erməni dilində «imarət, saray» mənasında işlənən aparank sözündən əmələ gəldiyi göstərilir (427, s.308). Bu, həqiqətdən, elmi izahdan uzaqdır. Toponim apar türk etnoniminə (299, s. 47; 287, s. 103,197) cəmlik bildirən - an şəkilçisinin qoşulması ilə əmələ gəlib «aparların (avarlar) yaşadığı yer» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erməni mənbələrində Aparan formasında qeyd edilir.

**Abaran çayı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda çay. Uzunluğu 98 km-dir. Hidronim apar (avar) türk tayfasının adını (299, s.47) əks etdirir. Etnohidronimdir.

**Abasadzor -** Quqark ölkəsinin Çorapor mahalında, indiki Karvansaray (İcevan) ərazəsində kənd. İlk dəfə K.Qandzaketsinin (XIII əsr) əsərində adı çəkilir (427, s. 3). Toponim Abas şəxs adı əsasında əmələ gəlmişdir. Toponimin ikinci komponenti «dzor», türk dilində «dərə», «yarğan» mənasında işlənən «car» sözünün (339, s. 178-179) erməni dilində işlənən formasıdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Abdalağalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir. Erməni mənbələrində Avdalağalu formasında qeyd edilir (415, s.66). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.l). Ermənilərlə yanaşı 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.67). XX əsrin əvvəllərində ermənilərin təzyiqi nəticəsində azərbaycanlılar kəndi tərk etmişlər.

Toponim türkmənşəli abdal etnonimi (355, s. 165) əsasında əmələ gələn abdalağalı tayfasının adından yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vağaşen qoyulmuşdur.

**Abdulabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində Abdulavad formasında (348, s. 1) qeyd edilmişdir. Kənd XX əsrin əvvəllərində ləğv edilmişdir (415, s. 62-63).

Toponim Abdul şəxs adı ilə «yaşayış məntəqəsi» mənasında işlənən abad sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Abdulkənd -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. XX əsrin əvvəllərində ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gələn mürəkkəb toponimdir.

**Abbas biçənək -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonundakı Əmağu kəndində dağ.

Oronim Abbas şəxs adı ilə beçenek (peçeneq) türk tayfasının adı (399, s. 57-58) əsasında əmələ gəlmişdir. Etnooronimdir.

**Abbas dərəsi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd yeri. İlk dəfə XIII əsrdə Kirakos Gəncəli tərəfindən xatırlanır (85, s.132).

Toponim şəxs adı əsasında düzəlib, «Abbasa məxsus dərə (kənd)» mənasını bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Abbas dərəsi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 16 km şimal-şərqdə yerləşirdi (85, s. 163). XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim şəxs adı ilə relyef bildirən **dərə** sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Abbas dərəsi -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Azərbaycanlılar yaşamışdır. İlk dəfə adı XIII əsrdə Kirakos Gəncəli tərəfindən çəkilir.

Toponim şəxs adına relyef bildirən dərə sözünün birləşməsi əsasında əmələ gəlmişdir. II növ təyini söz birləşməsi əsasında yaranan mürəkkəb quruluşlu antropotoponimdir.

**Abbaslar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd olmuşdur. XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir (85, s.163). İndi ölü kənddir. Toponim abbaslar etnonimi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Abgəz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd. Rayondakı Aldərə kəndindən 14 km şimalda yerləşirdi. 30 - cu illərdə əhalisi rayon mərkəzinə və rayonun Hamravar kəndinə köçürülərək kənd ləğv edilmişdir. İndi ölü kənddir (427, s. 5, 10).

Toponim fars dilində «su» mənasında işlənən ab sözü ilə Azərbaycan dilində «aşırım», «dağ qılıcında nazik yer», «gəzdək, dağ çökəyi, dağın təpəsindəki çökək» mənasında işlənən **gəz** sözünün (339, s.167) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Abdullar -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonu ərazisində kənd. Rayondakı Noradüz Kəndindən 4-5 km şimal-qərbdə, Göyçə gölünün sahilində yerləşirdi (427, s.14). İndi ölü kənddir. Toponim abdullar nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Avan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-qərbdə, Alagöz (Ələyəz) dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s. 89) qeyd edilmişdir. 1728-ci ildə tərtib edilmiş həmin dəftərdə göstərilir ki, əhalisi Qaracalar aşirətindəndir (tayfasındandır - İ.B.) (143, s.89). Qaraçalar türk tayfalarından biridir.

Kənddə 1831-ci ildə 104 nəfər, 1873 - cü ildə 321 nəfər, 1886-cı ildə 368 nəfər, 1897-ci ildə 465 nəfər, 1908-ci ildə 300 nəfər, 1914 - cü ildə 301 nəfər, 1916-cı ildə 556 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1986-cı ildə erməni dilində çap edilmiş «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə 1831-1916-cı illərdə burada ermənilərin yaşadığı göstərilir və azərbaycanlılar ermənilər kimi verilir (427, s.356). 1918-ci ildə Kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1916-cı illərdə buraya Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir.

Toponim urartu dilində «ölkə» mənasında işlənən ebani (ebani) sözü (317, s. 70; 339, s. 37) əsasında əmələ gəlmişdir. Sadə quruluşlu toponimdir.

**Avdalar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə, İrəvan şəhərindən 11-12 km şimalda yerləşir. Kəndin digər adı «Abdalar»dır (415, s. 44). Kənddə 1873 - cü ildə 59 nəfər, 1886-cı ildə 112 nəfər, 1897-ci ildə 115 nəfər, 1904 - cü ildə 131 nəfər, 1914 - cü ildə 194 nəfər, 1916-cı ildə 192 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, 1918-19 - cu illərdə Türkiyənin Van əyalətindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Ermənilərlə yanaşı burada 1922-ci ildə 29 nəfər, 1926-cı ildə 7 nəfər, 1931-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 45, 125). 1948-49 - cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. Toponim abdal türk tayfasının adına (355, s.165) cəmlik bildirən -ar şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. «Abdallara, abdal tayfalarına mənsub kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Hatsavan (çörək qəsəbəsi) qoyulmuşdur.

**Avdıbəy** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 20 km məsafədə yerləşir. Burada 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 40-41). XX əsrin əvvəllərində (1905-1906) onlar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Avdıbəy şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 4.V.1939 - cu il fərmanı ilə adı dəyişdirilib Tsaxkaber qoyulmuşdur.

**Avsarlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 17 km məsafədə, Oxçu çayının sahilində, dağlıq ərazidə yerləşmişdir. Kəndin digər adı «Əvsərli»dir.

Kənddə 1897-ci ildə 92 nəfər, 1926-cı ildə 76 nəfər (415, s.54-55), 1959 - cu ildə 101 nəfər azərbaycanlı yaşamışdır. 1960-cı ildə kənd ləğv edilmişdir.

Toponim avşar (avsar, Azərbaycan dilində ş~s səs əvəzlənməsi qanunauyğundur) türk tayfasının adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlmişdir. «Əfşar» (avşar) tayfasına mənsub olan «yer» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Avtandil talası** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Avşar** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə, Vedi çayından ayrılan arxın yanında yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftərin»də Avşar kəndi (143, s.172), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftər»ində Əfşaryerli formasında (143, s.51), Qafqazın 5 verstlik xəritəsində Avşar kimi (348, s.3) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 80, 1873 - cü ildə 886, 1886-cı ildə 1059, 1897-ci ildə 1164, 1904 - cü ildə 1094, 1914 - cü ildə 1203, 1916-cı ildə 1160 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılardan sağ qalanları doğma kəndlərinə qayıtmışlar. 1920-ci ildən sonra kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşamışdır. Burada 1922-ci ildə 420 nəfər azərbaycanlı 322 erməni, 1926-cı ildə 533 nəfər azərbaycanlı, 317 erməni 1931-ci ildə 608 nəfər azərbaycanlı, 327 erməni yaşamışdır (415, s.85, 155). 1930 - cu ildən Qaranlıq (Martuni), Sisyan, Sevan, Basarkeçər (Vardenis) rayonlarından bura xeyli sayda ermənilər köçürülüb yerləşdirilmişdir (427, s. 366). Z.Qorqodyanın «1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi» (İrəvan, 1932) kitabında göstərilir ki, 1831-1916-cı illərə kimi Avşar kəndində yalnız azərbaycanlılar yaşamışdır (415, s. 154-155). Lakin «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» əsərində bu fakt təhrif edilərək kənddə azərbaycanlıların yaşadığı göstərilmir. Həmin kitabda 1831-1916-cı illərdə kənddə yalnız ermənilərin yaşadığı qeyd edilir (427, s.366). Azərbaycanlılar 1948-1953 - cü illərdə SSRİ Nazirlər Sovetinin qərarlarına əsasən zorla Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim «çevik və ovçuluğu sevən» mənasını verən (228, s.40) avşar oğuz tayfasının (399, s.56) adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Ağ qaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ.

Oronim qədim türk dilində «hündür, uca» mənasında işlənən **ağ** sözü ilə **qaya** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağ tala -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican rayonu ərazisində kənd olmuşdur. Azərbaycanlılar yaşamışdır. 40-cı illərin axırlarında kənd ləğv edilmişdir.

Toponim qədim türk dilində «kiçik, kiçicik, xırda, balaca» mənasında işlənən **ağ** sözü ilə (359, s.96) «meşə ortasında açıqlıq» mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlib, «çox da böyük olmayan, ərazicə kiçik tala» mənasını bildirir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağağa -** Yelezavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Şıxlar Kəndinin yaxınlığında yerləşirdi. Burada 1897-ci ildə 19 nəfər

azərbaycanlı yaşamışdır (415, s. 76-77). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xarabalığa çevrilmiş kənddir.

Toponim «hörmətli, ağsaqqal» mənasında işlənən ağ sözü ilə Ağa şəxs adının birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağbulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda bulaq. Suyu içməyə yararlı olduğu üçün Ağbulaq adlandırılmışdır.

**Ağbulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 15 km qərbdə, Bazarçayın sağ qolu olan Kəşin çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində «Ağbulaq qışlağı» formasında (348, s.4) qeyd edilmişdir. Kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 66 nəfər, 1931-ci ildə 88 nəfər (415, s.28-29, 112-113), 1939 - cu ildə 146 nəfər, 1959 - cu ildə 187 nəfər, 1970-ci ildə 335 nəfər (427, s.166) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının sonlarında Ermənistan dövləti tərəfindən Kəndin sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «keyfiyyətli, içməyə yararlı» mənasında işlənən ağ sözü ilə bulaq hidroterminindən əmələ gəlmişdir. Kəndin adı ərazidəki eyni adlı bulağın adından götürülmüşdür. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağbulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edilmişdir. Toponimin Azərbaycan dilində «keyfiyyətli, içməyə yararlı» mənasında işlənən ağ sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Lusaxbyur qoyulmuşdur.

**Ağbulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.119), Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 136, 1873 - cü ildə 422, 1886-cı ildə 575, 1908-ci ildə 940, 1914 - cü ildə 982, 1919 - cu ildə 1329 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.30-31,114-115). 1919 - cu ilin fevral-mart aylarında Kəndin əhalisi ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma yurdlarına qayıtmışlar.

Kənddə 1922-ci ildə 1053, 1926-cı ildə 1113, 1931-ci ildə 1392 (415, 31, 115), 1939 - cu ildə 1504, 1959 - cu ildə 1141, 1970-ci ildə 1563, 1979 - cu ildə 1450 nəfər (427, s.166) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın 24-dən 28-dək Ermənistan dövləti tərəfindən gecə saat 1-3 radələrində kəndin əhalisi vəhşicəsinə tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim «içməyə yararlı, keyfiyyətli su» mənasında işlənən **ağ** sözü ilə bulaq hidroniminin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan Respublikası prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Axperek qoyulmuşdur.

**Ağbulaq -** Qafan rayonunda bulaq. «Keyfiyyətli, içməyə yararlı» mənasında işlənən **ağ** sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Suyu içməyə yararlı olduğu üçün Ağbulaq adlandırılmışdır.

**Ağbulaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Kənd Vedi çayının sahilində yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.4).

Kənddə 1897-ci ildə 95 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovularaq kənd ləğv edilmişdir. Toponim «keyfiyyətli» mənasında işlənən ağ və bulaq sözlərinin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağdağ -** İrəvan xanlığının Göyçə mahalında, indi Kəvər (Kamo) rayonunda dağ. Oronim qədim Azərbaycan dilində «uca, hündür» mənasını bildirən ağ sözü ilə (158, s.36, 134) «düzənlikdən ətəkləri, yamacları və zirvəsi ilə seçilən, dik vəziyyətdə ucalmış, 500 m-dən artıq olan yüksəklik» mənasında işlənən dağ sözünün (196, s.37) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir. Adı dəyişdirilib Apitakasar qoyulmuşdur.

**Ağdağ -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda dağ. «Hündür, uca» mənasında işlənən ağ sözü ilə dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Oronimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağadədə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda pir.

**Ağadi -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda dərə. Ağstafa çayının sahilində yerləşir.

**Ağakiçik -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə, Mastara çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.3) qeyd edilmişdir. Kəndin adı erməni mənbələrində, əsasən, Ahaqçi kimi qeyd edilir (415, s.34; 427, s.147). Kənddə 1873 - cü ildə 160 nəfər, 1886-cı ildə 257 nəfər, 1897-ci ildə 301 nəfər, 1904 - cü ildə 359 nəfər, 1914 - cü ildə 383 nəfər, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır (415, 34-35, 116-117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq əhalisi - azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş, 1915-1916-cı illərdə Türkiyənin Sasun və Taron vilayətlərindən köçürülən ermənilər 1918-ci ildə burada yerləşdirilmişdir (85, s. 111). İndi ermənilər yaşayır.

Toponim ağa və kiçik sözlərindən əmələ gəlib, «Kiçik ağaya mənsub kənd» mənasında ifadə edir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Zovasar qoyulmuşdur.

**Ağasıbəyli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Nəsil adı əsasında əmələ gələn patronim toponimdir. Sadə quruluşlu toponimdir.

**Ağaplı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Kənd rayon mərkəzindən 23 km şimal-şərqdə yerləşirdi (427, s.160). Qafqazın 5 verstlik xəritəsində (348, s.3) qeyd edilmişdir. Toponim nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimidir. Quruluşca sadə toponimdir.

**Ağbaba -** Qars vilayətinin Qars qəzasında, indiki Ermənistanın şimal-qərbində nahiyə. Amasiya və Qızılqoç rayonlarını əhatə edirdi. Sahəsi 585,9 km$^2$dir. Ağbaba nahiyəsində (fəaliyyət göstərdiyi dövrdə) 8574 nəfər (I.X.1929) adam yaşamışdır ki, bunun da əksəriyyətini (90%ni) azərbaycanlılar təşkil edirdi. 1930 - cu ildə Ağbaba nahiyəsi ləğv edilmiş, onun əsasında Amasiya və Qızılqoç (Qukasyan) rayonları yaradılmışdır.

Toponim ağbaba quş adı əsasında yaranmışdır. Zootoponimdir. Quruluşca sadə toponimdir.

**Ağbaba -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Ağbaba dağının ətəyində, Qarabulaq kəndindən 1 km cənubda yerləşmişdir. İndi xaraba kənddir. Kəndin xarabalıqları qalır.

Toponim ağbaba quş adı əsasında formalaşmışdır. Zootoponimdir. Quruluşca sadə toponimdir.

**Ağbaba -** Qars vilayətinin Qars qəzasında, Ağbaba - Şörəyöl bölgəsində, indi Qızılqoç (Qukasyan) rayonu ərazisində dağ.

**Ağbaş -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda qışlaq. Rayon mərkəzindən 17 km məsafədə yerləşmişdir. 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim ağbaş türk tayfasının (92, s.24) adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Ağvan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 30 km şimalda yerləşir. Erməni mənbələrində alban etnonimi ağvan formasında işlənir. Toponim ağvan (alban) etnonimi əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Ağvəng -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğenadzor) rayonunda qala. Kənddən 1 km şimal-qərbdə yerləşir. Ağvəng burada «kiçik vəng» mənasındadır. «Ağ» sözü qədim türk dilində həm də kiçik mənasında, vəng isə «abidə, möhkəm abidə» mənasında işlənir (211, s.208, 237).

**Ağqaya -** Kiçik Qafqaz sıra dağlarında dağ. Göyçə (Sevan) gölünün şərqində yerləşir. Hündürlüyü 3334 m-dir. Oronim qədim Azərbaycan dilində «uca» mənasında işlənən ağ sözü ilə qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Ağqala -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.5).

Kənddə 1831-ci ildə 39 nəfər, 1873 - cü ildə 192, 1886-cı ildə.253 nəfər, 1897-ci ildə 331, 1904 - cü ildə 424, 1914 - cü ildə 507, 1916-cı ildə 520 nəfər azərbaycanlı yaşamışdır (415, 68-69, 144-145).

1918-ci ildə azərbaycanlılar, ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Azərbaycanlılar kənddən qovulandan sonra buraya Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönmüşdür. Burada 1922-ci ildə 3 nəfər azərbaycanlı, 31 erməni, 1926-cı ildə 76 nəfər azərbaycanlı, 105 erməni, 1931-ci ildə 202 nəfər azərbaycanlı, 111 erməni, 55 kürd (415, s. 69, 145), 1939 - cu ildə 442, 1959 - cu ildə 287, 1970-ci ildə 2200 nəfər (427, s.179) azərbaycanlı və erməni əhalisi yaşamışdır. Sonralar azərbaycanlıları sıxışdırıb çıxarmaq məqsədilə Ağqala kəndi ilə Əyrivəng kəndi birləşdirilmişdir. Kənddə yaşayan azərbaycanlılar da 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulmuş, deportasiya edilmişdir.

Toponim rəng bildirən «ağ» sözü ilə «qala» sözünün birləşməsindən əmələ gəlmişdir. Kənd adını kəndin ərazisindəki albanlara məxsus ağ rəngli qaladan götürmüşdür. Mürəkkəb quruluşlu toponimdir.

Ermənistanın prezidentinin 19.IV.1991-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Berdkunk (Qala yeri) qoyulmuşdur.

**Ağdaban -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonu ərazisində kənd. Bazarçayın sağ sahilində yerləşirdi (427, s.168).

Toponim türk dilində «hündür, uca, yüksək» mənasında işlənən ağ sözü ilə türk dilində «yüksək dağ aşırımı, dağ aşırımı, aşırım, təpə» mənasında işlənən daban sözündən (339, s.168) əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağdağ -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Malışka kəndinin şimal-şərqində yerləşir. Hündürlüyü 1897 m-dir. Oronim qədim türk dilində «uca, hündür» mənasında işlənən **ağ** sözü əsasında əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Ağdamlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.4). 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47). **XX** əsrin əvvəllərində - 1905-1906-cı illərdə ermənilərin təcavüzü nəticəsində azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir.

Toponim rəng bildirən ağ sözü ilə -lar cəm şəkilçisi qəbul etmiş, türk dilində «ev, divar» mənasında işlənən dam sözünün (339, s.170-171) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ağdan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunun Ağdan kəndində çay. Ağstafa çayına tökülür.

**Ağdaş** - Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Axtala və Şamlıq kəndlərinin yaxınlığında yerləşmişdir. Kənd XIX əsrdə dağıdılaraq əhalisi Axtala və Şamlıq kəndlərinə köçürülmüşdür. İndi xaraba kənddir.

Toponim «kiçik, xırda» mənasını ifadə edən **ağ** sözü ilə (359,I(1), s.96) qədim türk dilində «çöl, səhra, açıq yer» mənasında işlənən daş (339, s.539) sözünün birləşməsindən əmələ gəlmişdir və «kiçik açıq yerdə, səhrada olan kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağadədə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda pir. Rayondakı Gülücan kəndinin yaxınlığında yerləşir.

**Ağdərə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayondakı Dərətumb kəndinin yanında, Səlim çayının sağ tərəfində yerləşirdi. 1831-ci ildə 78 nəfər, 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 90-91,160). XIX əsrin sonlarında ləğv edilmişdir.

Toponim qədim türk dilində «kiçik, balaca» mənasında işlənən **ağ** sözü ilə (359, 1(1), s.96) Azərbaycan dilində «iki dağ və ya təpə arasında çuxur», «uzun dərin çuxur» mənasında işlənən **dərə** sözünün birləşməsindən əmələ gəlib «kiçik, balaca dərə yanındakı kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Ağadərəsi -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir. Kəndin adı erməni dilinə kalka edilərək Aqadzor (dzor erməni dilində dərə deməkdir) formasında işlədilir (415,s.44).

Burada ermənilərlə yanaşı 1831-ci ildə 27 nəfər, 1873 - cü ildə 14 nəfər, 1886-cı ildə 15 nəfər, 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 44-45, 124). XX əsrin əvvəllərində, 1905 - 1906-cı illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində «varlı, zadəgan, mülkədar» mənasında işlənən **ağa** və III şəxsin təkinin mənsubiyyət şəkilçisi (-si) qəbul etmiş **dərə** sözlərindən əmələ gəlmişdir. Relyeflə bağlı II növ təyini söz birləşməsi formasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Katnaxpyur (Südlü bulaq) qoyulmuşdur.

**Ağzıbir -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.5).

Kənddə 1831-ci ildə 108 nəfər, 1873 - cü ildə 380 nəfər, 1886-cı ildə 557 nəfər, 1897-ci ildə 696, 1904 - cü ildə 755, 1914 - cü ildə 1068, 1916-cı ildə 917 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,s. 68-69, 144-145). 1918-ci ildə Kəndin əhalisi ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər.

Kənddə 1922-ci ildə 327 nəfər azərbaycanlı yaşamışdır (415, s.145). 1922-26-cı illərdə kənddə ermənilər yerləşdirilmiş və azərbaycanlılar sıxışdırılmışdır. 1926-cı ildə kənddə 165 nəfər azərbaycanlı, 276 erməni, 1931-ci ildə 295 nəfər azərbaycanlı, 365 erməni (415, 69, 145), 1947-ci ildə 600 nəfər azərbaycanlı yaşamışdır. Azərbaycanlılar SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-ci ildə Azərbaycanın Ağdaş rayonuna köçürülmüşdür. O vaxtdan kənddə yalnız ermənilər yaşayır.

Toponim «tək bir çıxacağı olan yer» «kiçik dağ yolu» mənasında işlənən ağzıbir sözü əsasında (359,I(1), s.67; 9, s.39) formalaşmışdır. Kənd adını yerləşdiyi əraziyə görə almışdır.

Toponimin yaranması Göyçə gölünə yalnız quru ilə çıxışı (ağzı) olan yarımada ilə bağlıdır.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Lçap qoyulmuşdur.

**Ağin** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Gümrü şəhərindən 22-23 km cənub-qərbdə, Arpaçayın üstündə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ağit kimi (143,s.l30), Qafqazın 5 verstlik xəritəsində Ağin formasında (348, s.5) qeyd edilmişdir.

Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. XIX əsrin əvvəllərində azərbaycanlılar tarixi torpaqlarından qovulmuş, 1829-30 - cu illərdə Türkiyənin Muş, Alaşkert, Basin vilayətlərindən, 1877-78-cı illərdə Qarsdan ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s.177).

Toponim qədim türk dilində «uca, hündür, böyük» mənasında işlənən **ağ** sözü ilə qədim türk dilində «daxma, koma, mağara» mənasında işlənən **in** sözünün (299, s.209) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 12.X.1961-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ani qoyulmuşdur.

**Ağıllı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda yaylaq. Rayondakı Toxluca kəndinin şimal-şərqində yerləşir. Oronim Azərbaycan dilində «mal-qara, qoyun saxlamaq üçün hasarlanınış yer» mənasında işlənən ağıl sözünə (9, s.45; 339, s.38) -lı

şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Düzəltmə quruluşlu oronimdir.

**Ağyar** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Kəndin ilkin adı Əyar olmuşdur. Rayon mərkəzindən 3 km cənub-şərqdə, Arpaçayın sahilində yerləşir. XIII əsrdə Amağu məbədinin tabeliyində olmuşdur (364, № 736). İlk dəfə XII-XIII əsrlərdə adı çəkilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Buraya ermənilər 1828-29 - cu illərdə İranın Xoy, Salmas və Maku vilayətlərindən köçürülmüşdür (427, s.20). Burada ermənilərlə yanaşı 1831-ci ildə 30 nəfər, 1887-ci ildə 23 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 90-91, 160-161). İndi yalnız ermənilər yaşayır.

Toponim «öz təşkilatı olan və varlılar hesabına kasıblara kömək edən şəhər yoxsullarından ibarət təbəqə» mənasında işlənən əyar sözü (338, s.574) əsasında formalaşmışdır. Nəsil adı bildirir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə dəyişdirilib Aqarakadzor qoyulmuşdur.

**Ağyarğan** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda dağ. Rayondakı Ağxaç Kəndinin şimal-qərbində yerləşir. Hündürlüyü 2528 m-dir. Erməni mənbələrində Ağyorğan formasında qeyd edilir (427, s.242). Oronim Azərbaycan dilində «dayaz, çox da dərin olmayan» mənasında işlənən **ağ** sözü ilə (95, s.269) «ətrafı sıldırımlı iri, uzun dərə» mənasında işlənən yarğan sözünün (10, s.498) birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Ağyoxuş** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indi Basarkeçər (Vardenis) rayonundakı Sultan Əli qışlağı (Canəhməd) kəndində aşırım. Oronim qədim türk dilində «hündür»mənasında işlənən **ağ** sözü ilə «yolun dağa, təpəyə qalxan hissəsi» mənasında işlənən yoxuş sözünün (10, s.561) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Ağyoxuş** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 13-14 km şimal-şərqdə, düzənlikdə yerləşir.

Kənddə 1831-ci ildə 192 nəfər azərbaycanlı yaşamışdır (415, s.110). Lakin sonralar kənddə yaşayanlar haqqında məlumat yoxdur. Yalnız mənbələrdə 1970-ci ildə burada 341 nəfər azərbaycanlının yaşadığı göstərilir (427, s.184). Kəndin sakinləri 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulmuşlar.

Toponim qədim türk dilində «hündür, yuxarı» mənasında işlənən **ağ** sözü ilə (299, s.16) «yolun dağa, təpəyə qalxan hissəsi», «yuxarı qalxan yer» mənasında işlənən yoxuş sözünün (10, s.561) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağqıraq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 55,5 km cənub-şərqdə, Göyçə gölünün sahilində, arx yanında yerləşir. Kəndin qədim adı Ağqıraq olsa da (386, s.595-596;415, s.66; 427, s.180), sonralar erməni mənbələrində Əliqırıq (415,s.66), Əliqrağı, Əliqraq kəndi (427,s.85) kimi sabitləşmişdir. XX əsrin ortalarında kənd Əliqoıx adlandırılmışdır (415, s.66). Qafqazın 5 verstlik xəritəsində Əlikrıx kimi qeyd edilmişdir(348,s.!2). 1897-ci ildə burada ermənilərdən başqa 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67). Sonradan onlar kənddən deportasiya edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra Ağqıraq kəndinə ermənilər 1829-30 - cu illərdə Türkiyənin Alaşkert və Van bölgəsindən köçürülmüş (386, s.595-598; 427, s.345), azərbaycanlılar deportasiya olunmuşdur.

Kəndin ərazisində türklərlə bağlı 89-cu əsrlərə aid tarixi abidələr vardır.

Toponim qədim türk dilində «kiçik, balaca» (359, l(1), s.96), ərazicə çox da geniş olmayan (94, s.68) mənasında işlənən ağ sözü ilə, «sahil» mənasında işlənən qiraq sözü (359, II(2), s.161) əsasında formalaşmışdır. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Astğadzor qoyulmuşdur.

**Ağkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.5). XX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim qədim türk dilində «kiçik» mənasında işlənən **ağ** sözünə (94, s.68) **kənd** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ağkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 17-18 km şimal-şərqdə, Səlim çayının yanında, Arpaçayın sağ sahilində yerləşir. Kənddə 1831-ci ildə 222 nəfər, 1873 - cü ildə 498 nəfər, 1886-cı ildə 546 nəfər, 1897-ci ildə 670 nəfər, 1904 - cü ildə 918 nəfər, 1914 - cü ildə 1010 nəfər, 1916-cı ildə 704 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla kəndi tərk etmişlər. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 106 nəfər azərbaycanlı, 1926-cı ildə 126 nəfər azərbaycanlı, 172 erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 297 erməni (415, s.91, 161), 1939 - cu ildə 621 nəfər azərbaycanlı və erməni (427, 185)yaşamışdır. Göründüyü kimi, ermənilər buraya 1923-25-cı illərdə köçürülmüşdür. Azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «kiçik, balaca» mənasında işlənən **ağ** sözü ilə (359, I (1), s.96) türk dilində «yaşayış məntəqəsi», «şəhər» mənasında işlənən **kənd** sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşllu toponimdir.

Erm.SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə adı dəyişdirilib Ağncazor qoyulmuşdur.

**Ağkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 5-6 km cənubda, Bazarçayın sağ qolu, Sisyan çayının sol qolu olan Taxtakörpü çayının aşağı axarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.5) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. 1828-29- cu illərdə Türkiyənin Xoy və Salmas vilayətlərindən köçürülən ermənilər bu kənddə yerləşdirilmiş (427, s.295) və azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim «kiçik» mənasında işlənən **ağ** sözü ilə (94, s.68) **kənd** coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir. Erm.SSR AS RH-nin 17.IV.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Aşotavan qoyulmuşdur.

**Ağkilsə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 24 km cənub-qərbdə yerləşir. Polad Ayrım kəndinin tərkibində olmuşdur. 1930 - cu ilə kimi Dilican rayonunun ərazi bölgüsünə daxil idi.

Kənddə 1897-ci ildə 115 nəfər, 1904 - cü ildə 130 nəfər, 1919 - cu ildə 151 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1919 - cu ilin mart ayında azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunmuş, soyqırımına məruz qalmışdır. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 132 nəfər, 1926-cı ildə 114 nəfər, 1931-ci ildə 166 nəfər (415, s.31, 115), 1959 - cu ildə 187 nəfər, 1987-ci ildə 70 nəfər azərbaycanlı yaşamışdır (85, s.77). 1988-ci ilin noyabr-dekabr ayında azərbaycanlılar dövlət səviyyəsində deportasiya edilmiş, tarixi-etnik torpaqlarından qovulmuşlar.

Toponim rəng mənasında işlənən **ağ** sözü ilə dini məbəd mənasını bildirən **kilsə** sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı yaxınlıqdakı ağ rəngdə olan kilsə (albanlara məxsus) adından götürülmüşdür.

**Ağkilsə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonun ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 14 km qərbdə, Elpin çayının sol qolu olan Heşin çayının sahilində yerləşirdi.

Kənddə 1873 - cü ildə 65 nəfər, 1886-cı ildə 89 nəfər, 1897-ci ildə 102 nəfər, 1904 - cü ildə 110 nəfər, 1914 - cü ildə 121 nəfər, 1916-cı ildə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönmüş və 1922-ci ildə burada 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.161). 1923-25-cı illərdə 8 nəfər də qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində rəng mənasında işlənən **ağ** sözü ilə dini məbəd mənasında işlənən **kilsə** sözündən əmələ gəlmişdir. Kəndin adı ərazidə albanlara məxsus kilsə adından yaranmışdır. «Ağ rəngdə olan kilsə yanında kənd» mənasını ifadə edir. Mürəkkəb quruluşlu toponimdir.

**Ağkilsə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 11-12 km şərqdə, Qaramasuyu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.5), «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.120) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 263, 1886-cı ildə 321, 1897-ci ildə 389, 1908-ci ildə 173, 1914 - cü ildə 515, 1916-cı ildə 443 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 198, 1926-cı ildə 244, 1931-ci ildə 307 (415, s.27, 111), 1959 - cu ildə 276, 1979 - cu ildə 448 nəfər azərbaycanlı (427, s.39) yaşamışdır. 1988-ci ildə Ermənistan dövləti tərəfindən azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşlar.

Kənddə XI-XIII əsrlərə aid qədim alban kilsəsi vardır. Kənddən 2-3 km yuxarıda köhnə yaşayış sahəsi və qəbirstanlığın qalıqları buranın qədimliyini sübut edir. Bu tarixi abidələrə istihad edib demək olar ki, kənd II-III əsrlərdə salınmışdır.

Kəndin adı buradakı alban kilsəsindən götürülmüşdür. Toponim rəng bildirən **ağ** və dini məbəd mənasında işlənən **kilsə** sözlərindən ibarətdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Azad qoyulmuşdur.

**Ağkilsə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 18 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.5) qeyd edilmişdir. 1937-ci ilə kimi Leninakan rayonunun inzibati ərazi bölgüsünə daxil idi. Kəndin əsas və yerli sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1820-25-cı illərdə Türkiyənin Qars və Basen bölgələrindən köçürülmüşdür (Erməni Sovet Ensiklopediyası, V c., İrəvan, 1980, s.675). 1897-ci ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.40-41). XX əsrin əvvəllərində (1905-1906-cı illərdə) onlar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Kəndin ərazisindəki **ağ** rəngdə olan kilsəyə görə oykonim Ağkilsə adlandırılmışdır. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kraşen qoyulmuşdur.

**Ağkilsə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Rayon mərkəzindən şərqdə, Siqnax dağının ətəyində, Zimmi dərəsində, Vedi çayının sahilində yerləşirdi.

1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Ağcakilsə (143, s.172) formasında, 1728-ci ildə tərtib edilmiş, «İrəvan əyalətinin icmal dəftəri»ndə (s.106) və Qafqazın 5 verstlik xəritəsində (348, s.5) Ağkilsə kimi qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 111, 1886-cı ildə 152, 1897-ci ildə 165, 1904 - cü ildə 563, 1914 - cü ildə 574, 1916-cı ildə 259 nəfər azərbaycanlı yaşamışdır (415, 84-85, 154-155). 1918-20-cı illərdə kəndin əhalisi qırğınlarla tamamilə qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim alban məbədinin adı əsasında, rəng bildirən **ağ** sözü ilə və **kilsə** sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağgöl -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunla göl. «Keyfiyyətli, içməyə yararlı» mənasında işlənən ağ sözünə göl coğrafi nomeninin artırılması yolu ilə düzəlib. Mürəkkəb quruluşlu hidronimdir. Erməni mənbələrində Berandzov (Ağız gölü) formasında qeyd edilir (85,s.132).

**Ağgöl** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonununda göl. Rayonun Çobankərə kəndində yerləşir. 1940-cı illərdə Çobankərə kəndi ilə Eçmiədzin şəhəri arasında IV sovxozun salınması ilə bağlı göl qurudularaq ləğv edilmişdir (61, s.59).

**Ağgöl** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunun Çobankərə Kəndində qoruq. 1939 - cu ildə Çobankərə kəndi ilə Eçmiədzin şəhəri arasında IV sovxozun yaradılması ilə bağlı qoruq ləğv edilmişdir (61, s.59).

**Ağgöl** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Qaradığa kəndindən şimal-qərbdə yerləşmişdir. Kəndin adı ərazidəki eyni adlı göldən götürülmüşdür. Mürəkkəb quruluşlu hidrotoponimdir.

**Ağgöl** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonundakı göl. Türk dilində «keyfiyyətli, içməyə yararlı saf su» mənasında işlənən ağ sözü ilə göl coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Ağmanqan** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda dağ. Kəvərdən 20 km cənub-qərbdə yerləşir. Hündürlüyü 3507 metrdir. Oronim ağman türk tayfa adına (271, s.17) qədim türk dilində «məkan», «yer», «ərazi» mənasında işlənən **qan** sözünün qoşulması yolu ilə formalaşmışdır.

**Ağörən** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Dəllər çayının sahilində, Zəngi çayının sağ sahilində, Zəncirli dağının ətəyində, Ərzəkənd kəndindən 10 km şimal-qərbdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftər»ində (143, s.80) qeyd edilmişdir. Erməni mənbələrində Ağverən kimi qeyd edilir (415, s.16).

Kənddə 1831-ci ildə 22 nəfər, 1873 - cü ildə 243 nəfər, 1886-cı ildə 302 nəfər, 1897-ci ildə 307 nəfər, 1908-ci ildə 416 nəfər, 1914 - cü ildə 762 nəfər, 1916-cı ildə 390 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1918-ci ildə azərbaycanlılar ermənilər tərafindən qovulmuşlar. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 64 nəfər, 1926-cı ildə 93 nəfər, 1931-ci ildə 129 nəfər azərbaycanlı yaşamışdır (415, s.17, 101). 1926-cı ildə bu kənddə ermənilər yerləşdirilmişdir. 1966-cı ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş, kənd ləğv edilərək istirahət zonasına çevrilmişdir.

Toponim türk dilində «rəng» mənasında işlənən ağ sözü ilə (torpağın süxurunun rəngini bildirir) qədim türk dilində «uçulmuş, dağılmış, xaraba» mənasında işlənən **örən** sözünün (359, 1(2), s.1219; 407, s.105) birləşməsindən əmələ gəlib, «kiçik xarabalıq yanında olan kənd» mənasını verir.

«Türklər sahib olduqları ölkələrin adlarını dəyişdirmədikləri kimi, qədim zamanlardan qalma kənd və ya şəhər xarabalıqlarının yaxınlarında yerləşdikləri zaman bu xarabalara **örən** və ya **viran** adlarını vermişlər. Bu adlara ya mənsub olduqları əşirətlərin (tayfaların - İ.B.), oymaq və ya obanın adını, ya da torpağın rənginə görə **ağ**, **qara**, **qızıl** *(kursiv mənimdir - İ.B.)* kimi sifətlər əlavə edərək yeni adlar yaratmışlar» (407, s.105). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ağpara** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayondakı Dərəçiçək kəndinin yaxınlığında, Misxanlı və Əlibəy dağlarının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.116), Qafqazın 5 verstlik xəritəsində (348, s.5) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 6 nəfər azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1829 - cu ildə Makudan köçürülmüşdür (427, s.164).

Toponim qədim türk dilində «kiçik, xırda» mənasında işlənən **ağ** sözü ilə (359 l(1), s.96) «hissə, torpaq sahəsi» mənasında işlənən para sözünü (339, s.429) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

Kəndin adı erməniləşdirilərək Ağbyurak qoyulmuşdur.

**Ağrıyurd** - İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonu ərazisində qışlaq olmuşdur.

Toponim **əyri** sözü ilə **yurd** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Ağrı sözü əyri sözünün təhrif olunmuş formasıdır. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağsu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. «Keyfiyyətli, yararlı» mənasında işlənən **ağ** sözü ilə «çay» mənasında işlənən su sözünün (339, s.528) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Ağsu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Burada 1829 - cu ildə 41 nəfər, 1879 - cu ildə 71 nəfər azərbaycanlı yaşamışdır (85, s.352). XIX əsrin axırlarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «keyfiyyətli, içməyə yararlı» mənasında işlənən **ağ** sözü ilə (93, s.22) qədim türk dilində «çay» mənasında işlənən su (əsli sub) sözündən (299, s.512) əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağsu çayı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda çay. «Keyfiyyətli» mənası bildirən ağ sözü ilə çay mənasında işlənən su sözünün birləşmələrindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Ağtala -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində kənd. 1926-cı ildə burada 26 nəfər azərbaycanlı yaşamışdır (85, s.85). 30 - cu illərdə indiki Ermənistan hökumətinin göstərişi ilə kənd ləğv edilmişdir.

Toponim qədim türk dilində «kiçik», «balaca» mənasında işlənən **ağ** sözü ilə «meşə ortasında açıqlıq» mənasında işlənən **tala** sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ağtəpə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasının Çəmbərək nahiyyəsində, indiki Krasnoselo rayonu ərazisində, Şorça Kəndinin yaxınlığında kənd. 1831-ci ildə burada 129 nəfər, 1926-cı ildə 16 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). XX əsrin ortalarında Azərbaycanlılar deportasiya edilmiş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim «alçaq, kiçik» mənasında işlənən ağ sözü ilə «alçaq dağ» mənası bildirən təpə oronimi əsasında yaranmışdır.

Yaşayış məntəqəsi alçaq, kiçik təpədə yerləşdiyi üçün Ağtəpə adlanmışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ağudi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Rayon mərkəzində 5 km cənub - şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Aqudı formasında qeyd edilmişdir (348, s.6). Kənddə 1831-ci ildə 60 nəfər, 1873 - cü ildə 450 nəfər, 1886-cı ildə 903 nəfər, 1897-ci ildə 1162 nəfər, 1908-ci ildə 1345 nəfər, 1914 - cü ildə 1070 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən

sağ qalanlar doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 298 nəfər, 1926-cı ildə 319 nəfər, 1931-ci ildə 496 nəfər (415, s.77, 147), 1959 - cu ildə 828 nəfər, 1970-ci ildə 1222 nəfər (427, s.200) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tamamilə etnik torpaqlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «hörmətli, uca, yüksək» mənasında işlənən **ağ** sözü ilə uti//udi türk dilli tayfanın adı əsasında (168, s.119) formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Aqitu qoyulmuşdur.

**Ağxaç -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə, Horadiz (Qaradüz) kəndinin yaxınlığında yerləşirdi. Burada 1831-ci ildə 37 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.158). **XIX** əsrin 50-60-cı illərində kəndə ermənilər köçürüldükdən sonra qarışıq kəndə çevrilmişdir. Kənddə ermənilərlə yanaşı 1873 - cü ildə 140 nəfər, 1886-cı ildə 195 nəfər, 1897-ci ildə 242 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 158). 1904, 1914, 1916-cı illərdə siyahıyaalmada azərbaycanlı və erməni əhalisi qarışıq şəkildə göstərilmişdir. 1918-19 - cu illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlıların müəyyən qismi doğma torpaqlarına dönə bilmişdir. Burada 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.89). 1928-29 - cu illərdə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışdır. 1930 - cu ildən burada yalnız ermənilər yaşayır.

Toponim, fikrimizcə, türk dilinə «kiçik, balaca» mənasında işlənən ağ sözü ilə (359, I(1), s.96) Azərbaycan dilində «qoyun, mal yatağı» mənasında işlənən arxac sözünün (9, s.129) təhrifi əsasında yaranan xaç sözündən əmələ gəlmişdir. Kəndin qədim adı Ağarxac olmuş, zaman keçdikcə Ağxaç formasını almışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ağhəmzəli** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. 1937-ci ilə kimi Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Rayon mərkəzində 6 km məsafədə, Qırxbulaq çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.3) qeyd edilmişdir.

Ermənilər bu kəndə 1828-ci ildən sonra İrandan köçürülmüşdür (386, s.547-549).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 232 nəfər, 1873 - cü ildə 301 nəfər, 1886-cı ildə 273 nəfər, 1897-ci ildə 376 nəfər, 1904 - cü ildə 843 nəfər, 1914 - cü ildə 927 nəfər, 1916-cı ildə 516 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 93 nəfər, 1926-cı ildə 98 nəfər, 1931-ci ildə 207 nəfər azərbaycanlı yaşamışdır (415, s.47, 127). 1948-49 - cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. Toponim Azərbaycan dilində «zadəgan», «seyid», «ruhani» mənasında işlənən ağa sözü ilə qızılbaşların həmzəli etnonimi (91, s.193) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 25.V.1967-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Marmaraşen qoyulmuşdur.

**Ağcaarx** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (s.91), Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edılmışdır.

Kənddə 1831-ci ildə 129 nəfər, 1873 - cü ildə 508 nəfər, 1886-cı ildə 669 nəfər, 1897-ci ildə 822 nəfər, 1904 - cü ildə 720 nəfər, 1914 - cü ildə 763 nəfər, 1916-cı ildə 709 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 137 nəfər, 1926-cı ildə 159 nəfər azərbaycanlı yaşamışdır (415, s.63, 139). Kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq 1930 - cu ildə deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində «ağımtıl» mənasında işlənən **ağca** sözü ilə Azərbaycan dilində «su axıtmaq üçün qazılan yol»mənasında işlənən **arx** sözündən əmələ gəlmişdir. Fikrimizcə, kəndin ərazisindəki axan arxın şəffaflığına görə kənd Ağcaarx adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişedirilib Arevik qoyulmuşdur.

**Ağcaqala** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Alagöz dağının cənub-qərbində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.163), Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. Buraya ermənilər 1828-30 - cu illərdə Türkiyədən köçürülmüşdür. Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 79 nəfər, 1873 - cü ildə 38 nəfər, 1886-cı ildə 6 nəfər, 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində sifətin çoxaltma dərəcəsinin morfoloji əlamətini bildirən -ca şəkilçisinin qəbul etmiş qədim türk dilində «kiçik, alçaq, çox da hündür olmayan» mənasında işlənən **ağ** sözü ilə (94, s.68) qala sözünün birləşməsindən əmələ gəlib «kiçik, alçaq qala yanında olan kənd» mənasında ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Tsaxqalanc qoyulmuşdur.

**Ağcaqışlaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimalda, Zəngi çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.49), Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edilmişdir.

XVIII əsr mənbəyində («İrəvan əyalətinin icmal dəftəri») göstərilir ki, kənddə türk mənşəli qəmərli tayfası yaşayır (143, s.49).

Kənddə 1831-ci ildə 70 nəfər, 1873 - cü ildə 184 nəfər, 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 200 nəfər, 1904 - cü ildə 186 nəfər, 1914 - cü ildə 220 nəfər, 1916-cı ildə 197 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma evlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 54 nəfər, 1926-cı ildə 96 nəfər, 1931-ci ildə 102 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə 1948-1949 - cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim «ağımtıl, bozumtul düzən, çöl» mənasında işlənən ağca sözü ilə (93, s.23) qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 21.VI.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Getaşen (Çaykənd), 25.V.1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Getazat qoyulmuşdur.

**Ağcaquş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında xaraba kənd. Göyçə (Sevan) gölünün şərqində yerləşirdi.

**Ağcaqala -** Yelizavetpol (Gəncə) quberniyası Qazax qəzasının Çəmbərək nahiyəsində qala. Çəmbərək (Krasnoselo) rayonundakı Martuni kəndindən 4 km şimal-qərbdə yerləşirdi. Qalanın divarları indi də durur.

Toponimin I tərəfi sifətin çoxaltma dərəcəsində işlənən ağca sözü ilə «uzun müddət içində qapanıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam» mənasında işlənən **qala** sözünün (9, s.402) birləşməsindən əmələ gəlmişdir və «ağ rəngli qala, istehkam, məntəqə» mənasını bildirir.

**Ağcakənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Göydağ dağının şərq tərəfində, Ardıclı selavının yanında yerləşirdi.

Kənddə 1873 - cü ildə 106 nəfər, 1886-cı ildə 139 nəfər, 1897-ci ildə 192 nəfər, 1904 - cü ildə 214 nəfər, 1914 - cü ildə 234 nəfər, 1916-cı ildə 258 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə erməni təcavüzünə məruz qalan kənd sakinləri - azərbaycanlılar deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «ağımtıl, quru, şumlanmamış bozumtul torpaq» mənasında işlənən (93, s.22) **ağca** sözünə **kənd** coğrafi nomeninin qoşulması ilə düzəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Ada** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qala. Rayondakı Ardanış kəndinin yaxınlığında, Göyçə gölünün şimalında yerləşir. XVIII əsr erməni yepiskopu Simeon İrəvanlı «Cambr» əsərində qalanın Qeğarkuni vilayətində yerləşdiyini göstərmişdir (427, s.28).

**Ada** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda arxipelaq. Rayondakı Ardanış kəndinin yanında, Göyçə gölünün şimal-şərqində yerləşirdi.

**Adakut -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Xarabalığa çevrilmişdir.

**Adamxan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. Kəndin digər adı Atamxan olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.22) qeyd edilmişdir. 1828-ci ilə qədər burada azərbaycanlılar yaşamışdır. 1828-ci ildən sonra Türkiyədən köçürülən (169 nəfər) ermənilərin burada yerləşdirilməsi ilə bağlı (386, s.595-598) azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vardadzor qoyulmuşdur.

**Adamdərəsi** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay. Rayondakı Adamxan kəndinin ərazisindən axır. Göyçə gölünə axıb tökülür. Hidronim şəxs adı ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Antropohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Adatəpə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayondakı Ardanış kəndinin yaxınlığında, Ardanış və Şorca kəndləri arasında, Şorca kəndindən 3-4 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.6) qeyd edilmişdir. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Səhv olaraq Ardanış kəndi ilə eyniləşdirilir (427, s.28). Erməni mənbələrində Adatəpənin Adavəngin adı əsasında yarandığı göstərilir (427, s.28).

Toponim Azərbaycan dilində «hər tərəfi su ilə əhatə olunmuş quru sahə» mənasında işlənən **ada** sözü ilə «alçaq dağ» mənasında işlənən təpə sözünün (254, s.18) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ada təpə** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican rayonu ərazisində qışlaq. 1926-cı ildə bura 16 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində işlənən ada və təpə sözlərinin birləşməsindən əmələ gələn orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Adatəpə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayondakı Ardanış kəndinin yaxınlığında yerləşir.

**Adıyaman** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda dağ. Adı dəyişdirilib Qarnasar qoyulmuşdur.

**Adıyaman -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay. Adı dəyişdirilib Arkzi qoyulmuşdur.

**Adıyaman -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə yerləşir «İrəvan əyalətinin icmal dəftəri»ndə (s.126), Qafqazın 5 verstlik xəritəsində (348, s.7) qeyd edilmişdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Qarnhovit qoyulmuşdur.

**Azadeğ -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 7,5 km cənub-qərbdə, Arpaçayının sağ sahilində yerləşir. Kəndin adı Azatak, Azader, Azad, Azadak formalarında da erməni mənbələrində qeyd edilir (427, s.39, 41). Burada 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. 1828-29 - cu illərdə ermənilər buraya İranın Xoy və Salmas vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s.41).

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 20 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89). 1930 - cu ildən burada yalnız ermənilər yaşayır. Kəndin adının yaranması ilə bağlı erməni mənbələrində göstərilir ki, bura gələn ermənilər azader (azad idi) deyərək kəndi Azadeğ adlarıdırmışlar (427,s.41). Bu, elmi həqiqətə uyğun deyil, ehtimologiyadır.

Toponim fars dilində işlənən azad sözü ilə (9, s.60), fars dilində «kənd, qışlaq» mənasında işlənən dex sözündən (339, s.177) əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Azadibek -** İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. Gümrü şəhərindən 25 km şərqdə yerləşirdi. XIX əsrin ortalarında ləğv edilmişdir. İndi xaraba kənddir.

**Azadxaraba -** Göyçə gölünün sahilində xaraba kənd.

**Azqala -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında kənd. Ləğv edilmişdir. Xaraba kənddir.

**Aznaberd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasınla, indi Meğridə dağ.Hündürlüyü 2115 m-dir.

**Ayazlı saray -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd. Zəkəriyyə Kəngərli tərəfindən adı qeyd edilir (85, s.352).

**Ayarlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə, Abaran çayının qolunun yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.24) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 38 nəfər, 1873 - cü ildə 265 nəfər, 1886-cı ildə 252 nəfər, 1897-ci ildə 355 nəfər, 1904 - cü ildə 353 nəfər, 1914 - cü ildə 373 nəfər, 1916-cı ildə 339 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanla sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.151). Onlar 1924-25-cı illərdə sıxışdırılaraq kənddən çıxarılmış, onların yerinə ermənilər və kürdlər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim «öz təşkilatı olan və varlılar hesabına kasıblara köməklik məqsədini güdən şəhər yoxsullarından ibarət təbəqə» mənasını bildirən ayarı sözü əsasında (338, s.574) əmələ gələn ayarlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Lernamerdz qoyulmuşdur.

**Ayaslı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 5-6 km şimal-şərqdə, Gərni çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Böyük Ayaslı formasında (143, s.49), Qafqazın 5 verstlik xəritəsində Ayaslı kimi (348, s.24) qeyd edilmişdir.

Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq Ayqestan formasında qeyd edilir (415, s.46).

Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828-29 - cu illərdə İranın Xoy və Salmas bölgələrindən ermənilər köçürələrək burada yerləşdirilmişdir (427, s.228).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 129 nəfər, 1873cii ildə 55 nəfər, 1886-cı ildə 55 nəfər, 1897-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlıların az bir qismi tarixi torpaqlarına dönmüşdür. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.47). Onlar 1929-1930 - cu illərdə tamamilə qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim ayaslı etnonimi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. 1918-ci ildə kəndin adı dəyişdirilib Ayqestan qoyulmuşdur.

**Ayğırgöl** - İrəvan quberniyasmda Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Üçkilsə (Eçmiədzin) - Sərdarabad (Oktemberyan) yolunun üstündə, Ayğırgölün yanında yerləşir. Kəndin adı Ayğırgölün adından götürülmüşdür. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Aknaliç qoyulmuşdur.

**Ayğırgöl** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda göl. Qafqazın 5 verstlik xəritəsində (348, s.8) qeyd edilmişdir. Dərinliyi 860 mdir. Hidronim türk dilində «erkək at» mənasında işlənən **ayğır** sözü ilə göl sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Ayıbasan -** İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda kənd. Həmzəçimən kəndindən 3 km cənub-qərbdə yerləşirdi. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. İndi xaraba kənddir.

Toponim ayı sözü ilə basan feli sifətin birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ayıbasan -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.8) qeyd edilmişdir. Oronim **ayı** və **basan** feli sifətinin birləşməsindən əmələ gəlmişdir. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Ayıdərəsi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunun Toxluca Kəndində qışlaq. Ayı və dərə sözlərindən əmələ gəlmişdir. Tarixən həmin dərənin

ərazisi meşəlik olmuş və burada çoxlu ayı yaşamışdır. Ona görə də həmin ərazi Ayıdərəsi adlanmışdır. Heyvan adı əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Ayılı xaraba** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd. Kənddə 1914 - cü ildə 100 nəfər, 1916-cı ildə 201 nəfər azərbaycanlı yaşamışdır (415, s.106-107). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim mənsubluq bildirən -lı şəkilçisi qoşulmuş ayı sözü ilə Azərbaycan dilində «dağıdılmış, viran edilmiş» mənasında işlənən xaraba sözündən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aynazur** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-qərbdə yerləşir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər Aynazur kəndinə 1828-29-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən köçürülmüşdür (427, s.158).

Kənddə ermənilərdən başqa 1897-ci ildə 75 nəfər, 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91). 1926-cı ildən sonra azərbaycanlılar kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim türk dilində «cin, şeytan» mənasında işlənən ayna sözü ilə (359, I (1), s.17), türk dilində «yarğan» mənasında işlənən car sözünün (339, s. 178-179) əsasında əmələ gələn zur sözünün birləşməsindən əmələ gəlmişdir. Ehtimal ki, həmin dərə qorxulu, vahiməli olduğu üçün Aynazur adlandırılmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 10.IX.1946-cı 11 fərmanı ilə adı dəyişdirilib Axavnadzor qoyulmuşdur.

**Aynaxlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində qışlaq. Nəsil adı əsasında yaranmışdır. Patronim toponimdir. Quruluşca sadədir.

**Ayrım** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax-Şəmsəddin qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd.Rayon mərkəzindən 10 km şimal-qərbdə, Tona (Debet) çayının yanında, İrəvan - Tiflis dəmiryolunun üstündə yerləşir.

Kənddə 1926-cı ildə 46 nəfər, 1939 - cu ildə 100 nəfər, 1959 - cu ildə 282 nəfər, 1979 - cu ildə 2252 nəfər azərbaycanlı yaşamışdır (427, s.243). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim ayrım türk etnonimi (245, s.43) əsasında düzəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı qeyri-rəsmi dəyişdirilib Ptxavan qoyulmuşdur.

**Ayısəsi** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda Aysəsi kəndində qala. VII əsrdə tikilmişdir. Adı yazılı mənbələrdə IX əsrdən çəkilir (422, s.66). Adı dəyişdirilib Arates qoyulmuşdur.

**Ayısəsi** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Uzunluğu 12 km-dir. Arpa çayına tökülür.

**Ayısəsi** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-şərqdə yerləşir. Erməni mənbələrində kəndin adı Aysəs, Aysayi, Aysası formalarında qeydə alınmışdır (427, s.237). Kəndin adı IX əsrdən xatırlanır (422, s.66). Kənddə 1873 - cü ildə 219 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 311 nəfər, 1904 - cü ildə 412 nəfər, 1914-cü ildə 453 nəfər, 1916-cı ildə 336 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 254 nəfər, 1926-cı ildə 181 nəfər, 1931-ci ildə 288 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.91, 161). 1988-ci ildə kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Kənddə VII, X-XI əsrlərə aid alban kilsəsi, türklərin həyatı ilə bağlı digər tarixi abidələr (xaç daşları) indi də durur (422, s.66-69). Toponim vəhşi heyvan mənasında işlənən ayı sözü ilə türk dilində «bataqlıq», «iymiş», «qoxumuş», «nəm», «rütubətli» mənasında işlənən sas//sası sözü əsasında (359,I (1), s.395) əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Qızılgül, Ermənistan prezidentinin 19.IV. 1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Areta qoyulmuşdur.

**Aytaq** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonun ərazisində kənd. Rayon mərkəzindən 10 km məsafədə, Buğut dağının ətəyində yerləşirdi. Erməni mənbələrində

Aysataq (415, s.34; 427, s.230), Qafqazın 5 verstlik xəritəsində Aytaq formasında (348, s.9) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 37 nəfər, 1886-cı ildə 32 nəfər, 1897-ci ildə 59 nəfər, 1914 - cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə ləğv edilmişdir.

Toponim qədim türk dilində «ağ, işıqlı, aydın» mənasında işlənən ay sözü ilə (365, s.99) türk dilində «dağ» sözünün fonetik forması olan tağ sözünün (299, s.526; 339, s.537) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aytaq** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. 1897-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s.67). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Qafqazın 5 verstlik xəritəsində (348, s.9) qeyd edilmişdir.

Toponim qədim türk dilində «ağ, işıqlı, aydın» mənası bildirən ay sözü ilə (365, s.99) «dağ» sözünün qədim fonetik forması olan tağ sözünün (299, s.526) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Al** - İndiki Ermənistanda dağ. Hündürlüyü 2973 mdir (427, s.56). Oronim «qırmızı» (torpağın süxurunun rənginə görə) mənasında işlənən al sözündən əmələ gəlmişdir. Sadə oronimdir.

**Alabkir** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda zağa. Erməni mənbələrində Alabkyar, Alapkyari formalarında qeyd edilmişdir (427, s.69).

**Alavar** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda çay.

**Alağac** - İndiki Ermənistanda dağ (427, s.60). Dağın konkret olaraq harada yerləşdiyini müəyyənləşdirə bilmədik.

**Alagöz** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə, Abaran - Hamamlı (Spitak) yolunun üstündə yerləşir. Ermənilər buraya 1828-1829 - cu illərdə Türkiyənin Muş, Ayntap vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s.56). Erməni mənbələrində həm də Alagəz formasında qeyd edilir (427, s.56).

Toponim alagöz türk etnonimi (271, s.20; 407, s.120) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Alagöz** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzində 15 km şimal-şərqdə, Alagöz çayının yanında, Alagöz çayının sağ qolu olan Yoğun su çayının sahilində yerləşir. Kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Ələyəz (143, s.58), Qafqazın 5 verstlik xəritəsində Alagöz (348, s.10), «Сборник сведений о Кавказе» toplusunda Alagöz və Alayaz (364, N° 770) formasında qeyd edilmişdir. Erməni mənbələrində Alayaz (415, s.160), Alagəz, Alagöz (427, s.62) kimi qeyd edilir. Fikrimizcə, Kəndin ilkin və əsil adı «Alagöz«dür. Burada XI-XIII əsrlərə aid azərbaycanlılarla bağlı tarixi abidələr vardır (427, s.62).Kəndin adı V əsrdən xatırlanır (422, s.57).

Kənddə 1831-ci illərdə 32 nəfər, 1873 - cü ildə 223 nəfər, 1886-cı ildə 356 nəfər, 1897-ci ildə 412 nəfər, 1904 - cü ildə 524 nəfər, 1914 - cü ildə 576 nəfər, 1916-cı ildə 322 nəfər, 1919 - cu ildə 97 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.90-91, 160-161). 1918-19 - cu illərdə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri doğma evlərinə dönmüşdür. Burada 1922-ci ildə 180 nəfər azərbaycanlı, 91 erməni, 1926-cı ildə 267 nəfər, 1931-ci ildə 353 nəfər (415, s.91, 161), 1959 - cu ildə 499, 1970-ci ildə 884 nəfər, 1979 - cu ildə 963 nəfər (85, s.359) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim alagöz türk etnonimi (271, s.204;407, s.120) əsasında əmələ gəlmişdir. Alagöz türk tayfası haqqında ilk məlumata Vamberinin 1863 - cü ildə türk tayfaları ilə bağlı məlumatında rast gəlinir (407, s.120).

Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Alagöz** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində mahal. Alagöz mahalı Göyçə mahalı ilə həmsərhəd olmuşdur. Mahalın mərkəzi Alagöz kəndi, 1894 - cü ildən Həsənkənd olmuşdur. Mahala Həsənkənd, Alagöz, Qaraquluq, Erdəpin və s. kəndlər (cəmi 20 kənd) daxil idi ki, burada da 874 ailə yaşamışdır (427, s.56).

Toponim alagöz türk tayfasının adını (271,s.20;407, s.120) əks etdirir.

**Alagöz** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 18 km cənub-qərbdə yerləşir.

Toponim alagöz türk tayfasının adı (407, s.120) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 31.VII.1950-ci il fərmanı ilə adı dəyişdirilib Araqadz qoyulmuşdur.

**Alagöz** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda qala. Adı dəyişdirilib Tsaxats kar qoyulmuşdur.

**Alagöz** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Alagöz türk tayfasının adı (407, s.120) əsasında formalaşmışdır Etnohidronimdir.

**Alagöz** - indi Ermənistan adlanan ərazidə dağ. Adı dəyişdirilib Araqadz qoyulmuşdur.

**Alagöz** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda göl.

**Alagöz** - Göyçə gölünün cənub-şərqində göl. İndi Alliçmedz adlanır.

**Alagöllər** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonun ərazisində dağ. Göyçə gölünün cənub-şərqində, Basarkeçərin cənubunda yerləşir. Hündürlüyü 2985 m-dir.

**Alagöl çay** - İrəvan quberniyasının Yeni Bayazid qəzasın da, indi Basarkeçər (Vardenis) rayonunda çay. Rayondakı Çamırlı kəndinin ərazisindən axıb Göyçə gölünə tökülür.

**Alagüney** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda mədən yeri.

**Alapapaq** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonu ərazisində dağ. Göyçə gölü hövzəsində, Zəngi (Razdan) çayının yuxarı sahilində yerləşir. Alapapaq türk tayfa adı əsasında yaranmışdır. Etnooronimdir. Quruluşca sadə oronimdir.

**Alapapaq** - İrəvan əyalətinin Dərəçiçək mahalında, indiki Axta (Razdan) rayonu ərazisində kənd. XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir (427, s.91). Alapapaq türk tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Alapars** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 18 km cənub-qərbdə, Zəngi (Razdan) çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.78), Qafqazın 5 verstlik xəritəsində (348, s.l 1) qeyd edilmişdir.

Kənd XVIII əsrdə İrəvan xanlığının Dərəçiçək mahalının tabeliyində olmuş, xanlıq ləğv edildikdən sonra XIX əsrin əvvəllərində yaradılan İrəvan quberniyasının Yeni Bayazid qəzasının inzibati-ərazi bölgüsünə daxil edilmişdir. 1930-1964 - cü illərdə Axta (Razdan) rayonunun tərkibində olmuş, 1964 - cü ildə Sevan rayonunun tabeliyinə verilmişdir. Bir ildən sonra yenidən Axta (Razdan) rayonuna qaytarılmışdır.

Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1829-30 - cu illərdə İranın Xoy, Maku, Türkiyənin Salmas, Van, Alaşkert vilayətlərindən köçürülmüşdür (427, s.69). 1829 - cu ildə kəndə İrandan 83 erməni köçürülmüşdür (386, s.591-594). 1831-ci ildə kənddə 182 nəfər azərbaycanlı yaşamışdır. 1840-50-ci illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından çıxarılmış və kənd tam ermənilərin yaşayış məntəqəsinə çevrilmişdir. İndi ermənilər yaşayır.

Toponim rəng bildirən ala sözü ilə bars türk etnonimi (299, s.84) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Alapars** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda çay. Rayondakı Alapars kəndinin ərazisindən axır. Uzunluğu 16 km-dir. Bars türk etnoniminin (299, s.84) adını əks etdirir. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Alatala** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1960-cı ildə ləğv edilmişdir.

Toponim türk dilində «ala-bula», «rəngarəng yer» mənasında işlənən ala sözü ilə (359, l(2), s.351) Azərbaycan dilində «meşədə ağacsız, çılpaq yer, sahə», «açıqlıq» mənasında işlənən tala sözündən (12, s.130) əmələ gəlmişdir.

«Ala» sözü Azərbaycan toponimiyasında «boz rəng», «müxtəlif rəng çalarları» mənasında işlənir (25, s.31).

Relyef əsasında yaranan quruluşca mürəkkəb toponimdir.

**Alaçıq daş** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunun ərazisində qışlaq. Çaykənd Kəndinin yaxınlığında yerləşmişdir.

1926-cı ildə burada 52 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim türk dilində «daxma, koma, müvəqqəti yaşayış yeri» mənasında işlənən alaçıq sözü ilə (365, s. 130-131) daş sözünün birləşməsindən əmələ gəlib «daşdan tikilən alaçıq, çadır» mənasını bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Alaçıq qaya** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhərinin tabeliyində kənd. Karvansaray (İcevan) şəhərindən 28 km cənubda, Tərsa çayının aşağı axarında, meşəlikdə yerləşir. 1930 - cu ilə kimi Dilican rayonunun tabeliyində olmuşdur.

Kənddə 1897-ci ildə 85 nəfər, 1904 - cü ildə 118 nəfər, 1919 - cu ildə 166 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30-31, 114-115). 1919 - cu ilin mart ayında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalmış və deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişlər. 1922-ci ildə burada 97 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 119 nəfər (415, s.31, 115), 1939 - cu ildə 120 nəfər, 1959 - cu ildə 187 nəfər, 1970-ci ildə 154 nəfər (427, s.65), 1988-ci ildə 154 nəfər (85, s.79) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında kənd sakinləri ermənilərin təcavüzü nəticəsində doğma torpaqlarını tərk etməli olmuşlar. Toponim «daxma, koma, müvəqqəti yaşayış yeri» mənasında işlənən alaçıq sözü ilə (365, s.130-131) qaya sözündən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı erməni mənbələrində «Alaçıx» formasında işlədilir.

**Alacan** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Hamamlı (Spitak) rayonu ərazisində kənd. Qaraçor kəndindən 6 km şimalda yerləşirdi. İndi evlərinin xarabalıqları qalıb.

**Albalaxaç** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir. Evlərin xarabalığı indi də durur.

**Aldərə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda çay. Araz çayına axıb tökülür.

**Aldərə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə, Araz çayının sahilində yerləşir. Qafqazin 5 verstlik xəritəsində Əlidərə formasında (348, s.12) qeyd edilmişdir. XIV-XVI əsrlərə aid albanlarla bağlı tarixi abidələrin (alban kilsəsi, qala və s.) qalıqları indi də durur.

Kənddə 1831-ci ildə 131 nəfər, 1873 - cü ildə 911 nəfər, 1886-cı ildə 1077 nəfər, 1897-ci ildə 1094 nəfər, 1904 - cü ildə 1505 nəfər, 1914 - cü ildə 1987 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143). 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq kənd sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar 1922-24 - cü illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 414 nəfər, 1931-ci ildə 490 nəfər (415, s.67, 143), 1959 - cu ildə 601 nəfər, 1970-ci ildə 831 nəfər, 1979 - cu ildə 784 nəfər (427, s.72) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın 24-28-də kəndin sakinləri - azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qədim Azərbaycan dilində «qırmızı» mənasını bildirən **al** sözü ilə (üzün allanması ifadəsində indi də özünü göstərir) «dərin çuxur» mənasında ifadə edən **dərə** sözünün birləşməsindən formalaşmışdır və «qırmızı dərə» mənasını ifadə edir. Kəndin salındığı ərazinin torpağı qırmızı suxurlardan ibarət olduğu üçün kənd Aldərə adlandırılmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Alırzalar** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur (427, s.83). Tayfa adı əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Alişar** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Rayondakı Dəstəkert kəndindən 23 km şimal-qərbdə yerləşirdi, Kənddə 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 48 nəfər, 1914 - cü ildə 214 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,8.76-77,146-147), 1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi torpaqlarına dönmüşlər. Burada 1922-ci ildə 105 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 135 nəfər (415, s.77,147) 1939 - cu ildə 108 nəfər (427,

s.88) azərbaycanlı yaşamışdır. Sakinləri Sofulu və Şıxlar (Qızıl Şəfəq) kəndlərinə köçürülərək 1930-40-cı illərdə ləğv edilmişdir (427, s.88).

**Alyurd** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda mədən yeri. Rayonun şimalında yerləşirdi.

**Alladərə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonu ərazisində çöl. Şirak vadisində yerləşir.

**Allar** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Bazarçayın sol sahilində, Tatev kəndindən 5 km şimal-şərqdə yerləşirdi. Kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1914 - cü ildə kənd ləğv edilmişdir (427, s.94).

Toponim alar türk tayfasının adı (287, s.54) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Allahverdi** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında kənd. İndiki Ermənistanda inzibati ərazi vahidi - rayon və rayon mərkəzi. Rayon kimi 9 sentyabr 1930 - cu ildə təşkil edilmişdir. 1939 - cu ildə şəhər, 1963 - cü ildə respublika tabeliyində şəhər statusu verilmişdir.

Tarixən Quqark əyalətinə daxil olmuşdur. Sonra (VIII-X əsrlərdə) Baqratilərin, Zakarianların, XI əsrdən sonra səlcuqların, monqol-tatarların tərkibinə daxil olmuş, XVIII əsrdə Nadir şah Əfşarın tabeliyi altında olmuşdur. XIX əsr və XX əsrin əvvəllərində Tiflis quberniyasının Loru-Borçalı qəzasında, 1920-29 - cu illərdə Loru-Pəmbək qəzasının tərkibinə daxil olmuşdur. Borçalı çayının sahilində yerləşir. Qafqazın beş verstlik xəritəsində (348, s.13) qeyd edilmişdir. Əsas sakinləri azərbaycanlılar olmuşdur. Burada azərbaycanlılarla yanaşı, yunanlar və ermənilər də yaşamışdır. Ermənilər buraya 1828-ci ildən sonra köçürülmüşdür. 1831-ci ildə 24 nəfər azərbaycanlı, 1873 - cü ildə 143 nəfər azərbaycanlı, 70 nəfər erməni, 1886-cı ildə 132 nəfər azərbaycanlı, 46 nəfər erməni, 989 nəfər yunan, 1897-ci ildə 187 nəfər azərbaycanlı, 104 erməni, 1100 nəfər yunan yaşamışdır (415, s.67, 98-99). 1918-20-cı illərdə azərbaycanlılar öz doğma torpaqlarından ermənilər tərəfindən qovulmuşdur. 1920-ci il noyabrın 29-da indiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlıların sağ qalanları geri qayıtmışlar. 1922-ci ildə 24 nəfər azərbaycanlı, 87 nəfər erməni, 1242 nəfər yunan, 1926-cı ildə 40 nəfər azərbaycanlı, 6563 nəfər erməni, 1500 nəfər yunan, 1931-ci ildə 272 nəfər azərbaycanlı, 538 nəfər erməni, 1351 nəfər yunan (415, s.7, 99), 1970-ci ildə 278 nəfər azərbaycanlı, 21835 nəfər erməni və yunan (427, s.67) yaşamışdır. Azərbaycanlılar 1988-ci ildə ermənilər tərəfindən qovulmuşlar. Yunanlar filiz mədənlərində işləmək üçün bura 1790-cı ildə gəlmişdir.

Toponim borçalı türk tayfasına mənsub allahverdi etnonimi adı əsasında əmələ gəlmişdir (427, s.67). Etnotoponimdir.

Erm.SSR AS RH-nin 19.IX.1969 - cu il fərmanı ilə adı dəyişdirilib Tumanyan (erməni yazıçısı Hovanes Tumanyan) qoyulmuşdur.

**Allahverdibəy -** İrəvan xanlığının Göyçə mahalında kənd. İndi xarabalığa qalır. Allahverdibəy şəxs adı əsasında əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

**Almalı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-şərqdə yerləşir.

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 6 nəfər, 1897-ci ildə 14 nəfər, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89,158). İndi ermənilər yaşayır. Almalı adlı toponimlərə indiki Ermənistanın Qafan, Keşişkənd (Yeğeqnadzor), Kəvər (Kamo), Paşalı (Əzizbəyov, Vayk) rayonları ilə yanaşı, Azərbaycanda, Türkiyədə geniş bir formada rast gəlmək olur (427, s.96-97). Bu qənaətə gəlirik ki, Almalı toponimlərinin meyvə adı ilə bağlılığı yoxdur. Almalı türk etnonimidir. Nəcdət Sevinc hələb türkmənlərinin tayfa birliyinə daxil olan tayfalardan birinin **almalı** adlandığını göstərir (407, s.90).

Fikrimizcə, kəndin adı həmin etnonim əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanıilə dəyişdirilib Xndzorud (Almalı) qoyulmuşdur.

**Almalı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 14-16 km qərbdə, Elpin kəndinin şimalında yerləşir. Kənddə 1873 - cü ildə 172 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 277 nəfər, 1904 - cü ildə 313 nəfər, 1914 - cü ildə 345 nəfər, 1916-cı ildə 360 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalanlar kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 100 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 145 nəfər yalnız azərbaycanlı yaşamışdır

(415,s.91, 161). 1938-39-cu illərdə azərbaycanlılar kənddən köçürülərək 1939 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim almalı türk etnonimi (407, s.90) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Almalıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda oronim. Almalı sözünə məkan mənası bildirən -lıq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitooronimdir. Quruluşca düzəltmə toponimdir.

**Almalıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonun ərazisində kənd olmuşdur.

Kənddə 1897-ci ildə 81 nəfər, 1914 - cü ildə 465 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 132-133). 1916-1918-ci illərdə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş və 1926-cı ilə qədər xaraba qalmışdır. İndiki Ermənistanda sovet hökumətinin qurulması ilə bağlı olaraq kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 49 nəfər, 1931-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır (415, s.55, 133). 30 - cu illərin ortalarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim alma sözünə çoxluq, cəmlik bildirən -lıq şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Almalıq çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Meyvə adı əsasında yaranan fitohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Alpava -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 9 km şimalda, Gərnibasar çayının sağ sahilində yerləşir. Erməni mənbələrində Arpavar formasında qeyd edilir (415, s.60, 419, s.129) «İrəvan əyalətinin icmal dəftəri»ndə Alpevi (143, s.99). «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə Albava (427, s.71), Alpava, Alpavan (427, s.104) formalarında qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 35 nəfər, 1873 - cü ildə 97 nəfər, 1886-cı ildə 121 nəfər, 1897-ci ildə 127 nəfər, 1904 - cü ildə 188 nəfər, 1914 - cü ildə 305 nəfər, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 31 nəfər, 1926-cı ildə 30 nəfər, 1931-ci ildə 51 nəfər azərbaycanlı yaşamışdır (415, s.47, 127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə azərbaycanlılar 1948-49 - cu illərdə Azərbaycana köçürülmüş və kənd tam erməniləşdirilmişdir.

Toponim qədim türk dilində «igid, qoçaq, cəsur» mənalarında işlənən alp sözü ilə (359, I (1), s. 430) türk dilində «düzənlik, geniş yer» (359, I(2), s.1166), «dərə, vadi» (365, s.403) mənasında işlənən **ova** sözünün fonetik variantı olan ava sözünün birləşməsindən əmələ gəlib, «igidlərin, qoçaqların məskəni, yurdu, düzənlik, vadi» mənasını ifadə edir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lusakert, 21.X.1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Nşavan qoyulmuşdur.

**Altuntaxt** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.14) qeyd edilmişdir. Oronim türk dilində vulkan mənşəli qaya adlarında «qırmızı» mənasında işlənən altın sözü ilə (299, s.40), «dağın zirvəsində hamar, düzən yer» mənası bildirən taxt sözünün (339, s.54-70, 210 s.5) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Altuntaxt** - İrəvan xanlığının Göyçə mahalında kənd. XIX əsrdə yaradılan yeni inzibati-ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Yeni Bayazid qəzasına, indiki Kəvər (Kamo) rayonu ərazisinə daxildir.

«Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilir: Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini dikdi (157, s.44). 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.55), XVIII əsrdə (1763-1780) erməni kilsəsinin başçısı S.İrəvanlının «Cambr» əsərində. (303, s.361) qeyd edilmişdir. Kənd XVIII əsrin axırları, XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «qızıl» (qırmızı) mənasında işlənən altın sözünə «dağın zirvəsində hamar, düzən yer» mənasında işlənən taxt sözünün (210, s.5) artırılması yolu ilə düzəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Alxan pəyəsi** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayonun Həsənkəndlə Qoytul kəndləri arasında, Şərur və Keşişkənddən Göyçəyə gedən şosse yolunun üstündə (211, s.236), Arpa çayının bir qolu olan Səlim çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.13) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 18 nəfər, 1873 - cü ildə 54 nəfər, 1886-cı ildə 66 nəfər, 1897-ci ildə 100 nəfər, 1904 - cü ildə 175 nəfər, 1914 - cü ildə 192 nəfər, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq əhalisi deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 37 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.161). 1923-25-cı illərdə onlar yenidən qədim yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir.

Bu kəndi Vəkilovlar nəslindən olan Alıxan inşa etmişdir. Burada Alıxan qış, payız, yaz aylarında özünün mal-qarasını, qoyunlarını saxlayırmış (211, s.236). Ona görə də kənd Alıxanpəyəsi adlandırılmışdır.

Toponim Alıxan şəxs adından və Azərbaycan dilində «tövlə, mal-qara saxlanılan yer» mənasında işlənən pəyə sözündən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Alçalı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Rayondakı Ağbulaq Kəndinin 1 km-də yerləşirdi (427, s.166).

Toponim alça bitki adına -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Alçalı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay. Rayondakı Alçalı kəndinin ərazisində yerləşir və suyu Göyçə gölünə tökülür. Fitohidronimdir.

**Alçalıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda oronim. Alça bitki adına məkan bildirən -lıq şəkilçisinin artırılması ilə düzəlmişdir. Fitooronimdir. Quruluşca düzəltmə oronimdir.

**Alçalı təpə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda təpə. Rayondakı Alçalı kəndində yerləşir. -lı şəkilçisi qəbul etmiş **alça** sözü ilə Azərbaycan dilində «kiçik dağ» mənasında işlənən **təpə** sözünün birləşməsindən yaranmışdır. Fotooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Amağu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 10-12 km şərqdə, Arpaçayın sol qolu olan Amağu çayının yaxınlığında yerləşir.

X əsrdən adı çəkilir. Monqollar tərəfindən xarabalığa çevrildikdən sonra kənd XIV-XV əsrlərdə yenidən bərpa edilmişdir (422, s.20). Kəndin yaxınlığında iki məbəd vardır ki, onlardan biri 1221-cı ildə tikilmişdir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.57), Qafqazın 5 verstlik xəritəsində (348, s.14) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 31 nəfər, 1873 - cü ildə 198 nəfər, 1886-cı ildə 240 nəfər, 1897-ci ildə 354 nəfər, 1904 - cü ildə 350 nəfər, 1914 - cü ildə 385 nəfər, 1916-cı ildə 510 nəfər, 1919 - cu ildə 135 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq 1918-1919 - cu illərdə deportasiya olunmuşdur.Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 97 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 131 nəfər (415, s.91, 161), 1959 - cu ildə 385 nəfər, 1970-ci ildə 526 nəfər, 1979 - cu ildə 491 nəfər (427, s.206-207) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Amagu, fikrimizcə, ya Ağuan - ağuam (Ağvan) toponiminin bir variantıdır, ya da həmin ərazidəki Ağu kəndindən (143,s.57) fərqləndirmək üçün Aqu toponiminin önünə «am» sözü artırılmaqla əmələ gəlmişdir.

Toponimin ikinci tərəfi aqu sözü ilə bağlıdır. Aqu (ağu) qədim türk dilində «səxavətli, əliaçıq» mənasını ifadə edir (359, I(1) s.159). Tatar alimi Q.F.Səttarov aqu sözünün qədim türk dilində ümumi isimi kimi işlənərək «səxavətli, alicənab, comərd» mənasını ifadə etdiyini qeyd edir (177, s.43). Yuxarıda deyilənlərdən ehtimal etmək olar ki, Amağu toponimi «səxavətli, əliaçıq, comərdlər ölkəsi, yurdu» mənasını ifadə edir.

**Amasiya -** Qars vilayətinin Qars qəzasında bölgə. İndiki Ermənistanda inzibati-ərazi-rayon. 1930 - cu il oktyabrın 9-da rayon kimi təşkil edilmişdir. Amasiya rayonu Arpaçayın yuxarı axarında yerləşir. Türkiyə və Gürcüstan dövlətləri ilə həmsərhəddir. IIV əsrlərdə Arşakilər dövründə Quqark vilayətinə, VII əsrdə ərəblərə, IX-XI əsrlərdə Ani-Şirak padşahlığına, XII-XIII əsrlərdə türk-səlcuqların hakimiyyətinə tabe idi. XIV-XV əsrlərdə Teymurləng Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinə, XVI əsrin ilk illərində Səfəvilər dövlətinə, XVI-XVIII əsrlərdə Qars vilayətinə və İrəvan xanlığının tabeliyində olmuşdur. Bir müddət (XVIII əsrdə) Şərqi Gürcüstanın, XIX-XX əsrin əvvəllərindən 1921-cı ilə kimi Qars vilayətinin tərkibində olmuşdur. 1921-cı il 16 mart Moskva, 1921-cı il Qars müqaviləsinə əsasən Amasiya rayonunun ərazisi indiki Ermənistan Respublikasına verilmişdir.

Amasiya rayonunda 1831-ci ildə 5800, 1897-ci ildə 12288,1926-cı ildə 9888, 1939 - cu ildə 14911, 1959 - cu ildə 12794,1972-ci ildə 19724 nəfər əhali yaşamışdır ki, bunun da 95%-ni azərbaycanlılar təşkil edirdi. Rayonun ərazisindən azərbaycanlılar Ermənistan dövləti tərəfindən 1988-ci ilin noyabr-dekabr aylarında tamamilə qovulmuşdur.

**Anağızoğlu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonundakı Toxluca kəndində qışlaq.

Toponim Azərbaycan dilində «əsas, böyük» mənasında işllənən ana sözü ilə ğuz oğlu > qız oğlu (Oğuz oğlu) sözünün(238, s.144) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir.Quruluşca mürəkkəb toponimdir.

**Anagüney -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində vadi. Toponim Azərbaycan dilində «əsas, böyük» mənasında işlənən ana sözü ilə güney sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**And** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Kənd Vedi çayının sağ qolu olan Xosrov çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.16) qeyd edilmişdir.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində olmuşdur.

Kəndin adı erməni mənbələrində Hand kimi qeyd edilir (415, s.86). Kənddə 1873 - cü ildə 106, 1886-cı ildə 158, 1897-ci ildə 201, 1904 - cü ildə 173, 1914 - cü ildə 297, 1916-cı ildə 241 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən vəhşicəsinə qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 47, 1926-cı ildə 63, 1931-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86-87, 154-155).SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə azərbaycanlılar 1948-49 - cu illərdə Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «çöl, tarla», «həndəvər, ətraf» mənasında işlənən hənd sözü (253, s.132) əsasında yaranmışdır. Relyeflə bağlı yaranan sadə quruluşlu toponimdir.

**Angersak -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 6-7 km şimal-qərbdə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Ənqurik formasında (143, s.163), Qafqazın 5 verstlik xəritəsində Angersak kimi (348, s.15) qeyd edilmişdir. Yerli əhali kəndə Ənirsək deyirdi.

Kənddən 1873 - cü ildə 133 nəfər, 1886-cı ildə 140 nəfər, 1897-ci ildə 162 nəfər, 1908-ci ildə 209 nəfər, 1914 - cü ildə 221 nəfər, 1916-cı ildə 188 nəfər, 1919 - cu ildə 202 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1920-ci ildə kəndin sakinləri erməni soyqırımına məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1925-59 - cu ilə kimi yezdi-kürdlər yaşamışdır. 1959 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk və monqol dillərində «xəndək, səngər», «çatlamış yer», «dərə, dar dərə, vadi», «uzaq sahil» mənalarında işlənən **anqar** sözündən (339, s.50-51) və türk dilində «dağın ətəyi, dağın dibi», «çay ağzı, mənsəb», «uzunsov əyri, dayaz dərə», «arxın başlanğıcı» mənasında işlənən **saqa//saxa** sözündən (339, s.490-493) əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Arazdəyən -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 28 km məsafədə Araz çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.17).

Ermənilər bura 1897-ci ildə köçürülmüşdür. Kənddə ermənilərlə yanaşı azərbaycanlılar da yaşamışdır.

Kənd Araz çayının yaxınlığında yerləşdiyi üçün Arazdəyən adlandırılmışdır. Toponim Araz və dəyən (döyən) feli sifətinin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.VII.1968-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Yerasx qoyulmuşdur.

**Arazdəyən -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda xutor. Burada 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85). XX əsrin əvvəllərində yaşayış məntəqəsi ləğv edilmişdir.

**Aralıq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur.

Kənddə azərbaycanlıların etnoqrafik qruplardan olan qarapapaqlar yaşamışdır (415, s.40).

Burada 1886-cı ildə 300 nəfər, 1897-ci ildə 397 nəfər, 1908-ci ildə 441 nəfər, 1914 - cü ildə 510 nəfər qarapapaqlar (azərbaycanlılar - İ.B.) yaşamışdır (415, s.40-41, 122-123). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim «hüdud, sərhəd, iki torpağı, mülkü və s.ni bir-birindən ayıran, xətt, mərz» (9, s.114), «iki yaşayış məntəqəsi arasındakı məsafə», «ortalıq» (339, s.52) mənasında işlənən ara sözünə məkan anlamı bildirən -lıq şəkilçisinin artırılmasından əmələ gəlib «aralıqda, iki yaşayış kəndinin arasında, iki kəndin sərhəddində yerləşən kənd» mənasını bildirir. Relyefli bağlı yaranan düzəltmə quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Yerezqavors qoyulmuşdur.

**Aralıq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Alagöz dağının qərb ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.18) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 16 nəfər, 1873 - cü ildə 172 nəfər, 1886-cı ildə 162 nəfər, 1897-ci ildə 214 nəfər, 1904 - cü ildə 193 nəfər, 1914 - cü ildə 205 nəfər, 1916-cı ildə 194 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir.

Toponim Azərbaycan dilində «iki obyektin arası, ortalıq» mənasında işlənən aralıq sözü əsasında əmələ gəlib «aralıqda yerləşən kənd» mənasında ifadə edir. Relyef əsasında əmələ gələn düzəltmə toponimdir.

**Aralıq qoyun -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Gölkənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). 40-cı illərin axırlarında ləğv edilmişdir.

Toponim «iki yerin arası, ortalıq, orta, ara» mənasında işlənən aralıq sözü ilə (9, s. 117) «dərə, çuxur, dayaz dərə» mənasında işlənən qoyun//qoyın sözünün (339, s.282) birləşməsindən əmələ gəlmişdir. Qoyun//qoyın sözü türk dillərində mənfi relyef mənasını bildirir (339, s.282). Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aralıq Kolanlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənub-qərbdə, Alagöz dağının qərb tərəfində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Aralıx formasında (348, s.18) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı həm Aralıq, həm də Aralıq Kolanlı formalarında qeyd edilir (415, s.84). Kənddə 1831-ci ildə 284 nəfər, 1873 - cü ildə 676 nəfər, 1886-cı ildə 701 nəfər, 1897-ci ildə 886 nəfər, 1904 - cü ildə 768 nəfər, 1914 - cü ildə 887 nəfər, 1916-cı ildə 772 nəfər, 1919 - cu ildə 1118 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 152-153). 1919 - cu ilin sonunda kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 224 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 294 nəfər azərbaycanlı yaşamışdır (415, 84-85, 152-153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə kənddə yaşayan azərbaycanlılar 1948-49

- cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana deportasiya olunmuşdur. 1986-cı ildə çap edilmiş «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə burada yaşayan azərbaycanlı əhali erməni əhalisi kimi göstərilir (427, s.962). Guya, burada elə tarixən ermənilər yaşamışdır. Bu, erməni saxtakarlığının bir formasıdır.

Toponim Azərbaycan dilində «orta, iki yerin arası, ara» mənasında işlənən aralıq sözü ilə mənsubluq bildirən -lı şəkilçisinin qəbul etdiyi **kolanı** türk tayfa adı (212, s.36) əsasında əmələ gəlib «aralıqda kolanı tayfasına aid kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı əvvəlcə dəyişdirilib Aralıq, sonra Erm. SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə yenidən dəyişdirilib Qriboyedov qoyulmuşdur.

**Aralıq Oxçu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Oxçu çayı ilə Pirdavdan (Pircavidan) çayının qovuşduğu yerdə, Oxçu kəndinin yanında yerləşmişdir.

Kənddə 1897-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar erməni təcavüzü nəticəsində deportasiya olunmuş, kənd ləğv edilmişdir. Kənd iki çayın (Oxçu və Pirdavdan) çayının arasında salındığı üçün Aralıq Oxçu adlandırılmışdır və «Oxçu çayının arasında yerləşən kənd» deməkdir.

Toponimin I tərəfi «iki yerin arası» mənasında işlənən aralıq sözündən,ll tərəfi türk mənşəli **oxçu** etnonimindən ibarətdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Arbat -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-qərbdə, Zəngi çayından axan Şiraabad arxının yanında yerləşir. Zəngibasar rayonu yaradılanadək, 1969 - cu ilə kimi Vağarşabad rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Arebat kimi (143, s.77), Qafqazın 5 verstlik xəritəsində Arbat formasında (348, s.18) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 391 nəfər, 1897-ci ildə 671 nəfər, 1914 - cü ildə 1160 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuş və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. Ermənilərlə yanaşı burada 1922-ci ildə 263 nəfər, 1926-cı ildə 341 nəfər, 1931-ci ildə 263 nəfər azərbaycanlı yaşamışdır (415, s.81, 151). SSRİ Nazirlər Sovetinin 1948-ci il xüsusi qərarları ilə azərbaycanlılar 1948-53 - cü illərdə zorla Azərbaycana köçürülmüşdür.

«Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» kitabında azərbaycanlılar erməni əhalisi kimi verilmişdir. Belə ki, 1897-ci ildə burada 677 nəfər azərbaycanlı, 1926-cı ildə 341 nəfər azərbaycanlı, 214 erməni yaşamışdır (415, s.81). «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə həmin rəqəmlər ermənilərə aid edilmişdir (427, s.401).

Toponim qədim türk dilində «yulğun» bitki adı mənasında işlənən arubat sözündən (299, s.58) əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca sadə toponimdir.

**Arqel -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 22 km şimal-şərqdə, Ərzini yaşayış məntəqəsindən 10 km şimalda, Zəngi (Razdan) çayının sağ tərəfində yerləşir. 1972-ci ilə kimi Əştərək rayonunun tərkibində olmuşdur. Kəndin digər adı «Arkel»dir (415, s.22).

Kənddə 1873 - cü ildə 330 nəfər, 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.107). 1953 - cü ildə Lusakertlə birləşdirilərək ayrıca yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim monqol dilində «şimal», «arxa», «dal, tərəf», «dağın gün düşməyən tərəfi» mənasında işlənən ar sözü ilə (339, s.52), türk dilində «göl» mənasında işlənən qel sözünün (339, s.52) birləşməsindən əmələ gəlmişdir «Qel» «göl» sözünün fonetik variantıdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ardanış -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 23 km şimalda, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərdanuc (143, s.62), Qafqazın 5 verstlik xəritəsində Ardanic formasında (348, s.18) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 119, 1873 - cü ildə 389, 1886-cı ildə 602, 1897-ci ildə 788, 1908-ci ildə 1000, 1914 - cü ildə 1045, 1916-cı ildə 1158, 1919 - cu ildə 1154 nəfər yalnız azərbaycanlı yaşamışdır(415, s.30-31, 114-115).

1919 - cu ilin əvvəllərində (fevral-mart aylarında) ermənilər, kəndin sakinlərini qırğınlarla qovmuşlar və kənd əhalisi Azərbaycana qaçmışdır. Indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan ardanışlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 1138, 1926-cı ildə 1257, 1931-ci ildə 1246 (415, s.31, 115), 1939 - cu ildə 1643, 1959 - cu ildə 1406, 1970-ci ildə 2034, 1979 - cu ildə 2137 nəfər (427, s.491), 1986-cı ildə 2500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın 24-dən 28-dək Ermənistan dövləti tərəfindən kənd sakinləri tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «dağ», «dağlıq», «dağ kəndi» mənasında işlənən art sözündən (299, s.55) və məkan anlayışı bildirən -an və -ış sözdüzəldici şəkilçisindən ibarət olub «dağlıq yerdə yerləşən kənd» mənasını bildirir. Kəndin relyefi bu məna ilə uyğun gəlir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Arıqlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Erməni mənbələrində Ariklu formasında qeyd edilmişdir (415, s.146). Kənddə 1873 - cü ildə 60 nəfər, 1886-cı ildə 106 nəfər, 1897-ci ildə 88 nəfər, 1908-ci ildə 126 nəfər, 1914 - cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya edilmiş və kənd dağılıb xarabalığa çevrilmişdir.

Toponim türk mənşəli arıq etnoniminə (271, s.24) mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Arıqlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.19). Arıqlı etnonimindən əmələ gəlmişdir. Etnotooronimdir. Quruluşca sadə oronimdir.

**Arıqlı çay** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda çay. Rayondan axan Bazarçayın (Orotan) sağ qolu. Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir. İlk dəfə Q.Alişanın «Sisakan» əsərində xatırlanınışdır (427, s.326). Arıqlı etnonimini əsasında yaranan etnohidronimdir.

**Arıxvəli** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 24 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.128), Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir.

Toponim türk mənşəli arıq etnonimi ilə (271, s.24) Vəli şəxs adından əmələ gəlmişdir. «Arıq (Arıx) tayfasından olan Vəliyə məxsus kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 21.X.1967-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lernut qoyulmuşdur.

**Armaş** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 25 km məsafədə yerləşir.

Toponim türk dilində «möhkəm, qüvvətli» mənasında işlənən armas sözü (359,I(1), s.340) əsasında formalaşmışdır.

**Armudlu** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim meyvə adı bildirən armud sözünə -lu şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Armudlu** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir. Toponim armud bitki adına çoxluq mənası bildirən -lu şəkilçisinin artırılması ilə düzəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Tufaşen (Tuf kəndi) qoyulmuşdur.

**Armudlu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun ərazisində kənd olmuşdur. Dəstəgird Kəndindən 1 km aralı, dağın ətəyində yerləşirdi. 1918-ci ildə xarabalığa çevrilib.

Toponim armud meyvə adına -lı şəkilçisinin artırılması ilə düzəlib. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Armudlu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.

Toponim armud bitki adına -lu şəkilçisinin artırılması əsasında əmələ gələn fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Armudlu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Armud bitki adı əsasında yaranmışdır. Fitohidronimdir.

**Armudlu dərəsi** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dərə. İkinci növ təyini söz birləşməsi əsasında əmələ gələn mürəkkəb quruluşlu mikrotoponimdir.

**Armudlu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda dərə. Rayondakı Toxluca kəndinin qərbində yerləşir.

**Arpa -** İrəvan quberniyasının Ateksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunun ərazisində kənd olmuşdur. Kənddə qarapapaq türk tayfası yaşamışdır. 1940-cı illərdə ləğv edilmişdir.

Toponim tarixdə yaşamış Elxani tayfasından olan Arpanın (əsli Arpaqaun) adı (238, s.156) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Arpa -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə, Arpa çayının yanında yerləşir. Burada 1321-ci ildə tikilmiş qədim alban abidəsinin-məbədinin qalıqları indi də durur. Mənbələrdə Arpanyal, Arbanyal kimi də xatırlanır (427, s.421). Qafqazın 5 verstlik xəritəsində (348, s.20) qeyd edilmişdir. Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 34 nəfər, 1926-cı ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91). 30 - cu illərdə azərbaycanlılar qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Arpa türk şəxs adı (238, s.156) əsasında formalaşmışdır. Görünür, sonralar tayfa adı kimi sabitləşmişdir. H.Mirzəyev toponimin türk tayfa adından əmələ gəldiyini göstərir (211, s.237).

Erm.SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə dəyişdirilib Areni qoyulmuşdur.

**Arpa dərəsi -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda qala. Craşen Kəndindən 1 km qərbdə yerləşir.

**Artalas -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Elpin kəndindən qərbdə, Qozluca kəndinin yanında yerləşirdi. Mənbələrdə kəndin adı Artaras, Artaraz, Artarax, Artaraq (427, s.501,) Ardalas (Сборник сведений о Кафказе, т.V, Тифлис, 1979, № 791) formalarında qeyd edilmişdir. Kənddə 1831-ci ildə 30 nəfər, 1873 - cu ildə 219 nəfər, 1886-cı ildə 304 nəfər, 1897-ci ildə 332 nəfər, 1904 - cü ildə 353 nəfər, 1914 - cü ildə 388 nəfər, 1916-cı ildə 507 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə mə'ruz qalaraq deportasiya olunmuş və yalnız indiki Ermənistanda sovet hökuməti qıurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 114 nəfər, 1926-cı ildə 120 nəfər, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.91, 161). Kənd 1939-40-cı illərdə ləğv edilmişdir.

Toponim türk dilində «dağlıq, dağ keçidi, təpə» mə’nasında işlənən **art** sözü ilə (299, s.55) türk dilində «açıq yer, tala» mə’nasında işlənən **alas** (əsli alan) sözünün (339, s.44-46) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Artız -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsinlə (348, s.20) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 221 nəfər, 1886-cı ildə 267 nəfər, 1897-ci ildə 426 nəfər, 1904 - cü ildə 293 nəfər, 1914 - cü ildə 480 nəfər, 1916-cı ildə 466 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına mə'ruz qalaraq depertarsiya olunmuş, kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurululandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 63 nəfər, 1926-cı ildə 39 nəfər, 1931-ci ildə 74 nəfər azərbaycanlı yaşamışdır (415, 44-45, 124-125). Azərbaycanlılar 1948-49 - cu illərdə Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «ardıc, ardıc kolu» mə'nasında işlənən artız sözündən (299, s.57) əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Gehard qoyulmuşdur.

**Artik -** İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. İndi Ermənistan adlanan respublikada rayon və rayon mərkəzi. Alagöz dağının şimalında, dəniz səviyyəsindən 1750 metr hündürlükdə yerləşir. İlk dəfə VII əsrdə bir mənbədə adı çəkilir (427, s.438). Qafqazın 5 verstlik xəritəsində (348, s.20) qeyd edilmişdir. 1924 - cü ilə kimi Aleksandropol qəzasına tabe idi.

Erm.SSR AS RH-nin 20 oktyabr 1938-ci il tarixli fərmanı ilə qəsəbə adlandırılmışdır. Tarixən burada azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1829-30 - cu illərdə Türkiyənin Ərzurum və Qars vilayətlərindən köçürülümüşdür (427, s.438).

Ermənilər toponimin erməni dilində kişi mə'nasında işlənən «ayr» sözü ilə fars dilində «yuxarı, yüksək» mə'nasında işlənən «tik» sözündən əmələ gəldiyini göstərirlər (427, s.438). Əvvəlcə onu qeyd edək ki, «tik» fars sözü yox, əsl Azərbaycan sözüdür.

Toponim qədim türk dilində «dağ keçidi» (359, I(1), s.309), «dağ, dağlıq» (299, s.55) mə'nasında işlənən **art** sözünə -ik şəkilçisinin artırılması ilə düzəlmişdir, -ik şəkilçisi qədim türk dilində məkan anlayışı bildirən isimlərə də qoşulmuşdur. Buna VII-XIII əsrlərə aid qədim türk abidələrində rast gəlinir (299, s.660).

Artik dağlıq yerdə yerləşir. Deməli, oykonimin adı əraziyə uyğun verilmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Artik vəng -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda qala.

**Arx qırağı -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonun ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Arxac -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında indiki Keşişkənd (Yeqeqnadzor) rayonu ərazisində kənd. Kənddə 1897-ci ildə 587 nəfər, 1926-cı ildə 80 nəfər azərbaycanlı yaşamışdır (85, s.353). 40-cı illərdə kənd ləğv edilmişdir.

Toponim «qoyun, mal yatağı» mə'nasında işlənən arxac sözündən (9, s.129) əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Quruluşca sadə toponimdir.

**Arxaşan -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda dağ. İstisu (Cermuq) şəhərinin şərqində yerləşir.

**Arxaşan -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunda qışlaq. Rayondakı Hallavar kəndinin ərazisində yerləşirdi. Toponim Azərbaycan dilində «arxın tirədən keçdiyi yer» mə'nasında işlənən arxaşan sözü (253, s.120) əsasında əmələ gəlmişdir.

Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Arxaşan çay -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində çay.

**Arxüstü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Yuxarı Kirətaq kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55). XX əsrin əvvələrində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunaraq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənd arxın üstündə salındığı üçün Arxüstü adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Arcut -** İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda kənd. Kirovakan şəhərindən 6 km şimal-qərbdə, Bozabdal dağının ətəyində, Pəmbək çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində Arçut kimi qeyd edilmişdir (348, s.21). Kənddə 1831-ci ildə 137, 1873 - cü ildə 357, 1886-cı ildə 477, 1897-ci ildə 574, 1914 - cü ildə 759 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). Kəndin sakinləri 1918-ci ildə erməni təcavüzünə mə'ruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. 1922-ci ildə 697, 1926-cı ildə 820, 1931-ci ildə 886 (415, s.51, 131), 1939-cı ildə 1052, 1959 - cu ildə 1295, 1970-ci ildə 2009, 1979 - cu ildə 2172 nəfər (427, s.484) azərbaycanlı yaşamışdır.

1988-ci ilin noyabrında kəndin sakinləri Ermənistan dövləti tərəfindən qırğınlarla qovulmuşdur. İndi kənddə ermənilər məskunlaşıb.

Toponim artuç (ardıc İ.B.) bitki adı (299, s.57) əsasında yaranmışdır. Fitotoponimdir. Quruluşca sadə toponimdir.

**Aslan xaraba -** İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonu ərazisində kənd. Şahalı dəmiryolu stansiyasının yaxınlığında yerləşmişdir. Azərbaycanlılara məxsus qəbiristanlığın xarabalıqları indi də durur.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Asnı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Saraybulaq dağ silsiləsinin cənubunda, Asnı dərədə, Daşbulağın yanında yerləşir.

Kənddə 1831-ci ildə 41, 1873 - cü ildə 79, 1886-cı ildə 72, 1897-ci ildə 208, 1904 - cü ildə 165, 1914 - cü ildə 292, 1916-cı ildə 138 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-ci ildə azərbaycanlılar qırğınlarla qovulmuş və kənd 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim iki komponentdən ibarətdir. Birinci komponent türk mənşəli az//as etnonimdən, ikinci komponent mənsubluq, aidlik bildirən -nı şəkilçisindən ibarətdir. Sonralar bu iki komponentin (as+nı) əsasında asnı türk tayfa adı yaranmışdır. Asnı tayfası indi Naxçıvanın Sədərək qəsəbəsində yaşayır və türkoloq dilçi Cəfər Cəfərovun özü bu tayfadandır (69, s.31, 36). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Atqız -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Oxçu çayının sol sahilində, Oxçu kəndindən 2 km şimalda, Pirhəmzə dağının cənub-qərbində, Qafan-Gecalan avtomobil yolundan 2 km şimalda dağ döşündə yerləşirdi (85, s.133). 1959 - cu ildə Kecalan şəhəri ilə birləşdirilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.22).

Kənddə 1831-ci ildə 37 nəfər, 1873 - cü ildə 105 nəfər, 1886-cı ildə 120 nəfər, 1897-ci ildə 242 nəfər, 1908-ci ildə 198 nəfər, 1914 - cü ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 132-133). 1916-18-cı illərdə azərbaycanlılar deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Burada 1926-cı ildə 74 nəfər, 1931-ci ildə 101 nəfər azərbaycanlı yaşamışdır (415, s.55, 133). 1988-ci ilin noyabr ayında azərbaycanlılar tamamilə öz doğma ocaqlarından qovulmuşdur. Toponim oğuz türk tayfa adının fonetik forması olan qız etnonimi əsasında yaranmışdır.

**Atqoç -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. XIX əsrin əvvəllərində ləğv edilmişdir.

Toponim türk dilində ad mə'nasında işlənən at sözü ilə (299, s.64), «düşərgə» mə'nasında işlənən koç, koş sözünün (299, s.311) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Artdaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. 1950-ci ildə ləğv edilmiş və yaxınlıqda Qaraçı kəndi salınmışdır. Toponim türk dilində «dağlıq, dağ keçidi» mə'nasında işlənən art sözü ilə (299, s.55) «dağ, qaya» mə'nasında işlənən **daş** sözü əsasında yaranmışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Atdaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay.

**Atcar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində, Ağca kəndi yaxınlığında, Arpaçayın yuxarı axarında yerləşən kənd. Erməni mənbələrində kəndin 930 - cu ildə salındığı göstərilir (427, s.372). Kəndin digər adı «Adcar»dır (427, s.36).

Toponim Azərbaycan dilində işlənən at sözü ilə türk dilində «dik, sahil», «sıldırım, yarğan, uçurum», «dik qaya» mə'nasında işlənən çar sözündən (339, s.607) əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Auş -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Arpa çayının sol qolu ilə Qabaqlı çayının yuxarı axarı arasında (85, s.352), Gəlinqaya selavının yanında yerləşirdi. XIII əsrdə Amağu məbədinə tabe idi. Kəndin adı Ayuş (85, s.352) və Aveş kimi də (Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 802) göstərilir. Qafqazın 5 verstlik xəritəsində (348, s.22) qeyd edilmişdir. Kənddə 1873 - cü ildə 28, XX əsrin əvvəllərində 50 azərbaycanlı evi olmuşdur (85, s.352). XX əsrin ortalarında kənd ləğv edilmişdir, indi xaraba kənddir.

Toponim qədim avşar// afşar etnonim (399, s.56) əsasında əmələ gəlmişdir. Avşar etnonimi qədim qaynaqlarda aveş //auş formalarında da verilmişdir (92, s.16). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Axarbaxar -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonun ərazisində dağ. Adı dəyişdirilib Porak qoyulmuşdur. Mürəkkəb quruluşlu oronimdir.

**Axdala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda qala. Rayondakı Axtala şəhər tipli qəsəbənin ərazisində yerləşir. X-XIII əsrlərdə inşa edilmişdir.

**Axdərə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasındı, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda çay.

**Axnçı -** Tiflis quberniyasının Qazax qəzasında, indiki Şəmşəddin rayonunda qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim türk dilində «talançı əsgər» (359, I(1), s.100), «cəld, sürətlə hərəkət edən dəstə» (летучий отряд, 299, s.48) mənasında işlənən akmçı//aqınçı sözü əsasında yaranmışdır.

**Axsaxlı -** İrəvan xanlığında mahal. İndiki Əşətərək rayonunun ərazisini əhatə edirdi. Toponim türk dilində «uca, hündür» mə’nasında işlənən ağ sözü ilə mənsubluq bildirən -lı şəkilçisi qəbul etmiş sak (sax-İ.B) türk etnonimi (402, s.73-80, 91-96; 235, s.31, 34, 47, 287, s.321-329) əsasında əmələ gəlmişdir. Bu etnonimin haqqında ilk mə'lumat Strabonun «Coğrafiya» əsərində verilir (377, s.483-484). Türk etnonimiyasında ağhun, qarahun tayfa adlarının olmasını nəzərə alıb qeyd edə bilərik ki, Ağsaxlı toponimi axsak etnonimi əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Axsu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasındı, indiki Şəmşəddin rayonunda meşə məntəqəsi. 1959 - cu ildə 70 nəfər azərbaycanlı yaşamışdır (427, s.121). 1960-cı ildə əhalisi köçürülərək kənd ləğv edilmişdir. Binaların uçuqları indi də durur. Ölü kənddir.

Toponim türk dilində «kiçik, balaca» mə’nasında işlənən ağ sözü ilə (359, I(1), s.96) türk dilində «çay, kiçik çay, kiçik köl» mə’nasında işlənən su sözündən (299, s.512; 339, s.528-529) əmələ gəlib. «Kiçik çay yanında yerləşən kənd» mə'nasını ifadə edir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Axta -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda qəsəbə və rayonun inzibati mərkəzi. Zəngi çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftərin»də Axtu formasında (143, s.53), Qafqazın 5 verstlik xəritəsində Axta kimi (348, s.23) qeyd edilmişdir. Toponim oğuz tayfası - padarların bir qolunu təşkil edən axta etnonimi (286, s.57) əsasında formalaşmış etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm.SSR AS RH-nin 30.V.1956-cı il tarixli fərmanı ilə adı dəyişdirilib Razdan qoyulmuşdur.

**Axta -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-şərqdə, Arpa çayının sol qolu olan Axtaçay dağ çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.60), Qafqazın 5 verstlik xəritəsində (348, s.23) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 187 nəfər, 1873 - cü ildə 290 nəfər, 1886-cı ildə 304 nəfər, 1897-ci ildə 426 nəfər, 1904 - cü ildə 458 nəfər, 1914 - cü ildə 504 nəfər, 1916-cı ildə 463 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, 88-89, 158-159). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə mə'ruz qalaraq deportasiya olunmuşlar. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 129 nəfər, 1926-cı ildə 128 nəfər, 1931-ci ildə 199 nəfər, (415, s.89, 159), 1939 - cu ildə 268 nəfər, 1959 - cu ildə 202 nəfər, 1970-ci il də 379 nəfər (427, s.122) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. İndi ermənilər yaşayır.

Toponim padar türk tayfasından olan axta etnonimi (286, s.57) əsasında əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

**Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda şəhər tipli qəsəbə. Rayon mərkəzindən 10 km şimal-şərqdə, Şamlıq kəndinin yaxınlığında yerləşir. Buranın qədim sakinləri azərbaycanlılar olmuşdur. XVIII əsrin ortalarında kəndə İran və Türkiyədən ermənilər köçürülmüşdür. Qəsəbədə 1959 - cu ildə 100 nəfər azərbaycanlı, 424 nəfər erməni, 1970-ci ildə 120 nəfər azərbaycanlı, 541 nəfər erməni yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim türk tayfası - padarların bir qolunu təşkil edən axta etnonimi (286, s.57) əsasında formalaşmış etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda qala. Tona (Debet) çayından 2-2,5 km qərbdə yerləşir. Qala XIII əsrdə tikilmişdir.

**Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda selav. Uzunluğu 14 km-dir.

**Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda mədən yeri. Rayon mərkəzindən 10 km şimal-şərqdə yerləşir.

**Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonu ərazisində çay. Tona (Debet) çayının sol qoludur. Adı dəyişdirilib Hovanadzor qoyulmuşdur.

**Axtaxana -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Toponim atçılıqla məşğul olan **axta** etnonimindən (286, s.57) və fars dilində «yaşayış məntəqəsi, ev, kənd» mənasında işlənən **xana** sözündən (339, s.590) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı 1918-ci ildə dəyişdirilib Xlataq, sonra Erm.SSR AS RH-nin l.VI.1940-cı ilə fərmanı ilə adı yenidən dəyişdirilib Zorastan qoyulmuşdur.

**Axtacul -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd olmuşdur (427, s.123). Gomur kəndinin yaxınlığında yerləşirdi. İndi ləğv edilib.

Toponim padar türk tayfasının bir qolu olan axta etnonimi ilə (286, s.57) çul (çol//sul) qədim türk tayfa adının (287, s.111-114; 211, s.190-194) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Axund Buzovand -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 8-9 km şimal-şərqdə, Gərni çayı sahilində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.49), Qafqazın 5 verstlik xəritəsində (348, s.23) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 137 nəfər, 1873 - cü ildə 210 nəfər, 1886-cı ildə 254 nəfər, 1897-ci ildə 341 nəfər, 1904-cı ildə 322 nəfər, 1914 - cü ildə 385 nəfər, 1916-cı ildə 299 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İranın Xoy və Salmas bölgələrindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1922-ci ildən sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 161 nəfər azərbaycanlı, 11 erməni, 1931-ci ildə 195 nəfər azərbaycanlı, 19 nəfər erməni yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetin xüsusi qərarları ilə azərbaycanlılar 1948-49 - cu illərdə Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim xəzər türk tayfasından olan bozal etnonimində (286, s.45) öz əksini tapan bus (boz - İ.B) etnonimi ilə (287, s.253) türk mənşəli abant (avand –İ .B) etnoniminin (287, s.258) birləşməsindən əmələ gələn etnotoponimdir. Toponimin əvvəlində işlənən «axund» dini mənada işlənən sözdür. Mürəkkəb toponimdir.

1920-ci ildə kəndin adı dəyişdirilib Bzovan qoyulmuş, sonra Berdin kimi rəsmiləşdirilmişdir.

**Axura -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 2 km cənub-şərqdə, Allahverdi Kirovakan şose yolunun üstündə yerləşir.

**Açıxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 5-6 km şimal-qərbdə, Qır qalası dağının ətəyində yerləşir.

X-XIII əsrlərdə Açağu vəng formasında xatırlanır (427, s.303). Erməni mənbələrində kəndin adı Açağu, Açaxlu, Acıllu formalarında da qeyd olunmuşdur (415, s.54; 427, s.303).

Kənddə 1897-ci ildə 126 nəfər azərbaycanlı yaşamışdır (427, s.303). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə mə'ruz qalaraq deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri öz doğma yerlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 98 nəfər, 1931-ci ildə 120 nəfər (415, s.55, 133), 1939 - cu ildə 165 nəfər, 1959 - cu ildə 186 nəfər, 1963 - cü ildə 300 nəfər (427, s.303) azərbaycanlı yaşamışdır. 1968-69 - cu illərdə azərbaycanlılar kənddən çıxarılaraq kənd ləğv edilmişdir. İndi ölü kənddir. Toponim relyef əsasında yaranmışdır.

**Acıbac** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 40 km məsafədə, Kığı çayının sol qolu olan Acıbac çayının sahilində yerləşir. Kəndin adı həm də Acıbacı, Acıbazı formalarında işlənir.

Kənddə 1886-cı ildə 202 nəfər, 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 132-133). Sonradan azərbaycanlılar deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 77 nəfər, 1926-cı ildə 90 nəfər, 1931-ci ildə 115 nəfər (415, s.55, 132-133), 1939 - cu ildə 134 nəfər, 1959 - cu ildə 190 nəfər, 1970-ci ildə 227 nəfər, 1979 - cu ildə 202 nəfər (427, s.316) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar tamamilə öz doğma yerlərindən deportasiya edilmişdir.

Toponim türk dilində «hündür dağ aşırımı» mə'nasında işlənən acı sözü ilə (337, s.238) Azərbaycan dilində «düzən yerdə tirə, təpəcik, hündür yer» mənasında işlənən bazı sözünün (253, s.120) fonetik forması olan **bac** sözünün birləşməsindən əmələ gəlmişdir. **Acı** sözü Dağlıq Altayın türk mənşəli toponimlərin tərkibində aju//ajı formalarında işlənir. Acı sözü qədim türk dilində aju formasında «geniş dərə», «yarğan», «çökəklik» mənalarında işlənmişdir (359, I(1), s.610). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Acibac qoyulmuşdur.

**Acılu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 14 km şimal-qərbdə, Oxçu çayının sağ qolu olan Əfsərli çayının sağ sahilində yerləşir. Erməni mənbələrində Acılu, Acrlu, Acrli, Tunis Acilu formalarında qeyd edilir (427, s.316).

Kənddə 1831-ci ildə 79 nəfər, 1873 - cü ildə 134 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 126 nəfər, 1908-ci ildə 335 nəfər, 1914 - cü ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 132-133). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə mə'ruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 124 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 78 nəfər (415, s.55, 133), 1959 - cu ildə 69 nəfər (427, s.316) azərbaycanlı yaşamışdır. Sakinləri qonşu Müsəlləm kəndinə köçürülmüş və 1960-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim acurlu (>acılu) türk etnonimi (238, s.184; 142, s.92) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Acılu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunun ərazisində kənd. Rayondakı Tey kəndinin yaxınlığında yerləşirdi. XVIII əsrin axırı, XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi ölü kənddir (427, s.316). Toponim acırlı türk etnoniminin adı (238, s.184) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Aşağı Ağbaş** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə, Çatmadağın ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.3) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-ci illərdə İranın Salmas və Xoy bölgələrindən köçürülüb yerləşdirilmişdir(427, s.431).

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 11 nəfər, 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47).

Toponim türk mənşəli ağbaş etnonimi (238, s.323; 92, s.24) əsasında əmələ gəlmişdir. «Aşağı» fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Arevşat qoyulmuşdur.

**Aşağı Ağdan** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 21 km məsafədə yerləşir.

Toponim türk dilində «kiçik, alçaq, çox da hündür olmayan» mənasında işlənən ağ sözü ilə (94, s.68) «çöl, səhra, açıq yer» mənasında işlənən dan sözünün (287, s.470) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.V.1967-cı il fərmanı kəndin adı ilə dəyişdirilib Morut, ll.XI.1970-ci il fərmanı ilə yenidən dəyişdirilərək Aknaxbyur qoyulmuşdur.

**Aşağı Ağ körpü** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.5). Qarakilsə kəndinin 95 km-liyində yerləşirdi. Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə ağ və körpü sözlərindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Ağcaqala** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə, Alagöz dağının cənub-qərb tərəfində yerləşir. Kəndin digər adı Hacıqala olmuşdur (415, s.34). Qafqazın 5 verstlik xəritəsində (348, s.4) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 53 nəfər, 1873 - cü ildə 398 nəfər, 1886-cı ildə 502 nəfər, 1897-ci ildə 617 nəfər, 1904 - cü ildə 315 nəfər, 1914 - cü ildə 334 nəfər, 1916-cı ildə 733 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). 1918-ci ildə kənd erməni təcavüzünə mə'ruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və 1915-18-cı illərdə Türkiyənin Sasun vilayətinin Arzvik, Qrmav, Qdzak, Kaşkşenk kəndlərindən və Muş vilayətindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s.545). Göründüyü kimi, 1918-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Erməni mənbələrində tarixi faktlar saxtalaşdırılaraq kənddə 1831-ci ildə və 1897-ci ildə azərbaycanlıların yox, ermənilərin yaşadığı göstərilir (427, s.545).

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən **aşağı** sözü ilə türk dilində «ağımtıl, quru, bozumtul düzən, çöl» mə’nasında işlənən ağca sözünə (93, s.22-23) qala sözünün qoşulmasından əmələ gəlib «ağımtıl, bozumtul yerdətikilən qala yanındakı kənd» mə'nasının ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Emı.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Nerkin Bazmaberd (Aşağı Rəngbərəng, çal qala) qoyulmuşdur.

**Aşağı Adyaman -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə, Adyaman çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.61), Qafqazın 5 verstlik xəritəsində (348, s.7) qeyd edilmişdir. Adyaman kəndindən köçənlər yeni yaşayış yerlərinə Aşağı Adyaman qoymuşlar. 1897-ci ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.64-65). Ermənilər buraya 1828-29 - cu illərdə Türkiyənin Alaşkerd bölgəsindəki Topraqqala kəndindən köçürülmüşdür (427, s.844). Mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Nerkin Getaşen (Aşağı Çaykənd) qoyulmuşdur.

**Aşağı Altuntaxt -** İrəvan xanlığının Göycə mahalında, indiki Kəvər (Kamo) rayonu ərazisində kənd. XVIII əsrdə ləğv edilmişdir (427, s.79). Indi ölü kənddir.

Toponim vulkan mənşəli qaya adlarında qırmızı mə’nasında işlənən altun sözü ilə «dağın zirvəsində hamar, düzən yer» mə’nasında işlənən taxt sözünün (339, s.,547; 210, s.5) birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki «aşağı» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Alçalı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 18 km şimal-şərqdə, Göyçə gölündən 2 km aralıda, Alçalı çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.14) qeyd edilmişdir.

XIX əsrin 20-cı illərinə qədər burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-30 - cu illərdəTürkiyənin Alaşkerd bölgəsindən köçürülən ermənilər burada yerləşdirilmişdir. Azərbaycanlılar həmin vaxtdan kənddən qovulmuşdur.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə məasubluq bildirən -lı şəkilçisi qəbul etmiş alça bitki adı əsasında əmlə gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponiındir.

Erm.SSR AS RH-nin 27.IX.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ardzvanist qoyulmuşdur.

**Aşağı Axta -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Zəngi çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.23) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 119 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). **XX** əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və kənd ermənilərin yaşayış məntəqəsinə çevrilmişdir. 1926-cı ildə kənddə cəmi 3 nəfər azərbaycanlı yaşamış (415, s.16-17) və sonralar onlar da qovulmuşlar. Kənd rayon mərkəzi ilə birləşdirilmişdir.

Toponim fərqləndirmə mə'nasını bildirən aşağı sözü ilə padar türk tayfasının bir qolunu təşkil edən axta etnoniminin (286, s.57) birləşməsindən əmələ gəlmiş etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 30.VI.1959 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Razdan qoyulmuşdur.

**Aşağı Axtala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasındı, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Borçalı (Debet) çayının sol sahilində, Ləlvər dağının ətəyində yerləşir. Bura tarixən azərbaycanlıların yaşayış məntəqəsi olmuşdur. 1770-cı ildə mis mədənlərini işlətmək üçün buraya yunanlar köçürülmüşdür. Kənddə azərbaycanlılarla yanaşı, erməni və yunanlar da yaşamışdır (415,

s.67). Burada 1897-ci ildə 69 azərbaycanlı yaşamışdır (415, s.67). 1918-ci ildə azərbaycanlılar qovulmuş, kəndə əlavə olaraq ermənilərlə yanaşı yunanlar yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir hissəsi öz doğma kəndlərinə qayıda bilmişdir. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı, 51 nəfər erməni, 71 nəfər yunan, 1931-ci ildə 10 nəfər azərbaycanlı, 114 nəfər erməni, 124 nəfər yunan (415, s.7, 98-99), 1939 - cu ildə 398 nəfər azərbaycanlı, erməni və yunan (427, s.115) yaşamışdır. Yaşayış məntəqəsini ləğv etmək məqsədilə Axtala şəhər tipli qəsəbəsi ilə birləşdirilmiş və azərbaycanlılar SSRİ Nazirlər sovetinin 1948-ci il qərarına əsasən Azərbaycana köçürülmüşdür. İndi orada yalnız ermənilər yaşayır.

Toponim «istiqamət, fərqləndirmə» mə'nasında işlənən **aşağı** sözü ilə padar türk tayfasının bir qolu olan axta etnonimi əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Bədili -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Talin rayonu ərazisində kənd. 1918-ci ildə kəndin sakinləri erməni təcavüzü nəticəsində deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə ləğv edilmişdir.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən **aşağı** sözü ilə oğuzların **bəydili** (bədili - İ.B) etnonimi (399, s.56; 238, s.288-300) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Qanlıca -** İrəvan quberniyasının Aleksandropol qəzasındı, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Gümrü-Amasiya yolunun 12 kilometrliyində yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Ermənilər buraya 1828-29-cu illərdə Türkiyədən köçürülmüşdür.

Toponim türk mənşəli qanlı etnoniminə (393, s.42-53) -ca şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki «aşağı» sözü fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Vahramabad qoyulmuşdur.

**Aşağı Qarabağlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Kəndin başqa adı Çimənkənd olmuşdur. 1950-ci ilədək indiki Ermənistan ərazisində mövcud olan Qarabağlar rayonunda inzibati-ərazi bölgüsünə daxil olmuşdur. Qarabağlar rayonu ləğv ediləndən sonra (1950-ci il ) ərazisi Vedi rayonunun tabeliyinə verilmişdir.

Rayon mərkəzindən 9 km şərqdə, Vedi çayının yanında yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Aşağı Qarabağ formasında (143, s.172), 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Kiçik Qarabağ (143, s.104) formasında, Qafqazın 5 verstlik xəritəsində Aşağı Qarabağlar kimi (348, s.114) qeyd edilmişdir,

Kənddə 1873 - cü ildə 756 nəfər, 1886-cı ildə 924 nəfər, 1897-ci ildə 1260 nəfər, 1904 - cü ildə 1725 nəfər, 1914 - cü ildə 1879 nəfər, 1916-cı ildə 2026 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-19 - cu illərdə azərbaycanlılar qırğınlarla qovulmuş və 1920-ci ildən sonra Türkiyədən köçürülən ermənilər eyni zamanda bu kənddə yerləşdirilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişlər.

Burada 1922-ci ildə 880 nəfər azərbaycanlı, 210 nəfər erməni, 1926-cı ildə 690 nəfər azərbaycanlı, 141 nəfər erməni, 1931-ci ildə 663 nəfər azərbaycanlı, 178 nəfər erməni və kürd (415, s.87, 157), 1939 - cu ildə 4600 nəfər azərbaycanlı (85, s.237) yaşamışdır. 1948-53 - cü illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. İndi burada təkcə ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən aşağı və kəngərli tayfasına mənsub qarabağlar etnonimi əsasında (168, s.99) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

1918-1920-ci illərdə kəndin adı dəyişdirilib Çimənkənd, sonra Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə yenidən dəyişdirilərək Uradzadzor qoyulmuşdur.

**Aşağı Qaraqala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Kalinino rayonunda kənd. 1930 - cu ildən sonra rayonun yuxarı Qaraqala kəndi ilə birləşdirilib Qaraqala kəndi yaradılmışdır. 1937-ci ilədək, Kalinino rayonunun yaranmasına kimi Cəlaloğlu (Stepanavan) rayonun tərkibində olmuşdur. Burada 1926-cı ildə 135 nəfər, 1931-ci ildə 71 nəfər azərbaycanlı yaşamışdır(415, s.78-79, 148-149).

Toponim türk dilində rəng mə'nasında işlənən qara sözü ilə qala sözündən əmələ gəlmişdir. Toponimin əvvəlindəki «aşağı» fərqləndirici əlamət bildirir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Aşağı Qaranlıq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Ermənistanda rayon və rayon mərkəzi. Göyçə gölünün sahilində, İrəvandan 130 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.118).

1939 - cu ilin sentyabrın 9-da rayon kimi yaradılmışdır. 1963 - cü ildən şəhər tipli qəsəbədir.

Toponim məkan mə'nası bildirən -lıq şəkilçisi qəbul etmiş, türk dilində «təpə», «qaya» mə'nasında işlənən **qara** sözü (339, s.256) əsasında əmələ gəlib «təpəlik, dağlıq, qayalıq yer» mə'nasını bildirir. Qara sözü ilə -lıq şəkilçisi arasındakı «n» bitişdirici samit funksiyasını yerinə yetirir. Kənd, doğrudan da, qayalıq, dağlıq bir yerdə yerləşib və hər tərəf təpəlikdən, dağlıqdan ibarətdir. Kəndin relyefi adına uyğun gəlir. Toponimdəki «aşağı» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Oykonimin adı 1926-cı ildə dəyişdirilib Martuni qoyulmuşdur.

**Aşağı Qarakoymaz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-şərqdə, Alagöz dağının qərb tərəfində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Qarakovmaz formasında (348, s.117) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 49 nəfər, 1873 - cü ildə 265 nəfər, 1886-cı ildə 356 nəfər, 1897-ci ildə 233 nəfər, 1904 - cü ildə 394 nəfər, 1914 - cü ildə 418 nəfər, 1916-cı ildə 322 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 118-119).

1918-ci ildə kənd erməni təcavüzünə mə'ruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1915-18-cı illərdə Türkiyənin Sasun, Taron və Muş vilayətlərindən köçürülən ermənilər və kürdlər burada yerləşdirilmişdir (415, s.34; 85, s.112). İndi ermənilər yaşayır.

Toponim türk dilində «böyük», «təpə», «dağın zirvəsi»,«zirvə» mə'nasında işlənən **qara** sözündən (339, s.256) və türkdilində kənd mə'nasında işlənən köy sözünün forması olan koy sözü ilə (339, s.282) «dağın cənub yamacı», «yüksəkliyin meşəsiz tərəfi», «dağın gün düşən tərəfi» mənasında işlənən mes(maz - İ.B) sözünün (339, s.369) birləşməsindən əmələ gəlmişdir. «Böyük dağın, təpənin gün düşən, cənub tərəfində olank ənd» mə'nasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Nerkin Sasunaşen qoyulmuşdur.

**Aşağı Qaraçimən-**Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 5 km şimal-şərqdə yerləşmişdir.

Kənddə 1831-ci ildə 11 nəfər, 1873 - cü ildə 63 nəfər, 1886-cı ildə 225 nəfər, 1897-ci ildə 34 nəfər, 1904 - cü ildə 216 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ilin dekabrın axırlarında ermənilər azərbaycanlıları qırğınlarla qovmuş və yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 210 nəfər, 1926-cı ildə 154 nəfər, 1931-ci ildə 212 nəfər azərbaycanlı yaşamışdır (415, s.57, 135). 1988-ci ilin noyabr ayında ermənilər azərbaycanlıları tamamilə qovmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «böyük, geniş» mə’nasında işlənən qara sözü ilə (142, s.271) «yaşıllıq, otluq» mə’nasında işlənən çimən (çəmən sözünün dialekt variantı) sözünün birləşməsindən əmələ gəlib «böyük çəmənlik» mənasını bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Qarxın -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 16 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.37), Qafqazın 5 verstlik xəritəsində (348, s.123) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 318 nəfər, 1873-cı ildə 369 nəfər, 1886-cı ildə 420 nəfər, 1897-ci ildə 586 nəfər, 1904 - cü ildə 568 nəfər, 1914 - cü ildə 604 nəfər, 1916-cı ildə 631 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş, kəndə 1915-18-cı illərdə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 169 nəfər, 1926-cı ildə 201 nəfər, 1931-ci ildə 212 nəfər azərbaycanlı yaşamışdır (415, s.83, 153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən «aşağı» sözü ilə oğuz tayfalarından olan **qarxın** (mənbələrdə qarqın, qarkın kimi qeyd edilir) etnonimi (238, s.300) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı dəyişdirilib Araks (Araz çayının ermənicə adı) qoyulmuşdur.

**Aşağı Qızqala -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Azərbaycan dilində r~z səs əvəzlənməsinin qanunauyğun hal olduğunu (2, s.234-248) nəzərə alıb qeyd edə bilərik ki, toponim qədim türk dilində «yayla» (399, s.324; 299, s.445) «çöl, dağ zirvəsi, dağ, təpə, dağ qılıcı» (339, s.327-328) mənasında işlənən qır (>qız) sözü ilə qala sözündən əmələ gəlmişdir. «Aşağı» fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Qoylasar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin başqa adı Sufla Qoylasar olmuşdur (415, s.48). Rayon mərkəzindən 10 km məsafədə, Xaraba Kotanlı kəndindən 7 km cənubda yerləşir.

Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə kəndə İrandan ermənilər köçürülmüşdür (386, s.551-554). Burada 1831-ci ildə 5 nəfər, 1873 - cü ildə 4 nəfər, 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). **XX** əsrin əvvəllərində (1905-1906) azərbaycanlılar qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət funksiyasında iştirak edən aşağı sözü ilə «qala» və «hasar» sözlərinin təhrif edilmiş forması olan qoylasar sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin l.XII.1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Dimitrov qoyulmuşdur.

**Aşağı Qulubəyli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Böyük Qarasu çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.147) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 298 nəfər, 1886-cı ildə 421 nəfər, 1897-ci ildə 501 nəfər, 1904 - cü ildə 718 nəfər, 1916-cı ildə 550 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə mə'ruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur və kəndə xaricdən köçürülən yezidi kürdlər yerləşdirilmişdir. 1940-cı ildə kənd ləğv edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə -li şəkilçisi qəbul etmiş Qulubəy şəxs adı əsasında əmələ gəlmişdir. «Qulubəyə mənsub kənd» mə'nasını ifadə edir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Darğalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 3-4 km şərqdə, Gərni çayından axan arxın yanında, Araz çayının yaxınlığında, Yuva kəndinin yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.100), Qafqazın 5 verstlik xəritəsində (348, s.75) qeyd edilmişdir. Burada tarixən, 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Kəndə ermənilər 1828-30 - cu illərdə Iranın Xoy və Salmas vilayətlərindən köçürülmüşdür (427, s.226).

Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 125 nəfər, 1873 - cü ildə 22 nəfər, 1886-cı ildə 36 nəfər, 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar soyqırımına mə'ruz qaralaraq deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Toponim monqol dilində «şəhər, qəza, mahal, vilayət hakimi» mə'nasında işlənən darğa sözünə (10, s.36) mənsubluq bildirən -lı şəkilçisinin artırılmasından əmələ gəlib «şəhər, qəza, mahal, vilayət hakiminə mənsub kənd» mə’nasını bildirir. «Aşağı» fərqləndirici əlamət bildirir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin l.XII.1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Anastasavan (26-lardan olan Anastas Mikoyanın şərəfinə), 30.XII.1957-ci il fərmanı ilə yenidən dəyişdirilərək Aygezard qoyulmuşdur.

**Aşağı Əylənli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənub-şərqdə, Kasax çayının sağ sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.8) qeyd edilmişdir. Kəndin digər adı Əylənli-Yasaxlu olmuşdur (415, s.80; 348, s.8). Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay

müqaviləsindən sonra 1826-30 - cu illərdə kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir (386, s.583-586) 1830 - cu ildən sonra qarışıq kəndə çevrilmişdir.

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 59 nəfər, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150). Onlar 1890-cı illərdə ermənilər tərəfindən sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim **əylənli** nəsil adı əsasında əmələ gəlmişdir. Əylənli tayfası F.Sümərin «Oğuzlar» əsərində əylənoğlu formasında qeyd edilir (238, s.185). «Aşağı» sözü fərqləndirici əlamət bildirir. Patronim toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lenuği (Lenin yolu) qoyulmuşdur.

**Aşağı Əli qrıx** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Q.Alişanın «Sisakan» əsərində (427, s.85) adı çəkilir. Əhalisi Əliqrıx kəndindən köçmüşdür.

**Aşağı Ərmik** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Vedi çayının aşağı axarında, Axissu bulağının yanında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərmük formasında (143, s.105), Qafqazın 5 verstlik xəritəsində Ərmik kimi (348, s.19) qeyd edilmişdir.

Kənddə 1877-ci ildə 312, 1897-ci ildə 192, 1906-cı ildə 156 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85; 427, s.220). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndi Ermənistan adlanan ərazidə sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Burada 1926-cı ildə 21 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85). Kəndin əhalisi azərbaycanlılar 1948-49 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə Azərbaycana köçürülmüş və kənd 1949 - cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

**Aşağı Zağalı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 9 km qərbdə, Göyçə gölünün cənub-şərq sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.94) qeyd edilmişdir. Basarkeçər rayonunda XIX əsrdə yalnız Zağalı kəndi ollmuşdur (386, s.599-600; 348, s.94) Zağalı kəndinin sakinləri isə yalnız azərbaycanlılar olmuşlar. Türkmənçay müqaviləsindən sonra 1828-29 - cu illərdə Türkiyə və İrandan köçürülən ermənilərin bir hissəsi də Basarkeçər rayonu ərazisində yerləşdirilmişdir. Zağalı kəndinə isə ermənilər 1830 - cu illərdən sonra köçürülmüşdür. Bura köçürülən ermənilər Zağalı kəndinin yaxınlığında ayrıca kənd salmış və Zağalı kəndindən fərqləndirmək üçün kəndi Aşağı Zağalı adlarıdırmışlar. Burada ermənilərlə yanaşı azərbaycanlılar yaşamışdır.

Toponim Azərbaycan dilində «mağara», «kaha» mənasında işlənən zağa sözünə -lı şəkilçisinin artırılması əsasında yaranmışdır. Kənd dağlıq ərazidə, zağa olan yerdə salındığı üçün Zağalı adlandırılmışdır. Relyef əsasında yaranan toponimdir. Aşağı fərqləndirici əlamət bildirən sözdür. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 12.VIII.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Tsovak (Göllü) qoyulmuşdur.

**Aşağı Kəhriz -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. 1897-ci ildə 40 nəfər yaşamışdır (415, s.50-51). XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə «yeraltı su yolu, su kəməri» mənasında işlənən **kəhriz** sözündən (11, s.62) əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Kilsə** - İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 23 km cənub-qərbdə, Hallavarla Güllüdərə kəndləri arasında yerləşir. Quqark rayonunda tarixən Kilsə kəndi olmuşdur. Sonra Kilsə kəndindən ayrılanlar yeni kənd salırlar. Yeni salınan kənd Kilsə kəndindən fərqləndirilmək üçün Aşağı Kilsə kəndi adlandırılmışdır.

Kənddə 1922-ci ildə 87, 1926-cı ildə 110, 1931-ci ildə 128 nəfər (415, s.54-55, 132-133), 1987-ci ildə 120 nəfər (85, s.314) azərbaycanlı yaşamışdır. 1988-ci ilin dekabr ayında ermənilər kəndə hücum edərək azərbaycanlıları zor və qırğınlarla öz doğma kəndlərindən qovmuşlar. İndi burada yalnız ermənilər yaşayır.

Toponim «aşağı» fərqləndirici sözü ilə «dini məbəd» mənasında işlənən kilsə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Girətağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Oxçu çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Kirətaq formasında qeyd edilmişdir(348, s.134).

Tarixən Zəngəzur qəzasında Girətağ adlı bir kənd olmuşdur. Sonralar bir qrup kənd sakini Girətağdan köçərək kəndin yaxınlığında yeni kənd salırlar və yeni salman kənd Aşağı Girətağ, Girətağın özü isə Yuxarı Girətağ adlanmışdır.

Aşağı Girətağda 1897-ci ildə 87 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). 1918-ci ildə kəndin sakinləri erməni soyqırımına mə'ruz qaralaq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri doğma yurdlarına dönə bilmişdir.

Kənddə 1922-ci ildə 82 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 127 nəfər (415, s.57, 135), 1939 - cu ildə 139 nəfər, 1959 - cu ildə 167 nəfər, 1979 - cu ildə 143 nəfər (427, s.868) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «dağ silsiləsi, sıra dağlar», «çöl, dağ, hündür yer, təpəlik», «dağ qılıcı, yayla» mə’nasında işlənən kir sözü ilə (359,11(2), s.860; 339, s.327) dağ (tağ) sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki «aşağı» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Gödəkli** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərəkəzindən 10 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Gedaklu formasında qeyd edilmişdir (348, s.127).

Kənddə 1831-ci ildə 26 nəfər, 1873 - cü ildə 154 nəfər, 1886-cı ildə 206 nəfər, 1897-ci ildə 123 nəfər, 1904 - cü ildə 439 nəfər, 1914 - cü ildə 153 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına mə'ruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 42 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 74 nəfər (415, s.57, 135), 1939 - cu ildə 87 nəfər, 1959 - cu ildə 95 nəfər, 1970-ci ildə 447 nəfər, 1979 - cu ildə 294 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın axırında azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz doğma torpaqlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim «aşağı» fərqləndirici sözü ilə türk mənşəli qazaxlar tayfasının bir qolu olan gödəkli etnonimindən (386, s.535) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Körpülü** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir. 1920-ci ildən sonra kərimlilər və dəmirçililər tayfası Körpülü kəndindən 1,5 km aralı yeni yurd salmışlar. Həmin ildən Körpülü - Yuxarı Körpülü və Aşağı Körpülü kəndlərinə bölünmüşdür. Deməli, Aşağı Körpülü kəndi 1920-ci ildən sonra salınmışdır.

Kənddə 1922-ci ildə 253 nəfər, 1931-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır (415, s. 100-101). Kəndin sakinləri 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən aşağı və «çay, dəmiryolu və s. üzərindən keçmək, daşdan, taxtadan, dəmirdən qurulan tikili keçid» mənasında işlənən körpü sözlərindən əmələ gəlmişdir (11, s.112). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Aşağı Gəzbin** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. 1926-cı ildə ləğv edilmişdir. Toponim fərqləndirici əlamət bildirən aşağı sözündən, Azərbaycan dilində «gədiyin ən alçaq yeri» (253, s.126), «keçid, dağın təpəsindəki çökək, dağ çökəyi» mə'nasında işlənən gəz sözü ilə (339, s.167), «köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskan saldıqları yer, yurd, köç» (9, s.273), «yaşayış yeri, kənd, köç yeri, dayanacaq, heyvan saxlanan yer» mənasında işlənən binə sözünün (278, s.37) birləşməsindən əmələ gəlib «gəzdəkdə olan yaşayış məntəqəsi» mə'nasını ifadə edir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Aşağı Gözəldərə** - İrəvan quberniyasmda Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimalda, Gözəldərə çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.58) qeyd edilmişdir. 1828-ci ilə qədər burada yalnız azərbaycanlı yaşamışdır. Ermənilər buraya Türkmənçay müqaviləsindən sonra, 1828-30 - cu illərdə Türkiyədən köçürülüb yerləşdirilmişdir (386, s.595-598). 1897-ci ildə kənddə ermənilərlə yanaşı 108 nəfər

azərbaycanlı yaşamışdır (415, s.66-67). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ermənilərin təcavüzünə mə'ruz qalan azərbaycanlılar deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən «aşağı» sözü ilə gözəl və dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vardenis qoyulmuşdur.

**Aşağı Güllüdüz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd.

Kənddə 1873 - cü ildə 115 nəfər, 1886-cı ildə 217 nəfər, 1904 - cü ildə 151 nəfər, 1914 - cü ildə 166 nəfər, 1916-cı ildə 407 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Ancaq indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına dönə bilmişlər. Burada 1922 - cü ildə 142 nəfər, 1926-cı ildə 31 nəfər, 1931-ci ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.93, 161). 1959 - cu ildə rayondakı Yuxarı Güllüdüzü kəndi ilə birləşdirilib Güllüdüzü kəndi yaradılmışdır.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözündən və «güllü, çiçəkli» mənasında işlənən güllü sözünə Azərbaycan dilində «enişi, yoxuşu, çuxuru, təpəsi olmayan» mənasında işlənən **düz** sözünün birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Molla Saflar -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Aşağı Necili -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 2 km qərbdə yerləşir. Zəngibasar (Masis) rayonu təşkil edilənədək 1969 - cu ilə kimi Qəmərli (Artaşat) rayonun tərkibində olunmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.186) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır (386, s.547-550).

Kənddə 1831-ci ildə 411 nəfər, 1873 - cü ildə 1183 nəfər, 1886-cı ildə 1147 nəfər, 1897-ci ildə 1178 nəfər, 1908-ci ildə 1430 nəfər, 1914 - cü ildə 1573 nəfər, 1916-cı ildə 1074 nəfər yalınz azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 555 nəfər, 1926-cı ildə 726 nəfər, 1931-ci il ldə 379 nəfər azərbaycanlılar yaşamışdır (415, s.49, 129). Ermənilər buraya əlavə olaraq 1946-48-cı illərdə xaricdən köçürülmüşdür.

1988-ci ilin oktyabr-noyabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə nəcli türk etnonimi (143, s.30) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il tarixi fərmanı ilə adı dəyişdirilib Sayat Nova (erməni şairi) qoyulmuşdur.

**Aşağı Novruzlu -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd.

Kənddə ermənilərdən başqa, 1922-ci ildə 139 nəfər, 1926-cı ildə 231 nəfər, 1931-ci ildə 205 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin 1947 və 1948-ci il tarixli xüsusi qərarı ilə azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür.

Toponim novruzlu nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Mürəkkəb toponimdir.

**Aşağı Pirtikan -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 9 km şimalda, Mastara çayının yanında yerləşir. Kəndin digər adı Türk Pirtikarı (Pirtikan Türk) olmuşdur (415, s.36).

Kənddə 1873 - cü ildə 65 nəfər, 1886-cı ildə 112 nəfər, 1897-ci ildə 140 nəfər, 1904 - cü ildə 153 nəfər, 1914 - cü ildə 166 nəfər, 1916-cı ildə 157 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.36-37, 118-119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri-azərbaycanlılar qırğınlarla deportasiya olunmuşlar və Turkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qıpçaqların tikan etnonimi (286, s.66) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki «aşağı» sözü Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən söz kimi iştirak edir. Pir sözü isə dini məbəd mənasında işlənir. «Tikan tayfasının tikdiyi pirin yanındakı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə adı dəyişdirilib Zoragyuğ qoyulmuşdur.

**Aşağı Talin -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Kəndin digər adı «Türk Tatar Talini» olmuşdur (415, s.34). Qafqazın 5 verstlik xəritəsində (348, s.236) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 248 nəfər, 1886-cı ildə 253 nəfər, 1897-ci ildə 418 nəfər, 1908-ci ildə 376 nəfər, 1914 - cü ildə 400 nəfər, 1916-cı ildə 471 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 118-119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş, Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir (415, s.119). İndi ermənilər yaşayır.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən aşağı sözü ilə türk dilində «söyüd ağacı, söyüd kolu» mənasında işlənən tal sözündən (341, s.180-182; 337, s.235) və türk dilində «daxma, koma, mağara, kaha» mənasında işlənən in sözündən (299, s.209) əmələ gəlmişdir.

Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Nerkin Talin qoyulmuşdur.

**Aşağı Türkmənli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində «Türkmənli» formasında (348, s.248) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən aşağı sözü ilə -li mənsubluq şəkiliçisi qəbul etmiş qızılbaşların türkmən etnonimindən (175, s.18) əmələ gəlib, «Türkmən tayfasının yaşadığı kənd» anlamını verir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Musagyuğ (Musakənd) qoyulmuşdur.

**Aşağı Xatınarx -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.262) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra 1828-29 - cu illərdə buraya İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (427, s.778).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 208 nəfər azərbaycanlı yaşamışdır (415, s.152). 1870-ci illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

1670-80-cı illərdə Çuxur-Səd bəyləribəyi Səfixanın Qarasu çayından çəkdirdiyi arxın kənarında onun arvadı Xatın, kənd saldırmış və həmin kənd Xatınarx adlanmışdır (427, s.778; 327, s.55). Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Qay qoyulmuşdur.

**Aşağı Xotanan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.268).

Toponim türk mənşəli xotan etnonimi (275, s.399) əsasında formalaşmışdır. Toponimin sonundakı -an şəkilçisi cəmlik əlaməti bildirir. «Xotanlar tayfasının yaşadığı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Hunud -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözü ilə -ud şəkilçisi qəbul etmiş hun türk etnonimi (287, s.124-125; 174, s.49-66) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Çanaxçı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Ordun çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.279). XX əsrin əvvəllərində ləğv edilmişdir.

Toponim çanaxçı türk tayfasının (407, s.88) adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Çəmbərək -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 4 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.279) qeyd edilmişdir. Kəndi XIX əsrdə rayondakı Çəmbərək kəndindən köçənlər salmışdır.

Toponim fərqləndirici əlamət bildirən aşağı sözündən və Azərbaycan dilində şam ağacının adını ifadə edən çam (>çəm) sözü ilə (238, s.154) baraq (>bərək - İ.B) türk etnonimindən (321, s.43,45; 228, s. 16-17; 238, s.201) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Şipirxan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində yaşayış məskəni. Ayrım kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 31 nəfər azərbaycanlı yaşamışdır. 1930 - cu illərdə azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Aşağı Şəhərcik -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. 1897-ci ildə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s.59-60). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kənd, Yuxarı Şəhərcik kəndi ilə birləşdirilərək ləğv edilmişdir. İndi xaraba kənddir.

**Aşağı Şorca -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Kəndin başqa adları Yeni Keyti, Salman kənd olmuşdur (415, s.26). İ.Şopenin əsərində kəndin adı «Aşağı Keyti və ya Salman kəndi» formasında qeyd edilmişdir (386, s.599). Kənd rayon mərkəzindən 13 km cənub-şərqdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində (348, s.297) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 164 nəfər, 1873 - cü ildə 411, 1886-cı ildə 524 nəfər, 1897-ci ildə 584 nəfər, 1908-ci ildə 721 nəfər,1914 - cü ildə 910 nəfər, 1916-cı ildə 843 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişlər. Burada 1922-ci ildə 394, 1926-cı ildə 494, 1931-ci ildə 617 (415, s.27, 113), 1987-ci ildə 1500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövlət tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim «duzlu, şoranlı» mənasında işlənən şor sözünə sifətin çoxaltma dərəcəsini bildirən -ca şəkilçisinin artırılması əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

**Aşirabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Nairi rayonu ərazisində kənd. Ərzini kəndinin yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.24) qeyd edilmişdir.

Nairi rayonu təşkil edilənədək (15 mart 1972) kənd Əştərək rayonunun tərkibində olmuşdur.

Kənddə 1873 - cü ildə 136 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 162 nəfər, 1908-ci ildə 180 nəfər, 1914 - cü ildə 281 nəfər, 1916-cı ildə 277 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). Burada 1918-ci ilə kimi yalnız azərbaycanlılar yaşasa da, «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə kənddə 1918-ci ilə kimi azərbaycanlı və ermənilərin yaşadığı göstərilir (427, s.290). Halbuki Aşirabad kəndində azərbaycanlılarla ermənilər qarışıq şəkildə 1922-ci ildən yaşamağa başlamışlar (415, 107). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1920-ci ildə kəndə ermənilər köçürülmüşdür. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.107). 1926-30 - cu illərdə azərbaycanlılar zorla köçürülmüşdür. Kənd 1950-ci ildə ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim tayfa mənasında işlənən əşirət sözü ilə (əşirət sözündəki -ət şəkilçisi ixtisar edilmişdir) «şəhər, kənd, yaşayış yeri» mənasında işlənən abad sözündən (339, s.36) əmələ gəlmişdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Aşnak -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 12 km cənubda, Alagöz dağının cənub-qərbində, İrəvan-Talin avtomobil yolunun sol tərəfində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.85), Qafqazın 5 verstlik xəritəsində (348, s.303) qeyd edilmişdir. Kəndin adı həm də Eşnək formasında göstərilir (348, s.303; 415, s.34;427, s.294).

Kəndin adı ilk dəfə V əsrdə xatırlanır. Burada IV-V əsrlərə aid alban kilsəsinin qalıqları, IX-X əsrlərdə tikilən qalanın xarabalıqları indi də durur. Qədim Aşnak kəndi indiki Aşnak kəndindən 5 km qərbdə yerləşmişdir (427, s.294).

Kənddə 1831-ci ildə 62 nəfər, 1873 - cü ildə 363 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 744 nəfər, 1904 - cü ildə 477 nəfər, 1914 - cü ildə 507 nəfər, 1916-cı ildə 806 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla tarixi torpaqlarından deportasiya olunmuşdur. Bura 1914-20-cı illərdə Türkiyənin Sasun vilayətindəki Pirşen, Mşkeğ, Salvorik, Mkdenk, Crdnik, Kaşrenk, Cam, Nadopa, Blrenk, Talhor, Qomk, Xablzoq, Xarver, Qoşa, Tği, Areqdem kəndlərindən köçürülən ermənilər yerləşdirilir (427, s.294).

İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. 1922-ci ildə kənddə ermənilərlə yanaşı 22 nəfər azərbaycanlı yaşamışdır (415, s.117). Onlar 1924-25-cı illərdə sıxışdırılaraq kənddən qovulmuşdur.

Lakin tarixi faktlar erməni mənbələrində saxtalaşdırılaraq təhrif edilir. «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə göstərilir ki, Aşnak kəndində 1831-ci ildə 62, 1873 - cü ildə 363 nəfər erməni yaşamışdır (427, s.294). Halbuki bu illərdə kənddə ermənilər yox, təkcə azərbaycanlılar yaşamışdılar (415, s.l 16). İndi ermənilər yaşayır.

Toponim aşina //aşna türk etnoniminə (180, s.30; 393, s. 16-20) cəmlik bildirən -k şəkilçisinin artırılması yolu ilə düzəlib «aşina tayfasının yaşadığı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

## B

**Baba bulaq -** Gorus rayonunda bulaq. Şəxs adı əsasında əmələ gələn antropohidronimdir.

**Babakişi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-qərbdə, Misxana çayının yaxınlığında yerləşir. Ermənilər buraya 1829 - cu ildə Türkiyənin Alaşkert vilayətindən köçürülmüşdür(427, s.159).

Kənddə 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). 1905-1906-cı illərdə azərbaycanlılar kənddən qovulmuş, kəndə tam ermənilər yerləşdirilmişdir. 1926-cı ildə ermənilərlə yanaşı 3 nəfər azərbaycanlı (415, s.17) yaşamışdır.

1930 - cu ildə kənddə olan 3 nəfər azərbaycanlı da qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Babakişi şəxs adı əssında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1948-ci il fərmanı ilə adı dəyişdirilib Ağavnadzor qoyulmuşdur.

**Babakişi -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Nairi rayonu yaradılanadək 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 27 km cənub-şərqdə, Zəngi çayından axan arxın yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.26) qeyd edilmişdir. Kənddə X-XIV əsrlərə aid tarixi abidələr vardır.

Kənddə 1831-ci ildə 72 nəfər, 1873 - cü ildə 268 nəfər, 1886-cı ildə 435 nəfər, 1897-ci ildə 431 nəfər, 1904 - cü ildə 483 nəfər, 1914 - cü ildə 573 nəfər, 1916-cı ildə 471 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinlər-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir (415, s.97). Lakin bəzi erməni mənbələrində tarixi faktlar təhrif edilir. Belə ki, 1831, 1873 - cü illərdə burada azərbaycanlılar yaşadığı halda (415, s.97), həmin illərdə yaşayanlar ermənilər kimi göstərilir. Ermənilər Babakişi kəndinə 1918-ci ildən sonra gəlmişdir. Lakin ermənilərin buraya səhv olaraq 1829 - cu ildə gəldiyi göstərilir (427, s.747). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 4 nəfər, 1931-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.97). Onlar 30 - cu illərin ortalarında sıxışdırıhb kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim Babakişi şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir. Kəndin adı dəyişdirilib Bujakan qoyulmuşdur.aq

**Babaxan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhərinin ərazisində dağ. Dilican şəhərindən 22 km şərqdə, Ağstafa çayının yanında yerləşir. Hündürlüyü 2337 m-dir. Şəxs adı əsasında yaranmışdır. Antropooronimdir.Quruluşca sadə oronimdir.

**Babacan çay -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunun Babacan kəndində, Göyçə gölü hövzəsində çay. Babacan çayı Göyçə gölünə tökülür. Uzunluğu 10 km-dir.

Hidronim «Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilən Baybecan şəxs adı əsasında yaranmışdır. Antropohidronimdir.

**Babacan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Kəndin əsl adı «Babacan dərəsi»dir (415, s.26; 348, s.26; 427, s.526).

Rayon mərkəzindən 24 km şimal-qərbdə, Göyçə gölünün yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.82), Qafqazın 5 verstlik xəritəsində (348, s.26) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 107, 1886-cı ildə 173, 1897-ci ildə 244, 1908-ci ildə 259, 1914-cü iİdə 265, 1916-cı ildə 290, 1919 - cu ildə 265 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1919 - cu ilin yazında kənd erməni təcavüzünə məruz qalmış və kəndin sakinləri qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 309, 1926-cı ildə 345, 1931-ci ildə 373 (415, s.27, 111), 1967-ci ildə 775 (ASE, I, 1975, s.410), 1987-ci ildə 880 nəfər (85, s.279-280) azərbaycanlı yaşamışdır.

1988-ci ildə Moskvaya arxalanan ermənilər azərbaycanlıları doğma torpaqlarından qovmuşlar.

Toponim «Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilən Baybecan adı ilə bağlı yaranmışdır. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Qızılkənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il tarixli fərmanı ilə yenidən dəyişdirilib Tsapatağ qoyulmuşdur.

**Bağırbəyli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Rayon mərkəzindən 21 km cənub-şərqdə yerləşirdi (427, s.574). Qafqazın 5 verstlik xəritəsində (348, s.27) qeyd edilmişdir. Burada 1907-ci ildə 836 nəfər azərbaycanlı yaşamışdır (427, s.574). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri -azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Bağırbəy şəxs adına mənsubluq bildirən -li şəkilçisinin artırılması ilə əmələ gəlib, «Bağırbəyə mənsub kənd» mənasını bildirir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bağçalı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonun ərazisində kənd.

1886-cı ildə 162, 1897-ci ildə 240, 1905-ci ildə 277, 1914 - cü ildə 236 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19, 102-103). 1918-20-cı illərdə azərbaycanlılar buradan ermənilər tərəfindən qovulmuş, erməni soyqırımına məruz qalmışlar. Azərbaycanlılar qovulduqdan sonra kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim bağça sözünə -lı şəkilçisi artırmaqla yaranmış fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bağçacıq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Horbadağ kəndinin şimal-qərbində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.57) qeyd edilmişdir. İndi xaraba kənddir.

Toponim bağça sözünə kiçiltmə mənası bildirən -cıq şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bağçacıq -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 22-23 km şimal-şərqdə, Vedi çayının yanında yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.179), Qafqazın 5 verstlik xəritəsində (348, s.33) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 236, 1886-cı ildə 361, 1897-ci ildə 373, 1904 - cü ildə 618, 1914 - cü ildə 680, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır(415, s.84-85, 154-155).

1918-19 - cu illərdə azərbacanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra kəndi məcburi tərk etmiş azərbaycanlılar geri dönə bilmişlər. Kənddə 1922-ci ildə 88 nəfər, 1926-cı ildə 130 nəfər, 1931-ci ildə 162 nəfər (415, s.85, 155), 1939 - cu ildə 270 nəfər (85, s.221) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə kəndin sakinləri -azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüş və kənd 1959 - cu ildə ləğv edilmişdir (427, s.577). İndi ölü kənddir.

Toponim bağça sözünə -cıq şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bağçacıq** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Alagöz dağının cənub-qərb ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.33) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 10 nəfər, 1873 - cü ildə 82 nəfər, 1886-cı ildə 93 nəfər, 1897-ci ildə 140 nəfər, 1904 - cü ildə 101 nəfər, 1914 - cü ildə 107 nəfər, 1916-cı ildə 152 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə adı dəyişdirilib Particak qoyulmuşdur.

**Bazarkənd** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. 1488-1489-cu illərdə xatırlanır (427, s.543). Rayondakı Bazarçay kəndinin yaxınlığında, Bazarçayın yuxarı axarında yerləşirdi. XIX əsrin II yarısında ləğv edilmişdir.

Toponim türk mənşəli bazar etnoniminə (286, s.61) kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlib «bazar tayfasına mənsub kənd» deməkdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bazarçay** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda çay. Qafqazın 5 verstlik xəritəsində (348, s.28) qeyd edilmişdir.

Bazar türk tayfasının adından (286, s.61) və çay coğrafi nomenindən əmələ gəlmişdir. Etnohidronimdir. İndi çay Vorotan adlanır.

**Bazarçay** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-şərqdə, Bazarçayın yuxarı axarında, düzənlikdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.28) qeyd edilmişdir.

Kənddə 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 631 nəfər, 1908-ci ildə 635 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildən sonra xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilərək azərbaycanlılar deportasiya olunmuşdur. 1926-cı ildə burada ermənilərdən başqa 3 nəfər azərbaycanlı da yaşamışdır (415, s.77). 1929 - cu ildə onlar da qovulmuşdur. İndi yalnız ermənilər yaşayır.

Toponim bazar türk tayfasının adı ilə (286, s.61) çay sözünün birləşməsindən əmələ gəlib. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bazarcıq** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-qərbdə, İrəvan-Abaran yolunun sol tərəfində, Abaran çayının sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.113), Qafqazın 5 verstlik xəritəsində (348, s.28) qeyd edilmişdir.

Ermənilər buraya 1829-30 - cu illərdə Türkiyənin Muş, Alaşkert və Bulanixdən köçürülmüşdür (427, s.389).

Toponim kiçiltmə mənası bildirən -cıq şəkilçisinin bazar (basar) türk etnoniminə (286, s.61) qoşulması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 15. VI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Arayi qoyulmuşdur.

**Bayandur** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda çay. Bayandur kəndindən 5 km şimal-qərbdə yerləşir. Uzunluğu 14 km-dir. Hidronim qədim türk tayfalarından olan bayandur etnonimi ilə bağlıdır. Etnohidronimdir.

**Bayandur** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda vağzal.

**Bayandur** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 20 km, Gümrü şəhərindən 10 km şimal-qərbdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Bayandırlı formasında (143, s.131) qeyd edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-30 - cu illərdə Türkiyədən köçürülmüşdür (415, s.40). İndi ermənilər yaşayır.

Toponim bayandur qədim türk tayfasının adı (399, s.56) əsasında əmələ gəlib, «bayandur tayfasının yaşadığı kənd» mə'nasını bildirir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Bayandur -** İrəvan quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 37 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı həm də I Bayandur, II Bayandur formalarında qeyd edilir (415, s.22).

Kənddə 1831-ci ildə 101 nəfər, 1873 - cü ildə 514 nəfər, 1886-cı ildə 869 nəfər, 1897-ci ildə 363 nəfər, 1904 - cü ildə 830 nəfər, 1914 - cü ildə 409 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.28-29, 112-113). 1916-cı ildə kənd erməni təcavüzünə məruz qalmış və azərbaycanlılar tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. 1918-ci ildən burada ermənilər yaşayır.

Toponim bayandur türk etnonimi (399, s.56; 299, s.79) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 7.V.1969 - cu il fərmanı ilə adı dəyişdirilib Vağatur qoyulmuşdur.

**Bayandur bulağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda bulaq. Rayondakı Nüvədi kəndinin Ternovit yaylağında yerləşir. Hidronim bayandur türk tayfa adı əsasında yaranmışdır. Etnohidronimdir.

**Bayat dağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun Hallavar kəndində dağ. Türk mənşəlli bayat etnonimin əsasında yaranan toponimdir.

**Bayatlar -** İrəvan quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonu ərazisində qışlaq. Hallavar kəndinin yaxınlığında yerləşirdi.

Burada 1926-cı ildə 23 nəfər azərbaycanlı yaşamışdır(415, s.50-51). 1930 - cu illərdə yaşayış məntəqəsi kimi ləğv.edilmişdir.

Toponim oğuz tayfalarından biri olan bayat etnoniminə (228,8.391) -lar şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bayburd -** İrəvan qubeniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 24 km cənub-şərqdə, Azad çayının Milli qolununun sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.28) qeyd edilmişdir. V əsrdən mövcuddur (Ermənistan Sovet Ensiklopediyası, II c., İrəvan, 1976, s.264).

Kənddə 1831-ci ildə 96 nəfər, 1873 - cü ildə 143 nəfər, 1886-cı ildə 183 nəfər, 1897-ci ildə 224 nəfər, 1904 - cü ildə 201 nəfər, 1914 - cü ildə 284 nəfər, 1916-cı ildə 465 nəfər azərbaycanlılar (415, s.84-85, 154-155) yaşamışdır. 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 55, 1926-cı ildə 49, 1931-ci ildə 140 (415, s.85, 155), 1959 - cu ildə 151, 1979 - cu ildə 150 nəfər (427, s.587) azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri -azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür.

Toponim oğuz soyundan olan bayburt etnonimi (238, s.188) əsasında əmələ gəlmişdir. Qızılbaş tayfalarından birinin də adı bayburdlu olmuşdur (354, s.92). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Bəydağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 5 km şərqdə, Oxçu çayının sol sahilində yerləşirdi.

Kənddə 1831-ci ildə 13 nəfər, 1873 - cü ildə 51 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 118 nəfər, 1904 - cü ildə 193 nəfər, 1914 - cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 134-135). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra, kəndi tərk edən azərbaycanlılar 1923-24 - cü illərdə doğma ocaqlarına dönə bilmişdir. Burada 1926-cı ildə 28 nəfər, 1931-ci ildə 32 nəfər (415, s.55, 135), 1939 - cu ildə 37 nəfər (427, s.588) azərbaycanlı yaşamışdır. Ermənilər buraya 1929-30 - cu illərdə köçürülmüşdür. 1959 - cu ildə Qafan şəhərinə birləşdirilmişdir. Sonralar kəndin keçmiş sakinləri Qafan şəhərinin sakinləri kimi siyahıya alınmışdır.

Toponim Azərbaycan dilində «hündür, böyük» mənasında işlənən bəy (<bək) sözü ilə (359, VI(1), s.754; 278, s.35) dağ sözünün birləşməsindən əmələ gəlib, «hündür, böyük dağ yaxınlığında kənd» mənasını ifadə edir. Onu da əlavə edək ki, bəy sözü qədim türk dilində **bək** formasında «təpə» mənasında işlənmişdir (287, s.468).

**Bəy** sözü toponimlərin əvvəlində işlənərkən «hündür, böyük», «təpə», sonunda işlənərkən «ağa», «varlı adam» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Baydarçay -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonunun Mollaqışlaq Kəndində çay.

Hidronim türk mənşəli baytar //baydar etnonimi əsasında yaranmışdır. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Bayraməli qışlağı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Alagöz dağının cənubunda yerləşirdi. Erməni mənbələrində Bayraməli, Bayraməli kəndi formasında da qeyd edilir (415, s.106; 427, s.591). Kənddə 1873 - cü ildə 53 nəfər, 1886-cı ildə 87 nəfər, 1897-ci ildə 132 nəfər, 1908-ci ildə 82 nəfər, 1916-cı ildə 100 nəfər yalnız azərbaycanlı və əcəmi kürdü yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə kəndin əhalisi ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1920-ci illərin sonunda kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Bayraməli şəxs adı ilə «yaşayış məntəqəsi, kənd» mənasında işlənən **qışlaq** sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bayraməli qışlağı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində, Ayaslı kəndinin yaxınlığında qışlaq. Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Baytar -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 3 km şimal-şərqdə, Arpaçayın sol sahilində yerləşir.

Kənddə 1831-ci ildə 27, 1873 - cü ildə 231, 1886-cı ildə 167, 1897-ci ildə 188, 1914 - cü ildə 363 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19, 102-103). Azərbaycanlılar 1915-cı ildə erməni daşnakları tərəfindən qırğınlarla qovulmuşdur. Ermənilər buraya 1918-ci ildə Türkiyənin Qars vilayətinin Quleyban kəndindən köçürülüb yerləşdirilmişdir (427, s.588).

Toponim baytar (baydar) türk tayfasının adı (222, s.42) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə Kəndin adı dəyişdirilib Hovtun qoyulmuşdur.

**Bakər -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində kənd olmuşdur. Rayondakı Aşağı Çəmbərək kəndindən 2 km cənub-qərbdə yerləşirdi. İndi xaraba kənddir. Evlərin və qəbiristanlığın uçuq divarları indi də durur.

**Bala zağa -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində Zağa formasında qeyd edilmişdir (348, 94).

1897-ci ildə 178 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «kiçik» mənasında işlənən bala və «mağara, kaha» mənasında işlənən **zağa** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Balakənd -** Yelizavetpol (Gəncə) Qazax Şəmşəddin qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. 1930 - cu ilə qədər azərbaycanlılar yaşamışdır. 1930 - cu ildən sonra azərbaycanlılar qovulmuş, kəndə ermənilər yerləşdirilmişdir. Rayon mərkəzindən 4 km məsafədə yerləşir.

Toponim «kiçik» mənasında işlənən **bala** və «yaşayış məntəqəsi» mənasında işlənən **kənd** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Qeyrirəsmi olaraq kəndin adı dəyişdirilib Doveğ qoyulmuşdur.

**Bala Məzrə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 9 km şimalda, Məzrə çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Məzrə`ə formasında (143, s.62), Qafqazın 5 verstlik xəritəsində Bala Mazra kimi (348, s.164) qeyd edilmişdir. Kəndin bir adı da «Qulu ağalı» olmuşdur (348, s. 164).

Kənddə 1831-ci ildə 227, 1873 - cü ildə 675, 1886-cı ildə 978, 1897-ci ildə 1200, 1908-ci ildə 1658, 1914 - cü ildə 1731, 1916-cı ildə 1375 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları kəndə qayıda bilmişlər. 1922-ci ildə burada 359, 1926-cı ildə 653, 1931-ci ildə 912 (415, s.27, 113), 1987-ci ildə 2000 nəfər (85, s.290) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Kəndin əfazisində X-XII əsrlərə aid alban kilsəsi, IV-VII əsrlərə aid oğuz qəbiristanlığı vardır.

Toponim ərəb dilində «əkilmiş yer, sürülüb toxum səpilmiş tarla» mənasında işlənən məzrə (məzru,) sözü əsasında (104, s.343) formalaşmışdır. «Bala» fərqləndirici əlamət bildirən sözdür. Relyef bildirən toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erməni dilinə kalka edilərək Pokr (kiçik, bala) Mazra kimi işlədilir.

**Bala tüklü təpə -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Barana (Noemberyan) rayonunda təpə. Rayondakı Yuxarı Körpülü kəndi ilə Gürcüstanın Marneuli rayonundakı Qaçağan kəndinin sərhədində yerləşir. Oronim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən bala (kiçik mə'nasında) sözü ilə Azərbaycanın Borçalı şivəsində «sıx, kol-kosluq» mənasında işlənən tüklü (129, s.64), «kiçik dağ» mənasında işlənən təpə sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Baldırğanlıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda dağ. Baldırğan bitki adına -lıq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

Baldırğan bitki adına Dağlıq Altay toponimlərinin tərkibində də rast gəlinir (337, s.236). Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Baldırğanlı -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. Erməni mənbələrində «Bldrğand» formasında qeyd edilmişdir (415, s.70). 1930 - cu ildə ləğv edilmişdir.

Toponim baldırğan bitki adına -lı şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Baldırğanlı dağ -** Yelizvetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Baldırğan bitki adından əmələ gəlmişdir. Fitooronimdir. Coğrafi nomenli mürəkkəb quruluşlu oronimdir.

**Balıqlı -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 20-21 km şimal-şərqdə, Arpa gölünün şimal-şərq sahilində, Arpa çayının qərb sahilində, təpəlikdə yerləşir. Relyefi cənub və şimal hissədə düzənlik, qərb və şimal-qərb hissədə dərə-təpəlikdir. Kənd XVIII əsrin sonu, XIX əsrin əvvəllərində salınmışdır.

Qafqazın 5 verstlik xəritəsində (348, s.30) qeyd edilmişdir.

Kənddə 1886-cı ildə 205, 1897-ci ildə 326, 1908-ci ildə 372 nəfər, 1914 - cü ildə 474 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19, 102-103). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuş və bir hissəsi qətlə yetirilmişdir.

Kəndin əhalisi Türkiyəyə pənah aparmışdır. 1920-ci ilin noyabrın 29-da indiki Ermənistanda sovet hakimiyyəti qurulmuş və sabitlik yaranmışdır. Kəndin sakinləri ata-baba torpaqlarına qayıtmışdır. Burada 1922-ci ildə 107, 1926-cı ildə 178, 1931-ci ildə 205 (415, s.19, 103), 1964 - cü ildə 300, 1970-ci ildə 440, 1979 - cu ildə 472 (427,s.556), 1987-ci ildə 432 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Onlar Azərbaycana pənah gətirmişlər. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «sığınacaq, şəhər, qala» mə'nası bildirən balıq sözünə (399, s.379; 299, s.80) -lı sözdüzəldici şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Quruluşca düzəltmə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zorakert qoyulmuşdur.

**Balıqçay -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində çay. Hidronim qədim türk dilində «şəhər» mənasında işlənən balıq sözü ilə (299, s.80) çay sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Balta dərəsi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunun Ardanış kəndi ərazisində qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim balta türk tayfasının (286, s.60) adı ilə dərə sözünün birləşməsindən əmələ gəlib, «balta tayfasına mənsub dərə», «yaşayış yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Baltaçay -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında azərbaycanlı kəndi olmuşdur. Dilican şəhəri yaxınlığında yerləşirdi. 1959 - cu ildə kəndin ərazisi Dilican şəhərinə birləşdirilərək ləğv edilmişdir.

Toponim türk mənşəli balta etnoniminə (286, s.60) çay sözünün birləşməsi nəticəsində əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Barana -** indiki Ermənistanda inzibati rayon. Respublikanın şimal-şərqində yerləşir. Azərbaycan və Gürcüstanla həmsərhəddir. Rayon kimi 1937-ci ildə təşkil edilmişdir. 1953 - cü ildə rayon kimi ləğv edilərək ərazisi Allahverdi (Tumanyan) rayonunun tabeliyinə verilmişdir. 1954 - cü ildə yenidən müstəqil rayon kimi təşkil edilmişdir. Sahəsi 538 km$^2$dir. Mərkəzi Barana (indi Noemberyan) şəhəridir. Ərazisi 1996-cı ildə təşkil edilmiş Tavuş vilayətinə daxildir. Azərbaycanın Qədim torpaqları olmuşdur. VII əsrdən sonra ərəblərin istilası altında olmuşdur. X-XII əsrlərdə səlcuqların tabeliyində olmuş, 1236-cı ildə monqollar işğal etmişdir. 1801-cı ildə Rusiya tərəfindən işğal edilmişdir.

XIX əsrdə Gəncə quberniyasının Qazax-Şəmşəddin qəzasına daxil idi. 1920-29 - cu illərdə indiki Ermənistanın şimal rayonları ilə birlikdə Loru-Pəmbək qəzasının tərkibinə daxil edilmişdir.

Erm. SSR AS RH-nin 4.1.1938-ci il fərmanı ilə adı dəyişdirilib Noemberyan qoyulmuşdur.

**Barana -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax-Şəmşəddin qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd və Barana rayonunun mərkəzi.

Kəndin adı «Abaran» (Abaranlı) sözü ilə eyniləşdirilir. Erməni tədqiqatçıları qeyd edirlər ki, Abaran rayonundan bir neçə erməni ailəsi bu əraziyə köçərək məskunlaşmışdır. Qonşu kəndin adamları onlardan soruşublar ki, siz haradan gəlmisiniz? Cavab verirlər ki, Abarandan (abaranits). Buradan da kəndin adı yaranıb. Yəni Barana Abaran sözünün təhrif edilmiş formasıdır (427, s.618). Lakin bu həqiqətə uyğun deyil.

Toponim qoraqoyunlu tayfa ittifaqına daxil olan və «qoyun», «qoç» sözündən yaranan baranilər etnonimi (ASE, II c., B., 1978, s.25; 271, s.29) əsasında yaranmışdır Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 4.l.1938-ci il fərmanı ilə yaşayış məntəqəsinin adı dəyşdirilib Böyük Oktyabr sosialist inqilabının şərəfinə Noemberyan qoyulmuşdur.

**Barana qəzası -** İndiki Ermənistanın Dilican qəzası ərazisində kiçik qəza. Ərazisi 524,4 km$^2$, əhalisi 11391 nəfər olmuşdur. I.X.1929 - cu ildə indiki Ermənistanda rayonlaşdırmanın yaradılması ilə bağlı ləğv edilmişdir.

Qaraqoyunluların barani (barana) tayfasının adı (ASE, II c., B., 1978, s.25) əsasında əmələ gəlmişdir. Etnotoponimdir.

**Barana -** Barana rayonunda, Kürün hövzəsində çay. Hidronim türk mənşəli barana etnonimi (271, s.29) ilə bağlı yaranmışdır. Etnohidronimdir.

**Baraxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda yaşayış məntəqəsi-qışlaq. Rayon mərkəzindən 30 km şimalda, Tona (Debet) çayının sahilində yerləşirdi. Ləmbəli sovetliyinin tərkibində olmuşdur. Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı olmuşdur (415, s.67). 1930 - cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmiş, azərbaycanlılar buradan köçürülmüşdür.

Toponim türk mənşəli barak tayfasının (228., s. 16-17; 321, s.43, 45) adı əsasında əmələ gəlmişdir. -lı mənsubluq bildirən şəkilçidir. «Barak tayfasına məxsus yer» deməkdir. Türk dilində barak «uzun, sıx və qıvrım tüklü heyvan» mənasını bildirir. (359, IV (1), s.1447). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Barzaxı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda əkin yeri. Rayondakı Nüvədi kəndinin ərazisində yerləşir (127, s.ll). Toponim oğuz tayfalarından olan barza etnonimi (238, s.189) əsasında əmələ gəlmişdir. Toponimin sonundakı «xı» şəkilçi funksiyasını yerinə yetirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Basarkeçər -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Göyçə gölünün yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.61) qeyd edilmişdir.

1969 - cu ildən şəhər tipli qəsəbə və eyni adlı rayonun mərkəzi olmuşdur.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1831-ci il əhalinin siyahıya alınmasında burada 178 nəfər yalnız azərbaycanlının yaşadığı göstərilir (386, s.599-602; 415, s,110). 1831-ci ildən sonra Türkiyədən köçürülən 1296 nəfər (1873 - cü il siyahıya alınmasına əsasın) erməni burada yerləşdirilmiş, azərbaycanlılar sıxışdırılmağa başlanmışdır. 1897-ci ildə burada 85 nəfər azərbaycanlı, 2108 erməni yaşamışdır (415, s.26-27). 1908, 1914, 1916-cı illərdə əhali ümumi şəkildə (azərbaycanlılar və ermənilər birlikdə) göstərilmişdir. 1918-ci ildə axərbaycanlılar qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra buraya azərbaycanlılar qayıda bilmişlər. Erməni mənbələrində göstərilir ki, burada 1922-ci ildə 1 nəfər (2511 erməni), 1926-cı ildə 7 nəfər (3456 erməni), 1931-ci ildə 19 nəfər (3914 erməni) azərbaycanlı yaşamışdır (415, s,27, 111). Lakin bu rəqəmlər inandırıcı deyil. 1967-cı ildə 150 (9150 erməni) nəfər (ASE, 1975, I., s.485), 1970-ci ildə 9 nəfər azərbaycanlı (8077 erməni) yaşamışdır. 1988-ci ildə azərbaycanlılar tam surətdə zorla qovulmuşlar. İndi burada təkcə ermənilər yaşayır.

Erməni alimlərinin fikrincə, Basarkeçər toponiminin hücum etmək mənasında işlənən «basar» və keçmək, getmək mənasını bildirən «keçər» sözlərinin birləşməsindən əmələ gəlmişdir (427, s.609). Bu, doğru izah deyil, təsviri, əsl həqiqəti gizlətməyə xidmət edən izahdır.

Toponim qıpçaq mənşəli bazar//basar etnoniminə (286, s. 60-61) qeyri-qəti gələcək zamanda işlənən keçər sözünün qoşulmasından əmələ gəlmişdir. «Bazar //basar tayfasının keçdiyi, getdiyi yer» mənasını bildirir. «...bazar sözü mürəkkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın 1 komponenti... yerində işlənir» (93, s.31). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 2.VI.1969 - cu il fərmanı ilə adı dəyişdirilib Vardenis qoyulmuşdur.

**Basarkeçəri daşt -** Göyçə gölünün cənub-şərqində, Basarkeçər rayonu ərazisində çöl, ərazi. 1916 m. hündürlükdə yerləşir. Toponim bazar //basar etnoniminə (93, s.31; 286, s.60-61) qoşulan keçər sözü ilə qədim türk dilində «çöl, bayır» mənasında işlənən daşt (qədim forması dış) sözünün (339, s.173) birləşməsindən əmələ gəlmişdir. «Bazar //basar tayfasının keçdiyi, getdiyi çöl» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Basutçay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Basatçay formasında da işlənir. «Kitabi-Dədə Qorqud» dastanlarındakı Basat adı ilə bağlı yaranan hidronimdir. Antropohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Batar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Kənd dağlıq yerdə, Min çayının sağ sahilində yerləşmişdir.

Toponim qayı türklərinə mənsub olan padar (>batar) tayfasının (245, s.48) adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Bataxlı -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində «lığ, lehmə, palçıq» mənasında işlənən bataq sözünə (9, s.203; 339, s.75) -lı sözdüzəldici şəkilçisinin artırılması ilə düzəlib «bataqlıq, palçıqlıq yerdə olan qışlaq» mənasını ifadə edir. Relyef əsasında əmələ gələn düzəltmə toponimdir.

**Baharlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-şərqdə, Kığı çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.27).

Kənddə 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 59 nəfər, 1886-cı ildə 61 nəfər, 1897-ci ildə 74 nəfər, 1904 - cü ildə 132 nəfər, 1914 - cü ildə 133 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 134-135). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kəndin keçmiş sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 88 nəfər, 1926-cı ildə 93 nəfər, 1931-ci ildə 122 nəfər (45, s.55, 135), 1939 - cu ildə 176 nəfər, 1959 - cu ildə 249 nəfər, 1970-ci ildə 380 nəfər, 1979 - cu ildə 358 nəfər (427, s.566) azərbaycanlı yaşamışdır.

Kənd 50-ci illərin sonunda Kığı kəndi ilə birləşdirilir, daha sonra kəndin yerində Gecalan mis - molibden kombinatı üçün su anbarı tikilərək kənd ləğv edilir.

Toponim baharlı türk tayfasının adı (329, s.24) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Baharlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Basut çayının sağ sahilində yerləşmişdir. 1886-cı ildə 432 nəfər, 1907-ci ildə 455 nəfər azərbaycanlı yaşamışdır (427, s.567). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovularaq kənd ləğv edilmişdir. Qafan rayonundakı Baharlı kəndi ilə qarışıq salmaq olmaz. Hər biri ayrı-ayrı kənddir (427, s.567). Toponim Zəngəzurda yaşayan baharlı türk etnonimi (329, s.24) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Baharlı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Qarakilsə kəndindən şərqdə, Vağudi kəndinin yaxınlığında yerləşmişdir.

Kənddə 1831-ci ildə 9 nəfər, 1873 - cü ildə 41 nəfər, 1886-cı ildə 55 nəfər, 1897-ci ildə 124 nəfər, 1908-ci ildə 171 nəfər, 1914 - cü ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1917-ci ildə kəndin sakinləri qırğınlarla deportasiya edilmiş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim qayı türk tayfasına mənsub olan baharlı etnonimi (245, s.48, 329, s.24) əsasında əmələ gəlmişdir. Bu tayfa XVI əsrdə qızılbaşların tərkibində indiki Ermənistanın ərazisinə gəlmiş (354, s.92) və əsasən Zəngəzurda yaşamışlar (329, s.24). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Bahar bəyin bağları** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. XIX əsrin əvvəllərində kənd ləğv edilmişdir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bacoğlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur.

Kənddə 1886-cı ildə 391, 1897-ci ildə 543 nəfər, 1904 - cü ildə 600 nəfər, 1914 - cü ildə 698 nəfər azərbaycanlı yaşamışdır (415, s.40, 123). Z.Qorqodyanın əsərində azərbaycanlılar qarapapaq adı ilə verilir. 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunur. Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada ermənilərdən başqa,

1922-ci ildə 23 nəfər, 1926-cı ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s.40-41, 122-123). 1928-29 - cu illərdə azərbaycanlılar tamamilə başqa kəndə köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim nəsil adı əsasında formalaşmışdır. Patronomik toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək Haykavan qoyulmuşdur.

**Baş Abaran** - İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. İndi Abaran rayonunda şəhər tipli qəsəbə və rayon mərkəzi. İrəvandan 42 km şimalda, Abaran çayının sahilində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.174), Qafqazın 5 verstlik xəritəsində (348, s.33) qeyd edilmişdir. X əsrdən mənbələrdə adı çəkilir. Ermənilər buraya, əsasən, 1914-1918-ci illərdə Türkiyənin Van, Muş, Alaşkert, Ərzrum və İranın Xoy vilayətlərindən köçürülmüşdür (427, s.306). Burada indi yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «əsas» mənasında işlənən baş sözü ilə cəmlik bildirən -an şəkilçisi qəbul etmiş apar türk etnonimi (299, s.47) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Aparan qoyulmuşdur.

**Baş Abdalar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu daxilində kənd olmuşdur.

Erməni mənbələrində kəndin adı Təzəgyuğ kimi də göstərilir (415, s.44). Burada 1897-ci ildə 143 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş, kənd yaşayış məntəqəsi kimi ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim -lar cəm şəkilçisi qəbul etmiş qədim türk mənşəli abdal etnonimi (286, s.59) əsasında əmələ gəlmişdir. «Baş» fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Başkənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə, Kəvər çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir. Ermənilər buraya 1828-29-cu, 1914-1919 - cu illərdə Türkiyənin Alaşkerd, Muş və Bulanis vilayətlərindən köçürülmüşdür (427, s.827).

Kənddə 1873 - cü ildə 191 nəfər azərbaycanlı, 272 erməni, 1886-cı ildə 243 nəfər azərbaycanlı, 385 erməni, 1897-ci ildə 357 nəfər azərbaycanlı, 440 erməni, 1914 - cü ildə 410 nəfər azərbaycanlı, 704 nəfər erməni yaşamışdır (415, s.68-69, 144-145). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən vəhşicəsinə qırğınlarla qovulmuşdur.

1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönmüşdür. Burada 1922-ci ildə 96 nəfər azərbaycanlı, 763 erməni, 1926-cı ildə 112 nəfər azərbaycanlı, 928 erməni, 1931-ci ildə 194 nəfər azərbaycanlı, 1156 erməni yaşamışdır (415, s.69, 145). Lakin erməni mənbələrində burada azərbaycanlılarn yaşadığı göstərilmir və guya kənddə yalnız ermənilər yaşamışdır (427, s.827). Azərbaycanlılar 1930 - cu illərin sonunda Ermənistanın Qarabağlar rayonuna, Qarabağlar rayonu ləğv edildikdən sonra SSRİ Nazirlər Sovetini xüsusi qərarı ilə tarixi-etnik torpaqlarından çıxarılaraq 1948-50-ci illərdə Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər məskunlaşmışdır.

Kəndin ilk adı Göyçə Başkəndi olmuşdur. Yəni Göyçə mahalında yerləşən Başkənd. Sonradan Göyçə sözü atılmış, kənd Başkənd adlandırılmışdır.

Toponim Azərbaycan dilində «böyük», «əsas», «yuxarı» mənasında işlənən baş sözü ilə (339, s.77) kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Qeğarkuni qoyulmuşdur.

**Başkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə, Arpaçayın sağ axarında, Başkəndçayın sahilində yerələşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 23 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93). 1928-29 - cu illərdə azərbaycanlılar kənddən köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «böyük, əsas» mənasında işlənən baş sözü ilə kənd coğrafi nomeni əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə adı dəyişdirilib Vernaşen (Başkənd) qoyulmuşdur.

**Başkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 11 km qərbdə yerləşir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır.

Türkmənçay müqaviləsindən sonra 1828-29 - cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən ermənilər köçürülərək bu kənddə yerləşdirilmişdir (427, s.630).

Toponim Azərbaycan dilində «əsas, yuxarı» mənasında işlənən baş sözü ilə kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

Kəndin adı əvvəlcə dəyişdirilib Məzrə, sonra Erm. SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə dəyişdirilib Barsravan qoyulmuşdur.

**Başkənd** - İrəvan quberniyasının Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə Azərbaycanın Gədəbəy rayonu ərazisində yerləşir. Buraya ermənilər 1859 - cu ildə Qarabağdan və Şəmşəddin rayonundan gəlmişlər (427, s.453).

Toponim Azərbaycan dilində işlənən baş və kənd sözlərinin birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ardzvaşen (Qartalkənd) qoyulmuşdur.

**Başkənd** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 5-6 km şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Başköy formasında (143, s.79), Qafqazın 5 verstlik xəritəsində Başkənd kimi (348, s.34) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1829 - cu ildə İranın Salmas və Xoy vilayətlərindən ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s.146). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar tarixi torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayırlar,

Toponim türk dilində «baş», «çayın mənbəyi», «dağın zirvəsi», «yuxarı», «əsas», «böyük» mənalarında işlənən **baş** sözii ilə (339, s.76-77) **kənd** coğrafi nomenin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Akunk qoyulmuşdur.

**Başkənd** - Keçəldağ silsiləsində aşırım. Ermənistanın Çəmbərək (Krasnoselo) rayonu ilə Azərbaycanın Gədəbəy rayonunun sərhəddində, Başkənd (Arzveşen) kəndinin yaxınlığındadır. Yay otlağıdır.

**Başköy** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 11 km cənub-şərqdə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir.

Kənddə 1830 - cu ilə kimi qarapapaqlar (azərbaycanlıların etnoqrafik qrupu - İ.B.) yaşamışdır. 1830 - cu ildə buraya Türkiyənin Muş vilayətindən ermənilər köçürülüb yerləşdirilmiş və kəndin əsas sakinləri-azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində «böyük, əsas, yuxarı» mənasında işlənən baş sözü ilə, türk dilində «kənd» mənasında işlənən **köy** sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

XX əsrin 20-cı illərində kəndin adı erməni dilinə kalka edilərək Başqyuğ (Başkənd) qoyulmuşdur.

**Başköy** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə Başkənd kimi (143,s.128), Qafqazın 5 verstlik xəritəsində Baş kyoq formasında(348, s.34) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «əsas, böyük, dağın zirvəsi» mənalarında işlənən baş sözü ilə müasir türk dilində «kənd» mənasında işlənən köy sözündən əmələ gəlmişdir.

Erm. SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə Kəndin adı dəyişdirilib Saralanc qoyulmuşdur.

**Baş Gərni** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 32 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.33) qeyd edilmişdir.Kənd Gərni çayının mənbəyində salınmışdır.

Toponim türk dilində «çayın mənbəyi» mənasında işlənən baş sözü ilə (339, s.76-77) urartu dilində «qala» mənasında işlənən gərini (gərni) sözü (332, s.68) əsasında formalaşmışdır. Relyef əsasında əmələ gələn toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Gərni qoyulmuşdur.

**Baş Gözəldərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Göyçə gölünün yaxınlığında, Gözəldərə çayının yanında, Gözəldərə başı dağının ətəyində yerləşir. Kəndə həm də Yuxarı Gözəldərə deyilir. Ermənilər buraya 1828-ci ildən sonra Türkiyədən köçürülmüşdür (386, s.595-598).

1897-ci ildə burada ermənilərlə yanaşı 108 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən deportasiya edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən baş (yuxarı) sözü ilə gözəl və dərə sözlərinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Başnalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Gərni çayından ayrılan arxın kənarında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.99), Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir.

Kəddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1829-32-cı illərdə İranın Xoy və Salmas bölgələrindən ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s.578).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 30 nəfər, 1873 - cü ildə 85 nəfər, 1886-cı ildə 56 nəfər, 1897-ci ildə 70 nəfər, 1904 - cü ildə 85 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ilin martında azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 14 nəfər, 1926-cı ildə 10 nəfər, 1931-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415,s.47, 127). 1940-cı illərdə azərbaycanlılar tamamilə qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk mənşəli başnalı tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin I.XII. 1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Bağramyan qoyulmuşdur.

**Başsız -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 15 km şərqdə, Alagöz dağının cənubunda, İrəvan-Gümrü yolunun sağ tərəfində yerləşir. Kəndin adı mənbələrdə həm də Baysız göstərilir (415, s.34; 427, s.590). Kənddə 1831-ci ildə 12 nəfər yalnız azərbaycanlı yaşamışdır (427, s.590). Sonralar 40-50-ci illərdə azərbaycanlılar tarixi torpaqlarından sıxışdırılıb çıxarılmış və kəndə Türkiyədən köçürülən kürdlər yerləşdirilmişdir (415, s. 116-117).

Toponim türk dilində toponimiyada «dağ zirvəsi, irəli çıxan, görünən qaya, sıldırım qayalar», «təpə», «çayın yuxarı axarı», «çayın mənbəyi», «böyük», «əsas» mənasında işlənən baş sözünə (339, s.76-77) -sız şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Düzəltmə quruluşlu toponimdir.

**Berd qalacıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Rayondakı Məliklər (Spandaryan) kəndinin yaxınlığında yerləşirdi. İndi xaraba kənddir. Toponim türk dilində «çətin keçilən yer» mənasında işlənən bert sözü ilə (337, s.239) kiçiltmə mənasını bildirən -cıq şəkilçisi qoşulmuş qala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Berdadağ -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazsində kənd. Rayondakı Xaçik kəndindən 2 km cənub-şərqdə yerləşirdi. İndi xaraba kənddir. Toponim türk dilində «çətin keçilən yer» mənasında işlənən bert sözü ilə (337, s.239) dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Beybudabad -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonu ərazisində kənd olmuşdur. Rayonun Təzəkənd (Ayntap) kəndinin yaxınlığında yerləşirdi (427,s.235). Kənd haqqında ilk məlumat 1465-1466 illərdə verilmişdir (427, s.235). Bu kənd XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Beybud şəxs adı ilə fars dilindən Azərbaycan dilinə keçən «yaşayış məntəqəsi, kənd» mənasında işlənən abad sözünün (9, s.25; 339, s.36) birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Berdateğ -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda qala. Quqark rayonundakı Bzovdal kəndindən 12 km şimal-şərqdə yerləşirdi. Xarabalığa çevrilmiş qalanın divarları indi də durur.

**Berdi xaraba -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda xaraba kənd. XIX əsrin axırlarına kimi burada dini məbədin qalıqları dururdu. Toponim türk dilində «çətin keçilən yer», mənasında işlənən berd (<bert) sözü ilə (337, s.239) xaraba sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Berdtəpə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Əştərək rayonunda qala. Rayondakı Haxs (Dzorap) kəndinin yaxınlığında yerləşir.

**Bekciqazlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 500 m şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Bekciqazlu formasında (348, s.36) qeyd edilmişdir. Kəndin adı Becazlı formasında sabitləşmişdir (266, s.264).

Tarixən burada yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1823-30 - cu illərdə İranın Xoy və Salmas bölgələrindən köçürülmüşdür (386, s. 551-554).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 102 nəfər, 1873 - cü ildə 22 nəfər, 1886-cı ildə 19 nəfər, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1905-1906-cı illərdə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra - 1920-24 - cü illərdə sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 15 nəfər, 1931-ci illərdə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.47 127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarlarından sonra kənddə yaşayan azərbaycanlılar 1948-ci ildə zorla Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim qədim türk dilində «möhkəm», «bərk» mənasında işlənən bek sözü ilə (299, s.92) qaz (kas) türk etnoniminin birləşməsindən əmələ gəlmişdir. Toponim sonundakı -lı mənsubluq bildirən şəkilçidir.

Erm. SSR AS RH-nin 20.VII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Bostan qoyulmuşdur.

**Beşbarmaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəgəzur qəzasında, indiki Gorus rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim beş sayı ilə türk dilində «dağın şiş təpəsi, zirvəsi» mənasında işlənən barmaq sözünün (253, s.100; 339, s.74) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bəbirli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 36 km məsafədəyerləşir. «İrəvan əyalətinin icmal dəftərin»də (143, s.130), Qafqazın 5 verstlik xəritəsində (348, s.27) qeyd edilmişdir.

Burada 1860-cı illərə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1860-cı ildə Türkiyənin Qazarabad, 1915-20-cı illərdə Muş və Bulanis vilayətindən köçürülmüşdür (427, s.629).

Toponim **bəbirli** türk tayfa adı əsasında formalaşmışdır və quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.11.1947-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Bartsraşen qoyulmuşdur.

**Bəbirli yeri -** Yelizavetpol quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda yurd. Bəbirli tayfa adı ilə Azərbaycan dilində «yurd, ərazi, sahə» mənasında işlənən yer sözünün birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bəzirxana -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə, Arpaçayın yaxınlığında, Qırxbulaq kanalının yanında yerləşir.

Toponim burada əkilən zəyərək bitkisindən çəkilən bitki yağı «bəzir» sözünə (35, s.159) xana sözünün qoşulmasından əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir. 1924 - cü ildə adı dəyişdirilib Dzitankov qoyulmuşdur.

**Bəybalı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Sofulu kəndinin şimalında yerləşirdi. XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Bəybuğan** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonu ərazisində dağ. Adı dəyişdirilib Bağaysar qoyulmuşdur.

**Bəykənd** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Erməni mənbələrində kəndin adı Bekyan, Kiçik Bekyand kimi qeyd edilir (427, s.287). Rayon mərkəzindən 5 km şimalda, Alagöz dağının şimal-qərbində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə Bəykənd kimi (143, s.126), Qafqazın 5 verstlik xəritəsində Kiçik Bekand formasında (348, s.36) qeyd edilmişdir.

Toponim qədim türk dilində «təpə, yüksəklik» mənasında işlənən bək (bak < bəy) sözü ilə (278, s.35) kənd sözünün birləşməsindən əmələ gəlib «təpəlik, dağlıq yerdə yerləşən kənd» mənasını bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

1920-ci ildə adı dəyişdirilib Pokr Parni, Erm. SSR AS RH-nin 7.V.1969 - cu il fərmanı ilə yenidən adı dəyişdirilib Anuşavan (Anuş şəxs adıdır) qoyulmuşdur.

**Bəykənd** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Qaranqu çayının yanında yerləşir. 1728-ci il mənbəyi olan «İrəvan əyalətinin icmal dəftəri»ndə Bəykənd kimi (143, s.126) qeyd edilsə də, XIX əsr rus mənbələrində (348, s.36, 364, N° 1125) və erməni mənbələrində (415, s.42) Bekant formasında qeyd edilir. Təbii ki, Bekant Bəykənd toponiminin erməni və rus dillərində təhrif edilmiş formasıdır.

Toponim qədim türk dilində «təpə, yüksəklik, zirvə» mənasında işlənən bəy (<bək) sözü ilə (278, s.35) kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Medz Parni qoyulmuşdur.

**Bəyrabad** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 24 km cənub-şərqdə, İcevan-Krasnoselo rayonunun sərhəddinin şimalında yerləşir. Kəndin adı erməni mənbəyində Bayirabad, Bayrabad, Bayravat, Bəriyabad formalarında da qeyd edilir (427, s.589, 592, 625). Kəndin ərazisi 1897-ci ilə kimi Gölkənd kəndinin tabeliyində olmuşdur.

Kənddə 1897-ci ildə 111, 1919 - cu ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1919 - cu ilin yazında azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. Kəndin sakinləri Azərbaycanın Qazax rayonuna qaçmağa məcbur olmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma ocağlarına dönə bilmişlər. Burada 1922-ci ildə 85 nəfər, 1926-cı ildə 91 nəfər, 1931-ci ildə 109 nəfər (415, s.31, 115), 1939 - cu ildə 102 nəfər, 1959 - cu ildə 205 nəfər (427, s.625), 1986-cı ildə 380 nəfər yalnız azərbaycanlılar yaşamışdır. 1988-ci ilin noyabrın 24-28-də kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdür. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «təpə, hündür yer, təpəlik» mənasında işlənən **bair** //**bayır** sözü ilə (366, s.3738; 339, s.64) abad sözünün birləşməsindən əmələ gəlmişdir. Bayır //bair sözü monqol dilində **bayr** formasında «çöl, bayır» mənasında işlənir (2, s.328). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Barenat qoyulmuşdur.

**Bəkdaş** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Beyxtaş formasında qeyd edilmişdir (348, s.35). .

Kənddə 1897-ci ildə 87 nəfər, 1907-ci ildə 100 nəfər (427, s.648) 1914 - cü ildə 230 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 134-135). 1918-ci ildə ermənilər azərbaycanlıları qırğınlarla deportasiya etmişlər. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 28 nəfər, 1926-cı ildə 25 nəfər, 1931-ci ildə 40 nəfər (415, s.55, 135), 1959-cı ildə 60 nəfər (427, s.588) azərbaycanlı yaşamışdır. 1973 - cü ildə kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim böyük sözünün təhrif olunmuş forması olan bək sözü ilə «dağ, qaya» mənasında işlənən daş sözündən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bələk (Balak) -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 9-10 km şimal-qərbdə, Bazarçay çayının sağ sahilində yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə qeyd edilmişdir (143, s. 182).

Ermənilər buraya 1828-29 - cu illərdə İranın Salmas vilayətindən köçürülərək yerləşdirilmiş (427, s.554) və azərbaycanlılar tarixi torpaqlarından qovulmuşdur.

Toponim qədim türk dilində təpə mənasında işlənən bələk sözündən (359, IV (2), s.1609) əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

**Bənövşəbuşt** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd. Rayon mərkəzindən 15-16 km şimalda yerləşirdi. Kənddə 1914 - cü ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s.142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarında deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Indi xaraba kənddir.

Toponim **bənövşə** bitki adı ilə fars dilində «kiçik təpə» mənasında işlənən **puştə** sözündən (104, s.507) əmələ gəlib, «bənövşə təpəsi» mənasını bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bərk dərə** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda oronim. Oronim Azərbaycan dilində «çətin», «möhkəm» mənasında işlənən **bərk** sözü ilə **dərə** sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Bərgüşad** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ. Oronim qaraçorlu türk tayfasından olan bərgüşad etnonimi (286, s.73) əsasında əmələ gəlmişdir. Etnooronimdir.

**Bəxtiyar** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında kənd. Dilican şəhəri yaxınlığında, Ağstafa çayının sağ sahilində yerləşirdi.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Bilək** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Kənd su anbarından 3-4 km şimal-şərqdə, çayın sahilində, düzənlik vadidə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Birək kimi (143, s.60) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 244 nəfər, 1886-cı ildə 334 nəfər, 1897-ci ildə 357 nəfər, 1904 - cü ildə 536 nəfər, 1914 - cü ildə 590 nəfər, 1916-cı ildə 459 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «çayın qolu» mənasında işlənən bilək sözü (299, s.99; 366, s.146) əsasında yaranmışdır. Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

**Birəli** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi(Ararat) rayonunda kənd. Kəndin başqa adı Pirli olmuşdur (415,s.84). Rayon mərkəzindən 32 km məsafədə, Xaçdağının ətəyində yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfessəl dəftəri»ndə Pirilər formasında (143, s.173), 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri» ndə Yuxarı Pirli (143, s.107), Qafqazın 5 verstlik xəritəsində Birəli kimi (348, s.39) qeyd edilmişdir.

Birəli toponimi Pirilər toponiminin dəyişdirilmiş formasıdır.

Kəndin qədim, ilkin adlarına (Pirilər, Pirli) istinad edib bu qənaətə gəlirik ki, toponim pirilər//pirli etnonimi əsasında forlmalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lancar qoyulmuşdur.

**Birinci Alyanlı -** Yelizavetpol (Gəncə) qəberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Burada 1886-cı ildə 714 nəfər azərbaycanlı yaşamışdır (85, s.163). 1905-1906-cı illərdə xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim fərqləndirici əlamət bildirən birinci sözü ilə **əklənli** tayfa adı (406, s.206) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Birinci Bəhlul -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Mastara kəndindən 8-9 km cənub-qərbdə yerləşirdi. Kənd 1940-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən **birinci** sözü ilə **Bəhlul** şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Birinci Qayaxaraba -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd. Kəndin başqa adı «Sultanağıl»dır.

Kənddə 1897-ci ildə 119 nəfər, 1904 - cü ildə 106 nəfər, 1914 - cü ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «təpə, dağ, sıldırım» mənasında işlənən qaya sözü ilə «dağıdılmış yer» mənasında işlənən xaraba sözündən əmələ gəlib «qayalıqda təpədə xarabalığa çevrilmiş kənd» mənasını ifadə edir. Toponimin əvvəlindəki «birinci» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Birinci Qılıcyataq -** İrəvan quberniyasının Adeksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir. Kəndin digər adı Türk Qılıncyatağı (Qılıncyataq türk) olmuşdur (415, s.34). Qafqazın 5 verstlik xəritəsində (348, s.137) qeyd edilmişdir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən birinci sözü ilə Azərbaycan dilində «hündür bir yerin təpəsi», «dikdir, yolun başı» mənasında işlənən **qılıc** sözünün (118, s.18; 253, s.16; 278, s.53) «payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer» mənasında işlənən yataq sözünə (10, s.510; 278, s.168) qoşulması ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Suser qoyulmuşdur.

**Bitlicə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.39) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 246 nəfər, 1914 - cü ildə 198 nəfər, 1916-cı ildə 195 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulduqdan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 73 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 85 nəfər azərbaycanlı yaşamışdır (415, s.45, 127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-53 - cü illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim türk mənşəli bitli etnoniminə (271, s.33) -cə şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 20.VIII.1954 - cü il fərmanı ilə kəndin adı dəyişdirilib Bardzraşen qoyulmuşdur.

**Bığlı Hüseyn Saraclı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Sevan rayonu ərazisində kənd olmuşdur. Kəndin adı erməni mənbələrində Beqli Hüseyn, Bexlu formalarında da göstərilir (427, s.639, 647).

Kənd Kəvər (Kamo) rayonunun 22 km şimal-qərbində, Göyçə gölünün şimal-qərbində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.34) qeyd edilmişdir. 1930 - cu ildə Axta (Razdan) rayonunun ərazisinə daxil idi.

Kənddə 1831-ci ildə 26 nəfər, 1873 - cü ildə 356 nəfər, 1886-cı ildə 505 nəfər, 1897-ci ildə 645 nəfər, 1908-ci ildə 658 nəfər, 1914 - cü ildə 846 nəfər, 1916-cı ildə 768 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16-17, 100-101). 1918-ci ildə kəndin sakinləri ermənilər tərəfindən qətlə yetirilmiş və vəhşicəsinə qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri geri dönmüşdür. 1922-ci ildə burada 53 nəfər təkcə azərbaycanlı yaşamışdır (415, s.101). 1923-25-cı illərdə kənddə olan azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Bığlı Hüseyn antroponimi ilə qazax tayfalarından biri olan saraclı etnonimi (386, s.535) əsasında əmələ gəlib «Saraclı tayfasından olan Bığlı Hüseynə mənsub kənd» mənasını bildirir. Mürəkkəb quruluşlu etnotoponimdir.

**Boğazkəsən -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Qaranqu çayının sol axarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.40) qeyd edilmişdir.

XIX əsrin əvvəllərində kəndin sakinləri - azərbaycanlılar qovulmuş, Türkiyə və İrandan köçürülən ermənilər burada yerləşdirilmişdir.

Toponim tayfa adı əsasında formalaşmışdır və iki hissədən ibarətdir: «boğaz» ismi ilə -ən feli sifət şəkilçisi qəbul etmiş «kəsmək» felinin birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dzorakap qoyulmuşdur.

**Boğazkəsən yolu -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Kalinino rayonundakı Cücəkənddə mikrotoponim. Boğazkəsən etnonimi əsasında düzələn mürəkkəb quruluşlu etnotoponimdir.

**Boğakar -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Allahverdi (Tumanyan) rayonunda qışlaq. 1920-30 - cu illərdə burada yaşayış olmuşdur. 30 - cu illərin ortalarında ləğv edilmişdir.

**Boğutlu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 4 km cənub-şərqdə yerləşir. «Свод статических данных о населении Закавказского края» toplusunda Buqıtı (№ 1109), Qafqazın 5 verstlik xəritəsində Buğutlu kimi (348, s.44) qeyd edilmişdir.

Toponim türk dilində «dağ maralı» mənasında işlənən buğut sözünə (323, s.73) -lu şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

Zootoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 3l.VIII.1950-ci il fərmanı ilə adı dəyişdirilib Arteni qoyulmuşdur.

**Boğutlu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.44) qeyd edilmişdir. Hündürlüyü 2047 m.dir. Oronim dağ maralı mənasında işlənən buğut sözünə -lu şəkilçisinin qoşulması yolu ilə əsasında yaranmışdır. Zooronimdir. Quruluşca düzəltmə oronimdir.

**Bozabdal -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda kənd. Kirovakan şəhərindən 5 km şimal-qərbdə, Pəmbək çayının sol sahilində, Bozabdal dağının ətəyində yerləşir. Erməni mənbələrində Bzovdal (415, s.130; 427, s.548), Qafqazın 5 verstlik xəritəsində Bzobdal, Bzovdərə kimi (348, s.35) qeyd edilmişdir.

Toponim türk mənşəli boz (287, s.254) və abdal etnonimlərinin (355, s.16) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Bazum qoyulmuşdur.

**Bozabdal -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun Bazabdal kəndində dağ. Oronim boz və abdal etnonimləri əsasında yaranmışdır. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Bozavdal yaylası -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Saral kəndinin ərazisində yerləşir. Oronim boz və avdal (abdal) etnonimləri ilə «dağlıqda olan düzən yerlər» mənasında işlənən yayla sözünün (10, s.477) birləşməsindən əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Bozburun** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Alagöz kəndindən 5 km şimal-qərbdə yerləşirdi. Kəndin adı Bozbur formasında da qeyd edilir (364,№217;427,s.716).

Kənddə 1873-cı ildə 81 nəfər, 1904 - cü ildə 100 nəfər, 1897-ci ildə 162 nəfər müsəlman kürdü yaşamışdır (427, s.716). 1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuş və sakinləri deportasiya olunmuşdur. 1920-ci ildə ləğv edilmişdir (427, s.716).

Toponim Azərbaycan dilində «çılpaq, otsuz, meşəsiz» mənasında işlənən boz sözü ilə (339, s.87-88), «irəliyə çıxan və ya quruya uzanan quru» (253, s.99), «dağ çıxıntısı, dağın qolu, qumlu təpə, sıldırım qaya», «qurunun, dağın sivri bucaq şəklində düzünə tərəf uzanınış hissə» (198, s.l51;339,s.103) mənasında işlənən burun sözünün birləşməsindən əmələ gəlib, «otsuz çılpaq dağ çıxıntısı, dağın qolu yanında, quruya uzanan yerdə olan kənd» mənasını bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Bozburun** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Talin rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.41) qeyd edilmişdir. Dağın adı dəyişdirilib Yerax qoyulmuşdur (427, s.716).

Oronim Azərbaycan dilində «otsuz, çılpaq, meşəsiz» mənasında işlənən boz sözü ilə (339, s.88) «dağ çıxıntısı, dağın qolu» (339, s.103) «qurunun, dağın və ya qayanın sivri bucaq şəklində uzanınış hissə» (198, s.151) mənasında işlənən burun sözünün birləşməsindən əmələ gəlib «otsuz, çılpaq dağ çıxıntısı» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Bozqala** - Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. İmanlı kəndinin cənub-şərqində, Arpaçayın sağ sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.41) qeyd edilmişdir.

Kənddə 1908-ci ildə 139 nəfər, 1914 - cü ildə 159 nəfər azərbaycanlı yaşamışdır (415, s.104-105). Kəndin əhalisi 1918-ci ildə ermənilər tərəfindən təcavüzə məruz qalmış, bir hissəsi qırılmış, sağ qalanlar Türkiyəyə getmişlər. 1922-ci ildən sonra indiki Ermənistanda sakitlik yaranmışdır. Kəndi tərk etməyə məcbur olan azərbaycanlılar 1922-ci ildən ata-baba torpaqlarına dönə bilmişdir. 1926-cı ildə 55 nəfər, 1931-ci ildə 94 nəfər (415, s.18-19, 104-105), 1939 - cu ildə 104 nəfər (427, s.718) azərbaycanlı yaşamışdır. 1940-cı ildə kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim Azərbaycan dilində «çılpaq, otsuz, meşəsiz» mənasında işlənən boz sözü ilə (278, s.38-39; 339, s.87-88) qala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Bozdoğan -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 40 km məsafədə, Arpaçaydan 8 verst aralıda yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.96), Qafqazın 5 verstlik xəritəsində (348, s.41) qeyd edilmişdir.

Toponim oğuzlara məxsus **bozdoğan** adlı türk tayfasının adından (303 a. s.11; 238, s.188-189, 332) formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Sarakan qoyulmuşdur.

**Bozyoxuş** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonu ərazisində aşırım. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.41). Oronim türk dilində «otsuz, çılpaq» mənasında işlənən **boz** sözü ilə (339, s.87-88) «dik, dikə, təpəyə qalxan yol» mənasında işlənən **yoxuş** sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Bozyoxuş** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.41) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «otsuz, çılpaq, meşəsiz»mənasında işlənən **boz** sözü ilə (278, s.38-39; 339, s.87-88)«dik, dağa, təpəyə qalxan yol» mənasında işlənən **yoxuş** sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Musaelyan qoyulmuşdur.

**Bozyoxuş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda dağ.

**Boz kaha -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd olmuşdur. Rayondakı Qarnidzor kəndindən 3 km şimal-şərqdə yerləşirdi. İndi xarabalığa çevrilmiş kənddir.

Toponim rəng mənasında işlənən boz sözü ilə «mağara, zağa, qayalıqda, dağda təbii və ya süni oyuq» mənasında işlənən kaha sözünün (11, s.26) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Bozkosa -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonundakı kənd.

Kənddə 1873 - cü ildə 99 nəfər, 1886-cı ildə 141 nəfər, 1897-ci ildə 161 nəfər, 1904 - cü ildə 154 nəfər, 1914 - cü ildə 225 nəfər, 1916-cı ildə 221 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim bozkosa tayfa adından əmələ gələn etnotoponimdir. Oğuzlarda «boz» sözü ilə əmələ gələn tayfalar çoxdur: bozcalu, boz oxlar, bozdoğan, boz ulus və s. (238, s.164, 175, 186, 188, 198). Sadə quruluşlu toponimdir.

**Bozgöy -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Erməni mənbələrində kəndin adı Bozikağ, Bozikənd, Həmzəçimən kimi də göstərilir (415, s.52).

Kənd Həmzəçimən çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.41).

Toponim Azərbaycan dilində «bitkisiz, otsuz, meşəsiz, çılpaq» mənasında işlənən boz (9, s.299; 178, s.38-39) və türk dilində «kənd» mənasında işlənən göy sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Markahovit qoyulmuşdur.

**Boznəli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində Bozlu formasında qeyd edilmişdir (348, s.41).Boznəli Bozlu formasının təhrif edilmiş formasıdır. XIX əsrin əvvəllərində ləğv edilmişdir.

Toponim bəydili türk tayfalarından olan bozlu etnonimindən (238, s.289) əmələ gəlmişdir.

Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Boyaqçı -** İrəvan şəhərində məhəllə. İrəvanda yaşayan azərbaycanlılara aid boyaqçı nəsil adı əsasında formalaşmış patronimik toponimdir. Quruluşca sadə toponimdir.

**Bora dağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonunun Yuxarı Kilsə kəndində dağ. Oronim Azərbaycan dilində «sırsıra» mənasında işlənən bora sözü ilə (253, s.121) dağ oroterminin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Borçalı arxı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda arx. Tona çayından çəkilmişdir.

Hidronim Borçalı türk etnonimi (142, s.82; 287, s.54) ilə arx sözü əsasında yaranan etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Bostan tala -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonu ərazisində, Yuxarı Ağdan ərazisində yerləşən qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (85, s.78). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim türk mənşəli **bostan** etnonimi ilə (286, s.61) «meşə sahəsində açıqlıq» mənasında işlənən **tala** sözünün birləşməsindən əmələ gəlmişdir.

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Böyük Ağa -** İrəvan xanlığının Göyçə mahalında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində kənd. Qanlı Ağalı kəndinin yaxınlığında yerləşmişdir. Z.Qorqodyanın əsərində kəndin adı xatırlanır və göstərilir ki, kənd ləğv edilmişdir (415, s. XVII).

Toponim Azərbaycan dilində «hörmətli, nufuzlu» mənasında işlənən böyük sözü ilə şəxs adı bildirən Ağa sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Böyük Ayrım** - Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-şərqdə, İrəvan-Tiflis dəmiryolunun sol tərəfində yerləşir.

Kənddə 1886-cı ildə 171, 1897-ci ildə 223, 1908-ci ildə 390, 1914 - cü ildə 381 nəfər azərbaycanlı yaşamışdır (415, 67, 98-99). 1918-20-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 454, 1926-cı ildə 282, 1931-ci ildə 391 (415, s.7, 99), 1939 - cu ildə 530 nəfər, 1959 - cu ildə 550 nəfər, 1970-ci ildə 815 nəfər (427, s.244) yalnız azərbaycanlı yaşamışdır. Müxtəlif illərdə (1873, 1886, 1908, 1897, 1922, 1926, 1931) əhalinin siyahıya alınmalarda göstərilir ki, kəndə yalnız azərbaycanlılar yaşamışdır (415, s.67, 98-99). Halbuki bu tarixi fakt saxtalaşdırılaraq «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə həmin illərdə kənddə yaşayan azərbaycanlılar erməni kimi göstərilir (427, s.244). 1950-ci ildə Şnoğ meyvəçilik sovxozu ilə birləşdirilmişdir. 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən böyük sözü ilə oğuzların eymur (eymir, imir) tayfa adının (238, s.324; 178, s.204) fonetik variantı olan ayrım etnoniminin əsasında əmələ gəlmişdir. M.Vəlili (Baharlı) ayrım tayfasını səlcu'qların bir qolu hesab edir (245, s.43). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Böyük Arıxvəli** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.128), Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir.

Toponim tayfa (arıx) və şəxs (Vəli) adlarından törəmişdir (35, s.160). «Arıxlar tayfasından olan Vəliyə mənsub yaşayış yeri» deməkdir. Toponimin əvvəlindəki «böyük»fərqləndirici əlamət bildirir ki,

bu da Azərbaycan toponimiyası üçün xarakterikdir. Arıx etnonimi mənbələrdə arıxlı formasında öz əksini tapır (142, s.39). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Medz Mantaş qoyulmuşdur.

**Böyük Armudlu** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Burada ermənilərdən başqa 1831-ci ildə 129 nəfər (386, s.579-580), 1922-ci ildə 52 nəfər (415, s.138-139) azərbaycanlı yaşamışdır. 1930 - cu ildə azərbaycanlılar kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim armud sözünə -lu şəkilçisinin artırılması ilə əmələ gəlib «armud olan yer» mənasını bildirir. Toponim əvvəlindəki «böyük» sözü fərqləndirici əlamət bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Tandzut (Armudlu) qoyulmuşdur.

**Böyük Vedi** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda yaşayış məntəqəsi şəhər tipli qəsəbə. Vedi rayonunun mərkəzi. Vedibasar çayının yanında yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.172), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.51), Qafqazın 5 verstlik xəritəsində (348, s.50) qeyd edilmişdir.

Burada 1831-ci ildə 799, 1873 - cü ildə 1743, 1886-cı ildə 2110, 1897-ci ildə 2792, 1914 - cü ildə 2672 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş və 1918-20-cı illərdə İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir.

Burada 1922-ci ildə 1504 nəfər azərbaycanlı, 453 erməni, 1926-cı ildə 1545 nəfər azərbaycanlı, 261 erməni, 1931-ci ildə 1254 nəfər azərbaycanlı, 214 erməni yaşamışdır (415, s.85, 155). Sonralar kəndin əhalisi erməni mənbələrində qarışıq şəkildə göstərilmişdir. 1972-ci ildə burada 5624 nəfər azərbaycanlı və erməni yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövlət tərəfindən qırğınlarla qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən böyük və ərəb dilində «iki dağ arasında olan uzun çuxur dərə», «bir çayın axdığı yer, çay yatağı», «çöl, səhra», «sahə», «məkan, yer» mənalarında işlənən vadi (104, s.83) sözlərindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Yaşayış məntəqəsinin adı erməni dilinə kalka edilərək Medz (böyük) Vedi formasında işlədilir.

**Böyük Qaraqoyunlu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə yerləşir. Kəndin bir adı da Yellicə olmuşdur (427, s.46). Qafqazın 5 verstlik xəritəsində Yellicə Qaraqoyunlu kimi qeyd edilmişdir (348, s.92).

Kənddə 1831-ci ildə 379 nəfər, 1873 - cü ildə 408 nəfər, 1886-cı ildə 591 nəfər, 1897-ci ildə 447 nəfər, 1908-ci ildə 505 nəfər, 1914 - cü ildə 655 nəfər, 1916-cı ildə 516 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 392 nəfər, 1926-cı ildə 374 nəfər, 1931-ci ildə 488 nəfər (415, s.27, 111), 1939 - cu ildə 562, 1959 - cu ildə 746, 1970-ci ildə 1130, 1979 - cu ildə 1407 (427, s.46) nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim qoraqoyunlu türk etnonimi əsasında əmələ gəlmişdir. «Böyük» fərqləndirici əlamət bildirən sözdür. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Əzizli, Ermənistan prezidentinin 19.l.1991-ci il fərmanı ilə bir daha dəyişdirilib Norabak qoyulmuşdur.

**Böyük Qarakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək bölgəsində kənd. Quqark rayonunun ilk adı.

Toponim alban məbədinin adı əsasında yaranmışdır. Həmin ərazidə yerləşən kilsə qara daşdan tikildiyi üçün Qarakilsə adlanmış və sonra da Qarakilsə toponimə çevrilmişdir. «Böyük» sözü fərqləndirici əlamət bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Kirovakan adlandırılmışdır.

**Böyük Dəlilər -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Erməni mənbələrində Dəlilər kəndi kimi qeyd edilir (415, s.48). Rayon mərkəzindən 2 km şimal-

şərqdə, Gərni çayından axan arxın yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Dəlilər formasında (143, s.49), Qafqazın 5 verstlik xəritəsində Böyük Dəlilər kimi (348, s.74) qeyd edilmişdir. Burada tarixən yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). Kəndə ermənilər 1828-1829 - cu illərdə İranın Xoy vilayətindən köçürülmüşdür. Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 46 nəfər, 1873 - cü ildə 115 nəfər, 1886-cı ildə 124 nəfər, 1897-ci ildə 134 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndə az sayda azərbaycanlı dönə bilmişdir. Burada 1922-ci ildə 5 nəfər, 1926-cı ildə 4 nəfər, 1931-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 30 - cu illərin ortalannda kənddə olan azərbaycanlılar tamamilə qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim qədim türk tayfası tele (>dəli İ.B.) etnoniminə (180, s.21) cəmlik bildirən -lər şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Toponimdəki «böyük» sözü fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dalar (dəlilər etnoniminin ermənicə tələffüz formasıdır) qoyulmuşdur.

**Böyük düz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qızılörən kəndinin ərazisində yerləşir. Oronim Azərbaycan dilində «geniş» mənasında işlənən böyük sözü ilə «enişi, yoxuşu, çuxuru, təpəsi olmayan hamar yer» mənasında işlənən düz sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yarananan mürəkkəb oronimdir.

**Böyük Zeyvə** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 5,5 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.97) qeyd edilmişdir. Kəndin ilkin sakinləri azərbaycanlılar olmuşdur. Türkmənçay müqaviləsindən sonra kəndə 1828-29 - cu illərdə İranın Salmas və Xoy vilayətlərindən və 1915-16-cı illərdə Türkiyənin Alaşkerd vilayətindən köçürülən ermənilər yerləşdirilmişdir (427, s.320). Burada ermənilərlə yanaşı 1897-ci ildə 29 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83). Azərbaycanlılar XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə sıxışdırılıb tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən «böyük» sözü ilə ərəb dilində «guşə, künc, bucaq» mənasında işlənən zaviyə sözünün (104, s.207) birləşməsindən əmələ gəlmişdir. Bu söz (zaviyə) islamiyyətlə əlaqədar olub fars dilindəki xanəgah sözü ilə sinonim münasibətindədir və «bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer» anlamını verir. Səfəvilərin hakimiyyəti dövründə imtiyazlı zümrələr içərisində feodallardan sonra ikinci yeri ruhanilər tuturdu. Ruhanilərə hər vilayətdə şeyxülislamlar, vaizlər və nəhayət, dərviş malikanələrindəki (xanəgah və zaviyələrdəki) şeyxlər daxil idi. Ömürlərini ibadətlə keçirən ruhanilər, tərkidünyalar üçün bir küncdə, bucaqda, camaatdan kənarda tikilən evlər zaviyə adlanırdı və sonralar həmin yer yaşayış məntəqələrinə çevrilmişdi (93, s.54). Deməli, Zeyvə kəndləri, zaviyə sözünün əsasında formalaşmışdır. Digər tərəfdən bu bir daha göstərir ki, həmin ərazi Səfəvilərin hakimiyyəti altında olmuşdur. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Arataşen qoyulmuşdur.

**Böyük yoxuş** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda dağ. Rayondakı Göykilsə (Kaputan) kəndinin ərazisində yerləşir. Oronim Azərbaycan dilində «geniş, iri» mənasında işlənən böyük sözü ilə «yolun dağa, təpəyə tərəf qalxan hissəsi, dik yer» mənasını verən **yoxuş** sözü əsasında yaranmışdır. Relyef əsasında yaranan murəkkəb quruluşlu oronimdir.

**Böyük Kəpənək** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur.

Qafqazın 5 verstlik xəritəsində (348, s.113) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. 1828-30 - cu illərdə bura ermənilər köçürülmüş və azərbaycanlılar qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «geçə, yapıncı» mənasında işlənən kəpənək sözündən düzələn kəpənəkçi etnonimi (195, s.159) əsasında əmələ gəlmişdir. Kəpənək sözünə «yıpınçı» mənasında «Kitabi-Dədə Qorqud»da rast gəlinir. «Böyük» fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Musaelyan qoyulmuşdur.

**Böyük Keyti** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə yerləşir. 1937-ci ilə qədər Leninakan rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.128) qeyd edilmişdir. Kəndin digər adı Keyti, Kaytı olmuşdur (415, s.44).

Toponim türk dilində «meşəsiz dağ yamacının gün düşən tərəfi» mənasında işlənən kət (339, s.264) və fərqləndirici əlamət bildirən «böyük» sözlərindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Keti qoyulmuşdur.

**Böyük kotaklı** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim peçenəqlərin katak (kotak İ.B) etnoniminə (287, s. 114-116) -lı sözdüzəldici şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Toponimin əvvəlindəki böyük fərqləndirici əlamət bildiran sözdür. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Böyük Gilanlar** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 28 km şimal-şərqdə, Yelincə çayının sahilində yerləşir. 1930 - cu ildə Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415,s.154).

«İrəvan əyalətinin icmal dəftərin»də Böyük Gilan (143, s.102), Qafqazın 5 verstlik xəritəsində Böyük Gilyanar (348, s.62) formalarında qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 143 nəfər, 1873 - cü ildə 146 nəfər, 1886-cı ildə 194 nəfər, 1897-ci ildə 310 nəfər, 1914 - cü ildə 389 nəfər, 1916-cı ildə 272 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-1919 - cu illərdə kəndin sakinləri ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan gilanlarlılar öz kəndlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 120 nəfər, 1926-cı ildə 178 nəfər, 1931-ci ildə 230 nəfər (415, s.85, 155), 1939 - cu ildə 339 nəfər (427, s.862), azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin 1948-ci il tarixli xüsusi qərarı ilə kəndin sakinləri - azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. İndi burada təkcə ermənilər yaşayır.

**Böyük Məzrə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 5 km şimal-şərqdə, Məzrə çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.62), Qafqazın 5 verstlik xəritəsində (348, s.164) qeyd edilmişdir. Kəndin bir adı Kalı ağalı olmuşdur (415, s.26).

Kənddə 1831-ci ildə 293 nəfər, 1873 - cü ildə 956 nəfər, 1886-cı ildə 1379 nəfər, 1897-ci ildə 1652 nəfər, 1908-ci ildə 1842 nəfər, 1914 - cü ildə 1970 nəfər, 1916-cı ildə 1792 nəfər, 1919 - cu ildə 220 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113).

1918-ci ildə indiki Ermənistanda hakimiyyətə gələn daşnaklar 1919 - cu ilin mayında Böyük Məzrəyə hücum edərək sakinləri qırğınlarla tarixi torpaqlarından deportasiya etmişlər (309, s.305) və 1922-ci ildə kəndə 572 nəfər erməni yerləşdirmişlər (415, s.113). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı 1922-ci ildə 572 nəfər, 1926-cı ildə 594 nəfər, 1931-ci ildə 867 nəfər (415, s.27, 113), 1988-ci ildə 2500 nəfər (85, s.281-282) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında erməni sakinlərinin iştirakı ilə azərbaycanlılar öz doğma torpaqlarından qovulmuşlar. İndi burada təkcə ermənilər yaşayır.

Kənddə albanlara məxsus IX əsrə aid tarixi abidə vardır. Bu tarixi abidənin üzərində 881-cı il tarixi yazılmışdır. Eyni zamanda kəndin yaxınlığında oğuzlara məxsus qəbiristanlıq indi də qalır. Bütün bunlar kənddə tarixən azərbaycanlıların yaşadığını sübut edir.

Toponim ərəb dilində «əkilmiş yer, sürülüb toxum səpilmiş tarla» mənasında işlənən məzrə (məzru') sözü əsasında (104, s.343) əmələ gəlmişdir. Böyük sözü fərqləndirici əlamət bildirir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Medz (böyük) Mazra formasında yazılır və işlədilir.

**Böyük Sarıyal** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibinə daxil idi. Kəndin başqa adı Saral olmuşdur (415, s.44).

Toponim fərqləndirici əlamət bildirən «böyük» sözü ilə qədim türk dilində «düzənlik, düz, çöl, sahə» mənasında işlənən sara (sarı - İ.B. 359, IV(1), s.315) və «dağın döşü, dağın yamacı», «dağ keçidi, təpə» (339, s.648), müasir Azərbaycan ədəbi dilində «hündür bir yerin təpəsi», «dikdir», «yoxuşun başı» (10, s.479) mənasında işlənən **yal** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə adı dəyişdirilib Medz Sariar (Böyük Sarıyal) qoyulmuşdur.

**Böyük təpə** - Tiflis quberniyasının Borçalı qəzasında, indi Kalinino rayonundakı Cücəkənd kəndində oronim. Oronim Azərbaycan dilində «geniş, hündür, iri» mənasında işlənən böyük sözü ilə «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Böyük Təpəköy -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə, Arpa gölün şərq tərəfində, dəniz səviyyəsindən 20-27 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.237).

Kəndin sakinləri azərbaycanlıların etnoqrafiq qrupu olan qarapapaqlar olmuşdur. Erməni mənbələrində kənddə yaşayan qarapapaqlar xüsusi bir xalq kimi göstərilir (415, s.20, 105).

Kənddə 1886-cı ildə 199 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildə 296 nəfər, 1914 - cü ildə 357 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1918-20-cı illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalmışlar və sakinlər deportasiya olunmuşlar. Sakinləri Türkiyəyə pənah aparmışlar.

İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri geri qayıtmışdır. 1922-ci ildə 71 nəfər, 1926-cı ildə 138 nəfər, 1931-ci ildə 174 nəfər (415, s.21, 105), 1970-ci ildə 772 nəfər, 1987-ci ildə 757 nəfər (35, s.161) azərbaycanlı yaşamışdır.

1988-ci ilin oktyabr ayında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «kiçik dağ, dağ» mənasında işlənən təpə sözü ilə müasir türk dilində «kənd» mənasında işlənən köy sözlərinin birləşməsindən əmələ gəlmişdir. «Böyük» fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Daşdavayr qoyulmuşdur.

**Böyük tüklü təpə -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasinda, indiki Barana (Noemberyan) rayonunda təpə. Rayondakı Yuxarı Körpülü kəndi ilə Gürcüstanın Marneuli rayonundakı Qaçağan kəndinin sərəhəddində yerləşir. Oronim Azərbaycan dili şivələrində «sıx, kol-kosluq» mənasında işlənən **tüklü** sözü ilə (129, s.64) «kiçik dağ» mənasında işlənən **təpə** sözünün birləşməsindən əmələ gəlmişdir. «Böyük» sözü fərqləndirici əlamət bildirir. Quruluşca mürəkkəb oronimdir.

**Böyük çay -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonundakı Qayqoca kəndində çay. İki sözdən: böyük və **çay** hidroterminindən düzəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Böyük camışlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuş, 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra onun tərkibinə daxil edilmişdir. Abaran çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.80) qeyd edilmişdir.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən **böyük** sözü ilə **camışlı** türk tayfa adı (142, s.29 ) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.1.1938-ci il fərmanı ilə adı dəyişdirilib Alagöz (Alaqəz) qoyulmuşdur.

**Böyük Şəhriyar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə, Arazdan axan arxın kənarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.290) qeyd edilmişdir.

Toponim böyük fərqləndirici əlamət bildirən sözlə Şəhriyar şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Nalbandyan (erməni şairi) qoyulmuşdur.

**Böyük Şiştəpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 4 km məsafədə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftərin»də (143, s.135) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi» mənasında işlənən şiş sözü ilə (196, s.42) «kiçik dağ» mənasında işlənən **təpə** sözünün birləşməsindən əmələ gəlmişdir. «Böyük» sözü fərqləndirici əlamət bildirir. Relyeflə bağlı yaranan orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS.RH-nin 12.XI.1946-cı il fərmanı ilə dəyişdirilib Medz Sepasar (Böyük Şiştəpə) qoyulmuşdur.

**Böyük Şöllü Dəmirçi -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir.

1969 - cu ildə Zəngibasar rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 338 nəfər (386, s.547-548),1886-cı ildə 1318 nəfər (Свод статических данных о населении Закавказского края, Тифлис ,1893, № 101), 1922-ci ildə 238 nəfər, 1926-cı ildə 417 nəfər, 1931-ci ildə 453 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı kənddə yaşayan azərbaycanlılar 1948-53 - cü illərdə zorla Azərbaycana köçürülmüş, Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. Kənddə yaşayan 3540 azərbaycanlı ailəsi isə 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim mənsubluq bildirən -lu şəkilçisinin qoşulduğu çol (şol - İ.B.) etnonimindən (287, s. 112-114) və dəmirçi türk etnonimindən (271, s.466) əmələ gəlmişdir.

Toponimin əvvəlindəki «böyük» fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Şorlu qoyulmuşdur.

**Börkçülər -** İrəvan şəhərində məhəllə. Papaqçılıqla məşğul olan börkçülər (börk papaq deməkdir) tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir.

**Böyük Çobankərə -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Qarasu və Zəngi çayları arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.286) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 951 nəfər, 1873 - cü ildə 2337 nəfər, 1886-cı ildə 2487 nəfər, 1897-ci ildə 2631 nəfər, 1904 - cü ildə 2411 nəfər, 1914 - cü ildə 3089 nəfər, 1918-ci ildə 2417 nəfər, 1919 - cu ildə 4600 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1919 - cu ilin sonlarında kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 66 nəfər, 1926-cı ildə 279 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Kəndin əhalisi 1930 - cu illərdə qonşu Mehmandar kəndinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qazaxlar türk tayfasından olan böyük çobankərə etnonimindən (386, s.535, 631) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Buğakar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Meğri çayının sahilində yerləşir.

Kənddə 1897-ci ildə 139 nəfər, 1904 - cü ildə 194 nəfər, 1914 - cü ildə 96 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143). Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalmış və sakinləri - azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 30 nəfər, 1931-ci ildə 41 nəfər azərbaycanlı yaşamışdır (415, s.67, 143). 1940-cı illərdə rayondakı Lök (Vartanidzor) kənd sovetinin tərkibinə daxil edilmişdir.

Toponim türk dilində «dağ keçidi», «dar, ensiz, vadi, yarğan», «dağ ətəyində, çay sahilində düzənlik yer» mənasında işlənən buk sözü ilə (339, s.99-100) türk dilində «sıldırım qaya» mənasında işlənən kar sözünün (323, s.107) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Buğakar -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunun ərazisində qışlaq olmuşdur. 1926-cı ildə burada 1 nəfər azərbaycanlı, 2 nəfər yunan yaşamışdır (415, s.67). 1930 - cu illərdən sonra rəsmi sənədlərdə adı çəkilmir.

**Buğacıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Meşənin içində yerləşirdi.

Kənddə 1897-ci ildə 125 nəfər, 1922-ci ildə 21 nəfər, 1926-cı ildə 1 nəfər azərbaycanlı yaşamışdır (415, s.54-55, 134-135). 1929-30 - cu illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim buğacıq türk mənşəli etnonimi əsasında yaranmışdır. Bu tayfanın adına «Kitabi-Dədə Qorqud»da rast gəlirik: «Sol tərəfdə Buğacıq Məlikə Qarabudaq qarşu gəldi» (158, s.77)» . Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Buğda -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Rayondakı Ağudi kəndinin yanında yerləşir. Oronim buğda bitki adı əsasında yaranmışdır. Fitooronimdir. Quruluşca sadə oronimdir.

**Buğdalı -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim buğdalı tayfa adı əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Buğda təpə -** İrəvan xanlığının Göyçə mahalında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində kənd. XVIII əsrdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Buğdayitəpə formasında (143, s.55) qeydə alınmışdır. Kənd Göyçə dağında yerləşirdi. Z.Qorqodyan Göyçə mahalında ləğv edilmiş kəndlər sırasında Buğdatəpə kəndinin də adını çəkir (415, s.16).

Toponim bitki adı bildirən **buğda** və kiçik dağ mənasında işlənən **təpə** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Buğdatəpə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında dağ. Göyçə gölünün yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.44) qeyd edilmişdir.

Oronim bitki adı bildirən **buğda** və **təpə** sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Buğdatəpə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında aşırım. Qafqazın 5 verstlik xəritəsində (348, s.44) qeyd edilmişdir.

**Buğdatəpə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Hündürlüyü 2057 m-dir. Oronim buğda və **təpə** coğrafi nomeninin birləşməsindən əmələ gələn fitooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Buğdaşen -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 20 km cənub-qərbdə, Gümrü-Qurduqulu (Oktemberyan) yolunun üstündə, yaylaqda, Arpaçayın yaxınlığında yerləşir. Burada XIX əsrin 30 - cu illərinə qədər azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-29 - cu illərdə Türkiyənin Alaşkert, Bulanix, Muş vilayətlərindən köçürülmüşdür (427, s.535).

Toponim buğda və qədim türk dilində «kənd», «yaşayış yeri» mənasında işlənən şenlik mənasını ifadə edən **şen** sözündən formalaşmışdır. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.XII.1947-ci il fərmanı ilə adı dəyişdirilib Baqravan qoyulmuşdur.

**Buğdaşen stansiya qəsəbəsi -** Ağin (Ani) rayonunda stansiya qəsəbəsi. Qəsəbənin adı Buğdaşen kəndinin adından götürülüb.

Erm. SSR AS RH-nin 31.VII.1950-ci il tarixli fərmanı ilə dəyişdirilib Baqravan stansiya qəsəbəsi qoyulmuşdur.

**Buğutlu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda dağ. Dağın adı dəyişdirilib Arteni qoyulmuşdur. Oronim türk dilində «dağ maralı» mənasında işlənən buğut sözü (323, s.73) əsasında formalaşmışdır.

**Bulaqlar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayondakı Herher kəndindən 4 km cənubda, Herher çayının sahilində yerləşirdi.

Kənddə 1873 - cü ildə 68 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 149 nəfər, 1904 - cü ildə 132 nəfər, 1914 - cü ildə 145 nəfər, 1916-cı ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 29 nəfər, 1926-cı 40 nəfər, 1931-ci ildə 63 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.89, 159). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənd sakinləri 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1949 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənd dərədə çoxlu bulaq olan yerdə salındığı üçün Bulaqlar adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Bulaqlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənubda yerləşir. 1969 - cu ilə kimi, Zəngibasar (Masis) rayonu təşkil edilənədək, Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur.

Kənddə 1831-ci ildə 85 nəfər, 1873 - cü ildə 183 nəfər, 1886-cı ildə 222 nəfər, 1897-ci ildə 234 nəfər, 1908-ci ildə 256 nəfər, 1914 - cü ildə 376 nəfər, 1916-cı ildə 228 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri 1923-25-cı illərdə ata yurdlarına dönə bilmişdir. Burada 1926-cı ildə 36 nəfər, 1931-ci ildə 75 nəfər azərbaycanlı yaşamışdır (145, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə onların bir hissəsi yenidən öz kəndlərinə qayıtmışdır. 1988-ci ilin noyabr ayında Ermənistan dövləti bir daha onları zorla doğma yurdlarından Azərbaycana qovdu. İndi burada ermənilər yaşayır.

Toponim X əsrdə yaşamış yağma türk tayfasının bir boyunu təşkil edən **bulaq** etnoniminə (238, s.5152) mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib «bulaq tayfasına məxsus yaşayış yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Həbilkənd, sonra yenidən dəyişdirilib Kalinin qəsəbəsi qoyulmuşdur.

**Bulxer** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Abaran çayının sağ qolu üstündə, Alagöz dağının ətəyində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Bulxeyir (143, s.174), 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətiriin icmal dəftəri»ndə Əbülxeyir (143,s.54), Bulxeyir (143, s.lll), Qafqazın 5 verstlik xəritəsində Blxer (348, s.40) formalarında qeyd edilmişdir. Kəndin adı erməni mənbələrində Plxer, Bulxayır kimi də göstərilir (415, s.4). Sarmatiyada yaşayan xalqlardan birinin adı bulxi olmuşdur (383, c.222, 265, s.38). Bu qənaətə gəlmək olar ki, bulxi etnoniminə türk dilində «igid, qoçaq»mənasında işlənən ər sözünün qoşulması əsasında bulxer etnonimi yaranmışdır. Fikrimizcə, bulxer bulqar etnoniminin fonetik variantıdır. Xəzər, salar, toxar, quqar və s. türk etnonimləri də həmin konstruksiya əsasında formalaşmışdır.

Belə qənaətə gəlirik ki, toponim bulxer etnonimindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Şenavan qoyulmuşdur.

**Bunud -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. İrəvandan 85 verst məsafədə, Cığın dərəsində, Cığınsu çayının yanında, Topdağ dağının ətəyində yerləşir.

Kənddə 1873 - cü ildə 178 nəfər, 1886-cı ildə 173 nəfər,1897-ci ildə 161 nəfər, 1904 - cü ildə 397 nəfər, 1914 - cü ildə 437 nəfər, 1916-cı ildə 215 nəfər azərbaycanlı yaşamışdır (415,s.84-85, 154-155). 1918-19 - cu illərdə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra, azərbaycanlılar 1923-25-cı illərdə öz kəndlərinə dönə bilmişlər. 1926-cı ildə burada 35 nəfər azərbaycanlı yaşamışdır (415, s.85). 1930 - cu illərdə azərbaycanlılar qovularaq kənd ləğv edilmişdir. İndi xarabakənddir.

Toponim «soy, nəsil» mənasında işlənən bun sözünə (359, IV(2), s.1813), -ud şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Burma -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Barana (Noemberyan) rayonu ərazisində kənd. Rayon mərkəzindən 10-12 km cənub-qərbdə, Tona (Debed) çayının sol sahilində yerləşirdi. Burada tarixən yalnız azərbaycanlılar yaşayıb.

Kənddə 1922-ci ildə 59 nəfər azərbaycanlı yaşamışdır (415, s.98-99). 1930 - cu illərdə kənd ləğv edilmişdir.

**Burun -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «irəliyə çıxan və ya suya doğru uzanan quru» (253, s.99), «qurunun, dənizin içinə girən dağlıq, qayalıq hissəsi» (9, s.330), «qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissə» (198, s.151), başqa türk dillərində «dağ çıxıntısı, qum silsiləsi, cərgəsi, qum təpəsi», «sıra dağlardan ayrılan dağ qolu, dil» mənasında işlənən «burun» sözündən (339, s. 103-104) əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Burçulu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Qacaran kəndindən 2-3 km cənub-qərbdə yerləşmişdir.

Toponim qıpçaq mənşəli **burçoğlu** etnoniminin (286, s.48) fonetik variantı olan burçulu etnonimi əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Bülbülolan -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Orta kənddən 3-4 km qərbdə, Həsənkəndlə Qoytul kəndləri arasında (85, s.354), Təkədonduran dağının yaxınlığında yerləşirdi. Kəndin digər adı Bülbüloğlu və Kaha olmuşdur (427,s.751).

Kənddə 1831-ci ildə 67 nəfər, 1873 - cü ildə 163 nəfər, 1886-cı ildə 205 nəfər, 1897-ci ildə 252 nəfər, 1904 - cü ildə 398 nəfər, 1914 - cü ildə 437 nəfər, 1916-cı ildə 223 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd əhalisindən sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s.160-161). Onlar yenidən 1923-1925-cı illərdə qovularaq kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim şəxs adı (Bülbül olan// Bülbüloğlu) əsasında yaranmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Bcni -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-qərbdə, Zəngi çayının sağ tərəfində, Zincirli dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Beçni formasında (143, s.36), Qafqazın 5 verstlik xəritəsində Bicni kimi (348, s.34) qeyd edilmişdir. Kəndin yerli əhalisi azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-ci il Türkmənçay müqaviləsindən sonra 1829-30 - cu illərdə, eləcə də 1915-27-cı illərdə Türkiyənin Bolis, Van bölgələrindən köçürülmüşdür (427, s.737).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 232 nəfər, 1873 - cü ildə 685 nəfər, 1908-ci ildə 826 nəfər, 1914 - cü ildə 1176 nəfər, 1916-cı ildə 1309 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1918-20-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra (1922-ci ildən sonra) azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1926-cı ildə kənddə 48 nəfər, 1931-ci ildə 64 nəfər azərbaycanlı yaşamışdır (415, s.17, 101). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-ci ildə azrbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. İndi yalnız ermənilər yaşayır.

Toponim **beçenek** türk tayfasının (399, s.488) adı əsasında yaranmışdır. Quruluşca sadə toponimdir. **Bjni,** beçenək etnoniminin ərəb dilində yazılış formasıdır.

## V

**Vağudi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-şərqdə, Bazarçay çayının sol sahilində, Ağudi kəndindən 3 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.47). Vağudi adlı 3 kənd olmuşdur: I Vağudi, II Vağudi, III Vağudi (415, s.76). Vağudi kəndi həmin 3 Vağudi adlı kəndlərinin birləşməsindən yaranmışdır.

Kənddə 1831-ci ildə 44 nəfər, 1873 - cü ildə 653 nəfər, 1886-cı ildə 926 nəfər, 1897-ci ildə 1286 nəfər, 1908-ci ildə 1395 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1914 - cü ildən başlayaraq azərbaycanlılar erməni təcavüzü nəticəsində deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Burada ermənilərlə yanaşı 1922-ci ildə 131 nəfər, 1926-cı ildə 226 nəfər, 1931-ci ildə 336 nəfər (415, s.76-77, 146-147), 1987-ci ildə 700 nəfər (85, s. 182-183) azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonlarında azərbaycanlılar qırğınlarla Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi yalnız ermənilər yaşayır.

Kəndin adı Ağudi toponiminin əvvəlinə «v» samitinin artırılması əsasında yaranmışdır. Voxçu (Oxçu toponimindən) toponimi, varsaq (arsaq etnonimindən) etnonimi həmin konstruksiya əsasında yaranmışdır. Ağudi toponimi ilə Vağudi toponimi eyni semantik xüsusiyyətə malikdir (Bax: Ağudi).

**Varmaziar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçtniədzin) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.49) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 61 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.152). 1828-29 - cu illərdə indi Ermənistan adlanan əraziyə İranın Xoy və Salmas vilayətlərindən köçürülən ermənilər həm də burada yerləşdirilmiş və azərbaycanlılar kənddən çıxarılmışdır (427, s.424). İndi ermənilər yaşayır.

Toponim türk dilində «dərə, vadi, dərin yarğan» mənasında işlənən var (339, s.113) və ərəb dilində «ziyarət yeri, ziyarət olunan yer, qəbir» mənasında işlənən məzar sözlərindən (104, s.341) əmələ gəlib, «dərədə, vadidə olan kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Arevaşat qoyulmuşdur.

**Vers dağı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində dağ. Vers dağı Dərələyəz və Göyçə mahallarının sərhədində yerləşir. Bir tərəfi Dərələyəzdə Qovşuq kəndinə məxsus Soğanlı yaylağına, o biri tərəfi isə Göyçənin Basarkeçər (Vardenis) və Qaranlıq (Martuni) rayonuna (Göyçə gölünə) baxır. Dağın yüksəkliyi 3522 mdir (211, s.194-195). Oronim varsaq türk tayfasının adı (235, s.3738; 238, s.185) əsasında əmələ gəlmişdir (211, s.195). Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Vəliağalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 8 km şimal-şərqdə, Göyçə gölünün yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.48) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsi ilə bağlı 1828-1829 - cu illərdə Türkiyədən köçürürlən ermənilər burada yerləşdirilib (386, s.595-598). Kənddə 1897-ci ildə ermənilərlə yanaşı 41 azərbaycanlı yaşamışdır (415, s.66-67). XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. İndi burada yalnız ermənilər yaşayır.

Toponim Vəliağa şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Dzorageğ (Dərəkənd) qoyulmuşdur.

**Vəlikənd -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir.

Toponim Vəli şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1939 - cu il fərmanı ilə adı dəyişdirilib Qisaxkavan qoyulmuşdur.

## Q

**Qabaq Güney -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yayla. Rayondakı Saral kəndində yerləşir.

Toponim Azərbaycan dilində «ön tərəf, irəli tərəf» mənasında işlənən qabaq sözü ilə (9, s.381; 339, s.239) «dağın gün düşən tərəfi» mənasında işlənən «güney» sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qabaqtəpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda dağ. Mürəkkəb oronimdir.

**Qabaqtəpə -** İrəvan quberniyasının Aleksadropol qəzasında, indi Talin rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.106) qeyd edilmişdir.

Toponim «ön hissə, ön tərəf» mənasında **qabaq** sözü ilə(9, s.381; 339, s.239; 278, s.76). Azərbaycan dilində «kiçik, alçaq dağ» mənasında işlənən «təpə» sözünün birləşməsindən əmələ gəlib «qabaq təpə yanında olan kənd» anlamını verir.Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qabaxlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında indi Axta (Razdan) rayonunda kənd. Misxana (Marmarik) çayının yanında yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.106) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 94 nəfər, 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 154 nəfər, 1908-ci ildə 181 nəfər, 1914 - cü ildə 431 nəfər, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.16-17, 102-103). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanları öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 87 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 128 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 102-103). 1948-ci ildə SSRİ Nazirlər Sovetinin 1947-ci il tarixli xüsusi qərarı ilə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qabaq türk etnoniminə (406, s.200) mənsubluq bildirən -lı şəkilçisinin artırılması yolu ilə düzəlib « qabaq tayfasının yaşadığı kənd» anlamını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qabaxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayon mərkəzindən 7-8 km cənub-qərbdə, Dərələyəz dağlarının ətəyində, Arpaçayın qolu olan Qabaxlı selavının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.106) qeyd edilmişdir. Erməni mənbəyində Qapaxlı, Qapaxlıq formalarında əksini tapmışdır (415,s.90).

Kənddə 1831-ci ildə 33 nəfər, 1873 - cü ildə 201 nəfər, 1886-cı ildə 270 nəfər, 1897-ci ildə 273 nəfər, 1904 - cü ildə 235 nəfər, 1914 - cü ildə 258 nəfər, 1916-cı ildə 364 nəfər yalnız azəıbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 103 nəfər, 1926-cı ildə 90 nəfər, 1931-ci ildə 108 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). SSRİ Nazirlər Sovetinin 1947 və 1948-ci il tarixli xüsusi qərarları ilə kənd sakinləri -azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qabaq türk tayfa adına (406, s.200) mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. «Qabaq tayfasına mənsub yaşayış yeri» mənasını verir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qabaxlı körpüsü -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda körpü.

**Qabaxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Qafqazın 5 verstlik xəritəsində (348, s.106) qeyd edilmişdir. Qabaq türk etnonimi əsasında yarānınışdır. Etnohidronimdir.

**Qabaxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda selav.

**Qabaxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-şərqdə, Qabaxlı selavının yanında, Arpaçayın sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.106) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 45 nəfər, 1873 - cü ildə 268 nəfər, 1886-cı ildə 429 nəfər, 1897-ci ildə 566 nəfər, 1904 - cü ildə 614 nəfər, 1914 - cü ildə 675 nəfər, 1916-cı ildə 763 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, ş.92-93, 160-161). 1918-ci ildə erməni təcavüzünə məruz qalan kənd sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra geri -öz kəndlərinə dönə bilmişdilər. Burada 1922-ci ildə 59 nəfər, 1926-cı ildə 217 nəfər, 1931-ci ildə 330 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92-93, 160-161). 1988-ci ilin noyabrın axırlarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim qabaq türk tayfasının adına (407, s.94-95), mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib «qabaq tayfasına mənsub yer, kənd» mənasını bildirir. F.Kırzıoğlu göstərir ki, yayı Ermənistanda, qışı Qarabağda keçirən türk tayfalarından biri **qabaq** adlanırdı (62, s.171). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qazanbil -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda mağara. Rayondakı Nüvədi kəndində, Qozluçay adlı yerin başı üstündəki dağın yuxarı qurtaracağında yerləşir və 14-15 m dərinlikdə yerləşən daş mağaradır (127, s.8).

H.Vəli mağaranın «daş sinəsində qazan» kimi mənalandırır (127, s.8). Bu izah təsviri xarakter daşıyır. Əslində toponim bulqar türk tayfasının tərkibində olan qazan etnonimi ilə (273, s.235) bil sözündən əmələ gəlmişdir. «Bil» sözü qədim türk dilində «nişan, əlamət» mənasında olan **belqü** sözündəndir. Lakin burada «daş» mənasını ifadə edir. Nişan, əlamət kimi daş nəzərdə tutulur. Maraqlıdır ki, XIII-XIV əsrlərə aid bulqar yazılarında bəlüqü sözü «qəbir daşı, qəbirüstü daş» mənasında işlənmişdir (109,s.27).

**Qazan dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Oronim türk tayfasından olan qazan etnonimi (273, s.235) əsasında əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qazangöl -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda göl. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.107). Hidronim bulqarların qazan (<kazan) etnonimi ilə (273, s.235) göl sözünün birləşməsindən əmələ gəlmişdir. Etnohidronimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qazançı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Erməni mənbələrində (415, s.20,104), Azərbaycan tədqiqatlarında (35, s.162) Qayı Qulu Qazançı kimi də qeyd edilir. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.130), Qafqazın 5 verstlik xəritəsində (348, s. 107) qeyd edilmişdir.

Toponim türk mənşəli bulqar tayfasından biri olan qazan etnoniminə (273, s.235) -çı mənsubluq bildirən şəkilçinin artırılmasından əmələ gələn qazançı etnonimindən düzəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qazançı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.130), Qafqazın 5 verstlik xəritəsində (348, s.107) qeyd edilmişdir.

Toponim qədim türk mənşəli bulqar tayfasından olan qazan tayfasının adına (273, s.235; 286, s.35) -çı şəkilçisinin artırılması ilə düzəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Meğraşen (Balkənd) qoyulmuşdur.

**Qazançı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.107) qeyd edilmişdir.

Qazan türk tayfasının adı (273, s.235) əsasında yaranmış etnooronimdir.

**Qazangöl dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Hündürlüyü 3818 metrdir. Quruluşca mürəkkəb oronimdir.

**Qazangölü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda göl. Kığı çayının mənbəyində, Acıbac kəndindən 20 km şimalda yerləşir. Üç göldən ibarətdir. Sahəsi 0,18 km$^2$, dərinliyi 10 metrdir.

Toponim qazan türk etnonimi (273, s.235; 286, s.35) əsasında yaranmışdır. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Qazangöl keçidi -** İndiki Ermənistanın Qafan rayonu ilə Azərbaycanın Naxçıvan MR-in sərhəddində keçid. Hündürlüyü 3112 m-dir. Keçidin adı Qazangöl hidronimdən götürülmüşdür.

**Qazarapad -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 26 km məsafədə yerləşirdi. Toponim monqol dilində «yer, torpaq, tarla» mənasında işlənən qazar sözünə (2, s.328) abad sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qayabaşı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 6-7 km cənub-qərbdə, Məzrə çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.125). Kəndin adı Qaya Baş Haçı Qərib (Кая Баш-Гаджи Кариб) formasında da qeyd edilir (309, s.305).

Kənddə 1873 - cü ildə 131 nəfər, 1886-cı ildə 181 nəfər, 1897-ci ildə 219 nəfər, 1908-ci ildə 219 nəfər, 1914 - cü ildə 240 nəfər, 1916-cı ildə 234 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ildə aprelin 13-20-də azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar geri qayıda bilmişlər. 1922-ci ildə 149 nəfər, 1926-cı ildə 129 nəfər, 1931-ci ildə 181 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1926-cı ildən burada əcəmi kürdləri də yaşamışdır.

1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim «qaya» oroterminindən və «dağın yuxarısı, zirvəsi» mənasında işlənən baş sözündən əmələ gəlmişdir. «Qayanın başında yerləşən kənd» mənasını bildirir. Kənd, doğrudan da, qayalıq, dağlıq yerdə yerləşir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Keğamabak qoyulmuşdur.

**Qayalı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd.

Toponim qaya sözünə -lı şəkilçisinin qoşulması ilə əmələ gəlib «daşlı, qayalı yerdə olan kənd» mənasını ifadə edir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 3.ll.1950-ci il fərmanı ilə dəyişdirilib Noraber qoyulmuşdur.

**Qayalı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonun ərazisində kənd. Rayondakı Paşalı kəndinin yaxınlığında, Arpaçayın sahilində yerləşirdi. «İrəvan əyalətinin icmal dəfəri»ndə (143, s.60) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 40 nəfər, 1873 - cü ildə 130 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 223 nəfər, 1904 - cü ildə 240 nəfər, 1914 - cü ildə 264 nəfər, 1916-cı ildə 292 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kəndə ermənilər hücum edərək sakinlərə divan tutmuş, onları ata-baba yurdlarından qovmuşlar.

Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.59). Azərbaycanlılar 1923-24 - cü illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından çıxarılmış və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim «dağ, daş» mənasında işlənən **qaya** sözünə çoxluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəldilmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qayqocalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayonun şimal-şərqində, Böyük çayın sol sahilində, Tej dağının cənub ətəyində yerləşir. Kənd sonralar mənbələrdə Dədəqışlaq, Miskin, S.Vurğun və Axundov (M.F.Axundov - İ.B.) kimi qeydə alınmışdır.

Toponim Qayqocalı şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin qoşulması əsasında əmələ gəlib «Qayqocaya məxsus ərazi, yaşayış məntəqəsi» deməkdir. Qayqoca sözünün birinci tərəfi türklərdən bir bölük olan qay etnonimindən (399, s.158; 238, s.228) və Qoca şəxs adından ibarətdir. Toponimin ikinci komponenti olan Qoca şəxs adı. «Kitabi-Dədə Qorqud» dastanında da Duxa Qoca oğlu Dəli Domrul, Uşun Qoca oğlu Səkrək, Qanlı Qaca oğlu Qanturalı, Qazılıq Qoca oğlu Yeynək antroponimik modellərində əksini tapmışdır (39, s.69). Deməli, Qayqocalı toponimi bilavasitə, «Kitabi-Dədə Qorqud» dastanı ilə bağlı yaranmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qayqulu Ciftəli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Kəndin adı erməni mənbələrində Ciftəli kimi qeyd edilmişdir (415, s.20). Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.125) qeyd edilmişdir.

Toponim oğuzların qayı etnonimindən (399, s.158), Qulu şəxs adından və mənsubluq bildirən -lı şəkilçisinin qoşulduğu «mal-qoyun bəslənən yer» mənasında işlənən cift sözündən (35, s. 187) əmələ

gəlib « qayı tayfasından olan Quluya mənsub mal-qoyun bəslənildiyi yer» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyşdirilib Zuyqaxpyur qoyulmuşdur.

**Qayqulu Düzkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Qızılqoç (Qukasyan) rayonu yaradılana kimi - 31 dekabr 1937-ci ilə kimi Ağbaba rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. Kəndin adı ermənilər bura köçürüləndən sonra dəyişdirilib Düzxaraba edilmişdir (415, s.18). Qafqazın 5 verstlik xəritəsində Düzxaraba (348, s.90) kimi qeyd edilmişdir.

Toponim oğuzların qədim tayfalarından olan qayı etnonimi ilə (399,s. 158; 238, s.222-223) Qulu şəxs adından, relyef bildirən düz və kənd sözlərindən əmələ gəlib «qayı tayfasından olan Qulunun düzdə saldığı kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Artaşen qoyulmuşdur.

**Qayıqulu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonu ərazisində kənd. Mənbələrdə Qızılqoç rayonunun ərazisi kimi göstərilir (35, s.162). Kəndin adı Qayqulu kimi də göstərilir.

Toponim oğuzları qayı tayfasının adı ilə (238, s.222) Qulu şəxs adı əsasında əmələ gəlib «Qayı tayfasından olan Quluya məxsus kənd, yaşayış yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə dəyişdirilib Hartaşen qoyulmuşdur.

**Qala -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qala. Şəhərcik kəndindən 7-8 ki şimal-qərbdə, Qanlı kəndindən Çəmən dağına doğru gedən yolun üzərindəki keçiddə tikilmiş qala. XVI əsrdə tikilmişdir.

**Qaladərəsi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonundakı kənd. Rayon mərkəzindən 21 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.l09)qeyd edilmişdir.

Toponim ərəb dilində «möhkəmləndirilmiş yer, şəhər» mənasında işlənən qala sözü ilə (299, s.410) Azərbaycan dilində «iki dağ və ya təpə arasında, düzənlikdə uzun, dərin çuxur» mənasında işlənən dərə sözünün (10, s.74) birləşməsindən əmələ gəlib «dərədə yerləşən qala yanında olan kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Qalidzor (Qala dərəsi) qoyulmuşdur.

**Qaladibi -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Dəvə gözü çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.110) qeyd edilmişdir. 1930 - cu illərdə Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur (415, s.85-86).

Kənddə 1873 - cü ildə 155 nəfər, 1886-cı ildə 221 nəfər, 1897-ci ildə 300 nəfər, 1904 - cü ildə 242 nəfər, 1914 - cü ildə 399 nəfər, 1916-cı ildə 428 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə kəndin sakinləri zorla və qırğınlarla ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir.

Burada 1922-ci ildə 126 nəfər, 1926-cı ildə 130 nəfər, 1931-ci ildə 189 nəfər (415, s. 87, 157), 1939 - cu ildə 387 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri azərbaycanlılar 1948-49 - cu illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüşdür. Kənd 1950-ci ildə ləğv edilmişdir.

Toponim iki sözün: qala və «bir yerin ən uzaq, ən dərin yeri» mənasında işlənən dib sözünün (278, s.66; 10, s.90) birləşməsindən ibarətdir. Görünür, kənd qalanın yanında salındığı üçün bu ad verilib. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qalayçı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonunda kənd. Abaran çayının sağ qolu üzərində yerləşirdi. Kəndin digər adı Qalaça kimi qeyd edilir (415, s.4). Qafqazın 5 verstlik xəritəsində Qalaça formasında (348, s.110) qeyd edilmişdir. 1950-ci illərdə ləğv edilmişdir.

Toponim oğuzların bayandır tayfasından olan qalayçı etnonimi (238, s.305) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qalakənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Qalabəy

formasında (143, s.60) qeyd edilmişdir. 1898-cı ildə burada 40 bağ olmuşdur (85, s.355). İndi ölü kənddir.

Toponim qala və kənd sözlərindən əmələ gəlib «qala yaxınlığında olan kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qalasar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 27 km məsafədə, Aysəsi dərəsinin qərbində yerləşir.

Kənddə 1873 - cü ildə 108 nəfər, 1886-cı ildə 154 nəfər, 1897-ci ildə 184 nəfər, 1904 - cü ildə 154 nəfər, 1914 - cü ildə 170 nəfər, 1916-cı ildə 248 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 46 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 142 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.93, 161). 1988-ci ilin noyabr ayının sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim qala sözü ilə türk toponimiyasında «əsas, baş, yuxarı, böyük» mənasında işlənən sar sözündən (339, s.496) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qalax -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda kənd (427, s.770). Rayonda tarixən mövcud olmuş II Bayandur kəndinin yaxınlığında yerləşirmiş. Z.Qorqodyan Qalax kəndini II Bayandur kəndinin başqa adı və ya qədim adı kimi qeyd edir (415, s.28). Toponim Azərbaycan dilində «topa, yığın» mənasında işlənən **qalax** sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Qalaça -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 3 km şimalda yerləşir. 1926-cı ildə burada 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10-11).

Toponim qala sözünə kiçiltmə mənasını bildirən -ça şəkilçisi artırmaqla əmələ gəlib «kiçik qala yanında olan kənd» mənasını verir. Kəndin cənub-şərqində XII-XIII əsrlərə aid qalanın xarabalıqları indi də qalır. Kənd adını məhz həmin qaladan götürmüşdür. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Berdavan (Qala qəsəbəsi) adlandırılmışdır.

**Qalaça -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Alagöz dağının ətəyində yerləşirdi. 1926-cı ildə ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim **qala** sözünə kiçiltmə mənası bildirən -ça şəkilçisinin qoşulması ilə əmələ gəlib «kiçik qala yaxınlığında olan kənd» mənasını verir. Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Qalaçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda qala.

**Qalacıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Rayon mərkəzindən 21 km cənub-qərbdə, Bazarçay çayının sağ sahilində, Bazarçay kəndindən 4 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 110).

Toponim qala (qələ) sözünə kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılması əsasında yaranmışdır. Relyef əsasında yaranan quruluşca düzəltmə toponimdir.

Kəndin adı qeyri-rəsmi dəyişdirilərək Spandaryan qoyulmuşdur.

**Qaltaxçı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 24 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 111) qeyd edilmişdir.

Toponim qaltax (koltak) etnoniminə (303 a, s.11) -çı şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Hartakyuc qoyulmuşdur.

**Qamışqut -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 26 km məsafədə yerləşir.

Toponim qamış bitki adı ilə qədim türk dilində «kəndin, yaşayış məntəqəsinin yaxınlığında qoyunların salındığı yer» mənasında işlənən kotan (qut - İ.B.) sözünün (359, II(1), s.606-607) birləşməsindən əmələ gəlmişdir. «Qamışdan qoyunları saxlamaq üçün düzəldilən yer» mənasını ifadə edir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Yeğeqnut qoyulmuşdur.

**Qamışgöl -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən qamış (bitki adı) və göl sözlərindən əmələ gəlib « qamışlı göl yaxınlığındakı qışlaq» anlamını ifadə edir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qamışlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə, Böyük Qarasu çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.112) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində işlənən qamış bitki adına -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nın 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Zartonk qoyulmuşdur.

**Qanalı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Elpin kəndinin şimal-şərqində yerləşən Qanalı kəndində azərbaycanlılar yaşamışdır. Kənd 1924 - cü ildə ləğv edilmişdir (427, s.782). İndi xaraba kənddir. Toponimin ilk komponenti qana, qano formasında «arx, kanal» mənasını bildirir. «Qədim türk tayfalarına» aid termin olub, hazırda ancaq Azərbaycan dilində işlənir. S.E.Malovun göstərdiyinə görə sözün ilkin forması «qanu» olmuş, su anbarı vö hovuz mənalarını ifadə edir (253, s.122). -lı sözdüzəldici şəkilçidir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qanqallı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda dağ. Toxluca kəndinin şimal-qərbində yerləşir. Oronim qanqal bitki adına -lı şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Fitooronimdir. Quruluşca düzəltmə oronimdir.

**Qanlı Allahverdi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Kəndin ilk adı Qanlı Allahverdi olmuşdur (415, s.26). Sonradan Allahverdi şəxs adı ixtisar olunmuş, kənd Qanlı adlanmışdır. Kənd rayon mərkəzindən 3 km cənub-şərqdə, çay kənarında, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Qanlı Allahverdi kimi göstərilmişdir (348, s.113).

Kəndin ərazisində XI-XII əsrlərlə bağlı alban kilsəsinin, VII-VIII əsrlərə aid olan oğuz qəbiristanlığının qalıqları indi də durur (Ermənistan Sovet Ensiklopediyası, XI c., İrəvan, 1985, s.7,).

Kənddə 1831-ci ildə 99 nəfər, 1873 - cü ildə 244 nəfər, 1886-cı ildə 317 nəfər, 1897-ci ildə 397 nəfər, 1908-ci ildə 445 nəfər, 1914 - cü ildə 476 nəfər, 1916-cı ildə 403 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113).

1919 - cu ilin yanvarında azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş və kənd yandırılmışdır (309, s.249).

İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar geri, öz doğma kəndlərinə qayıda bilmişlər.

Burada 1922-ci ildə 165 nəfər, 1926-cı ildə 218 nəfər, 1931-ci ildə 287 nəfər (415, s.26-27, 112-113), 1987-ci ildə 800 nəfər (85, s.282) azərbaycanlı yaşamışdır.

Kəndin əhalisi 1948-49 - cu illərdə SSRİ Nazirlər Sovetinin qərarına əsasən zorla Azərbaycana -Kür-Araz ovalığına köçürülmüşdür. Lakin buranın iqliminə dözə bilməyən qanlılar çox çətinliklə öz kəndlərinə qayıda bilmişlər. 1988-ci ildə kəndin sakinləri üçüncü dəfə zorla Ermənistan dövləti tərəfindən öz doğma kəndlərindən qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim türk tayfalarından biri olan qanlı etnonimindən (245, s.41; 393, s.42-53) və Allahverdi şəxs adından əmələ gəlmişdir. «Qanlı tayfasından olan Allahverdiyə məxsus kənd» mənasını ifadə edir.

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 12.VIII.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Qamışlı qoyulmuşdur.

**Qanlı gədik -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda aşırım. Oronim qanlı sifəti ilə Azərbaycan dilində «dağ belində batıq» (253, s.126), «hündür dağ arasında yol», «dağ keçidi, aşırım» (196, s.39) mənasında işlənən **gədik** sözündən əmələ gəlmişdir. 1918-ci ildə ermənilər həmin ərazidə azərbaycanlıları vəhşicəsinə qırmış, qan su yerinə axmışdır. Ona görə də bu dağ keçidi Qanlıgədik adlanmışdır. Bu hadisə Hamlet Əsədovun şerində öz əksini tapıb.

*Qanlı gədik, burda bir vaxt qan düşüb,*
*Neçə igid vurulub atdan düşüb,*
*Dildən-dilə indi bu dastan düşüb:*

*Bir igidin al qanıdır hər lalə,*
*O vaxtdandır qəmli axır şəlalə.*

Tarixi hadisə ilə bağlı yaranan mürəkkəb oronimdir.

**Qanlı göl -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda göl. Kəvər (Kamo) rayonundan 21 km cənub-şərqdə yerləşir. Dərinliyi 3032 m-dir.

Gölün adı qanlı türk tayfasının adını (245, s.41) əks etdirir. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir. Adı dəyişdirilib Aknaliç qoyulmuşdur.

**Qanlı göl -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunun Qaraqoyunlu kəndində göl. Türk mənşəli qanlı tayfasının adı (245, s.41) əsasında əmələ gəlmişdir. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Qanlı təpə -** İrəvan şəhərində qədim qala. İrəvan şəhərinin cənub-şərqində yerləşirdi. Qalanın adı dəyişdirilib Arinberd qoyulmuşdur.

**Qapılı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-qərbdə, Arpaçayın yaxınlığında, İrəvan -Gümrü yolunun üstündə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.131), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir.

Ermənilər buraya 1829-30- cu illərdə Türkiyənin Alaşkert, Bulanix və Muşdan gətirilmişdir. Kəndin yaxınlığında urartu dövründən qalma uçuq qalanın qalıqları, divarları indi də durur.

Toponim türk dilində «dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi», «dağ yamacında dərə» mənasında işlənən **qapı** sözünə (339, s.253) -lı şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 3.ll.1947-ci il fərmanı ilə adı dəyişdirilib Qusanagyuğ (Aşıq kəndi) qoyulmuşdur.

**Qapıcıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Oxçu çayının sağ sahilində yerləşmişdir. Burada 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır.

Toponim türk dilində «dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi», «dağ yamacında dar dərə» mənasında işlənən **qapı** (kapu) sözünə (339, s.253) kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılılması ilə düzəlib. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qapıcıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Oronim türk dilində «dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi», «dağın yamacında olan dar dərə» mənasında işlənən **qapı** (kapu) sözünə (339, s.253) kiçiltmə mənalı söz əmələ gətirən -cıq şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. «Dar dərənin yuxarısında yerləşən dağ» mənasını bildirir. Quruluşca düzəltmə oronimdir.

**Qaraarxac -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Kalinino rayonunun Soyuqbulaq kəndində yaylaq. Oronim türk dilində «böyük» mənasında işlənən qara sözü ilə Azərbaycan dilində «qoyun, mal yatağı» mənasında işlənən **arxac** sözünün (9, s.129) birləşməsindən əmələ gəlmişdir. Sintaktik üsulla yaranan mürəkkəb toponimdir.

**Qarabaşlar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 15 km şimal-şərqdə, Kığı çayının sol tərəfində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində Qarabaş formasında (348, s. 114) qeyd edilmişdir.

1897-ci ildə 60 nəfər, 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 39 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-1351). 1926-cı ildə siyahıyalmada kənddə yaşayan azərbaycanlılar farslar kimi göstərilir (415, s.57). 30 - cu illərin sonunda kənd ləğv edilmişdir.

Toponim muğanlı türk tayfasından olan qarabaş etnoniminə (286, s.72) -lar şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaraboya -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisinde kənd. Araz çayının yanında yerləşirdi. 1930 - cu ildə Leninakan rayonunun tabeliyində olmuşdur. 1918-ci ildə ləğv edilmişdir.

Toponim qaraboya nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Qarabulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin(Ani) rayonunda kənd. Arpaçayın yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.131), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir.

Erməni (415, s.24), rus mənbələrində (Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, N°1160) kəndin başqa bir adının Qazarabad olduğu qeyd edilir.

Kəndin adı kənddəki bulağın adından götürülmüşdür. «Keyfiyyətsiz, içməyə yararlı olmayan» mənasını bildirən qara və bulaq sözlərindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 30.VI.1945-ci il kəndin adı dəyişdirilib İsahakyan (erməni yazıçısı Avetik İsahakyanın familiyası) adlandırılmışdır.

**Qarabulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax-Şəmsəddin qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Burada 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.10-11). 1929-1930 - cu illərdə əhalisi köçürülmüş, qışlaq ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «keyfiyyətsiz, içməyə yararlı olmayan» mənasında işlənən «qara» sözünə bulaq hidroterminin birləşməsindən formalaşmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qarabulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə, Abaran çayının sol tərəfində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.114), Qafqazın 5 verstlik xəritəsində (348, s.114) qeyd edilmişdir. Kəndin digər adı Yuxarı Qapılı olmuşdur (143, s. 114).

Toponim Azərbaycan dilində «içməyə, istifadəyə az yararlı», «ağır, aşağı keyfiyyətli su», «çirkli, bulanıq su mənasında işlənən qara sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlib «Qarabulağın yanında salınan kənd» mənasını ifadə edir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı yişdirilib Yerincatap qoyulmuşdur.

**Qarabulaq -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Arpagölün qərbində, rayon mərkəzindən 33 km şimal-qərbdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.131), Qafqazın 5 verstlik xəritəsində (348, s.114) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 185 nəfər, 1905-ci ildə 295 nəfər, 1908-ci ildə 352 nəfər, 1914 - cü ildə 382 nəfər azərbaycanlı yaşamışdır (415, s. 102-103).

1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar 1926-28-cı illərdə geri - ata-baba torpaqlarına qayıda bilmişlər. 1931-ci ildə kənddə 179 nəfər (415, s. 103), 1970-ci ildə 215 nəfər, 1987-ci ildə 293 nəfər (35, s.162) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən bir daha tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim «keyfiyyətsiz, içməyə yararlı olmayan» mənasını verən qara sözü ilə bulaq hidroterminindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şaqik qoyulmuşdur.

**Qaraburun -** İrəvan quberniyasının Eçmiədzin qəzasında indi Talin rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə, Alagöz dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 115) qeyd edilmişdir.

Toponim türk dilində «böyük, iri» mənasında işlənən qara sözündən (94, s.70) və «irəli çıxan və ya suya doğru uzanan» (253, s.99), «dağ çıxıntısı, dağın qolu, sıldırımlı qaya» (339, s.103) mənasında işlənən burun sözündən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 31.VII.1950-ci il fərmanı ilə adı dəyişdirilib Karmraşen (Qırmızı kənd), 21.l.1965-cı il fərmanı ilə yenidən dəyişdirilib Karakert (daş tikintisi) qoyulmuşdur.

**Qaravəng -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzinin yaxınlığında, Təkədonduran çayından axan qolun yanında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.60), Qafqazın 5 verstlik xəritəsində (348, s. 115) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 80 nəfər, 1873 - cü ildə 187 nəfər, 1886-cı ildə 205 nəfər, 1897-ci ildə 260 nəfər, 1904 - cü ildə 414 nəfər, 1914 - cü ildə 455 nəfər, 1916-cı ildə 300 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). Kəndin sakinləri 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 66 nəfər yalnız

azərbaycanlı yaşamışdır (415, s.161). 1923-25-cı illərdə kənd sakinləri - azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılmışdır. Onlar rayondakı Qabaxlı və Kotanlı kəndlərində məskunlaşmış və kənd xarabalığa çevrilmişdir (211, s.209). İndi xaraba kənddir.

Kənd ərazisindəki böyük alban abidəsinin - vəngin yanında salınmışdır. Vəng 151-cı ildə tikilmiş, 1273 - cü ildə yenidən bərpa edilib təkmilləşdirilmişdir (Сборник сведений о Кавказе, т.V, Тифлис 1879, N°753).

Toponim «böyük, əzamətli, yekə» mənasında işlənən qara sözü ilə qədim türk dilində «abidə, möhkəm abidə» mənasında işlənən vəng sözünün birləşməsindən əmələ gəlmişdir (211, s.208, 210). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaraqaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunun Dədəqışlaq kəndində kiçik dağ. Oronimidir. Rəng bildirən qara və dağ sözünün sinonimi olan qaya sözlərindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraqaya -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-şərqdə, Erdəpin kəndinin yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 141 nəfər, 1886-cı ildə 214 nəfər, 1897-ci ildə 259 nəfər, 1904 - cü ildə 177 nəfər, 1914 - cü ildə 194 nəfər, 1916-cı ildə 303 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan sakinləri ata-baba yurdlarına dönə bilmişdir.

Burada 1922-ci ildə 193 nəfər, 1926-cı ildə 97 nəfər, 1931-ci ildə 140 nəfər (415, s.93, 161), 1987-ci ildə 400 nəfər (85, s.355) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində rəng mənasında işlənən qara sözü ilə «dağ» mənasında işlənən qaya sözündən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir. Oronim Azərbaycan dilində «böyük, hündür, yüksək, şiş» mənasında işlənən qara sözü ilə (94, s.71) qaya (dağ mənasında) sözündən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Qaraqaya -** İrəvan quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 27 km şimal-qərbdə, Tərsa çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir. 1937-ci ilə kimi Dilican rayonunun inzibati-ərazi bölgüsünə daxil idi (415, s.32).

Kənddə 1897-ci ildə 215 nəfər, 1904 - cü ildə 248 nəfər, 1914 - cü ildə 265 nəfər, 1916-cı ildə 516 nəfər, 1919 - cu ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117).

1919 - cu ilin əvəllərində kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 170 nəfər, 1926-cı ildə 169 nəfər, 1931-ci ildə 205 nəfər, (415, s.33, 117) 1970-ci ildə 423 nəfər, 1979 - cu ildə 338 nəfər, 1987-ci ildə 350 nəfər (85, s.87) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın axırında azərbaycanlılar Ermənistan dövləti tərəfindən doğma yurdlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «uca, hündür, yüksək, şiş» mənasında işlənən qara sözünə (94, s.71) qaya oroterminin qoşulması əsasında əmələ gəlmişdir və «hündür, uca, yüksək qayalıqda yerləşən kənd» deməkdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dzorvank (Dərəqala) qoyulmuşdur.

**Qaraqayalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd. Kəndin adı erməni mənbəyində Təzəkənd formasında da göstərilir (415, s.88).

Kənddə 1897-ci ildə 55 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Qaraqaya oroniminə -lı şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Orotoponimdir. Quruluşa düzəltmə toponimdir.

**Qaraqala -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.80) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 403 nəfər, 1886-cı ildə 510 nəfər, 1897-ci ildə 599 nəfər, 1904 - cü ildə 759 nəfər, 1914 - cü il d 860 nəfər, 1916-cı ildə 899 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə Türkiyə və İrandan köçürülən ermənilər yerləşdirilmişdir.

İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir.

Burada ermənilərlə yanaşı 1922-ci ildə 20 nəfər, 1926-cı ildə 45 nəfər, 1931-ci ildə 60 nəfər azərbaycanlı yaşamışdır (415, 44-45, 124-125). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim rəng bildirən **qara** sözü ilə **qala** sözünün birləşməsindən əmələ gəlib «qara daşdan tikilmiş qalanın yanında olan kənd» mənasını ifadə edir.

Kəndin adı ərazidəki qara daşlardan tikilmiş qala adından götürülmüşdür. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 21.VI.1948-ci il fərmanı ilə dəyişdirilib Sevaberd (Qaraqala) qoyulmuşdur.

**Qaraqala -** Tiflis quberniyasının Loru - Pəmbək qəzasında, indi Kalinino rayonunda kənd. Yuxarı Qaraqala və Aşağı Qaraqala kəndləri 1930 - cu illərdə birləşdirilib Qaraqala kəndi yaradılmışdır. 1950-ci ilin sonlarında rayondakı İlməzli heyvandarlıq sovxozu ilə birləşdirilmişdir.

Orta əsrlərə aid azərbaycanlıların tarixi ilə bağlı abidələr, qalalar, qəbiristanlıqlar var. Kəndin sakinləri yalnız azərbaycanlılar olmuşdur. 1886-ci 183 nəfər, 1897-ci ildə 273 nəfər, 1916-cı ildə 244 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1918-ci ildə sakinləri deportasiya edilir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra deportasiya olunmuş azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. 1922-ci ildə 298 nəfər, 1926-cı ildə 281 nəfər, 1931-ci ildə 196 nəfər azərbaycanlı yaşamışdır (415, s.79, 149). Kəndin sakinləri 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Noramut qoyulmuşdur.

**Qaraqala -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Misxana (Marmarik) çayının sahilində, Tayçarıx kəndinin yaxınlığında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.81) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 76 nəfər, 1873 - cü ildə 140 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 261 nəfər, 1908-ci ildə 290 nəfər, 1914 - cü ildə 413 nəfər, 1916-cı ildə 247 nəfər azərbaycanlı yaşamışdır (415,s.16-17, 102-103).

1918-ci ildə azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar doğma kəndlərinə qayıda bilmişdir. Kənddə 1922-ci ildə 83 nəfər, 1926-cı ildə 132 nəfər, 1931-ci ildə 193 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 102-103).

1948-49 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarına əsasən azərbaycanlılar zorla Azərbaycana köçürülmüş, tarixi-etnik torpaqlarından deportasiya olunaraq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim rəng bildirən **qara** sözü ilə **qala** sözünün birləşməsindən əmələ gəlmişdir.

Kənd ərazidəki qara daşlardan tikilmiş qalanın yanında salındığı üçün Qaraqala adlandırılmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaraqala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. Qışlağın başqa adı Qırğı olmuşdur (415, s.72). 1930 - cu ildə ləğv edilmişdir. Relyef əsasında yaradılan mürəkkəb quruluşlu toponimdir.

**Qaraqala -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd olmuşdur. 30 - cu illərdə ləvğ edilmişdir.

Toponim Azərbaycan dilində rəng mənasında işlənən qara sözü ilə ərəb dilindən dilimizə keçən qala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaraqala -** İrəvan quberniyasının Aleksandropol qəzasında dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.116) qeyd edilmişdir. Oronim Azərbaycan dilində mənasında işlənən qara sözü ilə qala sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qaraqışlaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə, Zəngi çayından axan arxın sağ sahilində, Qarnıgöz bulağının yanında yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.161), Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 151 nəfər, 1873 - cü ildə 735 nəfər, 1886-cı ildə 735 nəfər, 1897-ci ildə 1007 nəfər, 1904 - cü ildə 832 nəfər, 1914 - cü ildə 1123 nəfər, 1916-cı ildə 1052 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 514 nəfər, 1926-cı ildə 753 nəfər, 1931-ci ildə 850 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1988-ci ilin oktyabr-noyabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «böyük, geniş» mənasında işlənən qara sözü ilə (93, s.42), «qış vaxtı heyvandarların yaşadığı yer, yaşayış yeri» mənasında işlənən **qışlaq** sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Dostluq, Ermənistanın prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Hayanist qoyulmuşdur.

**Qaraqoyunlu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin digər adı Qaraqoyun kimi göstərilir (415, s.48). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.99) qeyd edilir.

Kənddə 1831-ci ildə 236 nəfər, 1873 - cü ildə 355 nəfər, 1886-cı ildə 474 nəfər, 1897-ci ildə 456 nəfər, 1908-ci ildə 432 nəfər, 1914 - cü ildə 475 nəfər, 1916-cı ildə 509 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Kənddə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 178 nəfər, 1926-cı ildə 228 nəfər, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır (415, s.49, 129). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-53 - cü illərdə azərbaycanlılar Azərbaycana köçürülərək tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qaraqoyunlu türk etnonimi (245, s.52; 232, s.64-66; ASE, III c., s.55) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaraqoyunlu -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Gərnibasar çayının yaxınlığında, poçt yolunun üstündə yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.99), Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 376 nəfər, 1886-cı ildə 464 nəfər, 1897-ci ildə 389 nəfər, 1904 - cü ildə 551 nəfər, 1914 - cü ildə 606 nəfər, 1916-cı ildə 589 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar (309, s.216). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 60 nəfər, 1926-cı ildə 101 nəfər, 1931-ci ildə 119 nəfər (415, s.87, 157), 1939 - cu ildə 321 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə Qaraqoyunlu kəndinin sakinləri -azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. Kənd xarabalığa çevrilmişdir.

Toponim qaraqoyunlu türk tayfasının adı (245, s.52; 232 s.64-66; ASE, III c., s.55) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraqoyunlu dərəsi -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda ərazi. Qaraqoyunlu dərəsi deyilən ərazidə 1988-ci ilə kimi Azərbaycan türklərinin yaşadığı Gölkənd, Çaykənd, Əmirxeyir, Bəriyabad, Qaraqaya, Yanıxpəyə, Cıvıxlı kəndləri yerləşirdi. Toponim qaraqoyunlu etnoniminin əsasında yaranmışdır. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Qaraqula -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd Alagöz dağının 10 km şimal-qərbində yerləşir.

Toponim qədim türk dilində «böyük, geniş, hündür, uca» mənasında işlənən qara sözü ilə (94, s.71) «dağın şimal, gün düşməyən yamacı» mənasında işlənən qula sözünün (339, s.164) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib,Getan qoyulmuşdur.

**Qaraqüzey -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd olmuşdur.

Toponim qədim türk dilində «böyük, geniş» mənasında işlənən qara sözü ilə Azərbaycan dilində «gün düşməyən yer» mənasında işlənən qüzey sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraqüzey -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi rayonunda dağ. Qədim türk dilində «geniş» mənasında işlənən qara sözü ilə «şimal, gün düşməyən yer» mənasında işlənən qüzey sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Qaraqulax -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 20 km məsafədə, Qalaçayın sahilində, Səlimçayının sol qolunun üstündə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.117) qeyd edilmişdir. Burada ermənilərdən başqa 1897-ci ildə 3 nəfər, 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93). İndi ermənilər yaşayır.

Toponim türk dilində «böyük, iri, geniş» mənasında işlənən qara sözü ilə türk dilində «dərə, təpə, təpəlik, hündür yer, yayla, təpələr arasında düzənlik», «arxın ayrıldığı yer» mənasında işlənən qulak //kulak sözündən (339, s.310-311) əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Qaradağ -** Tiflis quberniyasının Borçalı (Loru-Pəmbək) qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «hündür, uca, böyük» mənasında işlənən qara sözü ilə dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaradağlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.116) qeyd edilmişdir. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Buraya ermənilər 1828-1830 - cu illərdə İrandan köçürülmüşdür (386, s.547-549; 415, s.14). Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 128 nəfər, 1873 - cü ildə 331 nəfər, 1886-cı ildə 286 nəfər, 1897-ci ildə 364 nəfər, 1919 - cu ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1919 - cu ilin axırlarında azərbaycanlılar soyqırıma məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 152 nəfər, 1926-cı ildə 163 nəfər, 1931-ci ildə 105 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1953 - cü illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunaraq Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim böyük türk tayfası qızılbaşlardan olan qaradağlı tayfasının adı (354, s.92) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Tsaxkaşen, 20.X.1967-ci 11 fərmanı ilə yenidən dəyişdirilərək Mrqavet qoyulmuşdur.

**Qaradaş -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. Kəndin ərazisində azərbaycanlıların həyatı ilə bağlı XVII-XVIII əsrlərə aid tarixi abidələrin, eləcə də oğuz qəbiristanlığın qalıqları qalmaqdadır (Ermənistan Sovet Ensiklopediyası, X c., İrəvan, 1984, s.329). Toponim rəng bildirən qara sözü ilə Azərbaycan dilində «qaya» mənasında işlənən **daş** sözü əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Sevkar (Qaradaş) qoyulmuşdur.

**Qaradaş dağı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonundakı Sarıyaqub kəndində dağ. Oronim Azərbaycan dilində rəng mənasında işlənən qara və «dağ», «qaya» mənasında işlənən daş sözlərindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qara Əhmədli -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Rayondakı Çaykənd kəndinin yaxınlığında yerləşirdi. 1937-ci ilədək

Dilican rayonunun tabeliyində olmuşdur. 1926-cı ildə burada 38 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 40-cı illərində azərbaycanlılar köçürülmüş və yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim türk dilində böyük mənasında işlənən qara sözü ilə əhmədli türk tayfasının adı (254, s.40) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraiman -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə, dağ ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.l 16).

Kənddə 1831-ci ildə 207 nəfər, 1873 - cü ildə 418 nəfər, 1886-cı ildə 569 nəfər, 1897-ci ildə 775 nəfər, 1908-ci ildə 1033 nəfər, 1914 - cü ildə 1079 nəfər, 1916-cı ildə 650 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). Kəndin sakinləri 1919 - cu ilin aprel ayının 13-20-də azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən öz doğma kəndlərindən qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılardan sağ qalanları yenidən Qaraiman kəndinə qayıda bilmişlər. Burada 1922-ci ildə 478 nəfər, 1926-cı ildə 527 nəfər, 1931-ci ildə 652 nəfər (415, s.26, 27, 112-113), 1987-ci ildə 2000 nəfər (85, s.282-283) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim qaraman türk tayfasının adı əsasında (31, s.25) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyidirilib Sovetkənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilib Kaxaki qoyulmuşdur.

**Qaraisa -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə yerləşir. 1937-ci ilə kimi Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. 1937-ci il dekabrın 31-də Kalinino rayonu yarandıqdan sonra Cəlaloğlu (Stepanavan) rayonunun indiki ərazi bölgüsündən çıxarılmışdır.

Kənddə 1922-ci ildə 128 nəfər, 1926-cı ildə 163 nəfər, 1931-ci ildə 196 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1950-ci ilin sonlarında İlməzli sovetliyinə tabe edilmişdir. 1988-ci ilin axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim üçoxlara mənsub qara isalı türk tayfasının adı (238, s.185) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Meğvahovit qoyulmuşdur.

**Qarakənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Şəhərcik kəndinin şərqində, kənddən 3 km aralı yerləşmişdir (85, s.139). XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində böyük mənasında işlənən qara sözünə kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

**Qarakilsə -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.111), Qafqazın 5 verstlik xəritəsində Qarakilsə formasında (348, s. 117) qeyd edilmişdir.

Toponim kənddəki qara daşdan tikilmiş alban kilsəsinin adı əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Hartavan qoyulmuşdur.

**Qarakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kalinino rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Qarakilis formasında qeyd edilmişdir (348, s. 117).

Burada Qarakilsə adlı iki kənd olmuşdur: Böyük Qarakilsə, Kiçik Qarakilsə (415, s.148) Böyük Qarakilsədə 1831-ci ildə ermənilərdən başqa 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.148-149). Kiçik Qarakilsədə 1886-cı ildə yalnız 106 nəfər azərbaycanlı yaşamışdır (415, s.148). XIX əsrin 90-cı illərində azərbaycanlılar deportasiya edilmişdir. İndi burada yalnız ermənilər yaşayır.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lernahovit qoyulmuşdur.

**Qarakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Kəndin başqa adı Kiçik Qarakilsə olmuşdur (427, s.40). Burada tarixən azərbyacanlılar yaşamışdır. Azərbaycanlılar 1826-cı ildə Rus-İran müharibəsi nəticəsində kənddən qovulmuş və buraya 1829-30-cu illərdə Türkiyənin Qars və Alaşkert vilayətindən ermənilər köçürülüb yerləşdirilmişdir (427, s.40). Kəndin adı dəyişdirilib Azatan qoyulmuşdur. Mürəkkəb quruluşlu toponimdir.

**Qarakilsə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd. İndiki Sisyan rayonun mərkəzi, şəhərtipli qəsəbə. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183), Qafqazın 5 verstlik xəritəsində (348, s. 117) qeyd edilmişdir.

Ermənilərlə yanaşı burada 1831-ci ildə 63 nəfər, 1873 - cü ildə 197 nəfər, 1886-cı ildə 297 nəfər, 1897-ci ildə 481 nəfər, 1914 - cü ildə 866 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünün qurbanı olmuşdur. Az bir qismi sağ qalaraq canlarını qurtara bilmişdir. 1926-cı ildə 7 nəfər, 1931-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.77, 147). 30 - cu illərin ortalarında azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Kəndin adı ərazidəki albanlara məxsus qara rəngli kilsənin adı əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə adı dəyişdirilib Sisavan, sonradan Sisyan adlandırılmışdır.

**Qaragədik -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Gorus rayonunun mərkəzindən 27-28 km şimal-şərqdə, dağlıq və meşəlik sahədə yerləşirdi. XIX əsrin axırlarında 151 nəfər, XX əsrin əvvəllərində 108 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə ermənilərin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuş və kənd ləğv edilmişdir (85, s.165).

Toponim Azərbaycan dilində «böyük, uca, hündür» mənasında işlənən qara sözü ilə «dağ belində batıq, aşırım» mənasında işlənən gədik sözünün (253, s.126; 278, s.55) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaragöl -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasnda, indi Gorus rayonunda göl. Qafqazın 5 verstlik xəritəsində (348, s.115) qeyd edilmişdir. Hidronim Azərbaycan dilində «keyfiyyətsiz, ağır, içməyə, istifadəyə yararsız» mənasında işlənən qara sözü ilə göl sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Qara güney -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda oronim. Böyük mənasında işlənən qara sözü ilə «gün düşən yer, gün tutan yer» mənasında işlənən güney (11, s.214; 94, s.76) sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu oronimdir.

**Qaragüney -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayondakı Toxluca kəndinin şimal-şərqində yerləşir.

Oronim türk dilində «geniş, böyük» mənasında işlənən qara sözü ilə (11, s.214; 94, s.76) «dağın gün düşən tərəfi, cənub» mənasında işlənən güney sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qaral -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə, Bəykənd çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir.

Toponim qarael (>qaral) türk etnonimi əsasında əmələ gəlmişdir. «Böyük el, tayfa» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Katnacur qoyulmuşdur.

**Qaralar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Paşalı kəndinin Pordərəsinin yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 49 nəfər, 1873 - cü ildə 84 nəfər, 1886-cı ildə 101 nəfər, 1897-ci ildə 113 nəfər, 1904 - cü ildə 108 nəfər, 1914 - cü ildə 118 nəfər, 1916-cı ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kəndə ermənilər təcavüz edərək sakinlərini deportasiya etmişdir. Kənd xarabalığa çevrilmişdir. 1918-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qaralar türk etnonimi (92, s.24) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaralar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə, Vedi çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.118).

Kənddə 1873 - cü ildə 443 nəfər, 1886-cı ildə 387 nəfər, 1897-ci ildə 570 nəfər, 1904 - cü ildə 252 nəfər, 1914 - cü ildə 256 nəfər, 1916-cı ildə 546 nəfər, azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). Lakin «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə bu faktlar təhrif edilərək 1873-1916-cı illərdə kənddə azərbaycanlıların yox, ermənilərin yaşadığı göstərilir (427, s.383).

1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, 1918-ci ilin sonunda İranın Bacaqulis vilayətindən (indi Ostan), 1922-24 - cü illərdə Türkiyənin Van, Şatax və Bayazed vilayətlərindən, 1940-50-ci illərdə indiki Ermənistanın Qaranlıq (Martuni) və Sisyan rayonlarından, 1946-cı ildə İran və Livandan ermənilər köçürülərək Qaralar kəndində yerləşdirilmişdir (427, s.383).

1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları geri dönə bilmişdir. Burada 1922-ci ildə 241 nəfər azərbaycanlı, 273 nəfər erməni, 1926-cı ildə 280 nəfər azərbaycanlı, 252 nəfər erməni, 1931-ci ildə 297 nəfər azərbaycanlı, 292 nəfər erməni (415 s.87, 157), 1939 - cu ildə 780, 1955-cı ildə 1181, 1970-ci ildə 1794, 1979 - cu ildə 1942 nəfər azərbaycanlı və erməni (427, s.383) yaşamışdır.

1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik vətənlərindən deportasiya olunmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim türk mənşəli qaralar etnonimi (245, s.57) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Aralez qoyulmuşdur.

**Qaraltəpə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qaral kəndinin ərazisində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir. Oronim qaralar türk etnoniminin adını (245, s.57) əks etdirən qaral, yəni qara el (böyük el) etnonimi ilə «kiçik, alçaq dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Qaraməhəmməd -** Tiflis quberniyasının Borçalı (Loru-Pəmbək) qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-şərqdə yerləşir. Kəndin adı Qaraməmməd formasında da işlədilir.

XIX əsrin əvvəllərinə qədər burada azərbaycanlılar yaşamışdır. Rayonun ərazisi XIX əsrin əvəllərində Rusiya tərəfindən işğal edildikdən sonra azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış, Rusiyanın Saratov və Kursk qəzalarından köçürülən ruslar burada yerləşdirilmişdir (85, s.335). Burada 1831-ci ildə 18 nəfər yalnız azərbaycanlı, 1926-cı ildə ruslara yanaşı 6 nəfər, 1931-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 156-157). 1930 - cu illərin axırlarında onlar kənddən çıxarılmışdır.

1988-ci ilə kimi burada yalnız ruslar yaşamışdır. 1988-ci ildən sonra ruslar ermənilər tərəfindən sıxışdırılıb kənddən çıxarılmışdır. İndi kəndin əsas sakinləri ermənilərdir. Kənddə azsayda ruslar da yaşayır.

Toponim Qaraməhəmməd şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1801-cı ildə dəyişdirilib Rusiya çarının şərəfinə Aleksandrovka qoyulmuşdur.

Erm. SSR AS RH-nin 22.ll.1939 - cu il fərmanı ilə adı yenidən dəyişdirilib rus şairi Maksim Qorkinin şərəfinə Qorki qoyulmuşdur.

**Qaraməmməd -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir.

1897-ci ildə kənddə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21). Ermənilər buraya 1828-ci ildən sonra İran və Türkiyədən köçürülmüşdür. Azərbaycanlılar 1918-20-cı illərdə tarixi vətənlərindən deportasiya olunmuşdur.

Toponim Qaraməmməd şəxs adı əsasında formalaşmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilərək Meğraşad qoyulmuşdur.

**Qaranqu** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda çay. Rayondakı Molla Gökçə (Maralik) kəndinin ərazisindən axır. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir. Uzunluğu 38 km-dir. Mənbəyini Alagöz dağındakı Qaragöldən və bulaqlardan alıb Arpaçaya tökülür. Hidronim M.Kaşğarinin «Divanü-lüğət-it türk» əsərində «tutqun, çirkin, şübhəli» mənasında işlənən qaranqu sözü (5, s.63) əsasında əmələ gəlmişdir. Sadə quruluşlu hidronimdir.

Çayın adı dəyişdirilib Sevcur (Qarasu) və Metsamor qoyulmuşdur.

**Qaranəbi** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. 1930 - cu ildə Allahverdi (Tumanyan) rayonunun tərkibində olmuşdur. Burada 1926-cı ildə 17 nəfər azərbaycanlı yaşamışdır (415, s.10-11). 1930 - cu illərdə yaşayış məntəqəsi ləğv edilmişdir.

Toponim Qaranəbi şəxs adı əsasında əmələ gəlmişdir.Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaranlıq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir.

Toponim «dağ, təpə» mənasında işlənən qara sözünə (339, s.256) məkan anlayışı bildirən -lıq şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 5.VII.1968-cı il fərmanı ilə adı dəyişdirilib Qexovit qoyulmuşdur.

**Qaranlıq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 2 km məsafədə, Abaran çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.109), Qafqazın 5 verstlik xəritəsində (348, s.118) qeyd edilmişdir.

Toponim türk dilində «dağ, təpə, zirvə» mənasında işlənən qara sözünə (339, s.256) -lıq şəkilçisinin artırılması ilə əmələ gəlib «dağlıq yerdə olan kənd» mənasını ifadə edir.

Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 10.IX.1948-ci il fərmanı ilə adı dəyişdirilib Lusagyuğ qoyulmuşdur.

**Qaranlıq dərə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 13 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «heç nə görünməyən», «işığı olmayan» mənasında işlənən qaranlıq sözü ilə (9, s.432) dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lusadzor qoyulmuşdur.

**Qaranlıq kaha -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonun Ağudi kəndində dağ. Oronim «işıqsız, zülmət, işıq düşməyən» mənasında işlənən qaranlıq sözü ilə «qayalıqda, dağda təbii və ya süni oyuq», «mağara» mənasında işlənən kaha (11, s.26) sözündən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qarapapaq-Güllübulaq -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə, qərbi Arpaçayın sağ sahilində yerləşir. Kənd həm də Türk Güllübulağı adlanmışdır (415, s.18). Kəndin adı «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.127), Qafqazın 5 verstlik xəritəsində (348, s.70) Güllübulaq kimi qeyd edilmişdir. Kənddə qarapapaq tayfası yaşadığı üçün kənd Qarapapaq-Güllübulaq adlandırılmışdır.

Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində onlar qarapapaq kimi göstərilir və qarapapaqlar xalq kimi qeyd edilir (415, s.18).

Kənddə 1886-cı ildə 673 nəfər, 1897-ci ildə 955 nəfər, 1908-ci ildə 1020 nəfər, 1914 - cü ildə 1137 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.18-19, 104-105). 1918-ci illərdə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. 1920-ci ildən sonra -indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. 1922-ci ildə 791 nəfər, 1926-cı ildə 1134 nəfər, 1931-ci ildə 1268 nəfər (415, s. 18-19, 104-105), 1970-ci ildə 2459 nəfər, 1979 - cu ildə 2580 nəfər (427, s.907), 1987-ci ildə 2875 nəfər (35, s.163) azərbaycanlı yaşamışdır. 1920-ci ildən sonra bura ermənilər köçürülüb yerləşdirilmişdir. Azərbaycanlılar 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi yalnız ermənilər yaşayır.

Toponim qarapapaq türk tayfa adının güllü və bulaq sözlərinə qoşulması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qarapapaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin başqa adı Seyidkənd olmuşdur (415, s.50).

Kənddə 1831-ci ildə 130 nəfər, 1873 - cü ildə 345 nəfər, 1886-cı ildə 346 nəfər, 1897-ci ildə 483 nəfər, 1904 - cü ildə 410 nəfər, 1914 - cü ildə 705 nəfə, 1916-cı ildə 382 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 99 nəfər, 1926-cı ildə 131 nəfər, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-ci ildə azərbaycanlılar Azərbaycana köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qazaxlar tayfasından olan qarapapaqlar etnonimindən (386, s.535-536) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qarasaqqal** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Alçalı kəndinin yaxınlığında yerləşmişdir (415, s.66).

Toponim qarasaqqal etnonimi (92, s.20) əsasında düzəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qarasu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında qışlaq. Dilican şəhəri yaxınlığında yerləşmiş və şəhərin tabeliyində olmuşdur. 1926-cı ildə burada 13 nəfər yaşamışdır (415, s.30-31). 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim «ağır, aşağı keyfiyyətli, içməyə yararlı olmayan» mənasında işlənən qara sözündən (93, s.42) və su hidronimdən ibarətdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qara su -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda bulaq. Hidronim keyfiyyət mənasında işlənən qara sözü ilə «çay, kiçik çay», «bulaq, kiçik göl» mənasında işlənən su sözündən (339, s.528) əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Qarasu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində yaşayış, məntəqəsi -qışlaq. Yel dağının ətəyində, Ləmbəli kəndinin yaxınlığında yerləşmişdir (1930 - cu ildə Allahverdi (Tumanyan) rayonunun tərkibində olmuşdu). Burada 1926-cı ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.10-11). 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim «keyfiyyətsiz, içməyə yararlı olmayan, ağır su, aşağı keyfiyyətli su» mənasında işlənən qara sözü ilə qədim türk dilində çay mənasında işlənən su sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaratəpə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd olmuşdur. Ağhəmzəli kəndinin yaxınlığında yerləşirdi.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.99), Qafqazın 5 verstlik xəritəsində (348, s.119) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 45 nəfər, 1873 - cü ildə 49 nəfər, 1886-cı ildə 32 nəfər, 1897-ci ildə 32 nəfər, 1908-ci ildə 59 nəfər, 1914 - cü ildə 89 nəfər, 1916-cı ildə 30 nəfər, 1919 - cu ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1919 - cu ilin sonlarında və 1920-ci ilin əvvəllərində azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «böyük, geniş, hündür, şiş, uca» mənasında işlənən qara sözü ilə (278, s.80-81; 94, s.71) Azərbaycan dilində «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaratorpaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ilə Çəmbərək (Krasnoselo) rayonunun Gölkənd kəndi arasında kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.119) qeyd edilmişdir.

1926-cı ildə burada 23 nəfər azərbaycanlı yaşamışdır (415,: s.32-33). 1930 - cu illərdə kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim «münbit, keyfiyyətli, yararlı» mənasında işlənən qara sözü ilə torpaq sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca mürəkkəb toponimdir.

**Qaratorpaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Rayondakı Kolanlı kəndinin yaxınlığında, Cığın dərəsində, Qaratorpaq çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmiş,dir (348,s.119).

Kənddə 1873 - cü ildə 138 nəfər, 1886-cı ildə 15 nəfər, 1931-ci ildə 64 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1948-49 - cu illərdə SSRİ Nazirlər Soveinin xüsusi qərarı ilə azərbaycanlılar zorla köçürülərək kənd ləğv edilmişdir.

Toponim rəng mənasında işlənən qara sözü ilə torpaq sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin torpağı qara rəngində olduğu üçün (qara burada «münbit, keyfiyyətli» mənasını ifadə edir) Qaratorpaq adlandırılmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qaraunc -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Burada ermənilərlə yanaşı 1886-cı ildə 4 nəfər, 1897-ci ildə 5 nəfər, 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). İndi yalnız ermənilər yaşayır.

**Qaraxaç -** Dərələyəz mahalında, Göyçə və Kəlbəcər yaxınlığında yurd. Bu yurdda son dövrlərdə həmişə Qarabağda yaşayan təhlə tayfası yaylayırdı.

Toponim «böyük, yekə, əzəmətli» mənasında işlənən qara sözü ilə xaç sözünün birləşməsindən əmələ gəlmişdir.

Relyef əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

**Qaraxaç -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 27 km məsafədə, Dibəkli dağının ətəyində, Çapan çayının sahilində, Vedi çayının sol axarında yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.98), Qafqazın 5 verstlik xəritəsində (348, s. 119) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 94 nəfər yalnız azərbaycanlı yaşamışdır (386, s.555-556; 415, s.156). 1828-ci il Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən köçürülən ermənilər eyni zamanda burada yerləşdirilmişdir. 1831-ci ildən sonra kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşamışdır.

1873 - cü ildə burada 324 nəfər azərbaycanlı, 276 erməni,1886-cı ildə 498 nəfər azərbaycanlı, 288 erməni, 1897-ci 589 nəfər azərbaycanlı, 416 erməni yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə azərbaycanlılar zorla və qırğınlarla ermənilər tərəfindən qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri dönə bilmişlər.Qaraxaçda ermənilərlə yanaşı 1922-ci ildə 22 nəfər, 1926-cı ildə 31 nəfər, 1931-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415,s.86-87, 156-157). 1948-49 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar tarixi-etnik vətənlərindən çıxarılaraq zorla Azərbaycana köçürülmüşdür. Kənddə indi yalnız ermənilər yaşayır.

Toponim türk dilində «böyük, hündür, uca» mənasında işlənən qara sözü ilə (278, s.80-81) xaç sözü əsasında əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə dəyişdirilib Lusaşoğ qoyulmuşdur.

**Qarahəmzəli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin digər adı Tamamlı olmuşdur.

Rayon mərkəzindən 4-5 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.115) qeyd edilmişdir.

Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-ci ildən sonra İrandan köçürülmüşdür (386, s.551-553). Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 55 nəfər, 1873 - cü ildə 192 nəfər, 1886-cı ildə 247 nəfər, 1897-ci ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ilin fevral ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 143 nəfər, 1926-cı ildə 157 nəfər, 1931-ci ildə 167 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127).

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-53 - cü illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilərək zorla Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim qarahəmzəli nəsil adı əsasında əmələ gəlmişdir. Patronomik toponimdir. Sadə toponimdir. 1918-ci ildə kəndin adı dəyişdirilib Tamamlı, 1920-ci ildə yenidən dəyişdirilərək.Burastan qoyulmuşdur.

**Qaraçanta -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 4 km cənub-qərbdə, Gümrü-Amasiya yolunun sol tərəfində, dəniz səviyyəsindən 1856 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.121). 1886-cı ildə 348

nəfər, 1897-ci ildə 440 nəfər, 1908-ci ildə 665 nəfər, 1914 - cü ildə 729 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1918-ci ildə azərbaycanlılar öz doğma torpaqlarından qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar geri -öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 547 nəfər, 1926-cı ildə 670 nəfər, 1931-ci ildə 688 nəfər (415, s.20-21, 104-105), 1939 - cu ildə 774 nəfər, 1959 - cu ildə 803 nəfər, 1970-ci ildə 1442 nəfər, 1980-cı ildə 1490 nəfər (427, s.45), 1987-ci ildə 1600 nəfər (35, s.164) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilr yaşayır.

Toponim qaraçanta nəsil adı əsasında yaranmışdır. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan SSR AS RH-nin 4.V.1939 - cu il fərmanı ilə adı dəyişdirilib Əzizbəyov, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilərək Areqnadem qoyulmuşdur.

**Qaraçorlu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd. Yuva kəndinin yaxınlığında yerləşirdi. 1918-ci ildə kəndin köklü sakinləri - azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim qaraçorlu türk etnonimi (386, s.631) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaracalar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.116) qeyd edilmişdir. Kəndin başqa adı Məmmədabad olmuşdur (415, s.82).

Kənddə 1873 - cü ildə 34 nəfər, 1886-cı ildə 33 nəfər, 1897-ci ildə 49 nəfər, 1904 - cü ildə 72 nəfər, 1914 - cü ildə 121 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba topaqlarına dönə bilmişdir. Burada 1931-ci ildə 18 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 152-153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk tayfasından olan qaracalar etnonimi (143, s.30) əsasında formalaşmışdır. F.Sümər dülqədirli türk tayfasından olan qaracallı adlı tayfanın adını çəkir (238, s.184). İ.Şopen qaracallı tayfasını kəngərli türk tayfasının bir qolu hesab edir (386, s.537). Fikrimizcə, qaracalar və qaracallı eyni tayfadır. Etnotoponimdir. Quruluşca sadə toponimdir

**Qaracalar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Alagöz dağının cənubunda yerləşir. Erməni mənbələrində kəndin adı Qalaçılar kimi də göstərilir (415, s.22). Qafqazın 5 verstlik xəritəsində (348, s.116) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 104 nəfər, 1873 - cü ildə 272 nəfər, 1886-cı ildə 279 nəfər, 1897-ci ildə 381 nəfər, 1908-ci ildə 360 nəfər, 1914 - cü ildə 381 nəfər, 1916-cı ildə 526 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə kəndin əhalisi ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Ermənilər buraya 1918-1920-ci illərdə Türkiyədən köçürülmüşdür. Kənd 1940-cı illərdə ləğv edilmişdir.

Toponim qaraçalar türk tayfasının adı (143, s.30) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaracalar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Kəndin başqa adı «Məmmədabad»dır. Vedi çayının yanında, Dəvəli kəndinin yaxınlığında yerləşmişdir. Qafqazın 5 verstlik xeritəsində qeyd edilmişdir (348,s.116).

Kənddə 1897-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar tarixi yurdlarından deportasiya olunmuş kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qaracalar türk tayfasının adı (143, s.30) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaracoran -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 10 km şimalda, Gərni çayının yanında, Zəngi çayından axan arxın sağ tərəfində yerləşir.

1972-ci il martın 15-nə kimi, yəni Nairi rayonu yaradılana kimi Əştərək rayonunun tabeliyində olmuşdur. Erməni mənbələrində kəndin adı Qaraceyranlı, Qaracaviran, Qaracaveran, Qaraceyran formalarında da qeyd edilmişdir (427, s.381). «İrəvan əyalətinin icmal dəftəri»ndə Qaraca ərən formasında (143, s.77), Qafqazın 5 verstlik xəritəsində Qaracaran kimi (348, s. 116) qeyd edilmişdir.

Kənddə 1878-cı ilə kimi yalnız azərbaycanlı yaşamışdır. Ermənilər buraya 1878-cı ildə, 1914-1922-ci illərdə Türkiyənin Bayazid, Qars, İqdır vilayətlərindən köçürülmüşdür (427, s.381).

Kənddə 1831-ci ildə 162 nəfər, 1873 - cü ildə 233 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). Kəndə 1878-cı ildə ermənilər köçürüldükdən sonra 1886-cı ildə 275 nəfər azərbaycanlı, 424 erməni, 1897-ci ildə 307 nəfər azərbaycanlı, 563 erməni yaşamışdır (415, s.22-23, 106-107).

Mənbələrdə 1908, 1914, 1916-cı illərdə azərbaycanlılar və ermənilər qarışıq şəkildə göstərilmişdir. Ümumiyyətlə, burada azərbaycanlılar 1918-ci ilə kimi yaşamışdır (415, s.23, 106-107). Halbuki 1986-cı ildə İrəvanda erməni dilində çap olunmuş «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» əsərində kənddə yalnız ermənilərin yaşadığı göstərilir (427, s.381). Azərbaycanlılar 1918-ci ilin fevral ayında ermənilərin təcavüzünə məruz qalaraq, deportasiya olunmuşdur (309, s.219). İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar 1922-25-cı illərdə öz doğma ocaqlarına dönə bilmişdir. Burada 1926-cı ildə 14 nəfər, 1931-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.23, 107). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim xəzərlərin qaraçor (>qaracor) türk etnoniminə (286, s.46) cəmlik bildirən -an şəkilçisinin artırılması ilə əmələ gəlib «qaraçor» (>qaracor) tayfasının yaşadığı yer» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Ertn. SSR AS RH-nin 4.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Aragyuğ (Arakənd) qoyulmuşdur.

**Qaraşamb -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Nairi rayonu yaradılanadək (1972-ci il 15 marta kimi) Əştərək rayonunun tərkibində olmuşdur.

Kənddə 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 207 nəfər, 1886-cı ildə 192 nəfər, 1897-ci ildə 306 nəfər, 1908-ci ildə 363 nəfər, 1914 - cü ildə 417 nəfər, 1916-cı ildə 381 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 1918-ci ildə kəndin əhalisi ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1918-ci illərdə Türkiyədən buraya ermənilər köçürülüb yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «böyük» mənasında işlənən qara sözü ilə türk dilində «çay kənarlarlarında, iki çayın qovuşacağında qamış, yulğun, cəyən, biyan və s. göyərdiyi, həmçinin çöl heyvanlarının və quşların yurd-yuva saldığı sucaq yer» mənasında işlənən şam sözünün (129, s.63) birləşməsindən əmələ gəlmişdir. «Şam» sözü erməni dilində «şamb» formasında «qamışlıq» mənasında işlənir (30, s.413).

Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraşen -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «böyük» mənasında işlənən qara sözündən və «yaşayış yeri, kənd» mənasında işlənən şenlik sözündən formalaşan şen topoformantı əsasında əmələ gəlib «böyük kənd, yaşayış yeri» anlamını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Qarğadaşı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda dağ. Rayondakı Nüvədi kəndinin ərazisində yerləşir. Dağ kəndi üzük qaşı kimi dövrəyə almışdır. Bu ərazidən Həmzə Vəli 1985-cı ildə Orxon-Yenisey yazılarına oxşar 7 daş kitabə tapmış və onunla bağlı «Nüvədi kitabələri» adlı əsər yazmışdır.

Oronim Strabonun «Coğrafiya» əsərində adı çəkilən qarqar etnonimi ilə (377, s.477; 24, s.19) Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözü əsasında əmələ gəlmişdir.

Aparılan tədqiqatlardan aydın olur ki, qarqarlar Albaniyada yaşamış qədim türk tayfalarından biridir (287, s.77-82). H.Mirzəyev Hər-hər, Xar-xar, Xal-xal, Kər-kər, Kəngər toponimlərinin də qarqar etnonimi ilə bağlı olduğunu göstərir (211, s.184). Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Qarğabazar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzidən 12 km cənub-şərqdə, Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.121) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 574 nəfər, 1886-cı ildə 602 nəfər, 1897-ci ildə 569 nəfər, 1904 - cü ildə 688 nəfər, 1914 - cü ildə 728 nəfər, 1916-cı ildə 615 nəfər, 1919 - cu ildə 600 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1919 - cu ilin sonlarında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 192 nəfər, 1926-cı ildə 190 nəfər, 1931-ci ildə 168 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür.

Kənddə 1946-47-cı illərdə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qarğa türk etnoniminə (286, s.63) «alış-veriş yeri» mənasında işlənən bazar sözünün artırılması ilə əmələ gəlib «qarğa tayfasının alış-veriş yeri» mənasını ifadə edir «...bazar sözü mürakkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın I komponenti, «alver, ticarət yeri» mənasında işləndikdə isə onun II komponenti yerində işlənir(93, s.31). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.V.1965-ci il fərmanı ilə adı dəyişdirilib Haykaşen qoyulmuşdur.

**Qarğavəng -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.121) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 182 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23). XX əsrin əvəllərində (1905-1906) onlar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, İran və Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilmişdir.

Toponim qarğa türk etnoniminə (286, s.63; 93, s.43) qədim türk dilində «abidə, daşdan yazılan abidə, daimi abidə, mənasında işlənən bengü > benigü > benü > mengü > menü sözlərinin dəyişməsindən formalaşan vəng (qala) sözünün (299, s.94-95, 341-342; 211, s.208-209) qoşulması ilə əmələ gəlmişdir. Vəng sözünün etimoloji şərhini verib, onun türk mənşəli söz olduğunu Azərbaycan dilçilərindən, ilk dəfə prof. H.Mirzəyev göstərmişdir (211, s.208-209). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaraboya -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 25 km məsadəfə Bəykənd çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.114) qeyd edilmişdir.

Toponim qaraboya tayfa adı əsasında əmələ gəlib «qaraboya tayfasına mənsub kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Xinkoyan qoyulmuşdur.

**Qaradığa -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Kəndin başqa adları Qaraunlu, Qaranka, Qardağa formalarında da göstərilir (415, s.56). Rayon mərkəzindən 12 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Qaradıqya formasında (348, s.116) qeyd edilmişdir.

Burada IX-X əsrlərə aid alban abidələri vardır.

Kənddə 1831-ci ildə 25 nəfər, 1873 - cü ildə 200 nəfər, 1886-cı ildə 332 nəfər, 1897-ci ildə 213 nəfər, 1904 - cü ildə 198 nəfər, 1914 - cü ildə 184 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra 1923-24 - cü illərdə öz doğma evlərinə dönə bilmişlər. Burada 1926-cı ildə 95 nəfər, 1931-ci ildə 125 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.57, 135). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «böyük, iri» mənasında işlənən qara sözü ilə türk dilində «təpə, zirvə» mənasında işlənən tiqey sözünün (339, s.552) fonetik forması olan dıqya > dığa sözündən əmələ gəlmişdir.

Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qarınburun -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd. Rayondakı Gərni kəndindən 16 km cənub-şərqdə, Gərni çayının yanında yerləşirdi. 1897-ci ildə 99 nəfər, 1914 - cü ildə 102 nəfər, 1916-cı ildə 98 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya edilmiş və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində «sel keçməmək üçün alaçığın, dəyənin ətrafına çəkilmiş ensiz, dayaz arx» mənasında işlənən qarım (Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, B., 1967, s.205), «kiçik arx, kiçik su yolu» mənasında işlənən qarnım sözü (253, s.122) əsasında formalaşan və yuxarıda göstərilən mənalarda işlənən qarın sözü ilə Azərbaycan dilində «qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsi» (9, s.330), «irəli çıxan və ya suya doğru uzanan quru» (253, s.99) mənasında işlənən **burun** sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qarlı dərə çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Mürəkkəb quruluşlu hidronimdir.

**Qarnıyarıq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Razdan şəhərinin şimal-qərbində yerləşirdi. «İrəvan əyalətini icmal dəftəri»ndə (143, s.84), Qafqazın 5 verstlik xəritəsində (348, s.122) qeyd edilmişdir. Kəndin digər adı Karvansara olmuşdur (415, s.18; 427, s.51). Köhnə Karvansaranın divarları indi də durur.

Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra 1828-29 - cu illərdə buraya İran və Türkiyədən ermənilər köçürülüb yerləşdirilmişdir (386, s.591-594). Ermənilərlə yanaşı 1897-ci ildə kənddə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18-19). XX əsrin əvvəllərində, 1905-1906-cı ildə baş verən erməni azərbaycanlı müharibəsi nəticəsində azərbaycanlılar qırğınlarla tarixi torpaqlarından qovulmuşdur. Razdan şəhərinin genişləndirilməsi nəticəsində kənd şəhərə birləşdirilərək 1960-cı ildə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «kiçik arx, su yolu» mənasında işlənən qarnı (< qarnım) sözü ilə (253, s.122) türk dilində «yer səthində olan çay», «yarılmış yer», «dərə» mənasında işlənən yarıq sözünün (339, s.179) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Atarbekyan qoyulmuşdur.

**Qasıməli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 5 km şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəytəri»ndə Qasımkənd (143, s.134), Qafqazın 5 verstlik xəritəsində Qasıməli kəndi formasında (348, s.123) qeyd edilmişdir.

Toponim Qasəməli adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 1.VI.1940-cı il fərmanı ilə adı dəyişdirilib Getapi qoyulmuşdur.

**Qatar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Qafan şəhərinin bir hissəsini (indi Hünan Avetisyan qəsəbəsidir) və Oxçu çayının sahilində indi də Qatar şamı adlandırılan düzənlikdən başlamış Kavard kəndinədək uzanan bütün mədən şəhərciyini əhatə edirdi (85, s.13). Kənd sıra ilə düzülmüş qayaların ətəyində salınmışdır.

Kənddə 1831-ci ildə 12 nəfər, 1873 - cü ildə 132 nəfər, 1886-cı ildə 250 nəfər, 1904 - cü ildə 380 nəfər, 1914 - cü ildə 139 nəfər, 1916-cı ildə 5124 nəfər azərbaycanlı yaşamışdır (415, s.134-135). 1906-cı il iyulun 29-da (224, s.119-125) və 1918-ci ildə ermənilər azərbaycanlıları qırğınlarla kənddən deportasiya etmişlər. İndiki Ermənistandan sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. XX əsrin əvvəllərində Qafan şəhəri ilə birləşdirilərək kənd ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «zəncirvari qaya, təpə», mənasında işlənən qatar sözü əsasında əmələ gələn orotoponimdir. Quruluşca sadə toponimdir.

**Qatarqaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Toxluca kəndinin şərqində yerləşir. Oronim «zəncirvari qaya, təpə, dağ» mənasında işlənən **qatar** sözü ilə qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qatar şamı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda düzənlik. Rayondakı Qatar kəndinin ərazisində yerləşir.

**Qatırabad -** İrəvan quberniyasının Sərdarabad mahalında, sonra İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Araz çayının sol sahilində yerləşirdi. Kənd XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ləğv edilmişdir (415, s.62-63).

Toponim türk dilində «sıldırım yarğanlı yer» mənasında işlənən kadır, qatır sözü ilə (337, s.115) abad sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qafan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Ermənistanda yaşayış məntəqəsi, inzibati rayon və rayon mərkəzi. İndiki Ermənistanın şimal-şərqində yerləşir. 1930 - cu ilin sentyabrın 9-da rayon kimi təşkil edilmişdir. 1938-ci ildən respublika tabeliyində şəhərdir. Şəhərin adı keçmişdə mövcud olmuş indiki Qafan şəhərindən 10 km şimal-qərbə doğru, Oxçu çayının sağ sahilində yerləşmiş Qapan (Qafan İ.B.) kəndinin adı ilə bağlıdır (85, s.140).

Erməni mənbələrində Qapan formasında qeyd edilir (415, s.134; 419,s.60).

Toponim peçeneq türk tayfasına mənsub qapan etnonimindən (286, s.41-42) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qafan qalası -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qala. Kığı və Oxçu çaylarının birləşdiyi yerdə salman Zeyvə Kəndindən 200 m hündürlükdə yerləşir. 1103 - cü ildə tikilmişdir (85, s.141).

Qalanın adı qapan türk mənşəli etnonimi ilə bağlı yaranmışdır və «qapan tayfasının qalası» mənasını bildirir.

**Qafarlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Gərni çayından axan arxın yanında yerləşirdi.

Kəndd 1831-ci ildə 652 nəfər, 1873 - cü ildə 515 nəfər, 1886-cı ildə 435 nəfər, 1897-ci ildə 105 nəfər, 1908-ci ildə 540 nəfər, 1914 - cü ildə 594 nəfər, 1916-cı ildə 273 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim türk mənşəli qazaxların çobankərə tayfasından olan qafarlı etnonimindən (386, s.631) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qaxsu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 4 km məsafədə yerləşir. Kəndə ermənilər İrandan köçürülmüşdür (386, s.591-594).

Toponim türk dilində «bərk, möhkəm» mənasında işlənən qax (əsli xax > qaq) sözü ilə (87, s.103) su sözünün birləşməsindən əmələ gələn hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qaçaq qayası -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Qaçaqlar yaşadığı, məskən saldığı üçün dağ Qaçaq qayası adlandırılmışdır.

**Qaçağan -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə, Daşbulaq çayının yaxınlığında, Dəvədaşı dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.l 25).

Toponim qaçağan türk tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Arevadzaq qoyulmuşdur.

**Qazan düşən -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Çəmbərək (Krasnoselo) rayonunun Çaykənd kəndi ilə Dilican şəhəri arasında ərazidə qışlaq. Erməni mənbəyində Qaçan uçan kimi göstərilir (415, s.32). 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 30 - cu illərdə ləğv edilmişdir.

**Qacaran -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 32 km məsafədə, Oxçu çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Kacaran formasında (348, s.107), erməni mənbələrində Qacarans (415, s. 136) kimi qeyd edilmişdir.

Ermənilərdən başqa 1931-ci ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır.

Toponim qayı türk tayfasından olan qacar etnoniminə (245, s.48) cəmlik bildirən -an (Azərbaycan dilində cəmlik bildirən -lar şəkilçisinin sinonimidir) şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

Qızılbaş tayfalarından biri də qacar adlanırdı (175, s.36). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qaşqa -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 45 km məsafədə, Ağdərə dərəsində, Çalaxçı çayının yanında yerləşir.

Qafqazın 5 verstlik xəritəsində (348, s. 125) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.156). Sonra xaricdən - İran və Türkiyədən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir və bununla kənd tam surətdə ermənilərin yaşayış məntəqəsinə çevrilmişdir.

Toponim qədim türk tayfalarından biri olan qaşqay etnonimi (142, s.72-95; 235, s.20-21; 17, s.187-188) əsasında əmələ gəlmişdir. «Qaşqa» qaşqay etnoniminin fonetik formasıdır.

Erm. SSR AS RH-nin 10.IX.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vardaşat qoyulmuşdur.

**Qədir damı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican şəhəri yaxınlığında qışlaq. 1926-cı ildə burada 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim Qədir şəxs adı və «ev,dəyə, qazma» mənasında işlənən tam>dam (299, s.529; 339, s.170-171) sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qədili -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 22 km cənub-şərqdə, Qədili kanalının yanında, Varsaq dağının ətəyində, Çapan çayının kənarında yerləşmişdir.

1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Qədli kimi (143, s.173), Qafqazın 5 verstlik xəritəsində Qadılu fonetik formasında (348, s.107) qeyd edilmişdir. Kəndin adı XVIII əsr mənbəyində Ağkilsə (143, s. 106) erməni mənbələrində Qədirli (415, s. 154) kimi də göstərilir.

Kəndin tarixi adı Qədili olsa da, Sovet hakimiyyəti illərində Qədirli kimi rəsmiləşdirilmişdir.

Kənddə 1831-ci ildə 45 nəfər, 1873 - cü ildə 389 nəfər, 1886-cı ildə 497 nəfər, 1897-ci ildə 588 nəfər, 1904 - cü ildə 827 nəfər, 1914 - cü ildə 839 nəfər, 1916-cı ildə 697 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1926-cı ildən burada ermənilər yaşamağa başlamışdır.

Toponim türk mənşəli qədili nəsil adı əsasında yaranmışdır. Qədili tayfası qaşqayların bir tirəsi olmuşdur (90, s.281). Patronomik toponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lancanist qoyulmuşdur.

**Qəzənfər -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 10 km cənubda, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.112), Qafqazın 5 verstlik xəritəsində (348, s.107) qeyd edilmişdir. Ermənilər kəndə 1828-29 - cu illərdə Türkiyənin Alaşkert, Muş, Sasun vilayətlərindən köçürülmüşdür (427, s.378).

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 10.IX.1948-ci il fərmanı ilə adı dəyişdirilib Araqats qoyulmuşdur.

**Qələndər qalası -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda qala. Rayondakı Ağbulaq kəndinin yaxınlığında yerləşir. Qala XVII əsrdə tikilmişdir.

**Qəmərli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda yaşayış məntəqəsi. Yaşayış məntəqəsinin digər adı «Tatar Qəmərlisi» olmuşdur (415, s.48). 1930 - cu ilə qədər kənd, sonra qəsəbə, 1961-ci ildən respublika tabeliyində şəhərdir.

1930 - cu ilin sentyabnn 9-da yaradılan Qəmərli rayonunun adı və rayon mərkəzi olmuşdur. İrəvandan 2830 km cənub-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.111) qeyd edilmişdir.

Burada 1831-ci ildə 167 nəfər, 1873 - cü ildə 563 nəfər, 1886-cı ildə 668 nəfər, 1897-ci ildə 757 nəfər, 1914 - cü ildə 957 nəfər, 1916-cı ildə 903 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.219). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 126 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 267 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin

xüsusi qərarı ilə 1948-53 - cü illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim qədim kimmer tayfasının (377, s.469; 71, s.81-83) adı əsasında əmələ gələn qəmərli etnonimindən (143, s.49) əmələ gəlib «kimmerlərin//qəmərli tayfasının yaşadığı yer» mənası verir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 4.IX.1945-ci il fərmanı ilə dəyişdirilərək kəndin adı Artaşat, rayonun adı Artaşat rayonu qoyulmuşdur.

**Qəmərli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.111) qeyd edilmişdir. Kəndin digər adı Gözlü Qəmərli olmuşdur (415, s.82).

Kənddə 1831-ci ildə 127 nəfər, 1873 - cü ildə 295 nəfər, 1886-cı ildə 347 nəfər, 1897-ci ildə 408 nəfər, 1904 - cü ildə 411 nəfər, 1914 - cü ildə 436 nəfər, 1916-cı ildə 425 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmiş və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir (415, s.153). İndi ermənilər yaşayır.

Toponim qəmər (antik mənbələrdə kimmer) türk tayfa adına (377, s.469; 71, s.81-83; 287, s.317-321) mənsubluq bildirən -li şəkilçisinin artırılması ilə əmələ gəlib «qəmər (kimmer) tayfasının yaşadığı kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı dəyişdirilib Metsamor qoyulmuşdur.

**Qənşər dağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qursalı kəndində yerləşir. Oronim Azərbaycan dilinin qərb qrupu dialektlərində «qarşı, ön» mənasında işlənən **qənşər** sözü ilə (8, 128; Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, B., 1967, s.205) dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Qəriblər -** İrəvan şəhərində məhəllə. Nəsil adı əsasında əmələ gəlmişdir. Patronomik urbonimdir.

**Qıvraq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 21 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183), Qafqazın 5 verstlik xəritəsində (348, s.131) qeyd edilmişdir.

Kənddə 1886-cı ildə 69 nəfər, 1897-ci ildə 80 nəfər, 1908-ci ildə 148 nəfər, 1914 - cü ildə 220 nəfər azərbaycanlı yaşamışdır (415, s.7680, 146-147). 1918-ci ildə azərbaycanlılar ermənilər qırğınlarla deportasiya etmişdir. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etməyə məcbur olan qıvraqlılar öz doğma yerlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 77 nəfər, 1926-cı ildə 122 nəfər, 1931-ci ildə 111 nəfər azərbaycanlı yaşamışdır (415, s.80, 147). 30 - cu illərin sonunda ləğv edilmişdir. İndi xaraba kənddir.

Kəndin ilk adı Kırqax olmuşdur (415, s.76). Fikrimizcə «Qıvraq», «Qırxaq» oykoniminin dəyişdirilmiş formasıdır. Kəndin ilkin adına istinad edib deyə bilərik ki, toponim türk dilində «çöl», «dağ, dağ başı» mənasında işlənən kır sözü ilə (339, s.327) teleut, Altay, qırğız, qaraqırğız dillərində «bərk», «möhkəm» mənasında işlənən «qax» sözünün (235, s.89) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qızqala -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 26 km şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Qızqala kimi (143,s.81), Qafqazın 5 verstlik xəritəsində Qızqalası kurqan formasında (348, s.153) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 149 nəfər, 1886-cı ildə 210 nəfər, 1897-ci ildə 237 nəfər, 1904 - cü ildə 297 nəfər, 1914 - cü ildə 345 nəfər, 1916-cı ildə 380 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir (415, s.44). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddə 1922-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.125). 1923-25-cı illərdə onlar da kənddən qovulur. Kənd 1960-cı illərdə ləğv edilmişdir.

Toponim oğuz etnoniminin fonetik forması olan qız (ğuz>ğız) tayfa adı ilə (122, s.27; 238, s.48) qala sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı erməni dilinə kalka edilərək Astğaberd (Qızqalası) qoyulmuşdur.

**Qızqala -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 8 km cənubda, Saratovka kəndindən 1,5-2 km məsafədə yerləşir. Ermәni mənbələrində Qızqala kimi qeyd edilir (415, s. 148).

Toponim ərəb dilində oğuz etnonimini əks etdirən qız (ğuz>qız), etnonimi ilə (238, s.48) qala sözünün birləşməsindən əmələ gəlib, «oğuz qalası yanında olan kənd» mənasını verir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Getavan (Çayqəsəbəsi) qoyulmuşdur.

**Qızqala** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Əştərək rayonunda qala. Rayondakı Byurakan kəndindən 5-7 km şimal-qərbdə yerləşir. Qala VII əsrdə tikilmişdir. Qala VII-XI əsrlərdə farsların, XI əsrdə səlcuqların tabeliyində olmuşdur.

1236-cı ildə monqollar tərəfindən dağıdılmışdır. XIV əsrin sonlarına kimi Teymurləngin tabeliyində olmuşdur. Qalanın adı dəyişdirilib Amberd (Yanaşı qala) qoyulmuşdur.

**Qızılbulaq çayı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda çay. Çaxırlı kəndi ərazisindən axır. Hidronim qırmızı mənasında işlənən qızıl və bulaq hidroterminin birləşməsi əsasında əmələ gəlmişdir.

**Qızılqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonundakı Gölkəndin yaxınlığında qışlaq. 1930 - cu ildə Dilican rayonunun tabeliyiində olmuşdur. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 30 - cu illərdə ləğv edilmişdir.

Toponim qırmızı mənasında işlənən qızıl sözü ilə qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Qışlağın yerləşdiyi ərazinin -dağlıq yerin torpağının qırmızı rəngi olduğu üçün bura Qızılqaya adlandırılmışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qızılqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun Ağudi kəndində dağ. Oronim qırmızı mənasında işlənən qızıl sözü ilə qaya sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Torpağın suxurlarına görə dağ Qızıl qaya adlandırılmışdır.

**Qızılqaya -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonunun Çaxmaq kəndində dağ. Hündürlüyü 6-7 metrdir. Oronimi qırmızı mənasında işlənən qızıl sözü ilə dağ mənasında işlənən qaya sozündən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qızıl qaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda dağ.

**Qızılqaya -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qursalı kəndində yerləşir («Vətən səsi» qəzeti, 24. lV. 1991).

Oronim Azərbaycan dilində qırmızı mənasında işlənən qızıl sözü ilə dağ mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qızılqışlaq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Qovuşuq kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1831-ci ildə 85 nəfər, 1897-ci ildə 44 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93, 163). XX əsrin əvvəllərində (1905-1906) azərbaycanlılar qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində qırmızı mənasında (torpağın suxurlarının rənginə görə) işlənən qızıl sözü ilə «qışda mal-qara saxlanan yer» mənasında işlənən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qızılkilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. 1930 - cu ildə Stepanavan (Cəlaloğlu) rayonunun tabeliyində olmuşdur. Rayon mərkəzindən 14 km şimal-şərqdə, Dəmirçilər kəndinin yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.132), Qafqazın 5 verstlik xəritəsində (348, s.132) qeyd edilmişdir.

Kəndin bir adı da Dağ Qarakilsə olmuşdur (415, s.78).

Kənddə 1886-cı ildə 106 nəfər, 1897-ci ildə 202 nəfər,1908-ci ildə 215 nəfər, 1916-cı ildə 490 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1918-ci ildə kəndin sakinləri soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti quruladan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə dönmüşdür. Burada 1922-ci ildə 373 nəfər, 1926-cı ildə 408 nəfər, 1931-ci ildə 437 nəfər (415, s.79,149), 1987-ci ildə 1500 nəfər (85, s.322) azərbaycanlı yaşamışdır.

1988-ci ildə azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.İndi burada ermənilər yaşayır.

Toponim qırmızı mənasında işlənən qızıl sözü ilə kilsə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Qızıldaş, Ermənistan prezidentinin 19.IV.1991-ci fərmanı ilə yenidən dəyişdirilib Aruni qoyulmuşdur.

**Qızılvəng** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-şərqdə, Alagöz çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.116), Qafqazın 5 verstlik xəritəsində (348, s.131) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 429 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 563 nəfər, 1908-ci ildə 733 nəfər, 1914 - cü ildə 812 nəfər, 1916-cı ildə 807 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdır. Kənddə İran və Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə ermənilərlə yanaşı 168 nəfər, 1926-cı ildə 241 nəfər, 1931-ci ildə 282 nəfər azərbaycanlı yaşamışdır (415, s.27, 113).

Toponim qırmızı mənasında işlənən qızıl və kilsə sözünün sinonimi olan vəng sözlərinin birləşməsindən əmələ gəlmişdir. Kənddə albanlara məxsus qırmızı rəngdə kilsə olduğu üçün Qızılvəng (Qızılkilsə) adlandırılmışdır. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 24.VII.1940-cı il fərmanı ilə adı dəyişdirilib Çiçəkli, 25.l.1978-ci il fərmanı ilə yenidən dəyişdirilərək Makenis qoyulmuşdur.

**Qızılqoç** - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. Indiki Ermənistanda inzibati-ərazi bölgüsü rayon və şəhər tipli qəsəbə. Gümrü-Axalkələk yolunun kənarında yerləşir. Erm. SSR AS RH-nin 4.l.1938-ci il fərmanı ilə adı dəyişdirilib Verin Qukasyan, 12.X.1956-cı il fərmanı ilə yenidən dəyişdirilərək Qukasyan qoyulmuşdur. 1990-cı ildə Aşosk adlandırılmışdır.

Toponim qırmızı mənasında işlənən qızıl sözü ilə (qırmızı rəngdə olan suxur nəzərdə tutulur), «düşərgə, qərargah», mənasında işlənən koş (>qoç-İ.B.) sözünün (359, III, (1), s.636) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qızılqoç** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda çay. Adı dəyişdirilib Qukasyançay qoyulmuşdur.

**Qızıldəmir** - İrəvan quburniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 3 km cənub-şərqdə yerləşir. Erməni mənbələrində Qızıltamur kimi qeyd edilir (415, s.22, 106). Azərbaycan dilli mənbələrdə səhv olaraq Qızıl Teymur kimi göstərilir (85, s.104). 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.162) və 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.88) Qızıldəmir kəndi formasında qeyd edilmişdir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır (386, s.583-584). 1828-30 - cu illərdə kəndə İrandan ermənilər köçürülüb yerləşdirilmişdir(386, s.583-586).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 120 nəfər azərbaycanlı yaşamışdır (415, s.106). 1870-ci illərin əvvəllərində azərbaycanlılar deportasiya olunmuşdur. 1897-ci ildə burada 3 nəfər azərbaycanlı qalmışdır (415, s.22-23). Onlar XX əsrin əvvəllərində deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim qırmızı mənasında işlənən qızıl (torpağın süxurunun rəngini ifadə edir) sözü ilə qədim türk dilində «arx» mənasında işlənən təmir (> dəmir-İ.B.) sözünün (299, s.330) birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib (erməni dilinə kalka edilib) Voskevaz (Qızıldəmir) qoyulmuşdur.

**Qızılkilsə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Kəndin adı erməni mənbələrində Qızılkilsə, Qızılkilsə qarapapaq (415, s.20, 104), «İrəvanın əyalətinin icmal dəftəri»ndə (143, s.132), Qafqazın 5 verstlik xəritəsində (348, s.132) Qızıkilsə formasında qeyd edilmişdir. Kənddə qarapapaq tayfası yaşadığı üçün yaşayış məntəqəsi həm də Qarapapaq Qızılkilsəsi (Qızılkilsə qarapapaq), Türk Qızılkilsəsi (Qızılkilsə türk) adlandırılmışdır (415, s.20). 1930 - cu illərdə Ağbaba rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415, s. 1820). Rayon mərkəzindən 8 km məsafədə yerləşir.

Kənddə 1886-cı ildə 210 nəfər, 1897-ci ildə 279 nəfər, 1908-ci ildə 293 nəfər, 1914 - cü ildə 339 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1918-ci ilin mart ayında kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda

sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 39 nəfər, 1926-cı ildə 148 nəfər, 1931-ci ildə 168 azərbaycanlı yaşamışdır (415, s.21, 105). Erməni mənbələrində kənddə qarapapaqların (azərbaycanlılarn etnoqrafik qrupu - İ.B.) yaşadığı göstərilir (415, s.20,104). Göründüyü kimi, erməni mənbələrində qarapapaqlar xüsusi bir xalq kimi göstərilir. İndi ermənilər yaşayır.

Toponim «qırmızı» mənasında işlənən qızıl və dini məbəd mənasını bildirən kilsə sözünün birləşməsindən əmələ gəlmişdir. Təsviri toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Karmiravan (Qırmızı qəsəbə) qoyulmuşdur.

**Qızılkilsə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında kilsə. Ermənilər dəyişdirib Makanyaz vəng qoyublar.

**Qızılörən** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-qərbdə, Çubuxlu dağ silsiləsinin cənub-qərb ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.133) qeyd edilmişdir. 1937-ci ilə kimi Quqark rayonunun tərkibində olmuşdur.

Kənddə 1831-ci ildə 41 nəfər, 1873 - cü ildə 168 nəfər, 1886-cı ildə 212 nəfər, 1897-ci ildə 220 nəfər, 1908-ci ildə 250 nəfər, 1914 - cü ildə 273 nəfər, 1916-cı ildə 276 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.52-53, 132-133). Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalmış, sakinləri qırğınlarla deportasiya olunmuş, 1917-1918-ci illərdə xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 92 nəfər azərbaycanlı, 54 erməni, 1926-cı ildə 107 nəfər azərbaycanlı, 105 erməni, 1931-ci ildə 140 nəfər azərbaycanlı, 226 erməni yaşamışdır (415, s.53, 133).

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana köçürülmüşdür. Sonralar azərbaycanlıların bir hissəsi doğma kəndlərinə qayıtmışdır. 1987-ci ildə burada 268 nəfər azərbaycanlı yaşamışdır (35, s.165). Onlar 1988-ci ilin noyabrında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində qırmızı (torpağın süxurunun rənginə görə) mənasında işlənən qızıl sözü ilə türk dilində «xarabalıq, uçulmuş divar» mənasında işlənən örən sözünün (359, l(2), s.1299; 407, s.105) birləşməsindən əmələ gəlmişdir. «Türklər, sahib olduqları ölkələrin adlarını dəyişdirmədikləri kimi, qədim zamanlardan qalma kənd və şəhər xarabalıqlarının yaxınlığında yerləşdikləri zaman da bu xarabalara örən və ya viran adını vermişlər. Bu adın əvvəlinə ya mənsub olduqları tayfa, oymaq, obanın adını, ya da torpağın rənginə görə ağ, qara, qızıl kimi sifətlər əlavə edərək yeni adlar yaratmışlar» (407, s.105). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Şenavan qoyulmuşdur.

**Qızılxaraba -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Kəndin adı erməni mənbələrində Qızılabad, Tulunəbi kimi də göstərilir (415, s.22). «İrəvan əyalətinin icmal dəftəri»ndə Qızılviran (143, s.97), Qafqazın 5 verstlik xəritəsində Qızılxaraba kimi (348, s.133) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 102 nəfər, 1908-ci ildə 56 nəfər, 1914 - cü ildə 60 nəfər, 1916-cı ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim torpağın rənginə bildirən qırmızı mənasında işlənən qızıl sözü ilə «dağıdılmış» mənasında işlənən xaraba sözündən əmələ gəlmişdir. Türklər xarabalıqlar yanında yeni yaşayış məntəqələri salarkən xaraba, viran, örən (hər üçü sinonim sözdür) sözlərinin əvvəlinə ya mənsub olduqları tayfanı, oymaq və ya obanın, ya da torpağın rənginə görə müvafiq şəkildə ağ, qara, qızıl (qırmızı mənasında) sifətlərini əlavə edirlər (407, s.105). Qızılxaraba kənd adı da həmin konstruksiya əsasında yaranmışdır. «Qırmızı torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yanındakı kənd» mənasını verir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Qızılxaraba -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Əyricə kəndinin yanında, Arxaşan və Əbdülasar dağları arasında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 133) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 188 nəfər, 1886-cı ildə 136 nəfər,1897-ci ildə 125 nəfər, 1908-ci ildə 215 nəfər, 1914 - cü ildə 421nəfər, 1916-cı ildə 249 nəfər yalnız azərbaycanlı yaşamışdır(415, s. 66-67, 140-141). 1918-ci ilin mart ayında kəndin sakinləri ermənilər tərəfindən vəhşicəsinə qovulmuşdur. Kənddə 1930 - cu illərə kimi heç kim yaşamamışdır. 1930 - cu ildən sonra buraya ermənilər köçürülmüşdür (415, s.64).

Toponim qırmızı süxurlu ərazini, torpağı bildirən qızıl və xaraba sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qızılxaraba -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonundakı Qızılxaraba kəndində dağ. Oronim torpağın rəngini ifadə edən qırmızı mənasında işlənən qızıl və xaraba sözlərinin əsasında əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qızılcıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.132).

Kənddə 1873 - cü ildə 165 nəfər, 1886-cı ildə 287 nəfər, 1897-ci ildə 407 nəfər, 1908-ci ildə 450 nəfər, 1914 - cü ildə 441 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 189 nəfər, 1926-cı ildə 122 nəfər, 1931-ci ildə 292 nəfər (415, s.76-77, 146-147), 1987-ci ildə 466 nəfər (85, s.184-185) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi kənddə ermənilər yaşayır.

Toponim torpağın rəngini bildirən qırmızı mənasında işlənən qızıl sözünə kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Qızılcıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.132). Oronim qırmızı (torpağın rəngini bildirir) mənasında işlənən qızıl sözünə kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Düzəltmə quruluşlu oronimdir.

**Qılıclı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Qılıclıdərə selavının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.133) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 52 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 117 nəfər, 1904 - cü ildə 117 nəfər, 1914 - cü ildə 128 nəfər, 1916-cı ildə 127 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə ermənilər kəndə təcavüz edərək sakinlərini qırğınlarla qovmuşlar. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qılıclı türk etnonimi (286,3.63-64) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qılıclıdərə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda dərə. Rayondakı Qılıclı kəndinin ərazisində yerləşir. Oronim qılıclı türk etnoniminin adını (286, s.63-64) əks etdirir. Etnooronimdir.

**Qıllıçarıq -** Tiflis quberniyasının Loru Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunda yaşayış məntəqəsi. Ləmbəli kəndinin yaxınlığında yerəlşirdi.

Toponim oğuz tayfalarından biri olan çarıq etnonimi (399, s.58) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qıpçaq** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143. s.124), Qafqazın 5 verstlik xəritəsində (348, s.134) qeyd edilmışdir.

Toponim qədim türk tayfalarından olan qıpçaq etnonimi (228, s.18; 286, s.46-48; 66, s.34-37) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Haric qoyulmuşdur.

**Qırqalası -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Oronim türk dilində «çöl, dağ qılıcı, kənar, sərhəd, hüdud» mənasında işlənən qır (kır) sözü ilə (339, s.327) qala sözünün birləşməsindən əmələ gəlib «dağ qılıcının kənarında yerləşən qala» mənasını bildirir. Quruluşca mürəkkəb oronimdir.

**Qırğılı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Mənbələrdə 1914 - cü ilə burada 191 nəfər azərbaycanlının yaşadığı da göstərilmişdir. 1918-ci ilə azərbaycanlılar qırğınlarla qovulmuş, sonra buraya ermənilər köçürülərək yeıləşdirilmişdir.

Toponim qırğılı (> qırğlı) türk etnonimi (31, s.25; 182, s.297;92, s.12) əsasında yaranmışdır. Quruluşca sadə toponimdir.

**Qırıxtəpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda dağ. Rayonunun yaxınlığında yerləşir.

**Qırmızı körpü -** İrəvanda körpü. Zəngi çayının üstündə 1679-cu il zəlzələsindən əvvəl salınmışdır.

**Qırxbulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 2 km cənubda, Göyçə gölünün cənub-şərqində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.61) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 247 nəfər yalnız azərbaycanlı, 1897-ci ildə ermənilərlə yanaşı 23 nəfər azərbaycanlı yaşamışdır(415,8.26-27,112).

1831-ci ildən sonra kəndə Türkiyənin Bayazid bölgəsindən köçürülən ermənilər yerləşdirilmişdir (427, s.146). 1905-1906-cı illərdə azərbaycanlılar sıxışdırılmış və kənddən tamamilə çıxarılmışlar. 1906-cı ildən sonra kənddə yalnız ermənilər yaşamışdır. Toponim Azərbaycan dilində «çoxlu» mənasında işlənən qırx və bulaq sözləri əsasında yaranmışdır. Ərazidə çoxlu bulaq olduğu üçün kənd Qırxbulaq adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Akunk qoyulmuşdur.

**Qırxdəyirman -** İrəvan qubeniyasının Aleksandropol qəzasında, indi Ələyəz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə, Qarabulaq çayının yanında, Alagöz dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.153) qeyd edilmişdir. 15 mart 1972-ci ildə Ələyəz (Araqadz) rayonu yarandıqdan sonra Abaran rayonunun inzibati-ərazi bölgüsündən çıxarılıb Ələyəz (Araqadz) rayonunun tərkibinə daxil edilmişdir.

Toponim türk dilində söz birləşməsi daxilində qırx sözünün həm də kiçik mənasını ifadə etdiyini (kırk ambar. 359,l(1), s.746) nəzərə alıb bu qənaətə gəlmək olar ki, Qırxdəyirman «Kiçik dəyirman» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı dəyişdirilib Hnaberd qoyulmuşdur.

**Qırmızı daş -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd kəndinin ərazisində yerləşir. Oronim rəng bildirən (torpağın rəngi ilə bağlı) qırmızı sözü ilə Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Qırxlar dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Oronim avşarlardan olan qırıxlı türk tayfasının adı (286, s.32; 142, s.87) əsasında formalaşmışdır. Etnooronimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qısır xaraba -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayon mərkəzindən 15-17 km şərqdə, rayondakı Terp kəndinin yaxınlığında yerləşirdi. Kəndin digər adı erməni mənbələrində Qısır kimi qeyd edilir (415, s.90).

Kənddə 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 136 nəfər, 1904 - cü ildə 152 nəfər, 1914 - cü ildə 167 nəfər, 1916-cı ildə 187 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlardan müəyyən qismi doğma yurda dönə bilmişdir. Burada 1922-ci ildə 4 nəfər, 1926-cı ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s.91, 159). 1928-29 - cu illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. Kənd 1930 - cu ildə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «otsuz, bitkisi olmayan torpaq» mənasında işlənən qısır sözü ilə «dağılmış, viran edilmiş» mənasında işlənən xaraba sözü əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qısırdağ -** Zəngəzur sıra dağları silsiləsində, Qafan rayonu ərazisində dağ. Hündürlüyü 2987 m-dir. Oronim Azərbaycan dilində «meşəsiz, otsuz, bitkisiz» mənasında işlənən qısır (yəni quru) sözü əsasında əmələ gəlmişdir.

**Qısırdağ -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.135) qeyd edilmişdir. Oronim Azərbaycan

dilində «bitkisiz, otsuz» mənasında işlənən qısır sözü ilə dağ sözü əsasında formalaşmışdır. Mürəkkəb quruluşlu oronimdir.

**Qışlaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonun ərazisində qışlaq.

**Qışlaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonu ərazisində kənd. Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Qisar Xalac -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Kəndin xarabalıqları indiki Xalac kəndinin ərazisindədir. Türk dilində «düzənlikdə qala, möhkəmləndirilmiş şəhər» mənasında işlənən qisar (xisar) sözü ilə (339, s.143, 593) xalac türk tayfa adı (228, s.35; 245, s.42-43; 226, s.50-51) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qovuşuq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə, Alagöz çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Qovşuq (348, s.138), erməni mənbələrində Qavuşuq, Kavuşuq formasında (415, s.92) qeyd edilmişdir.

Tarixi mənbələrdə X əsrdən adı çəkilir və XVII əsrdə yenidən bərpa edilmişdir (422, s.64).

Kənddə 1831-ci ildə 96 nəfər, 1873 - cü ildə 158 nəfər, 1886-cı ildə 190 nəfər, 1897-ci ildə 232 nəfər, 1904 - cü ildə 172 nəfər, 1914 - cü ildə 190 nəfər, 1916-cı ildə 376 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 138 nəfər, 1926-cı ildə 260 nəfər, 1931-ci ildə 325 nəfər (415, s.93, 161), 1987-ci ildə 800 nəfər (85, s.356-357) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Qovuşuq kəndinin sakinləri Ermənistan dövləti tərəfindən zorla ata-baba torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim qıpçaq türk tayfasından olan qov etnoniminə (287, s.55) -uş və -uq şəkilçilərinin artırılması ilə düzəlmişdir.

Qov türk etnonimi Sabirabad, Tovuz rayonlarındakı Qovlar, Xanlar rayonundakı Qovlarsan toponimlərində öz əksini tapır (93, s.46). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Yermon qoyulmuşdur.

**Qovşud -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Kəndin başqa adları Qovşuq, Qovşutlu olmuşdur (415, s.56). Rayon mərkəzində 17 km şimal-şərqdə, Kığı və Oxçu çaylarının qovuşduğu Zeyvə qalasının yaxınlığında yerləşir. Kənddə 1897-ci ildə 163 nəfər, 1914 - cü ildə 320 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet quruluşu qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 108 nəfər, 1926-cı ildə 109 nəfər, 1931-ci ildə 123 nəfər (415, s.57, 135), 1939 - cu ildə 208 nəfər, 1987-ci ildə 200 nəfər (85, s.140) azərbaycanlı yaşamışdır. 1988-ci ildə kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim qovşud etnonimi (231, s.71-72) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kavçut qoyulmuşdur.

**Qozlu -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən qoz bitki adına -lu şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qozluca -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 3-5 km şərqdə, Qoytul kəndinin yaxınlığında, Ulqyurd çayının sahilində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.57), Qafqazın 5 verstlik xəritəsində (348, s.138) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 60 nəfər, 1873 - cü ildə 342 nəfər, 1886-cı ildə 549 nəfər, 1897-ci ildə 630 nəfər, 1904 - cü ildə 647 nəfər, 1914 - cü ildə 711 nəfər, 1916-cı ildə 791 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ

qalanlar doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 92 nəfər azərbaycanlı yaşamışdır (415, s.162-163). 1923-25-cı illərdə onlar ermənilər tərəfindən sıxışdırılaraq qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qoz bitki adına -lu və sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən -ca şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Qojaravan -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. 1930 - cu illərdə Ləmbəli kəndinə birləşdirilmişdir.

Toponim qızılbaş türk tayfasına aid olan qacar etnoniminin (175, s.36) fonetik forması olan qojar tayfa adına «kənd yaşayış məntəqəsi» mənasında işlənən van sözünün (278, s.42) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Qoytul -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-qərbdə yerləşir. Kəndin digər adı «Qoytur»dur (415, s.22). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.138). Kəndin adı eyni zamanda Quytul formasında qeyd edilir (309, s.221).

Kəndin ərazisində III-V əsrlərə aid azərbaycanlıların həyatı ilə bağlı tarixi abidələr var.

Kənddə 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 203 nəfər, 1886-cı ildə 273 nəfər, 1897-ci ildə 351 nəfər, 1908-ci ildə 210 nəfər, 1914 - cü ildə 213 nəfər, 1916-cı ildə 390 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1919 - cu ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir (309, s.221). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.106-107). 1924-25-ci illərdə onlar yenidən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «çuxur, çökək, dərin yer» mənasında işlənən quytul sözü (253, s.123) əsasında əmələ gəlmişdir. Qoytul quytul sözünün fonetik variantıdır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Qoytur -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 3 km şərqdə, Arpaçayın sağ qolu Qoytul çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.58), Qafqazın 5 verstlik xəritəsində (348, s.138) qeyd edilmişdir. Erməni mənbəyində kəndin adı Qoytul, Kotur formalarında da göstərilir (415, s.92). Ermənilər kəndə 1828-30 - cu illərdə İrandan köçürülmüşdür (386, s.615-618).

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 36 nəfər, 1926-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93). 1928-30 - cu illərdə azərbaycanlılar kənddən qovulmuşdur. İndi ermənilər yaşayır. Toponim qədim türk dilində «dərənin dibi» mənasında işlənən koy (>qoy) sözü ilə (399, s.142) «möhkəmləndirilmiş yaşayış yeri, qala» (299, s.587), «çəpərlənmiş təpə» (359, III,(1), s.1466) mənasında işlənən tur sözünün birləşməsindən əmələ gəlmişdir. Tur//tura sözü durr formasında tarixi və coğrafi ədəbiyyatda «dərə», «aşırım», «dağ keçidi» mənalarında (339, s.194) işlənmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Getap qoyulmuşdur.

**Qoyun damı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda mikrotoponim. Azərbaycan dilində işlənən qoyun sözü ilə «yataq, olacaq», mənasında işlənən dam sözündən əmələ gəlib «qoyun yatağı, qoyun salınan, saxlanan yer» mənasını bildirir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qolqat -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda göl. Hidronim türk dilində «dərə, vadi» mənasında işlənən qol sözündən (299, s.453) və bataqlıq mənasında işlənən qat sözündən (339, s.141) əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir

**Qolqat -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 8 km şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.64) qeyd edilmişdir. Kəndin digər adı «Qovluqat»dır (415, s.24).

Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə Türkiyədən ermənilər köçürülüb burada yerləşdirilmişdir. Burada ermənilərlə yanaşı 1831-ci ildə 17 nəfər, 1873 - cü ildə 13 nəfər, 1897-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s.24-25, 110). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim türk dilində «susuz dərə», «çay yeri», «axar», «çay» (2, s.297), «dərə, vadi» (299, s.453) mənalarında işlənən qol sözü ilə «bataqlıq» mə'nasında işlənən qat sözünün (339, s.141) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1948-ci il fərmanı ilə adı dəyişdirilib Keğanist qoyulmuşdur.

**Qollu daşın yolu -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Kalinino rayonunda əkin sahəsi. Rayondakı Cücəkənd kəndinin cənub tərəfində yerləşir. Digər adı «Qollunun yolu»dur.

**Qoloybucaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kirovakan şəhərində dağ. Şəhərdən 25 km qərbdə yerləşir. Hündürlüyü 2400 m-dir. Oronim bucaq türk tayfa adı (245, s.53) əsasında yaranmışdır. Etnooronimdir.

**Qonaqqıran -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Qonaqqıran kimi (143, s.135), Qafqazın 5 verstlik xəritəsində Qonax Qran formasında (348, s.139) qeyd edilmişdir.

Toponim qədim türk dilində «dayanacaq», «istirahət yeri» mənasında işlənən qonaq sözü ilə (299, s.455), «düşərgə», «maldarların müvəqqəti dayanacaq yeri» mənasında işlənən kuren //kran sözünün (339, s.317) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Şirak qoyulmuşdur.

**Qonaqgörməz -** İrəvan xanlığının Dərəçiçək mahalında kənd. XVII əsrin sonlarında ləğv edilmişdir.

Toponim «dayanacaq, dincəlmək yeri» mənasında işlənən qonaq sözü ilə (299, s.455) və qeyri-qəti gələcək zamanın inkarında işlənən görməz sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qonax görməz -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim qədim türk dilində «istirahət yeri, dayanacaq» mənasında işlənən qonaq sözü i!ə (299, s.455) görünməz sözündən -ün qayıdış fel şəkilçisinin ixtisarı nəticəsində formalaşan görməz sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qoncalı -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 14 km şimal-qərbdə yerləşir. Erməni mənbələrində Xancallı kimi qeyd edilir (415, s. 20). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.140).Kəndin köklü sakinləri azərbaycanlıların etnogenezində iştirak edən qarapapaq türk tayfaları olmuşdur.

Siyahıyaalmalarda qarapapaqlar xalq kimi göstərilmişdir (415, s.20-21)

Kənddə 1886-cı ildə 178 nəfər, 1897-ci ildə 253 nəfər, 1908-ci ildə 303 nəfər, 1914 - cü ildə 392 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1920-ci il noyabrın 29-da indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar geri öz -kəndlərinə qayıtmışdır. Burada 1922-ci ildə 95 nəfər, 1931-ci ildə 134 nəfər (415, s.20-21, 104-105), 1987-ci ildə 236 nəfər (35, s.167) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim gəncəli (>qoncalı -İ.B.) türk etnonimi (92 s.12) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Zarişat qoyulmuşdur.

**Qorçulu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-şərqdə, Misxana (Mərmərik) çayının sağ axarında, Zəngi çayının bir qolu olan Böyükçayın sağ və sol sahilində yerləşir.

Kənddə 1831-ci ildə 82 nəfər, 1873 - cü ildə 170 nəfər, 1886-cı ildə 257 nəfər, 1897-ci ildə 279 nəfər, 1908-ci ildə 300 nəfər, 1914 - cü ildə 440 nəfər, 1916-cı ildə 342 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 102-103). 1918-ci ildə azərbaycanlılar böyük qırğınlarla ermənilər tərəfindən qovulmuşlar. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma torpaqlarına dönə bilmişlər. 1918-20-cı illərdə kəndə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə kənddə 142 nəfər, 1926-cı ildə 148 nə fər, 1931-ci ildə 195 nəfər (415, s.17, 103), 1987-ci ildə 250 nəfərə yaxın azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Səfəvilər dövründə yaranan şah qvardiyasını bildirən qorçu sözünə (ASE, III c., s.215) mənsubluq bildirən –lu şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. «Qorçulara mənsub, qorçuların yaşadığı kənd» mənasını ifadə edir.

Qorçulu sonradan nəsil mənasını kəsb etmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Qotur -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. Abaran çayının sağ qolu üzərində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.142) qeyd edilmişdir (348, s.142). Kəndin digər adı Qoytur olmuşdur (415, s.4). 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır.

Türkmənçay müqaviləsindən sonra, 1830-40-cı illərdə İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir (415, s.96-100). Burada ermənilərlə yanaşı 1873 - cü ildə 72 nəfər, 1886-cı ildə 80 nəfər, 1897-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). 1904, 1914 - cü illərdə kənddə yaşayan azərbaycanlı və ermənilər qarışıq şəkildə göstərilmişdir (415, s.96-97). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Kəndin adı 1931-ci ildən sonrakı mənbələrdə çəkilmir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «bitkisiz, otsuz yer» mənasında işlənən qotur sözü (339, s.296) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Qoturbulaq -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində işlənən qotur və bulaq sözlərindən əmələ gəlmişdir. Kənd müalicəvi əhəmiyyətli bulağın yaxınlığında (həmin bulağın suyundan əsasən qoturluq xəstəliyində istifadə olunurmuş) salındığı üçün kənd «Qoturbulaq» adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Katnaxbuyr qoyulmuşdur.

**Qoturbulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir.

Müalicəvi əhəmiyyətli bulağın yaxınlığında salındığı üçün kənd Qoturbulaq adlandırılmışdır. Xəstə olan, qotura tutulan həmin sudan istifadə edirmiş. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Sonradan kəndin adı dəyişdirilib Ttucur (Turşsu) qoyulmuşdur.

**Qotur bulağı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi rayonunda bulaq. Qotur xəstəliyində istifadə edildiyi üçün «Qotur bulağı» adlanmışdır. Əsrlər boyu bu bulaq elin təbibi olub müharibə dövrü qaşınma tutan uşaqları bu su ilə müalicə eləyirdilər (156, s.106). Mürəkkəb quruluşlu hidronimdir.

**Qotursu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda bulaq. Hidronim «qotur xəstəliyinin müalicəsində istifadə olunan mineral su» mənasını ifadə edir.

**Qoturtəpə -** İndiki Ermənistanda dağ. Oronim Azərbaycan dilində «otsuz, ot bitməyən, keçəl» mənasında işlənən qotur sözü ilə (278, s.93-94; 339, s.296) «dağ, kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Qoş -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzirdən 18 km cənub-şərqdə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.162), Qafqazın 5 verstlik xəritəsində (348, s.144) qeyd edilmişdir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1858-70-cı illərdə Türkiyədən buraya Ermənilər köçürülüb yerləşdirilmişdir.

Kənddə ermənilərdən başqa 1831-ci ildə 62 nəfər, 1873 - cü ildə 211 nəfər, 1886-cı ildə 566 nəfər, 1897-ci ildə 323 nəfər, 1908-ci ildə 427 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 10 nəfər, 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107).

Toponim qədim türk dilində «düşərgə, çobanların müvəqqəti yaşayış yeri, çadır» mənasında işlənən qoş sözü (359, II(i),s.636; 339, s.298-299) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Qoş** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhərinin tabeliyində kənd. Dilican şəhərində 10 km şərqdə yerləşir. İndi İcevan rayonunun tabeliyindədir. Toponim türk

dilində «düşərgə, çobanların müvəqqəti yaşayış yeri» mənasında işlənən qoş sözündən (359, II (1), s.636; 339, s.298-299) əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Qoşabulaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.143).

1916-cı ilə qədər burada əhali yaşamışdır. 1918-ci ildə kənd dağılıb xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim Azərbaycan dilində işlənən iki sözün birləşməsindən əmələ gəlmişdir: qoşa və bulaq. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qoşabulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-şərqdə, Məzrə çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.143) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 117 nəfər, 1873 - cü ildə 316 nəfər, 1886-cı ildə 419 nəfər, 1897-ci ildə 456 nəfər, 1908-ci ildə 596 nəfər, 1914 - cü ildə 672 nəfər, 1916-cı ildə 553 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ildə aprelin 13-20-də azərbaycanlılar qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra onlar yaşayış yerlərinə qayıda bilmişlər. 1922-ci ildə 337 nəfər, 1926-cı ildə 291 nəfər, 1931-ci ildə 383 nəfər (415,s. 26-27, 112-113), 1987-ci ildə 1800 nəfər (85, s.283) azərbaycanlı yaşamışdır.

1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi burada yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «cüt» mənasında işlənən qoşa sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şadcrek (Çoxsulu) qoyulmuşdur.

**Qoşabulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 22-24 km şimal-qərbdə, Bazarçay kəndinin yaxınlığında, Bazarçay çayının sağ tərəfində yerləşirdi. XX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «çoxlu, cüt, iki» mənasında işlənən qoşa sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qoşabulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.143) qeyd edilmişdir. Kənddə 1873 - cü ildə 101 nəfər, 1886-cı ildə 152 nəfər, 1897-ci ildə 173 nəfər, 1908-ci ildə 211 nəfər, 1914 - cü ildə 214 nəfər, 1916-cı ildə 211 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1919 - cu ildə kəndin əhalisi azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir (309, s.221). Indi xaraba kənddir.

Toponim Azərbaycan dilində «cüt, yanaşı, iki» mənasında işlənən «qoşa» sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qoşabulaq -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun Hallavar kəndində yaylaq. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qoşavəng -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.143). Rayon mərkəzindən 41 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «cüt, yanaşı» mənasını bildirən **qoşa** və «qala, istehkam, yaşayış yeri, «kilsə» mənasını bildirən **vəng** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Haykadzor qoyulmuşdur.

**Qoşavəng -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda qala.

**Qoşa kaha -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonundakı Ağudi kəndində oronim.

«Cüt» mənası bidirən **qoşa** sözü ilə mağara mənasında işlənən **kaha** (11, s.26) sözündən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu oronimdir.

**Qoşkuradağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunun ərazisində dağ. Rayonun cənub-şərqindədir.

**Qoşagöl -** İndiki Ermənistanın İcevan rayonunda göl. Rayonun cənubundadır. Hidronim Azərbaycan dilində «cüt», «iki» mənasında işlənən qoşa sözü əsasında yaranmışdır.

**Qoşnalı bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda bulaq. Şəxs adı əsasında əmələ gəlmişdir. Antropohidronimdir.

**Qoşundaş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonu ərazisində yer, ağaclıq (372, s.125). Toponim monqol dilində «köç», «müvəqqəti yurd yeri» mənasında işlənən qoşun (əsli: xoşun//xuşun) sözü ilə (25, s.170) qədim türk dilində «çöl», «sahə», «yer» mənasında işlənən daş (dış, daşt) sözü əsasında formalaşmışdır (269, s.152). Mürəkkəb quruluşlu oronimdir.

**Qrampa -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 3 km şimal-şərqdə, Kasax çayının sağ sahilində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Kəranpa kəndi kimi (143, s.162) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra kənddə 1828-30 - cu illərdə Türkiyədən ermənilər köçürülüb yerləşdirilmişdir (386, s.583-586). Burada 1831-ci ildə 90 nəfər azərbaycanlı, 25 erməni, 1873 - cü ildə 120 nəfər azərbaycanlı, 273 erməni, 1886-cı ildə 112 nəfər azərbaycanlı, 337 erməni, 1897-ci ildə 129 nəfər azərbaycanlı, 401 erməni yaşamışdır (415, s.80-81, 150-152). Ümumiyyətlə, burada 1918-ci ilə kimi azərbaycanlılar yaşamışdır.

1918-ci ilin fevralında kənddə yaşayan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (145, s.80-81). Sonralar (1923-24 - cü illərdə) onlar yenidən ata yurdlarından qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim oğuzların uluyörük tayfasından olan kərampa etnonimi (238, s.186) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm, SSR AS RH-nin 25.l.1978-ci ilə adı dəyişdirilib Ziazan qoyulmuşdur.

**Quqark -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Ermənistanda inzibati ərazi bölgü. 1930 - cu il 9 sentyabrda rayon kimi yaradılıb.

1930 - cu il sentyabrın 9-na kimi Qarakilsə, 1935-ci ildən 1964 - cü ilə kimi Kirovakan, 1964 - cü ildə Quqark rayonu adlandırılıb.

Toponim türk mənşəli quqar (göyər -İ.B.) etnonimi (169, s.99-107) əsasında əmələ gəlmişdir. Toponim tərkibindəki -k şəkilçisi cəmlik əlaməti bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Quzan -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponimin birinci hissəsi oğuz türk tayfasının adını əks etdirən quz etnoniminə (ərəb dilində oğuz etnonimi ğuz//quz formasında işlənir. 89, s.138; 238 s.48) cəmlik bildirən -an şəkilçisinin qoşulması yolu ilə formalaşmışdır. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Quzey -** İrəvan qubeniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunun Toxluca kəndində qışlaq. Toponim «gün düşməyən, həmişə kölgəli yer» mənasında işlənən qüzey sözündən (9, s.564) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan sadə toponimdir.

**Quzeykab -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda dağ. Oronim Azərbaycan dilində «şimal, gün düşməyən yer» mənasında işlənən quzey və türk dilində «aşırım» mənasında işlənən kab sözünün (339,s.239) birləşməsindən əmələ gəlmişdir və «şimalda, gün düşməyən yerdə olan aşırım» mənasında bildirir. Toponimin ikinci komponenti olan kab sözü Azərbaycan dilində gav formasında «dağ keçidi» mənasında (253, s.125), gab formasında «qayalıqdan keçən yol», «uçurum, daşlıq» mənalarında (253, s.126) işlənir. Quruluşca mürəkkəb oronimdir.

**Quzugüdən -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-şərqdə Araz çayının yaxınlığında yerləşir. Kəndin ilkin, qədim adı Quzukutan olmuşdur (427, s.228).

1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Kəndin adı Quzugüdənli formasında qeyd edilir və göstərilir ki, «Kəndin əhalisi mürsəlli camaatındandır» (143, s.70). Erməni mənbələrində kəndin adı Ğuzigedən, Ğuzigedan, Kuzikutan formalarında (427, s.228), Qafqazın 5 verstlik xəritəsində Kuzikuden formasında (348, s.146) qeyd edilmişdir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və burada 1828-30 - cu illərdə Türkiyənin Alaşkert, Sürməli, Muş vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (427, s.228).

Toponim əfşar türk tayfasından olan quzugüdənli etnonimi (238, s.275) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Ayqeşad qoyulmuşdur.

**Quzu kahası -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun Ağudi kəndində dağ. Oronim qoyunun balasını bildirən quzu sözü ilə mağara mənası bildirən **kaha** sözündən əmələ gəlmişdir. Bura quzu, qoyun salındığı üçün Quzu kahası adlandırılmışdır. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Qulalı -** Tiflis quberniyasının Qazax qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 21 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.147) qeyd edilmişdir. Burada ermənilərlə yanaşı 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.72-73). 1930 - cu ildə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim qıpçaq türk tayfasından olan qul etnonimi ilə (273, s.235; 286, s.50) Alı şəxs adından əmələ gəlib «qul tayfasından olan Alının kəndi» mənasını verir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.V.1939 - cu il fərmanı ilə adı dəyişdirilib Haykedzor qoyulmuşdur.

**Quzukənd -** Qars vilayətinin Qara qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 25 km şimal-qərbdə, Arpa-gölün şimal-qərbində yerləşir. Adı erməni mənbələrində Kuzikənd, Xozikənd, Xozlu, Xozukənd Çivinli formalarında qeyd edilir (415,s.20).

Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir (415, s.20). Qarapapaqlar azərbaycanlıların etnoqrafik qruplarından biri olmuşdur.

Kənddə 1886-cı ildə 222 nəfər, 1897-ci ildə 382 nəfər, 1908-ci ildə 379 nəfər, 1914 - cü ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildən sonra kəndin əhalisi ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. Yalnız 1920-ci ildən sonra, yəni Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar geri qayıda bilmişlər. 1922-ci ildə kənddə 439 nəfər, 1926-cı ildə 443 nəfər, 1931-ci ildə 497 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 865 nəfər, 1987-ci ildə 984 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ilin noyabr-dekabr aylarında, 1989 - cu ilin yanvarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim quz ( Oğuz efnoniminin ərəb dilində işlənən formasıdır. 359, II (2), s.1631; 238, s.50) türk etnoniminə türk dilində «yaşayış məntəqəsi, şəhər» mənasında işlənən kənd sözünün (kənd coğrafi nomendir) birləşməsi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Quldərviş -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 8 km cənub-şərqdə, Alagöz dağının cənub-şərq ətəyində yerləşir.

Kənddə 1873 - cü ildə 190 nəfər, 1886-cı ildə 243 nəfər, 1897-ci ildə 261 nəfər, 1904 - cü ildə 327 nəfər, 1914 - cü ildə 346 nəfər, 1916-cı ildə 368 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.36-37, 118-119). 1918-ci ilin yanvar-fevral aylarında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qıpçaq tayfasından olan qul etnonimi ilə (273, s.235) dərviş sözünün birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Vosketas qoyulmuşdur.

**Qul Əli** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 3 km cənub-şərqdə, Quləli dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.147) qeyd edilmişdir. Kəndə 1828-30 - cu illərdə Türkiyənin Bayazid bölgəsindən köçürülən ermənilər yerləşdirilmişdir (386, s.595-598).

Burada 1897-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s.70-71). 1905-1906-cı illərdə kənddə yaşayan azərbaycanlılar tamamilə qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim qipçaq türk tayfasından olan qul etnoniminin (273, s.235) Əli şəxs adına birləşməsindən əmələ gəlmişdir və «qul tayfasından olan Əliyə məxsus kənd» anlamını ifadə edir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 1.VI.1940-cı il fərmanı ilə adı dəyişdirilib Karmirgyuğ (Qırmızı kənd) qoyulmuşdur.

**Qerqer -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Talin rayonu ərazisində kənd. Erməni mənbələrində kəndin adı Qrqor, Kyorqir, Kyurqir formalarında da göstərilir (415, s34, 427, s.961).

1918-ci ildə sakinləri -azərbaycanlılar qırğınlarla qovulmuş və kənd 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim yunan tarixçisi Strabonun «Coğrafiya» əsərində adı çəkilən qarqar etnonimi (377, s.477) əsasında əmələ gəlmişdir. Qarqarlar isə ən qədim türk tayfalarından biridir. (286, s.29-30; 168, s.78-83). Qarqar tayfasının adı qerqer, herher, xarxar formalarında mənbələrdə qeyd edilir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Qulucan -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. Urartu yazısında Kuliaini formasında göstərilib (269, s.116). Qafqazın 5 verstlik xəritəsində (348, s.147) qeyd edilmişdir.

Burada ermənilərlə yanaşı 1831-ci ildə 22 nəfər, 1873 - cü ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 110-111). 1878-cı ildə azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim VI-VII əsrlərə aid Çin mənbələrində göstərilən tayfalarında olan quliqan etnonimi (286, s.38) əsasında əmələ gəlmişdir. Azərbaycan dilində q-c (qan~can) səs dəyişməsi qanunauyğun haldır. q-c səsdəyişməsi Azərbaycan toponimində də (Adərbadqan > Adirbadqan > Adərbayqan > Azərbaycan) özünü göstərmişdir (235, s. 15-20; 23, s.189).

Erm. SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Spandaryan qoyulmuşdur.

**Qumlu yol -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda yer, sahə. Rayondakı Dədəqışlaq kəndinin ərazisində yerləşir. Azərbaycan dilində «qumla örtülü yer» mənasında işlənən qumlu sözü ilə yol sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Qumludərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonundakı Toxluca kəndində dərə. Dərə qumlu olduğu üçün Qumludərə adlandırılırdı.

**Qumlu yurd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ.

**Qurbağalı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.149).

Kəndin digər adları Qurbakali, Qurbağalı ulya olmuşdur(415,s.44).

Kənddə 1873 - cü ildə 118 nəfər, 1886-cı ildə 185 nəfər, 1897-ci ildə 332 nəfər, 1904 - cü ildə 203 nəfər, 1914 - cü ildə 415 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq öz doğma yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim qurbağlı nəsil adı əsasında yaranmışdır. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Qurban kəsilən -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Qoytul kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1873 - cü ildə 163 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 325 nəfər, 1904 - cü ildə 427 nəfər, 1914 - cü ildə 470 nəfər, 1916-cı ildə 417 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 48 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.162-163). 1923-24 - cü illərdə onlar yenidən ata-baba yurdlarından qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim dini mənada işlənən qurban sözü ilə kəsilən feli sifətin birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu toponimdir.

**Qurdlubulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Kəndin digər adı «Qurdbulaq»dır (415, s.20). Rayon mərkəzindən 4 km məsafədə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tabeliyində olmuşdur.

1880-cı ilə qədər azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1879-80-cı illərdə Türkiyədən köçürülmüşdür.

Kənd Qurdlu bulağın yanında salındığı üçün Qurdlubulaq kəndi adlandırılmışdır. Toponim mənsubluq bildirən -lu şəkilçisi qəbul etmiş «yumşaq bədənli, uzunsov, ayaqsız, sürünərək hərəkət edən heyvan» mənasında işlənən qurd sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlib «Qurdlu bulaq yanında salınan kənd» mənasını ifadə edir. Mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Krasar qoyulmuşdur.

**Qurdqala -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Rayon təşkil edilənədək Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur.

Toponim türk mənşəli qurd etnoniminə (286, s.61) qala sözünün birləşməsindən əmələ gəlib «qurd tayfasına mənsub qala yanında salınan kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı XIX əsrin 60-cı illərində dəyişdirilib Petrovka qoyulmuşdur.

**Qudqulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 26 km cənub-şərqdə, Gorus-Qafan avtomobil yolunun sağ tərəfində, meşəliyin içərisində yerləşir.

Kənddə 1897-ci ildə 30 nəfər, 1904 - cü ildə 54 nəfər, 1914 - cü ildə 44 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.28-29, 144-145). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq köklü sakinləri — azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar 1922-ci ildən sonra tarixi-etnik torpaqlarına dönmüşlər. Burada 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 49 nəfər (415, s.29, 145), 1979 - cu ildə 248 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında kəndin sakinləri -azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim qurd türk etnonimi ilə (286, s.61) türk dilində «dərə, çuxur, çökəklik» mənasında işlən kulak (qulaq -İ.B.) sözü (339, s.310-311) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Qurdqulaq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğaqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 4-5 km məsafədə, Arpaçayın sol qolu olan Qurdqulaq çayının sahilində yerləşir. Kənddə 1873 - cü ildə 336 nəfər, 1886-cı ildə 379 nəfər, 1897-ci ildə 470 nəfər, 1904 - cü ildə 690 nəfər, 1914 - cü ildə 760 nəfər, 1916-cı ildə 581 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalmış, sakinləri isə deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra onlar öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 64 nəfər azərbaycanlı, 248 erməni, 1931-ci ildə 66 nəfər azərbaycanlı, 301 erməni yaşamışdır (415, s.92-93, 162-163). Göründüyü kimi, ermənilər buraya 1922-ci ildən sonra, daha doğrusu 1923-25-cı illərdə köçürülmüşdür.

Toponim qurt //qurd türk etnoniminə (286, s.61) «dərə, təpələr arasında düzənlik, təpə, yüksəklik» mənasında işlənən qulaq (kulak) sözünün (339, s.310-311) birləşməsindən əmələ gəlmişdir. «Qurd tayfasına mənsub dərə, təpə yanındakı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nıin 10.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Boloraberd (Qurd qala) qoyulmuşdur.

**Qurdqulaq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qazasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Qurd türk etnonimi əsasında əmələ gəlmişdir. Etnohidronimdir.

**Qurd dağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qursalı kəndindən şərqdə yerləşir. Oronim qurd (canavar) heyvan adı əsasında formalaşmışdır.

**Qurdlu bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda bulaq. Bulaq qurdlu (həşərat) olduğu üçün Qurdlu bulaq adlandırılmışdır. Zoohidronimdir.

**Qurd təpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Ağin (Ani) rayonunda dağ. Rayondakı Buğdaşen (Baqravan) kəndinin ərazisində yerləşir. Oronim qurd heyvan adına Azərbaycan

dilində «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Qurduqulu -** İrəvan quberniyasının Eçmədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Alagöz dağının ətəyində, rayon mərkəzindən 6-8 km cənubda yerləşir.

Toponim qurd türk etnonimi ilə (286, s.61) Qulu şəxs adı əsasında əmələ gəlib «qurd tayfasından olan Qulunun saldığı, inşa etdiyi kənd» mənasını ifadə edir.

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Armavir qoyulmuşdur.

**Qursalı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə, Pəmbək çayının yaxınlığında, Kəmərli dağının ətəyində yerləşir. Hamamlı (Spitak) rayonu yaradılana kimi (1937-ci ilə kimi) Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur.

Kənddə 1831-ci ildə 73 nəfər, 1873 - cü ildə 445 nəfər, 1886-cı ildə 545 nəfər, 1897-ci ildə 713 nəfər, 1904 - cü ildə 824 nəfər, 1914 - cü ildə 999 nəfər, 1916-cı ildə 877 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.52-53, 132-133). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri — azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 839 nəfər, 1926-cı ildə 954 nəfər, 1931-ci ildə 1033 nəfər (415, s.52-53, 132-133), 1987-ci ildə 2700 nəfər (25, s.167) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən kəndin sakinləri — azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya edilmişdir. İndi ermənilər yaşayır.

Erməni mənbələrində kəndin adının Qursalı formasında işlənməsini (415, s.132) nəzərə alıb bu qənaətə gəlirik ki, toponim kəngər türk tayfasından olan xurs etnonimi ilə (168, s.101-104) Alı şəxs adı əsasında əmələ gəlmişdir. «Xurs (qurs) tayfasından olan Alıya məxsus kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Quru Araz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında,indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 26 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində işlənən quru sözü ilə Araz çayının adı əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Yerasxaun (Quru Araz. Erməni dilində Araz Yerasx formasında işlədilir) qoyulmuşdur.

**Quruboğaz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuş, Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra -15 mart 1972-ci ildən sonra Abaran rayonunun inzibati -ərazi bölgüsündən çıxarılıb Alagöz (Araqadz) rayonunun inzibati ərazi bölgüsünə daxil edilmişdir.

Toponim türk dilində «bitkisiz, çılpaq, yaşıllıqsız» (9, s.582), «quru daşlı düzənlik» (339, s.320) mənasında işlənən quru sözü ilə Azərbaycan dilində «dərələrin, çayların baş tərəfi, çay ağzı», «iki dağ arasındakı dar keçid»mənasında işlənən boğaz sözünün (9, s.295; 253, s.99; 339, s.86-87) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Quruboğaz -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Abaran rayonunda dağ. Abaranın şimal-şərqində yerləşir.

Oronim Azərbaycan dilində «bitkisiz, çılpaq, yaşıllıqsız» mənasında işlənən quru sözü ilə (9, s.582), iki dağ arasındakı dar keçid», «keçid» mənasında işlənən boğaz sözünün (9, s.295; 253, s.99; 278, s.38) birləşməsindən əmələ gəlmişdir. «Boğaz» sözü həm də «dar yer» mənasında işlənir (198, s.149). Quruluşca mürəkkəb oronimdir.

**Qurudağ -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Oronim Azərbaycan dilində «bitkisiz, çılpaq» mənasında işlənən quru sözü ilə (9, s.582) dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu toponimdir.

**Quru dərə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qızılörən kəndində yerləşir. Oronim «susuz» mənasında işlənən quru sözü ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb oronimdir.

**Qurumsulu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km şərqdə yerləşir. Kənd Azərbaycanın Qazax rayonundakı Qaymaqlı kəndi ilə həmsərhəddir.

Toponim türk dilində «yamacda və yaylanın yastı zirvəsində daş qırıqları, qaya parçası» mənasında işlənən qurum sözü ilə (339, s.320) -lu şəkilçisi qəbul etmiş su sözünün birləşməsindən əmələ gəlmişdir. Qurum sözü qədim türk dilində «qaya parçası» mənasında işlənən qorum (qorum) formasında işlənmişdir (299, s.46). Kəndin adı ilə relyefi uyğun gəlir. Belə ki, kənd daşlı, çınqıllı, dağlı ərazidə yerləşir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Quru fontan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə yerləşir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Sonralar -1828-ci ildən sonra burada ruslar yerləşdirilmişdir. 1897-ci ildə burada 162 nəfər rus, 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuşdur.

Toponim quru və fontan sözlərinin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Quruçay -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 24 km şimalda, Tona (Debed) çayının sağ sahilində, Ləmbəli kəndinin yaxınlığında yerləşir.

Toponim Azərbaycan dilində «susuz, suya çəkilmiş» mənasında işlənən quru sözü ilə çay sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Sonralar kəndin adı dəyişdirilərək Ptğavan qoyulmuşdur.

**Quşdoğan çay -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican şəhəri ərazisində çay.

**Quşçu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Quşçu məzrəsi (143, s.174), Qafqazın 5 verstlik xəritəsində Quşi (348, s.152) formasında qeyd edilmişdir.

1931-ci ildən sonra mənbələrdə kəndin adına rast gəlinmir. 1940-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Hunların quş tayfa adına (267, s.397; 245, s.38-39; 148, s.18) -çu şəkilçisinin qoşulması yolu ilə yaranmışdır. Y.Hüseynzadə quşçu tayfasını mənşəcə qıpçaqlardan olduğunu qeyd edir (292, s.91-95). A.Qurbanovun fikrincə, Kuşçu etnonimi Azərbaycana hazır vəziyyətdə gətirilmişdir, başqa sözlə «çu» şəkilçisi «kuş» (quş) komponentinə Azərbaycandan kənarda əlavə edilmişdir (182, s.313).

Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Quşçu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın sol sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Quşçu xarabası kimi (143, s.60), Qafqazın 5 verstlik xəritəsində Quşi formasında (348, s.152) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 631 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91).

Azərbaycanlılar kütləvi surətdə 1905-1906-cı illərdə deportasiya olunmuşdur.

Toponim qədim quşçu türk etnonimi (245, s.39) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Keçud qoyulmuşdur.

**Quşçu körpüsü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda körpü. Rayonun Quşçu kəndindədir. 1286-cı ildə salınmışdır.

**Quşçu dərəsi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-qərbdə, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Quşçu (143, s.62), Qafqazın 5 verstlik xəritəsində Quşi dərəsi (348, s.152) formasında qeyd edilmişdir. Erməni mənbələrində, eləcə də XX əsrin rəsmi sənədlərində kəndin adı Pəmbək göstərilir (415, s.28, 419, s.87). Kəndin bir adı da Pəmbəkli olmuşdur (415, s.28). Kəndin tarixi qədimdir. Buradakı albanlara məxsus dini məbədin (kilsənin) və oğuzların qəbiristanlıqlarının xarabalığı müasir dövrümüzə kimi gəlib çatmışdır.

Kənddə 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 237 nəfər, 1897-ci ildə 283 nəfər, 1908-ci ildə 352 nəfər, 1914 - cü ildə 392 nəfər, 1916-cı ildə 331 nəfər, 1919 - cu ildə 398 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin yazında kənd ermənilərin təcavüzünə məruz qalaraq

sakinləri -azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olmuş azərbaycanlılar tarix torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 390 nəfər, 1926-cı ildə 349 nəfər, 1931-ci ildə 512 nəfər (415, s.27, 113), 1987-ci ildə 2000 nəfər (85, s.292-293) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında, dekabr ayının əvvəllərində kəndin əhalisi Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmiş və kəndə ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim quşçu türk etnonimi ilə (245, s.38-39; 292, s.91-95; 182, s.313) «iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun dərin çuxur» mənasında işlənən dərə sözünün (10, s.74) birləşməsindən əmələ gəlmişdir. «Dərədə quşçu tayfasının yaşadığı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Quşçulu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Oxçu çayının sağ sahilində, Xustup dağının cənub-şərq ətəyində yerləşir.

Kəddə 1831-ci ildə 38 nəfər, 1873 - cü ildə 149 nəfər, 1886-cı ildə 221 nəfər, 1897-ci ildə 144 nəfər, 1904 - cü ildə 400 nəfər, 1914 - cü ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s.58-59,136-137). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 109 nəfər, 1926-cı ildə 126 nəfər, 1931-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s.58-59, 136-137). 1950-ci ildə kənd ləğv edilmişdir.

Toponim qədim türk tayfası olan quşçu etnonimi (245, s.39) əsasında əmələ gəlmişdir. -lu mənsubluq bildirən şəkilçidir. «Quşçu tayfasına mənsub kənd» deməkdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Quşçaqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. 50-ci illərdə ləğv edilmişdir.

Toponimin birinci tərəfi quşca, quşçu etnoniminin dəyişdirilmiş formasıdır. Onda bu qənaətə gəlirik ki, toponim quşçu türk etnonimi ilə (245, s.38-39; 182, s.313) Azərbaycan dilində «dağ» mənasında işlənən qaya sözünün əsasında əmələ gəlmişdir. Quşçu etnonimi əsasında Hunların quş tayfasının adı dayanır (267, s.397; 245, s.38-39).

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

# D

**Dabbaqlar -** İrəvan şəhərində məhəllə. Dabbaqçılıqla məşğul olan nəsil adı əsasında əmələ gələn patronomik toponimdir. Quruluşca sadə toponimdir.

Sabirabad rayonundakı Balvan - Dabbaqlar toponimi də (indi Balvarı adlanır) dabbaqlar nəsil adı əsasında yaranmışdır (166, s.85).

**Daylaxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayon mərkəzindən 7 km şərqdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Daylaqan (143, s.59), Qafqazın 5 verstlik xəritəsinə Daylaxlı kimi (348, s.73) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 87 nəfər, 1886-cı ildə 184 nəfər, 1897-ci ildə 60 nəfər, 1904 - cü ildə 218 nəfər, 1914 - cü ildə 240 nəfər, 1916-cı ildə 209 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. Yalnız 1926-cı ildə burada 6 nəfər azərbaycanlı olmuş (415, s.88-89), onlar da 1928-29 - cu illərdə sıxışdırılıb kənddən çıxarılmışdır.

Toponim daylaxlı tayfa adı əsasında əmələ gəlmişdir. Fikrimizcə, daylaxlı etnoniminin əsasında qədim dey etnonimi (124, s.128) dayanır. Dey>day tayfasım skiflərin bir qolu da hesab edirlər (87, s.161). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Damagirməz -** İrəvan quberniyasının İrəvan qəzasında indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 12-14 km cənub-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.74) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 254 nəfər, 1886-cı ildə 353 nəfər, 1897-ci ildə 380 nəfər, 1904 - cü ildə 387 nəfər, 1914 - cü ildə 474 nəfər, 1916-cı ildə 549 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ilin fevral ayında kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq öz yurdlarından qovulmuş (309, s.216) və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

**Damqaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda əkin sahəsi. Rayondakı Toxluca kəndinin ərazisində yerləşir. Qədimdə bura yaşayış yeri olmuşdur.

Toponim Azərbaycan dilində «ev, dəyə, qazma» mənasında işlənən dam sözü ilə (339, s.170) «daş» mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlmişdir. «Daşdan tikilən dəyə, qazma» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Damdıra qaya -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda dağ. Azərbaycan dialektində «dəf, nağara» mənasında işlənən damdıra sözü ilə (8, s.170) qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Həmin qayanı daşla çalanda nağara kimi səs çıxardığı üçün ərazidəki dağ Damdıra qaya adlanmışdır. Oronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Damcılı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə, Abaran çayının sağ sahilində, Alagöz dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.110) qeyd edilmişdir. XIX əsr rus mənbələrində kəndin adı Tamceli//Damcalu formasında qeyd edilir (Сборник сведений о Кавказе,т. V,Тифлис,1879, № 329). Ermənilər bu kəndə İrandan 1828-ci ildən sonra köçürülmüşdür (386, s.587-590).

Toponim «az sulu bulaq», «quyu tipli kiçik bir mənbənin müəyyən vaxtda verdiyi su» mənasında işlənən damcı sözünə (339, s.171, 543) -lı şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı da dəyişdirilib Mravyan qoyulmuşdur.

**Dana dağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Barana (Noemberyan) rayonunda dağ. Oronim türk mənşəli tana (dana -İ.B.) etnonimi (286, s.65) əsasında əmələ gəlmişdir. Etnooronimdir.

**Dana damı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Toxluca kəndinin şərqində yerləşir. Oronim heyvan adı bildirən dana sözü ilə «tövlə», «mal-qoyun salınan yer» mənasında işlənən dam sözünün birləşməsindən əmələ gəlmişdir. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Dana damı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Saral kəndində yerləşir. Toponim «bir yaşdan iki yaşa qədər olan inək balası» mənasında işlənən dana sözü ilə (10, s.31) III şəxsin təkinin şəkilçisinin qəbul edən,

Azərbaycan dilində «heyvanları saxlamaq üçün qapalı yer, bina, tövlə» mənasında işlənən dam sözünün (10, s.26; 339, s. 170-171; 278, s.58) birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb oronimdir.

**Danagirməz -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-şərqdə, Alagöz dağının ətəyində yerləşir. Kəndin digər adı Damagirməz, Danadamagirməz olmuşdur (415, s.4). Qafqazın 5 verstlik xəritəsində (348, s.74) qeyd edilmişdir. Kəndə ermənilər Türkiyədən köçürülmüşdür (381, s.587-590). Kənddə ermənilərlə yanaşı 1905-ci ildə 387 nəfər, 1914 - cü ildə 474 nəfər azərbaycanlı yaşamışdır (415, s.96-97). Kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim dana heyvan adı ilə felin qeyriqəti gələcək zamanında işlənən girməz sözünün birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı dəyişdiriləcək Ovit, 21.X.1967-cı il fərmanı ilə yenidən adı dəyişdirilib Niqavan qoyulmuşdur.

**Dardərə -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda dərə. Rayondakı Aşağı Kilsə ilə Hallavar kəndi arasında yerləşir. Oronim Azərbaycan dilində «ensiz» mənasında işlənən dar sözü (10, s.33) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Darayzəmi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda oronim. Rayondakı Nüvədi kəndinin ərazisində yerləşir.

Oronim qədim türk dilində «taxıl, dan, əkinçilik» mənasında işlənən tarağ (tarığ) sözü ilə (299, s.536-537) fars dilində «əkin yeri, tarla» mənasında işlənən zəmi sözünün birləşməsindən əmələ gəlmişdir və «taxıl tarlası, taxiləkilən yer» mənasını ifadə edir. Fitooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Darbaz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə, Pəmbək çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.75) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «ensiz» mənasında işlənən dar sözü ilə türk dilində «dağ çökəkliyi» mənasında işlənən baz sözünün (359, IV(2), s.1541) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Darlıq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində yer, körpü.

**Daharlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda yaylaq. Qafqazın 5 verstlik xəritəsində (348, s.73) qeyd edilmişdir. Toponim qaraqoyunlu türk tayfasından olan duharlı etnonimi (238, s.158) əsasında əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca sadə oronimdir.

**Daharlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.73) qeyd edilmişdir. Toponim qoraqoyunlu türk tayfasının bir qolu olan duharlı etnonimi (238, s.158) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Getk qoyulmuşdur.

**Daşağan çay -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda çay. Rayonun Sarıyaqub kəndinin ərazisindən axır. Hidronim daş (daşmaq) felinə - ağan feldən sifət düzəldən şəkilçisinin qoşulması əsasında yaranmışdır və çay daim daşdığı üçün Daşağan çay adlandırılıb. Mürəkkəb quruluşlu hidronimdir.

**Daşaltı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayon mərkəzindən 6-7 km cənubda, Arpaçayın sahilində yerləşirdi.

Kənddə 1873 - cü ildə 32 nəfər, 1886-cı ildə 37 nəfər, 1897-ci ildə 73 nəfər, 1904 - cü ildə 28 nəfər, 1914 - cü ildə 30 nəfər, 1916-cı ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kəndə ermənilər hücum edərək azərbaycanlıları qırğınlarla qovmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 15 nəfər olmuşdur (415, s.159). 1924-25-cı illərdə azərbaycanlılar yenidən təcavüzə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1926-cı ildə kənd ləğv edilmişdir.

İndi xaraba kənddir. Toponim «dağ, qaya» mənasında işlənən daş sözü ilə mənsubiyyət şəkilçisi qəbul etmiş alt sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşaltı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasınında, indiki Ermənistanın Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayondakı Azadeğ kəndindən 2 km cənubda yerləşirdi (427, s.41). İndi yalnız xarabalıqları qalır.

**Daşbaş -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 23 km şimal-qərbdə, Kığı çayının sol sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 53 nəfər, 1922-ci ildə 42 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1950-ci ildə Kığı kəndi ilə birləşdirilmişdir. 1988-ci ilin noyabrında sakinləri ermənilərin təcavüzünə məruz qalaraq Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözü ilə «yuxarı», «zirvə», «yüksəklik» mənasında işlənən baş sözündən əmələ gəlmişdir. «Baş» sözü toponimlərin tərkibində «dağın zirvəsi» mənasında işlənir (337, s.238). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşbulaq -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda çay. Qaçağan kəndinin ərazisindən axır.

**Daşqala -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «qaya, dağ» mənasında işlənən daş sözü ilə (278, s.59-60; 339, s.173) «möhkəm müdafiə tikilisi, istehkam» mənasında işlənən qala sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.ll.1947-ci il fərmanı ilə adı dəyişdirilib Karaberd (Daşqala) qoyulmuşdur.

**Daşkeyti -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd.

1831-ci ildə kənddə 124 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.110). 1850-60-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və yaşayış məntəqəsi kimi kənd ləğv edilmişdir.

Toponim «dağ, qaya» mənasında işlənən daş sözü ilə türk dilində «axır, arxa hissə» mənasında işlənən ket sözü (299, s.303) əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşkənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənub-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.120), Qafqazın 5 verstlik xəritəsində (348, s.76) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 357 nəfər, 1873 - cü ildə 560 nəfər, 1886-cı ildə 816 nəfər, 1897-ci ildə 1004 nəfər, 1908-ci ildə 816 nəfər, 1914 - cü ildə 1389 nəfər, 1916-cı ildə 1054 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1919 - cu ilin yanvarın 20-23-də azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş (309, s.249), kəndə ermənilər yerləşdirilmişdir. 1919 -cu ilin yanvarında burada 80 nəfər erməni yaşamışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Azərbaycanlılar kəndə yerləşdirilmiş 80 nəfər erməninin çıxarılmasına nail olmuşlar. 1922-ci ildə burada 882 nəfər, 1926-cı ildə 984 nəfər, 1931-ci ildə 1230 nəfər (415,s. 26-27, 110-111), 1987-ci ildə 2100 nəfər (85, s.284-285) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi burada yalnız ermənilər yaşayır.

Kənddə VI-VII əsrlərə aid oğuz qəbiristanlığı, IX-XII əsrlərə aid alban kilsəsinin xarabalığı vardır. Bu da onu göstərir ki, burada elə tarixən türklər yaşamışdır.

Toponim qədim türk dilində «xarici, kənar» (299, s.539), «uzaq» (359, lll (2), s.1642) mənasında işlənən daş və kənd sözlərinin birləşməsindən əmələ gəlib «uzaqda, kənarda yerləşən kənd» deməkdir. Relyef əsasında yaranan quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdrilib Hayrk (ata) qoyulmuşdur.

**Daşkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd.

Kənddə 1831-ci ildə 62 nəfər azərbaycanlı yaşamışdır (415,s.158). 1840-cı illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «qaya, dağ» mənasında işlənən daş sözü ilə, türk dilində «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün (299, s.290) birləşməsindən əmələ gəlmişdir. «Dağlıq, qayalıq yerdə olan yaşayış yeri, kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşxırman -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd.

Kənddə 1897-ci ildə 23 nəfər, 1904 - cü ildə 82 nəfər, 1914 - cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «kənar, uzaq» mənasında (299, s.539) işlənən daş sözü ilə türk dilində «qala, şəhər» mənasında işlənən xırman (əsli kerman//kermen) sözündən (339, s.271) əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca mürəkkəb toppnimdir.

**Daşlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə, Vedi çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.100), Qafqazın 5 verstlik xəritəsində (348, s.239) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 84 nəfər, 1873 - cü ildə 147 nəfər, 1886-cı ildə 135 nəfər, 1897-ci ildə 184 nəfər, 1904 - cü ildə 238 nəfər, 1914-cü ildə 261 nəfər, 1916-cı ildə 171 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılar qovulmuş və xaricdən İran və Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilməyə başlamışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş sağ qalan azərbaycanlılar öz doğma ocaqlarına dönə bilmişlər. Kənddə ermənilərlə yanaşı 1922-ci ildə 93 nəfər, 1926-cı ildə 95 nəfər, 1931-ci ildə 117 nəfər azərbaycanlı yaşamışdır (415, s.85, 153). 1947-1948-ci illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində işlənən daş sözünə çoxluq mənası ifadə edən -lı şəkilçisinin qoşulması əsasında yaranıb. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Daştakar («daşt» çöl, «kar» daş deməkdir) qoyulub.

**Daşnov -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Kənddə 1931-ci ildə 72 nəfər azərbaycanlı yaşamışdır (415, s.155). 1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində olmuşdur. 40-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «bərk cisim, suxur» mənasında işlənən daş sözü ilə «su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş su yolu, arx, kanal» mənasında işlənən nov sözünün (11, s.114; 278, s.422, 339, 395) birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşnov -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kəndin digər adı Daşnav olmuşdur (415, s.56). Rayon mərkəzindən 18 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.76).

Kənddə 1831-ci ildə 18 nəfər, 1873 - cü ildə 30 nəfər, 1886-cı ildə 31 nəfər, 1897-ci ildə 30 nəfər, 1904 - cü ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim Azərbaycan dilində işlənən daş sözü ilə fars dilində «nov, kanal, arx» mənasında işlənən nov sözünün (339, s.395; 104, s.455) birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Daşyataq -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.89). 1930 - cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim daş və Azərbaycan dilində «bir şeyin çox olduğu yer», «mədən» mənasında işlənən yataq (10, s.510) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dəvəqılıcı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd kəndinin ərazisində yerləşir. Oronim «dağ aşırımı, hündür dağ keçidi» mənasında işlənən dəvə (dava//daba) sözü ilə (253, s.100-101; 339, s. 168-169) «dikdir, yoxuşun başı»

mənasında işlənən qılıc sözünün (253, s.16; 278, s.53) birləşməsindən əmələ gəlmişdir. II növ təyini söz birləşməsi formasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Dəvədaşı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda yaylaq. Rayondakı Hallavar kəndində yerləşir. Toponim «dağ aşırımı, hündür dağ keçidi» mənasında işlənən dəvə (dava//daba) sözü ilə (253, s.100-101; 339, s.168-169) Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözü əsasında formalaşmışdır. II növ təyini söz birləşməsi konstruksiyasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Dəvə yatağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qızılörən kəndində yerləşir. Toponim dəvə heyvan adı ilə Azərbaycan dilində «payızda, qışda heyvan salınan yer» mənasında işlənən yataq sözünün birləşməsindən əmələ gəlmişdir. II növ təyini söz birləşməsi formasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Dəvəli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə, Vedibasar çayından axan arxın yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.51), Qafqazın 5 verstlik xəritəsində (348, s.72) qeyd edilmişdir.

1828-ci ilədək burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqayiləsinə əsasən 1828-ci illərdə İranın Maku və Salmas mahallarının Aslanik, Dirişik və Zevaqyuğ kəndlərindən köçürülən ermənilər Dəvəlidə yerləşdirilmişdir (386, s.555-558).

Kənddə 1831-ci ildə 28 nəfər azərbaycanlı, 633 erməni, 1873 - cü ildə 207 nəfər azərbaycanlı, 1760 erməni, 1886-cı ildə 263 nəfər azərbaycanlı, 1975 erməni, 1897-ci ildə 686 nəfər azərbaycanlı, 2650 erməni yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla tarixi-etnik torpaqlarından qovulmuşdur.

1922-ci ildə kənddə ermənilərlə yanaşı 3 nəfər azərbaycanlı yaşamışdır (415,s.154-155). Sonralar azərbaycanlılar kənddən çıxarılmış və kənddə yalnız ermənilər qalmışdır. İndi burada təkcə ermənilər yaşayır.

Toponim qacarların bir boyu olan dəvəli etnonimi (394, s.44-45) əsasında əmələ gəlmiş etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ararat qoyulmuşdur.

**Dəvəgözü -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda çay. Rayonun ərazisindəki Milli dərədən axır. Hidronim türk dillərində «dağ aşırımı, hündür dağ keçidi» mənasında işlənən dəvə (dava//daba) sözü ilə (253, s.100-101; 339, 168-169) Azərbaycan dilində «bulağın başladığı yer, suyun çıxdığı yer, qaynaq, mənbə» mənasında işlənən göz sözünün (11, s.174; 339, s.142) birləşməsindən əmələ gəlmişdir. II növ təyini söz birləşməsi konstruksiyası əsasında əmələ gələn mürəkkəb quruluşlu hidronimdir.

**Dəvəxaraba -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd. Kəndin adı ilk dəfə «Sovetakan Hayastan» (8.I.1939) qəzetində çəkilmişdir. 1873 - cü ildə 161 nəfər, 1886-cı ildə 305 nəfər, 1897-ci ildə 356 nəfər, 1914 - cü ildə 475 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə kürdlər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kürdlərlə yanaşı 1931-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.125). Kənd 1967-cı ildə ləğv edilmişdir.

Toponim «dağ aşırımı, hündür dağ keçidi», «təpə», mənasında işlənən dəvə (dava//daba) sözü ilə (253, s. 100-101; 339, s. 168-169), «dağıdılmış» mənasında işlənən xaraba sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Avad qoyulmuşdur.

**Dədəqışlaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-qərbdə Misxana (Mərmərik) çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.73) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 23 nəfər, 1873 - cü ildə 196 nəfər, 1886-cı ildə 278 nəfər, 1897-ci ildə 341 nəfər, 1908-ci ildə 428 nəfər, 1914 - cü ildə 541 nəfər, 1916-cı ildə 442 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16-17, 100-101). 1918-ci ildə azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar öz doğma evlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 186 nəfər, 1926-cı ildə 237 nəfər, 1931-ci 305 nəfər (415, s.17, 101), 1939 - cu ildə 401 nəfər, 1959 - cu ildə 455 nəfər, 1970-ci ildə 814 nəfər 1979 - cu ildə 925 nəfər (427, s.124) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının

axırlarında kəndin sakinləri azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla və qırğınlarla qovulmuşlar. İndi yalnız ermənilər yaşayır.

Toponim təkə türk tayfasının bir tirəsi olan dədə etnoniminə (271, s.65) qışlaq sözünün birləşməsindən əmələ gəlib «dədə tayfasına məxsus qışlaq» deməkdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 4.V.1939 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Axundov qoyulmuşdur.

**Dədəli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə, Alagöz dağının qərb ətəyində yerləşir.

Ermənilər buraya 1828-ci ildən sonra Türkiyədən köçürülüb (386, s.575-578).

Toponim təkə türk tayfasının bir tirəsi olan dədə etnoniminə (271, s.65) mənsubluq bildirən -li şəkilçisinin qoşulması əsasında əmələ gəlib. Cavanşir tayfasının bir qolu da dədəli adlanırdı (119, s.439). Bu tayfa Arasbar sancağında, Xan arxı kənarında qışlayıb, trəvan əyalətinin sərhəddində yaylayırdı (119, s.439). «Dədə tayfasının yaşadığı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Yexnik qoyulmuşdur.

**Dədəli -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda körpü. Körpü Əyar kəndində Arpa çayın üstündən salınmışdır. Körpü XIII əsrdə tikilmişdir. Axırıncı dəfə 1957-cı ildə təmir edilmişdir (427, s.20). «Dədə aşıq kimi tanınan, vardövləti çox olan Əli adlı bir azərbaycanlı öz pulu ilə bu körpünü saldırmışdır» (211, s.225). Körpünün adı dəyişdirilib Aqarakdzori kamurc (Aqarakdzor körpüsü) qoyulmuşdur.

**Dəyirmanlar -** İrəvan şəhərində məhəllə. Burada çoxlu dəyirman olduğu üçün məhəllə Dəyirmanlar adlandırılmışdır.

**Dəyirmançay -** Qars quberniyasının Qars qəzasında, indi Amasiya rayonunda çay. Axuryan çayının sol qolunun adı. Uzunluğu 10 km-dir.

**Dəymədağlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Rayon mərkəzindən 24 km məsafədə yerləşir.

Toponim kəbirli türk tayfasına mənsub dəymədağıldılar etnonimi (286, s.71) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

1920-ci ildə kəndin adı dəyişdirilib Şrvenants qoyulmuşdur.

**Dəymədağıl dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində dağ. Oronim kəbirli türk tayfasından olan dəymədağıl etnonimi (286, s.71) ilə bağlı yaranmışdır. Etnooronimdir.

**Dəliqardaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənubda, Kəvər çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.55), Qafqazın 5 verstlik xəritəsində (348, s.74) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-1830 - cu illərdə Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir (386, s.595-598). 1897-ci ildə kənddə ermənilərlə yanaşı 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.70-71). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə kənddə yaşayan azərbaycanlılar tamamilə qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır. Toponim qədim türk tayfalarından biri olan tele (>dəli) etnoniminə (180, s.21,25) qardaş sözünün artırılması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Saruxan qoyulmuşdur.

**Dəlidağ -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Oronim tele (>dəli) türk etnonimini (180, s.25) əks etdirir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Dəlidağ -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasnda, indi Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd (Qızıl Şəfəq) kəndinin şərqindədir. Oronim hunların tele (dəli) etnonimini (180, s.21,25) əks etdirir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Dəlikdaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə, Dəlikdaş çayının yanında, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.56), Qafqazın 5 verstlik xəritəsində (348, s.74) qeyd edilmişdir.

Toponim «dərin, dar çuxur» (10, s.62,53), «mağara» (278, s.61) mənalarında işlənən dəlik sözü ilə Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Tsaxkar (Dəlikdaş) qoyulmuşdur.

**Dəlikdaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda dağ. Rayondakı Dəlikdaş kəndinin ərazisində yerləşir. Oronim «dərin dar çuxur» (10, s.53), «mağara» (278, s.61) mənasında işlənən dəlik sözü ilə «dağ» mənasında işlənən daş sözü əsasında formalaşmışdır. Quruluşca mürəkkəb oronimdir.

**Dəlikdaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay. Rayondakı Dilikdaş kəndinin ərazisindən axır.

**Dəlikdaş -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində «dərin dar çuxur» (10, s.53,62), «mağara» (278, s.61) mənasında işlənən dəlik sözü ilə «qaya, dağ» mənasında işlənən daş sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Dəllər -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-qərbdə Zəngi çayının qolu olan Dəllər çayının sahilində, Zincirli dağının ətəyində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.78), Qafqazın 5 verstlik xəritəsində (348, s.74) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 181 nəfər, 1873 - cü ildə 227 nəfər, 1886-cı ildə 267 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildə 385 nəfər, 1914 - cü ildə 597 nəfər, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1918-ci ildə azərbaycanlılar qırğınlarla öz doğma kəndlərindən qovulmuş və kəndə ermənilər yerləşdirilmişdir. Sonralar kənd xarabalığa çevrilmişdir.

Toponim Hun tayfa birliyinə daxil olan tele (dəli) türk etnonimi (180, s.21) əsasında formalaşmışdır. -lər cəmlik bildirən şəkilçidir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Dəllər -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda çay. Rayondakı Dəllər kəndinin ərazisindən axır. Tele (dəli) qədim türk etnonimini (180, s.21,25) əks etdirir. Etnohidronimdir.

**Dəlləkli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Rayonun Tsav kəndindən 2 km qərbdə yerləşirdi. 1907-ci ildə 336 nəfər azərbaycanlı yaşamışdır. 1907-ci ildən sonra ləğv edilmişdir.

Dəlləkli nəsil adı (286, s.74) əsasında yaranmışdır. Sadə quruluşlu patronim toponimdir.

**Dəlləkli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir.

Kənddə 1873 - cü ildə 201 nəfər, 1886-cı ildə 317 nəfər, 1897-ci ildə 374 nəfər, 1904 - cü ildə 396 nəfər, 1914 - cü ildə 445 nəfər, 1916-cı ildə 466 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərdən başqa 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 33 nəfər, 1931-ci ildə 40 nəfər azərbaycanlı yaşamışdır (45, s.44-45, 124-125). SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra 1947-1953 - cü illərdə azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Toponim mərzili tayfasının bir qolunu təşkil edən dəlləkli nəsil adı əsasında (286, s.74) əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 21.VI.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zovaşen (Gölkənd) qoyulmuşdur.

**Dəlmə -** İrəvan şəhərinin məhəlləsi. Şəhərin şimal-qərb tərəfində yerləşirdi.

**Dəlmə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda əkin sahəsi. Rayondakı Toxluca və Ağbulaq kəndlərinin sərhəddində yerləşir.

**Dəliktəpə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Novlar kəndinin yanında yerləşir. Oronim Azərbaycan dilində «mağara» (278, s.61), «dərin dar çuxur» (10, s.53,62) mənasında işlənən dəlik sözü ilə «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Dəmirbulaq -** İrəvan şəhərində məhəllə. XIX əsrin əvvəllərində burada 322 ev olmuşdur. Məhəllə Dəmirbulaq adlı bulağın yanında salındığı üçün bu adla adlanmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dəmirbulaq -** İrəvan şəhərində bulaq. Bulağın suyu «paslı dəmir» rəngində olduğu üçün Dəmirbulaq adlanmışdır. Mürəkkəb quruluşlu hidronimdir.

**Dəmirli -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim dəmirli nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Dəmirçilər -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 9 km şimal-qərbdə yerləşir. 1937-ci ilə qədər Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur.

Erməni mənbələrində Demirçilar kimi qeyd edilir (415, s.78).

Kənddə 1897-ci ildə 89 nəfər, 1908-ci ildə 420 nəfər, 1914 - cü ildə 105 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1916-18-ci illərdə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 89 nəfər, 1926-cı ildə 128 nəfər, 1931-ci ildə 144 nəfər azərbaycanlı yaşamışdır (415, s.79-149). Kənd 1950-ci ilin axırlarında Evli heyvandarlıq sovxozuna birləşdirilmişdir. 1988-ci ildə azərbaycanlılar deportasiya olunmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim şahsevən türk tayfasının bir qolunu təşkil edən dəmirçilər etnonimi (ASE, III c. s.466; 245, s.46) əsasında əmələ gəlmişdir.

XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi dəmirçiləri Cingiz xanın nəsli ilə bağlayır. «Azərbaycanın coğrafi adlar» kitabında dəmirçi tayfasının şahsevən qəbiləsinə mənsub nəsil olduğu göstərilir (254, s.40). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Qoçavan qoyulmuşdur.

**Dəmirçilər -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Buzxana dağının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.78) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 82 nəfər, 1886-cı ildə 68 nəfər, 1897-ci ildə 90 nəfər, 1904 - cü ildə 96 nəfər, 1914 - cü ildə 96 nəfər, 1916-cı ildə 133 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kəndə ermənilər hücum edərək sakinlərini qırğınlarla qovmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim dəmirçilər türk tayfasının adı (ASE, III c., s.466) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Dəmirçi Cəfərli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Erməni mənbələrində kəndin başqa adlarının Günnüd, Günnüd Cəfərli, Günnüd Kalavan olduğu da göstərilir (415, s.84). Çanaxçı kəndinin yaxınlığında Boz Hunnu dağının ətəyində yerləşirdi.

Qafqazın 5 verstlik xəritəsində Günnüt Cəfərli kimi qeyd edilmişdir (348, s.71). Kənddə 1873 - cü ildə 178 nəfər, 1886-cı ildə 209 nəfər, 1897-ci ildə 333 nəfər, 1904 - cü ildə 406 nəfər, 1914 - cü ildə 409 nəfər, 1916-cı ildə 383 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155), 1918-19 - cu illərdə ermənilər kəndin sakinlərini vəhşicəsinə qırıb dağıtmışlar. Sağ qalanlar öz kəndlərini tərk etməyə məcbur olmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri bu doğma ocaqlarına dönə bilmişdir. 1926-cı ildə burada 25 nəfər azərbaycanlı yaşamışdır (415, 84-85). 1929-1930 - cu illərdə kənddə yaşayan azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir.

Toponim türk tayfasından olan dəmirçilər və Cəfərli etnonimləri (386, s.535) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəbağ -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində Dərəkənd (dağıdılmış kənd) adı ilə qeyd edilmişdir (348, s.77).

1930 - cu ildə ləğv olunmuşdur. İndi ölü kənddir. Toponim Azərbaycan dilində işlənən dərə və bağ sözlərindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Dərbənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilmişdir (143,s.134).

Toponim fars dilində «keçid, boğaz, sədd, sərhəd bölgələri, dağlar arasından çətinliklə keçilən yer» mənasında işlənən dər və bənd sözlərindən (397, s.162) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Karmrakar qoyulmuşdur.

**Dərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 22 km şimal-şərqdə yerləşir

Həmin ərazi vaxtilə Səmədağaya mənsub olmuş və burada salınan kənd «Səmədağa Dərəsi» adlandırılmışdır. Sovet hakimiyyəti dövründə kəndin adındakı birinci komponent «Səmədağa» ixtisar edilmiş və kənd Dərə kəndi kimi rəsmi sənədlərdə sabitləşmişdir.

1918-20-cı illər hadisəsi ilə bağlı Yeni Bayazid qəzasına daxil olan Kəvər bölgəsindəki (indiki Kamo rayonu) Ağzıbir, Hacı Muxan, Ağqala, Əyrivəng kəndlərinin sakinləri azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Qaçqın azərbaycanlılar Göyçə gölünü keçərək Basarkeçər rayonundakı Dərə kəndinə sığınmışlar. 1988-ci ildə Ermənistan dövləti tərəfindən azərbaycanlılar qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «iki dağ arasında, eləcə də düzənlikdə uzun dərin çuxur» mənasında işlənən dərə sözü (10, s.74) əsasında yaranmışdır. Kənd dərədə yerləşdiyi üçün Dərə kəndi adlandırılmışdır. Orotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə Kəndin adı dəyişdirilib Daranak qoyulmuşdur.

**Dərəbağlar -** İrəvan şəhərində məhəllə. Zəngi çayının hər iki tərəfində, dərədə yerləşirdi. 1950-60-cı illərdə İrəvan şəhərinin genişləndirilməsi ilə bağlı ləğv edilmişdir.

**Dərəbas -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 29 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Dərəbaz formasında qeyd edilmişdir (348, s.74). Kəndin adı 844 - cü ildən çəkilir (85,s.185).

Ermənilər buraya 1828-29-cu illərdə Türkiyədən köçürülləbək yerləşdirilmişdir.

Ermənilərlə yanaşı kənddə 1831-ci ildə 164 nəfər, 1873 - cü ildə 515 nəfər, 1886-cı ildə 553 nəfər, 1897-ci ildə 730 nəfər, 1908-ci ildə 440 nəfər azərbaycanlı yaşamışdır (415, s.76: 77, 146-147). 1916-18-ci illərdə azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından qovularaq kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «iki dağ arasında çuxur» mənası bildirən dərə sözünə (10, s.74) türk dillərində «dağın başı», «zirvə» mənasında işlənən bas sözünün (359,IV(2),s.152) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə adı dəyişdirilib Darbas (Darvaza) qoyulmuşdur.

**Dərəyurd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda qışlaq, yurd. Rayondakı Toxluca kəndinin ərazisində yerləşir.

Toponim «iki dağ və ya təpə arasında çuxur», «çayın axdığı yer, çayyatağı» mənasında işlənən dərə sözü ilə (10, s.74; 339, s.171) «yaşayış yeri, məskən» mənasında işlənən yurd sözünün (10, s.568) birləşməsindən əmələ gəlib «dərədə yerləşən yaşayış yeri, yurd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Bazarçay çayının sol sahilində, Ağudi kəndindən 2 km qərbdə yerləşirdi.

Kənddə 1831-ci ildə 164 nəfər, 1873 - cü ildə 515 nəfər, 1886-cı ildə 553 nəfər, 1897-ci ildə 200 nəfər, 1908-ci ildə 120 nəfər, 1914 - cü ildə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə kəndin sakinləri ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 101 nəfər, 1926-cı ildə 91 nəfər, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1940-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «iki dağ arasında dərin çuxur» mənasında işlənən dərə sözü ilə və kənd sözlərindən əmələ gəlib, «dərədə yerləşən, salınan kənd» deməkdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Dərəkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək bölgəsində, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 31 km məsafədə, Çaxçaxlı çayının sahilində, Çubuxlu dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilmişdir (143,s. 135).

Toponim «iki dağ və ya təpə arasında, düzənlikdə dərin çuxur» mənasında işlənən dərə sözü ilə (278, s.62; 10, s.74) kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Kənd dərədə yerləşdiyi üçün «Dərəkənd» adlandırılmışdır. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Dzoragyuğ (Dərəkənd) adlandırılmışdır.

**Dərəkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 20 km cənub-qərbdə, Gümrü-Sərdərabad (Oktemberyan) yolunun üstündə yerləşir. Ermənilər buraya 1828-29 - cu illərdə Türkiyənin Alaşkert, Bulanis və Muş vilayətlərindən köçürülmüşdür (427, s.535). İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «iki dağ arasında dərin çuxur» mənasında işlənən dərə sözü ilə kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3.II.1947-ci il fərmanı ilə adı dəyişdirilib Baqravan qoyulmuşdur.

**Dərəkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonun ərazisində kənd olmuşdur. Relyef bildirən dərə sözü ilə kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Dağ çayı Arpaçayın yanında, Kəlləqaya dağının ətəyində yerləşir. Kəndin digər adı Dərələr, Daraxkənd olmuşdur (415, s.88). Kənddə 1873 - cü ildə 59 nəfər, 1886-cı ildə 62 nəfər, 1897-ci ildə 77 nəfər, 1904 - cü ildə 105 nəfər, 1914 - cü ildə 105 nəfər, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərininə dönə bilmişdir. Burada 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 27 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,s.89,159). 1928-29-cu illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə dərin çuxur» mənasında işlənən dərə sözü ilə (278, s.62; 10, s.74; 339, s.171) türk dilində «yaşayış yeri» mənasında işlənən kənd sözünün (339, s.270-271) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərələyəz -** Naxçıvan xanlığında, indiki Ermənistanda mahal. İndiki Keşişkənd (Yeğeqnadzor) və Paşalı (Əzizbəyov, Vayk) rayonlarını əhatə edirdi. 1920-ci ilə qədər Dərələyəz mahalı Azərbaycanın tərkibində olmuşdur. 1920-ci il noyabrın 29-da Zəngəzur, Göyçə mahalları ilə birlikdə Dərələyəz mahalı da Azərbaycandan alınıb yaradılan Ermənistana verildi.

Dərələyəz mahalı indiki Ermənistanının Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Vedi (Ararat), Sisyan, Azərbaycanın Sədərək, Şərur, Babək, Şahbuz, Kəlbəcər rayonlarının əhatəsində yerləşir (211, s.264).

Toponim Azərbaycan dilində «iki dağ və ya təpə arasında, çuxur» mənasında işlənən dərə sözü ilə (10, s.74) alagöz türk etnonimi (407, s.120) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəkom -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Rayondakı Toxluca kəndinin ərazisində, Göyçə gölünün sahilində yerləşir. Burada sovxozun qoyun ferması tikilmişdir.

Toponim Azərbaycan dilində «iki dağ arasında dərin çuxur» mənasında işlənən dərə sözü ilə (278, s.62, 10, s.74) «qoyun saxlanılan yer» mənasında işlənən kom sözünün birləşməsindən əmələ gəlmişdir. Kom sözü «daxma, kiçik ev» mənasında işlənən koma sözünün bir variantıdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəköy -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir Ermənilər kəndə 1840-cı illərdən sonra köçürülmüşdür (415, s.104).

Toponim Azərbaycan dilində «iki dağ arasında dərin çuxur» mənasında işlənən dərə sözü ilə türk diləndə kənd mənasında işlənən köy sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SS AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Sarakyuğ (Dərəkənd) qoyulmuşdur.

**Dərətumb -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd (427, s.171). Kəndin ərazisində X əsrdən əvvələ aid tarixi abidələr vardır (422, s.72).

Toponim Azərbaycan dilində «iki dağ və ya təpə arasında eləcə də düzənlikdə dərin çuxur», «çay yatağı, çayın axdığı yer» mənasında işlənən dərə sözü ilə (278, s.62-63; 10, s.74; 339, s.171) türk dilində «təpə, dağ, zirvə» mənasında işlənən tumb sözünün (339, s. 186-187) birləşməsindən əmələ gəlmişdir. Tumb sözü həm də domba, tomba, tump formasında işlənir (278, s.67; 339, s.186). Azərbaycan dilinin Zəngilan şivəsində domba sözü coğrafi termin kimi «dağ üzərində günbəzvan xırda təpəcik» mənasında işlənir (253, s.124). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dərəçiçək -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda şəhər tipli qəsəbə. Rayon mərkəzindən 5 km şimal-qərbdə yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.53), Qafqazın 5 verstlik xəritəsində (348, s.75) qeyd edilmişdir.

Burada 1897-ci ildə rus və ermənilərlə yanaşı 10 nəfər də azərbaycanlı yaşamışdır (415, s.16-17). XX əsrin əvvələrində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və yalnız ermənilər və ruslar yaşamağa başlamışdır. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «iki dağ arasında dərin çuxur» mənasında işlənən dərə sözü ilə Azərbaycan dilində «çiçəkləri olan bitki», «gül» mənasında işlənən çiçək sözünün (12, s.438) birləşməsindən əmələ gəlmişdir. Yaşayış məntəqəsi güllü, çiçəkli, gözəl mənzərəli dərədə yerləşdiyi üçün Dərəçiçək adlandırılmışdır. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı 1847-ci ildə dəyişdirilib Konstantinovka adlandırılmışdır. 1920-ci illərdə yaşayış məntəqəsinin adı kalka edilərək Zaxqadzor (Dərəçiçək) qoyulmuşdur.

**Dərməzur -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qışlaq. Kığı çayının yuxarı axarının sol sahilində, Dərməzur çayının sahilində yerləşirdi. 1926-cı ildə 44 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). 1930 - cu illərdə ləğv edilmişdir.

**Dəstəgird -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə, Bərgüşad dağlarının ətəklərində yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183) qeyd edilmişdir. Kəndin adı erməniləşdirilərək Dəstəkert formasma salınmışdır (419, s.79).

Kənddə 1908-ci ildə 555 nəfər, 1914 - cü ildə 400 nəfər azərbaycanlı yaşamışdır (415, s.146-147). 1918-ci ildə ermənilər azərbaycanlıları qırğınlarla qovmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 358 nəfər, 1926-cı ildə 338 nəfər, 1931-ci ildə 434 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1950-ci illərdə mis-molibden kombinatının yaradılması ilə əlaqədar buraya ermənilər köçürülmüşdür. 1987-ci ildə 1700 nəfər azərbaycanlı və erməni olmuşdur ki, bunun da 80%-ni azərbaycanlılar təşkil edirdi. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. İndi burada təkcə ermənilər yaşayır.

Toponim qaraçorlu türk tayfasından olan bərgüşad tayfasının mənsub dəstəgird etnonimindən (286, s.73) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Dığır -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonunda kənd. Alagöz dağının ətəyində yerləşirdi. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.163), Qafqazın 5 verstlik xəritəsində Dıqir, Dqir formasında (348, s.90) qeyd edilmişdir. Kəndin qədim adı Teger olmuşdur (415, s.22).

Kənddə 1831-ci ildə 35 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.106). 1840-50-ci illərdə azərbaycanlılar qovulmuş və Türkiyədən ermənilər köçürülüb burada yerləşdirilmişdir. 1950-ci ildə kənd ləğv edilmişdir.

Toponim türk dilində «geniş, böyük gillikli düzənlik yer», «otsuz boş sahə», «otsuz», «keçəl» mənasında işlənən takır (359, III (1), s.783; 339, s.540-541) sözü əsasında əmələ gəlmişdir. Dığır teker>takır sözünün dəyişilmiş formasıdır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Dian -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-şərqdə, Alagöz dağının cənub-qərb ətəyində yerləşir.

Kənddə 1831-ci ildə 32 nəfər, 1873 - cü ildə 216 nəfər, 1886-cı ildə 242 nəfər, 1897-ci ildə 304 nəfər, 1904 - cü ildə 272 nəfər, 1914 - cü ildə 290 nəfər, 1916-cı ildə 380 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.34-35, 116-117). Kənd 1919 - cu ildə erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s.221). Kəndə Türkiyənin Taron və Muş vilayətlərindən köçürülən ermənilər yerləşdirilmişdir (85, s.113). İndi ermənilər yaşayır.

Fikrimizcə, Dian toponimi Diau adlı sülalənin (402, s.41, 51) adı əsasında yaranmışdır. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Dibəkli -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun Hallavar kəndində dağ. Oronim «duz, yarma və s. döymək üçün içi oyuq daş» mənasında işlənən dibək sözünə (8, s.185) -li şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Görünür, yaylağa köçən əhali yaylaqda daşlardakı təbii oyuqlarda duz, yarma və ya çəltik döyürlərmiş. Orada təbii dibəklər varmış. Məhz buna görə də dağ Dibəkli dağ adlandırılmışdır. Quruluşca düzəltmə toponimdir.

**Dilican -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında kənd. İndiki Ermənistanın tabeliyində şəhər. 1826-cı ildə Qazax qəzasının 82 kəndindən biri olan Dilicanda 60 təsərrüfat olmuşdur (Ermənistan Sovet Ensiklopediyası, III c., İrəvan, 1977, s.386). Dilican rayonu 1930 - cu ildə ləğv edilərək şəhərə çevrilmişdir. 1958-cı ildə respublika tabeliyində şəhərdir. Yaşayış məntəqəsinin adı Dilican kimi sabitləşib rəsmiləşmişdir. Bununla yanaşı qaynaqlarda adı Delican (314, s.64), Yeni Delican, Köhnə Delican (Кавказский календарь,Тифлис, 1908, с.30),

Delecan (257, s.26), Delican dərəsi (AKAK, t.V, Tiflis, 1873 s.891), Delican (279, s.389; 283, s.49; 264, s.347-348) formalarında da qeyd edilmişdir.

XVII əsrin fransız səyyahı Jan Şardən indiki Ermənistan ərazisinə səyahət edərkən Dilican şəhərində də olmuşdur. Bu şəhərlə bağlı yazır: «Dilican şəhəri, onu altı lyölük əhatə edən bütün ərazi (şimaldan, cənubdan Dilicanı əhatə edən və şərqdən, qərbdən çox irəli çıxan ölkə) Qamçı xana aid olub Qazax ölkəsi adlanır. O da Gürcüstan kimi Səfəvilərdən asılıdır, ona tabedir» (152, s.20).

Burada erməni və ruslarla yanaşı 1886-cı ildə 54 nəfər, 1897-ci ildə 119 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalmışlar və deportasiya olunmuşlar. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar evlərinə dönə bilmişdir. 1922-ci ildə 5 nəfər, 1926-cı ildə 38 nəfər, 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31,115). Sonrakı siyahıyaalmalarda azərbaycanlılar ayrıca göstərilməmişdir. 1988-ci ilə qədər burada azərbaycanlılar yaşamışdır. 1988-ci ilin noyabr ayında onlar tamamilə deportasiya olunmuşdur. Burada indi yalnız ermənilər yaşayır. Dilican toponiminin «Delican»,»Delecan» formalarına əsaslanıb bu qənaətə gəlirik ki, toponim tele qədim türk tayfasının (180, s.21) adı əsasında əmələ gəlmişdir. Toponimin sonundakı «can» «kan, qan, kaan, xan» sözünün fonetik forması olub «yaranmış, yüksək, hörmətli, şöhrətli, şöhrət sahibi» mənasındadır (147, s.4). M.Seyidov «can» sözünün «qan» sözünün fonetik dəyişmiş forması hesab edərək «ata, hakim» anlamında olduğunu qeyd edir (235, s.18-19). Deməli, Dilican (Delican, Delecan) «tele» tayfasından olan hakimin, atanın (hörmətli, şöhrətli mənasında) yaşayış məskəni» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Dirək -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Qaranqu çayının yuxarı axarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.86) qeyd edilmişdir. Erməni mənbələrində Derek kimi göstərilmişdir(427, s.379).

Toponim «Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilən Dirək antoroponimi (157, s.112) ilə bağlıdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Dirəklər -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 10 km şərqdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Dirəkli (143, s.135), Qafqazın 5 verstlik xəritəsində Dirəklər kimi (348, s.86) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-30 - cu illərdə Türkiyədən köçürülmüşdür.

Toponim qədim tereklər (dirəklər) türk tayfasının adı əsasında əmələ gəlmişdir. Tereklər (direklər) XIII-XIV əcrlərdə Anadolu yarımadasında yaşamışlar (210, s.53). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Karnut qoyulmuşdur.

**Dövri -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Qarnıyarıq dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.87), Z.Qorqodyanın əsərində (415, s.22) kəndin adı Dövra xaraba formasında qeyd edilir. Kənddə 1831-ci ildə 35 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.106). 1840-cı ildən sonra buraya Türkiyədən ermənilər köçürülüb yerləşdirilmiş, azərbaycanlılar tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur.

Toponim qədim türk dilində «dağ» mənasında işlənən tav (> dav -İ.B.) sözünə (359, III (1), s.983) -ri şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Dövrus -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Dovruz kimi qeyd edilmişdir (348, s.87). Erməni mənbələrində kəndin adı həm də Tovruz kimi göstərilir (415, s.56).

Kənddə 1831-ci ildə 11 nəfər, 1873 - cü ildə 74 nəfər, 1886-cı ildə 184 nəfər, 1897-ci ildə 303 nəfər, 1904 - cü ildə 268 nəfər, 1914 - cü ildə 297 nəfər azərbaycanlı yaşamışdır (415 s.56-57, 134-135).

1918-ci ildə kəndin sakinləri erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 88 nəfər, 1926-cı ildə 144 nəfər, 1931-ci ildə 171 nəfər azərbaycanlı yaşamışdır (415, s.57, 135).

Kəndin sakinləri 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olundular.

Toponim türk mənşəli xəzər tayfasına mənsub tavris etnonimi (286, s.44) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Dovşanqışlaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Arpaçayın yaxınlığında, rayon mərkəzindən 24 km məsafədə yerləşir. 1828-ci ildən sonra İran və Türkiyədən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar mərhələ-mərhələ qovulmuşlar. 1918-20-cı illərdə azərbaycanlılar tam surətdə kənddən deportasiya olunmuşlar. 1926-cı ildə burada 1 nəfər azərbaycanlı yaşamışdır. Zootoponimdir. Dovşan və qışlaq sözlərindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Şirakavan (Şirakların qəsəbəsi) qoyulmuşdur.

**Doqquz** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimalda, Gərni çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Doqquz (143, s.100), Qafqazın 5 verstlik xəritəsində isə Dokkuz formasında (348, s.88) qeyd edilmişdir.

Kənddə tarixən yalnız azərbaycanlı yaşamışdır. 1828-1829 - cu illərdə buraya İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülmüşdür (386, s.551-554). 1828-ci ilə qədər Doqquz kəndində cəmi 8 yerli erməni (коренных армян) olmuşdur (386, 551-553).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 127 nəfər, 1873 - cü ildə 159 nəfər, 1886-cı ildə 178 nəfər, 1897-ci ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ilin fevral ayında azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşlar (309, s.216). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 75 nəfər, 1926-cı ildə 78 nəfər, 1931-ci ildə 97 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-53-cü illərdə tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim oğuzların dülqədirli tayfasından olan doqquz etnonimi (238, s.301) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kanaçut qoyulmuşdur.

**Doğs** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimalda yerləşir. Qafqazın 5 verstlik xəritəsində Tos kimi (348, s.246) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra kəndə 1828-29 - cu illərdə İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (85, s.99).

Kənddə 1831-ci ildə 48 nəfər azərbaycanlı, 63 erməni, 1873 - cü ildə 249 nəfər azərbaycanlı, 156 erməni, 1886-cı ildə 330 azərbaycanlı, 171 erməni, 1897-ci ildə 480 nəfər azərbaycanlı, 189 erməni yaşamışdır (415, s.80-81, 150-151).

1918-ci ilə kimi burada azərbaycanlılar olmuşdur. 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

**Doyşancıq** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qursalı kəndinin ərazisində yerləşir.

**Donuz damı** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Qışlağın adı yerli dialektə uyğun olaraq Donquz damı formasında işlədilirdi. Məhz bunun nəticəsidir ki, mənbələrdə Donquz damı kimi qeyd edilir.

Toponim heyvan anlayışı bildirən donuz sözü ilə «heyvanları saxlamaq üçün qapalı yer», «bina», «tövlə» mənasında işlənən dam sözünün (10, s.26) birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Donuz damı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonundakı Toxluca kəndində qışlaq. 1926-cı ildə burada 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim donuz heyvan adına «heyvan saxlanılan yer, tövlə» mənasında işlənən dam sözünün qoşulması əsasında yaranmışdır. Burada donuz saxlandığı üçün «Donuzdamı» adlanmışdır. Zootoponimdir. II növ təyini söz birləşməsi konstruksiyasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Donuz yatağı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Erməni mənbəyində Donuzyataq kimi qeyd edilir (415, s.30). 1926-cı ildə burada 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). 30 - cu illərdə ləğv edilmişdir.

Toponim donuz sözü ilə «heyvan saxlanılan yer» mənasında işlənən yataq sözünün (8, s.240) birləşməsindən əmələ gəlib «donuz saxlanılan yer» mənasını bildirir. «Yataq» sözü müasir Azərbaycan ədəbi dilində həm kənd təsərrüfatı termini kimi (payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer), həm də geologiya termini kimi (faydalı qazıntı olan yer, mədən) işlənir (10, 510). Zootoponimdir. İkinci növ təyini söz birləşməsi əsasında əmələ gəlib. Quruluşca mürəkkəb toponimdir.

**Donuzgirən** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Zəngi çayının sol sahilində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Donuzyeyən formasında (143, s.161), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə kəndin adı Donuzpayan (143, s.36), Qafqazın 5 verstlik xəritəsində Donquzian formasında (348, s.88) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 355 nəfər, 1873 - cü ildə 905 nəfər, 1886-cı ildə 1012 nəfər, 1897-ci ildə 1077 nəfər, 1908-ci ildə 1131 nəfər, 1914 - cü ildə 1464 nəfər, 1916-cı ildə 864 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə erməni təcavüzünə məruz qalan kənd sakinləri deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra onlar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 399 nəfər, 1926-cı ildə 493 nəfər, 1931-ci ildə 518 nəfər (415, s.48-49, 128-129), 1987-ci ildə 2050 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ildə noyabr-dekabr aylarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim donuz heyvan adına «girən» (daxil olan mənasında) feli sifətinin artırılması ilə düzəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Zəngilər qoyulmuşdur.

**Dortnu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.88).

Kənddə 1897-ci ildə 181 nəfər, 1904 - cü ildə 363 nəfər, 1914 - cü ildə 327 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Xaricdən köçürülən ermənilər 1918-1919 - cu illərdən burada yerləşdirilmişdir.

Toponim qıpçaq mənşəli durt (>dort -İ.B.) etnonimi (286, s.50) əsasında yaranmışdır. F.Kırzıoğluya görə, 1588-cı ildə qışı Gəncə sancağında, yayı Zəngəzurda keçirən bir el dördnu adlanırdı (62, s.240). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 29.VI.1949 - cu il fərmanı ilə adı dəyişdirilib Antaraşat qoyulmuşdur.

**Durnalı** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Zootoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Düz** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində qışlaq. 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67). Kollektivləşmə ilə bağlı 30 - cu illərdə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «enişi, yoxuşu, çuxuru olmayan yer», «düzən, çöl, düzəngah, düzənlik» mənasında işlənən düz sözü (10, s.168) əsasında əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn sadə quruluşlu toponimdir.

**Düzyurd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda yaylaq. Rayondakı Toxluca kəndinin ərazisində yerləşirdi. Toponim «düzən, çöl, düzəngah» mənasında işlənən düz sözü ilə (278, s.68; 10, s.168) «yaşayış yeri, məskən, eveşik» mənasında işlənən yurd sözünün (10, s.568; 339, s.643) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Düzkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 7-8 km qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.90) qeyd edilmişdir. Toponim Azərbaycan dilində «düzən, çöl, düzənlik, düzəngah» mənasında işlənən düz sözü ilə (10, s.168; 339, s.195) türk dilində «şəhər, yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün» (359, ll(2), s. 1079-1080; 299, s.290; 339, s.270-271) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Baroj qoyulmuşdur.

**Düzkənd -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. XX əsrin əvvəllərində kənd ləğv edilmişdir (415, s.62-63).

Toponim «düzən çöl, düzənlik» mənasında işlənən düz sözünə (253, s.70; 278, s.68; 10, s.168) «yaşayış yeri, şəhəp» mənasında işlənən kənd sözünün (359, ll(2), s. 1079-1080; 299, s.290; 339, s.270-271) artırılması əsasında əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Düzkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. İndi Ermənistan adlanan ərazidə sovet hökuməti qurulandan sonra -31 dekabr 1937-ci ildə yaradılan rayonun adı və mərkəzi olmuşdur. Rayonun ərazisi 547 kv. km-dir.

XVIII əsrə aid mənbədə - «İrəvan əyalətinin icmal dəftəri»ndə Böyük Düzkənd, Kiçik Düzkənd adlı iki kəndin adı göstərilir (143, s.132). Erməni mənbəyində Düzkənd kəndinin digər adı kimi Böyük Düzkənd göstərilir (415, s.42). Görünür, sonralar Böyük Düzkənd və Kiçik Düzkənd kəndləri birləşdirilmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.90) qeyd edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-29-cu illərdə Türkiyədən köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim türk dilində «düzənlik, çöl düzəngah» mənasında işlənən düz sözünə (253, s.70; 339, s.195) kənd coğrafi nomeninin artırılması yolu ilə yaranmışdır. Relyeflə bağlı düzələn mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ılə adı dəyişdirilib Axuryan qoyulmuşdur.

**Düzkənd -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 13 km şimalda, Arpaçayın sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.132), Qafqazın 5 verstlik xəritəsində (348, s.90) qeyd edilmişdir. Amasiya rayonunda tarixən Düzkənd adında iki kənd olmuşdur: Böyük Düzkənd, Kiçik Düzkənd (415, s.20). XIX əsrin əvəllərində Böyük Düzkənd və Kiçik Düzkənd kəndləri birləşdirilərək Düzkənd kəndi kimi rəsmiləşdirilmişdir.

Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kənddə qarapapaqların yaşadığı göstərilir (415, s.20).

Kənddə 1886-cı ildə 348 nəfər, 1897-ci ildə 520 nəfər, 1908-ci ildə 636 nəfər, 1914 - cü ildə 722 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildən başlayaraq azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 359 nəfər, 1926-cı ildə 402 nəfər, 1931-ci ildə 468 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 516 nəfər, 1987-ci ildə 580 nəfər (35, s.168) yalnız azərbaycanlılar yaşamışdır. 1988-ci ilin noyabr-dekabr, 1989 - cu ilin yanvar aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «düzən, çöl, düzənlik», «eniş, yoxuşu, çuxuru olmayan yer» mənasında işlənən düz sözü ilə (253, s.70; 278, s.68; 10, s.168; 339, s.195) qədim türk dilində «yaşayış yeri, şəhər» mənasında işlənən kənd sözünün (359, ll(2), s. 1079-1080; 299, s.290; 339, s.270-271) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Alvar qoyulmuşdur.

**Düzlər -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində relyef bildirən «düzən, düzənlik, çöl» mənasında işlənən düz sözünə -lər şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan toponimdir.

Erməni mənbələrində qışlaq Düzer formasında qeyd edilir (415, s.70). Düzer formasında qeyd edilən toponimin sonundakı «er» erməni dilində cəmlik bildirən şəkilçidir. Qədim türk dilində çəmlik -ar, -ər, -r şəkilçiləri əsasında əmələ gəlmişdir. Erməni dilində cəmlik bildirən -er şəkilçisi qədim türk dilində cəmlik bildirən -ar, -ər şəkilçisinin fonetik variantıdır. Deməli, Düzer, Düzlər toponiminin kalka edilmiş formasıdır.

# E

**Evcilər -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.300) qeyd edilmişdir.

Toponim dülqədirli türk tayfasından olan avcı (evci -İ.B) etnoniminə (238, s.185) cəmlik bildirən -lər şəkilçisinin artırılması ilə əmələ gəlib «evcilər tayfasına mənsub kənd» mənasını bildirir.

Bu qənaətə gəlirik ki, evci, avçı etnonimin fonetik variantıdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 10.IV.1947-ci il fərmanı ilə adı dəyişdirilib Arazap qoyulmuşdur.

**Elbəyinin yeri -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda sahə. Oronim Elbəyi şəxs adı əsasında yaranmışdır. Antropooronimdir.

**Ellər -** İrəvan quberniyasının İrəvan qəzasında kənd. 9 sentyabr 1930 - cu ildə yaradılan Kotaykın, indiki Abovyan rayonunun tarixi adı və rayon mərkəzi. İrəvan şəhərinin şimal-şərqində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Eylayar (348,s.320), erməni mənbələrində Eylar (415, s.44), Elar (419, s.107) formalarında qeyd edilmişdir.

Toponim türk dilində «xalq, tayfa», «tayfa billəşməsi, tayfa ittifaqı» mənasında işlənən el sözünə (299, s.168; 278,s. 163; 339, s.638) -lər şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Bu söz eyni mənada türk dilində il formasında da işlənir (299, s.207; 365, s.339-343). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 12.X.1961-ci il fərmanı ilə adı dəyişdirilib Abovyan qoyulmuşdur.

**Elləroğlu -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 26 km şimal-qərbdə, Türkiyə, Ermənistan və Gürcüstan dövlətlərinin sərhədlərinin kəsişdiyi yerdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində Elyar oyuğu (348, s.301), erməni mənbələrində Ellər oğlu, Ellər, Ellər oyuğu, Yelləryuğ, Elləryuğ (415, s.20) formalarında qeyd edilmişdir. Qaynaqlarda göstərilənə əsasən qeyd edə bilərik ki, kəndin qədim və düzgün adı Ellər oğlu olmuşdur (415, s.20).

Kəndin adı sənədlərdə Ellər kimi rəsmiləşdirilmişdir.

Kənddə azərbaycanlılar etnoqrafik qruplarından biri olan qarapapaqlar (ASE, III c., B., 1979, s.64) yaşamışdır. Qarapapaqlar elə azərbaycanlılar deməkdir. Erməni mənbələrində kənddə yaşayan qarapapaq tayfası xüsusi bir xalq kimi qeyd edilir (415,s.20).

Kənddə 1886-cı ildə 232 nəfər, 1897-ci ildə 361 nəfər, 1908-ci ildə 363 nəfər, 1914 - cü ildə 437 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-18-ci illərdə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 222 nəfər, 1926-cı ildə 284 nəfər, 1931-ci ildə 294 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 292 nəfər, 1987-ci ildə 328 nəfər (35, s.169) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr, 1989 - cu ilin yanvar aylarında kəndin sakinləri -azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim -lar cəm şəkilçisi qəbul etmiş qədim türk dilində «tayfa ittifaqı, tayfa təşkilatı», «xalq, tayfa» mənasında işlənən el (il) sözü ilə (299, s. 168-169.207; 365, s.339-343; 339, s.638) qohumluq bildirən və III şəxsin təkində işlənən oğlu sözünün birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ellidərə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində gözətçi məntəqəsi. Toponim mənsubluq bildirən -li şəkilçisi qəbul etmiş türk dilində «tayfa, xalq» mənasında işlənən el sözü ilə (299, s.168; 339, s.638) Azərbaycan dilində «iki dağ arasında, düzənlikdə dərin çuxur» mənasında işlənən dərə sözünün (10, s.74) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Eranos** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə, Göyçə gölünün yaxınlığında yerləşir. Erməni mənbələrində kəndin adı həm də Yaranos formasında qeyd edilmişdir (415, s.66).

Toponim aran (eran) etnoniminə (168, s.90; 287, s.122) -os şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Ernəzor** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Rayon mərkəzindən 16-18 km şimal-şərqdə, Nüvədi kəndinin yaxınlığında yerləşirdi. Kəndin başqa adı «Eynazor»dur (415, s.66).

Kənddə 1873 - cü ildə 153 nəfər, 1886-cı ildə 204 nəfər, 1897-ci ildə 163 nəfər, 1904 - cü ildə 238 nəfər, 1914 - cü ildə 562 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri ata-baba torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra onlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 207 nəfər, 1926-cı ildə 219 nəfər, 1931-ci ildə 219 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,8.66-67, 142-143). 1980-cı illərdə sakinləri kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim türk dilində «arx» mənasında işlənən arna (ernə > İ.B) sözü ilə (365, s.188; 339, s.55) türk dilində «yarğan, sıldırım», «sıldırım dərə» mənasında işlənən çar sözünün (339, t s. 178-179) fonetik forması olan erməni dilində dərə mənasında mənasında işlənən zor sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ecanan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında mahal. Bu mahala Ecanan çayı boyunca yerləşən kəndlər daxil idi. Mahalda XVII-XVIII əsrlərə aid bir sıra tarixi abidələr vardır.

**Ecanan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dərə.

**Ecanan çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Baydaq kəndinin yaxınlığında Oxçu çayı ilə birləşir. Başlanğıcını 2700 m yüksəklikdə olan Bərgüşad sıra dağlarından götürür. Uzunluğu 27 km-dir (85,s.l43).

**Eşşəkquduran -** İrəvan xanlığında Dərəçiçək mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında kənd. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.118) qeyd edilmişdir. XVIII əsrin sonlarında ləğv edilmişdir.

Toponim heyvan anlayışı bildirən eşşək və feli sifətin indiki zaman formasında işlənən quduran sözünün birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

# Ə

**Əbdüləlilər -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Kənddə 1907-ci ildə 145 nəfər azərbaycanlı yaşamışdır (85, s.166).

Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalmış, kənddə yaşayan azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. 1919 - cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Əbdülələlilər nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Əylənli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə, Alagöz dağının cənub-qərb ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.8). Kəndin digər adı həm də Aynalı, Ağlyanlı kimi göstərilir (415, s.34).

Kənddə 1873 - cü ildə 196 nəfər, 1886-cı ildə 236 nəfər, 1897-ci ildə 308 nəfər, 1904 - cü ildə 215 nəfər, 1914 - cü ildə 228 nəfər, 1916-cı ildə 315 nəfər (415, s.34-35, 116-117), 1918-ci ilin yanvarında 300 nəfər (309, s.220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur (309, s.220) və kəndə 1916-18-ci illərdə Türkiyənin Muş vilayətlərindən köçürülən ermənilər yerləşdirilmişdir (415, s.117). İndi ermənilər yaşayır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Toponim əylənli türk tayfa adı (143, s.30,92-93) əsasında yaranmışdır.

Erm.SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Davidaşen qoyulmuşdur.

**Əyrivəng** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.9) qeydə alınmışdır.

Kənddə 1831-ci ildə 65 nəfər, 1873 - cü ildə 326 nəfər, 1886-cı ildə 451 nəfər, 1897-ci ildə 545 nəfər, 1904 - cü ildə 708 nəfər, 1914 - cü ildə 896 nəfər, 1916-cı ildə 735 nəfər (415, s.68-69, 144-145), 1918-ci ilin yanvarında 706 nəfər (309, s.220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar vəhşicəsinə kənddə qırğınlarla qovulmuş (309, s.220) və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. 1926-cı ildə burada cəmi 1 nəfər, 1931-ci ildə 17 nəfər azərbaycanlı yaşamışdır (415, s.69, 145). 1931-ci ildən sonra kənddə yaşayan azərbaycanlılar ermənilər tərəfindən sıxışdırıldıqları üçün qonşu Ağqala kəndinə köçmüşlər. Həmin vaxtdan kənddə yalnız ermənilər yaşayır.

Kənddə IX-X əsrlərə məxsus alban abidəsi qala vardır və kəndin adı həmin qala adından götürülmüşdür.

Toponim qədim türk dilində «ayrılmış» mənasında işlənən «ayrı» sözündən (365, s. 114-115; 337, s.238; 339, s.42) və qala mənasında işlənən vəng sözünün birləşməsindən əmələ gəlmiş relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı erməni dilinə kalka edilərək Ayrivan, Ayrivank formasında işlədilir. Ermənistan prezidentinin 19.IV. 1991-ci il fərmanı ilə adı dəyişdirilib Hayravan qoyulmuşdur.

**Əyridaş** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Oronim əyri (ayrı mənasında) sözü ilə «dağ» mənasında işlənən daş sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əyri su -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonundakı Çaykənd kəndinin yaxınlığında qışlaq. 1926-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır. 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim «ayrılmış, əyri-üyrü, dolambac» mənasında işlənən əyri sözü ilə türk dilində çay mənasında işlənən su sözünün (299, s.512; 278, s.131; 339, s.528-529) birləşməsindən əmələ gilib «Əyri çay yanındakı yaşayış məntəqəsi» mənasını bildirir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əyrisubat** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Kəndin digər adı «Əyrisifət»dir (427, s.249). Kənd 1940-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «ayrılmış», «əyri-üyrü» mənasında işlənən əyri sözü ilə «malların su içdikləri yer», «çayda göldə heyvan suvarılan və ya su götürülən yer» mənasında işlənən suvat (dialketlərdə suat formasında işlənir. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, B., 1967, s.236) sözünün (253, 130; 12, s.110) birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əyricə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda dağ. Göyçə (Sevan) gölünün şərqində yerləşir. Hündürlüyü 2660 m-dir. Oronim «ayrılmış, əyri-üyrü» mənasında işlənən əyri sözünə «cə» şəkilçisinin artırılmasırdan əmələ gələn əyricə sözündən yaranıb.

**Əyricə** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda yaylaq. Dərələyəz və Göyçə mahalları arasında, sərhəddə yerləşir (211, s.199).

Toponim Azərbaycan dilində «az əyri, bir qədər əyri» mənasında işlənən əyricə sözü (10, s.247) əsasında yaranan düzəltmə oronimdir.

**Əyricə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Rayondakı Toxluca kəndinin ərazisində, Ağbulaq kəndi ilə sərhəddə yerləşir. XI-XIII əsrlərdə bura kənd olmuşdur. Sonralar kənd ləğv edilmiş, qışlağa çevrilmişdir. 1960-cı ildən sonra Toxluca kəndinin qoyun ferması yerləşirdi.

Toponim «bir qədər əyri» mənasında işlənən əyricə sözü (10, s.247) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Əyricə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda çay. Rayondakı Ağbulaq və Toxluca kəndinin sərhəddindən axır.

**Əkərək -** Syunik vilayətinin Vayotsdzor qəzasında, İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd. S.Orbelyanın fikrincə, kənd indiki Ermənistanın Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində olmuşdur və kəndin adı əkmək sözündən əmələ gəlmişdir (427, s.17). Bu, elmi həqiqətdən uzaqdır.

Toponim əkər türk tayfa adına (359,l(1), s.97) -ək şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 17 km cənub-şərqdə yerləşir. Kəndin digər adı Xaraba Əkərək olmuşdur (415,s.34; 427,8.18-19).

Kənddə 1831-ci ildə 70 nəfər, 1873 - cü ildə 301 nəfər,1886-cı ildə 367 nəfər, 1897-ci ildə 482 nəfər, 1904 - cü ildə 284nəfər, 1914 - cü ildə 301 nəfər, 1916-cı ildə 601 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,8.34-35,116-117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq kəndin sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuş və 1920-ci ildə Türkiyənin Sasun və Taron vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada ermənilərdən başqa 1922-ci ildə 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.117).1924 - cü ildə onlar yenidən tarixi torpaqlarından qovulmuşdur.İndi ermənilər yaşayır.

Erməni mənbələrində 1922-ci ildən əvvəl burada kimin yaşadığı göstərilmir (427, s.18-19). Bu da tarixi faktları saxtalaşdırmaqdır. Toponim əkər türk etnonimi (359, l(1), s.97) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir.

Toponim əkər türk etnoniminə (359, s.97) -ək şəkilçisinin artırılması ilə düzəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə yerləşir. Erməni mənbələrində (415,s.54;419, s.60), Qafqazın 5 verstlik xəritəsində (348,s.3) Aqarak formasında qeyd edilmişdir.

Toponim türk mənşəli əkər etnoniminə (359, l(1), s.97) -ək şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Araz çayın sol tərəfində yerləşir. Burada ermənilərlə yanaşı 1897-ci ildə 6 nəfər, 1931-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143). Kənddə yaşayan azərbaycanlılar 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim əkər (akar) türk tayfa adı (359,l(1), s.97) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda çay. Rayondakı Əkərək kəndinin ərazisindən axır. Arazın bir qoludur. Əkər türk tayfasının adını (359, l(1), s.97) əks etdirir. Etnohidronimdir.

**Əkərək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 18 km şərqdə, Oxçu çayının sol sahilində yerləşir. XII-XIII əsrlərdən xatırlanır (427, s.19).

Toponim qədim türk tayfası əkər (akar) etnoniminə (359, l(1), s.97) -ək şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. XIII-XIV əsrlərdən adı çəkilir (427, s.18).

Kənddə 1873 - cü ildə 114 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 204 nəfər, 1904 - cü ildə 170 nəfər, 1914 - cü ildə 211 nəfər, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim əkər türk etnonimi (359, l(1), s.97) əsasında formalaşmışdır. Toponimin sonunda işlənən -ək, şəkilçi funksiyasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərək -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 7 km qərbdə yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Əyrək kimi (143, s.163), «İrəvan əyalətinin icmal dəftəri»ndə Əyərək (143, s.90), Qafqazın 5 verstlik xəritəsində Əkərək (Aqarak) kimi (348, s.3) qeyd edilmişdir. Adı XVI əsrin əvvəllərindən çəkilir (427, s.18).

Kənddə 1831-ci ildə 318 nəfər, 1873 - cü ildə 388 nəfər, 1886-cı ildə 536 nəfər, 1897-ci ildə 603 nəfər, 1908-ci ildə 629 nəfər, 1914 - cü ildə 720 nəfər, 1916-cı ildə 653 nəfər, 1919 - cu ildə 425 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə burada 1920-ci illərə kimi hansı xalqın yaşadığı göstərilmir. Yalnız 1897-ci ildə 603 nəfərin yaşadığı qeyd edilir ki, onların da azərbaycanlı və ya erməni olduğu göstərilmir (427, s.18). Bu da erməni siyasətinin bir formasıdır. 1919 - cu ilin əvvələrində kəndin sakinləri ermənilərin tacavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Ermənilər buraya Türkiyənin Van, Qavaş, Bitlis bölgələrindən 1918-19 - cu illərdə köçürülmüşdür (ətraflı məlumat üçün bax: O.U.Məliksetyan. Qərbi ermənilərin deportasiyası və xaricdə yaşayan ermənilərin sovet Ermənistanına qaytarılması (19151940), İrəvan, 1975, erməni dilində).

Azərbaycanlılar öz kəndlərinə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra dönə bilib.

Burada ermənilərdən başqa 1922-ci ildə 72 nəfər, 1926-cı ildə 74 nəfər, 1931-ci ildə 32 nəfər azərbaycanlı yaşamışdır (415, s.23, 107). SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra kənddə yaşayan azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılıb zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. XVI (143, s.163) və XVIII (143, s.90) əsrlərə aid tarixi mənbələrdə kəndin adının Əyrək, Əyərək formalarında qeyd olunmasına istinad edib bu qənaətə gələ bilirik ki, toponim «Kitabi-Dədə Qorqud» dastanlarında (X boyda) adı çəkilən Əgrək şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Əkəri -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd.

Toponim əkər türk tayfasının adı (359,1(1), s.97) əsasında əmələ gəlmişdir. Toponimin sonundakı -i şəkilçi funksiyasının yerinə yetirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əkərli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Burada 1886-cı ildə 170 nəfər, 1906-cı ildə 253 nəfər azərbaycanlı yaşamışdır (85, s.166). 1918-ci ildə azərbaycanlılar qırğınlarla qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim əkər türk tayfa adına (359,l(1), s.97) -li mənsubluq bildirən şəkilçinin artırılması ilə əmələ gəlmişdir. «Əkər tayfasına mənsub olan kənd» anlamını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Ələyəz -** (Alagöz) -İndiki Ermənistanda inzibati ərazi bölgüsü, rayon. Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin 15 mart 1972-ci il fərmanı ilə Abaran, Artik və Spitak rayonlarının bəzi əraziləri - kəndləri əsasında yaradılmışdır. Sahəsi 382,2 $km^{2}$ - dir. Rayonun adı Azərbaycan dilində

Ələyəz formasında qeyd edilir. **Ələyəz** «Alagöz»ün fonetik formasıdır. Rayon Alagöz( Ələyəz) dağının ətəyində yerləşir.

Toponim alagöz türk etnonimi (407, s.120) əsasında əmələ gəlmişdir, Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erməni mənbələrində rayonun adı Araqadz formasında qeyd edilir.

**Ələpkər -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda zağa. Rayondakı Aşağı Çəmbərək kəndindən 3 km qərbdə yerləşir. Zağanın adı «Ələpkəri er» formasında da qeyd edilir. «Er, kişi, qoca, igid» mənasını ifadə edir (427, s.69). Zağanın adı kəngərli türk tayfasından olan Əliəpkərli etnoniminin (386, s.538) adını əks etdirir.

**Əlibəyli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 2 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.12) qeyd edilmişdir.

Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Azərbaycanlılar 1914-1915-ci illərdə ermənilər tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə ermənilər köçürülmüşdür. Ermənilər buraya 1915-20-ci illərdə Türkiyənin İğdır və Van vilayətlərindən, 1946-cı ildə İrandan, eyni zamanda indiki Ermənistanın Sisyan, Əştərək, Abaran və Hamamlı (Spitak) rayonlarından köçürülmüşdür (427, s.51).

Toponim oğuzların ulu yörük tayfasından olan əlibəyli etnonimi (238, s.186) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 4.IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Atarbekyan qoyulmuşdur.

**Əliqırıq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda çay. Erməni mənbələrində çayın adı Əliqrıx formasında da qeyd edilir (427, s.84). Rayondakı Ağıraq kəndinin ərazisindən axır. Göyçə gölünə tökülür. Uzunluğu 22 km-dir. Əli şəxs adı ilə qırıq türk etnonimi əsasında əmələ gəlmişdir. Etnohidronimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə çayın adı dəyişdirilib Astğadzor qoyulan kəndin adı ilə Astğadzor adlandırılmışdır.

**Əliqırıq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Qəmərli rayonuna daxil olan Böyük Gilanlar kəndindən 10 km cənub-qərbdə, Əliqırıq bulağının yanında, Pirdağı dağının ətəyində yerləşir. 1930 - cu ilin əvvəllərində Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur (415, s.84).

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə qeyd edilmişdir (143, s.171). Erməni mənbələrində Əliqrağı, Əlikrık formalarında qeyd edilir (427, s.84).

Kəndin adı XX əsrin 30 - cu illərində Əliqoıx kimi rəsmiləşdirilmişdir (415, s.154).

Kənddə 1873 - cü ildə 110 nəfər, 1886-cı ildə 175 nəfər.1897-ci ildə 251 nəfər, 1904 - cü ildə 202 nəfər, 1914 - cü ildə 253 nəfər, 1916-cı ildə 355 nəfər (415, s.84-85, 154-155), 1918-ci ilin yanvarında 202 nəfər (309, s.216) yalnız azərbaycanlı yaşamışdır.

Azərbaycanlılar 1918-ci ilin fevralında ermənilər tərəfindən qırğınlarla qovulmuşdur (309, s.216). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər.

Burada 1922-ci ildə 46 nəfər, 1926-cı ildə 55 nəfər azərbaycanlı yaşamışdır (415,s. 84, 155). 1929-30 - cu illərdə xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. 1931-ci ildə 46 nəfər azərbaycanlı, 79 erməni (415, s.155), 1959 - cu ildə 90, 1962-cı ildə 62 nəfər əhali (əksəriyyətini azərbaycanlılar təşkil etmişdir) yaşamışdır (427, s.703). 1962-cı ildən sonra azərbaycanlılar kənddən köçürülmüş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim əfşar türk tayfasına məxsus qırıqlı etnonimi (93, s.46) əsasında formalaşıb, «Qırıqlı tayfasından olan Əliyə məxsus kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 10.IX.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Blraşen qoyulmuşdur.

**Əliqışlağı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Həsənkənd kəndinin yaxınlığında yerləşirdi. Burada 1831-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.160). Sonrakı illərdə kənddə yaşayanlar haqqında əlavə məlumat yoxdur. İndi xaraba kənddir.

Toponim Əli şəxs adı ilə qışlaq sözünün birləşməsindən əmələ gəlib «Əliyə məxsus qışlaq» mənasını ifadə edir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əliqoçaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda qala.

**Əliquluşen -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 7 km şərqdə, Gorus - Cəlaloğlu (Stepanavan) avtomobil yolunun sağ tərəfində yerləşir. Kəndin başqa adı Əliqulukənd, Aşağı Əliqulu, Əliqulu uşağı olmuşdur (427, s.40,86).

Kənd Əliqulu adlı şəxs tərəfindən salandığı üçün Əliquluşen// Əliqulukənd adlanmışdır. Toponimin birinci komponenti Əliqulu şəxs adından, ikinci komponenti türk dilində «tikinti, Əliqulu şəxs adından, ikinci komponenti türk dilində «tikinti, kənd, oba, yurd» mənasında işlənən şen sözündən ibarətdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 1.VI.1940-cı il fərmanı ilə adı dəyişdirilib Azadaşen qoyulmuşdur.

**Əlidan -** İrevan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 19 km cənub-şərqdə yerləşir. 1870-ci illərə qədər burada yalnız azərbaycanlılar yaşamışdır. 1878-cı ildə Türkiyənin Muş və Basen vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir (427, s.848).

Toponim Əli şəxs adı ilə türk dilində «çöl, səhra, açıqlıq» mənasında işlənən «dan» sözünün (287, s.470) əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı dəyişdirilib Getik qoyulmuşdur.

**Əlikənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində kənd. XIX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Əli şəxs adı ilə kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əlikiçik -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə, Abaran çayının sağ tərəfində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Əli kiçik (143, s.111), Qafqazın 5 verstlik xəritəsində Əli qoçaq (Али кочак) formasında (348, s.12) qeyd edilmişdir. Kəndin digər adı Əli kuçak olmuşdur (415, s.4). Kəndin adı erməni mənbələrində Əli kuşak formasında da qeyd edilir (427, s.85).

Toponim Əli kiçik şəxs adı əsasıııda əmələ gəlmişdir. F.Sümər qeyd edir ki, Zəngilər dövlətinin türkmən əmirlərindən biri də Zeynəddin Əli Küçük (kiçik-İ.B) idi (238, s.145). Belə qənaətə gəlirik ki, kəndin adı həmin şəxsin adını özündə əks etdirir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Kuçak qoyulmuşdur.

**Əlikotan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonu ərazisində qala. Yuxarı Qaranlıq 20 km cənubda yeləşir. Qalanın adı iki komponentdən ibarətdir. Əli və kotan. Əli şəxs adıdır. Kotan, qıpçaqlardan olan tayfalardan birinin adıdır (286, s.48,50) «Kotan tayfasından olan Əlinin tikdiyi qala» mənasını bildirir.

**Əlili -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 4 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.150), Qafqazın 5 verstlik xəritəsində (348, s.12) qeyd edilmişdir.

Toponim kəngərli türk tayfasına mənsub əlili etnonimindən (386, s.538) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Salvard qoyulmuşdur.

**Əliməmməd qışlağı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Avşar kəndindən cənubda, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.12) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 102 nəfər, 1873 - cü ildə 607 nəfər, 1886-cı ildə 691 nəfər, 1897-ci ildə 965 nəfər, 1904 - cü ildə 990 nəfər, 1914 - cü ildə 1089 nəfər, 1916-cı ildə 850 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma torpaqlarına qayıda bilmişlər. 1922-ci ildə 293 nəfər, 1926-cı ildə 267 nəfər, 1931-ci ildə 373 nəfər azərbaycanlı yaşamışdır (415,s.85, 155).

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-ci ildən sonra kəndin köklü sakinləri - azərbaycanlalar tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim Əliməmməd şəxs adı ilə türk dilində «qış vaxtı yaşayış məntəqəsi», «daimi yaşayış məntəqəsi», «kənd» (339, s.276), Azərbaycan dilində «qoyun və başqa ev heyvanlarının gətirilib saxlandığı mötədil havalı və otlaqlı qışlama yeri» (9, s.531) mənasında işlənən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əlimərdan -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. 1940-cı ilə kimi Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qəmərli (Artaşat) rayonunundan 25 km şimal-şərqdə, Gərni çayının mənbəyində yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.12) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 52 nəfər, 1886-cı ildə 57 nəfər, 1897-ci ildə 153 nəfər, 1904 - cü ildə 63 nəfər, 1914 - cü ildə 221 nəfər, 1916-cı ildə 206 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). Kəndin sakinləri 1918-19 - cu illərdə ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 41 nəfər, 1931-ci ildə 65 nəfər (415, s.85, 155), 1939 - cu ildə 115 nəfər (427,s.87) yalnız azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə kəndin sakinləri zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim Əlimardan şəxs adı əsasında formalaşmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Əlirzalar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Kəndin başqa adı «Zəngili»dir(415, s.68).

Kənddə 1873 - cü ildə 57 nəfər, 1886-cı ildə 95 nəfər, 1897-ci ildə 126 nəfər, 1904 - cü ildə 103 nəfər, 1914 - cü ildə 161 nəfər, 1916-cı ildə 131 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ilin yazında azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 33 nəfər, 1926-cı ildə 47 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1948-49 - cu illərdə kəndin əhalisi SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə zorla Azərbaycana köçürülərək kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim əlirzalar nəsil adı əsasında yaranmışdır. Patronomik toponimdir. Quruluşca sadə toponimdir.

**Əlisli-**İrəvan quberniyasının Eçmiədzin qəzasında,indi Sərdarabad (Oktemberyan) rayonunda kənd.1931-ci ildə 155 nəfər azərbaycanlı yaşamışdır(427, s.91).SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-49 –cu illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.İndi xaraba kənddir (427, s.21).

Toponim əlisli nəsil adı əsasında əmələ gəlmişdir.Patronim toponimdir.Quruluşca sadə toponimdir.

**Əlixan**- İrəvan quberniyasının Aleksandropol qəzasında,indi Qızılqoç (Qukasyan) rayonunda kənd.Rayon mərkəzindən 34 km məsafədə yerləşir.1937 –ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur.

Toponim Əlixan şəxs adı əsasında əmələ gəlmişdir.Antropotoponimdir.Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.1.1935 –ci il tarixli fərmanı ilə adı dəyişdirilib Getik (Çaykənd) qoyulmuşdur.

**Əliçopur**-İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indiki Qaranlıq (Martuni) rayonu ərazisində kənd.Kənddə 1829-32 –ci illərdə 28 nəfər azərbaycanlı yaşamışdır (427, s.89).

Toponim Əli şəxs adı ilə çopurlu tayfa adı(92, s.19) əsasında əmələ gəlmişdir.**Çopurlu** etnonimindəki –lu şəkilçisi toponimdə düşmüşdür.<<Çopurlu tayfasından olan Əliyə məxsus kənd,çopurlu tayfasından olan Əlinin saldığı kənd>> mənasını ifadə edir.Etnotoponimdir.Quruluşca mürəkkəb toponimdir.

**Əlişar-** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında,indi Sisyan rayonunda kənd.Rayon mərkəzindən 18-20 km cənub-qərbdə,Sofulu kəndinin yaxınlığında yerləşirdi.Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.13).

Kənddə 1886 –cı ildə 138 nəfər, 1897 –ci ildə 48 nəfər, 1908 –ci ildə 160 nəfər, 1914 –cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77,146-147).1918 –ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur.İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ

qalanlar öz kəndlərinə dönə bilmişdir.Burada 1922 –ci ildə 105 nəfər, 1926 –cı ildə 104 nəfər, 1931 –ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147).30 –cu illərin sonlarında kəndin sakinləri qonşu Sofulu kəndinə köçürülərək kənd ləğv edilmişdir.İndi xaraba kənddir.

Toponim qədim türk dilində <<alçaq dağ>> mənasında işlənən alaşar sözünün (359, l(1), s.365) fonetik variantı olan (alışar) sözü əsasında yaranmışdır.Orotoponimdir.Quruluşca sadə toponimdir.

**Əmirxan yaylağı-** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında,indi Quqark rayonunda yaylaq.Rayondakı Hallavar kəndinin ərazisində yerləşir.Şəxs adı əsasında əmələ gəlib.Antroporonimdir.Quruluşca mürəkkə oronimdir.

**Əmirxeyir**- Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında,indi Çəmbərək (Krasnoselo) rayonunda kənd.Rayon mərkəzindən 20 km şimal-qərbdə, dağlıq, meşəlik ərazidə yerləşir.Erməni mənbələrində kəndin adı Əmirxer, Əmirxeyir, Əmirxir, Əmirxer formalarında da qeyd edilir (415, s.30; 427, s.427,s.222;419,s.54).

Kənddə 1897-ci ildə 161 nəfər, 1919-cu 151 nəfər azərbaycanlı yaşamışdır (415 ,s.30-31, 114-115).1919-cu ilin mart ayının axırlarında kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur.İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılar doğma ocaqlarına dönə bilmişdir.Burada 1922-ci ildə 132 nəfər, 1926-cı ildə 216 nəfər ,1931 –ci ildə250 nəfər(415 s.31 115),1939-cu ildə295 nəfər, 1970 –ci ildə 715 nəfər, 1979-cu ildə 720 nəfər(427 s.222), 1987-ci ildə 500 nəfər azərbaycanlı yaşamışdır.1988-ci ilin noyabrın 24-28-də Ermənistan dövləti kəndin sakinlərini tarixi-etnik torpaqlarından deportasiya etmişdir.İndi ermənilər yaşayır.

Toponim Əmir şəxs adı ilə türk dilində <<sıldırım, qaya>> ,<<sıldırımlı qaya>> mənasında işlənən kayır//kair,xayr sözünün(339, s.241, 589) birləşməsindən əmələ gəlmişdir.Antropotoponimdir.Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.lV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kalavan qoyulmuşdur.

**Əmrəkar-** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında,indiki Meğri rayonunda kənd.Rayon mərkəzindən 9-10 km şimal-qərbdə yerləşirdi.

Kənddə 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 67 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,s.66-67, 142-143). 1940-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Əmir şəxs adı ilə türk dilində «sıldırım», «qaya», «sıldırımlı qaya» mənasında işlənən kayır //kair (339, S..241), «sıldırım qaya» mənasında işlənən kar (323, s.107) sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Əpəkli -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonu ərazisində xutor. 1897-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə onlar deportasiya olunaraq yaşayış məntəqəsi ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim əpəkli nəsil adı əsasında əmələ gələn patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Ərəfsə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 20 km cənub-qərbdə, Bazarçay çayının sağ sahilində, dağ ətəyində yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Ərəfsəcik formasında (143, s.183), Qafqazın 5 verstlik xəritəsində Ərəvsə kimi (348, s.17) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 19 nəfər, 1873 - cü ildə 169 nəfər, 1886-cı ildə 148 nəfər, 1897-ci ildə 123 nəfər, 1908-ci ildə 168 nəfər, 1914 - cü ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1917-ci ilin sonlarında azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 151 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 225 nəfər (415, s.77, 147), 1959 - cu ildə 478 nəfər, 1970-ci ildə 551 nəfər, 1979 - cu ildə 476 nəfər (427, s.426-427) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim kəngərli türk tayfasından olan ərəfsəli etnonimindən (386, s.537) əmələ gəlmişdir.

Erm.SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Arevis (Ərəfsə sözünün ermənicə tələffüzü) qoyulmuşdur.

**Ərzəkənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-qərbdə, Zəngi çayının sol qolu olan Dəllər çayının sağ tərəfində, Güllü dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərzqan kimi (143, s.78), Qafqazın 5 verstlik xəritəsində Arzakənd (348, s.19), erməni mənbələrində Arzakan (427, s.431) formasında qeyd edilmişdir. Ərzəkənd kəndinin adı erməni dilinə uyğunlaşdırılaraq Arzakan//Ərzəkan adlandırılmışdır.

Kəndin əsas sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-30 - cu illərdə İranın Maku, Xoy, Türkiyənin Bayazed, Muş vilayətlərindən və habelə Tiflisdən köçürülmüşdür (427, s.431).

Kənddə 1831-ci ildə 33 nəfər, 1873 - cü ildə 239 nəfər, 1886-cı ildə 312 nəfər, 1897-ci ildə 255 nəfər, 1908-ci ildə 528 nəfər, 1914 - cü ildə 786 nəfər azərbaycanlı, 1916-cı ildə 1633 nəfər azərbaycanlı və erməni yaşamışdır (415, s. 16-17, 106-107). Kənddə 1831-ci ildə 33 nəfər azərbaycanlı, 200 erməni, 1897-ci ildə 255 nəfər azərbaycanlı, 869 erməni, 6 kürd yaşadığı halda (415, s.16-17, 106-107), «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğətində kənddə 1831 və 1897-ci illərdə yaşamış azərbaycanlılar ermənilərin tərkibində verilərək göstərilir ki, kənddə 1831-ci ildə 233, 1897-ci ildə 1179 erməni yaşamışdır (427, s.431). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə 20 nəfər, 1926-cı ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s.17, 107). 1928-1930 - cu illərdə azərbaycanlılar zorla öz doğma kəndlərindən qouvulmuşlar. İndi yalnız ermənilər yaşayır.

Toponim ərz və kənd sözlərindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu toponimdir.

**Ərzni -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayondan şimal-qərbdə, Zəngi çayının sol sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.36), Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir. Kəndin başqa adı Sərçəli olmuşdur (427, s.435). İlk dəfə XV əsrdən xatırlanır.

Kənddə 1873 - cü ildə 96 nəfər, 1886-cı ildə 197 nəfər, 1897-ci ildə 121 nəfər, 1904 - cü ildə 439 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Burada indi ermənilər və aysorilər yaşayır.

**Ərikli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 60 nəfər, 1886-cı ildə 106 nəfər, 1897-ci ildə 88 nəfər, 1908-ci ildə 126 nəfər, 1914 - cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1917-18-cı illərdə azərbaycanlılar qırğınlarla deportasiya edilmiş və kənd dağıdılmışdır. İndi xaraba kənddir.

Toponim ərik meyvə adına -li sözdüzəldici şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Ərinc -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 16-17 km şimal-şərqdə, Arpaçayın sağ qolu olan Ərinc çayın sahilində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərsinc kimi (143, s.60), «Naxçıvan sancağının müfəssəl dəftəri»ndə Ərnic kimi (218, s.60), Qafqazın 5 verstlik xəritəsində Arinc formasında (348, s.19), O.Yeğiazaryanın 1955-ci ildə erməni dilində çap olunmuş «Əzizbəyov rayonunun mədəniyyət abidələri» kitabında «Ərinc kənd yeri» (422, s.109)formasında qeydedilmişdir.

Kəndin adı XIII əsrdən xatırlanır (422,s.109; 427, s.327).

Burada 1831-ci ildə 177 nəfər, 1873 - cü ildə 129 nəfər, 1886-cı 152 nəfər, 1897-ci ildə 200 nəfər, 1904 - cü ildə 264 nəfər, 1914 - cü ildə 290 nəfər, 1916-cı ildə 252 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Kənddə 1922-ci ildə 23, nəfər 1926-cı ildə 103 nəfər, 1931-ci ildə 171 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159), SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənd sakinləri azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1949 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim, fikrimizcə, türk dilində «möhkəm», «qüvvə», «qüvvətli», «dövlət» mənasında işlənən erinq sözündən (235, s.88) əmələ gəlmişdir. Azərbaycan dilində e~ə, ç~c səs əvəzlənmələrinin qanunauyğunluğunu nəzərə alsaq, onda bu qənaətə gəlmək olar ki, Ərinc elə erinq sözünün dəyişilmiş formasıdır. Quruluşca sadə toponimdir.

**Ərinc -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Ərinc kəndinin ərazisindən axır.

**Ərgəz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunun Ərgəz kəndində məscid. Malışkə kəndindən 5 km şimal-şərqdə yerləşir. Məscid 629-630 - cu illərdə tikilmişdir. Məscid 1857-ci ildə uçurulmuşdur. 1871-cı ildə yenidən bərpa edilmişdir (427, s.428).

**Ərgəz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Kəndin adı erməni mənbələrində Arkazan kimi də göstərilir (427, s.455). Rayondakı Keşişkəndin yaxınlığında, Ərgəzçayın və Axdərə çayının sahilində, Malışkə kəndindən 5-6 km məsafədə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59), Qafqazın 5 verstlik xəritəsində (348, s.18) qeyd edilmişdir.

Kənd 735-ci ildə salınmışdır (427, s.455). Burada 1831-ci ildə 193 nəfər, 1873 - cü ildə 348 nəfər, 1886-cı ildə 479 nəfər, 1897-ci ildə 587 nəfər, 1904 - cü ildə 745 nəfər, 1914 - cü ildə 820 nəfər, 1916-cı ildə 758 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161).

1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «dağın gün düşən tərəfi» mənasında işlənən er//ir sözünün (299, s. 175,211) fonetik forması olan ər sözü ilə «gədiyin ən aşağı yeri» mənasında işlənən gəz sözünün (253, s.126) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ərgəzçay** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində çay.

**Əsəd düzü** - Zəngəzur sıra dağlarında, Qafan rayonunun ərazisində dağ. Əlincə çayının sağ sahilindən zirvəyə doğru 9 km məsafədə yerləşir. Hündürlüyü 2000 m-dir (85, s.143).

Toponim şəxsi adı ilə Azərbaycan dilində «düzənlik» mənasında işlənən düz sözünün birləşməsindən əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Əskipara** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir.

Toponim türk dilində «qədim, köhnə» mənasında işlənən əski sözü ilə «torpaq sahəsi» (339, s.428), «yarı hissə» (278, s.120) mənasında işlənən para sözü əsasında əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir. Kəndin adını dəyişdirilib Voskepar qoyulmuşdur.

**Əskilum** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 21 km cənub-şərqdə, Oxçu çayının sağ sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.21).

Toponim türk mənşəli bulqar etnoniminə mənsub iskil //eskil (> əskil.B.) etnonimi (287, s.135) əsasında əmələ gəlmiş etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Əskili çayı** - Yelizavetvol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda çay. Hidronim bulqar türk tayfasına mənsub eskil //iskil etnonimi (287, s.135) əsasında formalaşmışdır. Etnohidronimdir.

**Ətlik gölü** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda göl. Rayondakı Cücəkənd (Qızıl şəfəq) kəndində yerləşir.

**Əfəndi** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-şərqdə, Göyçə gölünün şimal-şərq sahilində yerləşir.

Kəndin başqa adı erməni mənbəyində Rəhmankənd, Noraşen kimi də göstərilir (415, s.70). Lakin kəndin qədim və ilkin adı Əfəndikənd olmuşdur (415,s.70). 1930 - cu illərdə Kəvər (Kamo) rayonunun tərkibində olmuşdur.

Kənddə XII əsrə aid azərbaycanlılara məxsus tarixi abidələr var.

Kənddə 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 224 nəfər, 1886-cı ildə 314 nəfər, 1897-ci ildə 422 nəfər, 1904 - cü ildə 479 nəfər, 1914 - cü ildə 654 nəfər, 1916-cı ildə 650 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,s.70-71,144-145). 1918-ci ildə Kəndin sakinləri ermənilər tərəfindən vəhşicəsinə qovulmuşlar. Ermənilər buraya 1918-20-cı illərdə Türkiyədən köçürülmüşdür. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönüb ermənilərlə bir yerdə yaşamağa məcbur olmuşlar.

Burada 1922-ci ildə ermənilərlə yanaşı 7 nəfər, 1926-cı ildə 5 nəfər, 1931-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.70-71,144-145). 1940-cı illərdə azərbaycanlılar tamamilə deportasiya olunmuşdur.

Toponim Əfəndi şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadədir. Kəndin adı Erm. SSR AS RH-nin 4.1.1938-ci il fərmanı ilə adı dəyişdirilib Noraşen (Yeni kənd) qoyulmuşdur.

**Əfəndi** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 5-7 km cənub-şərqdə, Pəmbək çayının sağ qolu üzərində, Qursalı kəndi ilə Saral kəndinin arasında yerləşir. Hamamlı rayonu təşkil edilənə kimi, 1937-ci ilə kimi, Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.303) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 238 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51). 1905-1906-cı illərdə kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. 1915-1918-ci illərdə Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir (85, s.333). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1926-cı ildə burada 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51).

1930 - cu ildə onlar kənddən sıxışdırılıb çıxarılmışdır. İndi yalnız ermənilər yaşayır.

Toponim Əfəndi şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Karadzor qoyulmuşdur.

**Əfsərli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir. 1960-cı ildə ləğv edilmişdir.

Toponim əfşar qədim türk tayfasının adına (399,I,s.56; 288, s.40; 175, s.32) mənsubluq bildirən -li şəkilçisinin artırılması əsasında əmələ gəlib «əfşar tayfasına mənsub olan yer, ərazi, kənd» mənasını ifadə edir. ş~s və a~ə səs dəyişməsi Azərbaycan dili üçün qanunauyğun haldır. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Əfsərli çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda çay. Hidronim əfşar türk tayfasının adı (399, I, s.56) əsasında əmələ gəlmişdir. Etnohidronimdir.

**Əfşar karvansarası -** İrəvan şəhərində karvansara.

**Axılı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə, Arpaçayın sahilində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59) qeyd edilmişdir.

Azərbaycan dilli mənbələrdə kəndin adı Ağıllı, Axili (85, s.340), Əxili (62, s. 258) formalarında qeyd edilir.

Kənddə 1831-ci ildə 11 nəfər, 1873 - cü ildə 23 nəfər, 1886-cı ildə 39 nəfər, 1897-ci ildə 38 nəfər, 1904 - cü ildə 36 nəfər, 1914 - cü ildə 36 nəfər, 1916-cı ildə 50 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,8.88-89,158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim «dərviş icmasının adı» mənasında işlənən axı sözünə (359, l(1), s.132) - lı şəkilçisinin qoşulmasından əmələ gələn axılı nəsil adı əsasında əmələ gəlmişdir.

**Əxlətyan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 12 km cənubda, Bazarçayın sağ tərəfində yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183), Qafqazın 5 verstlik xəritəsində (348, s.23) qeyd edilmişdir.

Erməni mənbələrində Axlatyan formasında yazılır (427, s.117). Toponim ehtimal ki, «qardaşlar» mənasında işlənən əxi sözü ilə bağlıdır.

**Əhmədağa -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Rayondakı Qarnidzor kəndindən 3-3,5 km şimal-şərqdə, dağ ətəyində yerləşirdi. Xaraba kənddir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Əhmədli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonu ərazisində kənd. Əyricə çayının sahilində yerləşirdi. XIX əsrin axırlarında kənd ləğv edilmişdir. XIX əsrdə burada 15 nəfər azərbaycanlı yaşamışdır.

Toponim səlcuq türklərindən olan əhmədli etnonimi (245, s.43) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Əştərək -** İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. İndi Əştərək rayonunda şəhər və Ermənistan adlanan respublikada eyni adlı rayon. İrəvan şəhərindən 20 km şimal-qərbdə, Kasaq çayının yanında yerləşir. Erməni mənbələrində Əştərək adına IX əsrdən rast gəlinir (427, s.297).

IV əsrlərdə Arşakilərin, VIII-X əsrlərdə ərəblərin, IX-XI əsrlərdə Şirak hakimiyyətinin tabeliyində Pəhləvilərin hökmranlığı altında olmuş, XI-XVI əsrlərdə Səlcuq türklərinin tabeliyində, XVI-XIX əsrlərdə İrəvan xanlığına tabe olan Karbibasar mahalının tərkibində olmuşdur. 1828-ci ildə rus işğalından sonra İrəvan quberniyasının İrəvan qəzasının, sonra Eçmiədzin qəzasının tabeliyinə keçmişdir. İndi Ermənistan adlanan ərazidə sovet hökuməti qurulandan sonra 1929 - cu illərdə rayonlaşdırma inzibati-ərazi bölgüsü yaradıldı. Əştərək 9 sentyabr 1930 - cu ildə yaradılan rayonun adı oldu.

1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Əştərək kimi (143, s.162), 1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Karbi nahiyyəsinin tərkibində Aştarak (143, s.75), Qafqazın 5 verstlik xəritəsində Əştərək (Aştarak) kimi (348, s.24) qeyd edilmişdir. Danışıq dilində Həştərək formasında işlədilir.

Erməni alimləri Əştərək (Aştarak) toponiminin erməni dilində «qüllə» mənasında işlənən aştarak (qüllə) sözündən əmələ gəldiyi göstərirlər (318, s.81-82; 427, s.297). Lakin bu, ermənilərin izahıdır və elmi həqiqətdən uzaqdır. Toponim türk dili materialları əsasında düzgün izah edilə bilir.

Əştərək toponimi türk dilində «yüksək dağ keçidi» mənasında işlənən aşu (>aş -İ.B) sözü ilə (339, s.61; 23, s.115) türk dilində «qırışıqlı dağ yüksəkliyi», «parçalanmış daş qırıntıları» (çınqıl) (многозубчатые вершины ломаные горные гребни изобилуюшие пиками), «uca, çoxdişli (daraq şəkilli) dağ» mənasında işlənən tarak sözündən (339, s.543; 23, s.116) əmələ gəlmişdir. Bu söz «dağ başında çılpaq qaya» mənasında Dağlıq Altayın toponimlərinin tərkibində tarakay formasında işlənir (337, s.239). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

# Z

**Zabazadur** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 12 km məsafədə, Axlatyan kəndinin yaxınlığında yerləşmişdir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə qeyd edilmişdir(143,s.183).

Kənddə 1873 - cü ildə 53 nəfər, 1886-cı ildə 64 nəfər, 1897-ci ildə 103 nəfər, 1908-ci ildə 243 nəfər, 1914 - cü ildə 120 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-1247). 1918-ci ilin iyun ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Kənd xarabalığa çevrilərək ləğv edilmişdir. İndi xaraba kənddir.

**Zağabaşı** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində yaşayış məntəqəsi. Burada 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45).

XX əsrin əvəllərində azərbaycanlılar qovuluraq yaşayış məntəqəsi ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «mağara», «kaha» mənasında işlənən zağa sözü ilə (10, s.317), «zirvə», «təpə», «əvvəl», «başlanğıc», «çayın yuxarısındakı yerlər», «əsas» mənasında işlənən baş sözünün (253, s.100; 278, s.34; 339, s.76-77) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Zamanın arxacı** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda yaylaq. Rayondakı Göykilsə (Kaputan) kəndində yerləşir. Zaman şəxs adı əsasında yaranan antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zar** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.81), Qafqazın 5 verstlik xəritəsində (348, s.96) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 89 nəfər, 1873 - cü ildə 490 nəfər, 1886-cı ildə 634 nəfər, 1897-ci ildə 757 nəfər, 1914 - cü ildə 1250 nəfər (415, s.44-45, 124-125), 1918-ci ilin yanvarında 706 nəfər (309, s.216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). Türkiyədən köçürülən ermənilər 1918-1919 - cu illərdə burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma ocaqlarına dönə bilmişlər. Burada ermənilərdən başqa 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 51 nəfər, 1931-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 24-25). SSRİ Nazirlər Sovetinin xüsusi qərarına əsasən azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim türk dilində «yarğan» mənasında işlənən car (zar -İ.B.) sözü (339, s. 178-179) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Zeyvə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-qərbdə, Oxçu çayı ilə Gığı çayının qovuşduğu yerdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.97).

Kənddə 1926-cı ildə 14 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135).

Toponim ərəb dilində «güşə,künc,bucaq» mənasında işlənən zaviyə sözü (104, s.207) əsasında əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 29.VI.1949 - cu il fərmanı ite kəndin adı dəyişdirilib Davidbəy qoyulmuşdur.

**Zeyvə körpüsü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda Gığı çayının üstündə körpü. XIII əsrdə tikilib. 1950-ci illədək işlək olub. İndi iki tağı qalıb.

**Zeynalağalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd.

Kənddə 1831-ci ildə 45 nəfər, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1840-cı illərdə kəndə ruslar, 1918-ci ildə ermənilər yerləşdirilmişdir. Azərbaycanlılar **XX** əsrin əvvəllərində (1905-1906-cı illərdə) kənddən qovulmuşdur.

Toponim Zeynalağa şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib «Zeynalağaya mənsub yer, kənd» deməkdir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

1850-ci illərdə kəndin adı dəyişdirilib Aleksandrovka qoyulmuşdur. Sonra Erm.SSR AS RH-nin 22.ll.1939 - cu il fərmanı ilə kəndin adı ikinci dəfə dəyişdirilərək Çkalovka adlandırılmışdır.

**Zeynal bulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.97) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 41

nəfər, 1914 - cü ildə 61 nəfər (415, s.22-23, 106-107), 1918-ci ilin yanvarında 295 nəfər (309, s.219) azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir (309, s.219).

Toponim Zeynal şəxs adı və bulaq sözündən əmələ gəlmişdir. Kənd Zeynal adlı adamın düzəltdiyi bulağın yanında salındığı üçün «Zeynalbulaq» adlanmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zeytə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə, Arpaçayın bir qolu olan Zeytədərəsi çayının sahilində yerləşir. Erməni mənbələrində kəndin adı həm də Çopma, Çomap, Zeta, Çapma, Zeyvə kimi göstərilir (415, s.88). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 67 nəfər, 1873 - cü ildə 224 nəfər, 1886-cı ildə 261 nəfər, 1897-ci ildə 324 nəfər, 1916-cı ildə 403 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 34 nəfər, 1926-cı ildə 147 nəfər, 1931-ci ildə 228 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1988-ci ilin noyabr ayında Ermənistan dövləti kəndin sakinlərini deportasiya etmişdir. İndi ermənilər yaşayır.

Yuxarıda qeyd etdik ki, kəndin qədim adları çox olmuşdur və biri də «Zeyvə»dir. Onda bu qənaətə gəlirik ki, Zeytə, Zeyvə sözünün fonetik formasıdır. Deməli, ərəb dilində «künc», «bucaq» mənasında işlənən zaviyə (>zeyvə >zeytə) sözündən əmələ gəlib.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zedsa qoyulmuşdur.

**Zeytədərəsi çayı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Zeyvə kəndinin ərazisindən axır.

**Zəngəzur -** Azərbaycanın Zəngilan, Qubadlı, Laçın, eləcə də qədim Azərbaycan torpaqları olan 1920-ci ildə indiki Ermənistanın tabeliyinə verilən Meğri, Qafan, Görus və Sisyan rayonlarını əhatə edən ərazi, mahal. Zəngəzur ərazi etibarilə Araz çayı boyu ilə Meğridən başlamış Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək ərazini əhatə edir (85, s.121). XIX əsrdə yeni inzibati ərazi bölgüsünə əsasən, Qafan, Gorus, Meğri, Sisyan rayonları Zəngəzur qəzası adı ilə Yelizavetpol (Gəncə) quberniyasma daxil olmuşdur. Zəngəzur zəngilər türk tayfasının adı əsasında yaranmışdır. F.Sümər yazır: «Əlcazair və Suriya hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər» (238, s. 123).

Toponimin sonundakı «zur» türk dilində «dərə», «yarğan» mənasında işlənən car (>zar>zur - İ.B) sözünün (339, s. 178-179) fonetik variantıdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zəngi** - İrəvan quberniyasında, indiki Ermənistanda çay. Bu çay başlanğıcını Göyçə gölündən alır. Axta (Razdan), Sevan rayonlarından, İrəvan şəhərindən, Zəngibasar (Masis) rayonunun ərazisindən axıb Araz çayına tökülür. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.95) qeyd edilmişdir.

Çayın adı qıpçaqların zəngi tayfasının adı (238, s. 123,257; 256, s.26) əsasında əmələ gəlmişdir. Etnohidronimdir. Çayın adı dəyişdirilib Razdan çayı qoyulmuşdur.

**Zəngibasar** - İndiki Ermənistanda inzibati rayon. Qəmərli (Artaşat) rayonundan 18 kənd, Vağarşabad (Eçmiədzin) rayonundan 14 kənd götürülüb 1937-ci il dekabrın 1-də Zəngibasar rayonu təşkil edilmişdir. 1953 - cü ildə rayon ləğv edilərək ərazisi Qəmərli (Artaşat) və Vağarşabad (Eçmiədzin) rayonları arasında bölüşdürülmüşdür. 1969 - cu il yanvarın 14-də yenidən rayon bərpa edilərək Masis rayonu adlandırılmışdır. Rayonun indiki ərazisi 428-640-cı illərdə Ayrarat qəzasının tərkibində, VII-XI əsrlərə qədər ərəb işğalı altında olmuşdur. XI əsrdən Səlcuq türklərinin, 1230 - cu ildə monqol-tatarlarının tabeliyində olmuşdur. XVI əsrdən Çuxur Səd bəylərbəyliyinin, XVIII əsrdən XIX əsrin əvvəllərinə kimi İrəvan xanlığının tərkibinə, XlX əsrdən XX əsrin 20-cı illərinə qədər İrəvan quberniyasının İrəvan qəzasının tərkibinə daxil edilmişdir (Ermənistan Sovet Ensiklopediyası, VI c., İrəvan, 1980, s.269).

Toponim qıpçaq tayfalarından olan zəngi (238, s. 123,257;256, s.26) və basar türk etnonimləri (286, s.61) əsasında əmələgəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.Erm.SSR AS RH-nin 31.VI.1950-ci ildə adı dəyişdirilib Masis qoyulmuşdur.

**Zəngilər** - İndiki Ermənistanın Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Zəngi çayının sahilində yerləşir. 3 yanvar 1935-ci ilə kimi kəndin adı Donuzgiən

(Donuzgirən) olmuşdur. Burada 1988-ci ilin noyabr-dekabr ayına kimi yalnız azərbaycanlılar yaşamışdır. Bax: Donuzgiən //Donuzgirən.

Zəngilər toponimi də türk mənşəlidir. Türk əsilli zəngilər nəsil adı ilə bağlıdır. F.Sümər yazır: «Əlcəzair və Suriyə hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər» (238, s.123). Ərəb ölkələrindəki məmlük türkləri qıpçaq tayfalarıdır (256, s.26). Deməli, zəngilər qıpçaq tayfalarından biridir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Zorak qoyulmuşdur.

**Zərzibil** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 15 km şərqdə, Məzrə çayının yaxınlığında yerləşir.

XVI əsrdə İrəvan qəzasının Göyçə mahalında Zar nahiyyəsi və Zabil nahiyyəsi, o cümlədən Zar kəndi və Baş Zebil kəndi olmuşdur (143, s.180-181). Sonralar bu nahiyyələr ləğv edilmiş, Basarkeçər rayonu da daxil olmaqla Göyçə mahalında Göyçə nahiyyəsi, Məzrəə nahiyyəsi yaradılmışdır. XVIII əsrdə Basarkeçər rayonunda yalnız Zar kəndi qeydə alınmışdır (143, s.55-62).

Qafqazın 5 verstlik xəritəsində Zərzibil kəndinin adı qeyd edilmişdir (348, s.96). Bu deyilənlərdən belə qənaətə gəlirik ki, Zərzibil kəndi Zar və Zebil kənd adlarının birləşməsindən əmələ gəlmişdir.

Kənddə 1831-ci ildə 202 nəfər, 1873 - cü ildə 462 nəfər, 1886-cı ildə 653 nəfər, 1897-ci ildə 754 nəfər, 1908-ci ildə 963 nəfər, 1914 - cü ildə 1005 nəfər, 1916-cı ildə 968 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kədlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 581 nəfər, 1926-cı ildə 631 nəfər, 1931-ci ildə 808 nəfər (415, s.26-27, 110-111), 1987-ci ildə 2000 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «yarğan», «dərə» mənasında işlənən zar (car -İ.B) sözü (339, s.178-179) əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-3.I.1935-ci il fərmanı ilə adı dəyişdirilib Zərkənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə ikinci dəfə dəyişdirilib Kut qoyulmuşdur.

**Zimmi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Məngük kəndinin yaxınlığında, Zimmi dərəsində, Yağan dağının ətəyində yerləşirdi.

1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Zimmi Vedisi formasında (143, s.51) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 184 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 322 nəfər, 1904 - cü ildə 259 nəfər, 1914 - cü ildə 285 nəfər, 1916-cı ildə 216 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanı kəndlərinə dönə bilmişlər. 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1948-49 - cu illərdə kəndin sakinləri SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə tarixi-etnik torpaqlarından deportasiya olunaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim VII əsrdə Arran əhalisinin islam dinini qəbul etməyən hissəsinə xristianlara ərəblərin verdiyi Zimmi sözü (63, s.126; 23, s.252-254) əsasında formalaşmışdır. İslamı qəbul edən yerli əhalini ərəblər movla, islamı qəbul etməyənləri Zimmi adlandırmışlar (23, s.252). Quruluşca sadə toponimdir.

**Zirak -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın sol qolu olan Zirakçay çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.98) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 43 nəfər, 1873 - cü ildə 169 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 223 nəfər, 1914 - cü ildə 433 nəfər, 1916-cı ildə 423 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kəndə ermənilər təcavüz edərək azərbaycanlıları deportasiya etmişlər. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1923-24 - cü illərdə sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1926-cı ildə 158 nəfər, 1931-ci ildə 545 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk tayfalarından olan siraq etnonimi (377, s.480, 235, s.51-59) əsasında əmələ gəlmişdir. Zirak, Sirak etnoniminin variantıdır və Azərbaycan dilində s~z səsəvəzlənməsi qanunauyğun haldır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Zirakçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Zirak kəndinin ərazisindən axır. Hidronim sirak //şirak etnoniminin adını (377, s.480; 235, s.51-59) əks etdirir. Etnohidronimdir.

**Zoğallı bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda bulaq. Zoğal bitki adı əsasında yaranan fitohidronimdir.

**Zod** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-şərqdə, Zod çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.62), Qafqazın 5 verstlik xəritəsində (348, s.98) qeyd edilmişdir.

Erməni mənbəyində kəndin adı həm də Zot, Sot formasında qeyd edilir (415, s.26).

Kəndin ərazisində IX-XII əsrlərə aid. azərbaycanlılarla bağlı tarixi abidələr (alban kilsəsinin, oğuz qəbiristanlığının xarabalıqları) vardır.

Kənddə 1831-ci ildə 245 nəfər, 1873 - cü ildə 905 nəfər, 1886-cı ildə 1088 nəfər, 1897-ci ildə 1584 nəfər, 1908-ci ildə 1717 nəfər, 1914 - cü ildə 1988 nəfər, 1916-cı ildə 1717 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1919 - cu ilin aprelində azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə 1046 nəfər, 1926-cı ildə 1325 nəfər, 1931-ci ildə 1599 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.27, 111). 1988-ci ilin noyabrında azərbaycanlılar yenidən öz doğma kəndlərindən Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi ermənilər məskunlaşıb.

Toponim türk mənşəli sotk //sodk etnonimi (168, s.106-107) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Toponim Sotk>Södk>Zod inkişaf prosesi keçirmişdir. Azərbaycan dilində s~z və t~d səsəvəzlənməsi qanunauyğun haldır. Etnonimin tərkibindəki «k» səsi qədim türk dilində cəmlik, çoxluq mənalarını bildirmişdir. Lakin sonralar etnonimdəki fonetik dəyişmələr nəticəsində «k» samiti düşmüşdür.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə Zod kəndinin adı dəyişdirilib Sotk adlandırılmışdır.

**Zor körpüsü -** Barana (Noemberyan) rayonundakı Voskepar kəndində körpü. VIII əsrdə tikilib.

**Zorba -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Sorik qoyulmuşdur.

**Zöhrablı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Kəndin digər adı Zorbalı olmuşdur (415, s.48). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.75) qeyd edilmişdir. Burada tarixən azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə kəndə İrandan köçürülən ermənilər yerləşdirilmiş və azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim qaşqay türk tayfasından olan zöhrablı nəsil adı əsasında (142, s.39) əmələ gəlmişdir. Patronomik toponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Mrqanuş qoyulmuşdur.

## Z

**Zabazadur** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 12 km məsafədə, Axlatyan kəndinin yaxınlığında yerləşmişdir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə qeyd edilmişdir(143,s.183).

Kənddə 1873 - cü ildə 53 nəfər, 1886-cı ildə 64 nəfər, 1897-ci ildə 103 nəfər, 1908-ci ildə 243 nəfər, 1914 - cü ildə 120 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-1247). 1918-ci ilin iyun ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Kənd xarabalığa çevrilərək ləğv edilmişdir. İndi xaraba kənddir.

**Zağabaşı** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində yaşayış məntəqəsi. Burada 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45).

XX əsrin əvvəllərində azərbaycanlılar qovuluraq yaşayış məntəqəsi ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «mağara», «kaha» mənasında işlənən zağa sözü ilə (10, s.317), «zirvə», «təpə», «əvvəl», «başlanğıc», «çayın yuxarısındakı yerlər», «əsas» mənasında işlənən baş sözünün (253, s.100; 278, s.34; 339, s.76-77) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Zamanın arxacı** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda yaylaq. Rayondakı Göykilsə (Kaputan) kəndində yerləşir. Zaman şəxs adı əsasında yaranan antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zar** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.81), Qafqazın 5 verstlik xəritəsində (348, s.96) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 89 nəfər, 1873 - cü ildə 490 nəfər, 1886-cı ildə 634 nəfər, 1897-ci ildə 757 nəfər, 1914 - cü ildə 1250 nəfər (415, s.44-45, 124-125), 1918-ci ilin yanvarında 706 nəfər (309, s.216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). Türkiyədən köçürülən ermənilər 1918-1919 - cu illərdə burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma ocaqlarına dönə bilmişlər. Burada ermənilərdən başqa 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 51 nəfər, 1931-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 24-25). SSRİ Nazirlər Sovetinin xüsusi qərarına əsasən azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim türk dilində «yarğan» mənasında işlənən car (zar -İ.B.) sözü (339, s. 178-179) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Zeyvə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-qərbdə, Oxçu çayı ilə Gığı çayının qovuşduğu yerdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.97).

Kənddə 1926-cı ildə 14 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135).

Toponim ərəb dilində «güşə,künc,bucaq» mənasında işlənən zaviyə sözü (104, s.207) əsasında əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 29.VI.1949 - cu il fərmanı ite kəndin adı dəyişdirilib Davidbəy qoyulmuşdur.

**Zeyvə körpüsü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda Gığı çayının üstündə körpü. XIII əsrdə tikilib. 1950-ci elədək işlək olub. İndi iki tağı qalıb.

**Zeynalağalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd.

Kənddə 1831-ci ildə 45 nəfər, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1840-cı illərdə kəndə ruslar, 1918-ci ildə ermənilər yerləşdirilmişdir. Azərbaycanlılar **XX** əsrin əvvəllərində (1905-1906-cı illərdə) kənddən qovulmuşdur.

Toponim Zeynalağa şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib «Zeynalağaya mənsub yer, kənd» deməkdir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

1850-ci illərdə kəndin adı dəyişdirilib Aleksandrovka qoyulmuşdur. Sonra Erm.SSR AS RH-nin 22.ll.1939 - cu il fərmanı ilə kəndin adı ikinci dəfə dəyişdirilərək Çkalovka adlandırılmışdır.

**Zeynal bulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.97) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 41

nəfər, 1914 - cü ildə 61 nəfər (415, s.22-23, 106-107), 1918-ci ilin yanvarında 295 nəfər (309, s.219) azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir (309, s.219).

Toponim Zeynal şəxs adı və bulaq sözündən əmələ gəlmişdir. Kənd Zeynal adlı adamın düzəltdiyi bulağın yanında salındığı üçün «Zeynalbulaq» adlanmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zeytə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə, Arpaçayın bir qolu olan Zeytədərəsi çayının sahilində yerləşir. Erməni mənbələrində kəndin adı həm də Çopma, Çomap, Zeta, Çapma, Zeyvə kimi göstərilir (415, s.88). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 67 nəfər, 1873 - cü ildə 224 nəfər, 1886-cı ildə 261 nəfər, 1897-ci ildə 324 nəfər, 1916-cı ildə 403 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 34 nəfər, 1926-cı ildə 147 nəfər, 1931-ci ildə 228 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1988-ci ilin noyabr ayında Ermənistan dövləti kəndin sakinlərini deportasiya etmişdir. İndi ermənilər yaşayır.

Yuxarıda qeyd etdik ki, kəndin qədim adları çox olmuşdur və biri də «Zeyvə»dir. Onda bu qənaətə gəlirik ki, Zeytə, Zeyvə sözünün fonetik formasıdır. Deməli, ərəb dilində «künc», «bucaq» mənasında işlənən zaviyə (>zeyvə >zeytə) sözündən əmələ gəlib.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zedsa qoyulmuşdur.

**Zeytədərəsi çayı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Zeyvə kəndinin ərazisindən axır.

**Zəngəzur -** Azərbaycanın Zəngilan, Qubadlı, Laçın, eləcə də qədim Azərbaycan torpaqları olan 1920-ci ildə indiki Ermənistanın tabeliyinə verilən Meğri, Qafan, Görus və Sisyan rayonlarını əhatə edən ərazi, mahal. Zəngəzur ərazi etibarilə Araz çayı boyu ilə Meğridən başlamış Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarına, Zəngəzur sıra dağlarından Bərguşad dağlarınadək ərazini əhatə edir (85, s.121). XIX əsrdə yeni inzibati ərazi bölgüsünə əsasən, Qafan, Gorus, Meğri, Sisyan rayonları Zəngəzur qəzası adı ilə Yelizavetpol (Gəncə) quberniyasma daxil olmuşdur. Zəngəzur zəngilər türk tayfasının adı əsasında yaranmışdır. F.Sümər yazır: «Əlcazair və Suriya hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər» (238, s. 123).

Toponimin sonundakı «zur» türk dilində «dərə», «yarğan» mənasında işlənən car (>zar>zur - İ.B) sözünün (339, s. 178-179) fonetik variantıdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Zəngi** - İrəvan quberniyasında, indiki Ermənistanda çay. Bu çay başlanğıcını Göyçə gölündən alır. Axta (Razdan), Sevan rayonlarından, İrəvan şəhərindən, Zəngibasar (Masis) rayonunun ərazisindən axıb Araz çayına tökülür. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.95) qeyd edilmişdir.

Çayın adı qıpçaqların zəngi tayfasının adı (238, s. 123,257; 256, s.26) əsasında əmələ gəlmişdir. Etnohidronimdir. Çayın adı dəyişdirilib Razdan çayı qoyulmuşdur.

**Zəngibasar** - İndiki Ermənistanda inzibati rayon. Qəmərli (Artaşat) rayonundan 18 kənd, Vağarşabad (Eçmiədzin) rayonundan 14 kənd götürülüb 1937-ci il dekabrın 1-də Zəngibasar rayonu təşkil edilmişdir. 1953 - cü ildə rayon ləğv edilərək ərazisi Qəmərli (Artaşat) və Vağarşabad (Eçmiədzin) rayonları arasında bölüşdürülmüşdür. 1969 - cu il yanvarın 14-də yenidən rayon bərpa edilərək Masis rayonu adlandırılmışdır. Rayonun indiki ərazisi 428-640-cı illərdə Ayrarat qəzasının tərkibində, VII-XI əsrlərə qədər ərəb işğalı altında olmuşdur. XI əsrdən Səlcuq türklərinin, 1230 - cu ildə monqol-tatarlarının tabeliyində olmuşdur. XVI əsrdən Çuxur Səd bəylərbəyliyinin, XVIII əsrdən XIX əsrin əvvəllərinə kimi İrəvan xanlığının tərkibinə, XlX əsrdən XX əsrin 20-cı illərinə qədər İrəvan quberniyasının İrəvan qəzasının tərkibinə daxil edilmişdir (Ermənistan Sovet Ensiklopediyası, VI c., İrəvan, 1980, s.269).

Toponim qıpçaq tayfalarından olan zəngi (238, s. 123,257;256, s.26) və basar türk etnonimləri (286, s.61) əsasında əmələgəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.Erm.SSR AS RH-nin 31.VI.1950-ci ildə adı dəyişdirilib Masis qoyulmuşdur.

**Zəngilər** - İndiki Ermənistanın Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Zəngi çayının sahilində yerləşir. 3 yanvar 1935-ci ilə kimi kəndin adı Donuzgiən

(Donuzgirən) olmuşdur. Burada 1988-ci ilin noyabr-dekabr ayına kimi yalnız azərbaycanlılar yaşamışdır. Bax: Donuzgiən //Donuzgirən.

Zəngilər toponimi də türk mənşəlidir. Türk əsilli zəngilər nəsil adı ilə bağlıdır. F.Sümər yazır: «Əlcəzair və Suriyə hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər» (238, s.123). Ərəb ölkələrindəki məmlük türkləri qıpçaq tayfalarıdır (256, s.26). Deməli, zəngilər qıpçaq tayfalarından biridir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Zorak qoyulmuşdur.

**Zərzibil** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 15 km şərqdə, Məzrə çayının yaxınlığında yerləşir.

XVI əsrdə İrəvan qəzasının Göyçə mahalında Zar nahiyyəsi və Zabil nahiyyəsi, o cümlədən Zar kəndi və Baş Zebil kəndi olmuşdur (143, s.180-181). Sonralar bu nahiyyələr ləğv edilmiş, Basarkeçər rayonu da daxil olmaqla Göyçə mahalında Göyçə nahiyyəsi, Məzrəə nahiyyəsi yaradılmışdır. XVIII əsrdə Basarkeçər rayonunda yalnız Zar kəndi qeydə alınmışdır (143, s.55-62).

Qafqazın 5 verstlik xəritəsində Zərzibil kəndinin adı qeyd edilmişdir (348, s.96). Bu deyilənlərdən belə qənaətə gəlirik ki, Zərzibil kəndi Zar və Zebil kənd adlarının birləşməsindən əmələ gəlmişdir.

Kənddə 1831-ci ildə 202 nəfər, 1873 - cü ildə 462 nəfər, 1886-cı ildə 653 nəfər, 1897-ci ildə 754 nəfər, 1908-ci ildə 963 nəfər, 1914 - cü ildə 1005 nəfər, 1916-cı ildə 968 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kədlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 581 nəfər, 1926-cı ildə 631 nəfər, 1931-ci ildə 808 nəfər (415, s.26-27, 110-111), 1987-ci ildə 2000 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «yarğan», «dərə» mənasında işlənən zar (car -İ.B) sözü (339, s.178-179) əsasında yaranmışdır. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-3.I.1935-ci il fərmanı ilə adı dəyişdirilib Zərkənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə ikinci dəfə dəyişdirilib Kut qoyulmuşdur.

**Zimmi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd olmuşdur. Məngük kəndinin yaxınlığında, Zimmi dərəsində, Yağan dağının ətəyində yerləşirdi.

1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Zimmi Vedisi formasında (143, s.51) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 184 nəfər, 1886-cı ildə 231 nəfər, 1897-ci ildə 322 nəfər, 1904 - cü ildə 259 nəfər, 1914 - cü ildə 285 nəfər, 1916-cı ildə 216 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanı kəndlərinə dönə bilmişlər. 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1948-49 - cu illərdə kəndin sakinləri SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə tarixi-etnik torpaqlarından deportasiya olunaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim VII əsrdə Arran əhalisinin islam dinini qəbul etməyən hissəsinə xristianlara ərəblərin verdiyi Zimmi sözü (63, s.126; 23, s.252-254) əsasında formalaşmışdır. İslamı qəbul edən yerli əhalini ərəblər movla, islamı qəbul etməyənləri Zimmi adlandırmışlar (23, s.252). Quruluşca sadə toponimdir.

**Zirak -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın sol qolu olan Zirakçay çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.98) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 43 nəfər, 1873 - cü ildə 169 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 223 nəfər, 1914 - cü ildə 433 nəfər, 1916-cı ildə 423 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kəndə ermənilər təcavüz edərək azərbaycanlıları deportasiya etmişlər. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1923-24 - cü illərdə sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1926-cı ildə 158 nəfər, 1931-ci ildə 545 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk tayfalarından olan siraq etnonimi (377, s.480, 235, s.51-59) əsasında əmələ gəlmişdir. Zirak, Sirak etnoniminin variantıdır və Azərbaycan dilində s~z səsəvəzlənməsi qanunauyğun haldır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Zirakçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Zirak kəndinin ərazisindən axır. Hidronim sirak //şirak etnoniminin adını (377, s.480; 235, s.51-59) əks etdirir. Etnohidronimdir.

**Zoğallı bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda bulaq. Zoğal bitki adı əsasında yaranan fitohidronimdir.

**Zod** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-şərqdə, Zod çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.62), Qafqazın 5 verstlik xəritəsində (348, s.98) qeyd edilmişdir.

Erməni mənbəyində kəndin adı həm də Zot, Sot formasında qeyd edilir (415, s.26).

Kəndin ərazisində IX-XII əsrlərə aid. azərbaycanlılarla bağlı tarixi abidələr (alban kilsəsinin, oğuz qəbiristanlığının xarabalıqları) vardır.

Kənddə 1831-ci ildə 245 nəfər, 1873 - cü ildə 905 nəfər, 1886-cı ildə 1088 nəfər, 1897-ci ildə 1584 nəfər, 1908-ci ildə 1717 nəfər, 1914 - cü ildə 1988 nəfər, 1916-cı ildə 1717 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1919 - cu ilin aprelində azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə 1046 nəfər, 1926-cı ildə 1325 nəfər, 1931-ci ildə 1599 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.27, 111). 1988-ci ilin noyabrında azərbaycanlılar yenidən öz doğma kəndlərindən Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi ermənilər məskunlaşıb.

Toponim türk mənşəli sotk //sodk etnonimi (168, s.106-107) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Toponim Sotk>Södk>Zod inkişaf prosesi keçirmişdir. Azərbaycan dilində s~z və t~d səsəvəzlənməsi qanunauyğun haldır. Etnonimin tərkibindəki «k» səsi qədim türk dilində cəmlik, çoxluq mənalarını bildirmişdir. Lakin sonralar etnonimdəki fonetik dəyişmələr nəticəsində «k» samiti düşmüşdür.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə Zod kəndinin adı dəyişdirilib Sotk adlandırılmışdır.

**Zor körpüsü -** Barana (Noemberyan) rayonundakı Voskepar kəndində körpü. VIII əsrdə tikilib.

**Zorba -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Sorik qoyulmuşdur.

**Zöhrablı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Kəndin digər adı Zorbalı olmuşdur (415, s.48). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.75) qeyd edilmişdir. Burada tarixən azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə kəndə İrandan köçürülən ermənilər yerləşdirilmiş və azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim qaşqay türk tayfasından olan zöhrablı nəsil adı əsasında (142, s.39) əmələ gəlmişdir. Patronomik toponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Mrqanuş qoyulmuşdur.

# İ

**İbiş -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 14 km şimal-qərbdə, Türkiyə sərhəddində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348,s.100) qeyd edilmişdir. Kəndin digər adı Ayçınqılı olmuşdur (415, s.20). Kəndin sakinləri yalnız azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kənddə qarapapaqların yaşadığı göstərilir (415,s.20). Qarapapaqlar azərbaycanlılarn etnoqrafik qruplarından biridir.

Kənddə 1897-ci ildə 118 nəfər, 1906-cı ildə 460 nəfər, 1914 - cü ildə 568 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz kəndlərinə qayıtmışdır. 1922-ci ildə kənddə 221 nəfər, 1926-cı ildə 300 nəfər, 1931-ci ildə 275 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 382 nəfər, 1987-ci ildə 580 nəfər (35, s.171) azərbaycanlı yaşamışdır.

1989 - cu ilin yanvarında azərbaycanlılar öz doğma torpaqlarından ermənilər tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim şəxs adı əsasında əmələ gəlmiş antropotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dayrik qoyulmuşdur.

**İydəli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənubda, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.100) qeyd edilmişdir. 1930 - cu illərdə Qurduqulu rayonun tabeliyində olmuşdur (415, s.62).

Kənddə 1831-ci ildə 113 nəfər, 1873 - cü ildə 562 nəfər, 1886-cı ildə 629 nəfər, 1897-ci ildə 706 nəfər, 1904 - cü ildə 880 nəfər, 1914 - cü ildə 934 nəfər, 1916-cı ildə 637 nəfər (415, s. 62-63, 138-139), 1918-ci ilin əvvəlində 880 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri azərbaycanlılar ata-baba torpaqlarından deportasiya olunmuşdur (309, s.219).

Kəndə Türkiyənin Alaşkert, Bayazid, Samsun vilayətlərindən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 87 nəfər, 1926-cı ildə 55 nəfər, 1931-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində işlənən «iydə» bitki adına kəmiyyət bildirən -li şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 10.IV.1947-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Pştavan qoyulmuşdur.

**İkinci Arıqlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Burada 1907-ci ildə 150 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə xarabalığa çevrilib. Toponim qaşqay türk tayfasından olan arıqlı etnonimi (142, s.40) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlində işlənən «ikinci» sözü fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İkinci Bəhlul -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonunda kənd. Rayondakı Mastara kəndindən 8-9 km cənub-qərbdə, Sabunçu kəndinin cənub-qərbində yerləşirdi. Kənddə 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.34-35). 1940-cı ildə ləğv edilmişdir (427, s.561).

Toponim Bəhlul şəxs adı əsasında əmələ gəlmişdir. Oykonimin əvvəlindəki «ikinci» sözü Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İkinci Qayaxaraba -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd olmuşdur. Kəndin başqa adı «Kafir qalası»dır (415, s.44). Kənddə 1897-ci ildə 68 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «qayalı sıldırım yer» mənasında işlənən qaya sözü ilə «viranəlik, dağıdılmış yer» mənasında işlənən xaraba sözünün birləşməsindən əmələ gəlmişdir. «İkinci» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İkinci Qılıcyataq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Talin rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.137) qeyd edilmişdir. Burada 1897-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s.36-37). 1914-1916-cı illərdə kənddə müsəlman kürdləri yaşamışdır. Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim fərqləndirici əlamət bildirən ikinci sözündən və Azərbaycan dilində «dağın təpəsi, yoxuşun başı» mənasında işlənən qılıc sözü ilə (118, s.18; 253, s.16), «payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer» mənasında işlənən yataq sözünün (10, s.510) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**İkinci Qoşabulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 8 km cənub-qərbdə, Qoşabulaq kəndinin yaxınlığında yerləşmişdir. Erməni mənbələrində kəndin adının Qırxbulaq, Kefli olduğu da göstərilir (415, s.26). Kənddə 1897-ci ildə 178 nəfər, 1908-ci ildə 262 nəfər, 1914 - cü ildə 274 nəfər, 1916-cı ildə 244 nəfər azərbaycanlı, eyni zamanda kürdlər yaşamışdır (415, s.26-27, 112-113). 1918-1919 - cu illərdə kəndin əhalisi ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1922-ci ildə burada 59 nəfər əhali qeydə alınmışdır (415, s.112-113). 1923 - cü ildən sonra kənd xarabalığa çevrilmiş, Kəndin əhalisi Qoşabulaq kəndinə köçmüşdür. İndi ölü kənddir.

Toponim Azərbaycan dilində «cüt» mənasında işlənən qoşa sözü ilə bulaq hidronimi əsasında əmələ gəlmişdir. «İkinci» fərqləndirici əlamət bildirir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İkinci Əliyanlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. Kənddə 1886-cı ildə 137 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq köklü sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir (85, s.163). 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən «ikinci» sözü kəngərli türk tayfasından olan əliyanlı etnonimi (386, s.538) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İlanlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Qovşuq kəndinin yaxınlığında yerləşirmiş.

Kənddə 1897-ci ildə 13 nəfər, 1916-cı ildə 59 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim ilanlı türk tayfa adı (92, s.15) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**İlanlı -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-şərqdə, Arpaçayın sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.130), Qafqazın 5 verstlik xəritəsində (348, s.101) qeyd edilmişdir.

Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kəndin sakinləri kimi qarapapaqlar göstərilir və onlar xalq kimi qeyd edilir (415, s.20). Amasiya rayonunda yaşayan qarapapaqlar azərbaycanlıların bir qrupu olmaqla (ASE, lll c., B., 1979, s.64) azərbaycanlı xalqını ifadə etmişdir.

Kənddə 1886-cı ildə 137 nəfər, 1897-ci ildə 206 nəfər, 1908-ci ildə 240 nəfər, 1914 - cü ildə 276 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-1918-ci illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 146 nəfər, 1926-cı ildə 159 nəfər, 1931-ci ildə 201 nəfər (415, s.21, 105), 1970-ci ildə 501 nəfər, 1987-ci ildə 505 nəfər (35, s.171) azərbaycanlı yaşamışdır. 1988-ci ilin axırlarında və 1989 - cu ilin əvvəllərində Ermənistan dövləti kəndin sakinlərini - azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi burada ermənilər yaşayır.

Toponim ilanlı etnonimi (92, s.15) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Çaybasar, Ermənistan prezidentinin 19.IV. 1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilərək Aravet qoyulmuşdur.

**İlanlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qızılörən kəndində yerləşir. İlanlı etnonimi əsasında yaranmışdır. Etnooronimdir.

**İlançalan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 8-9 km şimalda, dəniz səviyyəsindən 1611 m hündürlükdə, Abaran çayının sağ tərəfində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.101) qeyd edilmişdir. Toponim Azərbaycan dilində işlənən ilan ismi ilə çalan feli sifəti əsasında formalaşmışdır. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

1920-ci ildə kəndin adı dəyişdirilib Artaşavan qoyulmuşdur.

**İlli Qarakilsə -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. «Şirak dağlarının şimal tərəfində Elli dərə adlanan dərədə yerləşir» (35, s.168). Erməni mənbələrində (415, s.104) və rəsmi sənədlərdə (266, s.263) İlli Qarakilsə, Qarakilsə İlli kimi yazılır. Kənddə XIX əsrin 30 - cu illərinə qədər azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə azərbaycanlılar qırğınlarla qovulmuş və İrandan, Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir.

Toponim - li şəkilçisi qəbul etmiş «bəyə tabe olan el, ərazi» mənasında işlənən il (299, s.169; 399, s.48) sözü ilə Qarakilsə toponiminin birləşməsindən əmələ gəlib «Qarakilsə kəndində yaşayan el» mənasını ifadə edir. İl sözü qədim türk dilində el sözünün sinonimi kimi işlənmişdir (299, s.207). Ümumiyyətlə, bu toponim üç komponentdən ibarətdir: il (el) +qara+kilsə. Quruluşca mürəkkəb toponimdir.

1920-ci illərdə kənd İlli adlandırılmış və Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə yenidən kəndin adı dəyişdirilib Hoğmik qoyulmuşdur.

**İllicə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 28 km şimal-şərqdə, Böyük Gilanlar kəndinin yaxınlığında, İllicə çayının yanında, Milli dərədə yerləşir. Erməni mənbələrində Yelica (415, s.156), Qafqazın 5 verstlik xəritəsində Yelincə formasında (348, s.92) qeyd edilmişdir.

1930 - cu illərdə kənd Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415, s.86).

Kənddə 1873 - cü ildə 197 nəfər, 1886-cı ildə 197 nəfər, 1897-ci ildə 327 nəfər, 1904 - cü ildə 215 nəfər, 1914 - cü ildə 377 nəfər, 1916-cı ildə 407 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qalib gəldikdən sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 58 nəfər, 1926-cı ildə 85 nəfər, 1931-ci ildə 96 nəfər, 1939 - cu ildə 181 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri 1949 - cu ildə zorla Azərbaycana köçürülmüş və xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdir.

Toponim qədim türk dilində tayfa ittifaqı mənasında işlənən el (il) sözü əsasında əmələ gəlmişdir.

**İlməzli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 7-8 km şimal-qərbdə yerləşir. Kalinino rayonu yaradılanadək Cəliloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 75 nəfər, 1886-cı ildə 212 nəfər, 1897-ci ildə 301 nəfər, 1908-ci ildə 195 nəfər, 1914 - cü ildə 188 nəfər, 1916-cı ildə 479 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yerlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 431 nəfər, 1926-cı ildə 462 nəfər, 1931-ci ildə 565 nəfər (415, s.79, 149), 1987-ci ildə 3126 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ildə ilməzlilər Ermənistan dövləti tərəfindən siyasi genosidə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində tayfa mənasında işlənən il//el sözü ilə qədim türk dilində «təpə» mənasında işlənən mar sözünün (359, ll(2), s.2025) fonetik forması olan maz sözündən əmələ gəlmişdir. Azərbaycan dilində r~z səs əvəzlənməsi (yor~ yoz, yar~yaz, gör~göz) qanunauyğun fonetik hadisə olduğunu nəzərə alıb qeyd edə bilərik ki, maz, mar sözünün fonetik formasıdır. Mürəkkəb quruluşlu toponimdir.

**İlxı qoruğu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.102) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 242 nəfər, 1886-cı ildə 345 nəfər, 1897-ci ildə 432 nəfər, 1904 - cü ildə 215 nəfər, 1914 - cü ildə 375 nəfər, 1916-cı ildə 136 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-

83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuş, sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində toplu isim kimi işlənən ilxı (at ilxısı) sözü ilə qoruq sözündən əmələ gəlib «atlar üçün qoruğun yanındakı kənd» mənasını verir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İlxı yabı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-şərqdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.102), erməni mənbələrində (415, s.122; 427, s.226) İlxıabi formasında qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. 1828-ci ildən sonra azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmağa başlamışdır. 1830 - cu ildə Türkiyənin Basin vilayətindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim ilxı sözü ilə Azərbaycan dilidə at mənasında işlənən yabı sözünün birləşməsindən əmələ gəlmişdir. «At ilxısı olan yer, at ilxısı yer yanında salınan kənd» mənasını bildirir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Ayqabats qoyulmuşdur.

**İmanşalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə, İrəvanın cənubunda, Gərni çayından axan arxın yanında yerləşir. Kəndin digər adı «İmanşahlı» olmuşdur (415, s.48).

«İrəvan əyalətinin icmal dəftəri»ndə İmanşahlı (143, s.49), Qafqazın 5 verstlik xəritəsində İmanşalu (348, s.102) formasında qeyd edilmişdir. Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə İranın Xoy, Salmas vilayətlərindən ermənilər köçürülərək kəndə yerləşdirilmişdir (386, s.551-554). Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 31 nəfər, 1873 - cü ildə 17 nəfər, 1886-cı ildə 12 nəfər, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim «şaha imanlı, şaha iman göstərənlər» mənasını verən imanşalı //imanşahlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronomik toponimdir.Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.I.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Mxçyan qoyulmuşdur.

**İmanşalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda vağzal. Erm.SSR AS RH-nın 3.I.1935-ci il fərmanına uyğun olaraq dəyişdirilib Mxçyan qoyulmuşdur.

**İmirzik -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. Dəvəgözü çayının yanında, Gərniçayın sol axarında yerləşirdi.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Əmirzik formasında (143, s.170), Qafqazın 5 verstlik xəritəsində (348, s.102) qeyd edilmişdir.

1930 - cu illərdə Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415, s.86).

Kənddə 1873 - cü ildə 188 nəfər, 1886-cı ildə 232 nəfər, 1897-ci ildə 348 nəfər, 1904 - cü ildə 254 nəfər, 1914 - cü ildə 328 nəfər, 1916-cı ildə 456 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19-cu illərdə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər.

Burada 1922-ci ildə 65 nəfər, 1926-cı ildə 96 nəfər, 1931-ci ildə 151 nəfər, 1939 - cu ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). SSRİ Nazirlər Sovetinin 1948-ci ildəki xüsusi qərarı ilə kəndin sakinləri azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. Kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim 24 oğuz tayfalarından biri olan eymur (imir) etnoniminə (309, I, s.56; 238, s.324) -zik şəkilçisinin artırılması ilə düzəlmişdir. -zik kiçiltmə mənası bildirən -cik şəkilçisinin dialekt formasıdır. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**İmirli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə, Abaran çayının sol tərəfində yerləşir. Erməni mənbələrində kəndin digər adı Əmirli göstərilir (415, s.4).

Mənbələrdə kəndin XVII əsrdə salındığı qeyd edilir (Ermənistan Sovet Ensiklopediyası, IV c., İrəvan, 1978, s.186) Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.102). Toponim oğuzların eymur etnoniminə (399, I, s.167; 238, s.324-325) mənsubluq bildirən -li şəkilçisinin qoşulması ilə əmələ gəlib «eymurların (əmirlərin) yaşadığı kənd» mənasını ifadə edir.Oğuzların eymur tayfasının adı həm də imir formasında qeyd edilir (238, s.324,326). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Ttucur (Turşsu) qoyulmuşdur.

**İmirxan -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Kəndin digər adı Emirxan, İmirxanlı kimi göstərilir (415, s.24). «İrəvan əyalətinin icmal dəftəri»ndə İmirxanlı kimi (s.129), Qafqazın 5 verstlik xəritəsində İmirxan formasında (348, s.102) qeyd edilmişdir.

Toponim imir (eymur tayfa adının fonetik forması) türk tayfasının adına (238, s.324) xan sözünün qoşulmasından əmələ gəlmişdir və «eymur//imir tayfasından olan xana məxsus kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 1.VI.1940-cı il fərmanı ilə adı dəyişdirilib Saratak qoyulmuşdur.

**İnqala -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunun ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 22-24 km şimal-şərqdə, Vediçayın sol sahilində yerləşmişdir.

Kənddə 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 124 nəfər, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuş və kənd 1922-ci ilə kimi xaraba qalmışdır.

İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişdir. 1926-cı ildə burada 30 nəfər, 1931-ci ildə 33 nəfər, 1939 - cu ildə 127 nəfər azərbaycanlı yaşamışdır (415,5.87,155). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim qədim türk dilində «daxma», «koma», «mağara» mənasında işlənən in sözü ilə (299, s.209) qala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**İnəkdağ -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 28 km şimal-şərqdə, İnəkdağ dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.102) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 317 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 517 nəfər, 1908-ci ildə 520 nəfər, 1914 - cü ildə 674 nəfər, 1916-cı ildə 423 nəfər azərbaycanlı yaşamışdır (415, s.26, 27, 112-113). 1919 - cu ilin yanvarında azərbaycanlılar ermənilər tərəfindən kənddən qırğınlarla qovulmuşlar (309, s.249). 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 297 nəfər, 1926-cı ildə 281 nəfər, 1931-ci ildə 383 nəfər azərbaycanlı yaşamışdır (415, s.27, 113). 1988-ci ildə azərbaycanlılar bir daha öz doğma kəndlərindən Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim oğuz tayfalarından olan inək etnonimi ilə (321, s.57) dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Əbülqazi göstərir ki, Duylı Kayının yanında Qorquddan başqa **iki inək bəy** (kursiv mənimdir -İ.B) var idi (321, s.57),«İnək» sözü mənşəcə monqol sözü olub «etibarlı, inanılmış», «istəkli, sevimli» mənaları ifadə edir. Bu söz qədim dövrlərdə «tayfa başçısı» mənasında işlənmişdir (321, s.99). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Yenikənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı yenidən dəyişdirilərək Tretuk qoyulmuşdur.

**İnəkdağ -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda dağ. Rayondakı İnəkdağ kəndinin ərazisində yerləşir. Oronim oğuzların inək tayfasının adını (321, s.57) əks etdirir. Etnooronimdir.

**İnəkli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-qərbdə, Abaran çayının sağ axarında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə «İnəkli məzrəsi» formasında (143, s.88) və İnəkli kimi (143, s.101), Qafqazın 5 verstlik xəritəsində İnəkli şəklində (348, s.102) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Enakli, İnoğlu kimi də göstərilir (427, s.284). 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə azərbaycanlılar deportasiya olunmuş və bura İranın Xoy, Salmas vilayətlərindən, Türkiyənin Van vilayətindən ermənilər köçürülərək yerləşdirilmişdir (427, s.284).

Toponim oğuz tayfalarından olan inək etnoniminə (321, s.57) mənsubluq bildirən -li şəkilçisinin artırılması ilə düzəlmişdir və «İnək tayfasına mənsub yaşayış yeri» mənasını verir.

Əbül Qazi qeyd edir ki, Duylı Kayının yanında Qorquddan başqa **iki inək bəy** *(kursiv mənimdir -İ.B)* var idi. Biri -Bayandur ilindən (tayfasından, elindən -İ.B) olan Bekdez, o biri -İqdir

ilindən (tayfasından -İ.B) olan Dünkə idi» (321, s.57). A.N.Kononov müxtəlif mənbələrə istinad edib qeyd edir ki, inək termini «yaxın nökər» mənasında işlənir. Monqolca inək sözü «inanılmış», «istəkli, sevimli» mənalarını ifadə edir. Xivə, Buxara şivəsində «atalıq» mənasında işlənən inək əvvəllər «tayfa başçısı», «xanın gizli məsləhətçisi», «əyalətin və ya şəhərin baş rəisi» mənaları bildirmişdir (321, s.99). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 1.XII.1948 - cu il tarixli fərmanı ilə adı dəyişdirilib Antarut qoyulmuşdur.

**İncəbel -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda dağ. Oronim qıpçaq türk tayfasından olan incə etnonimi ilə (286, s.49) Azərbaycan dilində «dağın təpəsi» (253, s.99; 339, s.78), «Hündür dağın iki təpəsi arasındakı əyrilmiş yer və alçaq keçid» (9, s.227) mənasında işlənən bel sözündən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəbdir.

**İncəvar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Xalac çayının sol sahilində yerləşirdi. Kənddə 1873 - cü ildə 66 nəfər, 1886-cı ildə 92 nəfər, 1897-ci ildə 129 nəfər, 1904 - cü ildə 140 nəfər, 1914 - cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin keçmiş sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 38 nəfər, 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 45 nəfər azərbaycanlı yaşamışdır (415, s.57, 135). 30 - cu illərin sonunda kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim türk mənşəli qıpçaq tayfasından olan incə etnonimindən (286, s.49) və «möhkəmləndirilmiş kənd, bənd, qala» mənasında işlənən var sözündən (339, s.113) əmələ gəlmişdir və «incə tayfasına mənsub qala, kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İpəkli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə yerləşir. 1969 - cu ildə Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (339, s.103) qeyd edilmişdir.

Kənddə 1831-ci üdə 22 nəfər, 1873 - cü ildə 117 nəfər, 1886-cı ildə 70 nəfər, 1897-ci ildə 102 nəfər, 1908-ci ildə 185 nəfər, 1914 - cü ildə 204 nəfər, 1916-cı ildə 123 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 19 nəfər, 1926-cı ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.49, 129). 1930 - cu ildə kəndin əhalisi Arpavar kəndinə köçürülmüşdür və kəndə ermənilər yerləşdirilmişdir.

Toponim ipəkli tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Masis qəsəbəsi qoyulmuşdur.

**İrəvan -** Çuxur - Səd bəylərbəyliyinin, indiki Ermənistanın paytaxtı. Ararat vadisinin şimal-şərqinində, Zəngi çayının sahilində yerləşir. İlk dəfə adı VII əsrdə (607) xatırlanır (Ermənistan Sovet Ensiklopediyası III c., İrəvan, 1977, s.550).

607-cı ildə katalikos Abraham Dvin şəhərində çağırdığı dini iclasda demişdir ki, burada həm də **İrəvandan** (kursiv mənimdir -İ.B) iki nümayəndə, David və Cocik iştirak eləyirlər (426, s.36).

A.P.Simonyan qeyd edir ki, İrəvan adının VII əsrdə çəkilməsi o demək deyil ki, İrəvan VII əsrdən tanınmış və inkişafı bu dövrdən başlayır. İrəvan nümayəndələrinin bu dini iclasda iştirakı onu sübut edir ki, İrəvan yaşayış məskəni kimi daha qədimdən mövcud olmuş, iqtisadi, ictimai-siyasi cəhətdən inkişaf etmiş bir yer olmuşdur (426, s.36).

Şəhərin adı Ruan (265, s.6), 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Rəvan, İrəvan (143, s.159), XVII əsr mənbəyində Rəvan (86, s.50), XIX əsr rus və erməni mənbələrində (386, s.260-261;423, s.662) Ayravan, Aravan, Ervan, Errevant, Rəvant, İrvan (Ermənistan Sovet Ensiklopediyası, III c., 1977, s.550), Avropa mənbələrində İrivan (152, s..21) formalarında qeyd edilmişdir. Şəhər I Argiştinin e.ə. 782-cı ildə tikdirdiyi Erebuni qalasının yaxınlığında salınmışdır.

Rus arxeoloqu M.V.Nikolsk 1893 - cü ildə indiki Ermənistana səyahət edib Göyçə (Sevan) gölünün sahilində qədim yazılan araşdırmış və gölün sahilindəki Gölkənd (Zovinar) kəndinin

yaxınlığındakı tapdığı yazılan b.e.ə. VIII əsrə aid edir. Bu yazılarda qeyd edilir: Urartu şahı I Rus (e.ə. 730-714) deyib ki, 23 ölkəni, o cümlədən **İrəvan** (kursiv mənimdir -İ.B) ölkəsini zəbt etdim (426, s.30). Bu da İrəvanın daha qədim tarixə malik olduğunu göstərir.

İrəvanın VII əsrdə (642-643) ərəblər tərəfindən işğal edilmiş, XI-XIII əsrlərdə səlcuq türklərinin, XIII-XIX əsrlərdə monqol-tatarların tabeliyində, XV əsrdə Qaraqoyunlu dövlətinin tərkibində olmuşdur. XVI əsrdə Səfəvilər dövlətinin tərkibində yaradılan Çuxur-Səd bəylərbəylinin, XVIII əsrin ortalarında təşkil edilən Azərbaycan xanlığının mərkəzi olmuşdur. 1827-cı ildə İrəvan Rusiya tərəfindən işğal edilmişdir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Azərbaycanın tərkibində Rusiyanın tabeliyinə keçmişdir. XIX əsrin 40-cı illərində yaradılan İrəvan quberniyasının, eləcə də XIX əsrdə bilavasitə Rusiyanın himayəsi ilə yaradılan Erməni vilayətinin mərkəzi olmuşdur. 1918-ci ilə kimi İrəvan Azərbaycanın tabeliyində idi. 1918-ci il mayın 28-də elan edilən Azərbaycan Cumhuriyyətinin Baş naziri Fətəli xan Xoyski mayın 29-da öz hökumətinin xarici işlər naziri Məhəmmədhəsən Hacınskiyə yazırdı: «Biz ermənilərlə bütün mübahisələri həll etdik, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik» (225, s.6).

Şəhərdə tarixən azərbaycanlılar (erməni mənbələrində azərbaycanlılar islam, farslar, müsəlmanlar adı ilə göstərilir) yaşamışdır və burada XVII-XVIII əsrlərdə çox az sayda ermənilər yaşamışdır (200, s.151-158).

Ermənilər şəhərə geniş surətdə 1828-ci il Türkmənçay müqaviləsindən sonra 1828-30 - cu illərdə İran və Türkiyədən köçürülmüşdür (386, s.543-546). Burada 1831-ci ildə 7331 nəfər azərbaycanlı, 4027 erməni, 1873 - cü ildə 5805 nəfər azərbaycanlı, 5959 erməni, 1886-cı ildə 7228 nəfər azərbaycanlı, 7142 erməni, 1897-ci ildə 12516 nəfər azərbaycanlı, 12529 nəfər erməni, 1922-ci ildə 5124 nəfər azərbaycanlı, 40396 nəfər erməni, 1926-cı ildə 4968 nəfər azərbaycanlı, 57295 nəfər erməni, 1931-ci ildə 5620 nəfər azərbaycanlı, 80327 nəfər erməni (415, s. 164-167), 1970-ci ildə 2721 nəfər azərbaycanlı, 738045 nəfər erməni yaşamışdır. Eyni zamanda burada kürdlər, ruslar və başqa millətin nümayəndələri yaşayırdı. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. 1988-ci ilin dekabr ayından İrəvanda bir nəfər belə azərbaycanlı yaşamır. Erməni elmi ədəbiyyatında İrəvan adının Erebuni adından əmələ gəldiyi göstərilir (423, s.662-664; 412, s.123, Ermənistan Sovet Ensiklopediyası, III c., İrəvan, 1977, s.550).

İrəvan toponiminin etimologiyası ilə bağlı müxtəlif fikirlər vardır. H.S.Yefrikyan Erivan formasına istinadən qeyd edir ki, bu toponim Yervand şəxs adı əsasında yaranmışdır (423, s.662). Digər fikrə görə, İrəvan toponimi erməni dilində «görünmək», «aşkar olmaq» mənasında işlənən «yerevum» sözündən əmələ gəlmişdir (386,s.262;412,s.l24;Ermənistan Sovet Ersiklopediyası, III c., s.550-551). Bununla yanaşı İrəvan toponiminin fars dilində «abad yer» mənasında işlənən rəvan sözündən əmələ gəldiyi fikridə söylənilir (386, s.261; 221, s.100).

Venesiyada fəaliyyət göstərən «Mxitar birliyi» nümayəndələrinin fikrincə, «İrəvan adının izahı Nuhun Gəmisi haqqında olan rəvayətlə bağlıdır. Mxitarlar, o cümlədən Q.İncicyan «Kirk dzinindost» kitabına istinadən qeyd edir ki, «İrəvan» adı «görünən» (yerval), «peyda olan» (yervan qal) deməkdir. Onun fikrincə, Nuh birinci dəfə sahili görən kimi «göründü» (yervadz) deyir və buradan da «İrəvan» adı yaranmışdır (426, s.28-29).

XIX əsrin rus arxeoloqu M.V.Nikolski toponiminin eri tayfa adı əsasında yarandığını göstərir və qeyd edir ki, burada «eri» tayfası yaşadığı üçün yaşayış məntəqəsi «İrəvan» adlanmışdır (426, s.30).

B.Budaqov və Q.Qeybullayevin fikrincə, İrəvan toponimi türk dillərində «dağın gün düşən tərəfi», «dalğavari dağ zirvəsi» mənasında işlənən ir sözü ilə fars dilində «yer» mənasında işlənən «van» sözündən əmələ gəlmişdir (62, s.270). Bu izahlar qaneedici deyil.

İrəvan toponiminin İrəvan, Erivan, Arevan, Ervan, İrvan, Errevant, İrivan fonetik variantlarına nəzər salanda aydın olur ki, onların hamısının kökü «ar», «er», «ir» hissəciyindən ibarətdir. Türk dillərində «ar», «er», «ir», «kişi», «igid» mənasında işlənir (359,l (2), s. 1456; 235, s.43,45).

Urartu dilində «ölkə» mənasında işlənən ebani sözü vardır (332, s.13). Hr.Kapansyanın fikrincə, «kənd, şəhər» mənasında işlənən avan (avvan//avan) urartu dilində «ölkə, yer» mənasında işlənən abani //ebani/ sözündən əmələ gəlmişdir (426, s.30-31) və «avan» sözü fars dilinə mənsub deyildir (318, s.89). Bu qənaətə gəlirik ki, İrəvan toponiminin ikinci komponenti «əvan» urartu dilində «ölkə», «yer», «kənd», «şəhər» mənasında işlənən «abani//ebani sözünün bir variantıdır. Daha doğrusu «abani» sözündəki «b» səsi «v» səsi ilə əvəzlənərək «abani» sözü «avan», «əvan» formasma çevrilmişdir.

Deməli, İrəvan toponimi türk dilində «kişi», «igid» mənasında işlənən «ir» sözü ilə «ölkə», «yer», «kənd», «şəhər» mənasında işlənən ebani (avan) sözü əsasında əmələ gəlib, «igidlər ölkəsi» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İrəvan qalası -** İrəvan şəhərində qala. Zəngi çayının sahilində yerləşirdi. 1516-1517-cı ildə Şah İsmayılın göstərişi ilə vəziri Rəvanqulu xan tərəfindən tikilmişdir. Qala 7 ilə (1509-1510 1516-1517) tikilib başa gəlmişdir (86, s.50). Qala Rəvanqulu xan tərəfindən tikildiyi üçün Rəvan (İrəvan) qalası adlanmışdır.

**İrimis -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Dərəbas kəndinin yaxınlığında yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.104) qeyd edilmişdir.

Erməni mənbələrində kəndin Aramis, Yeremiz, Göranis kimi də adlandığı göstərilir (415, s.76).

Kənddə 1831-ci ildə 14 nəfər, 1873 - cü ildə 108 nəfər, 1886-cı ildə 150 nəfər, 1897-ci ildə 225 nəfər, 1908-ci ildə 327 nəfər, 1914 - cü ildə 616 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1917-ci ilin dekabrında ermənilər azərbaycanlıları qırğınlarla deportasiya etmiş, kəndi xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

**İrind -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə yerləşir.

Kənddə 1831-ci ildə 29 nəfər, 1873 - cü ildə 179 nəfər, 1886-cı ildə 322 nəfər, 1897-ci ildə 352 nəfər, 1908-ci ildə 239 nəfər, 1914 - cü ildə 253 nəfər, 1916-cı ildə 231 nəfər (415, s.34-35, 118-119), 1918-ci ilin yanvarında 239 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş (309, s.219) və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim türk dilində «dağın gün düşən tərəfi» mənasında işlənən ir sözü ilə (299, s.211) «daxma, koma», «mağara», «kaha» mənasında işlənən in sözünün (299, s.209) birləşməsindən əmələ gəlib «dağın gün düşən tərəfi olan mağara, kaha, koma yanındakı kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**İskəndərabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd.

Kənddə 1886-cı ildə 87 nəfər, 1897-ci ildə 135 nəfər, 1904 - cü ildə 81 nəfər, 1914 - cü ildə 201 nəfər, 1919 - cu ildə 555 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1919 - cu ilin axırlarında kənd erməni tacavüzünə məruz qalaraq sakinləri (azərbaycanlılar) qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s.152-153). 1923-24 - cü illərdə onlar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. 1925-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim İskəndər şəxs adı ilə abad sözünün əsasında əmələ gəlib «İsgəndərin saldığı kənd» mənasını verir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**İtqıran -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 17 km cənub-qərbdə yerləşir.

Kənddə 1831-ci ildə 157 nəfər, 1873 - cü ildə 257 nəfər, 1886-cı ildə 364 nəfər, 1897-ci ildə 235 nəfər, 1904 - cü ildə 490 nəfər, 1914 - cü ildə 539 nəfər, 1916-cı ildə 442 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kəndə erməni təcavüzünə məruz qalaraq qalmış və kənddə yaşayan azərbaycanlılar qırğınlarla qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 103 nəfər, 1926-cı ildə 88 nəfər, 1931-ci ildə 127 nəfər (415, s.90-91, 158-159), 1939 - cu ildə 202 nəfər, 1959 - cu ildə 148 nəfər, 1979 - cu ildə 253 nəfər yalnız azərbaycanlı yaşamışdır (427, s.910). 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən kəndin bütün sakinləri tarixi-etnik vətənlərindən deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim tarixi mənbələrində adı çəkilən itbarak tayfa adında (228, s.16-18; 321, s.4345) öz əksini tapan və etnonimi kimi işlənən it və qədim türk dilində «kənd yaşayış yeri, meşədə yurd, dəyə, maldarların müvəqqəti dayanacaq yeri» mənasında işlənən kuren//kuran (>qıran) sözündən (339, s.317-318) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Gülüstan, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilib Nor Aznaberd qoyulmuşdur.

**İtqıran Ortakənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonun ərazisində kənd.

Kənddə 1897-ci ildə 169 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar sıxışdırılaraq qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim itbarak etnonimində öz əksini tapan it etnonimi ilə (228, s. 16-18; 321, s.43-45) türk dilində «kənd, yaşayış yeri meşədə yurd, dəyə, maldarların müvəqqəti yaşayış yeri» mənasında işlənən qıran (kuren // kuran) sözündən (339, s.317-318) və «aralıqda, ortalıqda, iki obyektin arasında yerləşən kənd» mənasında işlənən ortakənd söz birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**İstisu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın yanında, İrəvan şəhərindən 173 km məsafədə yerləşir. Kəndin adı tarixi mənbələrdə XIII əsrdə çəkilsə də, VII əsrə məxsus tikililərin qalıqları vardır (422, s.94). 1961-ci ildə geniş tikinti işləri aparılaraq şəhər statusu almış və kurort şəhəri kimi fəaliyyət göstərməkdədir. Qafqazın 5 verstlik xəritəsində (348, s.105) qeyd edilmişdir.

Burada 1831-ci ildə 114 nəfər, 1886-cı ildə 117 nəfər, 1897-ci ildə 163 nəfər, 1904 - cü ildə 214 nəfər, 1914 - cü ildə 235 nəfər, 1916-cı ildə 200 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra, 1920-ci ildə kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar doğma yurdlarına qayıda bilmişdir.

Burada 1922-ci ildə 118 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 215 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1940-cı illərdə İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. 1959 - cu ildə 329 nəfər, 1970-ci ildə 627 nəfər (ümumi şəhər əhalisinin 12,3%-ni azərbaycanlılar təşkil edirdi) azərbaycanlılar və erməni yaşamışdır.Şəhərdə yaşayan azərbaycanlılar 1988-ci ilin noyabr ayında Ermənistan dövlətinin təzyiqi ilə tarixi-etnik vətənlərindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim yerdən təbii şəkildə, isti formada çıxan mineral su adından əmələ gəlmişdir və «isti» və «su» komponentlərindən ibarətdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Yaşayış məntəqəsinin adı erməni dilinə kalka edilərək Cermuk (İstisu) adlandırılmışdır.

**İstisu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda mineral su mənbəyi. Qafqazın 5 verstlik xəritəsində (348, s.105) qeyd edilmişdir. İndiki Cermuk şəhəri ərazisində yerləşir.

**İşıqlı dağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Dağın adı dəyişdirilib İşxansar qoyulmuşdur.

# Y

**Yavərkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayon mərkəzindən 18 km şimal-şərqdə, Ağkəndin yanında yerləşirdi (85, s.361).

Burada 1922-ci ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162-163). 1924-25-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «yuxarı rütbəli zabitlərin yanında xidməti tapşırıqları və ya qərargah işlərini yerinə yetirən kiçik rütbəli hərbi vəzifəli şəxs» mənasında işlənən yavər sözü ilə (11, s.468) kənd coğrafi nomeni əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Yaqublu** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Mənbələrdə Yaqubi kimi qeyd edilir («Грузия» qəzeti, 9.XI.1918). 1918-ci ilin avqust ayında azərbaycanlılar qırğınlarla deportasiya edilərək kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim yaqublu tayfa adı (92, s.23) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Qurulşca sadə toponimdir.

**Yaqublu** - İrəvan quberniyasının Aleksandropol qəzasında. indi Quqark rayonunda kənd və rayon mərkəzi. Pəmbək çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.305) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə ermənilərlə yanaşı 43 nəfər azərbaycanlı yaşamışdır (415, s.52-43). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar buradan qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim yaqublu etnonimindən (92, s.23) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 1.IV.1945-ci il fərmanı ilə yaşayış məntəqəsinin adı dəyişdirilib Meğrud, 25.V.1983 - cü il fərmanı ilə yenidən dəyişdirilərək Quqark qoyulmuşdur.

**Yaqublu** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s.305) qeyd edilmişdir. Kəndin digər adı Təzə Kələş olmuşdur (415, s.4).

Kənddə 1897-ci ildə 120 nəfər, 1908-ci ildə 200 nəfər, 1914 - cü ildə 213 nəfər, 1916-cı ildə 208 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri -azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya edilmişdir. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim yaqublu etnonimi (92, s.23) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Yağdan** - Tiflis quberniyasının Borçalı qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.104) qeyd edilmişdir.

Toponim türk dilində «yurd, el» mənasında işlənən yaq sözünə (299, s.237) türk dilində «təpə» mənasını bildirən don , (i>dan-İ.B) sözünün (399, s.188) birləşməsindən əmələ gəlib, «təpədə olan el, yurd» mənasını bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yağdan su körpüsü** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Calaloğlu (Stepanavan) rayonunun Yağdan kəndində körpü. XIII əsrdə inşa edilmişdir.

**Yazyurdsu** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Hidronim türk dilində «çöl», «düzənlik» mənasında işlənən yazı (299, s.251), «yaşayış yeri», «ev, eşik», «məskən», «düşərgə» mənasında işlənən yurd (10, s.568; 339, s.643) və «çay» mənasında işlənən su (339, s.528) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Yelaxlı Mehdi kəndi** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə burada 164 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim üç komponentdən ibarətdir. Birinci komponenti olan yelaxlı, fikrimizcə, dialekt və işvələrimizdə «çuxur», «çökək yer» mənasında işlənən yalax sözünə qoşulan -lı şəkilçisindən

düzəlmişdir. İkinci komponenti Mehdi şəxs adını bildirir. Toponimin üçüncü komponenti kənd sözü coğrafi nomendir. Toponim «çökəklik yerdə Mehdinin saldığı kənd» mənasını bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yayıcı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə, Zəngi çayının yanında, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.115), Qafqazın 5 verstlik xəritəsində (348, s.305) qeyd edilmişdir.

Burada ermənilərlə yanaşı 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). XX əsrin əvvəllərində, yəni 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim oğuz tayfalarından olan yayıcı etnonimi (321,s.74; ASE, V c., s.51) əsasında əmələ gələn etnotoponimdir.Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Dzovaber qoyulmuşdur.

**Yaycı** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi rayonunda kənd olmuşdur. Vedi (Ararat) rayonundakı Armaş kəndinin yaxınlığında yerləşirdi.

Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.301).

Kənddə 1897-ci ildə 180 nəfər, 1914 - cü ildə 157 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1916-cı ildən başlayaraq kəndin əhalisi zorla ermənilər tərəfindən qovulmuşdur. 1930 - cu illərə kimi kənd xaraba qalmış, heç kim yaşamamışdır. 1930 - cu ildən başlayaraq kəndə kürdlər yerləşdirilmişdir.

Toponim yaycı türk etnonimi (321, s.74) əsasında düzəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Yaycı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 21 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348. s.305) qeyd edilmişdir.

Toponim yaycı türk tayfasının adı (321, s.74) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə adı dəyişdirilib Harjis qoyulmuşdur.

**Yamancalı** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 7 km şimalda, İnəkli kəndinin yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Yamanclı kimi (143,s.111) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 137 nəfər, 1873 - cü ildə 214 nəfər, 1886-cı ildə 199 nəfər, 1897-ci ildə 257 nəfər, 1908-ci ildə 272 nəfər, 1914 - cü ildə 300 nəfər, 1916-cı ildə 280 nəfər (415, s.48-49, 128-129), 1918-ci ilin yanvarında 763 nəfər (309, s.216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş (309, s.216), Türkiyədən köçürülən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 53 nəfər, 1926-cı ildə 67 nəfər, 1931-ci ildə 66 nəfər azərbaycanlı (415, s.48-49, 128-129) yaşamışdır.

SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə azərbaycanlılar 1948-53 -cü illərdə Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim yamancalı türk mənşəli tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.V.1967-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dexsut qoyulmuşdur.

**Yamaxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1897-ci ildə 231 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunaraq kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim yamaxlı tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Sadə quruluşca toponimdir.

**Yanıq dağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonundakı Çaxmaq kəndində dağ.

Oronim Azərbaycan dilində «susuz, quru yer» mənasında işlənən yanıq sözü (278, s.166) əsasında əmələ gəlmişdir.

**Yanıqpəyə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 33 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Yanıxqaya kimi qeyd edilmişdir (348, s.306).

1897-ci ildə kənddə 133 nəfər, 1919 - cu ildə 226 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1919 - cu ilin mart ayının axırlarında kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz doğma torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 150 nəfər, 1926-cı ildə 167 nəfər, 1931-ci ildə 197 nəfər (415, s.32-33, 116-117), 1970-ci ildə 505 nəfər, 1979 - cu ildə 523 nəfər, 1987-ci ildə 450 nəfər (85, s.88) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri öz doğma ocaqlarından Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində işlənən yanıq və pəyə sözlərinin birləşməsindən əmələ gəlib. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.I.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Meşəkənd, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Antarameç qoyulmuşdur.

**Yanıx -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.306) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 194 nəfər, 1886-cı ildə 245 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildən 360 nəfər, 1914 - cü ildə 730 nəfər, 1916-cı ildə 423 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67, 140-141). 1919 - cu ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 66 nəfər azərbaycanlı, 1926-cı ildə 37 nəfər azərbaycanlı, 163 erməni yaşamışdır (415, s.67, 141). Göründüyü kimi, ermənilər buraya 1922-ci ildən sonra, 1923-1925-cı illərdə köçürülmüşdür.

1929-30 - cu illərdə azərbaycanlılar deportasiya olunmuş və burada yalnız ermənilər qalmışdır.

Toponim Azərbaycan dilində «yanmış, susuz, quru yer» mənasında işlənən yanıx sözü (278, s.166) əsasında əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

**Yapalaxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Gölkənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 23 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 30 - cu illərdə ləğv edilmişdir.

Toponim nəsil adı əsasında əmələ gəlmişdir. Patronomik oykonimdir. Quruluşca sadə toponimdir.

**Yappa -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.306). Əsrimizin 20-30 - cu illərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk mənşəli yapma tayfa adı əsasında (271, s.143; 238, s.187) formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Yappa -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.306) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 62 nəfər, 1908-ci ildə 55 nəfər, 1914 - cü ildə 124 nəfər, 1916-cı ildə 68 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ilin fevral ayında kəndin sakinləri soyqırımına məruz qalaraq deportasiya olunaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim oğuzların atçəkənlər tayfasından olan yapa etnonimi (238, s.187) əsasında əmələ gəlmişdir. Türkmən onomaloqu S.Ataniyazov şıx tayfasının bir qolunun yapma olduğunu qeyd edir (271, s.143). Fikrimizcə, yapa və yapma etnonimləri yappa etnoniminin bir formasıdır.

**Yarpızlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.306).

Kənddə 1831-ci ildə 121 nəfər, 1873 - cü ildə 398 nəfər, 1886-cı ildə 465 nəfər, 1897-ci ildə 584 nəfər, 1908-ci ildə 719 nəfər, 1914 - cü ildə 815 nəfər, 1916-cı ildə 771 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ilin sonu, 1919 - cu ilin yanvarında azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş və kənd yandırılmışdır (309, s.249). Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. 1920-ci ildə indiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişlər. Köçürülən az sayda ermənilərlə yanaşı burada 1922-ci ildə 336 nəfər, 1926-cı ildə 419 nəfər, 1931-ci ildə 547 nəfər azərbaycanlı yaşamışdır

(415, s.26-27, 112-113). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-53-cı illərdə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülmüşdür. Lakin sonradan azərbaycanlıların bir qismi geriyə Yarpızlıya qayıtmışdır.

Yarpızlılar üçüncü dəfə 1988-ci ildə tamamilə zorla Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi burada təkcə ermənilər yaşayır.

Toponim yabanı bitki olan yarpız sözünə çoxluq, cəmlik anlayışı bildirən -lı şəkilçisi artırmaqla düzəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 25.V.1967-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lçavan (Gölkənd) qoyulmuşdur.

**Yasovul** - İrevan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilmişdir(143,s.132). Toponim «Şah fərmanını yerinə yetirən şəxs» mənasında işlənən yasavul sözündən əmələ gəlib «yasavula məxsus kənd» mənasını bildirir. Antropotoponimdir. Sadə toponimdir.

Erm. SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Hovuni qoyulmuşdur.

**Yaşıl -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə, Alagöz dağının qərbində yerləşir. Kəndin digər adı Yeşil olmuşdur (415, s.34). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.307).

Kənddə 1831-ci ildə 18 nəfər, 1873 - cü ildə 235 nəfər, 1886-cı ildə 227 nəfər, 1897-ci ildə 410 nəfər, 1908-ci ildə 255 nəfər, 1914 - cü ildə 273 nəfər, 1916-cı ildə 377 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.36-37, 118-119). 1919 - cu ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş (309, s.221) və Türkiyədən köçürülən ermənilər və kürdlər kənddə yerləşdirilmişdir (415, s.119). İndi ermənilər yaşayır.

Toponim «göy rəng» mənasında işlənən yaşıl sözü əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı ü fərmanı ilə adı dəyişdirilib Kakavadzor qoyulmuşdur.

**Yeddilər** - İrəvan qubemiyasnın İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda sahə. Rayondakı Zəngilər kəndinin ərazisində yerləşir. Həmin ərazidə yeddi nəfərə məxsus torpaq sahəsi olduğu üçün Yeddilər adlandırılmışdır. Ərazinin ilkin adı Yeddi lək olmuş, sonradan Yeddilər formasında sabitləşmişdir.

**Yekanlar** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-şərqdə yerləşir. Erməni mənbələrində kəndin adı Yeğanlar, Yegilər, Yeginlər, Yeğanlar, Yegilar formasında da göstərilir (415, s.24; 427, s.430). Qafqazın 5 verstlik xəritəsində (348, s.91) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. Buraya 1828-30 - cu illərdə Qars vilayətinin Bqlek və Camışlı kəndlərindən, Sarıqamış və Ərzurum bölgələrindən köçürülmüş (427, s.430) və azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim yeqanlar tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm.SSR AS RH-nin 15.VII.1969 - cu il fermanı ilə adı dəyişdirilib Arevşad qoyulmuşdur.

**Yelqovan** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.36), Qafqazın 5 verstlik xəritəsində (348, s.92) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. 1829 - cu ildə buraya Türkiyənin Bayazid və Alcavagiz vilayətlərindən ermənilər köçürülmüşdür (85, s.266). 1897-ci ildə burada 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47). Azərbaycanlılar 1905-1906-cı ildə erməni-azərbaycanlı savaşı nəticəsində ermənilər tərəfindən deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində «toxumu külək vasitəsilə uzaqlara aparıb, orada tökülən bir bitki və onun dəni», «süpürüm» mənasında işlənən yelqovan bitki adı (10, s.528) əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Kotayk qoyulmuşdur.

**Yeldağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.10-11). 1930 - cu illərdə yaşayış məntəqəsi ləğv edilmişdir. Yeldağı dağının ətəyində yerləşirdi.

Toponim Azərbaycan dilində «külək» mənasında işlənən yel sözü ilə «yerin hündür, dik yamaclı və zirvəli hissəsi», «yaylaq, dağüstü düzənlik» mənasında işlənən dağ sözünün (10, s.11) birləşməsindən əmələ gəlmişdir.

**Yeldağı** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Barana (Noemberyan) rayonunda dağ. 1930 - cu ilə kimi fəaliyyət göstərən Yeldağı qışlağının yaxınlığında yerləşirdi.

**Yelli dərə** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayondakı Aşağı Şorca kəndinin şimal-şərqində yerləşirdi.

**Yelliyurd** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qursalı kəndinin ərazisində yerləşir. «Küləkli, külək tutan yer» mənasında işlənən yelli sözü ilə «müvəqqəti yaşayış yeri» mənasında işlənən yurd sözünün birləşməsindən əmələ gəlmişdir.

**Yellicə** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s. 92) qeyd edilmişdir. Erməni mənbəyində Yelicə formasında qeyd edilir (415, s.46).

Burada 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47). XX əsrin əvvəllərində azərbaycanlılar doğma yurdlarından qovulmuşlar. 1925-cı ildə kənd ləğv edilmişdir.

Toponim «küləkli olan, külək tutan yer» mənasında işlənən yelli sözü ilə, çoxaltma dərəcəsinin əlamətini bildirən -cə şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Yellicə** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonun Ağudi kəndində dağ.

«Küləkli, külək döyən yer» mənasında işlənən yelli sözünə sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən -cə şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Quruluşca düzəltmə oronimdir.

**Yeməzli** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 10 km şərqdə, Xalac çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348,s.92).

Kəndin adı 1907-ci ildə erməni dilində çap edilmiş «Qafqazda erməni-türk vuruşması» əsərində Yemazlu formasında qeyd edilmişdir(416,s.306).

Kənddə 1831-ci ildə 27 nəfər, 1873 - cü ildə 278 nəfər, 1886-cı ildə 244 nəfər, 1897-ci ildə 110 nəfər, 1904 - cü ildə 130 nəfər, 1914 - cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 45 nəfər, 1926-cı ildə 46 nəfər, 1931-ci ildə 54 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1930 - cu illərin sonunda kənd ləğv edilmişdir.

Toponim yeməzli tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Qarabağda yaşayan tayfalardan biri elə ətyeməzli adlanırdı (119, s.468).

**Yeniköy** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 60 km məsafədə, Arpaçayın sol sahilində yerləşir. 1897-ci ilədək kənddə azərbaycanlılar yaşamışdır. 1897-ci ildə xaricdən köçürülən 285 erməni bu kənddə yerləşdirilmiş, azərbaycanlılar qovulmuşdur. Həmin ildə (1897) kənddə cəmi 3 nəfər azərbaycanlı yaşamışdır.

Toponim «təzə» mənasında işlənən yeni sözü ilə türk dilində kənd mənasında işlənən «köy» sözünün birləşməsindən əmələ gəlmişdir.

Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı dəyişdirilib Xarkov qoyulmuşdur.

**Yengicə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 67 km cənub qərbdə, Vediçayın qolu üzərində yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.50), Qafqazın 5 verstlik xəritəsində (348, s.92) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 37 nəfər, 1873 - cü ildə 189 nəfər, 1886-cı ildə 199 nəfər, 1897-ci ildə 313 nəfər, 1904 - cü ildə 470 nəfər, 1914 - cü ildə 517 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). Azərbaycanlılar 1918-ci ildə ermənilər tərəfindən soyqırımına məruz qalaraq qovulmuş, xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdi. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 162 nəfər azərbaycanlı, 187 erməni, 1926-cı ildə 194 nəfər azərbaycanlı, 160 erməni və kürd, 1931-ci ildə 182 nəfər

azərbaycanlı, 195 erməni yaşamışdır (415, s.86-87, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-49 - cu illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüşdür. Burada yalnız ermənilər qalmışdır.

Toponim təzə mənasında işlənən yengi (ədəbi dilimizdə işlənən yeni sözünün dialekt variantı) sözü ilə -cə şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. «...yengi təxminən XIX əsrin ortalarma qədər əski formasını saxlamış, get-gedə n-nin tərkibində olan samitinin zəifləyib düşməsi ilə **yeni** (kursiv mənimdir -İ.B) şəklində sabitləşmişdir. Yengi sözünün özünə gəldikdə bu yalnız Azərbaycan dilində deyil, eyni zamanda bütün türk dilli xalqların yazısında müştərək bir orfoqrafıyaya malik olmuşdur (216, s.74). Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Sisavan qoyulmuşdur.

**Yengicə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayondakı Qnişik kəndindən 3-4 km şimal-şərqdə, Daşxaç dağının yaxınlığında yerləşirdi. Kənd XIII əsrdən xatırlanır və kəndin VIII-IX əsrdə mövcud olduğu göstərilir (422, s.34). «İrəvan əyalətinin icmal dəftəri»ndə Yenicə kimi (143, s.59), Qafqazın 5 verstlik xəritəsində Yengicə formasında (348, s.92) qeyd edilmişdir. Burada 1897-ci ildə 422 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93). Ermənilər buraya 1829-30 - cu illərdə İranın Xoy və Salmas, Türkiyənin Van və Alaşkert vilayətlərindən köçürülmüşdür (427, s.785; 422, s.34). Sakinləri (ermənilər) 196-970-cı illərdə rayondakı Çivə və Aynazor (Axavnadzor) kəndlərinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Relyef əsasında yaranan toponimdir.

Erm.SSR AS RH-nin 10.IX.1964 - cü il fərmanı ilə adı dəyişdirilib Qandzak qoyulmuşdur.

**Yengicə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimalda yerləşir. «İrəvan əyalətinin dəftəri»ndə Yenicə kimi (143, s.75), Qafqazın 5 verstlik xəritəsində Yengicə formasında (348, s.92) qeyd edilmişdir.

Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur.

Kənddə 1897-ci ildə 27 nəfər, 1908-ci ildə 75 nəfər, 1914 - cü ildə 90 nəfər, 1916-cı ildə 46 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49. 128-129). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş və buraya Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır ki, (415, s. 128-129) onlar da 1924-25-cı illərdə yenidən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim «təzə» mənasında yengi (ədəbi dildə yeni işlədilir) sözünə çoxaltma dərəcəsini əmələ gətirən -cə şəkilçisinin artırılması ilə düzəlmişdir. Relyef əsasında əmələ gələn düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 25.1978-ci il fərmanı ilə adı dəyişdirilib Norabats qoyulmuşdur.

**Yerdiç -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayondakı Qoytul kəndinin yaxınlığında, Arpaçayın sahilində yerləşir. Kəndin cənubunda qədim qala və qəbiristanlığın qalıqları var. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərdiş formasında qeyd edilmişdir(143,s.38).

Kənddə 1831-ci ildə 70 nəfər, 1873 - cü ildə 167 nəfər, 1886-cı ildə 234 nəfər, 1897-ci ildə 382 nəfər, 1904 - cü ildə 298 nəfər, 1914 - cü ildə 327 nəfər, 1916-cı ildə 403 nəfər, 1919 - cu ildə 127 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1919 - cu ilin sentyabr-oktyabr aylarında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və İrandan köçürülən ermənilər kənddə yerləşdirilmişdir. Azərbaycanlılar yurdlarına indiki Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra, 1924 - cü illərdə qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim türk dilində işlənən «yer, torpaq, ölkə» mənasında işlənən yer (er) sözü ilə (299, s. 175,237) «kənar» mənasında işlənən dış //diş (diç) szünün birləşməsində əmələ gəlib «kənarda olan yer, yaşayış məntəqəsi» mənasını ifadə edir. Təsvir formasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Yoğunsu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində çay. Rayondankı Alagöz kəndinin ərazisindən axır. Hidronim «çoxlu, bol sulu»

mənasında işlənən yoğun sözü ilə qədim türk dilində çay mənasında işlənən su sözündən (299, s.512; 339, s.528-529) əmələ gəlmişdir. Mürəkkəb, quruluşlu hidronimdir.

**Yolayrıcı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Gölkənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 30 - cu illərdə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində işlənən yol və ayrıcı sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yoncalı** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda dağ. Rayondakı Göykilsə (Kaputan) kəndinin ərazisində yerləşir.

Yonça bitki adı əsasında formalaşmışdır. Fitooronimdir.

**Yoncalıq** - İrəvan şəhərində məhəllə. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Karbi nahiyəsində Yoncalı məzrəsi adında qeyd edilmişdir (143, s.162). Həmin ərazidə vaxtilə yonca əkilib becərildiyi üçün yoncalıq, yəni yonca bitən yer adlandırılmışdır.

XX əsrin 30-40-cı illərində İrəvan şəhərinin genişləndirilməsi ilə bağlı ləğv edilərək İrəvan şəhərinə birləşdirilmişdir. Quruluşca düzəltmə toponimdir.

**Yuva** - İrəvan quberniayasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə, Gərni və Vedi çaylarından axan arxın yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»dnə (143, s.49), Qafqazın 5 verstlik xəritəsində (348, s.303) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlı yaşamışdır. 1828-30 - cu illərdə İranın Xoy, Salmas vilayətlərindən ermənilər göçürülüb kənddə yerləşdirilmişdir.

Ermənilərlə yanaşı kənddə 1831-ci ildə 33 nəfər, 1873 - cü ildə 186 nəfər, 1886-cı ildə 161 nəfər, 1897-ci ildə 60 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1905-1906-cı illərdə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim ivə //yıva (>yuva -İ.B) oğuz tayfasının (399, I, s.96; 299, s.269; 238, s.334) adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 19.IV.1950-ci il fərmanı ilə adı dəyişdirilib Şaumyan qoyulmuşdur.

**Yuxarı Ağbaş** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin digər adı «Xaraba Ağbaş»dır (415, s.46). Rayon mərkəzindən 18 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.3) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 91 nəfər, 1886-cı ildə 89 nəfər, 1897-ci ildə 183 nəfər, 1904 - cü ildə 132 nəfər, 1914 - cü ildə 172 nəfər, 1916-cı ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127).

1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunaraq xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti quralandan sonra sağ qalan azərbaycanlılar kəndə dönə bilmişdir.

Burada ermənilərlə yanaşı, 1922-ci ildə 113 nəfər, 1926-cı ildə 117 nəfər, 1931-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə 1948-49 - cu illərdə azərbaycanlılar deportasiya olunaraq Azərbaycana köçürülmüşdür. İndi burada ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə türk mənşəli ağbaş etnonimi (238, s.323; 92, s.24) əsasında əmələ gəlmişdir.

Erm.SSR AS RH-nin 1.XII.1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Abovyan qoyulmuşdur.

**Yuxarı Ağdam -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İçevan) rayonunda kənd. Rayon mərkəzindən 4-5 km cənubunda, Ağdam çayının sahilində yerləşir.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözündən rəng mənasında işlənən ağ və «divar, möhkəmləndirilmiş qala, yer, qala divarı» mənasında işlənən dam (tam) sözlərinin (299, s.529) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı 1920-ci ildə dəyişdirilib Qandzakar qoyulmuşdur.

**Yuxarı Ağdan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözündən və «kiçik, alçaq, çox da hündür olmayan» mənasında işlənən ağ (94, s.68) və «çöl, səhra, açıq yer» mənasında işlənən dan (287,s.470) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca mürəkkəb toponimdir.

Erm.SR AS RH-nin 25.V.1967-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Ağdan qoyulmuşdur.

**Yuxarı Ağkörpü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.5). Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Ağcaqala -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 11 km şərqdə, Alagöz dağının cənub-qərb tərəfində yerləşir. Kəndin başqa adı Yuxarı Hacıqala kimi də qeyd edilir (415, s.34; 427, s.545). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348,s.4).

Kənddə 1831-ci ildə 70 nəfər, 1873 - cü ildə 354 nəfər, 1886-cı ildə 405 nəfər, 1897-ci ildə 489 nəfər, 1904 - cü ildə 306 nəfər, 1914 - cü ildə 406 nəfər, 1916-cı ildə 500 nəfər (415, s.34-35, 116-117), 1918-ci ilin yanvarında 308 nəfər (415, s.220) (309, s.220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla deportasiya olunmuş (309, s.220) və 1915-18-cı illərdə Türkiyənin Sasun vilayətindəki Ağbin, Daşdadem, Dzağak, Hatink kəndlərindən, İranın Muş, Mosul vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s.545). Göründüyü kimi, kəndə ermənilər 1918-ci ildə köçürülmüşdür. Erməni mənbələrində tarixi faktlar saxtalaşdırılaraq 1831 və 1897-ci illərdə kənddə ermənilərin yaşadığı göstərilir və azərbaycanlılar ermənilər kimi verilir (427, s.545).

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən yuxarı sözü ilə türk dilində «ağımtıl, bazumtul çöl, yer» mənasında işlənən ağca sözünə (93, s.22-23) qala sözünün qoşulması əsasında əmələ gəlib, «bozumtul torpaqda tikilən qalanın yanındakı yaşayış məntəqəsi» mənasını ifadə verir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Verin Bazmaberd (Yuxarı müxtəlif rəngli, çal rəngli qala) qoyulmuşdur.

**Yuxarı Adyaman -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-qərbdə, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.61), Qafqazın 5 verstlik xəritəsində (348, s.7) qeyd edilmişdir.

Burada 1897-ci ildə ermənilərdən başqa 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.64-65). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya edilmişdir. Kənddə indi ermənilər yaşayır.

Ermənilər buraya 1828-1829 - cu illərdə Türkiyənin Alaşkert bölgəsindən köçürülmüşdür (427, s.849).

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Verin Getaşen qoyulmuşdur.

**Yuxarı Altuntaxt -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Sevan rayonu ərazisində kənd. XVIII əsrdə İrəvan xanlığının Göyçə mahalının tərkibində olmuşdur. Kənd indiki Kəvər (Kamo) rayonu ilə Sevan rayonu arasında, Aşağı Altuntaxt kəndinin yanında, Altuntaxt dağının ətəyində yerləşirdi. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Göyçə nahiyyəsinin (143, s.55), XVIII əsrdə erməni katalikosu S.İrəvansinin «Cambr» əsərində Qeğarkuni vilayətinin (303, s.361) tərkibində «Altuntaxt» formasında qeyd edilmişdir. Kənd XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir. Erməni mənbələrində Verin Altuntaxt, Verin Altundağ («Verin» erməni dilində yuxarı mənasında işlənir) formasında qeyd edilir (427, s.79). İ.Şopen Göyçə mahalında xarabalığa çevrilmiş 27 kəndin içərisində Yuxarı Altuntaxt kəndinin də adını göstərmişdir (386,s.515-516).

Toponim «vulkan mənşəli qaya adlarında qırmızı» mənasında işlənən **altun** sözü ilə Azərbaycan dilində «hündür düzənlik», «düzənlik», «dağda yerləşən düzənlik», «iki dərə arasındakı düzənlik» mənasında işlənən taxt (taxta) sözlərindən (278, s.136; 339, s.547) əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Yuxarı Alçalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 18 km şimal-şərqdə, Göyçə gölünün sahilində, Alçalı çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348,s.l4).

Kənddə 1831-ci ildə 99 nəfər, 1873 - cü ildə 371 nəfər, 1886-cı ildə 505 nəfər, 1897-ci ildə 701 nəfər, 1908-ci ildə 838 nəfər, 1914 - cü ildə 921 nəfər, 1916-cı ildə 815 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 140-141). 1918-ci ildə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuş, xaricdən (İran və Türkiyə) köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 134 nəfər azərbaycanlı, 88 erməni, 1926-cı ildə 142 nəfər azərbaycanlı, 252 erməni, 1931-ci ildə 205 nəfər azərbaycanlı, 511 erməni yaşamışdır (415 s.66-

67, 140-141). Azərbaycanlılar SSRİ Nazirlər Sovetini xüsusi qərarı ilə tarixi-etnik torpaqlarından 1948-ci ildə deportasiya edilmişdir. İndi burada təkcə ermənilər yaşayır.

Toponim alça bitki adına -lı şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. «Yuxarı» sözü fərqləndirici əlamət bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir. 1950-ci ildə Aşağı Alçalı ilə Yuxarı Alçalı kəndi birləşdirilib Alçalı kəndi adlandırılmışdır. Erm.SSR AS RH-nin 27.IX.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ardzvanist qoyulmuşdur.

**Yuxarı Axta -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. İnəkdağ dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.23).

Kəndin əsas sakinləri azərbaycanlılar olmuşdur. Zaman-zaman onlar soyqırımına məruz qalmış, öz doğma torpaqlarından didərgin düşmüşlər. Kəndə ermənilər İran və Türkiyədən köçürülmüşdür (386, s.591-594). Bunun nəticəsinə azərbaycanlılarn sayı azalmışdır. 1897-ci ildə burada 30 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). XX əsrin əvəllərində, 1905-1906-cı il erməni azərbaycanlı davası nəticəsində azərbaycanlılar tamamilə doğma torpaqlarından qovulmuşlar. İndi burada yalnız ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözündən və oğuz tayfalarında olan padarların bir qolunu təşkil edən axtaçı (axta) etnonimindən (93, s.28; 286, s.57; 211, s.235) formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lernanist qoyulmuşdur.

**Yuxarı Axtala -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə, Axtala-Şamlıq yolunun üstündə yerləşir. 1886-cı ildə Loru-Pəmbək qəzasına tabe idi.

Kənddə 1886-cı ildə 76 nəfər, 1897-ci ildə 30 nəfər, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s.67, 98-99). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 77 nəfər azərbaycanlı, 27 nəfər yunan, 1926-cı ildə 82 nəfər azərbaycanlı, 1931-ci ildə 119 nəfər azərbaycanlı, 30 nəfər yunan yaşamışdır (415, s.67, 98-99).

Yunanlar buraya XVIII əsrin 70-cı illərində mis mədənlərində işləmək üçün köçürülmüşdür. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi kənddə ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə axta türk etnonimi (93,s. 28; 286, s.57) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Bədili -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Talin rayonu ərazisində kənd. 1897-ci ildə 45 nəfər azərbaycanlı yaşamışdır (415, s.34-35). 1905-1906-cı ildə erməni təcavüzü nəticəsində kəndin sakinləri qırğınlarla qovularaq kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim oğuzların bəydili (bədili -İ.B) etnonimi (399, I, s.56; 238, s.288) əsasında əmələ gəlmişdir. «Yuxarı» Azərbaycan toponimiyasında fərqləndirici əlamət kimi çıxış edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Qanlıca -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Onlar 1828-ci ildə deportasiya olunmuş, 1828-30 - cu illərdə Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözü ilə qanlı qədim türk tayfasının adına (228, s. 13,64; 321, s.43,86; 393, s.42) -ca şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 26.lV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Marmaşen qoyulmuşdur.

**Yuxarı Qarabağlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Vedi çayının yanında yerləşir.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Yuxarı Qarabağ (143, s.172), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Böyük Qarabağlar (143, s.104), Qafqazın 5 verstlik xəritəsində Yuxarı Qarabağlar (348, s.l 14) formasında qeyd edilmişdir. 1937-ci ildə yaradılan Qarabağlar rayonunun mərkəzi olmuşdur.

Kənddə 1873 - cü ildə 135 nəfər, 1886-cı ildə 175 nəfər, 1897-ci ildə 233 nəfər, 1904 - cü ildə 420 nəfər, 1914 - cü ildə 462 nəfər, 1916-cı ildə 243 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-19 - cu ildə ermənilər tərəfindən azərbaycanlılar qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra sağ qalan sakinləri öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 78 nəfər, 1926-cı ildə 80 nəfər, 1931-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlannda deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözü ilə Kəngərli tayfasına mənsub olan **qarabağlar** etnonimi əsasında (386, s.537; 168, s.99) əmələ gəlmişdir.

**Yuxarı Qaraburun -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348,s. 115).

Kənddə 1897-ci ildə 208 nəfər, 1914 - cü ildə 78 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış, kəndin sakinləri azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözündən və qədim türk dilində «böyük» mənasında işlənən qara sözü ilə «irəliyə çıxan və ya suya doğru uzanan quru», «dağlıq», «çıxıntı» mənasında işlənən **burun** (253, s.99; 278, s.41; 339, s.103) sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimlərin tərkibində burun sözü «qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissə» mənasını bildirir (198, s.151). Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Qaraqala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Kalinino rayonunda kənd olmuşdur. 1930 - cu illərdə rayondakı Aşağı Qaraqala kəndi ilə birləşdirilib. Qaraqala kəndi kimi rəsmi sənədlərdə qeyd edilirdi. 1937-ci ilə kimi Calaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur.

Burada 1886-cı ildə 183 nəfər, 1897-ci ildə 273 nəfər, 1908-ci ildə 205 nəfər, 1922-ci ildə 154 nəfər, 1926-cı ildə 146 nəfər, 1931-ci ildə 175 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149).

Toponim «yuxarı» fərqləndirici əlamət bildirən sözü ilə «rəng» mənasında işlənən qara və qala sözlərinin birləşməsindən əmələ gəlmişdir. Kəndin adı ərazidəki qara daşdan tikilən qala adından götürülmüşdür. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Yuxarı Qaraqoymaz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 9-10 km cənub-şərqdə, Alagöz dağının cənub-qərb ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.117), «Сборник сведений о Кавказе» əsərində Qarakovmaz formasında (t.V,Tiflis,1879,№277) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 142 nəfər, 1916-cı ildə 224 nəfər (415, s.34-35, 118-119), 1918-ci ilin yanvarında 394 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin mart ayına kimi kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş (309, s.219) və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən **yuxarı** sözü ilə, türk dilində «uca, hündür, yüksək, şiş», «dağ, zirvə» mənasında işlənən qara sözündən (94, s.71, 339, s.256), türk dilində kənd mənasında işlənən köy sözü ilə (339, s.282) «dağın cənub yamacı», «yüksəklikdə meşəsiz tərəfi» mənasında işlənən mas (maz -İ.B) sözünün (339, s.369) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Verin Sasunaşen qoyulmuşdur.

**Yuxarı Qaraçimən -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur.

Kənddə 1897-ci ildə 237 nəfər, 1922-ci ildə 217 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1926-cı ildən sonra ləğv edilərək Aşağı Qaraçimən kəndi ilə birləşdirilmişdir.

Toponim qədim türk dilində «böyük, geniş» mənasında işlənən qara sözü ilə (94, s.70) «yaşıl otla örtülmüş sahə» mənasında işlənən çəmən sözünün (12, s.429) dialekt variantı olan çimən sözünün birləşməsindən əmələ gəlmişdir. «Yuxarı» sözü fərqləndirici əlamət bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Qarxın -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiəzdin) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənubda, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.123) qeyd edilmişdir. Kənddə 1831-ci 885 nəfər, 1873 - cü ildə 967 nəfər, 1886-cı ildə 991 nəfər, 1897-ci ildə 1186 nəfər, 1904 - cü ildə 1153 nəfər, 1914 - cü ildə 1304 nəfər, 1916-cı ildə 893 nəfər (415, s.82-83, 152-153), 1918-ci ilin yanvarında 1153 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayının axırlarında martın əvvəllərində kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş (309, s.219) və xaricdən köçürülən ermənilər və yezidi kürdlər kəndə yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən yuxarı sözü ilə oğuzların qarxın (mənbələrdə qarqın, karkın kimi göstərilir) türk etnonimi (238, s.300) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Crarat qoyulmuşdur.

**Yuxarı Qızqala -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şamşəddin rayonunda qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

**Yuxarı Qoylasar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin digər adı Ulya Qoylasar olmuşdur (415, s.48). Rayon mərkəzindən 10 km şimal-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Yuxarı Quyuluhasar formasında (143, s.49) qeyd edilmişdir. Kəndin əsas sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-30 - cu illərdə İranının Xoy və Salmas vilayətlərindən köçürülmüşdür (427, s.771). Ermənilərlə yanaşı kənddə 1831-ci ildə 121 nəfər, 1873 - cü ildə 157 nəfər, 1886-cı ildə 8 nəfər, 1897-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). Azərbaycanlılar 1870-ci illərin sonundan başlayaraq sıxışdırılmış, kənddən tamamilə 1905-1906-cı illərdə qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Kəndin ortasında böyük bir meydanda qala olmuşdur və həmin qala uca qalın divarla hasarlanmış, küncləri isə 20 qüllədən ibarət imiş. Kəndin adı məhz həmin qala adından götürülmüşdür. Qoylasar «qalahasar» sözünün təhrif edilmiş formasıdır və qala və hasar sözlərini birləşməsindən əmələ gəlib «hasarlanınış qala» mənasını bildirir (371, s.284). Toponimin əvvəlindəki işlənən «yuxarı» sözü fərqləndirici əlamət bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 20.VIII.1945 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Bambakavan, 25.I.1978-ci il fərmanı ilə yenidən dəyişdirələrək Byurayan qoyulmuşdur.

**Yuxarı Qulubəyli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Rayonun ərazisindəki Böyük Qarasu çayının yuxarı axan sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (143, s.147) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 336 nəfər, 1886-cı ildə 397 nəfər, 1897-ci ildə 293 nəfər, 1904 - cü ildə 286 nəfər, 1914 - cü ildə 304 nəfər (415, s.82-83, 152-153), 1918-ci ilin yanvarında 286 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s.219). 1930 - cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözü ilə Qulubəyli nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Darğalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd.

Kənddə 1897-ci il ddə 35 nəfər, 1926-cı ildə 4 nəfər, 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.67, 128-129). 40-cı illərin əvvəllərində rayondakı Aşağı Darğalı və Yuxarı Darğalı kəndləri birləşdirilərək Darğalı kəndi yaradılmışdır.

Toponim monqol dilində «şəhər, qəza, mahal, vilayət hakimi» mənasında işlənən darğa sözünə (10, s.36) mənsubluq bildirən -lı şəkilçinin qoşulması yolu ilə əmələ gəlmişdir. «Yuxarı» fərqləndirici əlamət bildirən sözdür. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Əylənli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 2 km şimal-şərqdə, Alagöz dağının cənub-qərbində yerləşir. Kəndin başqa adı Əylənli-Əbdülrəhman olmuşdur (415, s.80). Qafqazın 5 verstlik xəritəsində (348, s.8) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlı yaşamışdır. Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmiş və azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. Burada ermənilərlə yanaşı 1831-ci ildə 50 nəfər

azərbaycanlı yaşamışdır (415, s.150). 1840-cı illərdə onlar da kənddən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən **yuxarı** sözü ilə əylənli nəsil adı əsasında əmələ gəlmişdir. Əylənli tayfası F.Sümərin «Oğuzlar» əsərində əyələnoğlu kimi qeyd edilir (238, s.185). Patronim toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Tsaxkunk qoyulmuşdur.

**Yuxarı Əliqrıx -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunun ərazisində kənd. Adı Q.Alişanın «Sisakan» əsərində çəkilir (427, s.85). Toponim Əli şəxs adı ilə qırıx türk etnonimi (378, s.166; 286, s.52) əsasında əmələ gəlmişdir. «Yuxarı» fərqləndirici əlamət bildirir. Etnotopnimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Zağalı** - İrəvan quberniyasının Göyçə qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-qərbdə, Göyçə gölünün yaxınlğında Dik Pilləkən dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.94) qeyd edilmişdir. Kənd həm də Tatar (Azərbaycanlı - İ.B.) Zağalısı adlandırılmışdır (415, s.26). Kənddən 1 km şərqdə qədim bir kəndin xarabalıqları indi də durur. Eyni zamanda Oğuz qəbiristanlığının qalıqları, albanlara məxsus xaç heykəlləri vardır. Kənddə 1831-ci ildə 98 nəfər, 1873 - cü ildə 515 nəfər, 1886-cı ildə 717 nəfər, 1897-ci ildə 774 nəfər, 1908-ci ildə 917 nəfər, 1914 - cü ildə 1018 nəfər, 1916-cı ildə 922 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-ci ilin sonu, 1919 - cu ilin əvvəllərində azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar (309, s.249). İndiki Ermənistanda 1920-ci ildə Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildən sonra Türkiyənin Muş bölgəsindən köçürülən ermənilər Yuxarı Zağalı kəndində yerləşdirilmişdir (415, s.26-27). Ermənilərlə yanaşı 1926-cı ildə burada 185 nəfər, 1931-ci ildə 206 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27,110-111).

Onu da qeyd edək ki, «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» kitabında (427, s.121) göstərilir ki, 1831-1908-ci illərdə Yuxarı Zağalı kəndində yalnız ermənilər yaşamışdır. Halbuki 1831, 1873, 1886, 1897, 1914, 1916, 1922-ci illərdə (əhalinin siyahıya alınmasına görə) burada yalnız azərbaycanlılar yaşamışdır (415, s.26-27, 112-113). Ermənilər buraya, yuxarıda dəyildiyi kimi, 1922 - cü ildən sonra köçürülmüşdür.

Yuxarı Zağalı kəndində qarışıq (azərbaycanlılar və ermənilər) şəkildə 1970-ci ildə 629, 1979 - cu ildə 534 nəfər əhali olmuşdur (427, s.121). Bu əhalinin 30 faizdən çoxunu azərbaycanlılar təşkil etmişdir. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən qırğınlarla doğma kəndlərindən qovulmuşlar. İndi burada yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində «mağara» mənasında işlənən zağa sözünə -lı şəkilçisinin əlavəsi ilə düzəlmişdir. Quruluşca mürəkkəb toponimdir. Toponimin əvvəllindəki işlənən «Yuxarı» sözü fərqləndirici əlamət bildirir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Axpadzor qoyulmuşdur.

**Yuxarı Kilsə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-şərqdə yerləşir.

Kənddə 1922-ci ildə 96 nəfər, 1926-cı ildə 130 nəfər, 1918-ci ildə 154 nəfər (415, s.54-55, 132-133), 1987-ci ildə 575 nəfər (85, s.317) azərbaycanlı yaşamışdır. Kəndin əhalisi 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından zorla qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim cəhət, fərqləndirici əlamət bildirən yuxarı sözü ilə dini mərkəz bildirən kilsə sözündən əmələ gəlmişdir. Kəndin Kilsə (sonradan Yuxarı Kilsə-İ.B) adlarıdırılması XV yüzillikdə Yuxarı Kilsə kəndində tikilmiş alban kilsəsi ilə bağlıdır (85, s.317). Alban kilsəsi 1935-ci ildə dağıdılıb. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Yuxarı Kirətağ** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə, Oxçu çayının sol qollarından biri olan Kirətağ çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.134).

Kənddə 1886-cı ildə 537 nəfər, 1897-ci ildə 328 nəfər, 1904 - cü ildə 666 nəfər, 1914 - cü ildə 289 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 71 nəfər, 1926-cı ildə 223 nəfər, 1931-ci ildə 396 nəfər (415, s.56-57, 134-135), 1939 - cu ildə 139 nəfər, 1959 - cu ildə 310 nəfər, 1979

- cu ildə 120 nəfər (427, s.868) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «kənar, çöl, düzənlik» mənasında işlənən kır (kir -İ.B) sözü ilə (359, II(1), s.733) tağ (>dağ) sözünün (339, s.537) birləşməsindən əmələ gəlmişdir. Toponim əvvəlindəki «yuxarı» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Körpülü** - Gəncə quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-qərbdə, Quruçay vadisində yerləşir.

Kənddə 1831-ci ildə 43 nəfər, 1886-cı ildə 361 nəfər, 1897-ci ildə 402 nəfər, 1908-ci ildə 440 nəfər, 1914 - cü ildə 427 nəfər, 1916-cı ildə 792 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17; 100-101). 1918-ci ildə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 523 nəfər, 1926-cı ildə 530 nəfər, 1931-ci ildə 630 nəfər (415, s.16-17, 100-101), 1987-ci ildə 2000 nəfər (85, s.329) azərbaycanlılar yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan döyləti tərəfindən yenidən öz doğma kəndlərindən qovulmuşlar. İndi ermənilər yaşayır.

Kənd XII əsr tarixi abidəsi olan Sınıq körpünün (Qırmızı körpü) yanında salındığı üçün kənd Körpülü adlandırılmışdır. «Yuxarı» fərqləndirici əlamət bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Yuxarı Gəzbin** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. 1918-ci ilin yanvarında 100 nəfər azərbaycanlı yaşamışdır (309, s.220). Kəndin köklü sakinləri azərbaycanlılar 1918-ci ilin fevralında ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.220). Kənd 1920-ci ildə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «aşırım», «dağın təpəsindəki çökəklik», «yüksək və orta dağ beli tirəsində olan enli yarıq» mənasında işlənən gəz sözü ilə (235, s.126; 273, s.56; 339, s.167) «köçərilərin mal-qara ilə köçüb, kəndin kənarda məskan saldıqları yer, yurd, köç» mənasında işlənən binə sözünün (9, s.273; binə sözündəki «ə» saiti düşmüşdür) birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki «yuxarı» fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Gödəkli** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 14 km şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.127).

Kənddə 1897-ci ildə 201 nəfər, 1914 - cü ildə 79 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 132 nəfər, 1926-cı ildə 118 nəfər, 1931-ci ildə 163 nəfər (415, s.56-57, 134-135), 1939 - cu ildə 221 nəfər, (1959 - cu ildə 180 nəfər, 1970-ci ildə 275 nəfər, 1979 - cu ildə 381 nəfər azərbaycanlı yaşamışdır (427, s.886). 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk mənşəli qazaxlar tayfasından olan gödəkli etnonimindən (386, s.535) əmələ gəlmişdir. Etnotoponimdir. «Yuxarı» fərqləndirici sözü ilə işlənərək mürəkkəb quruluşlu toponim yaratmışdır.

Erməni dilinə kalka edilərək Verin Gyodaklu formasında işlədirilir.

**Yuxarı Güllüdüzü** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Erdəpin çayının sağ sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 263 nəfər, 1926-cı ildə 108 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93). 1959 - cu ildə Aşağı Güllüdüz kəndi ilə birləşdirilmişdir.

Toponim güllü (çiçəkli) mənasında və III şəxsinin təkinin mənsubiyyət şəkilçisi (-ü) qəbul etmiş düz sözündən əmələ gəlmişdir. «Güllü, çiçəkli, düz yerdə olan kənd» mənasını bildirir. Toponimin əvvəlindəki «yuxarı» fərqləndirici əlamət bildirir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Necili** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəgibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 1,5 km şimalda yerləşir. 1969 - cu ildə Zəngibasar (Masis) rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.186) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 155 nəfər, 1873 - cü ildə 540 nəfər, 1886-cı ildə 654 nəfər, 1897-ci ildə 791 nəfər, 1908-ci ildə 933 nəfər, 1914 - cü ildə 945 nəfər, 1916-cı ildə 732 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ilin sonu 1919 - cu ilin əvvəllərində kəndin sakinləri erməni təcavüzünə məruz qalraq deportasiya olunmuşdur (309, s.220). Yalnız indiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 319 nəfər, 1926-cı ildə 365 nəfər, 1931-ci ildə 627 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim fərqləndirici əlamət bildirən «yuxarı» sözü ilə nəcli türk tayfasının adı (143, s.30) əsasında əmələ gəlmişdir. Azərbaycan dilində ə~e səs əvəzlənməsinin qanunauyğun fonetik hadisə olduğunu nəzərə alıb qeyd edə bilərik ki, necili nəçli etnoniminin fonetik variantıdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Nizami (Azərbaycan şairi N.Gəncəvinin adı) qoyulmuşdur.

**Yuxarı Novruzlu -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. «İrəvan əyalətinin icmal dəftəri»ndə Novruzlu adında (143, s.49) qeyd edildmişdir. Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır.

1828-30 - cu illərdə İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (386, s.551- 554). Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 37 nəfər, 1873-cü ildə 115 nəfər, 1886-cı ildə 158 nəfər, 1897-ci ildə 180 nəfər (415, s.48-49, 128-129), 1918-ci ilin yanvarında 231 nəfər (309, s.216) azərbyacanlı yaşamışdır. 1918-ci ilin fevralında azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuş (309, s.216) və kənddə yalnız ermənilər qalmışdır. İndi ermənilər yaşayır.

Toponim mərzili tayfasından olan novruzlu nəsil adı (286, s.74) əsasında əmələ gəlmişdir. Toponimdəki «yuxarı» fərqləndirici əlamət bildirir. Patronomik toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Pirtikan** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.202) qeyd edilmişdir.

Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən «yuxarı» sözü ilə «dini məbəd» mənasında işlənən pir sözünün qıpçaqların tikan etnoniminə (286, s.66) yanaşması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Tsaxkasar qoyulmuşdur.

**Yuxarı Talin** İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. İndi Talin rayonunun mərkəzi. Qafqazın 5 verstlik xəritəsində (348, s.236) qeyd edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə «söyüd ağacı», «söyüd kolu» mənasında işlənən tal (341, s.180-182; 337, s.235) və qədim türk dilində «daxma, mağara, kaha» mənasında işlənən in sözünün (299, s.209) birəşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı erməni dilində Verin Talin (verin-yuxarı deməkdir) formasında qeyd edilir.

**Yuxarı Türkmənli** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənubda, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.248) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 64 nəfər, 1873 - cü ildə 262 nəfər, 1886-cı ildə 360 nəfər, 1897-ci ildə 438 nəfər, 1904 - cü ildə 510 nəfər, 1914 - cü ildə 540 nəfər, 1916-cı ildə 460 nəfər, 1919 - cu ildə 460 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Kənd 1919 - cu ilin yazında erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından qovulmuş və kənddə 1915-1918-ci illərdə Türkiyənin Sasun vilayətinin Moqdan əyalətindən köçürülən ermənilər yerləşdirilmişdir (427, s.304). İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra burada ermənilərlə yanaşı 1922-ci ildə 1 nəfər, 1926-cı ildə 11 nəfər, 1931-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Onlar da 1930 - cu illərin ortalarında sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə qızılbaşların türkmən etnoniminə (175, s.18) -li şəkilçisinin qoşulmasından əmələ gəlmiş türkmənli etnonimi əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3.19.1935-ci il fərmanı ilə adı dəyişdirilib Apaqa qoyulmuşdur.

**Yuxarı Xatunarx** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənub-qərbdə, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.262) qeyd edilmişdir.

Kənddə 1828-ci ilə kimi azərbaycanılılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1828-29 - cu illərdə İranın Xoy vilayətindən köçürülən ermənilər kənddə yerləşdirilmiş (427, s.138) və azərbaycanlılar kənddən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Kənd Böyük Qarasu çayından çəkilən arxın kənarında İrəvan xanı Səfıqulu xanın (1655-1680) arvadı Xatun tərəfindən salınmışdır. Ona görə də kənd Xatınarx adlandırılmışdır (427, s.138). Toponimin əvvəllindəki «yuxarı» sözü fərqləndirici əlamət bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Aknaşen qoyulmuşdur.

**Yuxarı Hımud -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim hun adlı qədim türk etnonimi (287, s.72, 101, 124126) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki «yuxarı» sözü fərqləndirici əlamət bildirir. Hunud toponimindəki «ud» topoformantdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Çanaxçı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 40 km məsafədə, Ördundərədə, Ördun çayının yuxarısında, İrəvanın 90 verstliyində yerləşir.'

Qafqazın 5 verstlik xəritəsində (348, s.279) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 30 nəfər azərbaycanlı yaşamışdır (415, s.156). 1828-1829 - cu illərdə İran və Türkiyədən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. 18301840-cı illərdə xaricdən köçürülən ermənilər azərbaycanlıları sıxışdırıb kənddən qovmuş və kəndə yiyələnmişlər.

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə çanaxçı türk tayfasının adı (407, s.88) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 20. IX. 1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Sovetaşen qoyulmuşdur.

**Yuxarı Çarbax -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin başqa adı «Çaharbağ»dır (415, s.50). Qafqazın 5 verstlik xəritəsində (348, s.280) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 31 nəfər, 1873 - cü ildə 201 nəfər, 1886-cı ildə 241 nəfər, 1897-ci ildə 242 nəfər, 1904 - cü ildə 347 nəfər, 1914 - cü ildə 386 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuş, İran və Türkiyədən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 177 nəfər, 1926-cı ildə 201 nəfər, 1931-ci ildə 264 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən yuxarı sözü ilə türk dilində «yarğan, sıldırım sahil» mənasında işlənən çar (359. lll (2), s.1859) və bağ sözlərinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Yuxarı Çəmbərək -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.279) qeyd edilmişdir. Erməni mənbələrində Yuxarı Çambarək formasında qeyd edilir (415, s.32).

Toponim fərqləndirici əlamət bildirən yuxarı sözündən Azərbaycan dilində şam ağacın adını bildirən çam (-çəm-İ.B) sözü ilə (238, s.154) baraq (bərək-İ.B) türk etnonimindən (228, s.16-17; 321, s.43,45; 238, s.20) əmələ gəlmişdir. Etnotoponimdir.

**Yuxarı Şorca -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Kəndin digər adları Tatar Şorcası, Başkeyti, Şorcalı Keyti olmuşdur (415, s.26). İ.Şopenin əsərində Baş Keyti adı formasında qeyd edilmişdir (386, s.599). Kəndi ilkin adı məhz Baş keyti olmuşdur. XIX əsrin 80-cı illərində kəndin adı artıq Şorca formasında öz əksini tapmışdır (Свод статистических данных о населении Закавказского края,Тифлис, 1893, №628). Rayonun ərazisindəki Aşağı Keyti, Təzə (Yeni) Keyti kəndi XIX əsrin 80-cı illərində Şorcalı (Yenə orada, №619), XX əsrin əvəllərində Aşağı Şorca kəndi adlarıdırıldıqdan sonra, Şorca kəndi də Yuxarı Şorca adlandırılmışdır. Rayon mərkəzindən 15 km cənub-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.297) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 75 nəfər, 1873 - cü ildə 123 nəfər, 1886-cı ildə 158 nəfər, 1897-ci üdə 218 nəfər, 1908-ci ildə 248 nəfər, 1914 - cü ildə 283 nəfər, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919-cu ilin aprelində azərbaycanlılar ermənilər tərəfində qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar (309, s.305). 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra müəyyən sakitlik yaranmış və sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişlər. 1922-ci ildə 204 nəfər, 1926-cı ildə 253 nəfər, 1931-ci ildə 295 nəfər (415, s.26-27, 112-113), 1959 - cu ildə 1252 nəfər,1987-ci ildə 1440 nəfər (85, s.288-289) azərbaycanlı yaşamışdır.1988-ci ildə azərbaycanlılar bir daha Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından zorla qovulmuşlar. İndi burada ermənilər məskunlaşıb. Toponim fərqləndirici əlamət bildirən yuxarı sözünün və «duzluq, şoranlıq» mənasında işlənən şor sözünə sifətin çoxaltma dərəcəsinin morfoloji əlamətini bildirən -ca şəkilçisinin artırılması ilə düzəlib. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

## K

**Kalara -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Kəndin qədim adı Kalalı //Kalaley olmuşdur (415,s.50).

1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Kelare kimi qeyd edilir (143, s.159).

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 6 nəfər, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51). 1928-1929 - cu illərdə azərbaycanlılar "deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim türk dilində «dayaz dərə» mənasında işlənən kol (>kal-İ.B) sözü ilə (359, ll(1), s.582-583), «hüdud», «sərhəd» mənasında işlənən ara sözünün (9, s.114) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 1. XII. 1949 - cu il fərmanı ilə adı dəyişdirilib Qukasavan qoyulmuşdur.

**Kalafalar -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda sahə. Rayondakı Cücəkənd kəndinin ərazisində yerləşir. Mikropotonim Azərbaycan dilində «dağılmış tikintinin qalığı, dağılmış yer, xarabalıq» mənasında işlənən kalafa sözünə (11, s.10) -lar şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Kamal -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 8 km şimal-şərqdə, Zəngi çayının sağ sahilində yerləşir. 1972-ci ilə kimi Kotayk (Abovyan) rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.80), Qafqazın 5 verstlik xəritəsində (348, s.155) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 37 nəfər, 1873 - cü ildə 395 nəfər, 1886-cı ildə 565 nəfər, 1897-ci ildə 597 nəfər, 1904 - cü ildə 621 nəfər, 1914 - cü ildə 780 nəfər, 1916-cı ildə 715 nəfər (415, s.46-47, 126-127), 1918-ci ilin yanvarında 625 nəfər (309, s.216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir (309, s.216). İndi ölü kənddir.

Toponim şəxs adı əsasında yaranan antropotoponimdir. Qurluşca sadə toponimdir.

**Karpi -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.162), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.37) qeyd edilmişdir.

Tarixən burada Kiçik Karpi və Böyük Karpi kəndləri olmuş, sonradan bu iki kənd birləşdirilmiş və Karpi kəndi kimi rəsmiləşdirilmişdir (415, s.22).

Toponim türk dilində «şəhər», «qala», «möhkəmləndirilmiş yer» mənasında işlənən kar sözünə (339, s.254) -pi şəkilçisinin qoşulması yolu ilə formalaşmışdır. «...pi Bisitun qayalarındakı mixi yazıların ikinci qolunun dilindən - Elam dilindən göründüyü kimi cəm bildirən şəkilçidir. Bu yazılarda həmin şəkilçi «p», «ap», «pe», «pi» şəkillərində tayfa və ölkə bildirən adların sonuna bitişdirilərək işlənıniş və belə sözlər həmin şəkilçi ilə birlikdə «el», «tayfa», «qəbilə», «yurd», «ölkə» mənalarını ifadə etmişdir (78, s.29). Relyef əsasında yaranan düzəltmə sözdür.

**Karvansara -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. Alagöz dağının cənub ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.115) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 136 nəfər, 1886-cı ildə 155 nəfər, 1897-ci ildə 184 nəfər, 1908-ci ildə 140 nəfər, 1914 - cü ildə 148 nəfər, 1916cı üdə 288 nəfər (415, s.36-37, 118-119), 1918-ci ilin yanvarında 210 nəfər (309, s.221) yalnız azərbaycanlı yaşamışdır. 1918-1919 - cu illərdə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevlilmişdir (309, s.221). 1920-ci ildə kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim «dəvə dəstəsi» mənasında işlənən karvan sözü ilə türk dilində «ev, təsərrüfat tikilisi» mənasında işlənən «saray» sözünün (339, s.496) birləşməsindən əmələ gələn karvansara sözündən yaranıb «özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanması üçün böyük həyəti olan, xüsusi binası olan kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Karvansaray -** İndiki Ermənistanın şimal-şərqində inzibati rayon və yaşayış məntəqəsi. 1920-ci illərdən İcevan adı ilə rəsmiləşdirilmişdir. Rayon kimi 1930 - cu il sentyabnn 9-da təşkil edilmişdir. 1805-cı ildə rayonun ərazisini Rusiya işğal etmişdir.

Toponim «özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanılması üçün böyük həyati olan xüsusi bina» mənasında işlənən karvansara sözündən (11, s.18) əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca sadə toponimdir.

**Karvansara -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd. Rayondakı Armaş kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Karvansara məzrə'əsi formasında (143, s.173), Qafqazın 5 verstlik xəritəsində Karvansara kimi (348, s. 115) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 68 nəfər, 1914 - cü ildə 76 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1916-cı ildən sonra Kəndin sakinləri zorla, qırğınlarla qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim «özgə yerlərdən gələn karvanların, qoşqu heyvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanılması üçün böyük həyati olan xüsusi bina» mənasında işlənən karvansara sözündən (11, s.18) əmələ gəlib. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəbdir.

**Karvansara dərəsi** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşmişdir. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 30 - cu illərdə ləğv edilmişdir.

Toponim karvansara və dərə sözlərindən əmələ gəlmişdir. Yaşayış məntəqəsi dərədə yerləşdiyi üçün Karvansara dərəsi adlandırılmışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Karvansara** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Əvvəllər gah Artik, gah da Abaran rayonunun tərkibində olmuşdur. Erm. SSR AS RH-nin 15 mart 1972-ci il fərmanı ilə Alagöz rayonuna verilmişdir. Alagöz dağının cənub tərəfində yerləşir. XIX əsrin əvəllərində azərbaycanlılar qovulmuş, kürdlər və ermənilər yerləşdirilmişdir.

Toponim karvan sözü ilə türk dilində «ev», «təsərrüfat tikilisi» mənasında işlənən saray sözünün (339, s.496-497) birləşməsindən əmələ gələn karvansara sözündən formalaşmışdır və «başqa yerlərdən gələn karvan və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları, minik vəsaitinin saxlanınası üçün böyük həyati olan bina yanında salınan kənd» mənasını bildirir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdiridib Amretəzə qoyulmuşdur.

**Karvansara -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 10-12 km cənub-şərqdə, Mədinə kəndinin yanında, Əyriçay çayının sahilində yerləşir. Kəndin adı erməni mənbələrində Əyriçay Karvansara və Əyricə Karvansara kimi də qeyd edilmişdir (415, s.66).

Kənddə 1873 - cü ildə 168 nəfər, 1886-cı ildə 205 nəfər, 1897-ci 309 nəfər, 1904 - cü ildə 341 nəfər, 1914 - cü ildə 441 nəfər, 1916-cı ildə 294 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143).

1918-ci ildə kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 45 nəfər azərbaycanlı, 1931-ci ildə 80 nəfər azərbaycanlı, 69 erməni, 29 kürd yaşamışdır (415, s.66-67, 142-143).

Ermənilər kəndə 1928-1930 - cu illərdə köçürülmüşdür. (415, s.66). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd Mədinə kəndi ilə birləşdirilmişdir.

Toponim «ticarət yolu üzərində tikili bina» mənasında işlənən karvansara sözü əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Kasax -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Nairi rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə yerləşir.

Toponim qazax türk etnonimi (386, s.535; 245, s.37; 354, s.92) əsasında əmələ gəlmişdir.

Qazax etnonimi əsasında əmələ gələn Qazax etnotoponimi mənbələrdə Kasax formasında işlənmişdir (286, s.48) Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Kaftarlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında. indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s. 136), Qafqazın 5 verstlık xəritəsində (348, s.124) qeyd edilmişdir.

XIX əsrin əvvəllərinə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1800-1810 - cu illərdə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışdır. 1810 - cu ildə Türkiyənin Alaşgert bölgəsindən köçürülən ermənilər burada yerləşdirilmişdir (Ermənistan Sovet Ensiklopediyası, XII c., İrəvan, 1986, s.306).

Toponimi kaftarlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

İndiki Ermənistanın Torpaq Komitəsinin 1924 - cü il qərarı ilə kəndin adı dəyişişdirilib Panik qoyulmuşdur.

**Kepəşen -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Rayon mərkəzindən 38 km şimal-şərqdə, Kığı çayının yuxarı axarında, Gərd çayı ilə Kığı çayının qovuşduğu yerdə yerləşir (85, s.146).

1930 - cu ildə kolxoz quruluşu yaradılanda Pəhyan təsərrüfatma daxil edilmişdir. 1950-ci illərdə kolxozlar ləğv ediləndən sonra Kığı heyvandarlıq sovxozuna tabe edilmişdir.

Kənddə 1897-ci ildə 68 nəfər, 1922-ci ildə 85 nəfər, 1926-cı ildə 45 nəfər, 1931-ci ildə 136 nəfər (415, s.62-63, 136-137), 1959 - cu ildə 1372 nəfər (85, s.146) azərbaycanlı yaşamışdır.

1988-ci ildə noyabrın axırlarında Ermənistan dövləti tərəfindən kəndin sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dəlində «pilləli qaya» mənasında işlənən kəp sözü ilə (253, s.19, 125) türk dilində «yaşayış məntəqəsi» mənası bildirən şenlik sözünün fonetik forması olan şen topoformantı əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kefli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. 1937-ci ilə qədər Ağbaba rayonunun tabeliyində olmuşdur. Rayon mərkəzindən 24 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348,s.!30).

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə adı dəyişdirilərək Kakavasar qoyulmuşdur.

**Keçəl təpə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. .

Kənddə 1926-cı ildə 185 nəfər azərbaycanlı və erməni yaşamışdır (415, s.62-63). 1930 - cu illərdə kənd ləğv edilmişdir. Toponim Azərbaycan dilində «çılpaq, otsuz, ot bitməyən yer» mənasında işlənən keçəl sözü ilə (278, s.88; 11, s.32) «alçaq dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Keçəl təpə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda qışlaq. Yuxarı Körpülü kəndinin tabeliyində olmuşdur. Burada 1926-cı ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). 1930 - cu ildə yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim «ot bitməyən», «çılpaq» mənasını bildirən keçəl sözü ilə (11, s.32) «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlib, «çılpaq, otsuz, ot bitməyən təpə yanında olan qışlaq» mənasını bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Keçəl tala -** Yelizavetpol Gəncə quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda təpə. «Otsuz, ot bitməyən yer, çılpaq dağ» mənasında işlənən keçəl və tala sözlərindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu oronimdir.

**Keçili -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə, Araz çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.61) qeyd edilmişdir.

Toponim oğuz türk tayfasından olan kayı (qayı) etnoniminin bir qolunu təşkil edən keçili etnonimi (ASE, V c., B., 1981, s.331) əsasında əmələ gəlmişdir. Q. Qeybullayev kəngərlərin bir qolunun keçili adlarıdığını yazır (286, s.69). Araz çayının sağ sahilində yaşamış keçililər səfəvilər dövründə Naxçıvana keçərək kəngərlilərə qarışmışlar (ASE, V c., B., 1981, s.331). Eyni zamanda oğuzların kayı (qayı) tayfasının bir qolu qara keçili adlanmışdır (238, s.227). Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm.SSR AS RH-nin 4. IV. 1946-il fərmanı ilə adı dəyişdirilib Mraqaşat qoyulmuşdur. ^ v<

**Keçkeçi -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

**Keşişverən -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 34 km məsafədə, dərədə, Çanaxçı çayının sağ axarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.131) qeyd edilmişdir.

Toponim türk dilində «yaşayış məntəqəsi, qəsəbə» mənasında işlənən keş sözü ilə (339, s.273) qədim türk dilində «xarablıq, uçulmuş divar» mənasında işlənən örən sözünün (359, l(2), s.1219) sinonimi olan viran sözünün birləşməsindən əmələ gəlmişdir. «Veran», «viran» sözünün dialekt variantıdır.

Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3. l. 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zovaşen, 21. X. 1967-cı il fərmanı ilə yenidən dəyişdirilərək Urtsalanc qoyulmuşdur.

**Keşişkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd. 15 oktyabr 1931-ci ildə indi Ermənistan adlanan ərazidə yaradılan rayonun adı və rayon mərkəzi. Başkənd çayının yaxınlığında, Şordərə dərəsinin 2,5 km-də yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59), Qafqazın 5 verstlik xəritəsində (348, s.131) qeyd edilmişdir. Kəndin adı ilk dəfə V əsrdə xatırlanır (422, s.45).

Burada ermənilərlə yanaşı 1897-ci ildə 3 nəfər, 1922-ci ildə 11 nəfər, 1926-cı ildə 21 nəfər, 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415,s.92-93, 162-163). 1940-cı illərdə rayon mərkəzindən azərbaycanlılar qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

«Dərəlyəz mahalında heç kim bu qəsəbə adına Keşişkənd demir. Hamı buna Keşkənd və ya Keşkəndi deyir» (211, s.220). Toponim qədim türk dilində «keçid, bərə, körpü» mənasında işlənən keçiş (sözün birinci hecasındakı «ç» səsi, «ş» səsi ilə əvəzlənərək söz keşiş formasını alıb. Azərbaycan dilində ç~ş səs əvəzlənınəsi qanunauyğun haldır) sözü ilə (299, s.291), türk dilində «şəhər», «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün (299, s.290; 339, s.270) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Mikoyan, 6. XII. 1957-cı il fərmanı ilə yenidən dəyişdirilərək Yeğeqnadzor (Qamışlı dərə) qoyulmuşdur.

**Keşişkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənubda yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonunun yaradılması ilə əlaqədar Abaran rayonunun tərkibindən çıxarılıb Alagöz (Araqadz) rayonunun tərkibinə daxil edilmişdir.

Toponim qədim türk dilində «keçid, bərə, körpü» mənasında işlənən keçiş (>keşiş. Azərbaycan dilində ç~ş əvəzlənınəsi qanunauyğun haldır) sözünə (299, s.291) kənd sözünün qoşulması əsasında əmələ gəlib «keçid, bərə, yanında olan kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Qexarot qoyulmuşdur.

**Kəvər -** İrəvan xanlığının Göyçə mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda yaşayış məntəqəsi, rayon mərkəzi. İndiki Ermənistanın şimalında, Göyçə gölünün sahilində yerləşir.

1828-ci il Türkmənçay müqaviləsindən sonra - 1830 - cu ildə Türkiyənin Bayazid əyalətindən köçürülən ermənilər burada yerləşdirilmişdir (386, s.596-598) və yaşayış məntəqəsinin adı dəyişdirilib Yeni Bayazid qoyulmuşdur. Erməni mənbələrində Nor Bayazid formasında işlənir. «Nor» yeni deməkdir.

1930 - cu ildən rayon mərkəzidir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 12 nəfər, 1926-cı ildə 15 nəfər, 1931-ci ildə 69 nəfər azərbaycandı yaşamışdır (415, s.70-71, 150-154). 1948-ci ildə azərbaycanlılar deportasiya olunmuşdur.

Toponim xəzər türk tayfasının bir qolu kimi tanınan kəbər etnonimi (286, s.44) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 13. IV. 1959-cu il fərmanı ilə adı dəyişdirilib Kamo qoyulmuşdur.

**Kələkarx -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən təxminən 15 km məsafədə, Araz çayından axan arxın yanında yerləşir.

Toponim Azərbaycan dilinin cənub dialektində «yan tərəfləri daşla hörülmüş ağıl, heyvan salınan yer» mənasında işlənən kələk sözü ilə (8, s.256) arx sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nın I. IV. 1946-cı il fərmanı ilə dəyişdirilib Şenevan (Şenli qəsəbə) qoyulmuşdur.

**Kələşkənd -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. Zəngi çayının sağ qolunun üzərində yerləşirdi Erməni mənbəyində Kyalaşkənd formasında (415,s.6), Qafqazın 5 verstlik xəritəsində Kələskənd formasında (348, s.155) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 96 nəfər, 1873 - cü ildə 288 nəfər, 1886-cı ildə 363 nəfər, 1897-ci ildə 404 nəfər, 1904 - cü ildə 373 nəfər, 1914 - cü ildə 437 nəfər, 1916-cı ildə 372 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.67, 98-99). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Kənd 1926-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Kələş şəxs adına kənd sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kəmərli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qursalı kəndininin ərazisində yerləşir.

Oronim kimmer (>kəmər) etnoniminə mənsubluq bildirən -li şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Etnooronimdir.

**Kənkan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.155) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 548 nəfər, 1886-cı ildə 772 nəfər, 1897-ci ildə 740 nəfər, 1904 - cü ildə 939 nəfər, 1914 - cü ildə 1144 nəfər, 1916cı Idə 1231 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və bura xaricdən (İran və Türkiyədən) köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanları öz yurdlarına dönə bilmişlər. Burada ermənilərdən başqa 1922-ci ildə 72 nəfər, 1926-cı ildə 98 nəfər, 1931-ci ildə 147 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1947-1948-ci illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. Toponim fars dilində «quyu qazan, quyuçu» mənasında işlənən kankan sözü (104, s.273) əsasında yaranmışdır. Sadə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Hatis qoyulmuşdur.

**Kəpəz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda dağ. Rayondakı Şurnuxu kəndinin şimalında yerləşir. Oronim türk dilində «qaya», «su kənarında qaya» mənasında işlənən kəpəz sözü (253, s. 64; 278, s.101) əsasında əmələ gədmişdir. Relyef əsasında yaranan sadə quruluşlu oronimdir.

**Kəpənək -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.113) qeyd edilmişdir. Oronim qədim türk dilində «yapıncı» mənasında işlənən kəpənək sözündən (157, s.34) əmələ gələn kəpənəkçi etnonimi ilə bağlıdır. Kəpənəkçi tayfası haqqında ətraflı məlumat 1721-cı ildə tərtib edilmiş «Dəsturuləməl»də və 1728-ci ildə tərtib olunmuş «Dəftəri müfəssəli əyaləti Tiflis»də rast gəlmək olar (193, s.159; 76, s.49). Etnoornimdir.

**Kərəmbiçən -** İrəvan quberniyasının Yeni Bəyazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Rayonun Toxluca kəndinin ərazisində yeləşir. XIX əsr rus mənbələrində Kərəmbicə kimi qeyd edilmişdir (329, s.36).

Toponim Kərəm şəxs adı ilə biçən feli sifətin birləşməsindən əmələ gəlmişdir. Həmin ərazinin otu Kərəm adlı şəxs tərəfindən ilk dəfə biçildiyi üçün Kərəmbiçən adlanırdı. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kərimli bulağı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Neomberyan) rayonunda bulaq. Kərimli tayfasının adı əsasında yaranan etnohidronimdir.

**Kərimarx -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənub-şərqdə yerləşir.

Kənddə 1831-ci ildə 311 nəfər, 1873 - cü ildə 1215 nəfər, 1886^-cı ildə 1357 nəfər, 1897-ci ildə 1474 nəfər, 1904 - cü ildə 1700 nəfər, 1914 - cü ildə 1802 nəfər (415, s.64-65, 140-141), 1919 - cu ildə 1840 nəfər (309, s. 221) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ilin sonunda azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur (309, s.221). Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada

ermənilərlə yanaşı 1922-ci ildə 239 nəfər, 1926-cı ildə 303 nəfər, 1931-ci ildə 268 nəfər azərbaycanlı yaşamışdır (415, s.64-65, 140-141). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Kərim şəxs adı ilə arx sözünün əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Sovetakan qoyulmuşdur.

**Kərimkənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənub-qərbdə yerləşir.

Toponim Kərim şəxs adına kənd coğrafi nomenin qoşulması əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 2. III. 1940-cı il fərmanı ilə kəndin adı dəyişdiridib Zaxkaşen qoyulmuşdur.

**Kərkibaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənubda, Göyçə gölünün yaxınlığında yerləşir.

Kənddə 1873 - cü ildə 183 nəfər, 1886-cı ildə 255 1897-ci ildə 301 nəfər, 1908-ci ildə 306 nəfər, 1914 - cü il nəfər, 1916-cı ildə 369 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-1919 - cu illərdə azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşdur (309, s.249). 1920-ci ildə indiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanları öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 166 nəfər, 1926-cı ildə 174 nəfər, 1931-ci ildə 224 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1988-ci ildə azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən öz doğma kəndlərindən qovulmuşlar. İndi burada yalnız ermənilər yaşayır. Toponim qazax tayfasına məxsus kərkibaşlı etnonimi əsasında (386, s.535) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25.V.1967-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şəfəq, Ermənistan prezidentinin 19.IV.1991-ci il tarixli formanı ilə yenidən dəyişdirilib Vanevan qoyulmuşdur.

**Kərpicli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotyak, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə, İrəvan şəhərindən 11 km şərqdə yerləşir. Kənddə 1873 - cü ildə 141 nəfər, 1886-cı ildə 172 nəfər, 1897-ci ildə 250 nəfər, 1904 - cü ildə 188 nəfər, 1914 - cü ildə 316 nəfər, 1916-cı ildə 307 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş, Türkiyənin Van, Rştu, Xizan, Abağa, Mokus vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir (427, s.821). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etməyə məcbur olan azərbaycanlılardan sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s.126-127). 1924-1925-ci illərdə yenidən onlar öz doğma yurdyuvalanna qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim kərpicli tayfasının adı əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Geğadir qoyulmuşdur.

**Kəsəmən -** İrəvan qubennrniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 10 km şimalda, dağ ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.156) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 166 nəfər, 1873 - cü ildə 379 nəfər, 1886-cı ildə 492 nəfər, 1897-ci ildə 671 nəfər, 1908-ci ildə 713 nəfər, 1914 - cü ildə 966 nəfər, 1916-cı ildə 894 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113).

1919 - cu il aprelin 13-20-də azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar (309, s.249, 305). İndiki Ermənistanda sovet hakimiyyəti qələbə çalandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişlər. 1922-ci ildə burada 249 nəfər, 1926-cı ildə 414 nəfər, 1931-ci ildə 569 nəfər (415, s.26-27, 112-113), 1939 - cu ildə 758 nəfər, 1959 - cu ildə 583 nəfər, 1970-ci ildə 891 nəfər, 1979 - cu ildə 955 nəfər (427, s.567), 1987-ci ildə 1200 nəfər (85, s.280) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim qazax türk tayfasının tirələrindən biri olan kəsəmən etnonimi (281, s.393) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 27. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Bahar, Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə isə bir daha dəyişdirilib Artunk qoyulub.

**Kəsikbaş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə Mədinə kəndinin yanında yerləşirdi.

Toponim kəsikbaş tayfa adı əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 7. XII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lernakert qoyulmuşdur.

**Kığı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 35 km şimal-qərbdə, Kığı çayının sahilində yerləşir. Burada azərbaycanlılarla bağlı .X əsrə aid tarixi abidə indi də durur. Kənddə 1831-ci ildə 131 nəfər, 1873 - cü ildə 191 nəfər, 1886-cı ildə 254 nəfər, 1897-ci ildə 215 nəfər, 1904 - cu ildə 569 nəfər, 1914 - cü ildə 190 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ilin martında azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunımuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 335 nəfər, 1926-cı ildə 265 nəfər, 1931-ci ildə 380 nəfər (415, s.56-57, 134-135), 1939 - cu ildə 491 nəfər, 1959 - cu ildə 570 nəfər, 1970-ci ildə 932 nəfər, 1979 - cu ildə 1115 nəfər azərbaycanlı yaşamışdır (427, s.829). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk mənşəli kiği - kiğili etnonimi (305, s.24) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Kəndin adı erməni dilinə kalka edilərək Geği kimi işlədilir.

**Kığı dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda dağ. Hündürlüyü 3343 mdir.

Oronim türk mənşəli kiği etnonimi (305, s.24) əsasında formalaşmışdır. Etnooronimdir.

**Kığı çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda çay. Mənbəyini Qazangöl gölündən götürür.

Hidronim kiği türk etnonimini (305, s.24) əks etdirir. Etnohidronimdir.

**Kığı qalası -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunun Kığı kəndində qala. Qafan şəhərindən 28 km qərbdə, Kığı çayının sağ sahilində yerləşir. Qala uçub dağılsa da, qalıqları indi də durur (85, s.150).

**Kilsəkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 29 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.133) qeyd edilmişdir. Toponim Azərbaycan dilində «dini məbəd» mənasında işlənən kilsə sözü ilə «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlib «kilsə yanında salınan kənd» mənasını bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

1924 - cü ildə kəndin adı dəyişdirilib Sraşen qoyulmuşdur.

**Kirəşdərə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Yuxarı Körpülü kəndinin yaxınlığında yerləşirdi və Yuxarı Körpülü kənd sovetliyinə daxil idi. 1926-cı ildə burada 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17). Toponim «tikintidə, heykəltaraşlıqda, cərrahlıqda işlənən ağ və ya sarı rəngli əhəngli mineral maddə» mənasında işlənən kirəc sözü ilə (10, s.71) «iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun dərin çüxur, yarğan» mənasında işlənən dərə sözünün (10, s.74) birdəşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Kirəşli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. Zəngi çayının yanında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kərəcli kimi (143, s.134), Qafqazın 5 verstlik xəritəsində Kiraşlu formasında (348, s.134) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 76 nəfər, 1873 - cü ildə 464 nəfər, 1886-cı ildə 744 nəfər, 1897-ci ildə 802 nəfər, 1908-ci ildə 1061 nəfər, 1914 - cü ildə 1196 nəfər, 1916-cı ildə 973 nəfər, 1919 - cu ildə 207 nəfər yalnız azərbaycanda yaşamışdır (415, s.67, 98-99). Yuxarıdakı rəqəmlərdən göründüyü kimi, 1916-cı ildən başlayaraq azərbaycanlılar erməni təcavüzünə məruz qalmış və onlar mərhələ-mərhələ deportasiya olunmuşdur. 1919 - cu ilin sonlarında azərbaycanlılar tamamilə doğma torpaqlarından qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 108 nəfər, 1926-cı ildə 86 nəfər, 1931-ci ildə 135 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.67, 98-99). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin köklü sakinləri olan azərbaycanlılar 19481949 -

cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim kirəcli türk etnonimi (59, s.166) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Kirkitli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indiki Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Toxluca kəndinin şərqində yerləşir. Dağın adı Kirkitdi formasında da işlənir. Qafqazın 5 verstlik xəritəsində Kirkitdaq formasında(348, s.134) qeyd edilmişdir.

Oronim qədim türk dilində «dağ silsiləsi, sıra dağlar», «çöl, dağ», «hündür yer, təpəlik», «dağ qılıcı» mənasında işlənən kir//kır (359, ll(1), s.860; 339, s.327), «tərəf, istiqamət» mənasında işlənən kıt (>kit) sözlərinin (359,ll(1), s.786) birləşməsindən əmələ gələn kirkit sözünə məkan anlayışı bildirən -li şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Düzəltmə oronimdir.

**Kirs -** Yelizavetp'ol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 43 km şimal-şərqdə yerləşir. Kənddə 1886-cı ildə 130 nəfər, 1897-ci ildə 56 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136). 1905-1906-cı illərdə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 77 nəfər, 1931-ci ildə 104 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136-137). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «çöl, sərhəd, yayla, dağ» mənasında işlənən kır (kir - İ. B.) sözündən (339, s.327) əmələ gəlmişdir. Toponimin sonundakı «s» topoformantdır. Kəndin adı ilə onun yerləşdiyi relyef uyğundur. Belə ki, kənd dağ ətəyində, çəmənlik yerdə yerləşir. Relyeflə bağlı yaranan sadə quruluşlu toponimdir.

**Kirsdağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan raoynunda dağ.

**Kiçik ayrım -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Borçalı (Debet) çayının sol sahilində yerləşir.

Kənddə 1926-cı ildə 88 nəfər, 1931-ci ildə 154 nəfər, 1939 - cu ildə 207 nəfər, 1959 - cu ildə 233 nəfər, 1970-ci ildə 420 nəfər, 1979 - cu ildə 388 nəfər azərbaycanlı yaşamışdır (427, s.244). 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik vətənlərindən qovulmuşlar. İndi buralarda yalqız ermənilər yaşayır. Toponim Azərbaycan toponomiyasında fərqləndirici əlamət bildirən kiçik sözündən və ayrım türk tayfa adından (245, s.43-44; ASE, I c., B., 1976, s.97) əmələ gəlmişdir.

Ə. Babazadə «Ayrım dialekti» əsərində göstərir ki, ayrımlar oğuz tayfalarından biri olan eymurların xələfləridir (178, s.202). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kiçik Arıxvəli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.128), Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir.

Toponim Azərbaycan toponomiyasında fərqləndirici əlamət bildirən kiçik sözündən və arıxlı tayfasının adını (193, s.159; 76, s.34) əks etdirən arıx sözü ilə Vəli şəxs adının birləşməsindən əmələ gəlib «arıxlı tayfasından olan Vəliyə məxsus kənd» mənasını verir. Zaman keçdikcə «Arıxvəli»nin özü etnonimə çevrilmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.1.1935-ci il fərmanı ilə adı dəyişdirilib Pokr Mantaş qoyulmuşdur.

**Kiçik Armudlu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənubda yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.19) qeyd edilmişdir.

Erməni mənbəyində göstərilir ki, kəndin qədim, ilkin adı Türk (tatar) Armutlusu (Armtlu türk (tatar) olmuşdur (415, s.62).

Kənddə 1831-ci ildə 72 nəfər, 1873 - cü ildə 178 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 289 nəfər, 1904 - cü ildə 309 nəfər, 1914 - cü ildə 327 nəfər, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur və kəndə Türkiyənin Bayazid və

Alaşkerd vilayətlərindən köçürülən ermənilər yerləşdirilmişdir. 1930 - cu ildə rayondakı Böyük Armudlu kəndi ilə birləşdirilmişdir.

Toponim armud bitki adına mənsubluq bildirən -lu şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. «Kiçik» sözü fərqləndirici əlamət bildirir, fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kiçik Vedi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.51), Qafqazın 5 verstlik xəritəsində (348, s.50) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 166 nəfər, 1873 - cü ildə 639 nəfər, 1886-cı ildə 599 nəfər, 1897-ci ildə 971 nəfər, 1904 - cü ildə 960 nəfər, 1914 - cü ildə 1056 nəfər, 1916-cı ildə 1034 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuş, 1918-1919 - cu illərdə Türkiyənin Şadax, Bolu və Moks vilayətlərindən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 286 nəfər azərbaycanlı, 193 erməni, 1926-cı ildə 256 nəfər azərbaycanlı, 256 erməni, 15 kürd, 1931-ci ildə 373 nəfər azərbaycanlı, 295 nəfər erməni yaşamışdır (415, s.88-89, 156-157). Azərbaycanlılar mərhələ-mərhələ, 1948-1953 - cü illərdə, 1988-ci ilin noyabr ayında tarixi-etnik vətənlərindən qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim fərqləndirici əlamət bildirən «kiçik» sözü ilə ərəb dilində «çöl, səhra», «məkan, yer» mənasında işlənən vadi sözünün (104, s.83) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Pokr Vedi (Pokr kiçik deməkdir) formasında rəsmiləşdirilmişdir.

**Kiçik Qaraqoyunlu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-qərbdə yerləşir.

Kənddə 1897-ci ildə 235 nəfər, 1908-ci ildə 253 nəfər, 1914 - cü ildə 328 nəfər, 1916-cı ildə 301 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin aprel ayında azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar (309, s.305)

İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 197 nəfər, 1926-cı ildə 212 nəfər, 1931-ci ildə 209 nəfər, azərbaycanlı yaşamışdır (415, s.26-27. 112-113). Sonralar Böyük Qaraqoyunlu kəndinə birləşdirilərək ləğv edilmişdir.

Toponim qaraqoyunlu türk etnonimi (245, s.52; 232, s.66; 175, s.18) əsasında əmələ gəlmişdir. «Kiçik» fərqləndirici sözdür. Etnotoponimdir. quruluşca mürəkkəb toponimdir.

**Kiçik Qarakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə, Gümrü şəhərinin cənubunda yerləşir. Kəndin adı Xılqarakilsə, Xli-Qarakilsə (427, s.39), Qafqazın 5 verstlik xəritəsində Kiçik Qarakilsə (348, s.117) formalarında qeyd edilmişdir. Burada 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Azərbaycanlılar 1828-ci ildə qovulmuş, 1829-1830 - cu illərdə Türkiyənin Qars, Alaşkert bölgələrində ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (427, s.40). İndi ermənilər yaşayır.

Toponim kəndin yaxınlığındakı qara rəngli kilsənin adı əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki «kiçik» sözü fərqləndirici əlamət bildirir. Relyeflə bağlı mürəkkəb quruluşlu toponimdir. Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Azatan qoyulmuşdur.

**Kiçik düz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qızılörən kəndinin ərazisində yerləşir. Oronim «balaca, xırda, sahəsi az olan» mənasında işlənən kiçik sözü ilə «enişi, yoxuşu, çuxuru, təpəsi olmayan»,»düzən, çöl, düzənlik» mənasında işlənən düz sözünün (10, s.168) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Kiçik Zeyvə -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-şərqdə yerləşir. Kəndin digər adı Türk Zeyvəsi (415, s.82), Tatar Zeyvəsi (Зейва Татарская. Сборник Сведений о Кавказе, т.V, Тифлис, 1892, №393) olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.97) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 234 nəfər, 1873 - cü ildə 492 nəfər, 1886-cı ildə 516 nəfər, 1897-ci ildə 580 nəfər, 1904 - cü ildə 550 nəfər, 1914 - cü ildə 598 nəfər, 1916-cı ildə 491 nəfər, 1919 - cu ildə 2174 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 150-151). Azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur.

Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən kiçik sözü ilə ərəb dilində «guşə, künc, bucaq» mənasında işlənən zaviyə (104, s.207) sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Arataşen qoyulmuşdur.

**Kiçikkənd -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonunda kənd. Abaran çayının sağ sahilində, Karbi kəndinin yaxınlığında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilir və kəndin başqa adının Uş olduğu göstərilir (143, s.88). XIX əsrin rus mənbələrində (Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 349) qeydə alınmışdır.

Kənddə 1831-ci ildə 77 nəfər, 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 235 nəfər, 1897-ci ildə 296 nəfər, 1908-ci ildə 366 nəfər, 1914 - cü ildə 292 nəfər, 1916-cı ildə 249 nəfər, 1918-ci ildə 370 nəfər, 1919 - cu ildə 233 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 1919 - cu ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.221). Azərbaycanlılar (sağ qalanlar) ata-baba yurdlarına indiki Ermənistanda sovet hökuməti qurulandan sonra qayıda bilmişlər. Burada 1922-ci ildə 56 nəfər, 1931-ci ildə 55 nəfər yalnız azərbaycanlı əhali yaşamışdır (415, s.22-23, 108-109). SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra 1948-1949 - cu illərdə azərbaycanlılar yenidən zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «balaca, sahəsi az olan, xırda» mənasında işlənən kiçik sözü ilə «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Kiçik Kəpənək -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.113) qeyd edilmişdir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur.

Toponim qədim türk dilində «yapınçı» mənasında işlənən kəpənək sözündən (157, s.34) əmələ gələn kəpənəkçi etnonimi (193, s. 159-160) əsasında əmələ gəlmişdir (etnonimin tərkibində -çi şəkilçisi toponim yaradıcılığında ixtisar edilib). «Kiçik» fərqləndirici əlamət bildirir. Etnotoponimidir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 7.Xll.1945-ci il fərmanı ilə adı dəyişdirilib Hovit qoyulmuşdur.

**Kiçik Kəti** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348,s.128) qeyd edilmişdir.

Toponim fərqləndirici əlamət bildirən «kiçik» sözünün türk dilində «dağın gün düşməyən tərəfi» mənasında işlənən kət (kat) sözünə (339, s.264) birləşməsi əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 26.X.1946-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lernantsk, 21. X. 1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Pokraşen (Kiçik kənd) qoyulmuşdur.

**Kiçik Gilanlar** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 28 km şimal-şərqdə, Yelincə çayının sahilində yerləşmişdir.

1930 - cu illərdə Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur(415, s.84).

«İrəvan əyalətinin icmal dəftəri»ndə Kiçik Gilan (143, s.102), Qafqazın 5 verstlik xəritəsində Kiçik Gilyanar (348, s.62) formasında qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 96 nəfər, 1886-cı ildə 167 nəfər, 1897-ci ildə 178 nəfər, 1904 - cü ildə 183 nəfər, 1914 - cü ildə 201 nəfər, 1916-cı ildə 194 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-ci' ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir.

Kənddə 1922-ci ildə 21 nəfər erməni ilə yanaşı 11 nəfər azərbaycanlı yaşamışdır (415, s.154-155). 1922-ci ildən sonra kənddə yaşayan 11 nəfər azərbaycanlı da qovulmuş və kənddə tam ermənilər məskunlaşmışdır. 1950-ci illərdə Kiçik Gilanlar kəndi ləğv edilmişdir. İndi xaraba kənddir.

**Kiçik Sarıyal** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Erməni mənbələrində Sarıyar kimi qeyd edilir (415, s.20).

Ermənilər buraya 1828-1832-cı illərdə Türkiyədən köçürülmüşdür.

Toponim qədim türk dilində «iri, nəhəng, uca, hündür, yüksək, dik» mənasında işlənən sarı sözü ilə (94, s.74) «hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı» mənasında işlənən yal sözünün (10,

s.479; 339, s.648) birləşməsindən əmələ gəlmişdir. Toponimdəki «kiçik» sözü fərqləndirici əlamət bildirir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Pokr Sariar qoyulmuşdur.

**Kiçik təpə** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd kəndinin ərazisində yerləşir. Oronim Azərbaycan dilində «balaca, xırda» mənasında işlənən kiçik sözü ilə «kiçik dağ» mənasında işlənən «təpə» sözünün (12, s.165) birləşməsi əsasında əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Kiçik Təpəköy** - Qars vilayətinin Qars qəzasında, indiki Amasiya rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə, Arpaçayın sol tərəfində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.237).

Kəndin sakinləri qarapapaqlar (azərbaycanlılarn etnogenizində iştirak edən tayfa) olmuşdur. Erməni mənbələrində qarapapaq xalq kimi göstərilir (415, s.20).

Kənddə 1886-cı ildə 164 nəfər, 1897-ci ildə 206 nəfər, 1908-ci ildə 321 nəfər, 1914 - cü ildə 209 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1918-ci ildə Ermənistanda baş verən ictimai-siyasi hadisələrlə bağlı azərbaycanlılar ermənilər tərəfindən öz doğma kəndlərindən qırğınlarla qovulmuşlar. 1950-ci ildə Böyük Təpəköy kəndi ilə birləşdirilmişdir.

Toponim Azərbaycan dilində «kiçik dağ» mənasında işlənən təpə sözü ilə türk dilində «kənd» mənasında işlənən köy sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki «kiçik» sözü fərqləndirici əlamət bildirir. Orotopoimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kiçik Camışlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonunun yaradılması ilə əlaqədar Alagöz (Araqadz) rayonunun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.80) qeyd edilmişdir. Abaran çayının sahilində yerləşir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən kiçik sözü ilə zülqədərlərin camışlı tayfa adı (142, s.29) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kiçik Şəhriyar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə, Araz çayından axan arxın sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.290).

Toponim kiçik fərqləndirici əlamət bildirən sözlə Şəhriyar şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə adı dəyişdirilib Nor Artaqes qoyulmuşdur.

**Kiçik Şiştəpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. Kəndin başqa adı Türk Şiştəpəsi (Şiştapa türki) olmuşdur (415, s.20). Kənddə 1897-ci ildə 177 nəfər, 1908-ci ildə 189 nəfər, 1914 - cü ildə 253 nəfər yalnız qarapapaqlar - azərbaycanlıların etnoqrafik qrupu yaşamışdır (415, s.20-21, 104-105). 1918-ci ildə onlar ermənilərin soyqırımına məruz qalaraq, deportasiya olumuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. Toponim «balaca, xırda» mənasında işlənən kiçik sözündən və «dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi, piki» mənasında işlənən şiş sözü ilə (339, s.629; 196, s.42) «ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200 metrdən artıq olmayan yüksəklik» mənasında işlənən təpə sözünün (196, s.42) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Pokr Sepasar (Kiçik Şiştəpə) qoyulmuşdur.

**Kiçik Şollu Dəmirçi -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Kəndin digər adı rəsmi sənədlərdə Şorlu Dəmirçi kimi qeyd edilir (415, s.50; 419, s.134). Rayon mərkəzindən 5 km şimal-qərbdə, Zəngi çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Dəmirçiliye-Şollu formasında (143, s.36), Qafqazın 5 verstlik xəritəsində Kiçik Şorlu Dəmirçi kimi (348, s.297) qeyd edilmişdir.

Zəngibasar rayonu təşkil edilənədək, 1969 - cu ilədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur.

Kənddə 1831-ci ildə 338 nəfər, 1873 - cü ildə 1400 nəfər, 1886-cı ildə 1318 nəfər, 1897-ci ildə 1360 nəfər, 1904 - cü ildə 1432 nəfər, 1914 - cü ildə 2216 nəfər, 1916-cı ildə 2263 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131).

1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulduqdan sonra sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 492 nəfər, 1926-cı ildə 687 nəfər, 1931-ci ildə 601 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131).

1988-ci ilin oktyabr-noyabr aylarında kəndin əhalisi Ermənistan dövləti tərəfindən qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdıır. İndi ermənilər yaşayır.

Toponim üç komponentdən: fərqləndirici əlamət bildirən kiçik sözündən, şollu və dəmirçi etnonimlərindən ibarətdir. Toponimdəki Şollu mənsubluq bildirən -Iu şəkilçisi qəbul etmiş türk mənşəli çol (>şol - İ. B.) etnonimini (287, s.56, 112-114), dəmirçi isə şahsevən türk tayfasından olan dəmirçi etnonimini (245, s.46; 254, s.40) əks etdirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Dəmirçi, Ermənistanın prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Darbink qoyulmuşdur.

**Kolagir -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. XVI əsrdə Gəncə-Qarabağ bölgəsində yaşayan türk tayfalarından birinin adı kolagirən olmuşdur (406, s.216). Toponim həmin kolagirən tayfa adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Kolagirən -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Quqark rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Erməni mənbələrinə görə kəndin əsası 1870-ci ildə qoyulmuşdur (427, s.283). Kənddə azərbaycanlılarla bağlı qədim qalanın divarları, qəbirstanlığın xarabalıqları indi də durur.

Toponim maldarlıqla məşğul olan kolagirən etnonimi (406, s.216) əsasında əmələ gəlmişdir. Bu da onu göstərir ki, kənd 1870-ci ildə yox, çox-çox əvvəllər salınmışdır. Belə ki, kolagirən tayfası XVI əsrdə Qarabağda yaşayan tayfalardandır. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 10. IX. 1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Antaramut qoyulmuşdur.

**Kolagirən -** Tiflis quberniyasının Borçalı qəzasının ərazisində, indi Quqark rayonunda vağzal. Yaşayış məntəqəsi kimi 1920-ci ildən sonra fəaliyyət göstərmişdir. Yəni 1918-1920-ci illərdə Türkiyədən köçürülən ermənilər həmin ərazidə yerləşdirilmişdir.

Vağzalın adı (daha sonra yaşayış məntəqəsi) kolagirən türk tayfasının adını (406, s.216) əks etdirir. Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Dzoraket (Dərəçay) qoyulmuşdur.

**Kolagirən -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə, Göyçə gölünün sahilində yerləşir. Erməni mənbələrində kəndin adı Kolaqran, Aşağı Kolagirən, Kolanı qırılan formalarında (415, s.66), Qafqazın 5 verstlik xəritəsində Kyolanı qran formasında (348, s.128) qeyd edilmişdir.

Ermənilər kəndə 1828-30 - cu illərdə Türkiyədən köçürülmüşdür (386, s.595-598).

Kənddə 1897-ci ildə ermənilərlə yanaşı 88 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67). 1905-1906-cı illərdə baş verən erməni - azərbaycanlı müharibəsi nəticəsində kənddə yaşayan azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim kolagirən türk etnonimi (406, s.216) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Dzovinar qoyulmuşdur.

**Kolanlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Zəngibasar (Masis) rayonu ərazisində kənd olmuşdur. 1937-ci ilə kimi Vağarşabad (Eçmiədzin) rayonunun tərkibinə daxil idi. Kəndin digər adı «Kolanlı Aralıq»dır (415, s.84).

Kənddə 1831-ci ildə 284 nəfər, 1873 - cü ildə 673 nəfər, 1886-cı il dç 701 nəfər, 1897-ci ildə 886 nəfər, 1904 - cü ildə 768 nəfər, 1914 - cü ildə 887 nəfər, 1918-ci ildə 768 nəfər, 1919 - cu ildə 1118 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 152-153; 309, s.221). 1919 - cü ilin sonlarında kənd sakinləri erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş (309, s.221), xaricdən (İran və Türkiyədən) köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 224 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 294 nəfər azərbaycanlı

yaşamışdır (415, s.84-85, 152-153). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 19481949 - cu illərdə zorla tarixi-etnik vətənlərindən çıxarılaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir.

Toponim kolani türk etnoniminə (212, s.92; 386, s.535) mənsubluq bildirən -lı şəkilçisi artırmaqla əmələ gəlib «kolanı tayfasına məxsus yer» mənasını bildirir. Etnotoponimdir. Qıruluşca düzəltmə toponimdir.

**Kolanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Erməni mənbələrində Kəndin adı həm də Kolani, Cermanis Kolanlı kimi göstərilir (415, s.88).

Kənddə 1831-ci ildə 105 nəfər, 1873 - cü ildə 545 nəfər, 1886-cı ildə 663 nəfər, 1897-ci ildə 886 nəfər, 1904 - cü ildə 728 nəfər, 1914 - cü ildə 800 nəfər, 1916-cı ildə 939 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 207 nəfər, 1926-cı ildə 300 nəfər, 1931-ci ildə 430 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk mənşəli kolanı tayfasının adına (386, s.535; 212, s.92) mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Kollu qışlaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Burada 1897-ci ildə 75 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63).

1905-1906-cı illərdə ermənilərin təcavüzü nəticəsində azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim «Kol basmış, kol çox olan» mənasında işlənən kollu sözü ilə (11, s.83) «qış vaxtı heyvandarların yaşadığı yer» mənasında işlənən qışlaq sözü əsasında yaranmışdır. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Kondaksaz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə, Abaran çayının sahilində yerləşir. Alagöz (Araqadz) rayonu təşkil edilənədək (15 mart 1972-ci ilə kimi) Abaran rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində Qondaksaz (415, s.4), Qondaxsaz (419, s.28) formalarında, Qafqazın 5 verstlik xəritəsində Kondaxsaz kimi (348, s.140) qeyd edilmişdir.

Toponim türk dilində «silah qundağı» mənasında işlənən kondak sözü ilə (277, II, s.95; 359, II (1), s.544) türk dilində «bataqlıq, torpaq (qrunt) suların çıxdığı yerin bataqlaşmış sahəsi, gil» mənalarında işlənən saz sözünün (359, IV (1), s.397; 339, s.491) birləşməsindən əmələ gəlmişdir. Türk dilində kondak sözü «yanan kükürd qutusu və yanğın vaxtı açılan qov» (пачка из горючей серы и труба, которую педбрасывают при поджочах) (359, II (1), s.544), «həyətə və ya pilləkən altına atılan yandırıcı maddələr toplusu» (277, II, s. 95) mənasında da işlənir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə adı dəyişdirilib Rya təzə (Təzə həyat) qoyulmuşdur.

**Korbulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun inzibati-ərazi bölgüsündən çıxarılıb yaradılan Alagöz (Araqadz) rayonunun tərkibinə daxil edilmişdir.

Rayon mərkəzindən 15 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.129).

Toponim «çıxış yolu olmayan», «gözü olmayan (bulaqda), yarıda quruyan» mənasında işlənən kor sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. «Kor» sözü «Kor çay» hidronimində «heç bir hövzəyə tökülməyib yarıda quruyan çay» mənasında işlənmişdir (11, s.95). Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şenkani qoyulmuşdur.

**Korbulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki. Qızılqoç (Qukasyan) rayonunda kənd. Erməni dilinə . kalka edilərək Korağbyur (Korbulaq) formasında mənbələrdə işlədilmişdir (415, s.20).

Toponim Azərbaycan dilində «gözü görünməyən, suyun çıxdığı yer görünməyən», «yarıda quruyan», «yerin səthinə başqa yerdən çıxan» mənasında işlənən kor sözü ilə (278, s.90) bulaq

sözündən əmələ gəlmişdir. Kəndin adı ərazidəki eyni adlı bulağın adından götürülmüşdür. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12. XI. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Saxkaşen, 21. X. 1967-cı il fərmanı ilə yenidən dəyişdirilərək Sizavet qoyulmuşdur.

**Koroğlu qalası -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Kalinino rayonunda qala. Rayonun Molla Eyyublu kəndinin güneyində yerləşir.

**Koroğlu dərəsi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda dərə. Rayondakı Göykilsə (Kaputan) kəndində yerləşir. Antropooronimdir.

**Koroğlu meydanı -** Yelizovetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhərində meydan.

**Kosalı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Qafan şəhərinin yaxınlığında yerləşirdi. Ölü kənddir.

Toponim kosalı türk tayfasının adı (92, s.23) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Kosaməmməd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 8 km cənub-şərqdə Kəvər çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.141) qeyd edilmişdir.

Kəndin digər adı Aşağı Qanzak olmuşdur (415, s.70). «İrəvan əyalətinin icmal dəftəri»ndə kəndin adı Kənizək formasında qeyd edilmişdir (143, s.55).

1897-ci ildə burada ermənilərlə yanaşı 16 azərbaycanlı yaşamışdır (415, s.70-71). **XX** əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya edilmişdir. İndi yalnız ermənilər yaşayır. Toponim ləqəb bildirən kosa sözü ilə Məmməd şəxs adı əsasında əmələ gəlib. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1924 - cü ildə dəyişdirilib Batikyan qoyulmuşdur.

**Kotan dağ -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda dağ. Oronim qıpçaqların kotan etnoniminin adı (286, s.50) əsasında yaranmışdır. Etnooronimdir.

**Kotanlı -** İrəvan quberniyasının Şərur - Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-şərqdə, Arpaçayın sağ qolu olan Kotanlıçayın sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kotanı kimi (143, s.59), Qafqazın 5 verstlik xəritəsində Kotanlı (348, s.142), erməni dilində Kyotanlu formasında (422, s.101) qeyd edilmişdir.

Kotanlı kəndi kənddən 1 km aralıda tarixən mövcud olmuş və Kuteni (Kotanlı) adlandırılmış (422, s.101) kəndin yaxınlığında salınmışdır.

Kənddə 1873 - cü ildə 256 nəfər, 1886 - cü ildə 392 nəfər, 1897-ci ildə 456 nəfər, 1904 - cü ildə 611 nəfər, 1914 - cü ildə 672 nəfər, 1916-cı ildə 532 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 61 nəfər, 1926-cı ildə 193 nəfər, 1931-ci ildə 351 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). Ermənistan dövləti 1988-ci il noyabrın 28-də kənddə yaşayan azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından qovmuşdur. İndi ermənilər yaşayır.

Toponim qıpçaq türk tayfasından olan kotan etnoniminə (286, s.50) mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə əmələ gəlib «kotan tayfasına mənsub yaşayış yeri» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Kəndin adı 1924 - cü ildə dəyişdirilib Qarmraşen (Qırmızıkənd) qoyulmuşdur.

**Kotanlıçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayonun Kotanlı kəndinin ərazisindən axır. Hidronim qıpçaqların kotanlı etnoniminin adını (286, s.50) əks etdirir. Etnohidronimdir.

**Kotuz -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd olmuşdur. Kənd Vedi rayonundakı Qarağac kəndinin yanında, Çanqlı çayının yanında, Kotuz dağının ətəyində yerləşirdi.

1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Kütus (143, s.172), Qafqazın 5 verstlik xəritəsində Kotuz formasında (348, s.142) qeyd edilmişdir. Erməni mənbəyində kəndi adı həm də Kyotuz, Kotız, Kyutuz formalarında göstərilir (415, s.88).

Kənddə 1873 - cü ildə 188 nəfər, 1886-cı ildə 266 nəfər, 1897-ci ildə 329 nəfər, 1904 - cü ildə 249 nəfər, 1914 - cü ildə 493 nəfər, 1916-cı ildə 459 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ildə kəndin sakinləri - azərbaycanlılar ermənilər tərəfindən zorla və qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda daşnak hökuməti devrildikdən sonra kəndin sağ qalan sakinləri öz doğma ocaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 58 nəfər, 1926-cı ildə 110 nəfər, 1931-ci ildə 154 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin əhalisi 1949 - cu ildə zorla Azərbaycana köçürülərək kənd xarabalığa çevrihmşdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «çöl sığırı» mənasında işlənən kituz (sözdə i~o səs dəyişməsi baş verərək kotuz formasını almışdır) sözü (399, I, s.365) əsasında əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca sadə toponimdir.

**Kotuz -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda dağ. Oronim «çöl sığırı» mənasında işlənən kituz heyvan adını (399, I, s.365) əks etdirir. Heyvan adı əsasında yaranan oronimdir. Quruluşca sadə oronimdir.

**Köklü -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

**Kömbəçi -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim kömbəçi (çörəkçi) nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Kömürdağ -** Kiçik Qafqaz sıra dağlarında dağ silsiləsi. İndiki Ermənistanın Quqark və Axta (Razdan) rayonlarının sərhədində yerləşir. Hündürlüyü 2113 mdir.

Oronim qədim türk dilində «dağ başında dar, yarğanlı, uçurumlu yer» mənasında işlənən kömür sözü (359, II (2), s.1321) əsasında əmələ gəlmişdir.

**Kömürlü -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican şəhəri ərazisində dağ. Oronim türk dilində «dağ başında dar, uçurumlu yer» mənasında işlənən kömür sözünə (359, II (2), s.1321) -li şəkilçisinin artırılması ilə düzəlmişdir. Quruluşca düzəltmə oronimdir.

**Kömürçü karvansarası -** İrəvan şəhərində karvansara.

**Körpəli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 7-7,5 km qərbdə yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.163), Qafqazın 5 verstlik xəritəsində (348, s.130) qeyd edilmişdir. Burada 1828ci ilə kimi azərbaycanlı yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1828-1829 - cu illərdə İranın Xoy vilayətindən buraya ermənilər köçürülüb yerləşdirilmişdir (427, s.476). İndi ermənilər yaşayır.

Toponim körpəli tayfa adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Arşaluys qoyulmuşdur.

**Körpü qulağı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd olmuşdur. Dəvəgözü çayının yanında, Aysor gölü kəndinin yaxınlığında yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.130). Kəndin digər adı «Körpükənd»dir (415, s.88).

Kənd 1930 - cu illərdə Vedi (Ararat) rayonunun tərkibində olmuşdur (415,s.88)

Kənddə 1831-ci ildə 129 nəfər, 1873 - cü ildə 143 nəfər, 1886-cı ildə 200 nəfər, 1897-ci ildə 351 nəfər, 1904 - cü ildə 219 nəfər, 1914 - cü ildə 470 nəfər, 1916-cı ildə 478 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndi Ermənistan adlanan yerdə sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdi. 1922-ci ildə 150 nəfər, 1926-cı ildə 141 nəfər, 1931-ci ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüş, kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində işlənən körpü və «kənar, uc» mənasında işlənən qulaq (9, s.567) sözünün birləşməsindən əmələ gəlib. Görünür, kənd körpü yanında salındığı üçün belə adlandırılmışdır. Quruluşca mürəkkəb toponimdir.

**Köhnə qışlaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kiçik kənd. 1918-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Köhnəkalafa -** İrəvan quberniyasının Loru Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində kənd.Ləmbəli kəndinin yaxınlığında yerləşmişdir. 30 - cu illərdə Ləmbəli kəndinə birləşdirilərək ləğv edilmişdir.

1930 - cu illərdə Allahverdi rayonunun tabeliyində olmuşdur.

Toponim «qədim» mənasında işlənən köhnə və «dağılmış yer, xaraba» mənasında işlənən kalafa sözünün (8, s.251) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Köhnə Şahablı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd olmuşdur. Çapan çayının yanında, Vedi rayonundakı Qarağac kəndinin yaxıqlığında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.106), Qafqazın 5 verstlik xəritəsində (348, s.290) qeyd edilmişdir.

Burada 1897-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89). XX əsrin əvəllərində (1905-1906-cı illərdə) ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan toponomiyasında fərqləndirici əlamət bildirən köhnə sözü ilə oğuzların şahablı etnonimi (F. Kırzıoğlu. Rəvan türkləri, «Vətən həsrəti» qəz., 18. VI. 1993) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Köçbək -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Culçayın sağ qolu olan Köçbəyçayın sahilində, Paşalı (Əzizbəyov) - Sisyan yolunun üstündə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Qoçubəy kimi (143, s.59) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 25 nəfər, 1873 - cü ildə 226 nəfər, 1886-cı ildə 312 nəfər, 1897-ci ildə 417 nəfər, 1904 - cü ildə 425 nəfər, 1914 - cü ildə 470 nəfər, 1916-cı ildə 537 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış və sakinləri - azərbaycanlılar qırğınlarla qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edənlər ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 103 nəfər, 1926-cı ildə 179 nəfər, 1931-ci ildə 365 nəfər (415, s.90-91, 160-161), 1972-ci ildə 564 nəfər (85, s.345) yalnız azərbaycanlılar yaşamışdır. 1988-ci il noyabrın 2428də Ermənistan dövlətinin bilavasitə xüsusi göstərişi ilə azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «düşərgə, çobanların müvəqqəti yaşayış yeri, yurd» mənasında işlənən koş (> koç) sözü ilə (339, s.298-299) qədim türk dilində «təpə» mənasında işlənən bək (bak sözünün) (359, IV(1), s.754) birləşməsindən əmələ gəlib «təpəlikdə yerləşən köç, düşərgə, çobanların yaşayış yeri» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı dəyişdirilib Hedzor qpyulmuşdur.

**Kösçbəyçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Rayondakı Köçbək kəndinin ərazisindən axır.

**Köşəkənd qışlağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qışlaq. 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə baş verən erməni azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar qırğınlarla qovulmuş və kənd ləğv edilmişdir.

Toponim türk dilində «müvəqqəti yaşayış yeri, yurd, daxma, koma» mənasında işlənən koş sözünə (359, II (1), s.635; 339, s.299) kənd və qışlaq sözünün qoşulması əsasında əmələ gəlib «müvəqqəti yaşayış məntəqəsinin yanındakı qışlaq» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Köşəkli** (Keşakli) - İrəvan şəhərində məhəllə. Köşəkli dağının cənub-şərq tərəfində yerləşirdi. Nəsil adı əsasında əmələ gələn urbonimdir.

**Kumand -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. 1897-ci ildə 42 nəfər (415, s.56-57), 1914 - cü ildə 242 nəfər (427, s.912) azərbaycanlı yaşamışdır. 1918-ci ildə kəndin sakinləri azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk mənşəli koman (> kuman - İ. B.) etnonimi (286, s.50) əsasında əmələ gələn etnotoponimdir. «d» samiti topoformantdır. Sadə quruluşlu etnotoponimdir.

**Kurud -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 40 km şimal-şərqdə, Şotalı çayının sahilində yerləşir.

Kənddə 1897-ci ildə 145 nəfər, 1922-ci ildə 172 nəfər, 1926-cı ildə 185 nəfər, 1931-ci ildə 220 nəfər (415, s.62-63, 136-137), 1987-ci ildə 600 nəfər (85, s.147) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilinin yazıya qədərki dövründə «dağ» mənasında işlənən kur sözünə (123, s.30) -ud şəkilçisinin artırılmasından düzəlib «dağlıq, uca, yüksək yerdə yerləşən kənd, yaşayış yeri» mənasını verir. Relyeflə bağlı yaranan toponimdir. Kurud kəndi uca dağlıq bir yerdə yerləşir. Deməli, kəndin adı ilə onun yerələşdiyi yer arasında bir eynilik vardır. Quruluşca düzəltmə toponimdir.

**Kusaqsu -** İrəvan quberniyasının İrəvanq qəzasında, indiki Vedi (Ararat) rayonunda çay. Rayonun Xosrov kəndinin ərazisindən axırdı. Çayın adı kus (kusun) türk tayfa adını (238, s.301,304) əks etdirir. Etnotoponimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Kutniqışlaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Qütbi qışlağı formasında (143, s.125) qeyd edilmişdir.

Toponim «dağ çıxıntısı, dağ qolu» mənasında işlənən kut sözünə (339, s.320) Azərbaycan dilində «qoyun və başqa heyvanlarının gətirilib saxlandığı mötədil havalı və otlaqlı qışlama yeri» mənasında işlənən qışlaq sözünün (9, s.531) birləşməsi ilə əmələ gəlib «dağ çıxıntısı yanında yerləşən qışlaq» mənasını ifadə edir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı üə dəyişdirilib Hovtaşen qoyulmuşdur.

**Küzəcik -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə,Kəvər çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.153). Burada tarixən azərbaycanlılar yaşamışdır. 1828-30 - cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (386, s.595-598). Küzəcik kəndindən azərbaycanlılar XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə deportasiya edilmişdir. Burada 1918-ci ildə 119 nəfər (309, s.216), 1926-cı ildə 1 nəfər azərbaycanlı olmuşdur.

Toponim bayat boyundan olan güzücəkli etnonimi (238, s.233) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lancaxpyur (dağ ətəyindən axan bulaq) qoyulmuşdur.

**Kürdalı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Abaran çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.154) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 132 nəfər, 1886-cı ildə 102 nəfər, 1897-ci ildə 143 nəfər, 1908-ci ildə 135 nəfər, 1914 - cü ildə 260 nəfər, 1916-cı ildə 249 nəfər (415, s.22-23, 108-109), 1918-ci ildə 135 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 56 nəfər, 1926-cı ildə 45 nəfər, 1931-ci ildə 55 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin bütün sakinləri zorla 1948-1953 - cü illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Kürəkan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Kəndin digər adı Kürəkənd Qaraqanlı olmuşdur (415, s.84). İ.Şopenin əsərində kəndin adı Kyurakendli kimi qeyd edilmişdir (386, s.583).

Kənddə 1831-ci ildə 47 nəfər, 1873 - cü ildə 298 nəfər, 1886-cı ildə 426 nəfər, 1897-ci ildə 498 nəfər, 1904 - cü ildə 470 nəfər, 1914 - cü ildə 556 nəfər, 1916-cı ildə 560 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.84-85, 152-153). 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq kəndin köklü sakinləri - azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir (415, s.84). Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s.152-153). Azərbaycanlılar 1924 - cü ildə sıxışdırılaraq kənddən çıxarılmışdır. Burada indi ermənilər yaşayır.

Toponim türk dilində «ağıl» mənasında işlənən kura sözünə (359,ll(2),s.919) kənd sözünün erməni dilinə uyğunlaşdırılmış forması olan kan sözünün qoşulmasından əmələ gəlib «ağıl yanındakı kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Küsüz** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 22-24 km şimal-şərqdə, Kosum çayının yanında, Əzizkəndin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Küsüsüz kimi (143, s.172), Qafqazın 5 verstlik xəritəsində Küsüz formasında (348, s.155) qeyd edilmişdir.Kənddə 1831-ci ildə 221 nəfər, 1873 - cü ildə 151 nəfər, 1886-cı ildə 203 nəfər, 1897-ci ildə 270 nəfər, 1904 - cü ildə 792 nəfər, 1914 - cü ildə 860 nəfər, 1916-cı ildə 268 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları*öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 46 nəfər, 1926-cı ildə 62 nəfər, 1931-ci ildə 70 nəfər (415, s.88-89, 156-157), 1939 - cu ildə 149 nəfər (85, s.231) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində payız mənasında işlənən küz (< küs) sözü əsasında əmələ gəlmişdir. -üz burada şəkilçidir. Quruluşca düzəltmə toponimdir.

## G

**Gabud -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 16 km cənub-şərqdə, Arpaçayın sol qolu olan Axtaçayın yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.60) qeyd edilmişdir. Kəndin adı ilk dəfə XIII əsrdən xatırlansa da, ərazidəki tarixi abidələr onun daha da qədim olduğunu göstərir. Belə ki, kəndin əsası X əsrdən əvvəl qoyulmuşdur (422, s.88-89).

Erməni mənbələrində kəndin adı Gyabut, Gyabud formalarında verilir (415, s.90; 427, s.874).

Kənddə 1831-ci ildə 35 nəfər, 1873 - cü ildə 116 nəfər, 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 159 nəfər, 1904 - cü ildə 140 nəfər, 1914 - cü ildə 154 nəfər, 1916-cı ildə 107 nəfər yalnız azərbyacanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edənlər doğma yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 33 nəfər, 1926-cı ildə 120 nəfər, 1931-ci ildə 181 nəfər (415, s.90-91, 158-159), 1987-ci ildə 468 nəfər (85, s.344) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ildə noyabrın sonunda Ermənistan dövləti kəndin sakinləri - azərbaycanlılar tamamilə öz ata-baba yurdlarından qovulmuşlar. İndi ermənilər yaşayır. Kəndin adı Azərbaycan dilində «qayalıqda keçən yol», «uçurum», «daşlıq» mənasında işlənən gab sözünə (253, s.126) -ud şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq Kaput qoyulmuşdur.

**Gavurqala -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Əştərək rayonu ərazisində kənd olmuşdur. Rayondakı Nazırvan kəndinin şimal-şərqində yerləşirdi. Xarabalığa çevrilmişdir.

**Gavurqala -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda xaraba qala. Qarahunc kəndindən 4 km cənub-şərqdə yerləşir.

**Gavurqala -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda qala. Qalanın xarabalığa çevrilmiş divarlan indi də durur.

**Gedərçay -** İrəvan şəhərində axan çay mənbəyini Hədis dağlarından alır. İrəvan şəhərinin Nork məhəlləsindən keçib Zəngi çayına tökülür.

**Gedərçay körpüsü -** İrəvan şəhərinin Nork məhəlləsində, Gedərçay çayının üstündə körpü. 1664 - cü ildə inşa edilmişdir.

**Genalı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisinidə kənd. Rayondakı Arpa (Areni) kəndindən 12 km şimal-şərqdə, Yelpin çayının sahilində, Yelpindən 6 km şimalda yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.60) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 96 nəfər, 1886-cı ildə 125 nəfər, 1897-ci ildə 151 nəfər, 1904 - cü ildə 169 nəfər, 1914 - cü ildə 185 nəfər, 1916-cı ildə 216 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162-163). 1924-1925-cı illərdə azərbaycanlılar sıxışdırılaraq tamamilə qovulmuşdur. Kənd 1933 - cü ildə xaraba edilmişdir.

Toponimin birinci komponenti gen sözündən ibarətdir. M. Kaşğari gen sözü ilə bağlı yazır: «Gen-şərq ölkələrində hər şəhərə verilən bir addır. Bu kəlmə, kənd kəlməsinin qısaltmışıdır» (399, I, s.340). Deməli, Genalı toponimindəki gen sözü qədim türk dilində kənd mənasını ifadə etmişdir. Topnimin 2-ci komponenti Alı (Əli) şəxs adından ibarətdir. «Alıya məxsus kənd» mənasını ifadə edir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gendərəçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Uzunluğu 15 km-dir.

**Gendərə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Kotanlı düzənliyində, Qaraqayadərəsi çayının sahilində, rayondakı Kotanlı (Qarmraşen) kəndinin 4 km şimal-şərqində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.60) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 152 nəfər, 1886-cı ildə 217 nəfər, 1897-ci ildə 330 nəfər, 1904 - cü ildə 503 nəfər, 1914 - cü ildə 553 nəfər, 1916-cı ildə 354 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ilin sonlarında kəndin sakinləri - azərbaycanlılar tamamilə erməni təcavüzü

nəticəsində deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba torpaqlarına dönmüşdür. Burada 1922-ci ildə 78 nəfər təkcə azərbaycanlı yaşamışdır (415, s. 158-159). 1923 - cü illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «böyük, geniş» mənasında işlənən gen sözü ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gendərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dərə. Rayondakı Toxluca kəndinin şərqində yerləşir. Mürəkkəb quruluşlu oronimdir.

**Gecalan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində Gecanan (Hacıarans) kimi qeyd edilmişdir (348, s.58).

Gəngərli türk tayfasından olan gecalar etnonimindən (286, s.68) əmələ gəlmişdir. Azərbaycan dilində r>n əvəzlənınəsi mümkündür. Məs: almaram - almanam və s. Bu qənaətə gəlirik ki, məhz **gecalan** gecalar etnoniminin variantıdır. Deməli,Gecalan toponimi gecalan (< gecalar) etnonimi əsasında yaranıb. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Gədikvəng -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-şərqdə, Erdəpin çayının sahilində, Alagöz çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.138) qeyd edümişdir.

Kəndin adı Qoturvəng, Qoduxvəng, Gedikvəng kimi göstərilsə də (211, s.212), Kəndin əsil adı «Gədikvəng»dir. Kəndin adı X əsrdə çəkilir (422, s.69).

Kənddə 1873 - cü ildə 142 nəfər, 1886-cı ildə 201 nəfər, 1897-ci ildə 206 nəfər, 1904 - cü ildə 126 nəfər, 1914 - cü ildə 138 nəfər, 1916-cı ildə 273 nəfər yalnız azərbaycanlı yaşamışdır (415 s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra əhalinin sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 71 nəfər, 1926-cı ildə 139 nəfər, 1931-ci ildə 171 nəfər (415, s.93, 163), 1959 - cu ildə 313 nəfər, 1970-ci ildə 396 nəfər, 1979 - cu ildə 537 nəfər (427, s.875) 1987-ci ildə 600 nəfər azərbaycanlı yaşamışdır. Azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz ata-baba torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «dağın beli, aşırım» (11,s.149), «dağın belində batıq yer, aşırım, dağ keçidi» mənasında işləqək gədik sözü ilə (198, s.115), «dini məbəd, kilsə, abidə»mənasında işlənən vəng sözündən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gədikdağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Sisyan rayonu ilə Azərbaycanın Naxçıvan MR sərhəddində yerləşir. Hündürlüyü 2705 m-dir. Oronim Azərbaycan dilində «dağın beli, aşırım» mənasında işlənən gədik sözü ilə (11, s.149) dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Gəzbel -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Oronim Azərbaycan dilində «gədiyin alçaq yeri, gəzdək» (253, s.126), «dağ çökəyi, dağın təpəsindəki çökəklik» (339, s.167) mənasında işlənən gəz sözü ilə «alçaq keçid» mənasında işlənən bel sözündən (9, s.227) əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Gəzdək -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Qışlaq Ləmbəli sovetliyinə daxil idi. 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.89). 1930 - cu ildə Ləmbəli kəndi ilə birləşdirilərək ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «yüksək və orta dağ beli tirəsində enli yarıq», «uçuq, batıq yer» (253, s.126), «aşırım, dağ çökəyi, dağın təpəsindən çökək yer» mənasında işlənən gəzdək sözü (11, s.149; 339, s.167) əsasında əmələ gəmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Gəlinqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda dağ. Hündürlüyü 2489 m-dir.

**Gəlincə -** Kiçik Qafqaz sıra dağları, Zəngəzur silsiləsində, Bazarçay (Vorotan) çayının orta axarında dağ (85, s.165). Hündürlüyü 2741 m-dir.

**Gəncə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Rayondakı Amağu kəndinin yaxınlığında yerləşirdi (85, s.361). Erməni mənbələrində kəndin Qandzak formasında qeyd edilməklə XIII əsrdən xatırlandığı göstərilir. Bununla yanaşı qeyd edilir ki, kənd XIII-IX əsrlər mövcud olmuş və XVIII əsrin II yarısına qədər yaşayış məntəqəsi kimi fəaliyyət göstərmişdir (422, s.34). Sonralar xarabalığa çevrilmişdir. İndi ölü kənddir.

Toponim gencək türk tayfa adı (399, I, s.480) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Gəncəyal -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Erməni mənbələrində dağın adı Gyanzakyal formasında qeyd edilir (427, s.878).

Oronim gencək türk tayfa adına (399, s.29, 480; 274, s.201) Azərbaycan dilində «hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı» mənasında işlənən yal sözünün (10, s.479) birləşməsindən əmələ gəlmişdir. Etnoornimdir. Quruluşca mürəkkəb oronimdir.

**Gəncəyolu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda təpə. Rayonun Toxluca kəndinin şərqində yerləşir.Həmin yolla Gəncəyə gedib gəlindiyi üçün Gəncəyolu adlandırılmışdır.

**Gərd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 33 km şimal-qərbdə, Gərd çayının sol sahilində yerləşir. Erməni mənbələrində kəndin adı Garts, Gird, Kart, Karti formalarında qeyd edilmişdir (415, s.56; 427, s.882). Kənddə XVI-XVII əsrlə bağlı türklərə aid tarixi abidələr vardır. Kənddə 1897-ci ildə 60 nəfər, 1922-ci ildə 71 nəfər, 1926-cı ildə 71 nəfər, 1931-ci ildə 115 nəfər (415, s.56-57, 134-135), 1939 - cu ildə 170 nəfər, 1959 - cu ildə 250 nəfər, 1970-ci ildə 195 nəfər, 1979 - cu ildə 61 nəfər (427, s.882) azərbaycanlı yaşamışdır. 1988-ci ildə kəndin bütün sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik vətənlərindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim fars dilində «lək, gərdi», «əkilmiş tarla» mənasında işlənən kərd sözü (104, s.284) əsasında yaranmışdır. Reylyeflə bağlı yaranan toponimdir. Quruluşca sadə toponimdir. Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kard qoyulmuşdur.

**Gərd çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay.

**Gərgər -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda çay. Hidronim qədim türk tayfalarından biri olan qarqar etnonimi (377, s.479) ilə bağlı yaranmışdır. Etnohidronimdir.

**Gərgər -** Tiflis quberniyasının Borçalr qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir. Kəndin adı erməni mənbələrində Rus Gərgəri (Gərgər rus) formasında qeyd edilir (415, s.78). XIX əsrin əvvəllərində ruslar bura köçürüləndən sonra toponimə rus sözü (etnonim) əlavə edilərək rəsmi sənədlərdə Rus Gərgəri kimi öz əksini tapmışdır. Kənddə ruslarla yanaşı 1897-ci ildə 6 nəfər, 1926-cı ildə 7 nəfər, 1931-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1940-cı illərdə azərbaycanlılar kənddən köçürülmüşdür. 1988-ci ildən sonra kənddə yaşayan ruslar da ermənilərin təzyiqi nəticəsində sıxışdırılıb çıxarılmışdır. İndi kənddə əsasən ermənilər yaşayır.

Toponim qarqar qədim türk tayfasının (377, s.479) fonetik forması olan gərgər türk tayfa adı (211, s.184-186) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 14.ll.1937-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək Rus şairi A. S. Puşkinin şərəfinə Puşkino qoyulmuşdur.

**Gərgər -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-şərqdə, Gərgər çayının sahilində yerləşir. Erməni mənbələrində kəndin adı Gərgər, Gyargyari hay, Herher formalarında qeyd edilir (415, s.78; 427, s.879).

Kənddə 1897-ci ildə ermənilərlə yanaşı 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi yalnız ermənilər yaşayır.

Toponim yunan tarixçisi Strabonun «Coğrafiya» əsərində qeyd edilən qədim qarqar türk etnonimi (377, s.479; 24, s.19) əsasında əmələ gəlmişdir. Gərgər, qarqar türk etnoniminin fonetik variantıdır. Qarqar etnonimi həm də herher, xerxer fonetik variantlarında Azərbaycan toponomiyasında iştirak edir (211, s. 184-186). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Gərnibasar -** İrəvan xanlığında mahal. Mahalda 52 yaşayış məntəqəsi var idi. Burada 1829 - cu ilə kimi 4176 nəfər azərbaycanlı, 145 erməni yaşamışdır. 1829-1830 - cu illərdə əraziyə İrandan 5359 erməni köçürülərək azərbaycanlılar yaşayan kəndlərdə yerləşdirilmişdir (386, s.547-557). Mahalın adı ərazidən axan Gərniçay çayının adından götürülmüşdür. Toponim iki komponentdən ibarətdir. Birinci komponent urartu dilində «qala» mənasında işlənən gərini sözü ilə (332, s.68) qıpçaq

mənşəli basar etnonimi (286, s.61) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu etnotoponimdir.

**Gərniçay -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Artaşat (Qəmərli) rayonunda çay. Uzunluğu 56 km-dir. Çayın adı dəyişdirilib Azadçay qoyulmuşdur.

**Günəş dağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda dağ. Rayondakı Yuxarı Kilsə kəndinin ərazisində yerləşir.

**Giləkərli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində kənd. **XX** əsrin əvvəllərində 38 nəfər azərbaycanlı yaşamışdır (85, s.166). Nəsil adı əsasında yaranmışdır. Toponimdəki -li şəkilçisi bu fikiri söyləməyə əsas verir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Gilliyin düzü -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda düz. Rayondakı Cücəkənd (Qızıl Şəfəq) kəndinin ərazisində yerləşir.

Toponim məkan mənası bildirən -lik şəkilçisinin qəbul etmiş «yer səthində və ya altında olan, yaş halda özlü kütləyə çevrilən çöküntü süxuru» mənasında işlənən gil sözü ilə (11, s.163) relyef bildirən düz sözünün birləşməsindən əmələ gəlmişdir Quruluşca mürəkkəb oronimdir.

**Gilliyin taxtası -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Toxluca kəndindən şimal-şərqdə yerləşir.

**Girətağçay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Oxçu çayının sol qolunun adıdır. Rayondakı Kirətağ kəndinin ərazisindən axır.

**Kisarxalac -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.56; 427, s.868). 1905-1906-cı illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «düzənlikdə qala», «möhkəmləndirilmiş şəhər» mənasında işlənən qisar (xisar) sözü ilə (339, s.143, 593) xalac türk etnonimi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Gomaran -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-şərqdə, Oxçu çayının sağ sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.71). Kənddə 1897-ci ildə 169 nəfər, 1914 - cü ildə 158 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar (309, s.206). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra, 19221924 - cü illərdə kəndin sakinləri öz evlərinə dönə bilmişlər. Burada 1926-cı ildə 52 nəfər, 1931-ci ildə 68 nəfər (415, s.56-57, 134-135), 1939 - cu ildə 91 nəfər, 1959 - cu ildə 97 nəfər, 1970-ci ildə 183 nəfər, 1979 - cu ildə 163 nəfər azərbaycanlı yaşamışdır (427, s.937). Kəndin sakinləri 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə qovulmuşdur. İndi burada ermənilər yaşayır. Toponim türk tayfası səlcuqların bir qolu olan komar (< kumar) etnoniminə cəmlik mənası bildirən -an şəkilçisinin qoşulmasından əmələ gəlib «kömarların kəndi, yaşayış yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Gomaran dağ -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonu ərazisində dağ. Dağ Qafan şəhərindən 22 km cənubda, Oxçu çayının sağ tərəfindədir. Oronim komar türk tayfasının adı əsasında əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Gomur -** İndiki Ermənistanda çay. Başlanğıcını Pəmbək dağlarından alır. Uzunluğu 15 km-dir. Hidronim qədim türk dilində «dağ başında uçurumlu, yarğanlı yer» mənasında işlənən gomur sözü (359, II (2), s.1321) əsasında yaranmışdır. Sadə quruluşlu hidronimdir.

**Gomur -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-şərqdə, Arpaçayın sol qolu olan Axtaçayın sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kömür kimi (143, s.60) qeyd edilmişdir.

Kəndin qədim adı erməni mənbələrində Gomer fonetik formasında qeyd edilir və ilk dəfə XIII əsrdən xatırlanır (422, s.89). Kəndin adı həm də Gyumur, Gomk, Axta yuxarı (Yuxarı Axta - İ.B.) formalarında göstərilmişdir (415, s.88). Kənddə 1831-ci ildə 27 nəfər, 1873 - cü ildə 285 nəfər, 1886-cı ildə 293 nəfər, 1897-ci ildə 353 nəfər, 1904 - cü ildə 365 nəfər, 1914 - cü ildə 400 nəfər, 1916-cı ildə 388 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar doğma yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 155 nəfər,

1926-cı ildə 200 nəfər, 1931-ci ildə 316 nəfər (415, s.88-89, 158-159), 1939 - cu ildə 386 nəfər, 1959 - cu ildə 381 nəfər, 1970-ci ildə 590 nəfər, 1979 - cu ildə 745 nəfər (427, s.942) yalnız azərbaycanlı yaşamışdır. Erməni mənbələrində isə yuxarıda göstərilən statistik məlumatlar ermənilərə aid edilir və guya ermənilər buraya 1828-ci ildə İranın Xoy vilayətindən köçürülmüşdür (427, s.942). Bu, tamamilə yalandır və erməni saxtakarlığıdır. Gomur Kəndində ən qədim zamanlardan 1988-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. XIX-XX əsrin əvvəllərində (18311931) burada azərbaycanlıların yaşadığını erməni alimi Z. Qorqodyanın əsərində aydın şəkildə göstərilir (415, s.88-89, 158-159). İ.Şopenin də əsərində kəndin köklü sakinlərinin məhəmmədi (azərbaycanlılar - İ.B.) olduğu qeyd edilmişdir (386, s.619-620). Azərbaycanlılar 1988-ci ilin noyabrın sonunda Ermənistan dövlətinin deportasiyasına məruz qalmışdır. İndi ermənilər yaşayır.

Toponım qədım türk dilində. «dag başında dar, yarğanlı uçurum yer»mənasında işlənən komür sözündən (359, II(2),s.1321) əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı dəyişdirilib Komk qoyulmuşdur.

**Gomur -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd. Şəki kəndindən şərqdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kömür formasında qeyd edilmişdir (143, s.150). XX əsrin əvvəllərində ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «dağ başında dar, yarğanlı, uçurumlu yer» mənasında işlənən kömür sözündən (359, ll(2), s.1321) əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Gomurlu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Rayondakı Yelpin kəndinin yaxınlığında, Arpaçayın sol qolu olan Axtaçayın yaxınlığında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kömür kimi (143, s.60), Qafqazın 5 verstlik xəritəsində Gomurlu formasında (348, s.128) qeyd edilmişdir.

Erməni mənbəyində Kyomurlu formasında göstərilir (415,s.92, 162).

Kənddə 1873 - cü ildə 95 nəfər, 1886-cı ildə 147 nəfər,1897-ci ildə 192 nəfər, 1904 - cü ildə 205 nəfər, 1914 - cü ildə 225 nəfər, 1916-cı ildə 259 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur və xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «dağ başında dar, yarğanlı, uçurumlu yer mənasında işlənən kömür sözünə (359, ll(2), s. 1321) –lu şəkilçisinin artırılması ilə düzəldilmişdir.«Dağ başında dar, yarğanlı, uçurumlu yerdə salınan kənd» mənasını bildirir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Goravan -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Vedi çayının sahilində, Vedi kəndinin cənubunda yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kürəvan (143, s.51), Qafqazın 5 verstlik xəritəsində Goravan kimi (348, s.61) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 59 nəfər, 1873 - cü ildə 244 nəfər, 1886-cı ildə 325 nəfər, 1897-ci ildə 530 nəfər, 1904-cı ildə 634 nəfər, 1914 - cü ildə 697 nəfər, 1916-cı ildə 614 nəfər azərbaycanlı yaşamışdır (415, s.84-85, 154-155). 1918-ci ilin fevral ayında azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, Türkiyənin Muş, Şadax, Van bölgələrindən (1918-ci ildən sonra) köçürülən ermənilər Goravanda yerləşdirilmişdir. Burada 1922-ci ildə 393 nəfər azərbaycanlı, 164 erməni, 1926-cı ildə 403 nəfər azərbaycanlı, 132 erməni, 1931-ci ildə 466 nəfər azərbaycanlı, 135 erməni (415, s.84-85, 154-155), 1939 - cu ildə 706 nəfər azərbaycanlı, 145 erməni yaşamışdır. 1948-1949 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar zorla Azərbaycana (Dağlıq Qarabağa, sonra isə Xanlara, 99, s.396-397) köçürülmüşdür. İndi kənddə yalnız ermənilər məskunlaşıb.

Toponim qədim türk dilində «mal-qara üçün pəyə», «həyət» mənasında işlənən kora sözünə (359, II (1), s.551), urartu dilində «ölkə yer» mənasında işlənən «ebani», «abani» sözünün (332, s.68; 258, s.75) fonetik forması olan avan (van) sözünün qoşulması əsasında əmələ gəlmişdir. Yuxarıda qeyd edilmişdir ki, kəndin adı 1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Kürəvan kimi (143, s.61) qeyd edilmişdir. Toponimin Kürəvan formasının kökünü kürə sözü təşkil edir. Bu söz də qədim türk dilində kura formasında «mal-qara pəyəsi» mənasını ifadə edir (359, II (1), s.920). Deməli, kora və kura eyni məna bildirən müxtəlif fonetik formaya malik sözlərdir. Gorovan toponimi «mal-qara saxlanılan yer» mənasını bildirir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı Erm. SSR AS RH-nin 4.IV.1944 - cü il tarixli fərmanı ilə dəyişdirilib Yenikənd qoyulmuşdur. Sonra Erm. SSR AS RH-nin 3. VII. 1968-cı il fərmanı ilə kəndin adı yenidən dəyişdirilib Goravan adlandırılmışdır.

**Goravan çayı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda çay. Rayondakı Goravan kəndinin ərazisindən axır.

**Goran -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə Çiçxan çayının yanında, Çubuxlu dağının ətəyində yerləşir. 1937-ci ilə kimi Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Kəndin digər adı Gögəran, Göyərçin , fonrmalarında da göstərilir (415, s.50).

Toponim şahsevən türk tayfasından olan goran etnonimi(254, s.41) əsasında əmələ gəlmişdir.

N.Bəndəliyev goran tayfasını kolanı tayfasından olduğunu göstəri (1, s.77). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Qoqaran qoyulmuşdur.

**Gorus** - indi Ermənistan adlanan respublikada rayon. 1930 - cu il sentyabrın 9-da yaradılmışdır. Qədim Azərbaycan torpağı kimi Gorus rayonunun ərazisi VIII-X əsrlərdə ərəblərin işğalı altında olmuşdur. XI-XIII əsrlərdə səlcuqlara tabe olmıuş, XIII-XIV əsrlərdə monqollar istila etmişdir. Osmanlı və İran arasında 1699 - cu ildə bağlanan müqaviləyə əsasən İran hakimiyyətinə tabe olmuşdur. 1805-cı ildə Gorus rayonunun ərazisini Rusiya işğal etmişdir. 1823 - cü ildə Qarabağ vilayəti yaradılaraq Zəngəzur qəzasının tərkibində onun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən rayonun ərazisi Azərbaycanın başqa əraziləri kimi Rusiyanın tabeliyənə keçmişdir. Azərbaycanda XIX əsrin 30-40-cı illərdə (Rusiyanın işğalından sonra) yeni yaradılan inzibati idarə sisteminə uyğun olaraq Gorus rayonunun ərazisi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasına daxil olmuşdur. 1918-ci ildə Andranik bütün Zəngəzur qəzasını tamamilə ələ keçirmiş və burada qondarma erməni milli şurası yaratmışdır.

1920-ci il iyulun 2-də Qızıl Ordu Gorusa daxil olmuş və burada sovet hökuməti qurulmuşdur. Zəngəzurun indi Ermənistan adlanan respublikasına verilməsi nəticəsində Gorıus rayonunun ərazisi də 1920-ci il noyabrın 29-da yaradılan Ermənistan dövlətinin tabeliyinə keçmişdir.

Rayonun adı qədim türk tayfası qoros//gorus etnonimini (168, s.10-1104) əks etdirir. Etnotoponimdir.

**Gorus -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd. İndi Gorus rayonunda şəhər və rayon mərkəzi. Bazarçay (Vorotan) çayının sol tərəfində yerləşir. Erməni mənbələrində Gorusun XIII əsrdən xatırlandığı göstərilir (427, s.953). Erməni ədəbiyyatında Qoris Gerusi, Gorus formasında qeyd edilir (415,s.28).

Burada ermənilərlə yanaşı 1897-ci ildə 228 nəfər, 1926-cı ildə 51 nəfər, 1931-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 112-113). Gorus şəhərində yaşayan azərbaycanlılar 1940-cı illərdə tamamilə Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim gorus (qoros, xoros) türk etnonimi (168, s.10-1104) əsasında əmələ gəlmişdir. Etnotoponimidir. Quruluşca sadə toponimdir.

**Gorus -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda çay. Uzunluğu 29 km-dir. Hidronim qoros (gorus) türk tayfa adı (168, s.10-1104; 287, s.129-133) əsasında formalaşmışdır. Etnohidronimdir. Quruluşca sadə hidronimdir.

**Gödəkburün -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda dağ. Rayondakı Cuckan kəndinin şimalında yerləşir. Hündürlüyü 1215 m-dir. Oronim Azərbaycan dilində «balaca, qısa» mənasında işlənən gödək sözü ilə «irəliyə çıxan, suya doğru uzanan quru» mənasında işlənən burun sözünün (253, s.99) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Gödəklər -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 13 km məsafədə yerləşir. 1937-ci ilə kimi Dilican rayonunun inzibati ərazi bölgüsünə daxil idi. 1937-ci il dekabrın 31də Çəmbərək (Krasnoselo) rayonu təşkil edildikdən sonra Dilican rayonunun tərkibindən çıxarılıb, Çəmbərək (Krasnoselo) rayonunun tərkibinə daxil edilimşdir. 1918-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Lakin mənbələrdə azərbaycanlıların say tərkibi göstərilmir. Ermənilər buraya 1919-1920-ci illərdə Türkiyədən köçürülmüşdür (415, s.32, 117).

Toponim gödəklər türk etnonimi (386, s.535) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənilər buraya köçürüldükdən sonra 1924 - cü ildə kəndin adı dəyişdirilib Martuni qoyulmuşdur.

**Gödəkli -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin digər adı erməni mənbələrində Göydağlı, Kiçik Dəlilər formasında göstərilir (415, s.48). Rayon mərkəzindən 3 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.57) qeyd edilmişdir.

Toponim qazaxlar türk tayfasına mənsub olan gödəkli etnonimi (386, s.535) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Sadə quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 20. VIII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Mrqavet qoyulmuşdur.

**Gödəkbulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-şərqdə, Göyçə gölünün cənub-şərq tərəfində yerləşir. Kəndin əsas sakinləri azərbaycanlılar olmuşdur. XIX əsrin əvvəllərinə kimi burada yalnız Azərbaycan türkləri yaşamışdır. Türkmənçay sülh müqaviləsindən sonra1828-1829 - cu illərdə Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. Kənddə 1886-cı ildə 26 nəfər azərbaycanlı yaşamışdır (415, s.l 10). 1890-cı illərdə azərbaycanlılar buradan tamamilə çıxarılmış, təkcə ermənilər qalmışdır. İndi burada yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «qısa, uzun olmayan» mənasında işlənən gödək və bulaq hidroterminin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12. VIII. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Qarcaxpyur (Gödəkbulaq) qoyulmuşdur.

**Gözəlqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonun Ağkənd kəndində yayla.Kənddən 3 km məsafədə yerləşir. Oronim gözəl və qaya sözlərindən əmələ gələmişdir. Quruluşca mürəkkəb oronimdir. '

**Gözəldərə -** Yelizavetpol (Gəncə) quberniyasının! Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd[!] olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir.

**Gözəldərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda dağ. Rayondakı Gözəldərə kəndinin ərazisində yerləşir. Oronim Azərbaycan dilində «gözəl görünüşlü, cəlbedici» mənasında işlənən gözəl sözü ilə relyef bildirən dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Gözəldərə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə, Qınxdəyirman kəndinin yanında yerləşir. Alagöz (Araqadz) rayonu təşkil edilənə kimi (15 mart 1972-ci ildə rayon təşkil edilib) Abaran rayonunun tərkibində olmuşdur.

Erməni mənbəyində kəndin ilkin adının Gözəldərə Türk//Gözəldərə Tatar olduğu göstərilir (415, s.4).

Kənddə 1831-ci ildə 63 nəfər, 1873 - cü ildə 413 nəfər, 1886-cı ildə 509 nəfər, 1897-ci ildə 618 nəfər, 1914 - cü ildə 413 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). Kəndin köklü sakinləri olan azərbaycanlılar 1918-ci ildə ermənilər tərəfindən soyqırıma məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və 1919-1920-ci illərdə Türkiyənin Muş, Bitlist, İranın Xoy və Salmas vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan toponomiyasmda «axar-baxarlı, cəlbedici, füsunkar, gözəl təbii mənzərəsi olan» mənasında işlənən gözəl sözü ilə Azərbaycan dilində «iki dağ arasında, düzənlikdə dərin çüxur» mənasında işlənən dərə sözü əsasında formalaşan gözəldərə sözündən yaranmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 15. VII. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Kexadzor (Gözəldərə) qoyulmuşdur.

**Gözəldərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda çay. Rayondakı Gözəldərə kəndinin ərazisindən axır.

**Gözəlli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dərə, sahə, yer. Rayondakı Toxluca kəndinin şərqindədir. Oronim Azərbaycan dilində «sulu, nəmiş otluq, yaşıllıq yer, rütubət çəmənlik» mənasında işlənən **gözə** sözünə (11, s.184) -li şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Düzəltmə quruluşlu oronimdir.

**Gözlü -** lərvan quberniyasının Aleksandropol qəzasında, indiki Talin rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-şərqdə, Alagöz dağının ətəyində yerləşir. Kənd XIX əsrin 30-40-cı illərində Eçmiədzin qəzasının tərkibində olmuşdur (427, s.146). Qafqazın 5 verstlik xəritəsində (348, s.59) qeyd

edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-1832-cı illərdə Türkiyənin Muş, Alaşkert, Qars vilayətlərindən, Iranın Qəzvin və Xoy vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmiş, azərbaycanlılar kənddən deportasiya olunmuşdur (427, s. 146).

Toponim gözlü tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 12. XI. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Akunk qoyulmuşdur.

**Göyabas -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayon mərkəzindən 15-17 km şimal-qərbdə, Herher çayının sahində yerəlşirdi.

«Ermənistan azərbaycanlılarnın tarixi coğrafiyası»nda kəndin adı səhv olaraq Qayabas verilir (85, s.341).

Kənddə 1873 - cü ildə 132 nəfər, 1886-cı ildə 165 nəfər, 1897-ci ildə 202 nəfər, 1904 - cü ildə 223 nəfər, 1914 - cü ildə 245 nəfər, 1916cı nəfər 229 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1918-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim rəng bildirən göy sözü ilə xəzərlərin abas etnonimindən (287, s.54) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Göyabbas -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Arpaçayın sağ qolu olan Herher çayı ilə Bolluq çayının birləşdiyi yerdə yerləşirdi (85, s.363). 1918-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Göydağ -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilicin şəhəri ərazisində dağ. Dilican şəhərindən 32 km şimal-şərqdə, Ağstafa çağının sağ sahilində yerləşir. Hündürlüyü 2350 m-dir. Oronim Azərbaycan dilində «yaşıllıq, otluq» mənasında işlənən göy sözü ilə dağ sözünün birləşməsindən gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Göyərçin -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karavansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 16 km cənub-şərqdə yerləşir. 1930 - cu ilin axırlarına kimi Dilican rayonuna daxil idi.

Kənddə 1897-ci ildə 257 nəfər, 1904 - cü ildə 89 nəfər, 1914 - cü ildə 93 nəfər, 1916-cı ildə 132 nəfər, 1919 - cu ildə 141 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1919 - cu ilin əvvəllərində Andranikin quldur dəstəsi kəndə hücum edib əhalinin var-yoxunu talan etmiş, əhalisini qırğınlarla öz doğma torpaqlarından qovmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan göyərçinlilər kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 143 nəfər, 1926-cı ildə 221 nəfər, 1931-ci ildə 205 nəfər (415, s.30-31, 114-115), 1939-cu ildə 237 nəfər, 1959 - cu ildə 107 nəfər (427, s.895) azərbaycanlı yaşamışdır. 1950-ci ildə kənd ləğv edilərək sakinləri Azərbaycana və qonşu Salah kəndinə köçürülmüşdür. İndi xaraba kənddir.

Toponim peçeneqlərə məxsus göyərçi (kuyerçi) türk tayfasının adından (286, s.42) əmələ gəlmiş etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Göyərçin -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Arpaçayın sahilində yerləşirdi.

Kənddə 1831-ci ildə 20 nəfər, 1873 - cü ildə 48 nəfər, 1886-cı ildə 34 nəfər, 1897-ci ildə 84 nəfər, 1904 - cü ildə 60 nəfər, 1914 - cü ildə 66 nəfər, 1916-cı ildə 72 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1930 - cu ildə ləğv edilmişdir. İndi xaraba kənddir. K. Baqryanorodnıyanın göstərdiyi peçeneq türk tayfasının bir qolu olan guyerçi etnonimi (286, s.42) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Göyərçinli -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda dağ. Oronim türk mənşəli göyərçinli etnonimi əsasında əmələ gələn etnooronimdir. Quruluşca sadə oronimdir.

**Göyyoxuş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə, Bəykənd çayının qolunun üstündə, Ağbulaq və Nalbənd kəndləri arasındakı yolun yanında yerləşir. Toponim Azərbaycan dilində «yaşıllıq»

mənasında işlənən göy sözü ilə «dik, çətin çıxılan yer» mənasında işlənən yoxuş sözünün (10, s.561) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə daı dəyişdirilib Saralanc qoyulmuşdur.

**Göykilsə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 8 km şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.80), Qafqazın 5 verstlik xəritəsində (348, s.59) qeyd edilmişdir.

Burada 1828-ci ilə kimi yalnız azərbaycanlı əhalisi yaşamışdır. Ermənilər buraya 1828-1829 - cu illərdə Türkiyədən köçürülmüşdür. Kənddə ermənilərdən başqa 1873 - cü ildə 293 nəfər, 1886-cı ildə 333 nəfər, 1897-ci ildə 424 nəfər, 1914 - cü ildə 890 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Burada 1922-ci ildə 94 nəfər, 1926-cı ildə 100 nəfər, 1931-ci ildə 170 nəfər azırbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə zorla tarixi-etnik torpaqlarından deportasiya edilib Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim rəng bildirən göy sözü ilə kilsə sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponidmdir.

Erm. SSR AS RH-nin 3.I. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Kaputan (kaput göy deməkdir) qoyulmuşdur.

**Göykümbət -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 16 km şimalda, Zəngi çayının yanında, Zərincə dağı tərəfdə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Göygünbəz (143, s.159), Qafqazın 5 verstlik xəritəsində Göykümbət formasında (348, s.59) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 21 nəfər, 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 200 nəfər, 1897-ci ildə 230 nəfər, 1908-ci ildə 252 nəfər, 1914 - cü ildə 280 nəfər, 1916-cı ildə 241 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdilər. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 98 nəfər, 1926-cı ildə 162 nəfər, 1931-ci ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80-81, 150-151). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 50-ci illərdə deportasiya edilən ailələrin az bir qismi yenidən ata yurdlarına dönsələr də, 1970-ci ildə tamamilə deportasiya olunaraq Azərbaycana köçürülmüşlər. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində rəng mənasında işlənən göy sözü ilə fars dilində «yarımkürə şəklində bina damı, qübbə» mənasında işlənən kümbəd sözündən (11, s.127) əmələ gəlmişdir. **Kümbəd** kümbəz, eləcə də günbəz sözünün fonetik formasıdır (11, s.127). Azərbaycan dilində d~z səs əvəzlənınəsi qanunauyğun haldır. Təsviri toponimdir. Qurluşca mürəkkəbdir.

Erm. SSR AS RH-nin 1. XII. 1949 - cu il fərmanı ilə adı dəyişdirilib Geğanist qoyulmuşdur.

**Göygöl -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda göl. Suyu təmiz, şəffaf olduğuna və suyun rəngi göy rənginə çatdığına görə Göygöl adlandırılmışdır. Adı dəyişdirilib Kapuyt liç (Göygöl) qoyulmuşdur.

**Göytala -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican şəhəri yaxınlığında qışlaq. 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «yaşıllıq» mənasında işlənən göy sözü ilə «meşədə ağacsız, çılpaq yer, açıqlıq» mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Göytəpə -** İrəvan quberinyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda dağ. Rayondakı Qoşabulaq kəndindən 2 km şərqdə yeləşir.

Oronim Azərbaycan dilində «yaşıllıq», «göy ot» mənasında işlənən göy sözü ilə «kiçik dağ» mənasında işlənən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Göytəpə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda təpə.

**Göysu** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsindən (348, s.59) qeyd edilmişdir.

Kənddə 1897-ci ildə 187 nəfər, 1908-ci ildə 233 nəfər, 1914 - cü ildə 360 nəfər, 1916-cı ildə 284 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 110-111). 1918-1919 - cu illərdə ermənilər tərəfindən azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar 1922-1924 - cü illərdə ata-baba torpaqlarına qayıda bilmişlər. 1926-cı ildə burada 143, 1931-ci ildə 215 nəfər (415, s.26-27, 110-111), 1939 - cu ildə 314 nəfər, 1959 - cu ildə 264 nəfər, 1970-ci ildə 396 nəfər, 1979 - cu ildə 531 nəfər (427, s.896) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən tarixi-etnik vətənlərindən qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim rəng bildirən göy sözü ilə qədim türk dilində «çay» mənasında işlənən su sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotopoinındir. Quruluşca mürəkkəb toponimdir.

**Göy çal -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda dağ. Oronim Azərbaycan dilində «yaşıllıq, göy ot» mənasında işlənən göy sözü ilə türk dilində «təpə», «daşlıq yer» mənasında işlənən çal sözündən (339, s.606) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu oronimdir.

**Göyçə mahalı -** XVIII əsrdə yaradılan İrəvan xanlığının 15 mahalından biri. Göyçə mahalı Göyçə gölü hövzəsində yerləşən rayonları - Kəvər (Kamo), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis) rayonlarını, Çəmbərək (Krasnoselo) rayonundan isə Toxluca, Ağbulaq, Şorca, Ardanış, Cil kəndlərini əhatə edirdi. Mahalın adı erməni və rus mənbələrində Göyçay formasında da qeyd edilir (415, s.XVII; 386, s.515). 1829-1832-cı illərdə Göyçə mahalının 14354 nəfər əhalisi, 100-dən artıq yaşayış məntəqəsi olmuşdur. Əhalinin 98% azərbaycanlılardan ibarət idi.

Bu kəndlərdən Buğdatəpə, Allahverdibəy, Üçtəpə, Böyük altun təpə, Kiçik altun təpə, Dəmirçi, Ağsaqtauz, Xan Çigiz oğlu, Böyük ağa, Göyçay, Ağrıca, Dəli Arutun kəndləri xarabalığa çevrilmişdir (415, s.XVI-XVll). İndiki Ermənistan ərazisi Rusiya tərəfindən işğal edildikdən sonra xanlıq quruluşu ləğv edilmişdir. XIX əsrin 40-cı illərində yeni inzibati ərazi bölgüləri yaradılmışdır. Göyçə mahalının ərazisi İrəvan quberniyasının Yeni Bayazid qəzasının inzibati ərazi bölgüsünə daxil edilmişdir. Mahalın adı Göyçə gölünün adından götürülmüşdür. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Göyçay -** İrəvan əyalətinin Göyçə mahalında, indiki Kəvər (Kamo) rayonu ərazisində kənd. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Göyçə mahalında xarabalığa çevrilmiş kəndlərin siyahısında Göyçay kəndinin də adı çəkilir (415, s.XVII; 386, s.515). Toponim rəng bildirən göy sözü ilə çay sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Göyçə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda çay. Göyçə gölünə tökülür. Hidronim rəng mənasında (suyun təmizliyinə, mavi rəngdə olduğuna işarədir) işlənən göy sözü ilə çay sözünün qısaldılmış formasma (şəkilçiləşmiş forması) çevrilmiş «çə» sözünün birləşməsindən əmələ gəlmişdir.

**Göyçəgölü -** İrəvan xanlığının Göyçə mahalında, İrəvan quberniyasının Yeni Bayazid qəzasında göl. Erməni mənbələrində gölün adı Göyçə dərya, Göyçə dəngiz, Göyçay, Göyçə dəniz kimi də qeyd edilir (427, s.894, 899).

Göyçə gölünün adı «Kitabi-Dədə Qorqud» dastanlarında çəkilir: «Ondan Şərukun ucundan Göyçə dənizinə təki el çarpdı» (157, s.134). Ümumiyyətlə, müxtəlif illərdə çap olunan «Kitabi-Dədə Qorqud» dastanlarında Göycə gölünün adı Göycə dəniz (157, s.134), Gökcə dəniz (158, s.110), Gökcə dəniz (Gökçe Deniz, Dede Korkut kitabı, I, Ankara, 1989, s.225) formalarında qeyd edilmişdir. Göyçə gölü indiki Ermənistanın Kəvər (Kamo), Sevan, Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Çəmbərək (Krasnoselo) rayonlarının ərazisində yerləşir. Sahəsi 1200 km$^2$, orta dərinliyi 28,5 m, maksimal dərinliyi 83 mdir. Göyçə gölü dağarası çökəklikdə, təqribən 1900 m hündürlükdədir. Qafqazın ən iri və uca dağ gölüdür (28, s.30). Şimal-qərbdən Pəmbək, cənubdan Basarkeçər, qərbdən Keğam silsilələri ilə əhatə olunur. Gölə 28 çay tökülür. Göldən isə Zəngi (Razdan) çayı axır (ASE, VIII c., B., 1984, s.320).

Hidronim Göyçay sözünün Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. **Göyçə** Göyçay deməkdir. Gölünün suyunun rəngi göy (təmiz, duru mənasında) olduğu üçün Göyçay (>Göycə >Göyçə) adlandırılmışdır. XIX əsrdə indiki Ermənistan ərazisi çar Rusiyası tərəfindən işğal edildikdən

sonra ermənilər öz məkrli niyyətlərini həyata keçirmiş, Göyçə gölünün adı dəyişdirilib albanlar tərəfindən qara daşdan tikilmiş kilsəyə uyğun olaraq Sevvank (Qarakilsə) qoyulmuşdur. Rus imperiyası Göyçə mahalnı zəbt etdikdən sonra sev (qara), vank (kilsə) sözü də eroziyaya uğramış, ortadakı iki «v» hərfi bir hərf kimi tələffüz olunmuş, sondakı «k» hərfi isə düşmüşdür. Beləliklə, «Sevank» əvəzinə «Sevan» sözü yaranmışdır (130, s.1). İndi gölün adı Sevan adlanır.

**Gölkənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə, Göyçə gölünün sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.57), Qafqazın 5 verstlik xəritəsində (348, s.59) qeyd edilmişdir. Sonradan Gölkənd oykonimindəki kənd coğrafi nomeni ixtisar edilərək, erməni mənbələrində Göl formasında qeyd edilmişdir (415, s.66; 419, s.113). Kənddə tarixən azərbaycanlılar yaşamışdır.

1828-ci il Türkmənçay müqaviləsindən sonra Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmiş və azərbaycanlılar sıxışdırılmışdır. Burada ermənilərlə yanaşı 1897-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67). 1905-1906-cı illərdə baş verən erməni azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «dənizlə bilavasitə əlaqəsi olmayan təbii su hövzəsi» mənasında işlənən göl sözü ilə (11, s.194) kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı erməni dilinə kalka edilərək Liçk (Göl) qoyulmuşdur.

**Gölyand -** Yelizavetpol (Gəncə) quberinyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində kənd olmuşdur. Murğuz dağının ətəyində yerləşirdi. Kəndin və qəbirstanlığın xarabalıqları indi də durur.

Toponim «təbii su hövzəsi» mənasında işlənən göl sözü ilə türk dilində «yan, tərəf» (339, s.649), «dağın döşü, yamacı» (278, s.166) mənasında işlənən yan sözü əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gölyeri -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşmişdir. Sonralar Ləmbəli kəndinə birləşdirilmişdir.

Toponim göl və yer sözlərindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gölkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 16 km cənub-qərbdə, Tərsa çayının sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.56), Qafqazın 5 verstlik xəritəsində (348, s.59) qeyd edilmişdir.

Kəndin bir adı da erməni mənbələrində Qaraqoyunlu olduğu göstərilir (415, s.30).Əslində isə Qaraqoyunlu indiki Krasnoselo rayonu ərazisində yerləşən Gölkənd, Çaykənd,Əmirxeyir, Qaraqaya, Yanıxpəyə, Bəriyabad, Cıvıxlı kəndlərinin ümumi adıdır. Kənddə 1831-ci ildə 357 nəfər, 1873 - cü ildə 1567 nəfər, 1886-cı ildə 2157 nəfər, 1908-ci il de 1555 nəfər, 1914 - cü ildə 1866 nəfər, 1916-cı ildə 1486 nəfər, 1919 - cu ildə 1376 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1919 - cu ilin yazında azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri tarixi yurdlarına qayıda bilmişdir. 1922-ci ildə kənddə 1015 nəfər, 1926-cı ildə 1055 nəfər, 1931-ci ildə 1279 nəfər (415, s.30-31, 114-115), 1959 - cu ildə 1123 nəfər, 1970-ci ildə 1880 nəfər, 1979 - cu ildə 2002 nəfər (427, s.892893), 1987-ci ildə 2700 nəfər (85, s.89) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Kənddən şimalda 7 nohur (gölməçə) var. Ona görə də kənd Gölkənd adlandırılıb. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ayqut qoyulmuşdur.

**Gölcük -** Yelizavetpol (Gəncəl quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunun ərazisində kənd. Rayon mərkəzindən cənub-şərqdə, Bərgüşad çayının yuxarı axarında yerləşirdi. Kənd haqqında ətraflı məlumat yoxdur. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «təbii su hövzəsi» mənasında işlənən **göl** sözünə kiçiltmə mənalı söz əmələ gətirən -cük şəkilçisinin artırılması ilə düzəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Göllü -** Qars quberniyasının Qars qəzasında, indi Amasiya rayonunda göl. Rayondakı Göllü kəndinin qərbində yerləşir. Dərinliyi 2060 m-dir.

**Göllü -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 18 km şimal-qərbdə, Arpa gölündən 10-11 km şimalda, Sultanabad-Qazançı yolunun 6 km-də yerləşir.

Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kənddə yaşayanların qarapapaqlar olduğu göstərilir (415, s.20) və onlar ayrıca xalq kimi verilir. Lakin qarapapaqlar türk tayfalarından biridir və azərbaycanlıların etnogenizində iştirak edən etnoqrafik qrupdur.

Kənddə 1886-cı ildə 204 nəfər, 1897-ci ildə 284 nəfər, 1908-ci ildə 313 nəfər, 1914 - cü ildə 403 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-119, 104-105). 1916-cı ildə azərbaycanlılar kənddən qovulmuşdur. 1920-ci ildən sonra indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə kənddə 242 nəfər, 1926-cı ildə 306 nəfər, 1931-ci ildə 334 nəfər (415, s.18-19, 104-105), 1959 - cu ildə 470 nəfər, 1970-ci ildə 698 nəfər, 1979 - cu ildə 757 nəfər (427, s.891), 1987-ci ildə 760 nəfər azərbaycanlı yaşamışdır. 1989 - cu ilin yanvar-fevral aylarında azərbaycanlılar ermənilər tərəfindən doğma torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim «dənizlə əlaqəsi olmayan təbii su hövzəsi» mənasında işlənən göl sözünə -lü şəkilçisinin artırılması ilə kəndin adı düzəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə dəyişdirilib Ardenis qoyulmuşdur.

**Gödəkli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayon ərazisində kənd olmuşdur. Şahverd çayının yuxarı tərəfində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə Kötəkli formasında (143, s.89) qeyd edilir.

Kənddə 1831-ci ildə 80 nəfər, 1873 - cü ildə 79 nəfər, 1886-cı ildə 133 nəfər, 1897-ci ildə 204 nəfər, 1908-ci ildə 242 nəfər, 1914 - cü ildə 258 nəfər, 1916-cı ildə 237 nəfər (415, s.22-23, 108-109), 1918-ci ildə 242 nəfər (309, s.221) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir (309, s.221). İndi xaraba kənddir.

Toponim qazaxlar türk tayfasından olan gödəkli etnonimi (386, s.535) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Güzəcik -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. İrəvandan 11 km şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.154) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 100 nəfər, 1886-cı ildə 109 nəfər, 1897-ci ildə 127 nəfər, 1904 - cü ildə 119 nəfər, 1914 - cü ildə 138 nəfər, 1916-cı ildə 165 nəfər (415, s.46-47, 126-127), 1918-ci ilin fevrahında 119 nəfər (309, s.216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). Yalnız indi Ermənnistan adlanan ərazidə sovet hökuməti qurulandan sonra kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s. 126-127). Onlar 1924-1925-cı illərdə tamamilə tarixi-etnik yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir. Toponim bayat türk tayfasından olan güzücəkli etnonimi (238, s.233) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Lancaxpyur qoyulmuşdur.

**Gülablı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzində 14 km məsafədə, Ortulu dağın ətəyində yerləşir. Erməni mənbələrində kəndin adı Gülaplı, Gülab, Gülabdı formalarında da qeyd edilir (415, s.4). «İrəvan əyalətinin icmal dəftəri»ndə Güləbdi formasında (143, s.110), Qafqazın 5 verstlik xəritəsində Gülablı kimi (348, s.70) qeydə alınmışdır.

Toponim gülablı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 15. VI. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Dzoraqlux (Dərəbaş) qoyulmuşdur.

**Güləkərək -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir.

Toponim gül sözü ilə -ək şəkilçisi qəbul etmiş əkər türk etnonimi (359, I (1), s.97) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Gülüdağan -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Hamamlı (Spitak) rayonu ərazisində yer.

İlk dəfə 1931-ci ildə «Xorhordayin hayastan» qəzetində adı çəkilir və göstərilir ki, bura tarixən yaşayış məntəqəsi olmuşdur (427, s.905).

**Güllübulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 4 km məsafədə yerləşir. 1937-ci ilə qədər Ağbaba rayonunun tabeliyində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.127) qeyd edilmişdir.

Toponim «güllü, çiçəkli» mənasında işlənən güllü sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlib «güllü, çiçəkli bulaq yanında olan kənd» anlamını bildirir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Kəndin adı erməni dilinə hərfən tərcümə edilərək Vardaxbyur (Güllübulaq) qoyulmuşdur.

**Güllüdüz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğenadzor) rayonunda kənd. Rayon mərkəzindən 22 km şimal-şərqdə, Erdəpin çayının sol sahilində yerləşir. XIII əsrdən xatırlanır. Ərazidəki bir daşın üstündə kəndin 1291-cı ildə salındığı qeyd edilir (422, s.70).

Rayonun ərazisindəki Aşağı Güllüdüzü və Yuxarı Güllüdüzü kəndlərinin 1959 - cu illərdə birləşdirilməsi əsasında yaranmışdır. Qafqazın 5 verstlik xəritəsində (348, s.70) qeyd edilmişdir. Kənddə XIII-XIV əsrlərə aid azərbaycanlılarla bağlı tarixi abidələrin qalıqları indi də qalır. Kənddən 4 km şərqdə Canı azərbaycanlı kəndinin xarabalığı yerləşir.

Kənddə (Güllüdüz kəndi kimi qeydə alındıqdan sonra) 1959 - cu ildə 256 nəfər, 1970-ci ildə 362 nəfər, 1979 - cu ildə 369 nəfər azərbaycanlı yaşamışdır (427, s.907). 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri - azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim «güllü çiçəkli» mənasında işlənən güllü sözü ilə «çöl, düzən, düzəngah», «enişi, yoxuşu, çuxuru olmayan» mənasında işlənən düz sözünün (10, s.168) birləşməsindən əmələ gəlmişdir. «Düz» sözü toponomiyada həm tərkib hissə (Düzqışlaq, Düzqırıqlı, Düzbilici), həm də nomenklatur termini (Muğan düzü, Mil düzü, Qarabağ düzü, Şirvan düzü) kimi işlənir (253, s.70). Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vardhovid (Güllüdüz) qoyulmuşdur.

**Güllüdüz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkəndə (Yeğeqnadzor) rayonunda Qovuşuq kəndinin yanında çay. Araz çayına tökülür. Uzunluğu 15 km-dir.

**Güllüdüz -** İrəvan quberniyasının Şərur - Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Güllüdüz kəndinin şimalında yerləşir. Hündürlüyü 2695 m-dir.

**Güllücə -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-qərbdə, Arpa gölünün şimal sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.124), Qafqazın 5 verstlik xəritəsində (348, s.70) qeyd edilmişdir. Erməni mənbələrində kəndi adı Gyulica, Gyulluca formalarında da əksini tapır (415, s.18). Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kənddə qarapapaqların yaşadığı göstərilir və onlar xalq kimi qeyd edilir (415, s.19). Qarapapaqlar azərbaycanlılarn formalaşmasında iştirak edən türk tayfalarından - azərbaycanlılarn etnoqrafik qruplarından biridir.

Kəndə 1886-cı ildə 193 nəfər, 1897-ci ildə 288 nəfər, 1908-ci ildə 324 nəfər, 1914 - cü ildə 378 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.18-19, 104-105). 1916-1918-ci illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuş və Türkiyəyə pənah aparmışlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar doğma yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 517 nəfər, 1926-cı ildə 553 nəfər, 1931-ci ildə 576 nəfər (415, s.18-19, 104-105), 1939 - cu ildə 624 nəfər, 1959 - cu ildə 594 nəfər, 1979 - cu ildə 985 nəfər (427, s.978) azərbaycanlı yaşamışdır. 1989 - cu ilin yanvarında Ermənistan dövləti tərəfindən kəndin sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim gül sözünə sifət düzəldən -lü və sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən -cə şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Güllücə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-şərqdə, Çiçxan çayının yaxınlığında, Çubuxlu dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.71) qeyd edilmişdir. Kənd 1937-ci ilə kimi, yəni Hamamlı rayonu təşkil edilənə kimi Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur.

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 2 nəfər, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130). XX əsrin əvvəllərindən kənddə yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində işlənən güllu sözünə -cə şəkilçisinin artırılması əsasında əmələ gəlib «güllü, çiçəkli yerdə salman kənd» mənasını ifadə edir. Fitotoponimdir. Quruluşca düzəltmə topoınındir. Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Saraart qoyulmuşdur.

**Güllücə -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə, Abaran çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.109), Qafqazın 5 verstlik xəritəsində (348, s.71) qeyd edilmişdir.

Toponim güllü sözünə sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən -cə şəkilçisinin qoşulması əsasında əmələ gəlib «güllü, çiçəkli ərazidə yerləşən kənd» mənasını ifadə edir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erm. SSR AS RH-nin 15. VI. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Vardenis (Güllü) qoyulmuşdur.

**Güllücə -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s,80), Qafqazın 5 verstlik xəritəsində (348, s.71) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 273 nəfər, 1886-cı ildə 397 nəfər, 1897-ci ildə 524 nəfər, 1904 - cü ildə 516 nəfər, 1914 - cü ildə 846 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilmişdir. Sonradan azərbaycanlıların az bir hissəsi öz evlərinə dönə bilmişdir. Burada 1926-cı ildə ermənilərlə yanaşı 21 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47). 1929-1930 - cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından tamamilə qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim «güllü, çiçəkli» mənasını bildirən güllü sözünə -cə şəkilçisinin artırılması ilə düzəlib. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zovk qoyulmuşdur.

**Gümrü -** İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. İndi Ermənistan adlanan respublikada şəhər. Şörəyel bölgəsində yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə «Şürəkəl livasmda Gümrü kəndi» adında (143, s.124), «Əkinçi» qəzetində «Gömrü» formasında (№ 2,5 avqust 1875) qeyd edilmişdir.

Burada ermənilərlə yanaşı 1831-ci ildə 250 nəfər, 1873 - cü ildə 604 nəfər, 1897-ci ildə 1263 nəfər azərbaycanlı yaşamışdır (415, s.23, 94-95). 1905-1906-cı illərdə erməni azərbaycanlı müharibəsi nəticəsində azərbaycanlılar tarixi torpaqlarından deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra ata-baba torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 47 nəfər, 1926-cı ildə 54 nəfər, 1931-ci ildə 116 nəfər azərbaycanlı yaşamışdır (415, s.23, 94-95). 1940-cı illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra azərbaycanlılar tamamilə qovulmuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim qədim türk mənşəli kimmer etnonimindən (377, s.469; 245, s.33-34; 287, s.317-318) əmələ gəlmişdir. Quruluşca sadə toponimdir.

Oykonimin adı 1837-cı ildə dəyişdirilərək Rusiya çarı Aleksandrın şərəfinə Aleksandropol qoyulmuşdur. V. İ. Leninin ölümü ilə bağlı olaraq yaşayış məntəqəsinin adı Erm. SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924 - cü il fərmanı ilə dəyişdirilib Leninakan qoyulmuşdur. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı yenidən dəyişdirilərək tarixi adı bərpa edilmiş və ilkin adına uyğun olaraq Qumayri («Gümrü» sözünün erməni dilinin qaydalarına uyğunlaşdırılmış formasıdır) adlandırılmışdır.

**Gümüş -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 16 km cənub-qərbdə, Zəngi çayının yanında, Alapars kəndinin yaxınlığında yerləşmişdir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.79), Qafqazın 5 verstlik xəritəsində (348, s.71) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 48 nəfər, 1873 - cü ildə 295 nəfər, 1886-cı ildə 311 nəfər, 1914 - cü ildə 796 nəfər azərbaycanlı yaşamışdır (415, s.16-17, 100-101). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Onların yerində ermənilər məskunlaşdırılmışdır.

Gümüş filiz yataqları olduğu üçün kənd Gümüş adlandırılmışdır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Gümüşxana -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Dağ çayının qolu olan Gümüşxana selavının yanında yerləşirdi. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Gümüşcük kimi (143, s.60) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 35 nəfər, 1873 - cü ildə 145 nəfər, 1886-cı ildə 136 nəfər, 1897-ci ildə 203 nəfər, 1904 - cü ildə 360 nəfər, 1914 - cü ildə 394 nəfər, 1916-cı ildə 234 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına dönmüşdür. Burada 1922-ci ildə 74 nəfər azərbaycanlı yaşamışdır (415, s. 158-159). 1923-1924 - cü illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışdır. 1925-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənddə gümüş filizi olduğu üçün Gümüşxana adlandırılmışdır. Toponim gümüş sözünə toponimiyada «yaşayış məntəqəsi», «ərazi, yer» mənasında işlənən xana sözünün (339, s.590)qoşulması yolu ilə əmələ gəlmişdir.

Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Gümüşxana -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda mədən yeri. Rayonun ərazisindəki Gümüşxana kəndində yerləşirdi.

**Gümüşxana -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda selav. Rayondakı Gümüşxana kəndinin ərazisindədir.

**Günbəz -** İrəvan quberniyasının Abaran qəzasında, indiki Əştərək rayonu ərazısində kənd, «İrəvan əyalətinin icmal dəftəri»ndə Günbəzli formasında (143, s.109) qeyd edilmmişdir. 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-1830 - cu illərdə burada Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir (427, s.977). 1850-ci illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «yarımkürə şəklində bina damı, qübbə» mənasında işlənən günbəz sözü (11, s.214) əsasında əmələ gəlmişdir.Bu söz ərəbcə olub toponomiyada «yumru» mənasında işlənir:'(253, s.101). Relyef əsasında yaranan sadə toponimdir.

**Güney -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 33 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «cənub, gün düşən yer» mənasında işlənən güney sözü əsasında əmələ gəlmişdir. Relyeflə bağlı yaranan sadə toponimdir.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Getaşen (Çaykənd), 25. V. 1967-cı il fərmanı ilə yenidən dəyişdirilərək Kirants adlandırılmışdır.

**Güney -** Qars quberniyasının Qars qəzasında, indi Amasiya rayonunda dağ. Rayondakı Çivinli kəndindən şimal-qərbdə yerləşir. Hündürlüyü 2463 m-dir. Oronim Azərbaycan dilində «cənub, gün düşən yer», «gün tutan yer» mənasında işlənən güney sözündən (11, s.214) əmələ gəlmişdir. Sadə quruluşlu oronimdir.

**Güney -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonu ərazisində kənd olmuşdur. Rayondakı Gölkənd (Dzovakyuğ) kəndindən 6 km şərqdə yerələşirdi. Kənddəki yaşayış binalarının və qəbirstanlığının xarabalığı indi də durur.

Toponim Azərbaycan dilində «gün düşən, cənub» mənasında işlənən güney sözü əsasında əmələ gəlib «güneydə olan kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan sadə toponimdir.

**Güney -** Göyçə mahalında dağ silsiləsi. Adı dəyişdirilib Sevan qoyulmuşdur.

**Güney -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycant dilində «gün düşən yer» mənasında işlənən güney sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Güneyvaz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində «cənub, gün düşən yer» mənasında işlənən güney sözü ilə türk dilində «dağ çökəyi», «düzən yerdə tirə, təpəcik, hündür yer», çüxur, çökək» mənasında işlənən bazı//baz sözünün (253, s.120; 339, s.64; 170, s.136) dialekt variantı olan **vaz** sözündən əmələ gəlmişdir. Toponimin ikinci komponenti olan vaz buryat və monqol dillərində bayz, bays, bayts fonetik formalarında «dik qaya», «sıldırım dağ», «ətəyində dar dərədə çay axan sıldırım qayalıq» mənalarını ifadə edir (170, s.136). Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Güneyvəng** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda qala. Arpaçayın sağ sahilində, Alagöz kəndinin şimal-şərqində, qədim Güneyvəng kəndinin yaxınlğında yerləşir.

**Güneyvəng** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Alagöz çayının yanında, Alagöz kəndi ilə Qovuşuq kəndi arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.71) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 58 nəfər, 1873 - cü ildə 40 nəfər, 1886-cı ildə' 75 nəfər, 1897-ci ildə 103 nəfər, 1904 - cü ildə 124 nəfər, 1914 - cü ildə 136 nəfər, 1916-cı ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s.160-161). 1924-1925-cı illərdə azərbaycanlılar çıxışdırılaraq qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Güneyvəng kəndinin adı bu kəndin üstündəki güneydə, döşdə tikilmiş alban abidəsindən götürülmüşdür (211, s.211). Deməli, Azərbaycan dilində «gün düşən yer, cənub» mənasında işlənən güney sözü ilə türk dilində «qala» mənasında işlənən vəng sözündən əmlə gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Güneyqoruq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonu ərazisində kənd. Axta rayonundakı Dərəçiçək kəndinin yaxınlığında yerləşirdi. XIX əsrin axırlarında 7 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində ləğv edilmişdir (427, s.920). Toponim «cənub», «gün düşən yer» mənasında işlənən güney sözü ilə «əkilmiş yerlər», «istifadə edilməsi qadağan olunmuş mülkədar yerləri» mənasında işlənən qoruq sözündən (9, s.548) əmələ gəlib.

**Güneyyurd -** İrəvan quberinyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Avşar kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə ermənіazərbaycanlı davası nəticəsində azərbaycanlılar qırğınlarla deportasiyaya məruz qalmış və kənd xarabalığa çevrilmişdir. Toponim «gün düşən yer» mənasında işlənən güney və yaşayış yeri mənasını bildirən yurd sözündən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Güneypəyə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonun Haqqıxlı kəndi ərazisində qışlaq. XX əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim «gün düşən yer, cənub» mənasında işlənən güney sözü ilə pəyə (tövlə mənasında) sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Günəş** - Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında, rayonun Ləmbəli kəndi ilə Körpülü kəndinin ortasında yerləşir. 1926-cı ildə burada 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.89). 1930 - cu ildə ləğv edilmişdir.

Toponim türkmənşəli günəş tayfasının adı əsasında (271, s.57) əmələ gəlmişdir. «Günəş tayfasına mənsub ərazi» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Güngörməz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayondakı Qızılörən kəndinin ərazisində yerləşir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Gürcüeli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tabeliyinidə olmuşdur. Erməni mənbələrində Gürcüyel (415, s.20), Qafqazın 5 verstlik xəritəsində Gürcüel (348, s.72) formasında qeyd edilmişdir.

Toponim gürcü etnonimi ilə türk dilində «tayfa, xalq» mənasında işlənən el sözündən əmələ gəlmişdir və «gürcü tayfasından olan el, xalq, nəslə mənsub kənd» mənasını bildirir. S. Ataniyazov türkmənlərin anaveli, salır tayfasına mənsub etnonimlərdən birinin gürcü (qurji) adlarıdığını qeyd edir (271, s.57). Eyni zamanda qaşqay türk tayfasından olan Səfixan tayfasına mənsub tirənin (nəslin) birinin adı gürcülü olmuşdur (142, s.39). Buradan belə bir qənaətə gəlirik ki, gürcü etnonimi türk mənşəli tayfalardan biridir. Kəndin adı 1924 - cü ildə dəyişdirilib Torosgyuğ (Toroskənd) qoyulmuşdur.

**Gürcü karvansarası -** İrəvan şəhərində karvansara.

**Güdqum -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə yerləşir.

Burada 1897-ci ildə ermənilərlə yanaşı 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). **XX** əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar qovulmuşdur.

Erm. SSR AS RH-nin 29. VI. 1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Geğanuş qoyulmuşdur.

## L

**Laçınqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda dağ. Yuxarı Ağdam kəndinin ərazisində yerləşir. Oronim laçın quş adı və qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Leyli dağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunda dağ. Rayondakı Hallavar kəndinin ərazisində yerləşir. Oronim şəxs adı əsasında əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Leyli köçən -** İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Culçayın sağ qolu olan Köçbəkçayın yaxınlığında yerləşirdi. Kəndin adı erməni mənbələrində Leyliqaçan kimi də göstərilir (415, s.90). Qafqazın 5 verstlik xəritəsində (348, s.159) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 139 nəfər, 1886-cı ildə 153 nəfər, 1897-ci ildə 352 nəfər, 1904 - cü ildə 384 nəfər, 1914 - cü ildə 422 nəfər, 1916-cı ildə 420 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Leyli şəxs adı ilə köçən feli sifətin birləşməsindən əmələ gəlmişdir. «Leylinin köçünün düşdüyü yer» mənasını verir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Lehvaz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-qərbdə, Meğri çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.158) qeyd edilmişdir.

Meğri rayonunda Lehvaz adlı iki kənd olunmuşdur: Birinci Lehvaz, İkinci Lehvaz (415, s.68). Sonralar bu kəndlər birləşdirilərək Levaz adlı kənd yaranmışdır.

Kənddə 1831-ci ildə 15 nəfər, 1873 - cü ildə 172 nəfər, 1886-cı ildə 375 nəfər, 1897-ci ildə 346 nəfər, 1904 - cü ildə 525 nəfər, 1914 - cü ildə 836 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildən kənd erməni təcavüzünə məruz qalmış, sakinləri qırğınlarla deportasiya olunmuşdur (309, s.206). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edənlər tarixi-etnik torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 189 nəfər, 1926-cı ildə 145 nəfər, 1931-ci ildə 171 nəfər (415, s.68-69, 142-143), 1987-ci ildə 1002 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Strabonun «Coğrafiya» əsərində göstərilən skif tayfalarından olan leh etnonimi ilə (24, s.18) türk dilində «sıldırım qaya, şiş qaya ətəyində dar dərədə axan çay yanında dağ» mənasında işlənən bayz//bays (vaz -İ.B.) sözündən (339, s.65) əmələ gəlmişdir. Bu söz Azərbaycan toponomiyasında «düzən yerdə tirə, təpəcik, hündür yer» mənasında işlənən bazı formasında da (253, s.120) işlənir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ləlvar -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində kənd. Rayon mərkəzindən 28 km şimal-qərbdə, Tona (Debed) çayının sahilində, Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Sonralar Ləmbəli kəndi ilə birləşdirilərək ləğv edilmişdir. Ləlvər dağının ətəyində yerləşdiyi üçün kənd Ləlvar adlandırılmışdır. Toponim ləl və «möhkəmləndirilmiş kənd, qala, bənd» mənasında işlənən «var» sözündən (339, s.113) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Lələkənd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir.

Toponim «böyük tərbiyəçi» mənasında işlənən lələ sözünə qədim türk dilində «yaşayış mənəqəsi» mənasında işlənən kənd sözünün (339, s.270-271) birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəbdir.

Erm. SSR AS RH-nin 25.I.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vazaşen qoyulmuşdur.

**Ləmbəli -** Tiflis quberniyasının, Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-qərbdə, Tona çayının sağ tərəfində yerləşir.

Erməni mənbələrində «Ləmbəli qyuğ» formasında qeyd edilir(415,s.98).

Kənddə 1831-ci ildə 11 nəfər, 1886-cı ildə 292 nəfər, 1897-ci ildə 376 nəfər, 1908-ci ildə 400 nəfər,1914 –cü ildə 493 nəfər azərbaycanlı yaşamışdır (415, s.89, 98-99). 1915-cı ildən sonra azərbaycanlılar ermənilərin təcavüzünün nəticəsində tarixi-etnik torpaqlarından qovulmuşlar. İndiki

Ermənistan sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar geri qayıda bilmişlər. 1922-ci ildə 783 nəfər, 1926-cı ildə 857 nəfər, 1931-ci ildə 1034 nəfər (415, s.89, 98-99), 1939 - cu ildə 1289 (427, s.535) nəfər azərbaycanlı yaşamışdır.

1948-1949 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. Ləmbəlilər bu haqsızlığa qarşı çıxmış, apardıqları mübarizə nəticəsində onlar geri - öz kəndlərinə qayıtmışlar. 1959 - cu ildə burada 1151nəfər, 1970-ci ildə 2000 nəfər (427, s.535), 1987-ci ildə 1500 -dən çox (85, s.331) azərbaycanlı yaşamışdır. Lakin «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti» kitabında kəndin azərbaycanlı əhalisi ermənilər kimi göstərilmişdir (427, s.535).1988-ci ildə azərbaycanlılar qovulmuş, kənddə ermənilər yerləşdirilmişdir.

Toponim «rütubətli və bürkülü zonalar üçün səciyyəvi olan tikili» mənasında işlənən ləm (109, s.16) və «düzənlik, açıqlıq, açıq yer», «geniş düzənlik» mənasında işlənən pila//pala (> bəli) sözlərinin (359, IV (2), s.1162) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir.

## M

**Maqauz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə yerləşir. Erməni mənbələrində Moqes formasında qeyd edilir (415, s.136). Kəndin başqa adı Novruzlu olmuşdur (415, s.60).

Toponim muq (muğ) türk etnoniminin fars dilində işlənən forması olan maq etnonimi ilə (333, s.91-92) türk dilində . «mənsəb», «dərə», «dağ keçidi» mənasında işlənən auz sözünün (339, s.59) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 29.VI. 1949-cu il fərmanı ilə kəndin adı dəyişdirilib Kaxnut qoyulmuşdur.

**Maqda -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.90), Qafqazın 5 verstlik xəritəsində (348, s.163) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 38 nəfər, 1873 - cü ildə 195 nəfər, 1886-cı ildə 226 nəfər, 1897-ci ildə 296 nəfər, 1908-ci ildə 268 nəfər, 1914 - cü ildə 284 nəfər, 1916-cı ildə 399 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir.

Toponim muq etnoniminin fars dilində işlənən forması olan maq etnonimindən (333, s.9192) və -da topoformantı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin I. XII. 1949 - cu il fərmanı ilə adı dəyişdirilib Lernarot qoyulmuşdur.

**Mağancıq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus raoynunda kənd.

**Mağazalı qaya -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda qaya. Hündürlüyü 16 m-dir.

**Mağaracıq -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 11 km cənub-qərbdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir(348, s.163).

Kənddə azərbaycanlılar yaşamışdır. Erməni mənbələrində kəndin sakinləri qarapapaqlar göstərilir və onlar ayrıca xalq kimi təqdim edilir (415, s.20). Əslində isə qarapapaqlar azərbaycanlılarn etnoqrafik qruplanndan biridir.

Kənddə 1886-cı ildə 308 nəfər, 1897-ci ildə 375 nəfər, 1908-ci ildə 480 nəfər, 1914 - cü ildə 539 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar öz kəndlərindən qovulmuşdur. İndiki Ermənistan sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma torpaqlarına qayıda bilmişlər. 1922-ci ildə kənddə 304 nəfər, 1926-cı ildə 430 nəfər, 1931-ci ildə 490 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 860 nəfər, 1987-ci ildə 1109 nəfər azərbaycanlı yaşamışdır. 1989 - cu ilin yanvarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim «dağ və qayanın içinə doğru uzanan, yaxud yer altında olan geniş oyuq, zağa, kaha» mənasında işlənən mağara sözünə (11, s.252) kiçiltmə mənası bildirən -cıq şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Maymaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Sevan rayonu ərazisində dağ. «Maymaq» sözü türkmən dilində nəsil adı bildirir (271, s.85).

Oronim maymak türk etnonimi (323, s.166) əsasında formalaşmışdır. Etnooronimdir. Sadə oronimdir.

**Maymaqdağı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunun Hallavar kəndində dağ. Hündürlüyü 3082 metrdir.

Oronim maymaq türk tayfa adı (323, s.166) əsasında formalaşmışdır. Etnotoponimdir.

**Maldaş -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda kənd. Rayon mərkəzindən 41 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «iri buynuzlu ev heyvanı, mal-qara, qaramal» mənasında işlənən mal sözü ilə (11, s.256) Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən daş sözünün (339, s.173) birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Mangüz -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.83), Qafqazın 5 verstlik xəritəsində (348, s.167) qeyd edilmişdir. Kəndin adı Mangus, Mangyok (Məngük - İ. B.) kimi də göstərilir (415, s.16). Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur.

Kənddə 1831-ci ildə 60 nəfər, 1873 - cü ildə 316 nəfər, 1886-cı ildə 383 nəfər, 1897-ci ildə 450 nəfər, 1904 - cü ildə 420 nəfər, 1914 - cü ildə 639 nəfər, 1916-cı ildə 621 nəfər (415, s.46-47, 126-127), 1918-ci ildə yanvarında 426 nəfər (309, s.216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin əvəllərində azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 145 nəfər, 1926-cı ildə 55 nəfər, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «möhkəm abidə, yazılı daş abidə, əbədi abidə» mənasında işlənən məngü sözünə (299, s.2082; 359, IV (2), s.341) - z şəkilçisinin (topoformant) qoşulması əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Məngük -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. 1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində olmuşdur. Kənd həm də Mangük adlandırılmışdır (415, s.86). Qırxbulaq çayının yuxarı axarında yerləşmişdir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Mənkik (143, s.173), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Mənkük kimi (143, s.106), Qafqazın 5 verstlik xəritəsində Mangyuk (Мангюк) formasında (348, s.167) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 100 nəfər, 1886-cı ildə 259 nəfər, 1897-ci ildə 291 nəfər, 1904 - cü ildə 163 nəfər, 1914 - cü ildə 180 nəfər, 1916-cı ildə 379 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə ermənilər azərbaycanlılar qırğınlarla və zorla kənddən qovmuşlar. İndiki Ermənistan sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 86 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə kəndin sakinləri zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim qədim türk dilində «abidə, əbədi abidə, yazılı daş abidə, möhkəm abidə» mənasında işlənən məngü sözü (277, II, s.259; 359, IV (2), s. 2082; 299, s.341; 229, s.370) əsasında əmələ gəlmişdir. «K» topoformantdır. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Mancan yatağı -** Yelizavetpol (Gəncə) quberinyasının Qazax qəzasında, indiki Çəmbərək Krasnoselo rayonunda qışlaq. Çaykənd kəndinin yaxınlığında yerləşmişdir. 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır. 30 - cu illərdə ləğv edilmişdir.

Toponim Mancan şəxs adına «qoyun və keçi salman yer» (8, s.241), «payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer» (10, s.510) mənalarında işlənən yataq sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Maral qayası -** Amasiya rayonunun Elləroğlu kəndində dağ. Maral heyvan adı ilə qaya (dağ mənasında) orotermini əsasında formalaşıb. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Maraldoğan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda əkin sahəsi. Rayondakı Dədəqışlaq kəndinin ərazisində yerləşir. Toponim maral heyvan adı ilə doğan feli sifətinin birləşməsindən əmələ gəlmişdir. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Maralzəmi -** Yelizavetpol (Gəncə) quberinyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Meğri çayının sol sahilində yerləşir.

Kənddə 1831-ci ildə 18 nəfər, 1873 - cü ildə 123 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 193 nəfər, 1904-cü ildə 951 nəfər yalnız azərbaycanlı yaşamışdı (415, s.68-69, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur və kəndə ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Onlar kəndə döndükdən sonra ermənilər azərbaycanlılarn tarixi torpaqlarından çıxmışdır. Burada 1922-ci ildə 28 nəfər, 1926-cı ildə 72 nəfər, 1931-ci ildə 98 nəfər (415, s.68-69, 142-143), 1987-ci ildə 800 nəfər (85, s.174) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri - azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim maral heyvan adı ilə fars dilində «əkin yeri, tarla» mənasında işlənən zəmi sözünün birləşməsindən əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Maralyatağı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonun Çaxmaq kəndində yataq. Oronim maral heyvan adı ilə «payızda, qışda qoyun-quzu, mal-qara

saxlanılan yer» mənasında işlənən yataq sözündən (10, s.510) əmələ gəlmişdir. Zootoponimdir. Görünür, burada maral saxlanılırmış. Ona görə bura Maralyatağı adlanmışdır.

**Marallıca** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Kölkənd yaxınlığında yerləşmişdir.

Toponim heyvan adı bildirən maral sözünə sifət düzəldən -lı şəkilçisinin və sifətin çoxaltma dərəcəsini əmələ gətirən -ca şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. «Maral olan yer» mənasını ifadə edir. Zootoponimdir quruluşca düzəltmə toponimdir.

**Maratuz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Culçayın sağ qolu olan Kilsəbulaq çayının yanında yerləşirdi. Kəndin başqa adı Məratuk olmuşdur (415, s.90). «İrəvan əyalətinin icmal dəftərin»də Məradik kimi (143, s.57), Qafqazın 5 verstlik xəritəsində Maratuz formasında (348, s.168) qeyd edilmişdir.

Kəndin adı Maraduz qışlağı formasında da mənbələrdə göstərilmişdir (386, s.619620).

Kənddə 1831-ci ildə 32 nəfər, 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 220 nəfər, 1897-ci ildə 242 nəfər, 1904 - cü ildə 284 nəfər, 1914 - cü ildə 273 nəfər, 1916-cı ildə 321 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «təpə» mənasında işlənən mara sözü ilə (359, IV (2), s.20-25) türk dilində «şoran», «şoranlıq» mənasında işlənən tuz//duz sözünün (339, s.562) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Mastara -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.169) qeyd edilmişdir. 1828-1830 - cu illərdə Türkiyədən 138 erməni göçürülmüşdür (386, s.575-578). Kənddə ermənilərlə yanaşı 1831-ci il də 7 nəfər, 1897-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s.36-37, 118). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «meşəsiz dağ», «dağın cənub tərəfi» mənasında işlənən mes (mas - İ. B.) sözü ilə (277, II, s.275; 337, s.238; 339, s.369) dərə (tara) sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Mahmudlu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 29 km şimal-şərqdə, Kığı çayının sol sahilində yerləşir.

Kənddə 1831-ci ildə 42 nəfər, 1873 - cü ildə 301 nəfər, 1886-cı ildə 416 nəfər, 1897-ci ildə 134 nəfər, 1904 - cü ildə 596 n nəfər, 1914 - cü ildə 263 nəfər azərbaycanlı yaşamışdır (415, s.58-59, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılar öz elinə dönə bilmişdir. Burada 1922-ci ildə 126 nəfər,« 1926-cı ildə 147 nəfər, 1931-ci ildə 170 nəfər azərbaycanlı yaşamışdır (415, s.58-59, 136-137). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə öz doğma kəndlərindən qovulmuşdur. İndi burada ermənilər yaşayır. Toponim qızılbaş tayfalarının bir qolunu təşkil edən mahmudlu tayfasının adı (91, s.193) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin l.VI.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Çaykənd qoyulmuşdur.

**Mahmudcuq** - İrəvan quberinyasının İrəvan qəzasında, indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Mahmudkənd kimi (143, s. 124) qeyd edilmişdir

Toponim Mahmud şəxs adına kiçiltmə mənası verən -cuq şəkilçisinin qoşulmasından əmələ gəlib «Kiçik Mahmud kəndi» mənası bildirir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Mac -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunun ərazisində kənd.

Kənddə 1897-ci ildə 55 nəfər, 1904 - cü ildə 87 nəfər, 1914 - cü ildə 458 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuş (309, s.205) və kəndə ermənilər yerləşdirilmişdir.

Fikrimizcə, toponim türk dilində «təpə» mənasında işlənən majalık, meje sözünün (339, s.357, 367) kökünü əks etdirən mac sözü əsasında formalaşmışdır. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Mehrablı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 13 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.100) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49). Əsrin əvvəllərində azərbaycanlılar qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk mənşəli qaradolaq tayfasından olan mehrablı nəsil adından (286, s.69) əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 20. VIII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vardaşen (Güllü kənd) qoyulmuşdur.

**Meğri -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd. İndiki Ermənistanda inzibati rayon, rayon mərkəzi. Mənbələrdə Mığrı (207, s. 187), Mehri formalarında işlənir. Eyni zamanda yerli əhali - Meğri rayonunda yaşamış bütün azərbaycanlılar rayonun adını Mığn formasında işlədirdilər. İnzibati rayon kimi 9 sentyabr 1930 - cu ildə təşkil edilmişdir. Rayon ərazisi qədim Azərbaycan torpağıdır. VII əsrdən XI əsrə qədər ərəblərin işğalı altında olmuş, XI-XIII əsrlərdə səlcuq türklərin tabeliyində olmuşdur. XV-XVI əsrlərdə Səfəvilər dövlətinin tərkibinə daxil olmuşdur. 1730 - cu ildə ərazi türklər tərəfəindən idarə olunmuşdur. 1735-cı ildə rayonun ərazisi Nadir şahın hakimiyyəti altına keçmişdir. 1822-cı ildə yaradılan Azərbaycanın Qarabağ vilayətinin tərkibinə daxil olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Azərbaycanın tərkibində Rusiyanın tabeçiliyinə keçmişdir. 1868-cı ildə yaradılan Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının tərkibinə daxil olmuşdur. İndiki Ermənistanda 1920-ci il noyabrın 29-da sovet hökuməti qurulandan sonra Ermənistan adlanan respublikanın tərkibinə daxil edilmişdir. 9 sentyabr 1930 - cu ildə Meğri rayonu yaradılmışdır. Rayon mərkəzi Meğri 1958-cı ildə şəhər tipli qəsəbə statusu almışdır.

Meğri rayonunun ərazisində 1831-ci ildə 1143 nəfər azərbaycanlı, 1031 erməni, 1873c ildə 2997 nəfər azərbaycanlı, 3010 erməni, 1886-cı ildə 2611 nəfər azərbaycanlı, 4213 erməni, 1897-ci ildə 3998 nəfər azərbaycanlı, 5765 erməni, 1922-ci ildə 1545 nəfər azərbaycanlı, 6370 erməni, 1926-cı ildə 1985 nəfər azərbaycanlı, 6517 erməni, 1931-ci ildə 2329 nəfər azərbaycanlı, 7097 erməni yaşamışdır (415, s. 167-169).

Toponim türk dilində «quruyan, az sulu çöl çayı olan dərə», «yüksəkliklərində aşırımı olmayan çıxılmaz dərə», «dalan kimi dərə» mənasında işlənən mukır, mukur sözünün (339, s.382) fonetik variant olan mığrı sözü əsasında formalaşmışdır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Mehribanlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonunda kənd. Rayon mərkəzindən 9-11 km cənub-şərqdə, Alagöz dağının cənub-qərbində yerləşir. Kəndin adı Mehriban kimi rəsmiləşdirilmişdir (415, s.34; 419, s.133).

Kənddə 1831-ci ildə 75 nəfər, 1873 - cü ildə 410 nəfər,1886-cı ildə 598 nəfər, 1897-ci ildə 681 nəfər, 1908-ci ildə 493 ,nəfər, 1914 - cü ildə 523 nəfər, 1916-cı ildə 748 nəfər (415, s.36-37, 118-119), 1918-ci ilin əvvəllində 533 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş. Türkiyənin Bitlis, Muş və Alaşkerd vilayətlərindən köçürülən ermənilər kəndə yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim mehribanlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Katnaxpyur qoyulmuşdur.

**Meşə dərəsi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). Toponim meşə sözü ilə relyef mənası ifadə edən dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Mədinə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə, Əyriçayın yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.164) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 208 nəfər, 1886-cı ildə 296 nəfər, 1897-ci ildə 346 nəfər, 1908-ci ildə 429 nəfər, 1914 - cü ildə 752 nəfər, 1916-cı ildə 736 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 140-141). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri geri dönə bilmişdir. Burada 1922-ci ildə burada 85 nəfər azərbaycanlı yaşamış (415, s. 140-141), 1923-1924 - cü illərdə kəndə ermənilər köçürülmüşdür. 1926-cı ildə ermənilərdən başqa, 61 nəfər azərbaycanlı yaşamışdır (415, s. 140-141).

Kəndin yerli sakinləri olan azərbaycanlılar 1930 - cu illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə Türkiyə və İrandan gələn ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim ərəb dilində «şəhər» mənasında işlənən mədinə sözü (104, s.340; 361, s.141) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranıb. Quruluşca sadə toponimdir.

**Məzrə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Rayon mərkəzindən 10-11 km qərbdə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183), Qafqazın 5 verstlik xəritəsində (348, s.164) qeyd edilmişdir. 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-ci illərdə Xoy və Salmasdan köçürülmüşdür (427, s.630).

Toponim fars dilində «əkin sahəsi» mənasını bildirən məzrə sözündən (104, s.343) əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Barsravan qoyulmuşdur.

**Məzra çayı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında,indiki Basarkeçər (Vardenis) rayonundakı Məzrə kəndində çay. Hidronim «əkin yeri» mənasında işlənən məzrə sözündən(104, s.343) əmələ gəlmişdir. Oykonim əsasında yaranan hidronimdir. Çayın suyundan əkin yerələrini, tarlalan suvarma məqsədi ilə istifadə edildiyi üçün Məzrə çayı adlarıdırılımışdır. Mürəkkəb quruluşlu hidronimdir.

**Məlikkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə, Abaran çayının qolu üstündə, Dəvədaş və Dəvəboynu dağlarının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.109) qeyd edilmişdir.

Toponim «hökmdar, padşah» mənasında işlənən məlik sözünə (11, s.290) kənd sözünün qoşulması ilə əmələ gəlib «Hökmdara, məlikə məxsus kənd» mənasını bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 15. VII. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Məlikgyuğ (gyuğ erməni dilində kənd deməkdir) qoyulmuşdur.

**Məliklər -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Kəndin digər adı Məlikli olmuşdur.

Kənddə 1831-ci ildə 22 nəfər, 1873 - cü ildə 112 nəfər, 1886-cı ildə 209 nəfər, 1897-ci ildə 230 nəfər, 1908-ci ildə 318 nəfər, 1914 - cü ildə 249 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar qırğınlarla qovulmuşlar (309, s.205) və 1923 - cü ildən sonra kəndə ermənilər köçürülərək yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim məliklər (məlikli) etnonimindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 4. V. 1939 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Spandaryan qoyulmuşdur.

**Məmmədrza qışları -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov , Vayk) rayonu ərazisində kənd. Kəndin adı rəsmi sənədlərdə Məmərza (Məmmədrza şəxs adının dialekt variantı) formasında qeyd edilir. Arpaçayın sağ sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.166) qeyd edilmişdir. Kəndin adı «Məmərza kənd» kimi qeyd edilir (415,s.90).

Kənddə 1873 - cü ildə 67 nəfər, 1886-cı ildə 52 nəfər,1897-ci ildə 96 nəfər, 1904 - cü ildə 104 nəfər, 1914 - cü ildə 114nəfər, 1916-cı ildə 106 nəfər yalınz azərbaycanlı yaşamışdır(415, s.90-91, 158-159). 1918-ci ildə kəndə ermənilər hücum edərək sakinlərini deporitasiya etmişlər. İndiki Ermənistanda sonvet hökuməti qurulandan sonra sağ qalanlar doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 77 nəfər, 1931-ci ildə 104 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.90-91, 158-159). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri - azərbaycanlılar 1948-ci ildə zorla tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Məmmədrza (Məmərza) şəxs adı ilə qışlaq sözü »əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Məmmədrəsul -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Dəvəli kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1897-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87). XX əsrin əvvəllərində (1905-1906) kəndin sakinləri deportasiya olunmuş və kənd ləğv edilmişdir.

Toponim şəxs adı əsasında yaranmışdır. Antropotoponimdir. Sadə toponimdir.

**Mərzqat -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd. Rayon mərkəzindən 12-14 km cənub-şərqdə, Araz çayının sol sahilində, Aldərə kəndinin yaxınlığında yerləşirdi. Kəndin digər adı Mərzkit olmuşdur(415, s.68).

Kənddə 1831-ci ildə 54 nəfər, 1873 - cü ildə 255 nəfər, 1886-cı ildə 301 nəfər, 1897-ci ildə 281 nəfər, 1904 - cü ildə 766 nəfər, 1914 - cü ildə 751 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar 1923-1924 - cü illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 34 nəfər, 1931-ci ildə 29 nəfər azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). Kollektivləşmə ilə bağlı kəndin sakinləri Aldərə kəndinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim fars dilində «tarla, bağ, bostan və s. sahəsini bir-birindən ayıran xətt, sərhəd» mənasında işlənən mərz sözü ilə (11, s.299) türk dilində «yaşayış məntəqəsi, ev, kənd, şəhər, qala» mənasında işlənən kat (qat - İ.B.) (339, s.263) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Məsimli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 2 km şərqdə yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə Məsumlu formasında (143, s.49) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 62 nəfər, 1873 - cü ildə 360 nəfər, 1886-cı ildə 357 nəfər, 1897-ci ildə 507 nəfər, 1908-ci ildə 448 nəfər, 1914 - cü ildə 594 nəfər, 1916-cı ildə 558 nəfər yalnız azərbaycanlılar yaşamışdır(415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuş, xaricdən köçürülən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 269 nəfər, 1926-cı ildə 260 nəfər, 1931-ci ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim məsimli nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin I. XII. 1949 - cu il fərmanı ilə adı dəyişdirilərək Aykepat qoyulmuşdur.

**Məçitli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.129) qeyd edilmişdir. Erməni mənbələrində Məcitli formasında qeyd edilir (415, s.24).

Toponim türk mənşəli məçitli tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin l.VI.1940-cı il fərmanı ilə adı dəyişdirilib Nor Kyank qoyulmuşdur.

**Meçidli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunun Zəngilər kəndinin yanında kənd. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilmişdir (143, s.97). XVIII əsrin əvəllərində kənd xarabalığa çevrilmiş, onun yaxınlığında 1712-cı ildə indiki Zəngilər kəndi salınmışdır (Ermənistan Sovet Ensiklopediyası, III c., İrəvan, 1978, s.657).

Toponim məçitli tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Məşədilər -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd olmuşdur. Rayondakı Həsənkənd və Qoytul kəndləri arasında yerləşirdi. Kənddə 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.162-163). 1923 - cü illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmaş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim məşədilər tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Milli dərə -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda dərə. Milli türk mənşəli etnonimi (386, s.535; 303 a., s.ll) əsasında əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Misxana -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 35 km məsafədə yerləşir.

Toponim kənddə çıxan mineral su adını əks etdirir. Mis və xana sözlərindən əmələ gəlmişdir.

Erm. SSR AS RH-nin 1. XII. 1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Ankavan qoyulmuşdur.

**Misxana körpüsü -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda körpü. XIII əsrdə salınmışdır.

**Moz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Arpa çayının cənub qolu boyu Keşkənddən (Keşişkənd - İ. B.) Əzizbəyova (Soylana, Paşalıya) və İstisuya (Cermuxa) gedən şose yolunun üstündə yerləşir (211, s.220).

1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Mor kimi (143, s.59) qeyd edilmişdir. Toponimdə r~z səsdəyişməsi baş vermişdir ki, bu da Azərbaycan dilində qanunauyğun haldır (2, s.234-248; 211, s.221). Erməni mənbələrində Mozrov formasında da qeyd edilir (415, s.92).

Kənddə 1873 - cü ildə 80 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 145 nəfər, 1904 - cü ildə 161 nəfər, 1914 - cü ildə 177 nəfər, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışıdır (415, s.92-93, 162-163). 1918-ci ilin mart ayında kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «ağ, çal, boz, bozumtul» mənasında işələnən moz sözündən (299, s.346) əmələ gəlmişdir. Görünür, kəndin yerləşdiyi ərazinin torpağı boz, bozumtul rəngdə olmuşdur. Moz sözü böz sözünün fonetik formasıdır. Türk dillərində b~m səsəvəzlənməsi də qanunauyğundur: bən~mən, buna-muna və s. Ona görə də kəndə relyefə uyğun olaraq Moz adı verilmişdir. Quruluşca sadə toponimdir.

**Molla Abdal -** İrəvan quberinyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Molla Abdal, Molla Bədəl kəndinin başqa adı kimi göstərilmişdir (415, s.64). Ancaq Molla Abdal,Molla Bədəl kəndinin yaxınlığında olan başqa bir kənddir. Xarabalığı Molla Bədəl (Yexeknut) kəndinin yaxınlığındadır.

Toponim dini anlayışı verən molla sözünün abdal türk etnoniminə (286, s.59) qoşulması nəticəsində yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Molla Bayazid -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-qərbdə, Alagöz dağının cənub ətəyində yerləşir. Kəndə ermənilər 1842-cı ildə Bitlis, Sürməli vilayətlərindən köçürülmüş, azərbaycanlılar isə kənddən sıxışdırılıb çıxarılmışdır. İndi ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Bambakaşat qoyulmuşdur.

**Molla Bədəl -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdərabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.176).

Kənddə 1873 - cü ildə 300 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 360 nəfər, 1904 - cü ildə 335 nəfər, 1914 - cü ildə 355 nəfər, 1916-cı ildə 252 nəfər (415, s.64-65, 138-139), 1918-ci ilin əvvəlində 335 nəfər (309, s.219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Ermənilər və kürdlər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim dini anlayış bildirən molla sözü ilə Bədəl şəxs adı əsasında yaranmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Yexeknut qoyulmuşdur.

**Molla Qasım -** İrəvan quberinyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Abaran çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.110) qeyd edilmişdir. 1931-ci ildən sonra sənədlərdə adı çəkilmir.

Toponim Molla Qasım şəxs adı əsasında əmələ gəlmişdir. Antropofoponimdir. Quruluşca sadə toponimdir.

**Mollaqışlaq -** İrəvan quberinyasının Aleksandropol qəzasında, indiki Quqark.rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə, Kirovakan şəhərindən 78 km cənub-şərqdə, Pəmbək çayının sahilində yerləşir.

Kənddə 1916-cı ildə 167 nəfər azərbaycanlı yaşamışdır (415, s. 132-133). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar.

1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 130 nəfər, 1926-cı ildə 156 nəfər, 1931-ci ildə 163

nəfər (415, s.52-53, 132-133), 1939 - cu ildə 201 nəfər, 1959 - cu ildə 118 nəfər, 1970-ci ildə 188 nəfər, 1979 - cu ildə 190 nəfər (427, s.909), 1987-ci ildə 550 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanılar son nəfərinə kimi Ermənistan dövləti tərəfindən qırğınlarla tarixi-etnik vətənlərindən qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim dini məna bildirən molla sözü ilə «qış vaxtı heyvanların saxlandığı yer, otlaqlı qışlama yeri» (9, s.531), «qış yaşayış yeri, kənd əhalisinin daimi yaşayış yeri» (339, s.276) mənasında işlənən qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Güllüdərə qoyulmuşdur.

**Molla Dursun -** İrəvan quberniyasının Eçmidəzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 5 km şimalda, Abaran çayının yanında yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.162), Qafqazın 5 verstlik xəritəsində (348, s.177) qeyd edilmişdir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1828-1829 - cu illərdə İrandan buraya ermənilər köçürülmüşdür.

Kənddə 1831-ci ildə 75 nəfər azərbaycanlı, 45 erməni, 1873 - cü ildə 124 nəfər azərbaycanlı, 114 erməni, 1886-cı ildə 134 nəfər azərbaycanlı, 146 erməni, 1897-ci ildə 147 nəfər azərbaycanlı, 150 erməni yaşamışdır (415, s.82-83, 152-153).

1904, 1914 - cü illərin siyahıya almalarında azərbaycanlılar və ermənilər qarışıq şəkildə göstərilmişdir (415, s. 152-153). 1918-ci ilin əvvəlində burada 320 nəfər azərbaycanlı yaşamışdır (309, s.218). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 14 nəfər, 1926-cı ildə 14 nəfər, 1931-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, 82-83, 152-153).

1940-cı illərdə kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq deportasiya olunmuşdur. Axırıncı azərbaycanlı ailəsi kəndi 1954 - cü ildə tərk etmişdir (227, s.180). İndi ermənilər yaşayır.

Kənd Molla Dursun adlı şəxs tərəfindən salınmışdır. Ona görə kənd onun adı ilə adlanmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Şaumyan (Azərbaycanlıların qatı düşməni, 26-larin başçısı Stepan Şaumyan) qoyulmuşdur.

**Molla Eyyublu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kalinino rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə yerləşir. 31 dekabr 1937-ci ilə kimi, Kalinino rayonu təşkil edilənə qədər Cəlaloğlu (Stepanavan) rayonun tərkibində olmuşdur. Mənbələrdə kəndin digər adlarının Molla Eyyub, Molla Yublu, Norvruz xaraba olduğu da göstərilir (415, s.78). Kənddə 1886-cı ildə 58 nəfər, 1897-ci ildə 169 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148). 1918-ci ilin martında azərbaycanlılar deportasiya olunmuş, yalnız indiki Ermənistan sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 271 nəfər, 1926-cı 334 nəfər, 1931-ci ildə 382 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1988-ci ilin axırlan 1989 - cu ilin əvəllərində Ermənistan dövləti tərəfindən kəndin sakinləri tamamilə tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. İndi burada təkcə ermənilər yaşayır.

Toponim eyyublu etnonimi əsasında əmələ gəlib «eyyublu tayfasından olan mollaya məxsus kənd» anlamını verir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı əvvəllcə dəyişdirilib Evli qoyulmuş, sonra Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı dəyişdirilərək Dzaramut adlandırılmışdır.

**Molla Əhməd -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 30 km şimal-şərqdə, Molla Əhməd bulağının ətəyində, Böyük Gilanlar kəndinin yaxınlığında yerləşirdi. 1930 - cu illərdə Vedi (Ararat) rayonunun tərkibinə daxil idi (415, s.86). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.176).

Kənddə 1873 - cü ildə 28 nəfər, 1886-cı ildə 34 nəfər, 1897-ci ildə 65 nəfər, 1904 - cü ildə 51 nəfər, 1914 - cü ildə 88 nəfər, 1916-cı ildə 71 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə ermənilər azərbaycanlıları sıxışdırıb qovmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada

25 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1930 - cu illərin sonunda kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Molla Kökcə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Ağin (Ani) rayonunda şəhər tipli qəsəbə. Gümrü İrəvan yolunun 10 km-də, Qaranqu çayının sol sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.127), Qafqazın 5 verstlik xəritəsində (348, s.177) qeyd edilmişdir.

Toponim dini məna bildirən molla və göyçə türk etnoniminin (271, s.42) birləşməsindən əmələ gəlmişdir. Göyçə etnonimi Seyfəddin Dəməşq Xocadan sonra döyər türk tayfasının başçısı olan Göyçə Musa şəxs adında da özünü göstərir (238, s.249). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935ciil fərmanı ilə kəndin adı dəyişdirilib Maralik qoyulmuşdur.

**Mollalı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 16 km şimal-şərqdə, Kığı çayının sağ sahilində yerləşmişdir. Burada 1914 - cü ildə 156 nəfər, 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə kəndin sakinləri - azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

İndiki Ermənistanda sovet hökumətinin qurulması ilə bağlı kəndin sakinləri tarixi torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 45 nəfər, 1926-cı ildə 38 nəfər, 1931-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). Kənd 1940-cı illərdə ləğv edilmişdir.

Toponim qaraçorlu türk tayfasının əliyanlı tirəsinə mənsub olan mollalı etnonimindən (286, s.73) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Molla Musa -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənubda, Gümrü şəhərindən 5 km qərbdə, Arpaçayın sağ sahilində yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur.

Kənddə 1886-cı ildə 462 nəfər, 1897-ci ildə 591 nəfər, 1904 - cü ildə 671 nəfər, 1914 - cü ildə 762 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.42-43, 122-123). Azərbaycanlılar qarapapaqlar adı ilə verilir (415, s. 122-123). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuş, xaricdən (Türkiyədən) köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s.122-123). 1923-1924 - cü illərdə azərbaycanlılar kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim Molla Musa şəxs adı əsasında formalaşmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Musakan qoyulmuşdur. Bir daha Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Voskeask adlandırılmışdır.

**Mollatala -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim dini mənada işlənən molla sözü ilə Azərbaycan dilində «meşədə ağacsız sahə, çılpaq yer» mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Muğanlı -** İrəvan quberinyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Erməni mənbələrində kəndin adı Muğamlı kimi göstərilir (415, s.128). İ.Şopenin əsərində kəndin adı Boqamli kimi verilmişdir (386, s.547). Rayon mərkəzindən 15 km məsafədə yerləşir.

1828-ci ildən sonra kəndə İrandan köçürülən 52 erməni yerləşdirilmişdir (386, s.547-550). Onlar 1831-ci ildən sonra kənddən köçüb getmişlər. Kənddə 1831-ci ildə 243 nəfər, 1873 - cü ildə 388 nəfər, 1886-cı ildə 371 nəfər, 1897-ci ildə 392 nəfər, 1908-ci ildə 513 nəfər, 1914 - cü ildə 811 nəfər, 1919 - cu ildə 350 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1919 - cu illərdə azərbaycanlılar soyqırımına məruz qalaraq qırğınlarla deportasiya olunmuş (309, s.222) və xaricdən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. Azərbaycanlılar öz doğma kəndlərinə indiki Ermənistanda sovet hökuməti qurulandan sonra dönə bilmişdir. Burada 1922-ci ildə 58 nəfər, 1926-cı ildə 64 nəfər, 1931-ci ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ Nazirlər Sovetinin 1948-ci ildəki xüsusi qərarı ilə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim türk mənşəli muğanlı etnonimi (386, s.535-537) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Sadə quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 20.VIII.1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Muğan, 25.l.1978-ci il fərmanı ilə yenidən dəyişdirilib Ovtaşen qoyulmuşdur.

**Muğancıq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Kəndin adı sonralar Muğan kimi rəsmiləşdirilimişdir (266, s.228). 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.169), 1728-ci il mənbələrində Muğanlı kimi (143, s.47), Qafqazın 5 verstlik xəritəsində Muğancıq kimi (348, s.178) qeyd edilmişdir.

Toponim muğanlı türk etnonimi (386, s.535-537; ASE, VII c., B., 1983, s.85) əsasında formalaşmışdır. Muğancıq muğan və Azərbaycan dilində kiçilmə mənası bildirən -cıq şəkilçisindən ibarətdir. «Kiçik Muğanlı» mənasını ifadə edir. Muğanlılar Muğan düzündə yaşamış türk dilli Azərbaycan tayfalarının ümumi adıdır. Sonralar muğanlıların bir hissəsi şahsevən türk tayfasının tərkibinə daxil olmuşdur (ASE, VII c., B., 1983, s.85). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Mumuxan -** Qars vilayətinin Qars qəzasında,indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.!79).Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və qarapapaqlar müstəqil xalq kimi təqdim edilir (415, s.20).

Əslində qarapapaqlar azərbaycanlıların etnoqrafik qrupuna daxildir.

Kənddə 1886-cı ildə 127 nəfər, 1897-ci ildə 156 nəfər, 1908-ci ildə 153 nəfər, 1914 - cü ildə 229 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar öz torpaqlarından qovulmuşlar və kəndə ermənilər yerləşdirilmişdir. 1931-ci ilin siyahıyaalmasında kənddə 173 ermənin və 2 azərbaycanlının yaşadığı göstərilir (415, s. 104-105).

Toponim türk mənşəli Mamak - Mamqun şəxs adı əsasında formalaşmışdır. Mamak şəxs adı «Kitabi-Dədə Qorqud» dastanlarında Dəmir donlu Mumaq kimi xatırlanır (157, s.117). Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Muncuqlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Kəmərdağ silsiləsinin ətəyində yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra Alagöz (Araqadz) rayonunun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.lll), Qafqazın 5 verstlik xəritəsində (348, s.179) Muncuqlu, XIX əsrə aid rus və **XX** əsr erməni mənbələrində Munjuxlu formasında da qeyd edilmişdir (Сборник сведений о Кавказе, т.V,Тифлис,1879,№ 1180; 415, s.4).

Toponim muncuqlu nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Muradtəpə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində gözətçi məntəqəsi olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Muradabad kimi (143, s.82), Qafqazın 5 verstlik xəritəsində Muradtəpə formasında (348, s.179) qeyd edilmişdir.

Burada 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46-47). **XX** əsrin əvvəllərində ləğv edilmişdir.

Toponim Murad şəxs adı ilə təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb toponimdir.

**Muradtəpə -** İrəvan xanlığının Dərələyəz mahalında təpə. İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində yerləşir. Oronim şəxs adı əsasında əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Muradtəpəsu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Hidronim Muradtəpə oronimi ilə türk dilində «çay» mənasında işlənən su sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb hidronimdir.

**Murğuz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Rayon mərkəzindən 31 km cənubda, Sofulu kəndinin yaxınlığında yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Muxris (143, s.183), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Mahrus (143, s.150), Qafqazın 5 verstlik xəritəsində Murqus (348, s.179), erməni mənbələrində Murxuz formasında (415, s.76) qeyd edilmişdir.

Kənddə 1886-cı ildə 138 nəfər, 1897-ci ildə 60 nəfər, 1908-ci ildə 170 nəfər, 1914 - cü ildə 190 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar erməni

soyqırımına məruz qalaraq deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanları öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 101 nəfər, 1926-cı ildə 164 nəfər, 1931-ci ildə 177 nəfər (415, s.76-77, 146-147), 1987-ci ildə 826 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonlarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim türk dilində «təpə» mənasında işlənən mar sözünün (287, s.473) fonetik variantı olan mur sözü ilə ğuz (oğuz etnonimi ərəb mənbələrində adı) etnonimi (238, s.48; 89, s.138) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Murğuz dağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayounund dağ. Oronim oğuz (ğuz) etnonimi əsasında formalaşmışdır. Etnooronimdir.

**Murteyl -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Kəndin adı Murtel formasında qeyd edilir. Rayon mərkəzindən 35 km cənub-qərbdə yerləşir. Polad kənd sovetliyinə daxil idi. 1930 - cu ilin axırlarına kimi Dilican rayonuna daxil olmuşdur.

Kənddə 1897-ci ildə 43 nəfər, 1904-cı ildə 86 nəfər, 1919 - cu ildə 187 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1919 - cu ilin əvvəlində Andronikin quldur dəstəsi kəndə hücum edib dağıtmış, xalqın var-dövlətini talan etmiş və azərbaycanlıları deportasiya etmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə dönə bilmişdir.

Burada 1922-ci ildə 86 nəfər, 1926-cı ildə 103 nəfər, 1931-ci ildə 16 nəfər (415, s.32-33, 116-117), 1987-ci ildə 85 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının 24-28də kəndin sakinləri tamamilə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur.

Toponim təklə türk tayfasına mənsub olan murtulu etnonimi (286, s.91) əsasında əmələ gələn etnotoponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Çiçəkbulaq, Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı yenidən dəyişdirilərək Geğatap qoyulmuşdur.

**Musaxan Makinski -** İrəvan quberniyasınınEçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində pambıq təmizləyən məntəqə. Burada 1897-ci ildə 21 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83). XX əsrin əvəllərində ləğv edilmişdir.

Pambıq təmizləmə məntəqəsi İrəvan xanlarından olan və əsilləri İranın Maku vilayətindən olan Musaxan Makinskiyə mənsub olmuşdur.

**Musluqlu -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə yerləşmişdir.

Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və onlar xalq kimi təqdim edilir (415, s.20). Qarapapaqlar əslində azərbaycanlıların etnoqrafik qrupudur və türk tayfalarından biridir.

Kənddə 1886-cı ildə 150 nəfər, 1897-ci ildə 199 nəfər, 1908-ci ildə 223 nəfər, 1914 - cü ildə 317 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə kəndin sakinləri qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 57 nəfər,~1926-cı ildə 82 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). Kənd 1930 - cu illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «kran, kiçik turba kranı» (кран трубочка) mənasında işlənən musluk sözünə (277, II, s.264; 359, II (2), s.2206) -lu şəkilçisinin qoşulması əsasında düzəlmişdir. Ağbaba mahalında «daşdan düzəldilən su qabı» mənasında **mustuq** sözü işlədilir. Mustuq musluq sözünün (Azərbaycan dilində l~t səsəvəzlənməsi qanunaıuyğun haldır) fonetik variantıdır. Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Musluqlu** - İrəvan quberinyasının Aleksandropol qəzasında, indiki Ağin (Ani) rayonunda kənd. Arpaçayın yaxınlığında, rayon mərkəzindən 10 km məsafədə yerləşir. 1930 - cu ildə Talin rayonunun tərkibində olmuşdur.

Toponim qədim türk dilində «kran, kiçik turba kranı» mənasında işlənən musluk sözünə (277, II, s.264; 359, II (2), s.2026) -lu şəkilçisinin qoşulınası əsasında yaranmışdır. Relyef əsasında yaranan düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 30. II. 1947-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək Lancik qoyulmuşdur.

**Mülki -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayounundа kənd. Abaran çayının sahilində yerləşir.Qafqazın 5 verstlik xəritəsində (348, s.181) qeyd edilmişdir.Kəndin digər adı Mülkünkənd, Mülkümkənd olmuşdur (364, № 321; 415, s.4). Ermənilər buraya 1829 - cu ildə İrandan köçürülüb yerləşdirilmişdir (Ermənistan Sovet Ensiklopediyası, VIII c.jİrəvan, 1982, s.767).

Toponim ərəb dilində «dövlətə aid», «qeyri-hərbi, qeyri-əsgəri» mənasında işlənən mülki sözündən (104, s.416) əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Mülk -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd. Rayon mərkəzindən 16-18 km şimal-qərbdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.181) qeyd edilmişdir.

Kənddə 1914 - cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 56 nəfər, 1926-cı ildə 48 nəfər, 1931-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). Kollektivləşmə ilə bağlı 30 - cu illərin axırlarında kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim ərəb dilində «mülkiyyət, mal-mülk, malikanə», «torpaq sahəsi, malikanə, daşınmaz əmlak» mənasında işlənən mülk sözü (104, s.416; 11, s.360) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Müsəlləm -** Yelizavetpol (Gəncə) quberinyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşir. Kənddə 1897-ci ildə 34 nəfər, 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 44 nəfər, 1931-ci ildə 104 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə öz yurd-yuvalarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Sadə quruluşlu toponimdir.

**Novur -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafə də yerləşir. Kəndin adı Navur, Novçali (415, s.74), Nəvur (97, s.182) formalarında qeyd edilir. Toponim Azərbaycan dilində «gölməçə» mənasında işlənən nohur sözü əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

**Nalbənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə, Bəykənd çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.184) qeyd edilmişdir. 1930 - cu illərdə Leninakan adlı rayonun tabeliyində olmuşdur. Burada 30 - cu illərdə Nalbənd adlı dörd toponim olmuşdur. Nalbənd kəndi, Nalbənd qışlağı, Nalbənd vağzalı, Nalbənd dəmiryolu (415, s.42). Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s.42-43). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə baş verən erməni-azərbaycanlı münaqişəsi nəticəsində onlar ermənilər tərəfindən sıxışdırılaraq deportasiya olunmuşdur. İndi yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində peşə mənasında işlənən nalbənd (nalçı, heyvanların ayağına nal vuran adam) sözü əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 25.l. 1978-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Şirakamut qoyulmuşdur.

**Nəbilər -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Qovşuq və Gülüdüzü kəndləri arasında yerləşirdi (85, s.362). İndi xaraba kənddir. Toponim nəbilər nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Nədiralı -** Tiflis quberinyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunda, Hallavar kəndində oronim. Şəxs adı əsasında əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca sadə oronimdir.

**Nəzirəvan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzidən 7 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Nəzərocaq qışlağı kimi (143, s.87), Qafqazın 5 verstlik xirtəsində Nəzravan formasında (348, s.183) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 194 nəfər, 1873 - cü ildə 331 nəfər, 1886-cı ildə 448 nəfər, 1897-ci ildə 467 nəfər, 1908-ci ildə 553 nəfər, 1914 - cü ildə 613 nəfər, 1916-cı ildə 573 nəfər, 1918-ci il də 553 nəfər, 1919 - cu ildə 322 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 1919 - cu ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.221). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 94 nəfər, 1926-cı ildə 114 nəfər, 1931-ci ildə 152 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). Ermənilər kəndə 1923-1925-cı illərdə Türkiyədən köçürülmüşdür. SSRİ Nazirlər Sovetinin xüsusi qırarı ilə azərbaycanlılar zorla 1948-1953 - cü illərdə Azərbaycana deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Nəzər şəxs adına urartu dilində «yer, ölkə» mənası bildirən ebani sözündən əmələ gələn van//avan topoformantının qoşulması yolu ilə formalaşmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Novlar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Qoytul kəndinin yaxınlığında, Dəliktəpə dağının ətəyində Paşadüz düzündə yerləşirdi.

Kənddə 1873 - cü ildə 71 nəfər, 1886-cı ildə 100 nəfər, 1897-ci ildə 179 nəfər, 1904 - cü ildə 285 nəfər, 1914 - cü ildə 313 nəfər, 1916-cı ildə 217 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «kanal, arx» mənasında işlənən nov sözünə (11, s.422) -lar şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Novlu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Keşişkənd kəndinin yaxınlığında, Təpəsidəlik dağının şimal-qərbində yerləşir.

Kənddə 1873 - cü ildə 157 nəfər, 1886-cı ildə 216 nəfər, 1897-ci ildə 215 nəfər, 1904cü 398 nəfər, 1914 - cü ildə 437 nəfər, 1916-cı ildə 235 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir. 1924-1925-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş axıntı yolu, su yolu, arx, kanal» mənasında işlənən nov sözünə (11, s.422) mənsubluq bildirən -lu şəkilçisinin artırılması ilə düzəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Nov talası -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «arx, kanal» mənasında işlənən nov sözü ilə «meşənin ortasında olan açıqlıq» mənasında işlənən tala sözünün əsasında formalaşmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Novçalı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda bulaq. Rayondakı Toxluca kəndinin şimal-qərbində yerləşir. Hidronim Azərbaycan dilində «su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan düzəldilmiş su yolu, arx, kanal» mənasında işlənən nov sözünə (11, s.422) kiçiltmə mənası bildirən -ça və mənsubluq bildirən -lı şəkilçisinin qoşulması yolu ilə formalaşmışdır. Düzəltmə hidronimdir.

**Noradüz -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə, Kəvər çayının yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.55) qeyd edilmişdir. Yerli əhali - azərbaycanlılar Nərədüz formasında tələffüz edirdilər.

Kəndə ermənilər 1828-ci ildən sonra Türkiyədən köçürülmüşdür (386, s.595-598).

Toponim türk dillərində «sıldırım qayalıq, dərin dərə, uçurum» mənasında işlənən nori sözü ilə (1, s.79) düz sözünün birləşməsindən əmələ gələn orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Noraşenik -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal-şərqdə, Xalac çayının sol sahilində yerləşir.

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 8 nəfər, 1873 - cü ildə 55 nəfər, 1886-cı ildə 60 nəfər, 1897-ci ildə 179 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136). 1905-1906-cı illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olumuşdur. İndi burada yalnız ermənilər yaşayır.

Toponim türk dilində «sıldırım qayalıq, dərin dərə, uçurum» mənasında işlənən nori sözünün (1, s.79) fonetik forması olan nora sözü ilə türk dilində «kənd, yaşayış yeri, yaşayış məntəqəsi» mənasında işlənən şenik (əsli «şenlik»dir) sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. Şenik (şenlik) sözü Azərbaycan aşığı Aşıq Şenlik şəxs adında özünü qoruyub saxlamışdır.

Noraşenik relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Noraşenik axta -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda yaşayış məntəqəsi olmuşdur(415, s.60). 1897-ci ildə burada 9 nəfər azərbaycanlı yaşamış (415, s.60-61), XX əsrin əvvəllərində onlar deportasiya olunmuş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim nora (türk dilində «qayalıq, dərin dərə, uçurum» mənasını ifadə edir), şenik (türk dilində «yaşayış yeri, kənd» mənasında bildirən şenlik sözündən əmələ gəlmişdir) və türk mənşəli axta etnonimindən (93, s.28) ibarətdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Nurnus -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.191) qeyd edilmişdir. Kəndin adı erməni mənbələrində Nornus formasında da qeyd edilir (415, s.46).

Kənddə 1873 - cü ildə 372 nəfər, 1886-cı ildə 416 nəfər, 1897-ci ildə 550 nəfər, 1904 - cü ildə 457 nəfər, 1914 - cü ildə 512 nəfər, 1916-cı ildə 642 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və Türkiyədən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına gələ bilmişdir. Burada ermənilərdən başqa 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 61 nəfər, 1931-ci ildə 96 nəfər azərbaycanh yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin azərbaycanlı əhalisi 1947-1948-ci illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. Toponim monqol dilində «göl» mənasında işlənən nur//nor sözündən (339, s.397; 2, 308) və ərəb dilində «ucu şiş minarəli tikinti» mənasnda işlənən naus (>nus), sözündən əmələ gəlib «göl, arx, kənarında tikinti» mənasını bildirir.

Toponim tərkibindən nur / nor sözü Azərbaycan dilində nohur (arx, gölməçə) formasında işlənir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Nüvədi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd. Rayon mərkəzindən 16 km şimal-şərqdə yerləşir. 1929 - cu ilədək Nüvədi kəndi Azərbaycanın

Zəngilan rayonunun tərkibinə daxl idi. 1929 - cu ildə Nüvədi kəndinin Ermənistanın Meğri rayonunda verilməsi ilə bağlı Azərbaycan hökumətinin rəsmi qərarı 1969 - cu ilin may ayında Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilmişdir. Kəndin adı 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Nüyədə (143, s.179), erməni (415, s.68), rus dilli (309, s.20; 266, s.201) mənbələrdə Nyuvadi formalarında qeyd edilir. Yerli əhali isə kəndə Nüyədi, Nüədi deyirdilər.

Kənddə 1831-ci ildə 291 nəfər, 1873ildə 705 nəfər, 1886-cı ildə 1083 nəfər, 1897-ci ildə 952 nəfər, 1904 - cü ildə 771 nəfər, 1914 - cü ildə 1072 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla ata-baba torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 662 nəfər, 1926-cı ildə 480 nəfər, 1931-ci ildə 590 nəfər (415, s.68-69, 142-143), 1979 - cu ildə 1700 nəfər (85, s.175) yalnız azərbaycanlı yaşamışdır. Ermənistan dövlətinin xüsusi göstərişi ilə indiki Ermənistan ərazisində sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndinin sakinləri - azərbaycanlılar 1991-ci il avqustun 8də tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim «dağ ətəyində ovuq, çökək yer» mənasında işlənən nüyək, nüək, nüyəx (253, s.23, 128, Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, B., 1967, 8, s.231), «iki tərəfi qaya olan sahə» mənasında işlənən nüy (8, s.344) sözünə fars dilində «kənd mənasında işlənən deh sözünün variantı olan di sözünün (339, s.177; 104, s.139) qoşulması yolu ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Ermənistan prezidentinin 1994 - cü il fərmanı ilə kəndin adı dəyişdirilib Nonadzor qoyulmuşdur.

## O

**Ovandərə -** Tiflis quberinyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə, Ovandərə çayının yanında yerləşir.

Toponim Azərbaycan dilində «düzənlik, düzəngah, düzən yer» mənasında işlənən ova sözü ilə (11, s.432; 339, s.404), «çay yatağı, çayın axdığı yer» mənasında işlənən dərə sözünün (10, s.74; 196, s.44) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə kəndin adı dəyişdirilib (kalka edilərək) Ovanandzor (Ovandərə, «dzon> dərə deməkdir) qoyulmuşdur.

**Ovandərəçay -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonunda çay. Rayondakı Ovandərə kəndinin ərazisindən axır. Mürəkkəb quruluşlu hidronimdir.

**Oğbin -** İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Rayondakı Almalı kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1831-ci ildə 37 nəfər azərbaycanlı, 1873 - cü ildə 104 nəfər azərbaycanlı, 57 erməni, 1886-cı ildə 169 nəfər azərbaycanlı, 62 erməni, 1897-ci ildə 245 nəfər azərbaycanlı, 104 erməni, 1914 - cü ildə 531 nəfər azərbaycanlı və erməni yaşamışdır (415,s.90-91, 158-159).

Göründüyü kimi, ermənilər buraya 1870-ci illərdə köçürülmüşdür. 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar 1924-1925-cı illərdə doğma yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı olmuşdur (415, s.90-91, 158-159). SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür.

Toponim qədim türk dilində «tayfa ittifaqı», «boy təşkilatı» mənasında işlənən oğ (ok) sözündən (365, s.437; 238, s.25) və qıpçaq türk tayfasının tərkibində adı çəkilən min (minq) etnonimindən (1, s.70) əmələ gəlmişdir. Azərbaycan dilində m > b və ya b > m səs əvəzlənmələri qanunauyğun haldır. Deməli, Oğbin toponimindəki bin elə min etnonimidir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Oğruca -** İrəvan xanlığının Göyçə mahalında, indiki Basarkeçər (Vardenis) rayonunun ərazisində kənd olmuşdur. Basarkeçər rayonundakı Qaraiman kəndinin yanında yerləşirdi. İndi xaraba kənddir. Z.Qorqodoyan Göyçə mahalında ləğv edilən kəndlərin sırasında Oğruca kəndinin də adını Ağrıca kimi çəkir (415, s.XVII). İ.Şopenin əsərində də Göyçə mahalında ləğv edilmiş kəndlərin siyahısında Oğruca kəndinin adı Ağrıca formasında qeyd edilir (386, s.515).

Toponim oğuzlardan olan oğur türklərinin adı əsasında əmələ gəlmişdir. Bu tayfa haqqında Rəfik Özdək yazır: «Oğur və oğuz sözləri eyni mənalıdır. Oğuzların qardaşı olan oğurlar onlardan miladda öncəki zamanlarda ayrılmışdır. Qərbə doğru yayılanların dilində «z» hərfinin yerini zamanla «r» hərfi almışdır. Onun üçün qərb türklərinə (Oğuzlara) «r»-lı danışanlar», Şərq oğuzlarına isə «z»-lı danışanlar deyilmişdir» (226, s.172). Toponimdəki -ca şəkilçisi çoxluq mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Oğurbəyli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 3 km şimal-qərbdə, Gərni çayından ayrılan arxın kənarında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Uğurbəyli (143, s.49), Qafqazın 5 verstlik xəritəsində Oğuzbəyli (348, s.192) formasında qeyd edilmişdir. Erməni mənbələrində də kəndin adı Oğurbəyli kimi göstərilir (415, s.130; 427, s.678-679). Buranın qədim sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər kəndə 1829 - cu ildə İranın Xoy və Salmas bölgələrindən köçürülmüşdür (427, s.679).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 87 nəfər, 1873 - cü ildə 104 nəfər, 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 110 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 23 nəfər, 1926-cı ildə 27 nəfər, 1931-ci ildə 26 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). Kənddə azərbaycanlıların yaşaması Z. Qorqodyanın «1831-1931-ci illərdə sovet Ermənistanın əhalisi» kitabında aydınca göstərilsə də (415, s.50,130), «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə (427, s.679) azərbaycanlılar ermənilərin tərkibində verilir və guya burada yalnız ermənilər yaşamışdır.

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə azərbaycanlılar Azərbaycana köçürülür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim oğuz türk tayfasının adını əks etdirən oğur və bəyli sözlərindən əmələ gəlmişdir. Toponim əvvəlindəki oğur sözü oğuz etnonimini əks etdirir. «Oğuz və oğuz sözləri eyni mənalıdır. Oğuzların qardaşı olan oğurlar onlardan miladdan öncəki zamanlarda ayrılmışdılar. Qərbə doğru yayılanların dilində «z» hərfinin yerini zamanla «r» hərfi almışdır. Onun üçün Qərb türklərinə (Oğuzlara) «r»-lı danışanlar», Şərq oğuzlarına isə «z»-lı danışanlar» deyilmişdir (226, s.172). Etnotoponimdir. Quruluşca sadə toponimdir. «Oğur (oğuz) bəylərinin yaşadığı yer» mənasını bildirir.

Erm. SSR AS RH-nin 20. VIII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Berkanuş qoyulmuşdur.

**Oğlannıca pir** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda oronim.

**Ozanlar -** İrəvan quberinyasının Yeni Bayazid qəzasında,indiki Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə, Alapars kəndinin yaxınlığında, Zəngi çayının sahilində yerləşmişdir. «İrəvan əyalətinin icmal dəftəri»ndə(143, s.79), Qafqazın 5 verstlik xəritəsində (348, s.192) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 15 nəfər, 1873 - cü ildə 179 nəfər, 1886-cı ildə 229 nəfər, 1897-ci 288 nəfər, 1908-ci 357 nəfər, 1914 - cü ildə 416 nəfər, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19, 102-103). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, 1918-1919cu ıllərdə Türkiyədən köçürülmüş ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişdir. 1922-ci ildə kənddə 118 nəfər azərbaycanlı (415, s.102-103), 1939 - cu ildə 198 nəfər, 1959 - cu ildə 111 nəfər azərbaycanlı və erməni (427, s.355) yaşamışdır. 1960-cı ildə kəndin azərbaycanlı sakinləri deportasiya olunmuş və kənd ləğv edilmiş, azərbaycanlılara məxsus tarixi abidələr dağıldılmışdır. İndi kəndin yeri əkin sahəsinə çevrilmişdir.

Toponim «Kitabi-Dədə Qorqud» dastanlarında aşıq mənasında işlənən ozan sözünə, cəmlik, topluluq bildirən -lar şəkilçisi artırmaqla düzəldilmişdir. Burada ozanlar nəsil adı bildirir. Patronomik toponimdir. 1988-ci ilə qədər Göyçə mahalının Çəmbərək (Krasnoselo) rayonundakı Ağbulaq kəndində ozanlar tayfası yaşamışdır.

Erm. SSR AS RH-nin 31. V. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Avazan qoyulmuşdur.

**Oy dərəsi** - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Kalinino rayonunda dağ. Rayondakı Cücəkənd (Qızıl Şəfəq) kəndində yerləşir. Oronim qədim türk dilində «çala, çuxur, çökək, qobu, düzən» mənasında işlənən oy sözü ilə (365, s.425-426; 337, s.238; 339, s.408-409) dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Oyuqlu -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunda yaylaq. Rayondakı Hallavar kəndində yerləşir. Oronim «nişanlamaq üçün yer bölgüsündə sərhəd bildirmək məqsədi ilə bir neçə bel, torpaq və ya daş yığımı» mənasında işlənən oyuq sözünə (9, s.346) -lu şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Quruluşca düzəltmə oronimdir.

**Orqov -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 10 km şimal qərbdə, Qalasız çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ərqov kimi (143, s.89), Qafqazın 5 verstlik xəritəsində Erqov formasında (348, s.302) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 54 nəfər, 1873 - cü ildə 237 nəfər, 1886-cı ildə 337 nəfər, 1897-ci 380 nəfər, 1908-ci ildə 280 nəfər, 1914 - cü ildə 721 nəfər, 1916-cı ildə 646 nəfər, 1918-ci ildə 280 nəfər, 1919 - cu ildə 218 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109; 309, s.221). 1919 - cu ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.221). 1919-1920-ci illərdə buraya Türkiyədən ermənilər köçürülmüşdür. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 58 nəfər, 1926-cı ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 1929-1930 - cu illərdə azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «igid, qoçaq» mənasında işlənən ər (> or) sözü ilə qıpçaqlara məxsus qov (> kov) etnonimindən (287, s.55,108) əmələ gəlib, «igid, qoçaq, qov tayfasına məxsus kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ordun dərə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda dərə. Rayondakı Yuxarı Çanaxçı kəndinin şimal-şərq tərəfində yerləşir. Oronim türk dilində «orta» mənasında ortun sözünə (299, s.371) «dərə» sözünün birləşməsindən əmələ gəlmimşdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Ordun çay -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda çay. Rayondakı Yuxarı Çanaxçı kəndinin ərazisindən axır.

**Ortakənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Arpaçayın sağ qolu olan Başkəndçayın yanında yerləşirdi. Erməni mənbələrində kəndin adı İtqıran Ortakənd formasında göstərilir (415, s.90). Kənd İtqıran kəndinin yaxınlığında yerləşdiyi üçün toponim «İtqıran Ortakənd» kimi verilmişdir.

Kənddə 1897-ci ildə 169 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Kənd iki kənd ortasında yerləşdiyi üçün Ortakənd adlandırılmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Ortakənd -** İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 2 km şimal-şərqdə, Arpaçayın sağ qolu olan Başkəndçayın sahilində yerləşir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-1830 - cu illərdə buraya İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (427, s.871). Burada ermənilərlə yanaşı 1897-ci ildə 17 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93). Sonralar - 1929 - cu ildə azərbaycanlılar sıxışdırılaraq çıxarılmışdır. İndi yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «iki obyektin arası» mənasında işlənən orta sözü ilə «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 10. IX. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Qladzor (Qaladərəsi) qoyulmuşdur.

**Ortakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninikan rayonunun tabeliyində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.135), Qafqazın 5 verstlik xəritəsində (348, s.195) qeyd edilmişdir.

Toponim kəndin ərazisindəki dini məbəd - kilsə adı əsasında əmələ gəlmişdir. Həmin ərazidə bir neçə kilsə olduğu üçün toponimə fərqləndirici söz kimi «orta» leksik vahidi əlavə edilib və Ortakilsə adlı kənd yaranıb. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Maisyan (May ayının adı ilə bağlıdır) qoyulmuşdur.

**Oxtar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Kəndin adı mənbələrdə Oxdar kimi də qeyd edilir. Rayon mərkəzindən 15 km şərqdə, Oxdar çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Zəngəzurda iki Oxtar kəndin olduğu göstərilir: Yuxarı Oxtar, Aşağı Oxtar (348, s.197). Görünür, sonralar bu iki kənd birləşdirilərək Oxtar kəndi yaradılmışdır. Kənddə 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 195 nəfər, 1886-cı ildə 338 nəfər, 1897-ci ildə 508 nəfər, 1904 - cü ildə 454 nəfər, 1914 - cü ildə 353 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndin sakinləri 1922-1924 - cü illərdə öz doğma yurd-yuvalarına qayıda bilmişlər. Burada 1926-cı ildə 85 nəfər, 1931-ci ildə 164 nəfər (415, s.60-61, 136-137), 1959 - cu ildə 900 nəfər (85, s.151) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Toponim qədim türk dilində «boy, qəbilə» mənasını verən ox (> ok) sözünə (365, s.437; 238, s.25) dialekt və şivələrimizdə cəm şəkilçisi kimi işlənən -tar / -dar (Azərbaycan ədəbi dilində -lar, -lər) şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Oxtar çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. «Tayfa, tayfa ittafaqı» mənasını əks etdirən Oxtar sözü əsasında formalaşmışdır. Etnohidronimdir.

**Oxtar binəsi -** Yelizavetpol (Gəncə) quberinyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Burada 1897-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). **XX** əsrin əvvəllərində - 1905-1906-cı illərdə ermənilərin təcavüzü nəticəsində azərbaycanlılar tamamilə deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim «qəbilə, boy, tayfa ittifaqları» mənasında işlənən oxtar // oxdar sözü ilə Azərbaycan dilində «köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskan saldıqları yer, yurd» mənasında işlənən binə sözündən (9, s.273) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Oxçu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 32 km şimalda, Oxçu çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.197) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 143 nəfər, 1873 - cü ildə 541 nəfər, 1886-cı ildə 1122 nəfər, 1897-ci ildə 1246 nəfər, 1904 - cü ildə 1709 nəfər, 1914 - cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşlar və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 16 nəfər, 1926-cı ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1930 - cu illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi yalnız ermənilər yaşayır.

Toponim «Kitabi-Dədə Qorqud» dastanlarının XII - sonuncu boyunda adı çəkilən oğuz qəhrəmanı Ənsə Qoca oğlu Oxçu şəxs adı ilə bağlı əmələ gələn oxçu etnonimindən yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə tqponimdir.

**Oxçu berd -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 11 km cənub-şərqdə yerləşir. Erməni mənbələrində Voxçaberd formasında qeyd edilir (415, s.46). Toponim əvvəlinə «v» samiti sonradan artırılmışdır. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə İrəvan qəzasının İrəvan nahiyyəsində Oxçaberd kəndi olduğu göstərilir (143, s.159). Oxçubert, kəndin ilkin və qədim adıdır (415, s.46, 348, s.53, 197). Kənddə 1831-ci ildə 73 nəfər, 1873 - cü ildə 180 nəfər, 1886-cı ildə 1'43 nəfər, 1897-ci ildə 171 nəfər, 1904 - cü ildə 156 nəfər, 1914 - cü ildə 298 nəfər (415, s.46-47, 126-127), 1918-ci ilin yanvarında 493 nəfər (309, s.216) azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309, s.216), kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 38 nəfər, 1926-cı ildə 38 nəfər 1931-ci ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s.46-47, 126-127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə deportasiya olunaraq zorla Azərbaycana köçürülümüşdür. İndi ermənilər yaşayır.

Toponim «Kitabi-Dədə Qorqud»da adı çəkilən Ənsə Qoca oğlu Oxçu əsasında yaranan oxçu türk etnoniminə türk dilində «çətin keçilən yer, əl çatmaz yer» mənasında işlənən bert (> berd) sözünün (337, s.239; 339, s.83) qoşulması ilə əmələ gəlmişdir. «Oxçu tayfasına məxsus yaşayış yeri» mənasını bildirir.

Bert sözü urartu dilində «şəhər» mənasında patar formasında işlənmişdir (339, s.81). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Oxçuoğlu -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 18 km cənubda, Qərbi Arpaçayın sağ sahilində, Gümrü şəhərindən 10 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.197). Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və qarapapaqlar müstəqil xalq kimi qeyd edilir (415, s.20). Əslində qarapapaqlar müstəqil xalq yox, azərbaycanlıların etnoqrafik qrapu, türk tayfalarından biridir.

Kənddə 1886-cı ildə 551 nəfər, 1897-ci ildə 747 nəfər, 1908-ci ildə 935 nəfər, 1914 - cü ildə 980 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar öz doğma kəndlərindən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların sağ qalanları doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 453 nəfər, 1926-cı ildə 704 nəfər, 1931-ci ildə 893 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 1412 nəfər, 1987-ci ildə 1670 nəfər (85, s.381) azərbaycanlı yaşamışdır. 1989 - cu ilin qışında azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim «Kitabi-Dədə Qorqud» dastanlarında (XII boy) adı çəkilən Ənsə Qoca oğlu Oxçu adının əsasında formalaşan oxçuoğlu etnonimindən əmələ gəlmişdir. Eyni zamanda qeyd edək ki, Oxçu şəxs adı sonralar etnoniminə çevrilmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vaxçi qoyulmuşdur.

**Oxçuçay -** Yelizavetpol (Gəncə) quberniyasının Znəgəzur qəzasında, indiki Qafan rayonu ərazisində çay. Bu çay öz mənbəyini Zəngəzur dağlarından götürərək Qafan rayonundan və Azərbaycanın Zəngilan rayonundan keçərək Araz çayına tökülür. Hidronim «Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilən Oxçu şəxs adı ilə bağlıdır. Qeyd etdiyimiz kimi, oxçu sonradan etnonimə çevrilmiş, türk tayfalarından biri kimi sabitləşmişdir. Etnohidronimdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Oxçu Şabadini -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 4 km şimalda, Oxçu çayının sahilində yerləşirdi.

Kənddə 1831-ci ildə 65 nəfər, 1873 - cü ildə 371 nəfər, 1886-cı ildə 582 nəfər, 1897-ci ildə 433 nəfər, 1904 - cü ildə 789 nəfər, 1914 - cü ildə 516 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim türk mənşəli oxçu etnonimi ilə, türk dilində «uçurum, yamac, dağın döşü», «iki dağarası çökəklikdə yüksəklik» mənasında işlənən çap (> şab - İ. B.) sözündən (339, s.607) və monqol dilində «maldar köçərinin təsərrüfatı» mənasında işlənən adin sözündən (62, s.434) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Ocaqqulu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Burada 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.42-43). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Arapi qoyulmuşdur.

**Oşakan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə yerləşir.

Kəndin ilk adı Uşakan olmuşdur (415, s.22). 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Uşakan formasında (143, s.86), Qafqazın 5 verstlik xəritəsində Uşakan və Oşaqan formalarında (348, s.197) qeyd edilmişdir. Yerli əhali - azərbaycanlılar kəndin adını Üşəyən formasında işlədirdilər.

Toponim türk dilində «düz, hamar» mənasında işlənən üşəg sözünə (299, 628) -ən şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdirə.

**Öküz ölən -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda dərə. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Öksüz -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 23 km şimal-qərbdə, Gürcüstan respublikası ilə həmsərhəddə yerləşir. Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və onlar ayrıca bir xalq kimi təqdim edilir (415, s.20,105).

Kənddə 1886-cı ildə 62 nəfər, 1897-ci ildə 96 nəfər, 1908-ci ildə 153 nəfər, 1914 - cü ildə 176 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların sağ qalanları doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 202 nəfər, 1926-cı ildə 242 nəfər, 1931-ci ildə 270 nəfər (415, s.20-21, 104-105), 1971-cı ildə 241 nəfər, 1987-ci ildə 291 nəfər (85, s.381382) azərbaycanlı yaşamışdır. 1989 - cu ilin qışında azərbaycanlılar ermənilər tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «çay» mənasını bildirən öküz sözü (399, I, s.59, 299, s.382) əsasında formalaşmışdır. Bu söz həm də oquz, okus, oqus formasında qeyd edilir (339, s.405 337, s.237). Hidrotoponimdir. Quruluşca sadə toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Darik qoyulmuşdur.

**Ördəkli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Göyçə gölünün sahilində, poçt yolunun yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.81) qeyd edilmişdir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Zaman-zaman onlar qovulmuş, xircdən (İran və Türkiyədən) köçürülən ermənilər burada yerləşdirilmişdir (386, s.595-598). 1897-ci ildə kənddə ermənilərlə yanaşı 22 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18-19). **XX** əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim türk tayfalarından biri olan qızılbaşlara məxsus ördəkli (175, s.6) etnonimi əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lçaşen (Kölkənd) qoyulmuşdur.

**Ördəkli -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 15 km şimali-qərbdə, Arpagölün cənub-şərqində yerləşirdi. Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir (348, s.194).

Erməni mənbələrində qeyd edilir ki, kənddə qarapapaqlar yaşamışdır. Onları müstəqil xalq kimi göstərirlər (415, s.20, s.105) Əslində qarapapaqlar müstəqil xalq deyil, türk tayfalarından biridir. Onlar azərbaycanlılarn etnogenezində iştirak etmişlər.

Kənddə 1886-cı ildə 253 nəfər, 1897-ci ildə 146 nəfər, 1908-ci ildə 346 nəfər, 1914 - cü ildə 531 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). Azərbaycanlılar 1916-cı ildə qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim ördəkli türk tayfasının (175, s.6) adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

# Ö

**Öküz ölən -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda dərə. Zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Öksüz -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 23 km şimal-qərbdə, Gürcüstan respublikası ilə həmsərhəddə yerləşir. Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və onlar ayrıca bir xalq kimi təqdim edilir (415, s.20,105).

Kənddə 1886-cı ildə 62 nəfər, 1897-ci ildə 96 nəfər, 1908-ci ildə 153 nəfər, 1914 - cü ildə 176 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların sağ qalanları doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 202 nəfər, 1926-cı ildə 242 nəfər, 1931-ci ildə 270 nəfər (415, s.20-21, 104-105), 1971-cı ildə 241 nəfər, 1987-ci ildə 291 nəfər (85, s.381382) azərbaycanlı yaşamışdır. 1989 - cu ilin qışında azərbaycanlılar ermənilər tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «çay» mənasını bildirən öküz sözü (399, I, s.59, 299, s.382) əsasında formalaşmışdır. Bu söz həm də oquz, okus, oqus formasında qeyd edilir (339, s.405 337, s.237). Hidrotoponimdir. Quruluşca sadə toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Darik qoyulmuşdur.

**Ördəkli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Göyçə gölünün sahilində, poçt yolunun yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.81) qeyd edilmişdir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Zaman-zaman onlar qovulmuş, xircdən (İran və Türkiyədən) köçürülən ermənilər burada yerləşdirilmişdir (386, s.595-598). 1897-ci ildə kənddə ermənilərlə yanaşı 22 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18-19). **XX** əsrin əvəllərində, 1905-1906-cı illərdə erməni azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim türk tayfalarından biri olan qızılbaşlara məxsus ördəkli (175, s.6) etnonimi əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lçaşen (Kölkənd) qoyulmuşdur.

**Ördəkli -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 15 km şimali-qərbdə, Arpagölün cənub-şərqində yerləşirdi. Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir (348, s.194).

Erməni mənbələrində qeyd edilir ki, kənddə qarapapaqlar yaşamışdır. Onları müstəqil xalq kimi göstərirlər (415, s.20, s.105) Əslində qarapapaqlar müstəqil xalq deyil, türk tayfalarından biridir. Onlar azərbaycanlılarn etnogenezində iştirak etmişlər.

Kənddə 1886-cı ildə 253 nəfər, 1897-ci ildə 146 nəfər, 1908-ci ildə 346 nəfər, 1914 - cü ildə 531 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). Azərbaycanlılar 1916-cı ildə qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim ördəkli türk tayfasının (175, s.6) adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

# P

**Palıdlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən cənub-şərqdə, Gürcüel (Torosgyuğ) kəndindən 4 km şərqdə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur.

Toponim palıd ağac adına çoxluq mənasında işlənən -lı şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Arpeni qoyulmuşdur.

**Pamb -** İrəvan quberniyasının Eçmidəzin qəzasında, indiki Alalgöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir. Kəndin digər adı «Pəmbək Qarakilsə Yayla» olmuşdur (415, s.4).

Toponim türk dilində «yüksək dağ burnu» (339, s.91), «yol keçən dağ və çay arasında nazik yer», «qayalıq, yarğan, uçurum», «sıldırım qayaların sahili, kənarı» (337, s.238) mənasında işlənən bom / boom sözü əsasında əmələ gəlmişdir. Toponimin (Pamb) sonundakı «b» şəkilçidir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Patrinc -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 8 km masafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Batrınc formasında (143, s.37) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 51 nəfər, 1873 - cü ildə 327 nəfər, 1886-cı ildə 449 nəfər, 1897-ci ildə 463 nəfər, 1908-ci ildə 526 nəfər, 1914 - cü ildə 640 nəfər, 1916-cı ildə 599 nəfər, (415, 22-23, 108-109), 1918-ci ildə 526 nəfər, (309, s.218), 1919 - cu ildə 310 nəfər (415, s. 108-109) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ilin yazında kəndin köklü sakinləri olan azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla deportasiya edilərək (309, s.221) kəndə ermənilər yerləşdirilmişdir (415, s. 108-109). Toponim urartu dilində «şəhər» mənasında işlənən patar sözü (317, s.71) əsasında yaranmışdır. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin I. XII. 1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Voskeat qoyulmuşdur.

**Parpi -** İrəvan quberniyasının Emiədzin qəzasında, indi Əşətərək rayonunda kənd. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Alagöz dağının cənub-şərq ətəyində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Parpi (143, s.162), 1728-ci ildə yazılmış «İrəvan əyalətinin icmal dəftəri»ndə Parbi (143, s.85) formasında qeyd edilmişdir. Burada 1826-cı ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828-1830 - cu illərdə Türkiyədən buraya ermənilər köçürülmüşdür.

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 145 nəfər, 1873 - cü ildə 145 nəfər, 1886-cı ildə 140 nəfər, 1897-ci ildə 199 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 69 nəfər, 1926-cı ildə 89 nəfər, 1931-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). 19481949 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından sıxışdırılaraq Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim «açıq çöl, bozqır» (открытая степъ; 359, IV (2), c. 1144), «dağ silsiləsi» (339, s.429) mənasında işlənən par sözünə -pi şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. «pi» Bisitun qayalarındakı mixi yazıların ikinci qolunun dilindən Elam dilindən göründüyü kimi cəm bildirən şəkilçidir. Bu yazılarda həmin şəkilçi «p», «ap», «pe», «pi» şəkillərində tayfa və ölkə bildirən adların sonuna bitişdirilərək işlənmiş və belə sözlər həmin şəkilçi ilə birlikdə «el», «tayfa», «qəbilə», «yurd», «ölkə» mənalarını ifadə etmişdir (78, s.29). Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Paşadüz -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda düz. Paşa şəxs adı ilə düz sözünün birləşməsindən əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Paşakənd -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Pəmbək dağının ətəyində, Kəvər çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.200) qeyd edilmişdir.

Erməni mənbələrində kəndin adı erməni dilinə kalka edilərək Paşagyuğ (Paşakənd) formasında verilmişdir (415, s. 18).

Kənddə 1831-ci ildə 76 nəfər, 1873 - cü ildə 268 nəfər, 1886-cı ildə 436 nəfər, 1897-ci ildə 490 nəfər, 1908-ci ildə 673 nəfər, 1914 - cü ildə 908 nəfər, 1916-cı ildə 712 nəfər azərbaycanlı yaşamışdır

(415, s. 18-19, 102-103). 1918-ci ilin azərbaycanlılar qırğınlarla qovulmuşlar, kəndə ermənilər köçürülmüşdür. 1919 - cu ildə kəndə 380 nəfər erməni yerləşdirilmişdir (415, s. 102-103). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə ermənilərlə yanaşı kənddə 69 nəfər, 1926-cı ildə 98 nəfər, 1931-ci ildə 126 nəfər azərbaycanlı yaşamışdır (415,s.18-19, 102-103). 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Paşa şəxs adı ilə kənd sözünün birləşməsindən əmələ gəlib. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Marmarik qoyulmuşdur.

**Paşakənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qışlaq olmuşdur. 1897-ci ildə ermənilərlə yanaşı 21 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63). **XX** əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuş və 1930 - cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Paşalı -** İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın sol qolları olan Paşalıçayın və Yazıyurdçayın yanında, rayon mərkəzindən 11 km məsafədə yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.60), Qafqazın 5 verstlik xəritəsində (348, s.200) qeyd edilmişdir. Yaşayış məntəqəsinin adı erməni mənbələrində Pşonk formasında XIII əsrdə xatırlanır (422, s.86). Burada ermənilərlə yanaşı 1897-ci ildə 39 nəfər, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91). 1930 - cu illərdə azərbaycanlılar kənddən çıxarılmışdır. Kənddə ermənilər yaşayır.

Toponim paşalı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Qumluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Əzizbəyov, 8. VII. 1957-cı il fərmanı ilə yenidən dəyişdirilərək Zaritan qoyulmuşdur.

**Paşalı -** indi Ermənistan adlanan respublikada rayon. 1920-ci elədək Azərbaycan Respublikasının tərkibində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının tərkibinə daxil olmuşdur.

1920-ci ildə indi Ermənistan adlanan ərazidə sovet hökuməti qurulandan sonra Şərur-Dərələyəz qəzası iki yerə böünmüş və Dərələyəz qəzası Ermənistan SSR-in tabeliyinə verilmişdir. Paşalı rayonunun ərazisi Ermənistan SSR-in Dərələyəz qəzasının inzibati ərazi bölgüsünə daxil edilmişdir.

Z. Qorqodyanın 1932-cı ildə çap etdirdiyi «1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi» kitabında (erməni dilində) Paşalı rayonunun ərazisində 60 kəndin olduğu göstərilir (415, s.8890). Rayon kimi 15 oktyabr 1931-ci ildə yaradılmış və rayon mərkəzi Soylan (Əzizbəyov, 12. 10. 1956) adlanmışdır. İndi rayonunun tabeliyində 20 yaşayış məntəqəsi vardır.

Erm. SSR AS RH-nin 12. X. 1956-cı il fərmanı ilə rayonun adı dəyişdirilib Əzizbəyov, azərbaycanlılar 1988-ci ilin noyabr - dekabr aylarında rayon ərazisindən deportasiya olunduqdan sonra, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Vayk qoyulmuşdur.

**Persi -** İrəvan quberinyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 68 km şimal-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.88) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 76 nəfər, 1873 - cü ildə 225 nəfər, 1886-cı ildə 229 nəfər, 1897-ci ildə 266 nəfər, 1908-ci ildə 323 nəfər, 1914 - cü ildə 345 nəfər, 1916-cı ildə 285 nəfər, 1918-ci ildə 323 nəfər, 1919 - cu ildə 124 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109; 309, s.218). 1918-1919 - cu illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və xaricdən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Bizə görə, toponim «açıq çöl, bozqır» (открытая степь) mənasında işlənən par(pər) sözü (359, IV(2), s.1144) ilə bağlıdır. «Per» sözü İran toponimlərinin tərkibində «dağ», «sıra dağlar» mənasında işlənir (361, s.171).

**Pəyədərə -** İrəvan quberinyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Burada 1897-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91). XX əsrin əvvəllirndə, 1905-1906-cı illərdə azərbaycanlılar deportasiya edilərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «tövlə» sözünün sinonimi olan pəyə sözü ilə dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Pəmbək -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə Qarakilsə - Allahverdi yolunun 25 kilometrliyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.30). 1920-ci ildən sonra xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdir (415, s.133). Toponim iki komponentdən ibarətdir. I komponent qədim türk dilində «dar keçid» mənasında işlənən paam // baam, bom // boom (337, s.238; 339, s.91) və II komponent «təpəlik», «yüksəklik, zirvə, başlanğıc, hündürlük» mənasında işlənən bak (> bək) sözündən (339, s.66) ibarətdir. «Dar keçid yanındakı təpəlik, yüksəklikdə, zirvədə olan kənd» mənasını ifadə edir. Bak (> bək) türk dilində «təpə tirələri» mənasında işlənən baku sözündən özünü göstərir (299, s.83). Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erməni dilində Pambak, Bambak formasında işlənir.

**Pəmbək çayı -** İrəvan quberinyasının Aleksandropol qəzasında, indi Quqark rayonu ərazisində çay. Uzunluğu 86 mdir. Hidronim türk dilində «dar çay vadisində hündür, dik qayalıq bənd» (высокая, отвесная скалистая стена в узком месте речной .долины), «çayın içərisinə doğru uzanmış hündür, sıldırım burun və sahil boyu çətinləşdirilmiş yer» (высокий утесистый мыс,выдаюшийся в реку и затрудняюший путъ по по берегу), «çay içərisində qırılmış qayalıq» (скала,обрываюшаяся в реку) mənasında işlənən bom // boom sözü ilə (339, s.91), «hündür, yüksəklik, başlanğıc» mənasında işlənən bak sözünün (339, s.66) birləşməsindən əmələ gəlib.

**Pəyhan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 31 km şimali-qərbdə, Kığı çayının sol sahilində yerləşir. 1728-ci il mənbəyi olan «İrəvan əyalətinin icmal dəftəri»ndə Pexin formasında qeyd edilmişdir (143, s.150). Erməni mənbələrində Payahan, Payhan, Behan kimi göstərilmişdir (415, s.62). Rus dilində Payaqan (Паяган) formasında işlənir (266, s.193).

Kənddə 1897-ci ildə 55 nəfər, 1922-ci ildə 70 nəfər, 1926-cı ildə 71 nəfər, 1931-ci ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136-137). 1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «təpə» mənasında işlənən «bek» sözünün (359, IV (1), s.754) fonetik forması (əslində) dialekt variantı kimi işlənən pəy sözü ilə türk dilində «daxma, kaha, mağara» mənasında işlənən in sözünün (299, s.209) əsasında əmələ gəlmişdir. Toponimin ikinci komponenti han // an »in» sözünün dəyişmiş formasıdır. Relyef əsasında yaranan mürəkkəb toponimdir.

**Pirməzrə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 35 km məsafədə yerləşir. Toponim dini məna bildirən pir və ərəb dilində «əkin yeri» mənasında işlənən «məzrə» sözlərindən əmələ gəlmişdir və «əkin yerində olan pirin yaxınlığındakı kənd» mənasını ifadə edir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 29. VI. 1949 - cu il fərmanı ilə adı dəyişdirilib Katnarat qoyulmuşdur.

**Pirmələk -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 5 km qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.202) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 91 nəfər, 1897-ci ildə 329 nəfər, 1908-ci ildə 164 nəfər, 1914 - cü ildə 176 nəfər, 1916-cı ildə 404 nəfər(415, s.36-37, 118-119), 1918-ci ilin yanvarında 261 nəfər (309, s.219) azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur (309, s.219). 1918-ci ildən sonra burada yalnız ermənilər yaşayır. Toponim dini məna ifadə edən pir sözü ilə Mələk şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Areq qoyulmuşdur.

**Pirhəmzədağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Rayondakı Kığı kəndində yerləşir. Kığı dağları sırasına daxildir. Oronim dini yer mənasında işlənən pir sözü ilə Həmzə şəxs adı əsasında yaranmışdır. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Pircavidan** - Yelizavetpol (Gəncə) quberniaysının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Qafandan 37 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşir. Kəndin adı mənbələrdə Pirdavdan (415, s.62), Pirdovudan (348, s.202) formalarında qeyd edilir. Lakin kəndin əsl adı «Pircavidan»dır.

Kənddə 1831-ci ildə 17 nəfər, 1873 - cü ildə 135 nəfər, 1886-cı ildə 223 nəfər, 1897-ci ildə 254 nəfər, 1904 - cü ildə 231 nəfər, 1914 - cü ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s.6264, 136-

137). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 136-137). Sonralar kənd Gecalan şəhərinə birləşdirilmiş və xüsusi yaşayış məntəqəsi kimi ləğv edilmişdir.

Toponim Babəkin qəhrəmanlarından olan Cavidanın adı ilə bağlıdır və «Cavidana aid olan pir, Cavidan piri» mənasını ifadə edir. Antropotoponimdir. Qafan rayonu ərazisində Babəkin Bəzzeyn qalasının olması fikrimizə bir doğruluq gətirir. Quruluşca mürkkəb toponimdir.

**Polad ayrım** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 18 km cənub-qərbdə yerləşir. 1930 - cu ilin axırlarına kimi Dilican rayonunun tərkibində olmuşdur. Kənddə 1873 - cü ildə 290 nəfər, 1886-cı ildə 390 nəfər, 1897-ci ildə 228 nəfər, 1904 - cü ildə 263 nəfər, 1914 - cü ildə 347 nəfər, 1916-cı ildə 685 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1919 - cu ilin mart ayında kəndin sakinləri erməni təcavüzünün qurbanı olmuş, qırğınlarla qovulmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 302 nəfər, 1926-cı ildə 319 nəfər, 1931-ci ildə 452 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən azərbaycanlılar deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır. Toponim polad sözü ilə ayrım türk tayfasının adı (245, s.4344; 178, s.201210) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Sonralar kəndin adında ixtisar edilmiş, oykonimin ikinci komponenti «ayrım» - türk etnonimi atılaraq Polad kimi rəsmiləşdirilmişdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Xaçardzon qoyulmuşdur.

**Porsuq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Talin rayonu ərazisində kənd. 1905-1906-cı ildən sonra xarabalığa çevrilmişdir. Toponim porsuq heyvan adı əsasında əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca sadə toponimdir.

**Porsuqlu** - XVI əsrdə İrəvan nahiyəsində, XIX əsrdə İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.161) qeyd edilmişdir. Kənd XIX əsrin ortalarında ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim porsuq heyvan adına -lu şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Pulkənd** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 22 km şimal-qərbdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.151), Qafqazın 5 verstlik xəritəsində (348, s.207) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 75 nəfər, 1886-cı ildə 122 nəfər,1897-ci ildə 153 nəfər, 1908-ci ildə 193 nəfər, 1914 - cü ildə 282nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1917-ci ilin dekabrında azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya edilmiş, kənd dağıdılaraq xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Toponim fars dilində «körpü» mənasında işlənən pül ( pul ) sözünə (359, IV (2), s.1372; 104,s. 503),«yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

**Puşanlı** - Yelizavetpol (Gənoe).quberinyasının Zəngezur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Baharlı kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində Pşan formasında qeyd edilir və qışlaq olduğu göstərilir (415, s.62).

Burada 1831-ci ildə 34 nəfər, 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136). 1905-1906-cı illərdə kənd erməni təcavüzünə məruz qalmış və dağıdılmışdır (309, s.206). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar tarixi torpaqlarına dönə bilmişdir. Burada 1926-cı ildə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63). **XX** əsrin 30 - cu illərində ləğv edilmişdir.

Toponim türk mənşəli puşanlı tayfasının adı (305, s.ll, 24) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Sadə quruluşlu toponimdir.

**Pürülü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 24 km şimal-qərbdə, Kığı çayının sol sahilində yerləşir.

Kənddə 1831-ci ildə 41 nəfər, 1873 - cü ildə 138 nəfər, 1886-cı ildə 257 nəfər, 1897-ci ildə 140 nəfər, 1904 - cü ildə 467 nəfər, 1914 - cü ildə 52 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136-137). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olnmuşdur. İndiki

Ermənistanda sovet hökuməti qıırulandan sonra kəndin camaatı öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 126 nəfər, 1926-cı ildə 26 nəfər, 1931-ci ildə 254 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 136-137). 1988-ci ilin noyabrın axırlarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən qırğınlarla qovulub. İndi burada yalnız ermənilər yaşayır. Toponim ayrım türk tayfasına aid olan pürülü etnonimindən əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Püsək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd. Rayon mərkəzindən 18 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl tarixi»ndə Pisək (143, s.135), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Püsyak (143, s.150) formasında qeyd edilmişdir. Z. Qorqodyanın əsərində kəndin qədim adı Püsyək kimi göstərilmişdir (415, s.94).

Kənddə 1886-cı ildə 332 nəfər, 1897-ci ildə 153 nəfər, 1908-ci ildə 260 nəfər, 1914 - cü ildə 310 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1918-ci ildə ermənilər azərbaycanlılar qırğınlarla deportasiya etmişlər. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönmüşdür. Burada 1922-ci ildə 150 nəfər, 1926-cı ildə 149 nəfər, 1931-ci ildə 197 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). Kənd 1930 - cu illərin sonunda ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «gül çələngi» mənasında işlənən püsək (əsli psak) sözündən (299, s.398) əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

## R

**Reyhanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.,52), Qafqazın 5 verstlik xəritəsində (348, s.207) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Rehanlı, Rikanlı, Reyqanlu formalarında da göstərilir (415, s.88, 427, s.226). Burada 1918-ci ildə 442 nəfər azərbaycanlı yaşamışdır (309, s.216). Azərbaycanlılar 1919 - cu ildə deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim reyhanlı türk etnonimi (143, s.30) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 4. IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Ayqavan qoyulmuşdur.

**Rəsul qışlağı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Hors kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s.162,). 1860-cı illərdə azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Rəsul şəxs adı ilə qışlaq sözündən əmələ gəlmişdir. «Rəsula məxsus qışlaq» mənasını bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Rəhimabad -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir. Zəngibasar (Masis) rayonu təşkil edilənədək (14. I. 1969) Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur.

Kənddə 1886-cı ildə 113 nəfər, 1897-ci ildə 183 nəfər, 1904 - cü ildə 131 nəfər, 1914 - cü ildə 223 nəfər, 1916-cı ildə 246 nəfər, 1919 - cu ildə 601 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1919 - cu ilin sonlarında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndi Ermənistan adlanan yerdə sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 152 nəfər, 1926-cı ildə 242 nəfər, 1931-ci ildə 188 nəfər (415, s.82-83, 152-153), 1987-ci ildə 500 nəfərdən artıq azərbaycanlı yaşamışdır. 1988-ci ildə noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Rəhim şəxs adı ilə fars dilində «çoxlu tikinti, yaşayış üçün hər cür şəraiti olan» mənasında işlənən abad sözünün (9, s.25) birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sabunçu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Talin rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.213) qeyd edilmişdir. Kəndin adı «Sabunçular» formasında da göstərilir (415, s.36). 1897-ci ildə 182 nəfər azərbaycanlı yaşamışdır (415, s.36-37). 1905-1906-cı illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur.

Toponim türk dilində «kotan» mənasında işlənən saban sözünə (299, s.478) -çı şəkilçisinin qoşulması əsasında əmələ gələn sabunçu etnonimindən (133, s.45) əmələ gəlmişdir. Qaraqalpaqlarda sapun tayfasının olması (286, s.66) fikrimizi təsdiq edir.

Səfəvi padşahlarından Sultan Hüseyn 1704 - cü ildə verdiyi fərmanda Aranda, Muğanda və İrəvan ətrafında yaşayan 36 türk tayfasından birinin sabunçu olduğunu göstərir (133, s.45). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə adı dəyişdirilib Hatsaşen (Çörəkkənd) qoyulmuşdur.

**Sabunçu -** İrəvan şəhərində məhəllə. Sabunçu türk mənşəli etnonimi (133, s.45) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Sabunçu -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Talin rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.213) qeyd edilmişdir. Oronim sabunçu türk tayfa adı (133, s.45) əsasında əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca sadə oronimdir.

**Sabunçu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin başqa adı Şeyxzadə Əli Sabunçu olmuşdur (415, s.50).

Rayon mərkəzindən 89 km şimal-qərbdə, Gərni çayından axan arxın yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə «Saatlı Sabunçu» formasında (143, s.49), Qafqazın 5 verstlik xəritəsində Sabunçu kimi (348, s.213) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 474 nəfər, 1873 - cü ildə 951 nəfər, 1886-cı ildə 1050 nəfər, 1897-ci ildə 1000 nəfər, 1904 - cü ildə 1397 nəfər, 1914 - cü ildə 1537 nəfər (415, s.50-51, 130-131), 1918-ci ilin yanavarında 202 nəfər (309, s.216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 219 nəfər, 1926-cı ildə 285 nəfər, 1931-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar Azərbaycana köçürülümüşdür. Toponim türk mənşəli sabunçu tayfasının adı (133, s.45) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə dəyişdirilib Araksavan (Araz qəsəbəsi) qoyulmuşdur.

**Sağmosavəng -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 12 km şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Savmosavəng formasında (143, s.112) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 131 nəfər yalnız azərbaycanlı, ermənilərlə yanaşı 1873 - cü ildə 100 nəfər, 1886-cı ildə 141 nəfər, 1897-ci ildə 185 nəfər, 1914 - cü ildə 404 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). Yuxarıdakı statistik məlumatlardan göründüyü kimi ermənlər kəndə 1850-ci illərdən sonra köçürülmüşdür. 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hakimiyyəti qalib gələndən sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarından dönə bilmişdir. Burada 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 53 nəfər, 1931-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1953 - cü illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür.

Toponim türk dilində «cığır», «bataqlıqdan keçən çay keçidi» mənalarında işlənən sakma // sokma (339, s.493) və türk dilində «qala» mənasında işlənən vəng (211, s.208-209) sözlərindən əmələ gəlmişdir. Sakma // sokma sözü fonetik dəyişikliyə uğrayıb sağma // soğma formasına düşmüşdür. Toponim «cığır kənarında yerləşən qala yanında kənd, yaşayış yeri» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Saybalı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonu ərazisində kənd. Rayon mərkəzindən 25 km cənubda yerləşir.

XIX-XX əsrlərdə yaşayış məntəqəsi kimi qeydə alınsa da, əhalisi haqqında məlumat verilmir. Ermənilər buraya 1924-1925-ci illərdə İran və Türkiyədən köçürülmüşdür (415, s.77, 146-147). Toponim qədim türk dilində «vulkan mənşəli daşlıq», «düzənlik, düzəngah, səhra» mənasında işlənən say sözü ilə (299, s.481) «sığınacaq, şəhər, qala» mənasında işlənən balıq (balık, baluq) sözü (399, s.379; 299, s.81) əsasında formalaşmışdır. Saybalı toponimin ikinci komponenti olan «balı» sözünün sonunda «q» samiti düşmüşdür. M. Kaşğari arqu tayfasının yaşadığı şəhərin adının da Balu olduğunu qeyd edir (299, s.81) və təbii ki, M. Kaşğarinin adını çəkdiyi Balu toponimi «balıq» sözündən əmələ gəlmişdir. Saybalı toponimi relyef əsasında yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 10. IX. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Sarnakunk qoyulmuşdur.

**Sakar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim sakar türk etnonimi (271, s.101) əsasında əmələ gəlmişdir. Etnotoponimdır. Quruluşca sadə toponimdir.

**Salah -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-qərbdə, Tərsa çayının sahilində yerləşir. 1930 - cu illərdə Dilican rayonunun inzibati - ərazi .bölgüsünə daxil olmuşdur. Burada XI-XII əsrlərə aid tarixi abidələr vardır.

Kənddə 1897-ci ildə 184 nəfər, 1904 - cü ildə 56 nəfər, 1914 - cü ildə 64 nəfər, 1916-cı ildə 72 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1919 - cu ilin martında kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qalib gələndən sonra sağ qalan salahlılar öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 80 nəfər, 1926-cı ildə 90 nəfər, 1931-ci ildə 112 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qazax türk tayfasına mənsub olan salahlı etnonimi (245, s.37) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Akanavanavank qoyulmuşdur.

**Salah körpüsii -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda körpü. 1200 il əvvəl (VII-VIII əsrlərdə) salınmışdır. İndi də işləyir.

**Sal dağı -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. Erməni mənbələrində Sali ser formasında qeyd edilir (415, s.74). Qışlağın adındakı ser erməni dilində «dağ» zirvəsi deməkdir. Toponim sal türk etnoniminə (286, s.40) dağ sözünün əlavəsi əsasında əmələ gəlmişdir və «Sal dağı yaxınlığında olan qışlaq» mənasını verir. Etnotoponimdir. Quruluşca mürəkkəb topnimdir.

**Sallaxlar -** İrəvan şəhərində məhəllə. Nəsil adı əsasında əmələ gəlmişdir.

**Sallı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, mdiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 14 km şimal-qərbdə, «Səlim gədiyindən gələn çayın Dərələyəzdən Göyçəyə (Qaranlıq, indiki Martuni - İ. B.) gedən magistral yolun üstündə» (211, s.239) yerləşir. 1828-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Salçı kimi (143, s.60), Qafqazın 5 verstlik xəritəsində Sallı formasında (348, s.216) qeyd edilmişdir. Erməni mənbələrində kəndin ilk adı Sal formasında göstərilir (415, s.92).

Kənddə 1831-ci ildə 77 nəfər, 1873 - cü ildə 422 nəfər, 1886-cı ildə 560 nəfər, 1897-ci ildə 668 nəfər, 1904 - cü ildə 624 nəfər, 1914 - cü ildə 675 nəfər, 1916-cı ildə 678 nəfər, 1919 - cu ildə 65 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-1919 - cu illərdə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Kəndin aborigen əhalisi - azərbaycanlılar 1919 - cu ilin sonlarında erməni təcavüzü nəticəsində ata-baba torpaqlarından qovulmuş və kəndə İranın Xoy və Səlmas vilayətlərindən ermənilər köçürülmüşdür. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 147 nəfər azərbaycanlı, 64 erməni, 1926-cı ildə 204 nəfər azərbaycanlı, 81 erməni, 1931-ci ildə 242 nəfər azərbaycanlı, 102 erməni yaşamışdır (415, s.92-93, 162-163). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-ci ildə kəndin azərbaycanlı sakinləri zorla Azərbaycanın Salyan rayonuna köçürülmüşdür. Burada əhalinin bir hissəsi Bərdənin İmirli kəndinə gəlmiş, oradan da bəziləri yenidən Sallıya - ata-baba yurdlarına qayıtmışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən

yenidən deportasiya olunmuşdur (211, s.242). İndi burada ermənilər yaşayır. Toponim sal qədim türk etnoniminə (287, s.351) mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlib «sal tayfasının yaşadığı yer» mənasını bildirir. Etnotoponimdir. Qurulşca düzəltmə toponimdir.

**Sallı bulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonunda bulaq. Rayondakı Çaxmaq kəndində yerləşir. Hidronim türk mənşəli sallı etnonimi əsasında əmələ gələn etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Salsal qalası -** İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda qala. Rayondakı Alagöz, Hosdun, Həsənkənd, Erdəpin, Horbadıq kəndlərinin əhatəsində, uca bir qayanın başında tikilmişdir (211, s.242). Salsal qalasının adı qədim türk tayfası «sal»la bağlıdır (211, s.249250). Qalanın adı sal türk tayfa adının təkrarlanması nəticəsində formalaşmışdır.

**Salut -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqaç (Qunasyan) rayonunda kənd. 1937-ci ilə kimi Ağbaba rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 5 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.216) qeyd edilmişdir.

Toponim qədim türk mənşəli hun tayfasından olan sal etnoniminə (286, s.40), türk dilində cəmlik bildirən -ut şəkilçisnin artırılması ilə düzəlib, «sallar tayfasına mənsub yaşayış yeri, kənd» mənasını verir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Samadərviş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Abaran çayının sol axarında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Samdərviş (143, s.110), Qafqazın 5 verstlik xəritəsində Samadərviş kimi (348, s.217) qeyd edilmişdir. Toponim sama (bəlkə də səma) və dərviş sözlərinin birləşməsindən əmələ gələn mürəkkəb quruluşlu oykonimdir.

Erm. SSR AS RH-nin 1.VI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Çknax qoyulmuşdur.

**Samurlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. 1937-ci ilə kimi Ağbaba rayonunun tabeliyində olmuşdur. Rayon mərkəzindən 35 km məsafədə yerləşir.

Toponim qədim türk mənşəli samur etnoniminə (287, s.56) mənsubluq bildirən -lu şəkilçisinin artırılması ilə düzəlib, «samur tayfasına mənsub yer» deməkdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Sarapat qoyulmuşdur.

**Sanalı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. 1897 ci ıldə 82 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi ölü kənddir.

**Sapadərə -** İndiki Meğri rayonundakı Nüvədi kəndində dağ. H. Vəlinin fikrincə, oronim şumercə «çoban» mənasında işlənən şuba sözü əsasında əmələ gəlmişdir və sonradan həmin söz Saba > Sapa > Sipa şəkilini düşmüşdür. Sapa dərə «çoban dərəsi» mənasını verir (Həmzə Vəli «Tarixdən gələn səslər», «Vətən səsi» qəz., I. VIII. 1991). Ancaq bu fikir bir o qədər elmi deyil, həqiqətə uyğun gəlmir. Sapadərə iki sözün: sapa və dərə sözlərindən əmələ gəlmişdir. «Sapa» sözü «hasar, çəpər», «dolama yol» mənasını ifadə edir (359, IV (1), s.403). Oronim relyef əsasında yaranmışdır. Mürəkkəb quruluşlu oronimdir.

**Sarayurd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində qışlaq olmuşdur. Toponim qədim türk dilində «düzənlik, düz çöl, sahə» mənasında işlənən sara (359, IV (1), s.315) və Azərbaycan dilində «yaşayış yeri, məskən» mənasında işlənən yurd sözündən (10, s.508) əmələ gəlib, «düzənlikdə, çöldə yerləşən yaşayış yeri» mənasını bildirir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Saral -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 7 km şərqdə, Pəmbək çayının sağ sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.219) qeyd edilmişdir. Kəndin ilk adı Sarallı olmuşdur (415, s.54). Hamamlı (Spitak) rayonu təşkil edilənədək (1937) Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində kəndin X-XII əsrlərdə salındığı göstərilir (Ermənistan Sovet Ensiklopediyası, XI c., İrəvan, 1984, s.210).

Kənddə 1831-ci ildə 54 nəfər, 1873 - cü ildə 539 nəfər, 1886-cı ildə 654 nəfər, 1897-ci ildə 754 nəfər, 1908-ci ildə 951 nəfər, 1914 - cü ildə 1111 nəfər, 1916-cı ildə 982 nəfər azərbaycanlı yaşamışdır

(415, s.54-55, 132-133). 1915-1918-ci illərdə xaricdən köçürülən ermənilər kəndə yerləşdirilmişdir və kəndin əhalisi 1919 - cu ildə azərbaycanlılarla ermənilər birlikdə 3090 nəfər təşkil etmişdir (415, s.133). 1919 - cu ilin axırlarında kənddə yaşayan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 808 nəfər, 1926-cı ildə 851 nəfər, 1931-ci ildə 975 nəfər (415, s.54-55, 132-133), 1987-ci ildə 1856 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın 1-də kəndin sakinləri - azərbaycanlılar qırğınlarla Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim sarallı türk tayfasının adı (329, s.ll, 24, 164; 286, s.68) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Saratu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə yerləşir. Toponim türk dilində «düz, çöl, yurd» mənasında işlənən sara sözünə (359, IV (1), s.314) -tu şəkilçisinin (124, s.132) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Kəndin adı dəyişdirilərək Haçdərək, sonra Haştarak qoyulmuşdur.

**Saraclı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonunda yaylaq. Rayondakı Cücəkənd (Qızıl Şəfəq) kəndində yerləşir. Oronim sarıcalı türk tayfasının adı (207, s.104-105) əsasında yaranmışdır. Saraclı sarıcalı türk tayfa adının fonetik formasıdır. Etnooronimdir. Quruluşca sadə oronimdir.

**Sarvanlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 6 km cənub-qərbdə, Araz çayının yaxınlığında yerləşir. Zəngibasar (Masis) rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Kəndin ilk adı Ulya Sarvanlar olmuşdur (415, s.82). Qafqazın 5 verstlik xəritəsində də kəndin adı Sarvanlar ulya kimi göstərilir (415, s.219).

Kənddə 1831-ci ildə 153 nəfər, 1873 - cü ildə 970 nəfər, 1886-cı ildə 1024 nəfər, 1897-ci ildə 953 nəfər, 1904 - cü ildə 1465 nəfər, 1914 - cü ildə 1910 nəfər, 1916c ildə 801 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 372 nəfər, 1926-cı ildə 418 nəfər, 1931-ci ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Kəndin sakinləri 1948-ci ildə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə onlar yenidən öz kəndlərinə qayıtmış və 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən qırğınlarla deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim kəngərli qədim türk tayfasından olan sarvanlar etnonimi (386, s.537) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə adı dəyişdirilib Sis qoyulmuşdur.

**Sarıbaş -** İrəvan quberniyasının Aleksandropol qəzasında,indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.219)qeyd edilmişdir.

Ermənilər buraya 1828-ci ildə Türkiyənin Qars vilayətindən köçürülmüşdür. Toponim sarıbaş türk etnonimi əsasında əmələ gəlmişdir. N. A. Aristov göstərir ki, XIII əsrdə Qırğız çöllərinin şimal-şərq hissəsinə gəlmiş türkmonqol tayfaları içərisində sarıbaş nəsli olmuşdur (222, s.43). Deməli Sarıbaş kəndinin adı da monqolların tərkibində Zaqafqaziyaya, o cümlədən indi Ermənistan adlanan əraziyə gəlmiş sarıbaş türk etnonimi ilə bağlıdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 15. VII. 1948-ci il fərmanı ilə adı dəyişdirilib Haykasar qoyulmuşdur.

**Sarıbudaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.174) qeyd edilmişdir. Qafqazın 5 verstlik xəritəsində Sanbulaq kimi (348, s.220) göstərilmişdir. 1831-ci ildən sonra burada heç kim yaşamamışdır (415, s.96-97). İndi xaraba kənddir.

Toponim qədim türk dilində «təmiz, saf, pak, içməyə, istifadəyə yararlı su» mənasında işlənən sarı sözü ilə (94, s.74) «çayın qolu» mənasında işlənən budaq sözünün (339, s.105) birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sarı bulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qursalı kəndində yerləşir. Hidronim qədim Azərbaycan dilində «təmiz, saf, pak, içməyə yararlı» mənasında işlənən sarı sözü ilə (93, s.7475), «yerin altından sızıb çıxan su

mənbəyi» mənasında işlənən bulaq sözünün (9, s.322) birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidrooronimdir.

**Sarı qaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda dağ. Rayondakı Üləşik kəndinin şimal-qərb tərəfindən yerləşir. Türk dilində «böyük» mənasında işlənən sarı sözü ilə (359, II (2), s.327) «dağ» mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Sarıqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə azərbaycanlılar qovularaq kənd ləğv edilmişdir. İndi ölü kənddir. Toponim qədim türk dilində «böyük, iri, yüksək, nəhəng, uca, hündür» mənasında işlənən sarı sözü ilə (94, s.74) Azərbaycan dilində «dağ, daş» mənasında işlənən qaya sözündən əmələ gələn orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sarı dərə -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Kalinino rayonundakı Cücəkənd ərazisində dərə. Türk dilində «böyük, iri,"hündür, yüksək, dik dərə» mənasını bildirir. Quruluşca mürəkkəb oronimdir.

**Sarıdərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dərə. Rayondakı Toxluca kəndinin şimal-qərb tərəfində yerləşir.

**Sarı dolama -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda təpə. Böyük Vedi kəndinin şimalında yerləşir. Oronim qədim Azərbaycan dilində «böyük, yüksək, uca, hündür» mənasında işlənən sarı sözü ilə (94, s.74) Azərbaycan dilində «dümdüz olmayan, əyri-üyrü» mənasında işlənən dolama sözünün (10, s.130) birləşməsindən əməl gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Sarıyaqub -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə, Məzrə çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.221) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 294 nəfər, 1886-cı ildə 416 nəfər, 1897-ci ildə 436 nəfər, 1908-ci ildə 385 nəfər, 1914 - cü ildə 675 nəfər, 1916-cı ildə 651 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin aprelin 13-20-də azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar (309, s.305). 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə Sarıyaqubda 343 nəfər, 1926-cı ildə 377 nəfər, 1931-ci ildə 471 nəfər (415, s.26-27, 112-113), 1987-ci ildə 1780 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ildən noyabr - dekabr aylarında kəndin bütün əhalisi ermənilər tərəfindən zorla və qırğınlarla qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Kənd Miskin Abdalın babası Sarı Yaqub tərəfindən salındığı üçün onun adı ilə adlandırılmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Cqazadzor qoyulmuşdur.

**Sarıyal** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda təpə. Rayondakı Toxluca kəndinin ərazisində yerləşir. Oronim qədim türk dilində «iri, nəhəng, uca, hündür, yüksək, dik» mənasında işlənən san sözünə (94, s.74) Azərbaycan dilində «hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı» (10, s.479), «dağın döşü, yamac, təpə» (339, s.648) mənasında işlənən yal sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Sarıyar** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə yerləşir. Erməni mənbələrində kəndin adı Sarılar kimi göstərilir (419, s.51).

Qızılkilsə (Qızıldaş) sovetliyinin tərkibində idi. 1937-ci ilə kimi Cəlaloğlu (Stepanavan) rayonunun tabeliyində olmuşdur.

Kənddə 1886-cı ildə 78 nəfər, 1897-ci ildə 92 nəfər, 1904 - cü ildə 105 nəfər, 1914 - cü ildə 97 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1916-1918-ci illərdə kəndin sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 149 nəfər, 1926-cı ildə 162 nəfər, 1931-ci ildə 181 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1988-ci ilə kimi kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1988-ci ilin sonlarında Ermənistan dövləti kəndin sakinlərini tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi burada ermənilər məskunlaşıb.

Toponim rəng bildirən sarı sözü ilə qədim türk dilində «yarğan» mənasında işlənən yar (299, s.238) birləşməsindən əmələ gəlmişdir. Kəndin ərazisindəki torpaq san rəngli süxurlardan ibarətdir. Ona görə də kənd Sarıyar adlarıdırılıb. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidenitinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Apavan qoyulmuşdur.

**Sarıgah** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd.

Toponim qədim türk dilində «iri, nəhəng, uca, hündür, yüksək, dik» mənasında işlənən sarı sözü ilə (95, s.275) «qayalıqda, dağda təbii və ya süni oyuq, mağara» mənasında işlənən kah // kaha sözünün (11, s.26) birləşməsindən əmələ gəlib «böyük mağara yanında salınan kənd» mənasını ifadə edir. Deməli, toponimin ikinci komponenti gah kah sözünün fonetik variantıdır və sözdə k~g səs əvəzlənməsi baş vermişdir. Bu hadisə Azərbaycan dili üçün qanunauyğun haldır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 10.V.1951-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Sangyuğ qoyulmuşdur.

**Sarıgüney -** İrəvan quberinyasının Bayazid qəzasında, indiki Axta (Razdan) rayonundakı Qorçulu kəndinin qərbində sahə. Mikrotoponim. Toponim qədim türk dilində «çöl, tarla, sahə» (359, IV (1), s.315) mənasında işlənən sara (sarı) və «cənub gün düşən yer, gün tutan yer, günəşli yer» (12, s.214) mənasında işlənən güney sözlərinin birləşməsindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb oronimdir.

**Sarıgüney -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda təpə. Rayondakı Toxluca kəndinin şimalında yerləşir.

**Sarımsaxlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonunda kənd. Rayon mərkəzindən 13 km məsafədə, Pəmbək çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Sarmusaxlı formasında qeyd edilmişdir (348, s.219).

Toponim yabanı bitki adı bildirən **sarımsaq** sözünə çoxluq,cəmlik bildirən -lı şəkilçisinin artırılması əsasında yaranmışdır. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Karaberd (Daşqala) qoyulmuşdur.

**Sarınər -** Yelizavetpol (Gəncə) quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda gədik.

**Sarıxanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 1416 km cənub-şərqdə, Araz çayının sahilində, Vedi çayından axan arxın yaxınlığında, Əliməmməd kəndinin yanında yerləşirdi. Kənddə 1873 - cü ildə 288 nəfər, 1886-cı ildə 338 nəfər, 1897-ci ildə 358 nəfər, 1904 - cü ildə 160 nəfər, 1914 - cü ildə 176 nəfər, 1916-cı ildə 204 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ilin yazında kəndin sakinlərini tam surətdə ermənilər tərəfindən qovmuşdur. Həmin vaxtdan kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim təklə türk tayfasının bir qolunu təşkil edən sarıxanlı etnonimi (286, s.72) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Sarıcalar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 8 km cənub-qərbdə, Zəngi çayının yanında yerləşirdi. Zəngibasar rayonu yaradılanadək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.218) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Saracalar formasında verilir (415, s.50).

Kənddə 1831-ci ildə 107 nəfər, 1873 - cü ildə 354 nəfər, 1886-cı ildə 440 nəfər, 1897-ci ildə 460 nəfər, 1904 - cü ildə 638 nəfər, 1914 - cü ildə 811 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə kənd sakinləri ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar doğma yurdlarına dönə bilmişdir.

Burada 1922-ci ildə 207 nəfər, 1926-cı ildə 224 nəfər, 1931-ci ildə 168 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə kəndin sakinləri 1948-1949 - cu illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılıb Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Kəndin ərazisi Həbilkəndə (Kalinin adına qəsəbə) birləşdirilimişdir.

Toponim sarıcalılar türk tayfasının adı (207, s.104-105; 213, s.14) əsasında yaranmışdır. «Sarıcalı tayfasına mənsub yer» mənasını ifadə cdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Satanağac -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə, Göyçə gölünün yaxınlığında yerləşir. Kəndin adı təhrif edilərək Satanaxaç kimi də işlədilir. Kəndin digər adı Hacı Qərib olmuşdur (415, s.26).

Kənddə 1873 - cü ildə 132 nəfər, 1886-cı ildə 214 nəfər, 1897-ci ildə 299 nəfər, 1908-ci ildə 343 nəfər, 1914 - cü ildə 659 nəfər, 1916-cı ildə 430 nəfər, 1919 - cu ildə 360 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin yazmda - aprelin 13-20-də kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur (309, s.305). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 300 nəfər, 1926-cı ildə 327 nəfər, 1931-ci ildə 411 nəfər (415, s.26-27, 112-113), 1939 - cu ildə 481 nəfər, 1959 - cu ildə 562 nəfər, 1979 - cu ildə 1223 nəfər (427, s.919), 1987-ci ildə 1890 nəfər (85, s.291) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın axırlarında və dekabrın əvvəllərində Ermənistan dövləti kəndin köklü sakinləri olan azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi ermənilər yaşayır. Toponim türk dilində «çəpər», «hasar» mənasında işlənən sadan (əsil sedan) sözünə (359, IV (1), s.484), «Tir, dirək, taxta» mənasında ifadə edən ağac sözünün (9, s.37) qoşulması əsasında formalaşmışdır.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Güney qoyulmuşdur. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilib Arequni adlandırılmışdır.

**Sahatlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində Sohutlu (Согутлу) formasında (348, s.227) qeyd edilmişdir. Tarixən burada azərbaycanlılar yaşamışdır. 1840-cı illərdə buraya kürdlər köçürülmüşdür. 1930 - cu illərdə kənd ləğv edilmişdir.

Toponim azərbaycanlıların etnogenizində iştirak etmiş saatlı türk tayfasının adı (245, s.44; ASE, VIII c., B., 1984, s.242) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Saçlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 26 km məsafədə, Abaran çayının sol qolu üstündə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.113), Qafqazın 5 verstlik xəritəsində (348, s.22) qeyd edilmişdir. Kəndin digər adı Sacılı olmuşdur (415, s.4). Z. Qorqodyanın əsərində kəndin qədim adının Sacılı olduğuna əsaslanıb qeyd edə bilərik ki, toponim Sacilər (> saclı >saçlı - İ.B.) türk adı (63, s. 196212) əsasında formalaşmışdır. Tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 15. VII. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Noraşen (Yeni kənd) qoyulmuşdur.

**Sac kaha -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun Ağudi kəndində dağ

Oronim Azərbaycan dilində işlənən sac və mağara mənasında işlənən kaha sözündən əmələ gəlmişdir. Kaha «sac şəklində nəhəng daşlardan tağbənd edilmişdir» (İ. Qasımlı. Yurd düşüncələri, «Vətən həsrəti» qəz., 18. VI. 1993). Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Seyidli - Ağsaxlı -** İrəvan xanlığının 15 mahalından biri. Bu mahalda Dian, Qaracalar, Avan, Maxta, Kum, Qoytul, Ucan, Persi, Dığır, Kotanlı, Nəzrəvan, Sarıgöl, Uşi, Babakişi, Kirəcli, Kələşkənd, Kiçikkənd, Qəzənfər kəndləri daxil idi (386, s.575-579).

İrəvan xanlığı ləğv edildikdən sonra mahal da ləğv edilmişdir. Mahalın adı iki türk tayfasının adını (seyidli və axsaqlı) əks etdirir (245, s.44, 55). Etnotoponimdir. Qurulşca mürəkkəb toponimdir.

**Seyidkənd -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 810 km cənub-qərbdə yerləşir. Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Kəndin bir adı «Qarapapaq kəndi» olmuşdur (415, s.50). Qafqazın 5 verstlik xəritəsində (348, s.223) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 130 nəfər, 1873 - cü ildə 345 nəfər, 1886-cı ildə 346 nəfər, 1897-ci ildə 483 nəfər, 1904 - cü ildə 410 nəfər, 1914 - cü ildə 705 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 99 nəər, 1926-cı ildə 131 nəfər, 1931-ci ildə 118 nəfər azərbaycanlı

yaşamışdır (415, s.50-51, 130-131). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə kəndin əhalisi zorla Azərbaycana köçürülmüşdür. 1952-cı ildə geri qayıdıb rayondakı Kalinin adına qəsəbədə yaşamışlar. 1988-ci ildə Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim seyid etnonimi ilə (245, s.55) kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlib «seyid tayfasının yaşadığı kənd» deməkdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Seyid kotanlı -** İrəvan quberniyasının İrəvan qəzasında,indiki Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 30 km şimal-şərqdə yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.223) qeyd edilmişdir.

1930 - cu illərdə Vedi (Ararat) rayonunun inzibati - ərazi>bölgüsünə daxil olmuşdur (415, s.88).

Kənddə 1873 - cü ildə 156 nəfər, 1886-cı ildə 201 nəfər, 1897-ci ildə 279 nəfər, 1904 - cü ildə 128 nəfər, 1914 - cü ildə 377 nəfər, 1916-cı ildə 356 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci illərdə ermənilər azərbaycanlılar qırmış və onları kəndlərindən qovmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılardan sağ qalanlar kəndlərinə dönə bilmişdir. 1922-ci ildə kənddə 63 nəfər, 1926-cı ildə 67 nəfər, 1931-ci ildə 106 nəfər (415, s.88-89, 156-157), 1939 - cu ildə 221 nəfər (85, s.232-233) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri tarixi-etnik torpaqlarından deportasiya olu| naraq Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim ərəblərin Qürreyş qəbiləsindən olan seyid etnonimi ilə (245, s.55) kotanlı türk etnoniminin (286, s.50) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Seyidlər** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd olmuşdur. Basarkeçər rayonundakı Nərimanlı kəndinin yaxınlığında yerləşirdi.

Z.Qorqodyanın əsərində Seyidner (erməni dilində «er» cəmlik bildirir) förmasmda qeyd edilmişdir (415, s.26).

Kənddə 1926-cı ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27). 1930 - cu illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim ərəbləri Qürreyş qəbiləsindən olan seyidlər tayfa adı (245, s.55) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Seyidlər kəndi** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonu ərazisində kənd. Rayon mərkəzindən 9 km şimal-qərbdə yerləşir. XIX əsrin əvəllərində kəndin adı Vardanazor kimi rəsmiləşdirilimişdir (415, s.68).

Kənddə 1831-ci ildə 36 nəfər, 1873cü üdə 316 nəfər, 1886-cı ildə 480 nəfər, 1897-ci ildə 506 nəfər, 1904 - cü ildə 439 nəfər, 1914 - cü ildə 1053 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış, qırğınlarla sakinləri deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 177 nəfər, 1926-cı ildə 180 nəfər, 1931-ci ildə 243 nəfər azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1988-ci ilin noyabr ayında Ermənistan dövləti kəndin sakinlərini - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya etmişdir. İndi burada ermənilər yaşayır.

Toponim seyidlər tayfa adı (245, s.55) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Seyid Məmiş** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd olmuşdur. Rayondan 1920 km şiaml-qərbdə, Səlim çayının sahilində, rayondakı Ağkənd kəndinin yaxınlığında yerləşirdi (85, s.365).

Toponim seyid nəsil adı ilə Məmiş şəxs adı əsasında yaranmışdır. «Seyid nəslindən olan Məmişin kəndi» mənasını bildirir. Antorpotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Seldağılan -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-qərbdə, Ağbaba dağının ətəyində yerləşir.

Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kəndin sakinləri kimi qarapapaqlar göstərilir və onlar müstəqil bir xalq kimi təqdim edilir (415, s.20). Burada yaşayan qarapapaqlar müstəqil xalq yox, azərbaycanlılarn etnoqrafik qruplarından biridir.

Kənddə 1886-cı ildə 231 nəfər, 1887-cı ildə 360 nəfər, 1908-ci ildə 359 nəfər, 1914 - cü ildə 414 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar öz doğma torpaqlarından qovulmuşlar.

Toponim «su daşqını» mənasında işlənən sel sözü ilə dağılan feli sifətinin birləşməsindən əmələ gəlmişdir. «Böyük Ağbaba və Kiçik Ağbaba dağlarından axıb gələn güclü sel suları göstərilən kəndin yanında müxtəlif tərəflərə dağılıb selovlarla axdığı üçün seldağılan demişlər» (35, s.180). Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Səbzikar -** İrəvan şəhərində məhəllə. Burada iki böyük bostan olmuşdur. Bostanın biri Kərbəlayi Məhəmmədə, digəri isə Hacı Abbasa məxsus olmuşdur (373, s.114). Məhəllənin adı«səbzi» bitki adı əsasında yaranıb «səbzi becərənlər» mənasını bildirir. Məhəllə adı nəsil adını ifadə edir.

**Sələng çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda çay. Rayondakı Nüvədi kəndinin ortasından axır. E. Əzizov qeyd edir ki, çayın qədim adı Seleneçay olmuş, sonralar Selengə - Seleng formasma çevrilmişdir. Daha sonra yerli şivənin xüsusiyyətinə uyğun olaraq Sələnc şəklinə düşmüşdür ki, Nüvədi kənd şivəsinə g~c səsəvəzlənməsi qanunauyğun haldır. Hidronim monqol dilində «rahat, geniş, sakit» mənasında işlənən selenqe sözü əsasında yaranmış:dır (109, s.27). Çayın ilkin doğru adı «Sələngçay»dır. Bizim fikrimizcə hidronim türk dilində «səs, səs-küy» mənasında işlənən sələng (salank) sözü (359, ll(1), 479) əsasında formalaşmışdır. Quruluşca mürəkkəb hidronimdir.

**Səməd ağa dərəsi -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 22-24 şimal-şərqdə, Pəmbək kəndinin yaxınlığında yerləşmişdir. Sonra bu kəndin əsasında Dərə kəndi salınmışdır. Toponim antroponim əsasında yaranmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Səngər -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tabeliyində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun tabeliyindən Alagöz (Araqadz) rayonunun tabeliyinə keçirilmişdir. Toponim qədim türk dilində «dağ burnu» mənasında işlənən səngər (sengir) sözü (299, s.495) əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Səncərli -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Kəndin digər adı «Səncər oğlu»dur (s.60). Rayon mərkəzindən 35 km şimal-qərbdə yerləşirdi. 1926-cı ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). 1930 - cu illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim səncərli türk etnonimi əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Sərdarabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda qala. Qala İrəvan xanı tərəfindən tikilmişdir.

**Sərdarabad -** XVIII ortalarında yaradılan İrəvan xanlığının 15 mahalından biri. İrəvan Rusiya tərəfindən işğal edildikdən sonra 1827-cı ildə xanlıq üsuli-idarəsi ləğv edilmişdir. Bununla bağlı Sərdarabad mahalı ləğv edilmişdir. Sərdarabad mahalına Şəfiabad, Yuxarı Qarxın, Aşağı Qarxın, Türkmənli, Uzunoba, Çubuxçu, İydəli, Canfıda, Quzugüdən, Qurduqulu, Kərim arx, Sərdarabad, Molla Bayazit, Keçili, Evcilər, Xatunarx, Ağcaarx kəndləri daxil idi. «Sərdarabad» adı sonradan - indiki Ermənistan ərzisində sovet hökuməti qurulandan sonra yaradılan Sərdarabad rayon adında öz əksini tapmışdır.

Sərdarabad mahalının ərazisi indiki Oktemberyan rayonunun ərazisini əhatə edirdi.

**Sərdarabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.219) qeyd edilmişdir. Burada ermənilərlə yanaşı 1897-ci ildə 44 nəfər azərbaycanlı yaşamışdır (415, s.64-65). Azərbaycanlılar XX əsrin əvvəllərində - 1905-1906-cı illərdə ermənilərin törətdikləri qırğınlar nəticəsində deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim «bir vilayəti idarə edən və dövlət başçısı adından sərəncamı vermək hüququqna malik olan hakim» mənasında işlənən sərdar sözü ilə (12, s.59) abad sözünün birləşməsindən əmələ gəlib, «Sərdarın abad etdiyi, saldığı kənd» mənasını verir. Toponimin tərkibindəki «sərdar» İrəvan xanının adını əks etdirir. Həmin ərazi İrəvan xanının mülkü olmuşdur. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Oktember (Böyük Oktyabr Sosialist inqilabının şərəfinə)qoyulmuşdur

**Sərdarabad -** İndiki Ermənistanda inzibati rayon. 9 sentyabr 1930 - cu ildə yaradılmışdır. Rayon Ağrı (Ararat) vadisinin şimal-qərbində, Araz çayının sol sahilində yerləşir. İrəvan xanı Hüseyn Əli xan rayonun ərazisində qala tikdirmişdir. Həmin qala Sərdarabad qalası adlanmışdır. 1827-cı ildə indiki rayonun ərazisi Rusiya tərəfindən işğal edilmişdir. 1850-ci ildən 1930 - cu ilə kimi İrəvan quberniyasının Eçmiədzin qəzası adlı qurumun tərkibində olmuşdur.

Erm. SSR AS RH-nin 9.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Böyük Oktayabr Sosialist inqilabının şərəfinə Oktemberyan qoyulmuşdur.

**Sərdar karvansarası -** İrəvan şəhərində karvansara

**Səfərəli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348,s.221)

Kənddə 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdıri(415, s.88-89). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə erməni qırğınlarının nəticəsində azərbaycanlılar kənddən deportaisiya olunmuş və kənd 1908-ci ildə ləğv edilmişdir. İndi xarabakənddir.

Toponim səfərəli nəsil adı əsasında əmələ gəlmişdir. Pamronim toponimdir. Quruluşca sadə toponimdir.

**Səfiabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında,indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. 1930 - cu illərdə Qurduqulu rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində kəndin adı Sefiabad, Səfiabad formalarında göstərilir (415, s.64). Rayon mərkəzindən 14 km cənub-şərqdə,Böyük Qarasu çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəaritəsində (348, s.221) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 49 nəfər, 1873 - cü ildə 190 nəfər, 1886-cı ildə 145 nəfər, 1897-ci ildə 223 nəfər, 1908-ci ildə 203 nəfər, 1914 - cü ildə 234 nəfər, 1916-cı ildə 218 nəfər, 1918-ci ildə 243 nəfər, 1919 - cu ildə 1640 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.64-65, 140-141). 1919 - cu ilin sonunda kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş (309, s.221) və buraya Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. 1930 - cu illərdə ləğv edilmişdir.

XVII əsrin 70-cı illərində Çüxur-Səd bəylərbəyi Səfixan Qarasu çayından susuz torpağa arx çəkdirmiş və həmin yerdə, kənd saldırmışdır. Həmin kənd Səfiabad adlanmışdır (327, s.55). Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Səfolar -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Arpaçayın yaxınlığında yerləşirdi. Toponim səfolar nəsil adından əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Siznək -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonu ərazisində kənd. Rayon mərkəzindən 4 km cənub-şərqdə, Oxçu çayının sol sahilində yerləşir.

Kənddə 1897-ci ildə 179 nəfər, 1904 - cü ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1914 - cü ildən azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri öz yurd-yuvasına dönə bilir. Burada 1922-ci ildə 76 nəfər, 1926-cı ildə 76 nəfər, 1931-ci ildə 121 nəfər (415, s.60-61, 136-137), 1959 - cu ildə 409 nəfər, 1979 - cu ildə 432 nəfər (85, s.154) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olundular. İndi burada yalnız ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «duman, çən» mənasında işlənən sis sözünə -nək şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Sis sözü Siznək toponimində «siz» formasına düşmüşdür. s~z səs əvəzlənınəsi Azərbaycan dili üçün qanunauyğun haldır. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Sirkətas -** Yelizavetpol (Gəncə) quberniyasının Zənəgəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir.

Burada ermənilərdən başqa, 1926-cı ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.60). 1929 - cu ildə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim türk dilində «dərə», «təpə», «yarğan» mənasında işlənən sir (< sır) sözü ilə (337, s.240; 339, s.505) türk dilində «daş, qaya» mənasında işlənən tas sözünün (339, s.546) birləşməsindən əmələ gəlmişdir. Fikrimizcə, «təpə, dərə, kiçik təpə, yarğan» mənasında işlənən sir (> sır) sözü

Azərbaycan dilində «dağ beli, təpə, dağın hündür yamacı» mənasında işlənən sırt sözündə (253, s.64-65) öz izini qoruyub saxlamışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponinıdir. Kəndin adı 1920-ci ildə dəyişdirilib Xdrans qoyulmuşdur.

**Sisyan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında mahal. İndiki Ermənistanda rayon adı. Azərbaycanın qədim ərazilərindən biridir. 1920-ci ildən sonra indiki Ermənistana verilmişdir. 1930 - cu il sentyabrın 9-da rayon kimi təşkil edilmişdir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə qeyd edilmişdir (143, s.182).

Toponim qədim türk tayfalarından si və sak etnonimlərindən (402, s.9193) əmələ gəlmişdir. Toponim sonundakı «an» cəmlilik anlayışı bildirən şəkilçidir. «Si sülaləsindən olan sakların ölkəsi» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Siçanlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd olmuşdur. Təzəkəndin yanında yerləşmişdir.

Kənddə 1886-cı ildə 302 nəfər, 1897-ci ildə 310 nəfər, 1904 - cü ildə 499 nəfər, 1914 - cü ildə 582 nəfər, 1916-cı ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.66-67, 142-143). 1918-ci ildə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. 1918-ci ildə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim oğuzların bəydili tayfasına mənsub olan sincan etnoniminə (238, s.290) mənsubluq bildirən -lı şəkilçisinin qoşulması ilə düzəlmişdir. Təbii ki, sincan etnonimi -lı şəkilçisi qəbul edərək yerli tələffüzə uyğunlaşmış və «siçanlı» formasında toponim yaradıcılığında iştirak etmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Siçanlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda dağ. Rayondakı Siçanlı kəndinin ərazisində yerləşir. Oronim sincan etnonimi (238, s.290) əsasında düzəlmişdir. Etnooronimdir.

**Sıçanlı -** lrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talın rayonunda kəndə. Rayon mərkəzindən 25 km şərqdə, Alagöz dağının cənub-qerbində Qafqazın 5verstlik xəritəsində (348, s.225) qeyd edilmişdir.

Toponim oğuzlarin beydilli tayfasından olan sincan (>sıçan - İ. B.) etnoniminə (238, s. 290) mənsubluq bildirən -lı şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir Etnotoponimdir. Quruluşca düzəltmə toponimidir.

Erm. SSR AS RH-nin 3 1 1925-ci fərmanı ilə adı dəyişdirilib Avtona qoyulmuşdur.

**Sınıq -** Qars Vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Mögüz çayının sol tərəfində yerləşir Erməni mənbələrində Snığ kimi qeyd edilmişdir (415,s.20,104). Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində göstərilir ki, kənddə qarapapaqlar yaşamışdır ve qarapapaqlar müstəqil xalq kimi verilir (415, s.20, 105). Halbuki türk tayfalarından biri olmaqla azərbaycanlıların etnogenizində iştirak etmişdir.

Kənddə 1886-cı ildə 130 nəfər 1897-ci ildə 118 nəfər 1908-ci ildə 164 nəfər 1914 cü ildə 241 nəfər azərbaycanlı yaşamışdır (415, s.20 104-105). Kəndin əhalisi 1915-cı ildə ermənilər tərəfindən qovulmuş 1920-cı ildə kənd xarabalığa çevrilmişdir. Sonradan 1930-cu ildə kənddə ermənilər məskunlaşmışdır.

Toponim <<kənd>>, <<şenlik,yaşayış məntəqəsi>> mənasında işlənən şınıx sözü əsasında formalaşmışdır. Azərbaycan, o cümlədən türk dillərində <<ş>>samitinin <<s>> samitinə keçməsi qanuna uyğun haldır (Н.А.Баскаков. Историко-типологическая фонология тюркских языков, М., 1988, с.128).Sadə quruluşlu toponimdir.

**Syunik -**Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayon ərazisində kənd olmuşdur. Burada erməmlərlə yanaşı 1897-ci ildə 13 nəfər 1926-cı ildə 5 nəfər, 1931-ci ildə 21 nəfər Azərbaycanlı yaşamışdır (415, s. 60-61, 136-137). Sonralar, 1940-cı illərin əvvəllərində Azərbaycanlılar qovulmuşdur.

Toponim si (>syu) qədim türk tayfasının adına (402, s.9193) urartu dilində «xanədan, sülalə» mənası ifadə edən «uni» sözünün (402, s.93) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sunik -** Albaniyanın əyaləti. İndiki Ermənistanın Sisyan, Göyçə mahalının bir hissəsini əhatə edirdi. Mənbələrdə Siuni, Syunik formalarında da qeyd edilir. Toponim si adlı qədim türk tayfasının adına (402, s.9193) urartu dilində «xanədan», «sülalə» mənasında işlənən uni sözündən (402, s.93) əmələ gəlib. «Si tayfasının ölkəsi» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürkkəb toponimdir.

**Soğanlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda yaylaq. Rayondakı Qovşuq kəndinin cənubunda yerləşir. Soğan (yabanı soğan) bitki adına -lı şəkilçisinin artırılması ilə yaranmışdır. Fitooronimdir. Quruluşca düzəltmə oronimdir.

**Solak -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Zincirli dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.53) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır.

1828-ci il Türkmənçay müqaviləsindən sonra, 1828-30 - cu illərdə kəndə Türkiyədən ermənilər köçürülmüşdür (386, s.591-594).

Kənddə 1831-ci ildə 94 nəfər azərbaycanlı yaşamışdır (386, s.591). Ermənilər burada 1840-cı illərdə tam məskunlaşdıqdan sonra azərbaycanlılar 1850-ci illərdə qovulmuşlar. İndi yalnız ermənilər yaşayır.

Toponim solak türk tayfasının adı əsasında (271, s.106)əmələ gəlmişdir. Türk dilində solak «qulağı uzununa kəsik»mənasını bildirir (359, IV (2), s.550). Bu etnonim XVII əsrin I yarısında yaşamış məşhur osmanlı tarixçisi Mehmed Solakzadənin soyadında öz əksini tapmışdır (Mehmed Solak-zadə. Tarix,B., 1992). Türkiyənin Qoca nallı obasının Pinarbaşı qəzasındakı Mərkəz nahiyyəsində Solaqlar kəndi var (238, s.277). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Soylan -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd. İndi Paşalı (Əzizbəyov, Vayk) rayonunun mərkəzidir. Arpaçayın sol tərəfində, Keşişkənd (Yeğeqnadzor) - İstisu (Cermuk) yolunun üstündə, İrəvan şəhərindən 139 km məsafədə yerləşir.

1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Soyulan (143, s.59), Qafqazın 5 verstlik xəritəsində Soylan kimi (348, s.227) qeyd edilmişdir. Erməni və XIX əsr rus mənbələrində kəndin qədim adının Soylanlı olduğu göstərilir (415, s.90; 386, s.619).

Burada 1831-ci ildə 58 nəfər, 1897-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar sıxışdırılıb qovulmuş və buraya ermənilər köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim söklən (> soylan - İ. B.) türk tayfası adından (238, s.180, 187) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 12. X. 1956-cı il fərmanı ilə adı dəyişdirilib Əzizbəyov, Ermənistan prezidentinın 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilib Vayk qoyulmuşdur.

**Soyuqbulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonundakı Çaxmaq kəndində bulaq. Suyunun sərinliyinə, buzluluğuna görə Soyuqbulaq adlanmışdır. Quruluşca mürəkkəb hidronimdir.

**Soyuqbulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. Erməni mənbələrində Sovux bulağ formasında qeyd edilir (415, s.150). Rayon mərkəzindən 11 km şimal-qərbdə, Qaraarxac dağının ətəklərində yerləşir. 1937-ci ilə kimi Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur.

Kənddə 1886-cı ildə 159 nəfər, 1897-ci ildə 154 nəfər, 1904 - cü ildə 230 nəfər, 1914 - cü ildə 125 nəfər, 1916-cı ildə 375 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 402 nəfər, 1926-cı ildə 405 nəfər, 1931-ci ildə 420 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1988-ci ilin axırlarında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «sərin» mənasında işlənən soyuq sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Paqaxbyur qoyulmuşdur.

**Soyuq bulaq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Zəngi çayının sağ axarında, Soyuqbulaq çayının yuxarısında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.228) qeyd edilmişdir. Erməni mənbələrində Sovuq bulaq formasında göstərilir (415, s.18, 102).

Kənddə 1831-ci ildə 43 nəfər, 1897-ci ildə 186 nəfər azərbaycanlı və müsəlman kürdü yaşamışdır (415, s.18-19, 102-103). Erməni mənbələrində kəndin sakinləri kimi yalnız kürdlər

göstərilir (415, s.19, 102-103). 1926-cı ildə kənddə bir nəfor azərbaycanlı yaşamışdır. Görünür, faktlar təhrif edilmişdir.

Toponim Azərbaycan dilində sərin mənasında işlənən soyuq sözü ilə bulaq hidroniminin əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sonqurlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 9 km qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.128) qeyd edilmişdir.

Toponim oğuzların bayandır, beçənə, çavuldur, çəpni tayfalannın onqonu olan sunqur quş adı (238, s.217) əsasında yaranan sonqurlu tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 31. V. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Hayrenyas qoyulmuşdur.

**Sotk -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda çay. Hidronim sadak türk tayfa adını (168, s. 105107) əks etdirir. Yəni sotk sadak türk tayfa adının erməni mənbələrindəki fonetik formasıdır. Etnohidronimdir. Quruluşca sadə hidronimdir.,

**Sofulu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisiyan rayonunda kənd. Rayon mərkəzindən 18 km cənub-qərbdə yerləşir. Kənddə yalnız azərbaycanlılar yaşamışdır. Təkcə 1959 - cu ildə burada 1816 nəfər azərbaycanlı yaşamışdır (85, s.190). 1988-ci ilin noyabr ayında azərbaycanlılar qırğınlarla qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim sofulu türk tayfasının adı (329, s.ll) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Kəndin adı təhrif edilərək Soflu formasına salınmışdır.

**Söyüdlü -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 35 km şimal-qərbdə, Arpagöldən 10 km qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.124), Qafqazın 5 verstlik xəritəsində (348, s.227) qeyd edilmişdir. Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Lakin erməni mənbələrində.

Kəndin sakinləri millət kimi azərbaycanlılar yox, qarapapaqlar göstərilir (415, s.20, 105). Halbuki qarapapaqlar azərbaycanlılarn etnoqrafik qruplarından biridir.

Kənddə 1886-cı ildə 73 nəfər, 1897-ci ildə 118 nəfər, 1908-ci ildə 89 nəfər, 1914 - cü ildə 179 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1916-cı ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. 1920-ci ildə kənd xarabalığa çevrilmişdir.

Toponim oğuzların söyüt etnonimi (238, s.326) əsasında əmələ gələn söyüdü tayfa adından formalaşmışdır. N. Sevinc Türkiyənin Maraş, Eçgani və Diyarbəkir bölgələrində söyüdlü (sogütlü) tayfasının yaşadığını yazır (407, s.103). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Söyüdlü -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 7 km məsafədə, Qaranqu çayının sol tərəfində yerləşir.

Toponim oğuz tayfalarından olan söyüdlü etnonimi (238, s.326; 407, s.26, 103) əsasında formalaşan etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 2.III.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Sarnaxpyur (Soyuqbulaq) qoyulmuşdur

**Subatan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənubda, Qızıl bulaq çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.228) qeyd edilmişdir. Kəndin adı XIX əsr rus dilli mənbələrdə Subbotan formasında da qeydə alınmışdır (Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 1342).

Kənddə 1873 - cü ildə 180 nəfər, 1886-cı ildə 263 nəfər, 1897-ci ildə 306 nəfər, 1908-ci ildə 368 nəfər, 1914 - cü ildə 429 nəfər, 1916-cı ildə 301 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113).

1919 - cu ilin aprel ayında azərbaycanlılar qırğınlarla öz kəndlərindən qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişdir. 1922-ci ildə burada 206 nəfər, 1926-cı ildə 349 nəfər, 1931-ci ildə 259 nəfər azərbaycanlı yaşamışdı (415, s.26-27, 112-113). Azərbaycanlılar 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «çay» mənasında işlənən su (359, IV (1), s.746) və batan feli sifətin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Keğakar qoyulmuşdur.

**Suvanverdi -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 26 km məsafədə, Arpaçayın yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal

dəftəri»ndə Sübhanverdi kimi (143, s.130), Qafqazın 5 verstlik xəritəsində Suvanverdi formasında (348, s.230) qeyd edilmişdir.

Toponim Sübhanverdi şəxs adı əsasında formalaşmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 3.ll.1947-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək Lusaxpyur qoyulmuşdur.

**Suvaranats -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 35 km məsafədə yerləşir. Kəndin adı Azərbaycan mənbələrində Suvarı formasında qeyd edilir (231, s.53).

Toponim birinci dəfə Ptolomey tərəfindən adı çəkilən suvar türk etnonimi (287, s. 127-128) əsasında əmələ gəlmişdir.

Toponimin sonundakı -ants erməni dilində mənsubluq anlayaşını ifadə edir və Azərbaycan dilində mənsubluq bildirən -lı şəkilçisinin vəzifəsini yerinə yetirir. Deməli, Suvarants «suvar tayfasına mənsub olan yer» anlamını verir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Sultanabad -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-qərbdə, Arpagölün yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.231).

Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni mənbələrində kənddə yaşayanların qarapapaqlar olduğu göstərilir (415,s.20,106).

Qarapapaqlar azərbaycanlıların etnoqrafik qruplarından biri olmuşdur və türk tayfalarından biridir.

Kənddə 1886-cı ildə 171 nəfər, 1897-ci ildə 249 nəfər, 1908-ci ildə 286 nəfər, 1914 - cü ildə 384 nəfər qarapapaqlar (azərbaycanlı - İ.B.) yaşamışdır (415, s.20-21, 106-107). 1916-cı ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşdur. 1920-ci il noyabrın 29-da indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 144 nəfər, 1926-cı ildə 198 nəfər, 1931-ci ildə 224 nəfər (415, s.20-21, 106-107), 1970-ci ildə 219 nəfər, 1987-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır. 1989 - cu ilin qışında - yanvar ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuş, kəndə ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim iki sözün - şəxs adı bildirən Sultan və «müntəzəm çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan; şen» (9, s.25) mənasında işlənən abad sözünün birləşməsindən əmələ gəlmiş antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1935-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Şurabad (Sovetabad mənasında) qoyulmuşdur.

**Sultanabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasının, indiki Talin rayonu ərazisində kənd. Alagöz dağının cənub-qərbində yerləşirdi. Kəndin digər adı Məhəmmədabad olmuşdur (415, s.36).

Kənddə 1873 - cü ildə 49 nəfər, 1897-ci ildə 22 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.36-37, 118-119). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə yerli sakinlər - azərbaycanlılar tarixi-etnik torpaqlırandan deportasiya edilmiş və 1906-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Sultan şəxs adı ilə abad sözünün birləşməsindən əmələ gəlib «Sultanın tikdiyi, abad etdiyi kənd» mənasını ifadə edir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sultanbəy** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov , Vayk) rayonunda kənd. Rayon mərkəzindən 20 km cənub-şərqdə yerləşir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra (1828-ci il ) azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və 1829 - cu ildə İranın Salmas vilayətindən köçürülən ermənilər burada yerləşdirilmişdir (427, s.932).

Kənd Sultan adlı bəy tərəfindən salındığı üçün «Sultanbəy kəndi» adlanmışdır. Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilib Bartsiruni qoyulmuşdur.

**Sultanəli qışlağı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Kəndin başqa adları Əhmədli, Canəhməd olmuşdur (415, s.26). Rayon mərkəzindən 14 km şimal-şərqdə, Ağ yoxuş aşırımının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.231) qeyd edilmişdir.

Erməni mənbələrində Canəhməd kəndi kimi öz əksini tapmışdır(415, s.26).

Kənddə 1873 - cü ildə 245 nəfər, 1886-cı ildə 348 nəfər, 1897-ci ildə 442 nəfər, 1908-ci ildə 422 nəfər, 1914 - cü ildə 523 nəfər, 1916-cı ildə 475 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ildə azərbaycanlılar qırğınlarla ermənilər tərəfindən qovulmuşlar. 1920-ci ildə indiki Ermənistanda sovet hakmiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanları yaranan sakitlikdən istifadə edərək öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə burada 194 nəfər, 1926-cı ildə 335 nəfər, 1931-ci ildə 383 nəfər (415, s.26-27, 112-113), 1939 - cu ildə 339 nəfər, 1959 - cu ildə 337 nəfər, 1979 - cu ildə 589 nəfər (427, s.918), 1987-ci ildə 1500 nəfər (85, s.291292) azərbaycanlı yaşamışdır. 1988-ci ildə noyabr ayının axırlarında kəndin əhalisi ermənilər tərəfindən qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim şəxs adı əsasında formalaşmışdır. Kənd Sultanəli adlı şəxs tərəfindən salındığı və onun qışlaq yeri olduğu üçün Sultanəli qışlağı adlanmışdır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı əvvəlcə dəyişdirilərək Canəhməd qoyulmuşdur. Erm. SSR AS RH-nin 3.VII.1969 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Günəşli, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilib Kutakan adlandırılmışdır.

**Sultan yurdu -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində yurd. Şəxs adı əsasında yaranan antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Sultanlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 32 km şimal-şərqdə, Bazarçay kəndinin 8 km-də yerləşirdi. XIX əsrin əvəllərində ləğv edilmişdir. Toponim türk mənşəli sultanlı etnonimi ,(329, s.13) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Sultan-Səlim -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd. Toponim XV əsrdə yaşamış türk sultanı Sultan Səlimin adı ilə bağlıdır. Ermənilər kəndə «itburnuluq» adı verən Masrik adını qoymuşlar (Həmzə Vəli. Tarixdən gələn səslər, «Vətən səsi» qəz., 1.VIII. 1991). Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Sultan calası -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda sahə, yer. Rayonun Toxluca kəndinin ortasında yerləşir. Toponim Sultan şəxs adı ilə Azərbaycan dilinin qərb qrupu dialektlərində «çay ətrafında kiçik ağaclı qalın meşə», «kiçik meşə» mənasında işlənən> cala sözünün (8, s.453) birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Sulu karvansarası -** İrəvan şəhərində karvansara.

**Susuz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 16 km məsafədə yerləşir 1918-ci ilin əvvəlində burada 90 nəfər azərbaycanlı yaşamışdır (309, s.220). Kəndin əhalisi 1918-ci ilin fevral-mart ayında ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.220).

Toponim türk dilində «çay, kiçik çay, gölməçə» mənasında işlənən su sözü ilə (339, s.528-529; 299, s.512) -suz şəkilçsinin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə adı dəyişdirilib Tsamakasar qoyulmuşdur.

**Su tökülən -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun Ağudi kəndində dağ.Hidrooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Suxan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Güdgüm kəndinin yaxınlığında yerləşmişdir. Kənddə 1897-ci ildə 32 nəfər, 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). 1930 - cu illərdə kənd ləğv edilmişdir. İndi ölü kənddir. Toponim türk dilində «su» mənasın bildirən suğ (sux) sözünə (299, s.513) -an şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca düzəltmə topnimdir.

**Südlü bulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.113) qeyd edilmişdir. Erməni mənbəyində Suddi bulaq formasında əksini tapmışdır (415, s.4).

Kənddə 1897-ci ildə 70 nəfər, 1914 - cü ildə 28 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 98-99). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq yerli sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «keyfiyyətli, içməyə yararlı, süd kimi ağ» mənasında işlənən südlü sözü ilə bulaq sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Hidrtoponimdir. Quruluşca mürəkkəb toponimdir.

## T

**Tağəmir -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd. Rayon mərkəzindən 16-18 km şimal-qərbdə yerləşirdi.

Kənddə 1831-ci ildə 19 nəfər, 1873 - cü ildə 74 nəfər, 1886-cı ildə 129 nəfər, 1897-ci ildə 163 nəfər, 1904 - cü ildə 194 nəfər, 1914 - cü ildə 255 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 43 nəfər, 1931-ci ildə 51 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). Kollektivləşmə ilə bağlı sakinləri 1930 - cu illərin axırlarında qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «dağ» mənasında işlənən taq // tağ sözü ilə (299, s.526; 337, s.238; 339, s.537; 299, s.375) Əmr şəxs adı əsasında əmələ gəlmişdir. «Əmir dağı yaxınlığında kənd» mənasındadır. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Taya qaya** – Ağbaba-Şörəyel bölgəsində dağ. Hündürlüyü 12-14 m-dir. Oronim «üstüstə yığılmış daş yığmı» mənasında işlənən taya sözü ilə (bu söz ADİL-də (12, s.128) «üst-üstə yığılmış ot, taxıl, saman, odun və s. qalağı, yığını» mənasında izah edilir) Azərbaycan dilində «dağ, kiçik dağ», «sıra dağlardan ayrılmış qol», «dağların müəyyən hissəsində daş süxurlardan olan çətin keçilən yer» mənasında işlənən qaya sözündən (196, s.36) əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Taya qaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). XX əsrin 30 - cu illərində ləğv edilmişdir. Toponim «üst-üstə yığılmış daş yığım» mənasında işlənən taya sözü ilə «dağ, daş, kiçik dağ» mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Taytan -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 4 km cənub-şərqdə, Vedibasar çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.236).

Kənddə 1873 - cü ildə 166 nəfər, 1886-cı ildə 177 nəfər, 1897-ci ildə 316 nəfər, 1904 - cü ildə 262 nəfər, 1914 - cü ildə 288 nəfər, 1916-cı ildə 366 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155).

1918-1919 - cu illərdə azərbaycanlıları ermənilər öz doğma ocaqlırından qovmuşlar. Xaricdən (İran və Türkiyədən) gələn ermənilər bu kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər.

1922-ci ildə burada 183 nəfər azərbaycanlı, 81 erməni, 1926-cı ildə 175 nəfər azərbaycanlı, 114 erməni, 1931-ci ildə 217 nəfər azərbaycanlı, 224 erməni yaşamışdır (415, s.86-87, 154-155). 1988-ci ilin noyabr ayına kimi burada azərbaycanlılar yaşamışdır. Həmin ilin dekabr ayında azərbaycanlılar Ermənistan dövləti tarixi torpaqlarından qovmuşdur. İndi burada yalnız ermənilər yaşayır. Toponim türk dilində «kiçik dağ», «təpə» mənasında işlənən tay (tey) sözü ilə (339, s.539, 548) türk dilində «dərə, dar dərin dərə», «təpə» mənasında işlənən tan (q) < //ton) (q) sözünün (367, 279-280; 339, s.543, 557) birləşməsindən əmələ gəlmişdir. «Tay» coğrafi termin kimi «tərəf, sahil» mənasında da işlənir (253, s.130). Orotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Tayçarıq -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 18 km məsafədə, Misxana çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.236) qeyd edilmişdir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Zaman-zaman azərbaycanlılar qovulmuş, kənddə 1828-1829 - cu illərdə Türkiyədən köçürülən ermənilər məskunlaşdırılmışdır (415, s.591-594). 1926-cı ildə burada ermənilərdən başqa, iki nəfər azərbaycanlı yaşamışdır. 1930 - cu illərdə onlar da qovulmuşdur.Toponim türk dilində «təpə» mənasında işlənən tay (tey) sözü ilə (339, s.548) oğuzların çarık etnonimi (399, I, s.58) əsasında əmələ gəlmişdir. Türkmənlərin tayfalarından birinin də adı «çank» adlanır (271, s.128). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 31. V. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Meğnadzor (Ballı dərə) qoyumuşdur.

**Tala** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində yer. Toponim Azərbaycan dilində «meşədə açıq sahə» mənasında işlənən tala sözü əsasında (253,

s.130) formalaşmışdır. Bu söz türk dilində tala və dala fonetik formalarında işlənərək «düzənlik, çöl» mənalarını ifadə edir (339, s. 169170). Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Tala -** İrəva quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Saral kəndindən cənub-şərqdə yerləşir.

**Talakənd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir. Erməni mənbələrində Tala formasında qeyd edilir (415, s.38; Ermənistan Sovet Ensiklopediyası, III c., İrəvan, 1977, s.129).

Toponim «meşədə ağacsız çılpaq yer, sahə, açıqlıq» mənasında işlənən tala sözü ilə (12, s.130) «yaşayış məntəqəsi»; mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmiş „ dir. Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Ketahovit qoyulmuşdur.

**Talin -** İndiki Ermənistanda inzibati rayon. XIX əsrin 40-50-ci illərindən 1930 - cu ilə kimi rayonun ərazisindən bir hissəsi İrəvan quberniyasının Eçmiədzin qəzasının, digər hissəsi isə İrəvan quberniyasının Aleksandropol qəzasının tərkibinə daxil olmuşdur. 1930 - cu il sentyabrın 9-da Talin rayonu yaradılmışdır. Toponim türk dilində «söyüd, söyüd kolu» mənasında işlənən tal sözü ilə (341, 180-182; 337, s.235) türk dilində «daxma, koma, mağara» mənasında işlənən in sözünün (299, s.209) birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Talıboğlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.236).

Toponim nəsil adı (Talıboğlu nəsli) əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 15. VII. 1948-ci il fərmanı ilə adı dəyişdirilib Lusakert qoyulmuşdur.

**Talıboğlu -** Amasiya rayonunun Elləroğlu kəndində yaylaq. Türkiyə ilə sərhəddə yerləşir. Nəsil adı əsasında yaranan oronimdir.

**Talış -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 21 km qərbdə yerləşir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828-1829 - cu illərdə Türkiyənin Bayazet vilayətindən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (427, s.509).

Kəndin ərazisində XIII-XIV əsrlərlə səsləşən azərbaycanlılara aid qədim qalanın xarabalıqları indi də durur.

Toponim qızılbaş türk tayfasından olan talış etnonimi (91, s.195) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nin 11. XI. 1970-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Aruç qoyulmuşdur.

**Tamaşalıq -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda çay. Arpaçayın sol qolunun adıdır. Adı dəyişdirilib Akori qoyulmuşdur.

**Tapanlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-qərbdə, Bəykənd çayının sağ qolu üstündə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.237) qeyd edilmişdir.

Toponim qədim ağqoyunlu elinin qalığı olan Diyarbəkirdə yaşayan türk mənşəli tabanlı (tapanlı) etnonimi (238, s.185) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə adı dəyişdirilib Geğasar qoyulmuşdur.

**Tas** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində kənd (127, s.12). Toponim türk dilində «bitkisi olmayan meşə» mənasında işlənən tas sözü (337, s.231; 339, s.546) əsasında formalaşmışdır. Fitotoponimdir. Quruluşca sadə toponimdir.

**Tatar yalı -** Dilican şəhərində məhəllə. İndi şəhərin mərkəzi hissəsini əhatə edir. Toponim azərbaycanlı millətinin sinonimi kimi işlənən tatar (XIX əsrdə azərbaycanlılara tatar da deyilirdi) etnoniminə Azərbaycan dilində «dağ beli» (253, s.16), «dağın ən hündür zirvələrini birləşdirən xətt», «dikdir, dağın başı» (196, s.37) mənasında işlənən yal sözünün qoşulması əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Tatar Təzəkəndi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə, İrəvan şəhərinin cənub-şərqində, Buğut dağının ətəyində yerləşir. Kəndin adı sonralar Təzəkənd kimi rəsmiləşdirilmişdir (415, s.62; 427, s.235). Qafqazın 5 verstlik xəritəsində Təzəkənd kimi (348, s.235) qeyd edilmişdir. Zəngibasar rayonu təşkil

edilənədək, 14 yanvar 1969 - cu ilə kimi Eçmiədzin rayonunun tabeliyində olmuşdur. Kənddə 1897-ci ildə 224 nəfər, 1914 - cü ildə 75 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış və azərbaycanlılar deportasiya olunmuşdur. 1918-1919 - cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim XIX əsrdə «azərbaycanlı» sözünün sinonimi kimi işlənən tatar etnonimi ilə Təzəkənd («təzə» yeni, «kənd» yaşayış məntəqəsi mənası ifadə edir) oykoniminin birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir. 1920-ci ildə kəndin adı erməni dilinə kalka edilərək Tazagyuğ (kyuğ erməni dilində kənd deməkdir) qoyulmuşdur. Erm. SSR AS RH-nin 10. XI. 1970-ci il fərmanı ilə kəndin adı yenidən dəyişdirilərək Ayntap adlandırılmışdır.

**Tatlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Şəmşəddin rayonu ərazisində kənd. 1930 - cu ildə rayondakı Paravakar kəndi ilə birləşdirilərək ləğv edilmişdir (415,s.72).

Toponim ulu yörük türk tayfasına mənsub olan tatlı etnonimi (238, s.,186) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Tatul qışlağı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində kənd. Rayonun Daşkənd yaxınlığında yerləmişdir.

Kənddə 1831-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s.110). XIX əsrin 40-50-ci illərində azərbaycanlılar buradan qovularaq kənd ləğv olmuşdur. İndi xaraba kənddir.

Toponim şəxs adı əsasında düzəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Taxtakənd -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində mədən-filiz yatağı, yeri. Xalac kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə erməni təcavüzü nəticəsində kənddə yaşayan azərbaycanlılar qırğınlarla qovulmuş və kənd 1908-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «təpə, dağ üstündə düzənlik», «dağlıq yerdə hamar sahə, iki dərə arasında düz yer», «dağlıq yerdə hamar yer» mənasında işlənən taxta sözü ilə (196, s.40-41) «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Taxta körpü -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda körpü. Meğri çayının üstündə salınmışdır.

**Taxça kom -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Toxluca kəndinin yaxınlığında, Göyçə gölünün sahilində yerləşirdi. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). 1930 - cu illərdə ləğv edilmişdir. Sonralar burada Toxluca kəndinin qoyun ferması vardır.

Toponim «təpəlikdə yerləşən düzənlik» mənasında işlənən taxta (Göyçə dialektində həmin söz taxça formasında işlənir) sözü ilə (196, s.40-41) qoyun saxlanılan yer mənasında işlənən kom sözünün birləşməsindən əmələ gəlmişdir. «Taxça» sözü Azərbaycan dilinə fars dilindən keçmişdir və «şey qoymaq üçün divarda açılan oyuq» mənasında da işlənir (12, s.141). Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Tacədin -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 4 km şimal-şərqdə, Baydaq çayının sol sahilində yerləşirdi. Kəndin adı erməni mənbələrində Tecadin kimi qeyd edilir (415,s.l34).

Kənddə 1897-ci ildə 58 nəfər, 1926-cı ildə 25 nəfər, 1931-ci ildə 32 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1930 - cu illərin ortasında ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «son zirvə, ən yüksək zirvə» mənasında işlənən tac sözünə (12, s.141) türk dilində «dincəlmək üçün fasilə etmək», «fasilə», «dincəlmək» mənasında işlənən din sözünün (367, s.341-342) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Mürəkkəb quruluşlu toponimdir.

**Taştun -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kənd. Burada ermənilərlə yanaşı 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.68-69). Toponim türk dilində «daş, qaya, dağ, təpə» mənasında işlənən taş (Müasir Azərbaycan ədəbi dilində işlənən daş sözünün qədim forması) sözü ilə (299, s.539; 339, s.547; 337, s.238) türk dilində, sərbəst keçidi, yolu, çıxacağı olmayan bağlı, dövrəyə alınmış, hasarlanmış yer (быть закрытым,запертым,не иметь свободного проход) mənasında işlənən tun (359, lll (2), s.1439) sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Tej dağı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda dağ. Hündürlüyü 3100 metrdir. Tej sözü Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində «top,

hündür, zirvə» mənalarında işlənir. Oronim həmin məna da işlənən tej sözündəndir və «hündür dağ» mənasını ifadə edir. Quruluşca mürəkkəb oronimdir.

**Tezxaraba -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Kəndin adı erməni mənbələrində Tezxarab formasında qeyd edilir (415, s.90). Kənddə 1831-ci ildə 22 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.158). 1870-ci ildə kənddə yaşayan azərbaycanlılar rus ordusu tərəfindən sıxışdırılıb çıxarılmış və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində işlənən «tez» və «xaraba» sözlərindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

**Tezxarab -** İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. XVI əsrdə İrəvan nahiyyəsinin tabeliyində olmuşdur. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.159) kəndin adı çəkilir. Toponim tez sözü ilə Azərbaycan dilində «dağıdılmış, uçulmuş, xaraba qalmış», «viranə, yıxıq, uçuq» mənasında işlənən xaraba sözü (12, s.301) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Tey** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd.

Kənddə 1873 - cü ildə 126 nəfər, 1886-cı ildə 174 nəfər, 1897-ci ildə 293 nəfər, 1904 - cü ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünün nəticəsində kəndi tərk etmişlər (309, s.205). Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 53 nəfər, 1926-cı ildə 62 nəfər, 1931-ci ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). Kollektivləşmə adı ilə kənddə yaşayan azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim türk dilində «təpə» mənasında işlənən tey sözü (337, s.239; 339, s.548) əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Telliqayası -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda dağ. Rayonun Hallavar kəndinin ərazisindədir. Şəxs adı əsasında yaranmışdır. Telli şəxs adı ilə «dağ» mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlmişdir. Antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Terp -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 14 km şimal-şərqdə, Cul çayının sağ qolu olan Köçbəkçayın (Terpçayın) yanında yerləşir. Kəndin adı ilk dəfə XIII əsrdə xatırlanır (422, s.93).

Kənddə 1831-ci ildə 96 nəfər, 1873 - cü ildə 243 nəfər, 1886-cı ildə 215 nəfər, 1897-ci ildə 376 nəfər, 1904 - cü ildə 384 nəfər, 1914 - cü ildə 422 nəfər, 1916-cı ildə 504 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıtmışdır. Burada 1922-ci ildə 80 nəfər, 1926-cı ildə 222 nəfər, 1931-ci ildə 408 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). SSRİ hökumətinin xüsusi qərarı ilə kəndin sakinləri 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci ildən sonra onların bir hissəsi ata-baba yurdlarına qayıtmışdır. 1988-ci ilin noyabr ayında yenidən kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim Azərbaycan dilində «kiçik təpə» mənasında işlənən tarp (> terp) sözü (253, s.130) əsasında formalaşmışdır. Bu söz ərəb dilində «dağ keçidi, aşıram» mənasında dərb formasında işlənir (361, s.69). Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Tex -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 21 km məsafədə yerləşir. Kəndin digər adı «Dığ» olmuşdur (415, s.28). Burada 1926-cı ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29). 1926-1929 - cu illərdə onlar kənddən sıxışdırılıb çıxarlımışdır. İndi ermənilər yaşayır.

Toponim fars dilində «kənd, qışlaq» mənasında işlənən dex (> tex) sözü (339, s.177) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Təzə Abdallar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonu ərazisində kənd olmuşdur. Kəndin adı erməni mənbələrində Təzə Xarab, Tezxarab kimi də qeyd edilir (143, s.44, 124). «İrəvan əyalətinin icmal dəftəri»ndə Tezxarab kimi rast gəlirik (143, s.77). Kənd 1929 - cu ildə ləğv edilmişdir.

Toponim qədim türk mənşəli abdal etnoniminə (355, s.165) -lar şəkilçisinin artırılmasından əmələ gələn etnonim əsasında formalaşmışdır. Toponim əvvəlindəki «təzə» sözü fərqləndirici əlamət bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Təzəkənd** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.235) qeyd edilmişdir.

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 3 nəfər, 1926-cıildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67)

Kəndin adı erməni dilinə kalka edilərək Tazagyuğ (Təzəkənd) qoyulmuşdur.

**Təzəkənd** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonu ərazisində kənd olmuşdur. Şəki kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1897-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır. (415, s.76-77). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq tarixi torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

«Yeni» mənasında işlənən təzə və yaşayış məntəqəsi bildirən kənd sözləri əsasında yaranmışdır. Mürəkkəb quruluşlu toponimdir.

**Təzəkənd** - İrəvan quberniyasının İrəvan qəzasında, indi ki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 67 km məsafədə yerləşir. Kəndin adı erməni mənbələrində Təzəgyuğ («gyuğ» kənd deməkdir) və Nor gyuğ (nor - təzəgyuğ - kənd deməkdir) kimi göstərilir (415, s.44; 419, s.14).

Toponim Azərbaycan dilində işlənən təzə və kənd sözlərindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il tarixli fərmanı ilə adı dəyişdirilib Norgyuğ (Təzəkənd) qoyulmuşdur.

**Təzəkənd** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Kəndin digər adı Təzəkənd türk (Türk Təzəkəndi) olmuşdur (415, s.20). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.235).

Kənddə 1886-cı ildə 129 nəfər, 1897-ci ildə 166 nəfər, 1908-ci ildə 40 nəfər, 1914 - cü ildə 193 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). Erməni mənbələrində kəndin əhalisi qarapapaqlar kimi göstərilir (415, s.20). Qarapapaqlar da azərbaycanlılardır və onlar azərbaycanlıların etnoqrafik qruplarından biri olmaqla yanaşı (ASE, III c., B., 1980, s.64) qədim türk tayfalarından biridir. Göründüyü kimi, tayfa xalq kimi göstərilir. 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim təzə və kənd sözlərindən əmələ gəlmişdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı 1918-ci ildə dəyişdirilərək Tazagyuğ (Təzəkənd) qoyulmuş, sonra Erm. SSR AS RH-nin 21.X.1967-cı il fərmanı ilə yenidən dəyişdirilərək Tavşut adlandırılmışdır.

**Təkiyə** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-qərbdə, Kasax çayının sağ sahilində, Şaqverd çayının sahilində yerləşir. Kəndin digər adı «Tekyə təkkə»dir (427, s.546). 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Pirtəkiyəsi kəndi (143, s.162), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Təkkə kəndi (143, s.88), Qafqazın 5 verstlik xəritəsində Təkiyə formasında (348, s.236) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 155 nəfər, 1873 - cü ildə 398 nəfər, 1886-cı ildə 582 nəfər, 1897-ci ildə 635 nəfər, 1908-ci ildə 725 nəfər, 1914 - cü ildə 768 nəfər, 1916-cı ildə 587 nəfər, 1919 - cu ildə 428 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1919-1920-ci illərdə buraya Türkiyənin Muş, Xut və Xlat vilayətlərindən ermənilər köçürülümüşdür (427, s.546). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına, torpaqlarına qayıda bilmişlər.

Burada ermənilərlə yanaşı 1922-ci ildə 179 nəfər, 1926-cı ildə 175 nəfər, 1931-ci ildə 227 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1953 - cü illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

1986-cı ildə çap edilmiş «Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti»ndə kənddə 1831-1931-ci illərdə azərbaycanlılarn yox, ermənilərin yaşadığı göstərilir (427, s.546). Bu, tarixi faktın

təhrifidir. Yuxarıdakı statistik faktlar göstərir ki, ermənilər kəndə 1918-ci ildən sonra köçürülmüşdür. Erməni tədqiqatçılan tarixi təhrif etməklə həqiqəti gizlətmək istəmişlər.

Toponim türk mənşəli təkə etnonimi (321, s.74; 271, s.112) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin l.XII.1949 - cu il fərmanı ilə adı dəyişdirilib Bazmaxpyur qoyulmuşdur.

**Təkədonduran -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Oronim «dağ keçisi, erkək keçi» mənasında işlənən təkə sözü ilə (12, s.153) «donduran» feli sifətin birləşməsindən əmələ gəlmişdir. Heyvan adı əsasında yaranan oronimdir.

**Təkəli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 20 km şimal-qərbdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə qeyd edilmişdir (143, s.236). Erməni mənbələrində Təkərli kimi də göstərilir(415, s.16).

Kənddə 1831-ci ildə 41 nəfər, 1873 - cü ildə 335 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 543 nəfər, 1908-ci ildə 641 nəfər, 1914 - cü ildə 807 nəfər, 1916-cı ildə 730 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16-17, 100-101). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 248 nəfər, 1926-cı ildə 302 nəfər, 1931-ci ildə 416 nəfər (415, s.16-17, 100-101), 1987-ci ildə 1000 nəfərə qədər azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla və qırğınlarla tarixi torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim qızılbaşlar türk tayfasına mənsub olan təkəli etnonimi (175, s.16) əsasında yaranmışdır. Tayfanın adı təkə formasında da qeyd edilir (238, s.214). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dyişdirilib Artavaz qoyulmuşdur.

**Təkərli -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.174), Qafqazın 5 verstlik xəritəsində (348, s.236) qeyd edilmişdir. Toponim təkəli (təkərliİ.B.) türk etnonimi (Erməni mənbələrində təkəli tayfasının adı həm də təkərli formasında qeyd edilir, 415, s.16) əsasında (175, s.16; 238, s.185) əmələ gəlmişdir. Təkəli qızılbaşlar tayfasından birinin adıdır (175, s.16). F. Sümər təkəli tayfasım oğuzların dülqədirli elindən olduğunu göstərir (238, s. 184-185). Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm. SSR AS RH-nın 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Tsağkaşen (Çiçəkli kənd) qoyulmuşdur.

**Təknəli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 21 km məsafədə, Ellər dərəsində yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xərtiəsində qeyd edilmişdir (348, s.236).

Toponim dulusçuluqla, daşyonma ilə məşğul olan türk mənşəli təknəli etnonimindən (35, s.183) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25.1.1978-ci il tarixli fərmanı ilə adı dəyişdirilib Kokohovit qoyulmuşdur.

**Təngir çay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda dərə. Rayondakı Sultan Səlim kəndindən aşağıda yerləşir. Dərənin adı Kəndir çayı formasmda da qeyd edilir (Həmzə Vəli. Tarixdən gələn səslər, «Vətən səsi» qəz., 1.VIII.1991). Müəllif qeyd edir ki, dərənin çörək bişirilən kəndirlə heç bir əlaqəsi olmadığı üçün bu ad əslində «Tinqir»dir (Həmzə Vəli. Adı çəkilən əsəri).

Oronim Azərbaycan dilində «ensiz, dar sıldırımlı qaya, sıldırımlı, uçurumlu dərə» mənasında işlənən tənqi sözü əsasında (339, s.549) əmələ gəlmişdir. Orohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Təpəbaşı** - İrəvan şəhərində məhəllə. XIX əsrin əvəllərində burada 622 ev olmuşdur. Urbonim Azdrbaycan dilində «hündür yer, hündürlük», «kiçicik dağ» mənasında işlənən təpə sözü ilə (12, s.165) oronimlərdə «yuxarı, yüksəklik» mənasında işlənən baş sözünün (253, s.100) birləşməsindən

əmələ gəlmişdir. Məhəllə təpəlik bir yerdə yerləşdiyi üçün Təpəbaşı adlanmışdır. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Təpədibi -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə, Araz çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində Təpədib formasında qeyd edilmişdir (348, s.237). Burada ermənilərlə yanaşı 1897-ci ildə 17 nəfər azərbaycanlı yaşamışdır (415, s.62 63). XX əsrin əvvəllərində, 1906-cı ildə azərbaycanlılar kənddən sıxışdırıb çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «dağ» mənasında işlənən təpə sözü ilə «dağın ətəyi» mənasında işlənən dib sözündən əmələ gəlmişdir və «təpə dibində olan kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Haykavan qoyulmuşdur.

**Təpədibi** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda dağ. Rayondakı Təpədibi kəndinin ərazisində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.237). Mürəkkəb quruluşlu oronimdir.

**Təpədölək** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 4 km cənubda yerləşir. Kəndin başqa adı erməni mənbələrində Təpədöllək (415, s.42), Təpədəlik (427, s.426) kimi də göstərilir.

Burada 1806-1809 - cu ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1810-1815-cı illərdə Türkiyənin Alaşkert və Basin vilayətlərindən köçürülmüşdür (427, s.426).

Toponim Azərbaycan dilində «qayalıq, dağlıq yer» mənasında işlənən təpə sözü ilə «Kitabi-Dədə Qorqud» dastanında adı çəkilən **Dönə bilməz Dölək Uran** şəxs adındakı Dölək sözü əsasında əmələ gəlib. «Döləyə məxsus təpə» anlamını verir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 7. XII. 1945-ci il fərmanı ilə dəyişdirilib Arevik qoyulmuşdur.

**Təpəsidəlik** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda dağ. Rayondakı Keşişkənd kəndinin yaxınlığında yerləşir. Mürəkkəb quruluşlu oronimdir.

**Tərəkəmələr** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 28-30 km şimal-şərqdə yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.98), Qafqazın 5 verstlik xəritəsində (348, s.238) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 32 nəfər, 1886-cı ildə 46 nəfər, 1897-ci ildə 35 nəfər, 1904 - cü ildə 50 nəfər, 1914 ildə 83 nəfər, 1916-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Kənd 1920-ci ildə xarabalığa çevrilmişdir.

Toponim azərbaycanlılarn etnogenizində iştirak etmiş türkdilli tərəkəmələr etnonimi (ASE, IX c., B., 1986, s.256) əsasında yaranmışdır. Köçəri həyat keçirən oğuzların bir hissəsi tərəkəmə (ərəb dilində türkmən sözünün cəmidir) adlandırılmışdır (ASE, IX c., s.256). Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Tərnəvut yaylağı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda yaylaq. Rayondakı Nüvədi kəndinin ərazisində yerləşir. «Tərnəvut» sözünün qədim şəkli Tərnəğut olub. «Tərnəğut» sözü «Tərnə dəstə» (seçmə dəstə) mənasını verir. Türk dillərində iki sait arasında «ğ» səsi «v» səsinə çevrildiyinə görə, Tərnəğut sözü sonralar Tərnəvut -Ternəvut şəklinə düşmüşdür» (109, s.26).

Toponim xəzər tayfalarından biri olan tarna (tərnə) etnoniminə (286, s.44) qədim türk dilində cəmlik, topluluq bildirən -ğut, -ut şəkilçisinin dialekt variantı olan -vut şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Toponimdəki «yaylaq» Azərbaycan dilində «yay istirahəti üçün əlverişli dağ yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Tərp -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. «Tərp kəndi, XIII əsrdə tarixi mənbələrdə adı çəkilən Derb kəndidir» (422, s.93). Kənd XIV əsrdə xarabalığa çevrilmiş, XVII əsrdə yenidən bərpa edilmişdir. Tərpçayın yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 96 nəfər, 1873 - cü ildə 192 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 187 nəfər, 1904 - cü ildə 223 nəfər, 1914 - cü ildə 245 nəfər, 1916-cı ildə 281 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ

qalanlar öz ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 67 nəfər, 1926-cı ildə 86 nəfər, 1931-ci ildə 191 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). SSRİ hökumətinin xüsusi qərarı ilə kəndin sakinləri - azərbaycanlılar 1947-ci ildə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Azərbaycan dilində «kiçik təpə» mənasında işlənən tərp sözü (253, s.130) əsasında əmələ gəlmişdir. Tərp sözü ərəb dilində dərb kimi «dağ keçidi, aşırım, dərə» mənasında işlənir (361, s.69). Orotoponimdir. Quruluşca sadə toponimdir.

**Tərp çayı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Azərbaycan dilində «təpə» mənasında işlənən tərb sözü (253, s.130) əsasında əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Tərs çay -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında qışlaq. 1897-ci ildə burada 10 nəfər azərbaycanlı, 18 erməni, 4 rus yaşamışdır (415, s.30-31). XX əsrin əvvəllərində ləğv edilmişdir.

Tərsa çayının sahilində salındığı üçün yaşayış məntəqəsinin adı «Tərs çay qışlağı» adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Tacirabaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftərində» Tecirdink (143, s.80), Qafqazın 5 verstlik xəritəsində Tacirabaq formasında (348, s.240) qeyd edilmişdir. Kəndin digər adı Təcirabad, Tacarabaq olmuşdur (415, s.44).

Toponim oğuzların dülqədirli tayfasından olan təcirli etnonimi (238, s.186) əsasında əmələ gəlmişdir. Etnotoponimdir.

Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Dzoraxpyur qoyulmuşdur.

**Tiğit -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 56 km məsafədə yerləşmişdir. 1972-ci ilə kimi Əştərək rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Teqit kimi (143, s.54), Qafqazın 5 verstlik xəritəsində Tiğit formasında (348, s.240) qeyd edilmişdir. Erməni mənbələrində Tğit formasında verilir (419, s.72).

Kənddə 1831-ci ildə 92 nəfər, 1873 - cü ildə 217 nəfər, 1886-cı ildə 241 nəfər, 1897-ci ildə 333 nəfər, 1908-ci ildə 410 nəfər, 1914 - cü ildə 488 nəfər, 1916-cı ildə 512 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qıpçaq türk tayfasından olan tuq («tiğ» tuq etnoniminin formasıdır) etnoniminə (286, s.48), cəmlik bildirən -ut şəkilçsinin -it fonetik formasının artırması ilə əmələ gəlib, «tuğların yaşadığı kənd», «tuğlara məxsus kənd, yaşayış yeri» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Tovuz -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 5 km məsafədə yerləşir.

Toponim türk dilində «dağ» mənasında işlənən tov sözü ilə oğuzların bir qismi kimi tanınan uz türk etnonimi (238, s.78; 226, s.163; 66, s.33) əsasında əmələ gəlib, «dağ uzların (oğuzların) yaşadığı yer» mənasını ifadə edir. Quruluşca mürəkkəb toponimdir.

**Tovuzqala -** Tiflis quberniyasının Borçalı qəzasında kənd. İndi Şəmşəddin rayonunda şəhər tipli qəsəbə. Buraya şəhər tipli qəsəbə statusu 1963 - cü ildə verilmişdir. Şəmşəddin rayonunun mərkəzidir.

Toponim türk dilində «dağ» mənasında işlənən tov (to, tu, tav, tou, tau formasında da işlənir; 337, s.238; 339, s.554) sözü ilə uz (oğuz) etnonimindən (238, s.78) və qala sözündən əmələ gəlib «dağ uzların (oğuzların) qalası» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı 1920-ci ildə dəyişdirilib Berd (qala) qoyulmuşdur. Şəhərin qedim adının birinci komponenti (Tovuz) ixtisar edilmiş, ikinci komponenti olan «qala» erməni dilinə tərcümə edilərək yaşayış məntəqəsi Berd adlandırılmışdır.

**Tozluq -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonu ərazisində qışlaq. Burada 1897-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79). XX əsrin əvvəllərində ləğv edilmişdir.

Toponim qədim türk dilində «qovaq ağacı» mənasında işlənən toz sözünə (359, III (2), s.1212) luq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Düzəltmə quruluşlu toponimdir.

**Tomardaş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-qərbdə, Qotur çayının sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Tumardaş kimi (143, s.129) qeyd edilmişdir.

Toponim türk dilində «yamyaşıl bitkilər və yeraltı (qrunt) sularla dopdolu bataqlıq, təpəcik, daşlıq, kəsəkli yer>, «dağda, meşəsiz yerdə bataql;q» mənasında işlənən tomar sözündən (339, s.556) və «dağ, qaya» mənasında işlənən daş sözündən əmələ gəlmişdir. Orotoponimdir. Mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 31.V.1946-cı il fərmanı ilə adı dəyişdirilib Vardakar (Güllüdaş) qoyulmuşdur.

**Tomardaş -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunun Tomardaş kəndinin yanında stansiya.

Erm. SSR AS RH-nin 31.VII.1950-ci il fərmanı ilə adı dəyişdirilib Vardakar stansiyası adlandırılmışdır.

**Tomardaş -** Qars quberniyasının Qars qəzasında, indi Amasiya rayonunun Ellər oğlu kəndində yaylaq. Kəddən 23 km cənubda, Türkiyənin sərhəddində yerləşir.

**Toparlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimalda, Şirak kanalının qırağında yerləşir. Erməni mənbələrində Taparlı kimi də qeyd edilir (415, s.42). 31 dekabr 1937c ilə qədər Leninakan rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. Toponim «yığcam», «toplu» mənasında işlənən toparlı sözü əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranmışdır. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Hatsik qoyulmuşdur.

**Topaqaya -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda dağ. Rayon Ağudi kəndinin ərazisində yerləşir. Oronim «qalaq, yığın» mənasında işlənən topa (12, s.196) sözü ilə Azərbaycan dilində «dağ» mənasında işlənən qaya sözündən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Torpaqqala -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Erməni mənbələrində kəndin adı Topraxqala kimi qeyd edilir (415, s.48). Rayon mərkəzindən 8 km şimal-şərqdə yerləşir.

Kənddə 1831-ci ildə 40 nəfər, 1873 - cü ildə 246 nəfər, 1886-cı ildə 268 nəfər, 1897-ci ildə 303 nəfər, 1908-ci ildə 415 nəfər, 1914 - cu ildə 456 nəfər, 1916-cı ildə 372 nəfər (415, s.48-49, 128-129), 1918-ci ilin yanvarında 415 nəfər (309, s.216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. 1922-ci ildə 98 nəfər, 1926-cı ildə 163 nəfər, 1931-ci ildə 197 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-1949 - cu ildə azərbaycanlılar köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «ölkə», «ərazi» mənasında işlənən torpaq sözü ilə (253, s.131) qala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 1.XII.1949 - cu il fərmanı ilə kəndin adı dəyişdirilib Xnaberd (Torpaqala) qoyulmuşdur.

**Toxanşalı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Toğanşahlı (143, s.99), erməni mənbələrində Toxanşahlı (415, s.48) formalarında qeyd edilmişdir. Toponim türk dilində «böyük arx», «dəhnə, bənd» mənasında işlənən toqan sözü ilə (339, s.555) şahılı (> şahlı) etnonimi (142, s.73) əsasında əimələ gəlmişdir. Etnotponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 20. VIII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Masis qoyulmuşdur.

**Toxluca -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 24 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dörd tərəfi dağlarla əhatə olunmuş bir ərazidə yerləşir. 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.115), Qafqazın 5 verstlik xəritəsində (348, s.246) qeyd edilmişdir.

1831-ci ildə burada 296 nəfər, 1873 - cü ildə 466 nəfər, 1886-cı ildə 681 nəfər, 1897-ci ildə 935 nəfər, 1914 - cü ildə 1373 nəfər, 1916-cı ildə 1330 nəfər, 1919 - cu ildə 1199 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31, 114-115). 1919 - cu ilin mart ayının ortalarında ermənilər tərəfindən azərbaycanlılar vəhşicəsinə qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin keçmiş sakinləri öz doğma evlərinə dönə bilmişlər. 1922-ci ildə kənddə 1176 nəfər, 1926-cı ildə 1403 nəfər, 1931-ci ildə 1723 nəfər (415, s.30-31, 114-115), 1970-ci ildə 2415 nəfər, 1979 - cu ildə 2632 nəfər, 1987-ci ildə 2985 nəfər (85, s.90) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri bir daha ermənilərin təcavüzünə məraz qalmış və Ermənistan dövləti tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində dağlıq yer mənasını ifadə edən «dağlıqca» sözünün fonetik forması əsasında əmələ gəlmişdir. Toponimin birinci komponenti tox türk dillərində «dağ» mənasında işlənən to, toğ sözlərinin fonetik formasıdır. Eyni zamanda qədim türk dilində toğ (tuğ) sözü «bənd», «sədd», «çəpər» mənalarında işlənir (299, s.570, 584). Toponim ikinci komponenti -lu (əsli -luq) və -ca şəkilçilərindən ibarətdir. «Dağlıq ərazi» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Draxtik (Cənnət dərəsi) qoyulmuşdur.

**Toxmaq -** İrəvan şəhərində məhəllə. Türk mənşəli qızılbaşların ustaclı tayfasından olan Məhəınınəd xan Toxmağın adı (175, s.29) əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Taxmaxangöl -** İrəvan quberniyasının İrəvan qəzasında kənd. İrəvan şəhərinin qərbində yerləşirdi. 1906-cı ildə erməni təcavüzü nəticəsində kəndin köklü sakinləri olan azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. «Molla Nəsrəddin» jurnalında kənd haqqında aşağıdakı məlumat verilir: «İrəvan şəhərinin yaxındlığında Toxmaxangöl adlı müsəlman kəndinin dağılmaq xəbərini «Zaqafqaziya» qəzetində oxuduq» («Molla Nəsrəddin» j., 30 mart 1908-ci il , № 13). İndi xaraba kənddir. Kənd «Toxmaqgöl» sututarının yanında yerləşdiyi üçün Toxmaxangöl adlandırılmışdır. Toponimin birinci komponenti «Toxmaq» qızılbaşların ustaclı tayfasından olan Məhəmmədxan Toxmağın adını (175, s.29) əks etdirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Toxmaqgöl -** İrəvan quberniyasının İrəvan qəzasında, indi İrəvan şəhəri ərazisində göl. İrəvan şəhərinin şərqində yerləşir.

Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.246).

İ. Məmmədov qeyd edir ki, Məhəmməd Xudabəndə (1578-1587) dövründə şəhər torpaqlarını suvarmaq üçün iri bir göl (uzunluğu 400, eni 250 sajın) tikilmiş, yeni arxlar çəkilmişdir. 1578-cı ildə tikilən, Sovet hakimiyyəti illərində bərpa olunan, indi S. Şaumyanın adını daşıyan bu gölə yerli əhali yenə də «Toxmaq gölü» deyir (85, s.13). Toxmaq qızılbaşların ustaclı tayfasından olan Məhəmməd xanın ləqəbidir (175, s.29). Göl Məhəmmədxan Toxmaq tərəfindən salındığı üçün Toxmaqgöl adlandırılmışdır. Antropohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Tuqanlar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Qafan şəhərinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). XX əsrin əvvəllərində, 1906-cı ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim eyni adlı nəsil (tuqanlar) adından əmələ gələn patronomik toponimdir. Quruluşca sadə toponimdir.

**Tuğut -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda kənd. Rayon mərkəzindən 11-13 km şimal-şərqdə, Araz çayının sol sahilində yerləşirdi.

Erməni mənbələrində kəndin adı Teğut formasında qeyd edilir (415,s.68).

Kənddə 1831-ci ildə 31 nəfər, 1873 - cü ildə 162 nəfər, 1886-cı ildə 199 nəfər, 1897-ci ildə 237 nəfər, 1904 - cü ildə 294 nəfər, 1914 - cü ildə 513 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.68-69, 142-143). 1918-ci ildə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.216). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 131 nəfər, 1926-cı ildə 85 nəfər, 1931-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır (415," s.68-69, 142-143). Kollektivləşmə adı ilə kəndin sakinləri qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim qıpçaq türk tayfasından olan

tuq etnoniminə (287, s.56) qədim türk dilində cəmlik bildirən -ut şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

«Tuğlara, yəni tuğ tayfasına mənsub kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Tulnəbi -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Nairi rayonunda kənd. Rayon mərkəzindən 10 km məsafədə yerləşir. Nairi rayonu yaradılanadək, 1972-ci ilə kimi Əştərək rayonunun tərkibində olmuşdur.

Kənddə 1873 - cü ildə 227 nəfər, 1886-cı ildə 321 nəfər, 1897-ci ildə 261 nəfər, 1908-ci ildə 219 nəfər, 1914 - cü ildə 406 nəfər, 1916-cı ildə 353 nəfər (415, s.22-23, 106-107), 1918-ilin yanvarında 379 nəfər (309, s.219) yalnız azərbaycanlılar yaşamışdır. 1918-ci ildə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309, s.219), Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim qədim türk dilində «hasarlanmış, çəpərlənmiş yer» (быть огороженным) mənasında işlənən tul sözü ilə (359, III (2), s.1466) Nəbi şəxs adı əsasında əmələ gəlib «Nəbinin hasarlanmış, çəpərlənmiş yeri» mənasını bildirir. Atropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Saralanc qoyulmuşdur.

**Tulus -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183) qeyd edilmişdir. Kəndin adı təhrif edilərək erməni mənbələrində Tolors kimi verilir (419,s.80).

Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 24 nəfər, 1873 - cü ildə 142 nəfər, 1886-cı ildə 176 nəfər, 1897-ci ildə 263 nəfər, 1914 - cü ildə 390 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. 1926-cı ildə ermənilərdən başqa iki nəfər azərbaycanlı da yaşamışdır (415, s.78-79). İndi burada yalnız ermənilər yaşayır.

Toponim qədim türk tayfalarından olan tolos (359, III (2), s.1261), teles (180, s.21) etnonimi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Tunus -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd. Əcili kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində adı qeyd edilmişdir (348, s.248). 1922-ci ildə 94 nəfər azərbaycanlı yaşamışdır (415, s.134-135). 1924-1925-cı illərdə azərbaycanlılar rayonunun qonşu kəndlərinə köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

**Tut pir qışlağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu əraziində kənd. Burada 1897-ci ildə 71 nəfər azərbaycanlı yaşamışdır (85, s.154). 1905-1906-cı illərin hadisələri nəticəsində azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və 1908-ci ildə kənd ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Turabxanlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.

Kənddə 1897-ci ildə 105 nəfər, 1904 - cü ildə 123 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1914-1918-ci illərdə azərbaycanlılar deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edənlər öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 27 nəfər, 1926-cı ildə 19 nəfər, 1931-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1930 - cu illərin sonunda azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim turabxanlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Turu gədiyi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda kədik. Rayondakı Nüvədi kəndinin ərazisində yerləşir. Oronim qədim türk dilində, o cümlədən Orxon-Yenisey abidələrində «yer, yaşayış məntəqəsi, yurd, dayanacaq» mənasında işlənən turuğ sözü ilə (299, s.588; 229, s.179) Azərbaycan dilində «dağın beli, aşırım» mənasında işlənən gədik sözünün birləşməsindən əmələ gəlib «dağ aşırımında yaşayış məskəni, dağ belində olan yurd» mənasını ifadə edir.

Turu (turuğ) sözü Altay dilində turlu, xakas dilində turlağ və tuva dilində «qaya» mənasında turuq formasında işlənir (339, s.568). Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Tuskulu -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Çay kənarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.249). II əsr müəllifı Klavdi Ptolomey Qafqaz dağları ilə Xəzər sahili arasında tuskların yaşadığını göstərir (145, s.38). Fikrimizcə, toponim həmin tayfa adı əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Lusakunk qoyulmuşdur.

**Tutiya -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-şərqdə yerləşir. 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dətəri»ndə (143, s.80), Qafqazın 5 verstlik xəritəsində (348, s.249) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 36 nəfər, 1873 - cü ildə 280 nəfər, 1886-cı ildə 449 nəfər, 1897-ci ildə 568 nəfər, 1904 - cü ildə 493 nəfər, 1914 - cü ildə 554 nəfər, 1916-cı ildə 424 nəfər azərbaycanlı yaşamışdır (415, s.44-45, 124-125). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1923-1925-cı illərdə burada xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim, bizcə, oğuzların üç-ox qolunun başında duran Dad bəy adlı İshaq oğlu Tuti (Dudu) şəxs adına (348, s.126) iyyə şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 21. VI. 1948-ci il fərmanı ilə adı dəyişdirilib Saranist qoyulmuşdur.

**Türk Qarakilsəsi -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 15 km cənub-qərbdə, Gümrü şəhərinin 5 kilometrliyində, dəniz səviyəsindən 1462 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.133), Qafqazın 5 verstlik xəritəsində (348, s.l 17) qeyd edilmişdir.

Kənddə 1886-cı ildə 410 nəfər, 1897-ci ildə 484 nəfər, 1904 - cü ildə 554 nəfər, 1914 - cü ildə 911 nəfər azərbaycanlı yaşamışdır (415, s.42-43, 122-123). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Türkiyənin Muş, Sasun Xnus, Qars vilayətlərindən ermənilər köçürülərək burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Kənd albanlara aid qara daşdan tikilən kilsənin yaxınlığında salındığı üçün Qarakilsə adlanmışdır. Toponimin əvvəlindəki türk etnonimi fərqləndirici əlamət bildirir və sakinlərinin türklər (azərbaycanlılar) olduğunu göstərir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3. I. 1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Axurik qoyulmuşdur.

**Türk Qarakilsəsi -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kalinino rayonunun ərazisində kənd. Başqa adı Təzəkənddir. Noraşen kəndinin yaxınlığında yerləşirdi.

Kənddə 1886-cı ildə 122 nəfər, 1897-ci ildə 172 nəfər, 1914 - cü ildə 420 nəfər azərbaycanlı yaşamışdır (415, s.42-43, 122-123). 1918-ci ildə ermənilər azərbaycanlıları qırğınlarla qovaraq kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Türk Düzkəndi -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Abaran raoynunda kənd. Qarabulaq çayının sahilində, Alagöz dağının ətəyində yerləşirdi. Mənbələrdə kəndin adı Düzkənd, Türk Düzkəndi (Düzkənd türk), Tatar Düzkəndi (415, s.496), Düzkənd (348, s.90), Tatar Düzkəndi (Сборник сведений о Кавказе, т.V, Тифлис, 1879, № 1188) formalarında qeyd edilmişdir. Bu da onu aydın şəkildə göstərir ki, kəndin köklü sakinləri azərbaycanlılar (türklər) olmuşdur. Sonralar toponimin əvvəlindəki «türk», «tatar» sözləri - etnonimləri ixtisar edilərək rəsmi sənədlərdə Düzkənd formasında göstərilmişdir (415, s.4,96;85, s.95; 227, 154).

Kənddə 1873 - cü ildə 379 nəfər, 1886-cı ildə 449 nəfər, 1897-ci ildə 592 nəfər, 1908-ci ildə 713 nəfər, 1914 - cü ildə 784 nəfər, 1916-cı ildə 703 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). 1918-ci ildə kənd ermənilərin təcavzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş, Türkiyədən köçürülən ermənilər və yezidi kürdlər burada yerləşdirilmişdir (415, s.97).

İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdir. Burada erməni və kürdlərlə yanaşı 1922-ci ildə 170 nəfər, 1926-cı ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). Azərbaycanlılar 1928-1930 - cu illərdə sıxışdırılaraq kənddən çıxarılmışdır. Kənd 1959 - cu ildə ləğv edilmişdir. Toponim türk etnonimi ilə relyef bildirən düz sözünə, kənd sözünün qoşulmasından yaranıb. «Türklərin

(azərbaycanlıların) yaşadığı Düzkənd kəndi» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Türk yolu -** Yelizavetpol (Gəncə) Qazax qəzasında, indi Dilican şəhərində yer, ərazi.

**Türk Gözəldərəsi -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Alagöz dağının şimal ətəyində, Qarabulaq çayının yanında yerləşir. Kəndin digər adı Yuxarı Gözəldərə, Tatar Gözəldərəsi (Gözəldərə Tatar) olmuşdur (415, s.4). Qafqazın 5 verstlik xəritəsində TürkTatar Gözəldərəsi formasında (348, s.58) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 63 nəfər, 1873 - cü ildə 413 nəfər, 1886-cı ildə 509 nəfər, 1897-ci ildə 618 nəfər, 1904 - cü ildə 732 nəfər, 1914 - cü ildə 894 nəfər, 1916-cı ildə 716 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.45, 96-97).

Kənd 1918-ci ildə ermənilərin təcavüzünə məruz qalaraq köklü sakinləri olan azərbaycanlılar deportasiya olunmuş və kəndə 1916-1918-ci illərdə Türkiyənin Muş və Bitlis vilayətlərindən İranın Xoy və Salmas vilayətlərindən, köçürülən ermənilər yerləşdirilmişdir(415, s.97; 85, s.95).

Toponim «türk» etnonimi ilə «güllü, çiçəkli» mənasını bildirən Gözəldərə sözünün birləşməsindən əmələ gəlib «Türklərin (azərbaycanlıların) yaşadığı Gözəldərə kəndi» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə adı dəyişdirilib Qexadzor (Gözəldərə) qoyulmuşdur.

## U

**Uz** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 2 km məsafədə yerləşir.

1850-ci il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.183), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.150), Qafqazın 5 verstlik xəritəsində (348, s.251) qeyd edilmişdir.

Kənddə ermənilərdən başqa, 1886-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.146). Sonradan azərbaycanlılar qovulmuşdur.

Toponim uz qədim türk tayfasının adı (238, s.78) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Uyts qoyulmuşdur.

**Uzunlar -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir.

Toponim eyniadlı tayfa adı əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 30.IX.1967-cı il fərmanı ilə kəndin adı dəyişdirilərək Odzun qoyulmuşdur.

**Uzunoba -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə, Araz çayının sol sahilində yerləşir. 1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.93), Qafqazın 5 verstlik xəritəsində (348, s.251) qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «geniş, böyük» mənasında işlənən uzun sözü ilə «kənd, yaşayış məntəqəsi, yurd», «köçərilərin, heyvandarların müvəqqəti sakin olduqları bir neçə alaçıq və ya çadırdan ibarət yer, köç yeri» (11, s.431) mənasında işlənən oba sözünün birləşməsindən əmələ gəlib «böyük, geniş kənd» mənasını ifadə edir. Oba sözü türk dilində «tayfa», «köç ailəsi», «tayfanın yaşadığı yer» mənasında işlənir (365, s.400). Relyeflə bağlı yaranan toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 10.IV.1947-ci il fərmanı ilə adı dəyişdirilib Arqavand qoyulmuşdur.

**Uzundərə -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dərə. Rayonun Toxluca kəndinin şərqində yerləşir. Oronim Azərbaycan dilində «geniş» mənasında işlənən uzun sözü ilə, «iki dağ və ya təpə arasında düzənlikdə uzun, dərin çuxur» mənasında işlənən dərə sözünün (10, s.74) birləşməsindən yaranmışdır. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Uzuntala -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində «böyük, geniş» mənasında işlənən uzun sözü ilə «meşə ortasında açıqlıq yer» mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 25.V.1967-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Onut, 12.II.1969 - cu il fərmanı ilə yenidən dəyişdirilib Aygehovit qoyulmuşdur.

**Ulu bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda bulaq. «Qədim», «böyük» mənasında işlənən ulu sözü (359,l (2), s.1692) əsasında əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Uluxanlı -** İrəvan quberniyasının İrəvan qəzasında kənd. İndi Zəngibasar (Masis) rayonunda şəhər tipli qəsəbə. Kəndin başqa adı Nərimanlı olmuşdur (415, s.128). Zəngi çayının yaxınlığında yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.75), Qafqazın 5 verstlik xəritəsində (348, s.252) qeyd edilmişdir. Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Burada 1831-ci ildə 1737 nəfər, 1873 - cü ildə 2968 nəfər, 1886-cı ildə 3062 nəfər, 1897-ci ildə 2757, 1908-ci ildə 3171 nəfər, 1914 - cü ildə 3488 nəfər, 1918-ci ildə 3173 nəfər, 1919 - cu ildə 8000 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129; 309, s.216). 1919 - cu ilin sonunda azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 1882 nəfər, 1926-cı ildə 1948 nəfər, 1931-ci ildə 1781 nəfər azərbaycanlı, 5 erməni, 25 kürd yaşamışdır (415, s.48-49, 128-129). 1948-49 - cu illərdə SSRİ

hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə köçürülən azərbaycanlıların bir hissəsi yenidən geriyə - Uluxanlıya dönmüşdür. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar son nəfərinə kimi Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim uluxanlı tayfa adı (7, s.21) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1924 - cü ildə dəyişdirilib Nərimanlı qoyulmuşdur. Sonra Erm.SSR AS RH-nin 31.XII.1937-ci il fərmanı ilə dəyişdirilib Zəngibasar, 31.VII.1950-ci il fərmanı ilə yenidən dəyişdirilərək Masis adlandırılmışdır.

**Uluxanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda vağzal. 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.130-131).

**Urud -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 5 km şimal-şərqdə, Urud çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.252). Erməni mənbələrində kəndin başqa adı Söyüdlü olduğu göstərilir (415, s.80).

Kənddə ermənilərlə yanaşı 1897-ci ildə 17 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81). 30 - cu illərdə onlar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim türk dilində «çuxur, istehkam, qala təpəsi (крепостной вал), «təpə» mənasında işlənən ur sözünə (339, s.415) -ud şəkilçisinin artırılması ilə düzəlmişdir. Ur sözü türk dilində or formasında da işlənir (277, II, s.119; 365, s.466-467; 339, s.415-416). Orotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Urud -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 8 km cənub-şərqdə, Bazarçay çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsindən qeyd edilmişdir (348, s.252).

Erməni mənbələrində kəndin başqa adının Orod olduğu göstərilir(415, s.76).

Kənddə 1831-ci ildə 111 nəfər, 1873 - cü ildə 222 nəfər, 1886-cı ildə 211 nəfər, 1897-ci ildə 359 nəfər, 1908-ci ildə 435 nəfər, 1914 - cü ildə 408 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə kəndin sakinləri qırğınlarla deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan urudlular öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 173 nəfər, 1926-cı ildə 263 nəfər, 1931-ci ildə 340 nəfər (415, s.76-77, 146-147), 1987-ci ildə 16-18 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi torpaqlardan deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Toponim türk dilində «dağ, təpə» mənasında işlənən ur sözünə (339, s.415) türk dillərində yer məzmunu əmələ gətirən - ud şəkilçisinin birləşməsindən əmələ gəlib «dağlı, təpəli, yerdə salınan kənd» mənasını verir. Erm.SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vorotan qoyulmuşdur.

**Ucan -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Uçan kimi əksini tapmışdır (143, s.90). Qafqazın 5 verstlik xəritəsində (348, s.251) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 62 nəfər, 1873 - cü ildə 235 nəfər, 1886-cı ildə 364 nəfər, 1897-ci ildə 444 nəfər, 1908-ci ildə 300 nəfər, 1914 - cü ildə 318 nəfər, 1916-cı ildə 480 nəfər (415, s.22-23, 108-109), 1918-ci ildə 300 nəfər (309, s.220) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309, s.221), Türkiyənin Muş, Van qəzalarından köçürülən ermənilər burada yerləşdirilmişdir (85, s. 108-109). İndi ermənilər yaşayır.

Toponim türk mənşəli uc etnoniminə (238, s.147, 172, 184) cəmlik bildirən -an şəkilçisinin artırılması ilə düzəlib «ucların yaşadığı yer, uclara məxsus kənd» deməkdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Uşi -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 4 km şərqdə yerləşir. Azərbaycanlıların həyatı ilə bağlı IX-XI əsrlərə aid tarixi abidələr indi də durur. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.162), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.89), Qafqazın 5 verstlik xəritəsində (348, s.256) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 167 nəfər, 1873 - cü ildə 909 nəfər, 1886-cı ildə 1105 nəfər, 1897-ci ildə 1249 nəfər, 1908-ci ildə 1360 nəfər, 1914 - cü ildə 1444 nəfər, 1916-cı ildə 1486 nəfər (415, s.22-23, 108-109), 1918-ci ildə 1380 nəfər (309, s.219), 1919 - cu ildə 500 nəfər (415, s.108-109) yalnız

azərbaycanlılar yaşamışdır. 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309, s.219), 1920-ci ildə buraya Türkiyədən köçtirülən ermənilər yerləşdirilmişdir. Azərbaycanlılardan sağ qalanları ata yurdlarına indiki Ermənistanda sovet hökuməti qurulandan sonra dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 291 nəfər, 1926-cı ildə 296, 1931-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 108-109). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılıb zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim türk dilində «yüksəklik, dağın zirvəsi» mənasında işlənən uç (uş) sözü (339, s.585) əsasında əmələ gəlmişdir. Türk dilində uş//uç sözü «son», «başlanğıc» (359,l (2), s.1719, 1771), «yuxarı», «zirvə», «qıraq, kənar» (339, s.585) mənalarında işlənir. Eyni zamanda qaraqalpaq dilində «dağın zirvəsi» mənasını **uşa** sözü ifadə edir (339, s.585). Toponimin sonundakı «i» topoformant kimi çıxış edir. Relyef əsasında yaranan sadə toponimdir.

## Ü

**Üləşik -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Axta (Razdan) rayonunda kənd. Rayon mərkəzindən 18 km şimal-qərbdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində, Təkəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.252) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Ulaşik formasında qeyd edilməklə onun qədim və ya başqa adının Ulyaşeyx olduğu da göstərilir (415, s.18). Kənddə 1831-ci ildə 66 nəfər, 1873 - cü ildə 225 nəfər, 1886-cı ildə 313 nəfər, 1897-ci ildə 337 nəfər, 1908-ci ildə 425 nəfər, 1914 - cü ildə 733 nəfər, 1916-cı ildə 385 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19, 102-103). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə 121 nəfər, 1926-cı ildə 209 nəfər, 1931-ci ildə 302 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18-19, 102-103). 1950-ci ildə SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar öz doğma kəndlərindən zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim ulaş tayfa adına (238, s.304) cəmlik bildirən -ik şəkilçisinin qoşulması yolu ilə düzəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Üç ağac** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda oronim. Oronim üç sayı ilə qədimdə uzunluq ölçü vahidi kimi ışlənmiş ağac sözünün (ağac 67 km) birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Üçdüz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonunda qışlaq. Toponim say bildirən üç sözü ilə relyef bildirən düz sözü əsasında formalaşmışdır. Mürəkkəb quruluşlu toponimdir.

**Üçkilsə -** İndi Ermənistan adlanan respublikada inzibati rayon. 1930 - cu ilin sentyabrın 9-da yaranmışdır. Rayon 1945-ci il martın 3-nə kimi Vağarşabad adlanmışdır. 3 mart 1945-ci ildən Eçmiədzin adlanır. XI əsrə qədər rayonun ərazisi ərəblərin işğalı altında olmuş, XI-XIII əsrlərdə səlcuqların, XIV-XV əsrlərdə monqollarm hakimiyyətinə tabe olmuşdur. XV-XVI əsrlərdə Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin hakimiyyətinin tabeliyində, daha sonra 1502-1827-cı illərdə İrəvan xanlığının inzibati ərazi bölgüsünə daxil olmuşdur.

1827-cı ildə Rusiya tərəfindən işğal edildikdən sonra yeni yaranan inzibati ərazi bölgüsünə əsasən rayonun ərazisinin bir hissəsi İrəvan quberniyasının İrəvan qəzasına, bir hissəsi isə Eçmiədzin qəzasının tərkibində olmuşdur. İndiki Eçmiədzin rayonunun köklü sakinləri azərbaycanlılar olmuşdur. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinə əsasən 1828-30 - cu illərdə buraya İranın Xoy və Salmas vilayətlərindən, Türkiyənin Van, Sasun, İqdır, Sürməli vilayətlərindən ermənilər köçürülmüşdür. Ermənilərin sayı 1918-ci il qırğınlarmdan sonra daha da artmışdır (415, s.150153, 167). 1918-19cu (309, s.218221), 1948-53 - cü illərdə rayondakı azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi rayonda yalnız ermənilər yaşayır. Halbuki rayonda 1831-ci ildə 5317 nəfər, 1873 - cü ildə 13795 nəfər, 1886-cı ildə 14929, 1897-ci ildə 18006 nəfər, 1922-ci ildə 4171 nəfər, 1926-cı ildə 5489 nəfər, 1931-ci ildə 5358 nəfər azərbaycanlı yaşamışdır (415, s.149-151).

Rayonun adı IV əsrdə (303 - cü il ) tikilən məbədin adı (ASE, IV c., B., 1980, s.123) əsasında yaranmışdır. Adı əvvəlcə dəyişdirilib Vağarşabad qoyulmuşdur. Erm.SSR AS RH-nin 12.lll.1945-ci il fərmanı ilə adı yenidən dəyişdirilib Eçmiədzin adlandırılmışdır.

**Üçtəpələr -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonu ərazisində yaşayış məntəqəsi. Üçtəpələr dağının ətəyində, Yeni Bayazid yolunun ağzında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.255) qeyd edilmişdir.

Kənd Üçtəpələr dağının ətəyində yerləşdiyi üçün Üçtəpələr adı almışdır. Bu toponim say bildirən üç və relyef bildirən təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Üçtəpələr -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində gözətçi məntəqəsi. 1897-ci ildə burada 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83). XX əsrin əvəllərində ləğv edilmişdir.

**Üçüncü Qarakilsə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 30 km məsafədə yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun

tabeliyində olmuşdur. Sıra bildirən «üçüncü» sözü ilə Qarakilsə oykonimi əsasında əmələ gəlmişdir. Üçüncü fərqləndirici əlamət bildirən sözdür. Mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dzoraşen (Dərəkənd) qoyulmuşdur.

# F

**Fərrux -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənd. Yaycı kəndinin yaxınlığında, Zəngi çayının sağ axarında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.256) qeyd edilmişdir.

Kənddə əvvəllər azərbaycanlılar yaşamışdır. Sonra bura ermənilər köçürülmüş və azərbaycanlılar sıxışdırılmışdır. 1897-ci ildə kənddə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.18-19). XX əsrin əvəllərində, 1905-1906-cı ildə baş verən erməni azərbaycanlı müharibəsi nəticəsində 1906-cı ildə azərbaycanlılar tarixi torpaqlarından qovulmuş və kənddə yalnız ermənilər yaşamağa başlamışdır.

Toponim şəxs adı əsasında düzəlmiş antropotoponimdir. Quruluşca sadə toponimdir.

# X

**Xalac -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, ındi Qafan rayonunda kənd. Rayon mərkəzindən şimal-şərqdə Xalacçayın sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.258) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 23 nəfər, 1873 - cü ildə 34 nəfər, 1886-cı ildə 308 nəfər, 1897-ci ildə 329 nəfər, 1904 - cü ildə 319 nəfər, 1914 - cü ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 132 nəfər, 1926-cı ildə 94 nəfər, 1931-ci ildə 114 nəfər (415,s.56-57, 134-135), 1939-cu ildə 780 nəfər (85, s.155) azərbaycanlı yaşamışdır. Kəndin sakinləri 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən deportasiya olunublar. İndi burada ermənilər yaşayır.

Toponim xalac qədim türk tayfasının adı (228, s.35; 299, s.635) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Xalacçay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Rayondakı Xalac kəndinin ərazisindən axır. Xalac adlı türk etnonimi (228, s.35) əsasında yaranmışdır. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Xalaclar yurdu -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda yurd. Rayondakı Qovuşuq kəndinin Soğanlı yaylağında yerləşir (211, s.198). Toponim xalac türk tayfa adı ilə (299, s.635) Azərbaycan dilində «yaşayış yeri, məskən» mənasında işlənən yurd sözündən (10, s.568) əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xalisa -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə, Vedi çayından ayrılan arxın yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.259) qeyd edilmişdir. Erməni mənbələrində kəndin başqa adının Xalisa Gyuley yurd olduğu göstərilir(415, s.86).

Kənddə 1831-ci ildə 149 nəfər, 1873 - cü ildə 864 nəfər, 1886-cı ildə 960 nəfər, 1897-ci ildə 1165 nəfər, 1904 - cü ildə 957 nəfər, 1914 - cü ildə 1053 nəfər, 1916-cı ildə 1159 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-ci illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar.

Xaricdən (İran və Türkiyədən) köçürülən ermənilər bu kəndə də yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 311 nəfər azərbaycanlı, 290 erməni, 1926-cı ildə 331 nəfər azərbaycanlı, 240 nəfər erməni, 1931-ci ildə 588 nəfər azərbaycanlı, 276 erməni (415, s.86-87, 154-155), 1972-ci ildə 1500 dən artıq azərbaycanlı, 600-ə qədər erməni yaşamışdır.

1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olundular. İndi burada yalnız ermənilər yaşayır.

Toponim «dövlət torpağı, dövlətə məxsus olan yer» mənasında işlənən ərəb mənşəli xalisə sözündən (104, s.683) əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Xalı kənd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq. Çaykənd kəndinin yaxınlığında yerləşmişdir. Tarixən kənd olmuş, sonradan sakinləri Çaykəndə köçmüşdür. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). Toponim «sahibsiz, yiyəsiz, tutulmamış, boş» mənasında işlənən xali (Azərbaycan dilinin qərb dialektində «xalı» formasında «əkilən torpaq sahəsinin əkilməmiş hissəsi» mənasında işlənir) sözü ilə (12, s.296), kənd çoğrafi nomeninin birləşməsi əsasında əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Xanazax -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 37 km məsafədə yerləşir. Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 22 nəfər, 1873 - cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415,s.112). 1877-78-cı illərdə azərbaycanlılar kənddən sıxışdırıhb çıxarılmışdır. İndi burada ermənilər yaşayır.

Toponim mənşəcə fars dilinə mənsub olan «ev» mənası bildirən, türk dillərində «kənd», «yaşayış yeri» mənasında işlənən xana (339, s.590) sözü əsasında formalaşmışdır.

**Xanım yurdu -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmsəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Xanım şəxs adı ilə «yaşayış yeri, məskən» mənasında işlənən yurd sözünün (10, s.568) birləşməsindən əmələ gəlib, «Xanımın yaşadığı yer, məskən» mənasını bildirir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xanmədin yaylası -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Saral kəndindən cənubda yerləşir. Xanməd şəxs adı əsasında formalaşan antropooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Xanlıq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində dəyirman. 1897-ci ildə burada 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83).

Dəyirman Musaxan Makinskiyə məxsus olmuşdur (415, s.82).

**Xanolan -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmsəddin rayonunda qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində «varlı, ağa, mülk sahibi» mənasında işlənən xan sözü ilə Azərbaycan dilində «yaşayış yeri, məskən» anlayışını verən olan (olacaq mənasında) sözünün birləşməsindən əmələ gəlib, «Xanın olduğu yer» mənasını ifadə edir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xancallı -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd olmuşdur. Rayon mərkəzindən 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 2110 m hündürlükdə yerləşirdi. Erməni mənbələrində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir və eyni zamanda qarapapaqlar müstəqil xalq kimi təqdim edilir (415, s.20). Halbuki qarapapaqlar müstəqil xalq yox, azərbaycanlılarn etnoqrafik qruplanndan biri və peçeneqlərə daxil olan tayfalardan birinin adıdır (245, s.42).

Kənddə 1886-cı ildə 178 nəfər, 1897-ci ildə 253 nəfər, 1908-ci ildə 303 nəfər, 1914 - cü ildə 392 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 1915-cı ildə azərbaycanlılar ermənilər tərəfindən öz kəndlərindən qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 95 nəfər, 1926-cı ildə 137 nəfər, 1931-ci ildə 134 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104-105). 40-cı illərdə kənd ləğv edilərək əhalisi Balıqlı kəndinə köçürülmüşdür. İndi xaraba kənddir.

Toponim xancallı tayfa adı əsasında yaranmış etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Xancığaz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Bozabdal dağının ətəyində, Pəmbək çayının sol sahilində yerləşir. Kəndin adı erməni mənbələrində Xancuğaz (415, s.52), Qafqazın 5 verstlik xəritəsində Xancuqaz (348, s.260) formasında qeyd edilmişdir.

Erməni mənbələrində kəndin qədim adının Xuncuğaz olduğu göstərilir (415, s.52). Kənd İbrahim adlı xana məxsus olmuşdur. Ona görə də kənd İbrahimli də adlanırmış (415, s.52).

Kənddə 1831-ci ildə 33 nəfər, 1873 - cü ildə 295 nəfər, 1886-cı ildə 345 nəfər, 1897-ci ildə 393 nəfər, 1908-ci ildə 523 nəfər, 1914 - cü ildə 650 nəfər, 1916-cı ildə 576 nəfər, 1919 - cu ildə 582 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.52-53, 130-131). 1919 - cu ilin yazında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra Kəndin sakinləri 1920-ci ilin axırlarında öz ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 712 nəfər, 1926-cı ildə 697 nəfər, 1931-ci ildə 880 nəfər (415, s.52-53, 130-131), 1939 - cu ildə 822 nəfər, 1959 - cu ildə 624 nəfər, 1970-ci ildə 1041 nəfər, 1979 - cu ildə 1091 nəfər (427, s.837), 1987-ci ildə 1220 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırında Ermənistan dövləti kəndin sakinlərini qırğınlarla deportasiya etmiş və kəndə erməniləri yerləşdirmişdir. İndi ermənilər yaşayır.

Toponim «varlı», «sahibkar», «ağa» mənasında, işlənənxan sözünə kiçiltmə mənası bildirən -cığaz şəkilçisinin artırılması yolu ilə əmələ gəlib, kiçik xana məxsus kənd mənasını ifadə edir.

Erm.SSR AS RH-nin l.VI.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Gözəldərə, sonra Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə bir daha dəyişdirilib Aznavadzor qoyulmuşdur.

**Xaraba Kotanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Böyük Gilanlar kəndinin yaxınlığında, Allahüəkbər dağının ətəyində yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.261).

Kənddə 1873 - cü ildə 64 nəfər, 1886-cıildə 105 nəfər, 1897-ci ildə 253 nəfər, 1904 - cü ildə 174 nəfər, 1914 - cü ildə 219 nəfər, 1916-cı ildə 207 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-19 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, kəndə kürdlər yerləşdirilmişdir.

1920-ci ildə ləğv edilmişdir. Toponim «dağıdılmış, viran edilmiş» mənasında işlənən xaraba sözü ilə -lı mənsubluq bildirən şəkilçi qəbul etmiş kotan türk etnonimindən (286, s.50) əmələ gəlmişdir. XIII-XIV əsrlərdə Ön Asiyada yaşayan türk tayfalarından birinin adı godan adlanırdı (210, s.8).

Görünür, godan tayfa adı sonralar kotan formasına düşmüşdür. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xaraba Sarvanlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd.

Kənddə 1831-ci ildə 29 nəfər, 1873 - cü ildə 48 nəfər, 1886-cı ildə 44 nəfər, 1897-ci ildə 52 nəfər, 1908-ci ildə 95 nəfər, 1914 - cü ildə 100 nəfər, 1916-cı ildə 70 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. Burada 1922-ci ildə 36 nəfər, 1926-cı ildə 32 nəfər, 1931-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-ci ildə azərbaycanlılar tarixi-etnik torpaqlarından zorla çıxarılaraq Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim «dağılmış, viran edilmiş» mənasında işlənən xaraba sözü ilə gəngərli türk tayfasından olan sarvanlar etnonimindən (386, s.537) əmələ gəlmişdir.

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

1920-ci ildə kəndin adı dəyişdirilib Nor Qoxb (Yeni Qoxb) qoyulmuşdur.

**Xaratgah** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican rayonunda qışlaq. Polad Ayrım kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.30-31). 1908-ci ildə ləğv edilmişdir.

Toponim xaratlı (toponimdə -lı şəkilçisi düşüb) türk tayfa adına «qayalıqda, dağda təbii və ya süni oyuq, mağara» mənasında işlənən gah//kaha sözünün (11, s.26) birləşməsindən əmələ gəlib «Xarat tayfasının yaşadığı kaha yanında qışlaq» mənasında bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xarratlı** - İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-şərqdə yerləşir. Zəngibasar rayonu təşkil edilənə qədər (14 yanvar 1969) Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.261).

Kənddə 1831-ci ildə 183 nəfər, 1873 - cü ildə 303 nəfər, 1886-cı ildə 245 nəfər, 1897-ci ildə 202 nəfər,1908-ci ildə 373 nəfər, 1914 - cü ildə 571 nəfər, 1916-cı ildə 192 nəfər, (415, s.48-49, 128-129), 1918-ci ildə 496 nəfər (309, s.216), 1919 - cu ildə 160 nəfər (415, s.128-129) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ilin payızında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.216, 222). Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 61 nəfər azərbaycanlı, 1926-cı ildə 102 nəfər azərbaycanlı, 62 erməni, 1931-ci ildə 136 nəfər azərbaycanlı, 59 erməni yaşamışdır(415, s.48-49, 128-129).

1986-cı ildə çap edilmiş «Ermənistan və ətraf vilayətlərinin toponimlər lüğəti»ndə azərbaycanlılar erməni kimi təqdim edilir və burada guya 1930 - cu ilə kimi yalnız ermənilər yaşamışdır (427, s.423).

SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar zorla tarixi torpaqlarından deportasiya edilib Azərbaycana köçürülmüş və xaricdən (İran, Türkiyə, Livan) köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim sənət bildirən xaratlı türk tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Sadə quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Arevabuyr qoyulmuşdur.

**Xartlıq** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda kənd. Qaranlıq kəndinin yaxınlığında, Qanlıq çayının yanında, Şalıbulaq dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.262).

Kənddə 1873 - cü ildə 144 nəfər, 1886-cı ildə 162 nəfər, 1897-ci ildə 190 nəfər, 1914 - cü ildə 282 nəfər, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s.66-67, 140-141). 1918-ci ildə kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq tarixi torpaqlarından deportasiya olunmuşdur və 1930 - cu ildə kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk dilində «uca, hündür, yaşlı, qoca» mənasında işlənən qart (299, s.429) sözünə -lıq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Azərbaycan dilində q~x səsəvəzlənməsi qanunauyğun haldır (216, s.20, 117). Relyef əsasında yaranan düzəltmə toponimdir.

1918-ci ildə kəndin adı dəyişdirilib Tsaxkaşen qoyulmuşdur. 1930 - cu ildən sonra mənbələrdə adı çəkilmir.

**Xatın bağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə burada 27 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). XX əsrin əvvəllərində, 1906-cı ildə erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar qırğınlarla qovulmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim sintaktik yolla yaranan mürəkkəb quruluşlu toponimdir. Birinci tərəfi qədim türk dilində «qadın» mənasında işlənən xatın, ikinci tərəfi bağ sözündən ibarətdir. Antropotoponimdir.

**Xaçabulaq** - Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim haça sözünün fonetik forması olan xaça sözü ilə «təbii su qaynağı» mənasında işlənən bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Xaçakilsə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Artik rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Xaçkilsə kimi qeyd edilmişdir (143, s.127).

Toponim «cüt, qoşa», «bir-birinə yaxın sivri uclu şiş təpəli iki fiziki-coğrafi obyekt» mənasında işlənən xaça sözündən (278, s.147) və «dini məbəd» mənasını bildirən kilsə sözündən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir.

«Xaça» sözü indi Azərbaycan dilində «haça» formasında işlənir. Azərbaycan dilində x~h səsəvəzlənməsi qanunauyğun haldır və bu özünü xansı-hansı, xamusu-hamısı sözlərində göstərir (216,s.20, 117).

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Paros, 30.l.1961-ci il tarixli fərmanı ilə yenidən dəyişdirilərək Nahabetavan qoyulmuşdur.

**Xaçkənd** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 28 km məsafədə yerləşir.

Toponim Azərbaycan dilində işlənən xaç və kənd sözlərindən əmələ gəlmişdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Debed qoyulmuşdur.

**Xeyirbəyli** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 36 km qərbdə, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.264).

Kənddə 1831-ci ildə 301 nəfər, 1873cüildə 342 nəfər, 1886-cı ildə 379 nəfər, 1897-ci ildə 466 nəfər, 1908-ci ildə 414 nəfər, 1914-cüildə 438 nəfər, 1916-cı ildə 416 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildəkənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar deportasiya olunmuş və kəndə ermənilər köçürülmüşdür. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 334 nəfər azərbaycanlı, 11 r,erməni, 1926-cı ildə 266 nəfər azərbaycanlı, 116 erməni, 1931-ci ildə 327 nəfər azərbaycanlı, 119 erməni yaşamışdır (415,,,s.62-63, 138-139). SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-49cu illərdə tarixi-etnik torpaqlarından zorla...Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim xeyirbəyli nəsil adı əsasında əmələ gəlib «xeyirbəyli nəslinin yaşadığı kənd» mənasını ifadə edir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 25.V.1967-ci ü fərmanı ilə adı dəyişdirilib Yervandaşat qoyulmuşdur.

**Xərəvə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qursalı kəndində yerləşir. Azərbaycan dilinin qərb dialektində xaraba mənasında işlənən xərəvə sözündən əmələ gəlmişdir. Sadə quruluşlu oronimdir.

**Xıznauz -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 8 km şimal-qərbdə yerləşir.1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Xəzaviz kimi (143, s.163), Qafqazın 5 verstlik xəritəsində Xıznauz formasında (348, s.265) qeyd edilmişdir. Kəndin digər adları Xenanız, Xıznavuz, Xznavuz, Xlavuz, Kiznauz olmuşdur (427, s.378). Kənddə 1828ci, ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay

müqaviləsindən sonra azərbaycanlılar kənddən çıxarılmış, 1828-29 - cu illərdə İranın Xoy vilayətindən köçürülən ermənilər burada yerləşdirilmişdir (427, s.378). İndi ermənilər yaşayır.

Toponim xız (<ğız <ğuz) etaoniminə (ərəb mənbələrində oğuz etnonimi ğız, ğuz formasında qeyd edilir; 238, s.138; 238, s.50) cəmlik bildirən -uz (<avuz, <vuz) şəkilçisinin (399, II, s.459) artırılması ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 4.V.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Araqats qoyulmuşdur.

**Xış** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Baharlı kəndinin yaxınlığında, Kığı çayının sol sahilində yerləşirdi. Erməni mənbələrində kəndin qədim adının Xıçi, Xeç olduğu göstərilir (415, s.56). 1897-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s.56-57). XX əsrin əvəllərində, 1905-1906-cı illərdə erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim Azərbaycan dilində «güney yamacında çöküntü sularının fiziki aşırımasında əmələ gələn çoxtipli qırıntı» mənasında işlənən xıç sözü (253, s.131) əsasında əmələ gəlmişdir. «Xış» xıç sözünün fonetik formasıdır. Azərbaycan dilində ç~ş səs əvəzlənınəsi (açdı-aşdı, qaçdı-qaşdı) qanunauyğun haldır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Xnut -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Kəndin digər adı Xnut Qaraqoyunlu olmuşdur. Kolanlı kəndinin yanında, Cığın dərəsində, Cığınsu çayının yanında yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.266).

Kənddə 1873 - cü ildə 114 nəfər, 1886-cı ildə 143 nəfər, 1897-ci ildə 253 nəfər, 1904 - cü ildə 315 nəfər, 1914 - cü ildə 346 nəfər, 1916-cı ildə 213 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişlər. 1922-ci ildə burada 42 nəfər azərbaycanlı yaşamışdır (415, s.154-155). 1924-25-cı illərdə azərbaycanlılar buradan köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk tayfası olan Hun (xun) etnoniminə (245, s.38; 286, s.3132) cəmlik bildirən -ut şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Xoznavar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Rayon mərkəzindən 45 km məsafədə yerləşir. Kəndin qədim adı Xaznavar, Xandzaberd olmuşdur (415, s.28). 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır.

1828-ci il Türkmənçay müqaviləsindən sonra kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 28 nəfər, 1873 - cü ildə 86 nəfər, 1897-ci ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 112-113). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. 1918-ci ildən sonra burada yalnız ermənilər yaşayır.

Toponimin ilkin, qədim formasına (Xaznavar//Xandaberd) əsasən bu qənaətə gəlirik ki, kəndin adı qədim türk tayfalarından biri olan gencək (>xazna >xandza) etnonimi ilə Azərbaycan dilində «möhkəmləndirilmiş istehkamı olan kənd», «qala» mənasında işlənən var (339, s.113) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir.

**Xosrov -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Kusqayasu çayının yanında yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.104) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 155 nəfər, 1886-cı ildə 182 nəfər, 1897-ci ildə 269 nəfər, 1904 - cü ildə 199 nəfər, 1914 - cü ildə 388 nəfər, 1916-cı ildə 315 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-ci ildə kəndin sakinləri qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz kəndlərinə dönə bilmişdir. 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 34 nəfər, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). Kənd 1930 - cu illərin ortalarında ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Xosrov şəxs adı əsasında yaranmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Xosrov meşəsi -** İrəvan quberniyasının İrəvan qəzasında,indi Vedi (Ararat) rayonunda meşə sahəsi. Bu meşəni II Xosrov ov üçün saldırmışdır (99, s.462). Rayonda 1930 - cu illərə qədər fəaliyyət

göstərmiş Xosrov kəndinin ərazisində yerləşir və meşənin adı eyni adlı kəndin adi əsasında yaranmışdır. İndi dövlət statuslu qoruqdur.

**Xotanan -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.268).

Kənddə 1873 - cü ildə 53 nəfər, 1886-cı ildə 58 nəfər, 1897-ci ildə 74 nəfər, 1904 - cü ildə 91 nəfər, 1914 - cü ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.28-29, 112-113). 1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuş, sakinləri tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s.206). 1920-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim xotan türk tayfa adına (275, s.399) cəmlik bildirən -an şəkilçisinin artırılması ilə düzəlmişdir və «xotan tayfasının (Xotanların) yaşadığı yer» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Xocayarlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktembeıyan) rayonu ərazisində kənd. kƏik din qədim adı Xocaayarlı olmuşdur (415, s.62). Rayon mərkəzində 1415 km məsafədə, Araz çayının sol sahilində yerləşirdi! Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.266). Kəndin adı həm də Xocayar formasında mənbələrdə öz əksini tapmışdır (309, s.219). Kənddə 1831-ci ildə 85 nəfər, 1873 - cü ildə 176 nəfər, 1886-cı ildə 207 nəfər, 1897-ci ildə 210 nəfər, 1908-ci ildə 236 nəfər, 1914 - cü ildə 250 nəfər, 1916-cı ildə 229 nəfər (415, s.62-63, 138-139), 1918-ci ildə 236 nəfər (309, s.219), 1919 - cu ildə 200 nəfər (415, s. 138-139) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ilin sonlarında azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğıhlarla deportasiya olunmuşdur. Kənd 1924 - cü ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Xocaayarlı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Xoşkotan -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında,indi Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən16 km məsafədə yerləşir.

Toponim qədim türk dilində «düşərgə»,«yurd», «icma», «kiçik yurd» mənasında işlənən koş (>xoş) sözü ilə (359, II (1), s.636) və «heyvanların salındığı yer», «şəhər, qala divarları» (339, s.295, 296), «tövlə», «yaşayış məntəqəsinin (aulun) yaxınlığında axşamlar qoyunların salındığı yer» (359, II (1), s.606-607), «heyvanların salındığı yer, «şəhər qala divarları» (339, s.295, 296) mənasında işlənən kotan sözünün birləşməsindən əmələ gəlib, «qoyunların saxlandığı yer, yurd yaxınlığında olan kənd» mənası ifadə edir. «Kotan» sözü türk dillərində kutan formasında «xutor, köçəri çobanların dağdakı otlağı» mənasında işlənir (339, s.323). Təsviri toponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdmlib Voskevaz qoyulmuşdur.

**Xırdacalalar -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Kalinino rayonunda sahə, yer. Rayonun Cücəkənd (Qızıl Şəfəq) kəndinin cənub-şərq tərəfində yerləşir. Toponim Azerbaycan dilində «kiçik, alçaq, geniş olmayan» mənasında işlənən xırda sözü ilə -lar şəkilçisi qəbul etmiş «bataqlıq yerdə olan otlaq» mənasında işlənən cala sözünün birləşməsində əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Xustup -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dağ. Oronim qədim türk tayfası-oğuz etnoniminin fonetik forması olan xus (<quz <ğuz) tayfa adına türk dilində «dib, dağın dibi, dağ ətəyi», «aşağı, çayın aşağı axarı» mənasında işlənən tup (tub, tüp) sözünün (339, s.565) birləşməsindən əmələ gəlmişdir. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

## H

**Haqqıxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. 1930 - cu ilin axırlarına kimi, Dilican rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində kəndin adı Haxkıxlı, Haxkıxlı türki (Türk Haxkıxlısı - İ.B.) formalarında qeyd edilmişdir (415, s.32).

Kənddə 1897-ci ildə 372 nəfər, 1904 - cü ildə 347 nəfər, 1916-cı ildə 450 nəfər, 1919 - cu ildə 121 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 114-115). 1919 - cu ilin mart ayında kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalmış və deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulduqdan sonra sağ qalan haqqıxlılar kəndlərinə dönə bilmişlər.

Burada 1922-ci ildə 306 nəfər, 1926-cı ildə 331 nəfər, 1931-ci ildə 412 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33, 114-115). 1988-ci ilin noyabr ayının axırlarında ermənilər kəndə təcavüz etmiş, sakinləri Ermənistan dövlətinin göstərişi ilə deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk mənşəli haqqıxlı etnonimi əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vurğun (Azərbaycan şairi S.Vurğunun şərəfinə), Ermənistan prezidentinin 19.V.1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Hovk qoyulmuşdur.

**Hallavar -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 17 km cənub-qərbdə, Yuxarı Kilsə və Heydərli kəndləri arasında, Hallavar çayının yanında, Pəmbək çayının sağ sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.55).

Kənddə 1831-ci ildə 111 nəfər, 1873 - cü ildə 625 nəfər. 1886-cı ildə 664 nəfər, 1897-ci ildə 913 nəfər, 1908-ci ildə 1062 nəfər, 1914 - cü ildə 445 nəfər, 1916-cı ildə 781 nəfər, 1919 - cu ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s.52-53, 130-131). 1919 - cu ilin martında kənd erməni təcavüzünə məruz qalmış yə azərbaycanlılar qırğınlarla tamamilə deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz ata-baba torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 644 nəfər, 1926-cı ildə 709 nəfər, 1931-ci ildə 902 nəfər (415, s.52-53, 130^131), 1987-ci ildə 276 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar qırğınlarla Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim, fikrimizcə, türk dilində «müxtəlif rəngli, «müxtəlif rəngli bitki və torpaq olan düzənlik» mənasında işlənən ala sözünə (365, s.129130; 339, s.44) «möhkəmləndirilmiş istehkamı olan kənd, qala, bənd» mənasında işlənən var sözünün (339, s.113) birləşməsi yolu ilə əmələ gəlmişdir. Toponimin əvvəlindəki «h» səsi artırılmış səsdir. Belə ki, Azərbaycan dilində bəzi saitlə başlanan sözlər tələffüzdə «h» səsi əlavə edilmiş formada dəyişir: araba-haraba, açar-haçar, elə-helə və s. Yəni söz; də səsartırma hadisəsi baş verir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Hamamlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. İndiki Ermənistanda inzibati rayon. Pəmbək vadisində, , Pəmbək çayının yuxarı axarında yerləşir. Rayonun ərazisi IIII-V əsrlərdə Quqark əyalətinin Taşir qəzasına daxil olmuşdur. VI-XI əsrlərdə ərəblərin işğalı altında olmuş, XII-XIII əsrlərdə Səlcuq türklərinin hakimiyyəti altına keçmişdir. XIV-XVIII əsrlərdə monqol-tatarların tabeliyində olmuşdur. Rayon ərazisi 1801-cı ildə Rusiya tərəfindən işğal edilmiş, XIX əsrdə yeni yaradılan inzibati ərazi bölgüsünə əsasən İrəvan quberniyasının Aleksandropol qəzasının tərkibinə verilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra Loru-Pəmbək qəzasına daxil olmuşdur (Erməni Sovet Ensiklopediyası, II c., İrəvan, 1985, s.75; 85, s.331). «İrəvan əyalətinin icmal dəftəri»ndə ' (143, s.132), Qafqazın 5 verstlik xəritəsində (348, s.14) qeyd edilmişdir. 1937-ci ilə kimi Qarakilsə (Quqark) rayonunun tərkibində olmuşdur.

Q.Qeybullayevin yazdığına görə IX əsrin ortalarında alban hökmdarının adı Hamam (Xamam) olmuşdur (287, s.464). Onda bu qənaətə gəlmək olar ki, Hamamlı toponimi Hamam şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Düzəltmə toponimdir.

1937-ci il dekabrın 31-də Hamamlı adlı rayon yaradılmışdır. Erm.SSR AS RH-nin 26.IX.1949 - cu il fərmanı ilə rayonun, eləcə də kəndin adı dəyişdirilib Spitak qoyulmuşdur.

**Hamamlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kərid. Abaran çayının sahilində yerləşirdi. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.114), Qafqazın 5 verstlik xəritəsində (348, s.14) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 340 nəfər, 1886-cı ildə 353 nəfər, 1897-ci ildə 445 nəfər, 1908-ci ildə 600 nəfər, 1914 - cü ildə 636 nəfər, 1916-cı ildə 526 nəfər, 1918-ci ildə 208 nəfər , 1919 - cu ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107; 309, s.219). 1919 - cu ilin mart-aprel aylarında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 96 nəfər, 1926-cı ildə 88 nəfər, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.22-23, 106-107). SSRİ Nazirlər Sovetini xüsusi qərarı ilə 1948-53 - cü illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir, İndi xaraba kənddir.

IX əsrin ortalarında yaşamış alban hökmranının adı Hamam olmuşdur (287, s.464). Fikrimizcə, Hamamlı toponimi Hamam şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Haramlı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonunda kənd.

Kənddə 1831-ci ildə 17 nəfər, 1873 - cü ildə 46 nəfər, 1886-cı ildə 63 nəfər, 1897-ci ildə 79 nəfər, 1904 - cü ildə 84 nəfər, 1914 - cü ildə 102 nəfər, 1916-cı ildə 103 nəfər (415, s.82-84, 152-153), 1918-ci ildə 162 nəfər (309, s.218) yalnız azərbaycanlı yaşamışdır. 1919 - cu ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s.221). İndiki Ermənistanda sovejt hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlalırdan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 22 nəfər azərbaycanlı yaşamışdır (415, s.152-153). 1923-1924 - cü illərdə kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq ata-baba torpaqlarından qovulmuş və kənd 1926-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim tayfa adı əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Hasar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Rayon mərkəzindən 36 km qərbdə, Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində Assar formasında (348, s.21) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 92 nəfər, 1873 - cü ildə 110 nəfər, 1886-cı ildə 114 nəfər, 1897-ci ildə 130 nəfər, 1908-ci ildə 113 nəfər, 1914 - cü ildə 134 nəfər, 1916-cı ildə 76 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 32 nəfər, 1926-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1928-29 - cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1930 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim türk dilində «düzənlikdə qala, istehkamlanmış şəhər» mənasında işlənən hisar (hasar) sözü (339, s.593) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Haxıs -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Əştərək rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşir. Kəndin adı Axiz, Axis formalarında göstərilir (415, s.22). 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Əxis kimi (143, s.162), Qafqazın 5 verstlik xəritəsində Axis formasında (348, s.23) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 93 nəfər, 1873 - cü ildə 182 nəfər, 1886-cı ildə 302 nəfər, 1892-cı ildə 404 nəfər, 1908-ci ildə 365 nəfər, 1914 - cü ildə 920 nəfər, 1918-ci ildə 365 nəfər, 1919 - cu ildə 997 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107; 309, s.219). 1919 - cu ilin sonlarında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişdir. Ermənilərlə yanaşı burada 1922-ci ildə 20 nəfər, 1926-cı ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). 1928-1929 - cu illərdə azərbaycanlılar tamamilə qədim torpaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır. Toponim «çay ağzı, mənsəbi», «keçid» mənasında işlənən ağıs, axız (>aqis>haxis>haxıs) sözü (299, s.21; 339, s.38) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki «h» səsi səsartımı hadisəsi nəticəsində sözə əlavə edilmişdir və toponim tələffüz formasına uyğun qeydə alınmışdır. Azərbaycan dilində saitlə

başlanan bəzi sözlərə tələffüzdə «h» samitinin artırılması qanunauyğun haldır (araba-haraba, açar-haçar, elə-helə). Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 1.XII.1949 - cu il tarixli fərmanı ilə adı dəyişdirilib Zorab qoyulmuşdur.

**Haçaparaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 3 km şimal-qərbdə, Zəngi çayının sağ sahilində yerləşir. Zəngibasar rayonu təşkil edilənədək (14 yanvar 1969) Vağarşabad rayonunun tərkibində olmuşdur. Erməni mənbələrində kəndin tarixi adı Xacaparaq (415, s.82), Azərbaycan mənbələrində Xocəparak (243, s.98) kimi qeyd edilir.

1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.36), Qafqazın 5 verstlik xəritəsində (348, s.263) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 326 nəfər, 1873 - cü ildə 716 nəfər, 1886-cı ildə 753 nəfər, 1897-ci ildə 1059 nəfər, 1904 - cü ildə 992 nəfər, 1914 - cü ildə 1135 nəfər, 1916-cı ildə 1113 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 492 nəfər, 1926-cı ildə 670 nəfər, 1931-ci ildə 759 nəfər (415, s.82-83, 152-153), 1987-ci ildə 2893 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri - azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya edilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «haçalanmanın başlandığı yer» mənasında işlənən haça sözü ilə (12, s.359), qədim türk dilində «gecələr heyvan salınan, hasarlanmış yer» mənasında işlənən parax sözünün (284 a, s.10) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3 .l.1935-ci il fərmanı ilə adı dəyişdirilib Zəhmət qoyulmuş, Ermənistan prezidentinin 19.IV. 1991-ci il fərmanı ilə yenidən dəyişdirilərək Xaçpar adlandırılmışdır.

**Haçasu** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə yerləşir.

Toponim «haçalanmağın başlandığı yer> mənasında işlənən haça sözü ilə (12, s.359) türk dilində çay mənasında işlənən su sözünün (359, IV(1), s.745; 339, s.528-529) birləşməsindən əmələ gəlmişdir. Əsas çayın bir neçə qola ayrıldığı yerdə salındığı üçün kənd Haçasu adlanmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı 1920-ci ildə kalka üsulu ilə dəyişdirilib Açacur (Haçasu) qoyulmuşdur.

**Hacı Bağır** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Abaran çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.54). 1950-ci illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Hacı Bağır şəxs adı əsasında əmələ gəlmişdir. Kənd Hacı Bağır adlı mülkədara məxsus olmuşdur. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Hacı Bayram** - İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 32 km qərbdə, Araz çayının yanında yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə «Hacı Bayram qışlağı» formasında (143, s.48), Qafqazın 5 verstlik xəritəsində «Hacı Bayram» kimi (348, s.54) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 332 nəfər, 1873 - cü ildə 447 nəfər, 1886-cı ildə 434 nəfər, 1897-ci ildə 476 nəfər, 1908-ci ildə 436 nəfər, 1914 - cü ildə 815 nəfər, 1916-cı ildə 444 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.62-63, 138-139). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri -azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 325 nəfər azərbaycanlı, 1926-cı ildə 334 nəfər azərbaycanlı, 13 erməni, 1931-ci ildə 403 nəfər azərbaycanlı, 8 erməni yaşamışdır (415, s.62-63, 138-139). SSRİ hökumətinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-49 - cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Kənd Hacı Bayram adlı şəxs tərəfindən salınmış, ona görə də Hacı Bayram kəndi adlanmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Baxçalar, 3.VII.1968-ci il fərmanı il yenidən dəyişdirilərək Baqaran qoyulmuşdur.

**Hacı Qara -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 12 km qərbdə, Pəmbək çayının sağ sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.91), Qafqazın 5 verstlik xəritəsində (348, s.54) qeyd edilmişdir.

Toponim nəsil adı bildirən Hacı sözü ilə Qara şəxs adından əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 1.III.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Makaraşen, 26.X.1957-ci il fərmanı ilə isə Lernapat qoyulmuşdur.

**Hacı Qara -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 9 km şimalda, Abaran çayının sahilində yerləşir. 1590-cı ildə tərtib edilmiş, «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Hacı Qaralı kimi (143, s.162), Qafqazın 5 verstlik xəritəsində Hacı Qara formasında (348, s.54) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya Türkmənçay müqaviləsindən sonra, 1829 - cu ildə İranın Xoy vilayətindən köçürülmüşdür (427, s.228). Burada ermənilərlə yanaşı 1831-ci ildə 27 nəfər, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Azərbaycanlılar XX əsrin əvvəllərindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi Ermənilər yaşayır.

Toponim Qara Hacılı türk etnoniminin (238, s.16) əsasında əmələ gəlmişdir. Qara Hacılı etnonimi inversiyaya uğrayaraq Hacı Qara, Hacı Qaralı formasma (Yuxarıda göstərdiyimiz kimi, 1590-cı ilə aid mənbədə kəndin adı Hacı Qaralı kimi qeyd edilmişdir; 143, s.162) çevrümişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Aygeşad qoyulmuşdur.

**Hacı Qara yalı -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Quqark rayonunda yal. Rayonun Hallavar kəndinin şimal-şərqində yerləşir. Yalın adı Hacı Qara oykonimi ilə Azərbaycan dilində «dağın ən hündür zirvələrini birləşdirən xətt, dikdir, dağın başı» mənasında işlənən yal sözündən (196, s.37) əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Hacıdur -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indi Allahverdi (Tumanyan) rayonunda kənd. Toponim Hacı şəxs adından «ev, yaşayış yeri» mənasında işlənən tur sözü (359, III (2), s.1446, 1787-1788) əsasında düzəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilərək Tsaxkaşat qoyulmuşdur.

**Hacıqışlaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində qışlaq. Toponim Hacı şəxs adı ilə qışlaq (qışda yaşayış yeri) sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Sovet hökuməti qurulandan sonra rayondakı Getazat kəndinə birləşdirilmişdir.

**Hacı Elyaz -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 7 km şimal-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Hacı İlyas formasında (143, s.36), Qafqazın 5 verstlik xəritəsində Hacı Eylyaz formasında (348, s.55) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Hacı Eylaz (415, s.48), Eylas (419, s.129) formalarında qeyd edilir. Kəndin adı xalq arasında Hacı Elləz formasında işlədilirdi.

Kənddə 1831-ci ildə 445 nəfər, 1873 - cü ildə 1095 nəfər, 1886-cı ildə 1073 nəfər, 1897-ci ildə 1457 nəfər, 1908-ci ildə 1097 nəfər, 1914 - cü ildə 1187 nəfər, 1916-cı ildə 1467 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.48-49, 128-129). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir.

İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma yurdlarına dönə bilmişdir. 1922-ci ildə 582 nəfər azərbaycanlı, 71 erməni, 1926-cı ildə 586 nəfər azərbaycanlı, 50 erməni, 1931-ci ildə 680 nəfər azərbaycanlı, 9 erməni yaşamışdır (415, s.48-49, 128-129). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə kənddə yaşayan azərbaycanlılar zorla Azərbaycana köçürülmüş, İran, Livan, Suriya, Türkiyədən köçürüiən ermənilər burada yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı dəyişdirilib İpəkli qoyulmuşdur. Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə yenidən dəyişdirilib «Masis sovxozu» qəsəbəsi adlandırılmışdır.

**Hacılar -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Eçmiədzin) rayonunda kənd. Rayon mərkəzindən 5 km şimal-şərqdə, Kasax çayının sol sahilində yerləşir. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.162), Qafqazın 5 verstlik xəritəsində (348,

s.54) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra buraya İrandan köçürülən ermənilər yerləşdirilmişdir (415, s.583-586). Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 61 nəfər, 1873 - cü ildə 112 nəfər, 1886-cı ildə 144 nəfər, 1897-ci ildə 180 nəfər azərbaycanlı yaşamışdır (386, s.82-83, 152-153). 1904, 1914 - cü illərdə kənddə yaşayan azərbaycanlılar və ermənilər ümumi şəkildə göstərilmişdir. 1918-ci ildə kənddə 248 nəfər azərbaycanlı yaşamışdır (309, s.221).

Kənddə yaşayan azərbaycanlılar 1919 - cu ildə ermənilərin təcavüzünün qurbanı olaraq tarixi-etnik torpaqlardan deportasiya olunmuşdur (309, s.221). Indiki Ermənistanda sovet hökuməti qurulandan sonra - 1922-ci ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s.152-153). 1923 - cü ildə onlar yenidən ata-baba torpaqlarından qovulmuşdur. İndi ermənilər yaşayır.

Toponim kəngərli türk tayfasından olan hacılar etnonimindən (386, s.537) əmələ gəlmişdir. Etnotoponimdir. Qıruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Mrqastan qoyulmuşdur.

**Hacıların bulağı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) (rayonunda bulaq. Hacılar nəsil adı əsasında yaranan patronomik hidronimdir.

**Hacı Muxan -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Kəvər (Kamo) rayonunda kənd. Kəndin ilk adı Hacı Mumuxan olmuşdur (415, s.68). Toponimi ikinci komponentinin ilk hecası («mu») ixtisar edilmiş və mənbələrdə Hacı Muxan kimi qeyd edilmişdir (415, s.68). Rayon mərkəzindən 16 km cənub-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.54).

Kənddə 1876-cı ildə 437 nəfər, 1886-cı ildə 610 nəfər, 1897-ci ildə 882 nəfər, 1904 - cü ildə 1034 nəfər, 1914 - cü ildə 1080 nəfər, 1916-cı ildə 1255 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.70-71, 144-145). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur (309, s.220). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönmüşlər. Artıq kəndə Kəvər (Kamo) və Qaranlıq (Martuni) rayonlarındakı kəndlərdən köçürülən ermənilər yerləşdirilmişdir. 1922-ci ildə burada 100 nəfər azərbaycanlı, 339 erməni, 1926-cı ildə 115 nəfər azərbayeanlı, 682 nəfər erməni, 1931-ci ildə 195 nəfər azərbaycanlı, 1064 erməni yaşamışdır (415, s.70-71, 144-145). 1948-1953 - cü illərdə azərbaycanlılar zorla kənddən köçürülmüşdür. İndi kənddə yalnız ermənilər yaşayır.

Toponim Hacı Mumuxan (Hacı Muxan) şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı 1924 - cü ildə dəyişdirilib Muxan qoyulmuşdur. Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə yenidən dəyişdirilərək kənd Dzovazard adlandırılmışdır.

**Hacı Nəzər -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-qərbdə yerləşir. Kəndin adı erməni (415, s.42), rus (348, s.54) mənbələrində «Hacı Nəzər qulu» kimi də göstərilir.

Toponim Hacı Nəzər şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Kənd Hacı Nəzər adlı şəxs tərəfindən salınmışdır. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Kamo qoyulmuşdur.

**Hacı Xəlil** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Alagöz dağının ətəyində, Düzkənd kəndinin yaxınlığında yerləşir.

Alagöz (Araqadz) rayonu təşkil edilənədək (15 mart 1972) Abaran rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s. 109-111), Qafqazın 5 verstlik xəritəsində (348, s.55) qeyd edilmişdir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə bu kəndin Abaran nahiyyəsində yerləşdiyi göstərilir və həmin nahiyyədə Xəlil Məhəmməd oğlu adlı bir nəfərin adına torpaq sahəsi olmuşdur (143, s.109111). Ehtimal ki, həmin şəxs (Xəlil) kənd saldırıb və kənd də (Hacı Xəlil kəndi) onun adı ilə adlarıdırılıb. Kəndin X əsrdə salındığı qeyd edilir (Ermənistan Sovet Ensiklopediyası, V c., İrəvan, 1976, s.110). Bu kəndin sakinləri azərbaycanlılar olmuşdur. Türkmənçay müqaviləsindən sonra, 1830 - cu illərdə xaricdən köçürülən ermənilər ,bu kənddə yerləşdirilmişdir (Ermənistan Sovet Ensiklopediyası, V c., İrəvan, 1976, s.110).

Toponim Hacı Xəlil şəxs adı əsasında formalaşmış antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 15.VII.1946-cı il fərmanı ilə dəyişdirilib Tsaxkahovid qoyulmuşdur.

**Hacxəlil ocağı** - Kalinino rayonundakı Cücəkənd (Qızıl Şəfəq) kəndində ocaq.

**Heydərbəy** - Tiflis quberniyasının Borçalı qəzasında, indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. Kənddə ermənilərlə yanaşı 1831-ci ildə 4 nəfər, 1886-cı ildə 16 nəfər, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.78-79, 148-149). XX əsrin əvvəllərində, 1906-cı ildə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim şəxs adı (Heydərbəy) əsasında əmələ gəlmişdir. Yəni kənd Heydər bəy tərəfindən salındığı üçün Heydərbəy kəndi adlandırılmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 1.VI.1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Sverdlov qoyulmuşdur.

**Heydərli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-qərbdə, Hallavar və Böyük su adlanan kiçik çayların sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.55).

Kənddə 1831-ci ildə 26 nəfər, 1873 - cü ildə 158 nəfər, 1886-cı ildə 175 nəfər, 1897-ci ildə 265 nəfər, 1908-ci ildə 357 nəfər, 1914 - cü ildə 461 nəfər, 1916-cı ildə 343 nəfər, 1919 - cu ildə 1328 nəfər azərbaycanlı yaşamışdır (415, s.52-53, 130-131). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq kəndin sakinləri - azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar tarixi torpaqlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 294 nəfər, 1926-cı ildə 324 nəfər, 1931-ci ildə 398 nəfər (415, s.52-53, 130-131), 1987-ci ildə 1350 nəfər azərbaycanlı yaşamışdır.

1988-ci ildə noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmişlər. İndi burada ermənilər yaşayır.

Toponim heydərli tayfa adı əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə topənimdir.

**Herher** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 17 km şimal-qərbdə, Arpaçayın sağ qolu olan Herherçayın yanında yerləşir. 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Hərhər kimi (143, s.59), Qafqazın 5 verstlik xəritəsində Qerqer (Herher) formasında (348, s.61) qeyd edilmişdir. Kəndin qədim adı erməni, eləcə də rus mənbələrində Erern formasında göstərilir (415, c.90; 422, c.104; Сборник сведений о Кавказе,т.V,Тифлис, 1879, № 745). Kəndin adı VIII əsrdə Erern formasında xatırlanır (422, s.104).

Kənddə albanlara məxsus məbəd 1291-cı ildə tikilmişdir. Burada 1831-ci ildə 213 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.158). 1850-70-cı illərdə kəndə İranın Salmas vilayətindən köçürülmüş ermənilər yerləşdirilmişdir. Burada ermənilərlə yanaşı, 1873 - cü ildə 647 nəfər, 1886-cı ildə 656 nəfər, 1897-ci ildə 1047 nəfər, 1914 - cü ildə 1220 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq azərbaycanlılar deportasiya olunmuşdnr. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıtmışlar. Burada 1922-ci ildə 156 nəfər, 1926-cı ildə 220 nəfər, 1931-ci ildə 278 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). SSRİ hökumətinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948-1953 - cü illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır.

Toponim Strabonun «Coğrafiya» əsərində adı çəkilən qarqar tayfasının adı əsasında (377, s.5) formalaşmışdır. Qarqar tayfası qədim türk tayfalarından biridir (287, s.77-82; 172, s.196; 211, s.183-187). Qarqar etnonimindəki q səsi h səsinə keçərək Herher formasını almışdır. Q~h səs əvəzlənınəsi Azərbaycan dilində qanunauyğun haldır: qamuhamı, qansıhansı sözlərindən q~h səs əvəzlənınəsi özünü aydın şəkildə göstərir. Ümumiyyətlə, XVIII əsrə qədər h səsi ilə başlayan sözlər (sual əvəzlikləri) q səsi ilə işlənmişdir (216, s.20).

Herher etnotoponimdir. Quruluşca sadə toponimdir.

Kəndin adı indi Gerger (Gərgər) formasında işlənir. Elə **Gərgər** qarqar türk etnoniminin səs dəyişməsi əsasında yaranan bir variantıdır.

**Herher -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Arpaçayın bir qoludur. Hidronim qarqar (Herher) etnonimi əsasında yaranmışdır. Etnohidronimdir.

**Heşin -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 14 km şərqdə, Elpinçayın sağ qolu olan Heşin çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.61). Fikrimizcə, 1728-ci ildə tərtib

edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə adı çəkilən Meşin kəndi ilə (143, s.57)Heşin kəndi eyni kəndlərdir.

Kənddə 1831-ci ildə 62 nəfər, 1873 - cü ildə 174 nəfər, 1886-cı ildə 272 nəfər, 1897-ci ildə 229 nəfər, 1904 - cü ildə 237 nəfər, 1914 - cü ildə 260 nəfər, 1916-cı ildə 311 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 116 nəfər, 1926-cı ildə 136 nəfər, 1931-ci ildə 164 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161).

SSRİ hökumətinin xüsusi qərarı ilə kənd sakinləri - azərbaycanlılar 1948-49 - cu illərdə zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «yaşayış məntəqəsi» mənasında işlənən keş (heş - İ.B.) sözünə (339, s.273), türk dilində (daxma, koma, mağara) mənasında işlənən in sözünün (299, s.209; 339, s.234) birləşməsi əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Həmzəçəmən -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Sonralar kəndin adı dialekt təsirinə məruz qalaraq Həmzəçimən kimi (çimən Azərbaycan dilinin qərb qrupu dialektlərində çəmən (otlaq) mənasında işlənir) sabitləşmişdir. Rayon mərkəzindən 19 km şərqdə yerləşir. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Həmzəçəmən kimi (143, s.181), Qafqazın 5 verstlik xəritəsində Həmzəçimən kimi (348, s.56) qeyd edilmişdir.

Toponim Həmzə şəxs adı ilə «yaşıl otla örtülmüş sahə», «yaşıllıq» mənasında işlənən çəmən sözünün (12, s.429) birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Həsənkənd -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə, Alagöz çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.57). Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şatin qoyulmuşdur.

**Həsənli** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Üçkilsə (Eçmiədzin) rayonu ərazisində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.57).

Kənddə 1831-ci ildə 192 nəfər, 1873 - cü ildə 539 nəfər, 1886-cı ildə 503 nəfər, 1897-ci ildə 252 nəfər, 1904 - cü ildə 501 nəfər, 1914 - cü ildə 608 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanları 1922-1924 - cü illərdə ata-baba torpaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 74 nəfər, 1931-ci ildə 87 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Toponim Həsənli nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Həsənsu** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonu ərazisində kənd. Kənd Zod kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 48 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27). 1928-1930 - cu illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir.

Toponim şəxs adı bildirən Həsən sözü ilə türk dilində çay mənasında işlənən su sözünün birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Hacatı** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 38 km şimal-qərbdə, Kığı çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Hacatı (143, s.149), Qafqazın 5 verstlik xəritəsində Haçaatr(Гачааты) (348, s.57), Azərbaycan mənbələrində Həcəti (85, s.155), erməni mənbələrində Hacatin formasında (419, s.62) qeyd edilmişdir.

Kənddə X əsrə aid alban kilsəsinin qalıqları var.

Kənddə 1897-ci ildə 30 nəfər, 1922-ci ildə 41 nəfər, 1926-cı ildə 51 nəfər, 1931-ci ildə 71 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.56-57, 134-135). Kəndin təsərrüfatı 1950-ci ildə Kığı kəndinə birləşdirilmişdir. Kənddə yaşayan azərbaycanlılar 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim Azərbaycan dilində «bucaq şəklində ayrılan, haça» mənasında işlənən haca (<haça) sözünə (12, s.359) -tı şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan düzəltmə quruluşlu toponimdir.

**Horbadeğ -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimal-qərbdə, Erdəpin kəndinin yaxınlığında yerləşir. Kəndin adı erməni mənbələrində Xorvadeğ formasında da qeyd edilir (415, s.92).

Kənddə 1831-ci ildə 35 nəfər, 1873 - cü ildə 263 nəfər, 1886-cı ildə 342 nəfər, 1897-ci ildə 406 nəfər, 1904 - cü ildə 592 nəfər, 1914 - cü ildə 651 nəfər, 1916-cı ildə 503 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 38 nəfər, 1926-cı ildə 65 nəfər, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). Burada yaşayan azərbaycanlılar 19481949 - cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə, 1988-ci ildə isə Ermənistan dövlətinin xüsusi göstərişi ilə zorla Azərbaycana köçüriilmüşdür. İndi burada ermənilər yaşayır.

Fikrimizcə, kəndin adı türk dilində «çuxur, xəndək», «yarğan» mənalarında işlənən or sözü ilə (365, s.466-467), fars dilində «kənd, qışlaq» mənasında işlənən değ (dex) sözünün (339, s.177; 104, s.139) birləşməsindən əmələ gəlmişdir. Türk dilində «yarğan, çuxur», «xəndək» mənasında işlənən or (hor) sözü erməni dilində xor, xorf formalarında işlənir (339, s.596). Toponimin əvvəlindəki «h» samiti əlavə edilmiş səsdir. Or (hor) və değ sözlərinin arasındakı «ba» isə bitişdiricidir. Quruluşca mürəkkəb toponimdir.

**Hors -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayondakı 9 km şimal-şərqdə, Hors dərəsindən axan çayın yanında yerləşir. Kəndin adı tarixi mənbələrdə ilk dəfə X əsrdə xatırlanır (422, s.71). 1728-ci ildə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Xors kimi (143, s.59) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 26 nəfər, 1873 - cü ildə 649 nəfər, 1886-cı ildə 904 nəfər, 1897-ci ildə 1136 nəfər, 1904 - cü ildə 971 nəfər, 1914 - cü ildə 958 nəfər, 1916-cı ildə 1337 nəfər, 1919 - cu ildə 664 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). Kənd sakinləri 1919 - cu ilin sonlarında ermənilərin təcavüzünə məruz qalaraq tamamilə qovulmuşdur. Kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalan azərbaycanlılar öz doğma yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 192 nəfər, 1926-cı ildə 172 nəfər, 1931-ci ildə 234 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi ermənilər yaşayır.

Bu qədim azərbaycanlı Kəndində XII-XIV əsrlərə aid çoxlu tarixi abidələr, Alban kilsəsinin qalıqları, oğuz qəbiristanlığı, qədim Oral Malux və Quşxana kəndlərinin binalarının qalıqları (XIII-XIV əsrlər) vardır (422, s.71).

Toponim xors (hors-İ.B.) türk etnonimi (168, s.103; 211, s.189) əsasında əmələ gəlmişdir. Azərbaycan dilində q~x~h səs əvəzlənməsi qanunauyğun haldır (216, s.20, 117). Onu da qeyd edək ki, xors (hors) etnonimi qors, xoros, xurs formalarında da qeyd edilir (168, s.10-1104; 287, s.129-132). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Hostun -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Alagöz çayının sähilində, Həsənkənd və Alagöz kəndləri arasında yerləşirdi.

Kənddə 1873 - cü ildə 61 nəfər, 1886-cı ildə 94 nəfər, 1897-ci ildə 126 nəfər, 1904 - cü ildə 125 nəfər, 1914 - cü ildə 137 nəfər, 1916-cı ildə 146 nəfər, 1919 - cu ildə 58 nəfər (1918-ci ildə baş verən erməni təcavüzündən sonra) yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). 1919 - cu ilin sonlarında azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülmüş ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma yurdlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 29 nəfər, 1926-cı ildə 19 nəfər, 1931-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s.92-93, 160-161). Kənd 1940-cı illərdə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «çay ağızı, mənsəb» mənasında işlənən os sözü ilə (337, s.237) türk dilində «bağlı, sərbəst çıxışı olmayan» mənasında işlənən tun sözünün (359, III (2), s.1439) birləşməsindən əmələ gəlmişdir. Təsviri toponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Hunaberd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 8 km məsafədə yerləşir. «Ermənistan və ətraf vilayətlərinin toponimlər lüğəti»ndə Hnaber formasında göstərilir (427, s.379).

Toponim qədim türk tayfası olan hun etnoniminə türk dilində «qala, istehkam» (339, s.81), «çətin keçilən yer», «əlçatmaz yer» (339, s.83; 337, s.239) mənasında işlənən berd/bert sözünün qoşulması ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Hunud -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir. Kəndin adı Hünüt formasında da qeyd edilir.

Toponim qədim türk mənşəli hun etnoniminə (245, s.3738; 174, s.49-66; 287, s.124126, 351-352) türk dilində cəmlik bildirən -ud şəkilçisinin artırılması əsasında əmələ gələn etnotoponimdir. Görkəmli türk tədqiqatçısı «Türk tarixi» əsərində yazır: <<Hunlar çox qüvvətli, döyüşdə çox cəsur və mahir olan türklərdir» (174, s.52). «Hunlar kəndi» mənasını verir. Quruluşca mürəkkəb toponimdir.

**Hüseynbəyli -** İrəvan qüberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonu ərazisində kənd olmuşdur. Kənddə 1906-cı ildə 658 nəfər azərbaycanlı yaşamışdır. 1906-cı ilin sonlarında azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim hüseynbəyli nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Hüseynquluağalı** - İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 10 km şərqdə, Məzrə çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.70).

Kənddə 1873 - cü ildə 636 nəfər, 1886-cı ildə 760 nəfər, 1897-ci ildə 877 nəfər, 1908-ci ildə 778 nəfər, 1914 - cü ildə 1207 nəfər, 1916-cı ildə 1079 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin aprelin 13-20-də kəndin əhalisi ermənilər tərəfindən qırğınlarla qovulmuşlar (309,s.305). 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz kəndlərinə dönə bilmişlər. 1922-ci ildə kənddə 527 nəfər, 1926-cı ildə 605 nəfər, 1931-ci ildə 719 nəfər (415, s.26-27, 112-113), 1959 - cu ildə 2000 nəfər, 1987-ci 3000 nəfər (85, s.292) azərbaycanlı yaşamışdır. 1988-ci ildə noyabr ayında kəndin sakinləri Ermənistan dövləti tərəfindən zorla doğma torpaqlarından qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Hüseynqulu ağa (ağa titul bildirir) şəxs adına mənsubluq bildirən -lı şəkilçisinin artırılması əsasında kəndin adı yaranmışdır. Antropotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Kəndin adı 1924 - cü ildə dəyişdirilərək Azərbaycan yazıçısı və ictimai xadimi N.Nərimanovun şərəfinə Nərimanlı, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən dəyişdirilib Şatvan qoyulmuşdur.

## Ç

**Çayqovuşan körpüsü** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda körpü. İndi iki tağı qalıb.

**Çaykənd** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Arpaçayın yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.278).

Kənddə 1831-ci ildə 78 nəfər, 1873 - cü ildə 110 nəfər, 1886-cı ildə 78 nəfər, 1897-ci ildə 166 nəfər, 1904 - cü ildə 129 nəfər, 1914 - cü ildə 141 nəfər, 1916-cı ildə 143 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma yerlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 35 nəfər, 1926-cı ildə 104 nəfər, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s.90-91, 158-159). 1948-49-cu illərdə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından zorla Azərbaycana köçürülmüş və kəndin təsərrüfatı Terp (Saravan) heyvandarlıq sovxozu ilə birləşdirilmişdir.

Toponim Azərbaycan dilində işlənən çay və kənd sözlərinin birləşməsindən əmələ gəlib «çayın sahilində olan yaşayış məntəqəsi» mənasını ifadə edir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Getik (Çaykənd) qoyulmuşdur.

**Çaykənd** - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 22 km şimal-qərbdə, Tərsa çayının sahilində, Krasnoselo-Dilican-İcevan yolunun üstündə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.278). Kəndin əsası XVIII əsrdə - 1778-cı ildə qoyulmuşdur.

Kənddə 1897-ci ildə 754 nəfər, 1904 - cü ildə 660 nəfər, 1914 - cü ildə 677 nəfər, 1916-cı ildə 772 nəfər, 1919 - cu ildə 847 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.32-33, 116-117). B.Budaqov və Q.Qeybullayev yazırlar ki, «XIX əsrin 80-cı illərinə aid məlumata görə «əhalisi kürdlərdən ibarət kənd idi». (62, s.416). Bu fakt həqiqətə uyğun deyil. Qaraqoyunlu dərəsində olan kəndlərdə (Gölkənd, Cıvıxlı, Qaraqaya, Yanıqpəyə, Bəriyabad), o cümlədən həmin ərazidə yerləşən Çaykənd kəndində də 1988-ci ilin dekabr ayına kimi Azərbaycan türklərindən başqa, qeyri millətlərin bir nəfər belə nümayəndəsi yaşamamışdı. 1919 - cu ilin yazmda kəndin sakinləri ermənilər tərəfindən qovulmuşlar. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan çaykəndlilər öz kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 569 nəfər, 1926-cı ildə 616 nəfər, 1931-ci ildə 662 nəfər (415, s.32-33, 116-117), 1970-ci ildə 1140 nəfər, 1979 - cu ildə 1096.nəfər, 1987-ci ildə 1110 nəfər (85, s.90-91) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «fasiləsiz, təbii su» mənasında işlənən çay sözünə kənd coğrafi nomeninin qoşulması əsasında əmələ gəlmişdir. Kənd çayın qırağında salındığı üçün Çaykənd adlandırılmışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dprabak qoyulmuşdur.

**Çal** - Yelizavetpol (Gəncə) quberniyasının Yeni Bayazid qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Toxluca kəndinin şərqində yerləşir. Oronim türk dilində «təpə, daşlıq yer» (339, s.606), «kiçik dağ, təpə» (22, s.27) mənasında işlənən çal sözü əsasında formalaşmışdır. «Çal» sözü qədim türk dilində həm də «yal» mənasında işlənmişdir (359, III (2), s.1875). Sadə quruluşlu oronimdir.

**Çalağan yuvası -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Amasiya rayonunun Çaxmaq kəndində dağ. Quş adı əsasında əmələ gələn zooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Çaldaş -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonu ərazisində kənd olmuşdur. Təpəköy kəndinin sol tərəfində yerləşirdi. XVIII əsrin axırları, XIX əsrin əvvəllərində xarabalığa çevrilmişdir.

Toponim Azərbaycan dilində «bitkisi az olan və ya heç olmayan» boz mənasında (278, s.152; 12, s.412), «təpə, daşlıq yer» (339, s.606) mənasında işlənən çal sözü ilə «qaya, dağ» mənasında

işlənən daş sözünün (339, s.173) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb oronimdir.

**Çamırlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Qızılvəng kəndinin yaxınlığında, Alagöl çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritesində qeyd edilmişdir (348, s.279).

Kənddə 1873 - cü ildə 244 nəfər, 1886-cı ildə 329 nəfər, 1897-ci ildə 374 nəfər, 1908-ci ildə 491 nəfər, 1914 - cü ildə 632 nəfər, 1916-cı ildə 541 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ilin yazında kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 42 nəfər azərbaycanlı yaşamışdır (415, s.112-113). Kənd 1929 - cu illərdə ləğv edilmişdir.

Toponim təkə adlı türk tayfasının bir tirəsini təşkil edən çomur//çomrı etnonimi (271, s.130; 407, s.88) əsasında formalaşmışdır. -lı mənsubluq bildirən şəkilçidir. «Çamır/çamur tayfasına mənsub yer» deməkdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Çamırlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Abaran rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.279). Erməni mənbələrində 1914 - cü ildə 1952 nəfər azərbaycanlı yaşadığı göstərilir (415, s.96-97). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim çamurlu türk etnonimi (407, s.88) əsasında əmələ gəlib, «çamurlu tayfasının yaşadığı kənd» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Çamırlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında,indi Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı .Qursalı kəndində yerləşir.

Oronim çamırlı türk etnonimi (407, s.88) əsasında yaranmışdır. Etnooronimdir.

**Çanaqlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda çay. Rayondakı Kotuz kəndinin ərazisindən axır.

Hidronim çanaqlı etnonimi əsasında əmələ gəlmişdir. Etnohidronimdir.

**Çanaxçı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.279).

Kənddə 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvəllərində, 1905-1906-cı il hadisələri ilə bağlı azərbaycanlılar qovularaq ermənilər yerləşdirilmişdir. XX əsrin 30 - cu illərində kənd ləğv edilmişdir.

Toponim çanaxçı türk etnonimi (92, s.20) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çapan -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda çay. Rayondakı köhnə Şahablı kəndinin ərazisindən axır.

Hidronim türk dilində «uçrum, sıldırım, yarğan, yamac, dağın döşü, dərin dağarası çökəklikdə təpə» (339, s.607), «çılpaq (bitkisiz) daşlıq və ya qumlu yamac» (287, s.477) mənalarında işlənən çap sözü əsasında əmələ gəlmişdir. -an şəkilçidir. Düzəltmə quruluşlu hidronimdir.

**Çarbağ -** İrəvan quberniyasının İrəvan qəzasında kənd. 1930 - cu ilin sonlarına kimi Qəmərli (Artaşat) rayonunun inzibati - ərazi bölgüsünə daxil idi. İndi İrəvan şəhərinin tabeliyindəndir. «İrəvan əyalətinin icmal dəftəri»ndə kəndin adı qeyd edilməklə göstərilir ki, başqa adı «Xürrəmabad»dır (143, s.82). Qafqazın 5 verstlik xəritəsində Çarbax formasında (348, s.280) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 31 nəfər, 1873 - cü ildə 201 nəfər, 1886-cı ildə 241 nəfər, 1897-ci ildə 242 nəfər, 1904 - cü ildə 347 nəfər, 1914 - cü ildə 386 nəfər təkcə azərbaycanlılar yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Türkiyədən 1918-1919 - cu illərdə köçürülən ermənilər burada yerləşdirilmişdir. Yalnız indiki Ermənistandan sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişdir. Burada ermənilərlə bərabər 1922-ci ildə 177 nəfər, 1926-cı ildə 201 nəfər, 1931-ci ildə 264 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). İrəvan şəhərinin genişləndirilməsi ilə əlaqədar kənd 1950-ci ildə ləğv edilmiş, azərbaycanlılar qovulmuşdur.

Toponim türk dilində «yarğan, sıldırım sahil», «hündür sahil» (359, III (2), s.1859), «sıldırım dərə, uçurum», «yarğan», «bataqlıqdan çəkilmiş arx» (339, s. 178-179; 278, s.64) mənasın da işlənən çar və bağ sözlərindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Çataq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qursalı kəndinin ərazisində yerləşir («Vətən» səsi qəzeti, 24.IV. 1991).

Toponim türk dilində «iki dağın, təpənin birləşdiyi yer» mənasında işlənən çataq sözü (359, III (2), s.1895) əsasında əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn sadə oronimdir.

**Çatal kaha -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunda dağ. Oronim türk dilində «bir neçə qola ayrılmış», «haçalanmış», «ayrılmış», «ikiyə bölünmüş» mənasında işlənən çatal sözü ilə (359, III (2), s.1896) «mağara» mənasında işlənən kaha sözünün (11, s.26) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu oronimdir.

**Çatal-çınqıl -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Çaykənd kəndi ilə Dilican şəhəri arasında yerləşirdi. 1926-cı ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). XX əsrin 20-cı illərində ləğv edilmişdir.

Toponim türk dilində «ikiyə ayrılmış» «ayrılmış», «haçalanmış» mənasında işlənən çatal sözü ilə (359, III (2), s.1896) tikinti işlərində istifadə olunan daş qırıntısı, xırda daş (12, s.441), «daş mədəni» mənasında işlənən çınqıl (339, s.616) sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəbdir.

**Çatqıran -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Abovyan, Kotayk) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə «müsəlmanların yaşadığı Çatqıran» (143, s.82), Qafqazın 5 verstlik xəritəsində Cadqran (348, s.81), erməni mənbələrində həm də Çatıqran (415, s.46) kimi qeyd edilmişdir. Kənddə 1828-ci il kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828-30-cu illərdə İranın Xoy vilayətində ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (427, s.824). Burada ermənilərlə yanaşı 1831-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.126). 1840-cı il lər də azərbaycanlılar deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «dağ beli, dağın çıxıntısı, qayalı yüksəklik, iki dərəni birləşdirən yer, yarğanh, dərəli sıra dağlar», «iki çay arasında yer> mənasında işlənən çat sözü ilə (359, III (2), s.1893; 339, s.608) türk dilində (əslən monqol dilinə mənsubdur) «çəpər, hasar», «düşərgə», «heyvanlar üçün ağıl», «yaşayış yeri», «alaçıq» mənasında işlənən kuren (>quran >qıran >qran) sözündən (339, s. 3 173 18) əmələ gəlib, «qayalıqda, iki dərənin, iki çayın arasında olan yaşayış yeri, kənd» mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Razdan, 21.X.1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Gexaşen qoyulmuşdur.

**Çatqran -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Əştərək rayonunda kənd olmuşdur. Zəngi çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81).

Kənddə 1873 - cü ildə 368 nəfər, 1886-cı ildə 413 nəfər, 1897-ci ildə 630 nəfər, 1908-ci ildə 667 nəfər, 1914 - cü ildə 807 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22-23, 106-107). 1918-ci ildə kəndin əhalisi ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 53 nəfər, 1926-cı ildə 46 nəfər, 1931-ci ildə 88 nəfər azərbaycanlı yaşamışdır (415, s.22-23, 106-107). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar tarixi-etnik vətənlərindən çıxarılaraq Azərbaycana köçürülmüşdür. Kənd 1953 - cü ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində «iki çayarası yer» (359, III (2), s.1893), «yarğanın kənarı» (299, s.431), «dağın beli, dağ çıxıntısı, iki dərəni birləşdirən yer, yarğanları və dərələri olan alçaq sıra dağ, tirə (339, s. 608-609) mənasında işlənən çat sözü ilə «hərbi düşərgə», «həyət», «hasarlanmış, çəpərlənmiş yer», «hasar», «düşərgə», «hərbi düşərgə», «mənzil, ev», «karvansara» mənasında işlənən kuran (>qran) sözünün (339, s. 317-318) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir.

**Çatılı düz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Oxdar kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində, 1906-cı ildə azərbaycanlılar qırğınlarla qovulmuşdur. Kənd 1908-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim mənsubluq bildirən -lı şəkilçisi qəbul etmiş türk dilində «dağ çıxıntısı, yarğan» mənasında işlənən çat sözü ilə (339, s.608) Azərbaycan dilində «enişi, yoxuşu olmayan, hamar relyef

səthi» mənasında işlənən düz sözünün (10, s.168; 196, s.44) birləşməsindən əmələ gəlib, «dağ çıxıntısı, yarğan yanındakı düzdə salınan kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çatır körpüsü -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonundakı Alxanpəyəsi kəndində körpü. 1666-cı ildə salınmış, XIX əsrə qədər qalmışdır. Şərq üslubunda yonulmuş daşlardan sütunsuz (dirəksiz) tikilmiş körpünün uzunluğu 810 m, eni 45 m olardı (211, s.237).

Körpü çadır formasında salındığı üçün Çatır körpüsü deyilmişdi.

**Çatmadağ -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd. Kəndin bir adı da Çatmadaş olmuşdur (415, s.50). Qafqazın 5 verstlik xəritəsində Çatma formasında (348, s.281) qeyd edilmişdir. Kəndin adının ikinci komponenti dağ//daş sözləri sonralar ixtisar edilərək rəsmi sənədlərdə Çatma formasında işlədilmişdir.

Kənddə 1873 - cü ildə 41nəfər, 1886-cı ildə 57 nəfər, 1897-ci ildə 162 nəfər, 1904 - cü ildə 51 nəfər, 1914 - cü ildə 178 nəfər, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 29 nəfər, 1926-cı ildə 18 nəfər, 1931-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır. (415, s.50-51, 130-131). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-49 - cu illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür və kənd ləğv edilmişdir.

Toponim Azərbaycan dilində «bir istiqamətdə yanaşı» mənasında işlənən çatma sözünə (253, s.132) dağ sözünün qoşulması yolu ilə əmələ gəlib, «bir istiqamətdə yanaşı dağ yanında salınan kənd» mənasını ifadə edir. «Çatma» sözü qədim türk dilində «birləşmə», «taxtabənd», «dəzgah», «körpü», «yarıq», «çatdaq» mənalarında da işlənmişdir (359, III (2), s.1902). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çaxırlı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 3 km cənub-qərbdə, Göyçə gölünün cənub-şərq sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.281).

Kənddə 1831-ci ildə 212 nəfər, 1873 - cü ildə 770 nəfər, 1886-cı ildə 1020 nəfər, 1897-ci ildə 1204 nəfər, 1908-ci ildə 1349 nəfər, 1914 - cü ildə 1653 nəfər, 1916-cı ildə 1501 nəfər, 1919 - cu ildə 85 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ilin yazmda azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq yaşayış yerlərindən perik düşmüşlər. 1919 - cu ilin sentyabr-oktyabr aylarında kənddə yaşayan azərbaycanlılar axır nəfərinə kimi atäbaba torpaqlarından deportasiya olunmuşdur. İran və Türkiyədən köçürülən ermənilər 1919 - cu ilin axırlarında burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanları öz doğma torpaqlarına dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 679 nəfər, 1926-cı ildə 763 nəfər, 1931-ci ildə 975 nəfər (415, s.26-27, 112-113), 1987-ci ildə 1500 nəfər azəfbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövlətinin yeritdiyi siyasət nəticəsində tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada təkcə ermənilər yaşayır.

Toponim çaxırlı türk etnonimi (272, s.22) əsasında əmələ gəlmişdir. F.Sümər qaraqoyunlu türk tayfasının da əsas boylarından birinin çəkürlü olduğunu göstərir (238, s.158). Deməli, Çaxırlı toponimi çaxırlı//çəkürlü etnonimi əsasında əmələ gəlmişdir və çaxırlı çakırlı//çəkürlü etnoniminin fonetik formasıdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Erm.SSR AS RH-in 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Sovetakert, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı iləyenidən dəyişdirilib Xaçaxbuyr (Xaçbulaq) qoyulmuşdur.

**Çaxırlı yaylası** - İrəvan quberniyasının Yeni Bayazid qə' zasında, indi Basarkeçər rayonunun Çaxırlı kəndinin ərazisində yayla. Çaxırlı (Çakurlu) etnonimi (272, s.22; 238, s.158) əsasında düzəlmişdir. Çaxırlı (çəkurlu) tayfasını yaylaq yeri olduğu üçün Çaxırlı yaylası adlandırılmışdır.

Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Çaxmaq** - Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 7 km cənub-qərbdə, Türkiyə sərhəddində yerləşir. Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Lakin erməni mənbələrində kəndin sakinləri qarapapaqlar göstərilməklə müstəqil xalq kimi təqdim edirlər (415, s.20,105). Halbuki qarapapaqlar azərbaycanlıların etnoqrafik qrupu və türk tayfalarından biridir.

Kənddə 1886-cı ildə 222 nəfər, 1897-ci ildə 282 nəfəry 1908-ci ildə 360 nəfər, 1914 - cü ildə 406 nəfər azərbaycanlı yaşamışdır (415, s.20-21, 104106). 1916-18-cı illərdə azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra yaranan sakitliyə görə azərbaycanlılar öz torpaqlarına qayıda bilmişlər. 1922-ci ildə kənddə 82 nəfər, 1926-cı ildə 111 nəfər, 1931-ci ildə 89 nəfər (415, s.20-21, 104-105), 1970-ci ildə 197 nəfər, 1987-ci ildə 400 nəfər azərbaycanlı yaşamışdır. Kəndə ermənilər 1922-ci ildə köçürülmüşdür. 1988-1989 - cu ilin qışında (noyabr-dekabr-yanvar aylarında) azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi ermənilər yaşayır.

Toponim şahsevən türk tayfasına mənsub olan çaxmaq etrionimi (95, s.192; 93, s.87-88) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndim adı dəyişdirilib Kamxut qoyulmuşdur.

**Çaxmaqlıdağ -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Kalinino rayonunda dağ. Rayondakı Cücəkəndinin şimal-şərqində yerləşir. Oronim şahsevən türk tayfasından olan çaxmaqlı etnonimi (93, s.87-88) əsasında formalaşmışdır. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Çələbi-**Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Çələbi türk tayfasının adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çələbi yurd -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonu ərazisində qışlaq. Toponim çələbi tayfa adı ilə yurd sözünün birləşməsindən yaranmışdır. Mürəkkəb quruluşlu etnotoponimdir.

**Çəməndağı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda dağ. Oronim Azərbaycan dilində «yaşıllıq, otluq» mənasında işlənən çəmən sözü ilə (12, s.429; 339, s.606), «qayadan daşdan ibarət hündür bir yer» mənasında işlənən dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Çəpər qırılan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican rayonunda qışlaq. Polad Ayrım kəndinin yaxınlığında yerləşirdi. Burada 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 1930 - cu illərdə ləğv edilmişdir.

**Çəpni -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.280) qeyd edilmişdir. Toponim qədim oğuz tayfasından olan çəpni etnonimi (399,l, s.59; 228, s.40) əsasında əmələ gəlmişdir. Qızılbaş tayfalarından birinin də adı «çəpni»dir (175, s.14). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çivə -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayon mərkəzindən 13 km cənub-qərbdə, Arpaçayın sağ qolu olan Elpin çayının hər iki sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.57), Qafqazın 5 verstlik xəritəsinndə (348, s.284) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 29 nəfər, 1873 - cü ildə 294 nəfər, 1886-cı ildə 431 nəfər, 1897-ci ildə 689 nəfər, 1904 - cü ildə 562 nəfər, 1914 - cü ildə 612 nəfər, 1916-cı ildə 758 nəfər, 1919 - cu ildə 1200 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1919-cu ilin axırlarında kənd ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinlərindən sağ qalanları ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 391 nəfər azərbaycanlı, 1926-cı ildə 367 nəfər azərbaycanlı, 94 erməni, 1931-ci ildə 367 nəfər azərbaycanlı, 221 erməni yaşamışdır (415, s.92-93, 162-163). Yuxarıdakı rəqəmlərdən göründüyü kimi ermənilər burada 1926-cı ildən məskunlaşdmhblar. SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-53 - cü illərdə bu kəndin əhalisi də zorla Azərbaycana köçürülmüşdür. 1953 - cü ildən sonra onların bir hissəsi yenidən kəndə qayıtsa da, 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir (211, s.203). İndi ermənilər yaşayır.

Toponim yivə türk tayfa adının (399, I, s.56) fonetik forması olan çivə etnonimi əsasında yaranmışdır. Türk dillərində y~ç paralelləri geniş şəkildə özünü göstərir (70, s.529; 87, s.170). «Yarğan», «hündür qaya», «dik sahil» mənalarında işlənən yar, çar sözlərindəki (339, s.607, 650) y~ç səsəvəzlənməsi buna aydın misaldır.

Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çivinli -** Qars vilayətinin Qars qəzasında, indi Amasiya rayonunda kənd. Rayon mərkəzindən 27 km şimal-qərbdə, Türkiyənin sərhəddində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s.284) qeyd edilmişdir.

Kəndin sakinləri azərbaycanlıların etnoqrafik qruplarından olan qarapapaqlar olmuşdur (415, s.20).

Kənddə 1905-ci ildə 270 nəfər, 1914 - cü ildə 350 nəfər azərbaycanlı yaşamışdır (415, s.104-105). 1915-cı ildə azərbaycanlılar qovulmuşdur. 1920-ci ildən sonra, indiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar geri qayıda bilmişdir. 1922-ci ildə kənddə 234 nəfər, 1926-cı ildə 294 nəfər, 1931-ci ildə 324 nəfər (415, s.20-21, 104-105), 1987-ci üdə 534 nəfər azərbaycanlı yaşamışdır. 1989 - cu ilin qışında azərbaycanlılar Ermənistan hökuməti tərəfindən qovulmuşdur. İndi kənddə ermənilər yaşayır.

Bizə görə, toponim kəngərli tayfasının bir qolunu təşkil edən cinli (qədim forması «cen»dir) türk etnonimi əsasında (286, s.62-63) formalaşmışdır. Etnotoponimdir. Görünür, cinli etnoniminə «iv» səs birləşməsi sonradan əlavə edilərək çivinli formasına düşmüşdür. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Yenacur qoyulmuşdur.

**Çikdamal -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə, Pəmbək çayının yanında, Çubuxlu dağının ətəyində yerləşir. 1937-ci ilə kimi Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. 31 dekabr 1937-ci ildə yaradılan Hamamlı (Spitak) rayonunun inzibati ərazi bölgüsünə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s.284) qeyd edilmişdir. Kənddə e.ə.I minilliyə dair qala divarlarının qalıqları vardır. Erməni mənbələrində bu qalanın farslara aid olduğu göstərilir (Ermənistan Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983, s.17). Bu, erməni saxtakarlığının bir nümunəsidir. Onlar izi azdırmaq üçün türkləri farslar kimi təqdim edirlər. Elə vaxtilə İrəvan qalasının da farslara məxsus olduğunu qeyd edirdilər. Bu gün İrəvan şəhərində azərbaycanlılara məxsus olan Göyməscid məscidi də farslara məxsus tarixi abidə kimi təqdim olunur. Digər tərəfdən Çikdamal kəndinin əsasının 1873 - cü ildə qoyulduğunu yazırlar (Ermənistan Sovet Ensiklopediyası, IX c., s.17). Əgər kənd 1873 - cü ildə yaradılıbsa, e.ə. I minilliyə aid qala hansı kəndin ərazisində tikilmişdir? Digər tərəfdən, elə erməni mənbələrində ermənilərin 1828-29cuillərdə Çikdamal kəndinə köçürüldüyü göstərilir (Ermənistan Sovet Ensiklopediyası, XI c., İrəvan, 1983 s.17; 427, s.424). Bütün bunların hamısı erməni saxtakarlığını əyani şəkildə göstərir.

Ermənilər buraya 1828-1829 - cu illərdə İranın Maku vilayətindən köçürülmüşdür (427, s.424). Burada 1897-ci ildə ermənilərdən başqa, 7 nəfər azərbaycanlı yaşamışdır. Onlar XX əsrin əvvəllərində sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi ermənilər yaşayır.

Toponim türk dilində «sərhəd, mərz» mənasında işlənən çik sözü ilə (339, s.615) Azərbaycan dilində, «ev, bina, tikili», «bir ya iki tərəfi açıq, üstüörtülü yer, tikili», «pəyə, dəyə, qazma» mənasında işlənən dam sözünün (10, s.26; 339, s.170-171) birləşməsindən əmələ gəlmişdir. Toponimin sonundakı «al» topoformantdır. «Çik» sözü türk dilində «dar dərə» mənasında da işlənir (359, III (2), s.2111) «Sərhəddə yerləşən ev, yaşayış məntəqəsi, kənd» mənasını bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə adı dəyişdirilib Areveşoq qoyulmuşdur.

**Çiləxanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Qəmərli (Artaşat) rayonunda kənd. Kəndin adı erməni mənbələrində Çilixanlı, Çinaxanlı (415, s.50), «İrəvan əyalətinin icmal dəftəri»ndə Çinəxan formasında (143, s.99) qeyd edilmişdir.

Kənddə qazaxlar türk tayfasından olan qafarlı tayfası (386, s.535) yaşamışdır (415, s.50).

Kənddə 1831-ci ildə 237 nəfər, 1873 - cü ildə 535 nəfər, 1886-cı ildə 569 nəfər, 1897-ci ildə 698 nəfər, 1904 - cü ildə 752 nəfər, 1914 - cü ildə 827 nəfər, 1916-cı ildə 866 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 131 nəfər, 1926-cı ildə 220 nəfər, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948-53 - cü illərdə azərbaycanlılar zorla Azərbaycana köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim muğanlı türk tayfasından ölan çilovxanlı («çilovxanlı» nəsil adı danışıq dilinin qanunlarına uyğunlaşdınlaraq çiləxanlı formasına düşmüşdür) nəsil adı (286, s.72) əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Çilovxanlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kynd. İrəvan - Gümrü yolunun yanında, Gümrü şəhərindən 6,5 km qərbdə yerləşir. Kəndin başqa adı mənbələrdə Çilovxan, Çlovxanlı, Çlovxan, Celoxan kimi də göstərilir (427, s.654).

Toponim muğanlı tayfasından olan çilovxanlı nəsil adı əsasında (286, s.72) əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə loponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Beniamin (erməni general-mayoru Qalstyanın adı) qoyulmuşdur.

**Çimənkənd -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 9 km şərqdə yerləşir. Əvvəllər mövcud olmuş Qarabağlar rayonuna aid olmuşdur və onun mərkəzi idi. 1948-49 - cu illərdə Qarabağlar rayonunun ləğvi ilə əlaqədar Vedi rayonunun tabeliyinə verilmişdir. Qafqazın 5 verstlik xəritəsində Cmankənd formasında qeyd edilmişdir (348, s.286).

Kənddə 1873 - cü ildə 756 nəfər, 1886-cı ildə 924 nəfər, 1897-ci ildə 1260 nəfər, 1904 - cü ildə 1725 nəfər, 1914 - cü ildə 1879 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırılmış və sağ qalanlar zorla qovulmuşdur. 1919 - cu illərdə xaricdən, xüsusilə də Türkiyədən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 880 nəfər azərbaycanlı, 210 erməni, 1926-cı ildə 690 nəfər azərbaycanlı, 141 erməni, 1931-ci ildə 663 nəfər azərbaycanlı, 178 erməni yaşamışdır (415, s.86-87, 156-157). Sonrakı illərdə kəndin əhalisi ümumi şəkildə (ermənilərlə azərbaycanlılar birlikdə göstərilmişdir) qeyd edilmişdir. 1972-ci ildə burada 1917 nəfər əhali olmuşdur. Onun 90%i azərbaycanlılar idi. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti torəfındən deportasiya edilmişdir. İndi burada yalnız ermənilər yaşayır.

Toponim çəmənlik, otluq mənası bildirən çimən (çəmən dialektlərimizdə çimən formasında işlənir) sözü ilə yaşayış məntəqəsi mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Urcadzor qoyulub.

**Çinarlı -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 28 km məsafədə yerləşir. Kənddə ermənilərlə yanaşı 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s.7475). İndi ermənilər yaşayır. Toponim çinar ağac adına -lı şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erməni mənbələrində Çinari formasında qeyd edilir (415, s.74; 266, s.225).

**Çinçin -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. Toponim türk dilində «dik dağ yarğanı», «əlçatmaz, sıldırım dağ» mənasında işlənən çin (<çın) sözü (337, s.239) əsasında əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çiraxlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Çıraxlı selavının yanında, Terp kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində Çiraxlu formasında (348, s.285) qeyd edilmişdir. Erməni mənbələrində kəndin başqa adı Çıraxoğlukənd formasında da göstərilir (415, s.90).

Kənddə 1873 - cü ildə 21 nəfər, 1886-cı ildə 20 nəfər, 1897-ci ildə 31 nəfər, 1904 - cü ildə 41 nəfər, 1914 - cü ildə 45 nəfər, 1916-cı ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra kəndi məcburi tərk edənlər öz doğma dədə-baba torpaqlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 40 nəfər, 1926-cı ildə 15 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 192-930 - cu illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışdır. 1930 - cu ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim sirak türk etnoniminin (235, s.2324) bir variantı olan çırak (çirax) etnoniminə mənsubluq bildirən -lı şəkilçisinin artırılması ilə düzəlmişdir. «Sirak//çirak tayfasına mənsub yer, sirak//çirak tayfasının yaşadığı yer» mənasını ifadə edir. s~ç səsəvəzlənməsi Azərbaycan dilində qanunauyğun haldır. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Çiriş -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 43 km şimal-şərqdə yerləşir.

Kənddə 1897-ci ildə 27 nəfər, 1922-ci ildə 73 nəfər, 1926-cı ildə 79 nəfər, 1931-ci ildə 95 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1950-ci illərdə Kurud kəndi ilə birləşdirilmişdir. 1988-ci ildə kəndin sakinləri deportasiya olunmuşdur.

Toponim «zanbaq fəsiləsinə mənsub yabanı bəzək bitkisi» mənasında işlənən çiriş sözü (12, s.437) əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca sadə toponimdir.

**Çınqıl -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim «xırda daşlar, daş qırıntıları» mənasında işlənən çınqıl sözü (339, s.616; 12, s.441) əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir.

**Çınqıl -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s.285) qeyd edilmişdir. Oronim «dağda olan daş qırıntılan», «xırda daş» mənasında işlənən çınqıl sözü əsasında (339, s.616; 278, s.157; 12, s.441) əmələ gəlmişdir. Sadə oronimdir.

**Çınqıllıq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda dağ. Rayondakı Göykilsə (Kaputan) kəndindən şimalda yerləşir. Oronim «dağda daş qırıntıları» (278, s.157), «xırda daş» (12, s.441) mənasında işlənən çınqıl sözünə məkan mənası bildirən -lıq şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Düzəltmə quruluşlu oronimdir.

**Çınqıl yaylası -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Rayondakı Qızılörən kəndində yerləşir. Mürəkkəb quruluşlu oronimdir.

**Çıraqlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Barana (Noemberyan) rayonunda dağ. Oronim qızılbaşların çıraqlı etnonimi (ASE, Xc., B., 1987, s.364) əsasında əmələ gəlmişdir. Çıraqlı etnoniminin kökündə, fikrimizcə, qədim sirak//çirak tayfası (235, s.23-24, 38, 48-56; 287, s.336-337) dayanır. Etnooronimdir. Quruluşca sadə oronimdir.

**Çıraqlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonundakı kənd. Rayon mərkəzindən 13 km cənub-şərqdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.125), Qafqazın 5 verstlik xəritəsində (348, s.285) qeyd edilmişdir.

Toponim çiraq (<şirak <sirak) etnoniminə (235, s.23-24, 38, 48-56; 287, s.336-337, 350-351) -lı mənsubluq bildirən şəkilçisinin artırılması ilə əmələ gəlib «çiraq (şirak-sirak) tayfasına mənsub yaşayış yeri, kənd» deməkdir. Qızılbaş tayfalarından birinin adı da «çıraqlılar»dır (ASE, Xc., B., 1987, s.364). Etnotoponimdir. Sadə quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 7.XII.1945-ci il fərmanı ilə adı dəyişdirilib Crarat qoyulmuşdur.

**Çıraqlı -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunda qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Toponim qızılbaşların çıraqlı etnonimi (ASE, X c., B., 1987, s.364) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çıraxor -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşir. Kəndin başqa adı Şamlar olmuşdur (415, s.60).

Kənddə 1897-ci ildə 18 nəfər, 1922-ci ildə 20 nəfər, 1926-cı ildə 26 nəfər, 1931-ci ildə 34 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1988-ci ilin noyabr ayında kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «su mənbəyi», «bulaq», «qaynaq, çeşmə» mənasında işlənən çerak sözünün (287, s.478) fonetik forması olan çırax sözü ilə türk dilində «xəndək, çuxur», «təpə», «qala istehkamı», «qala səddi, bəndi» (крепостной вал) mənasında işlənən or sözünün (339, s.415-416) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çırpılı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 36 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Çirpili kimi (348, s.285) qeyd edilmişdir.

Toponim «quru budaq, kol qırıntısı» mənasında işlənən çırpı sözünə (12, s.441) mənsubluq bildirən -lı şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm.SSR AS RH-nin 3.ll.1947-ci il fərmanı ilə adı dəyişdirilib Crapi, sonra Nerkin Crapi qoyulmuşdur.

**Çırçır -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində şəlalə mənasında işlənən şırşır sözünün (253, s.134) fonetik forması olan çırçır sözü əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

**Çırçır -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə, Göyçə gölünün sahilində, Zəngi çayının yanında yerləşir. Sevan rayonu təşkil edilənədək, yəni 31 dekabr 1931-ci ilə kimi Axta (Razdan) rayonunun tərkibində olmuşdur. Kəndin digər adı Sutökülən olmuşdur (143, s.18). Erməni mənbələrində (419, s.121), Qafqazın 5 verstlik xəritəsində (348, s.285) Çirçir formasında qeyd edilmişdir.

Toponim Azərbaycan dilində «kiçik şəlalə» mənasını ifadə edən şırşır sözünün (253, s.134) dialekt variantı olan çırçır (çirçir) sözü əsasında əmələ gəlmişdir. Azərbaycan dilinin dialekt və şivələrində, türk dillərində ş~ç səs əvəzlənmələri qanunauyğun haldır.

Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 26.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Varser qoyulmuşdur.

**Çobanqara -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Zəngi çayı ilə Qarasu çayının arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.286) qeyd edilmişdir. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim çobankərə türk etnonimi (386, s.631) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çivandərə -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Çanaxçı kəndinin yaxınlığında, Bazhunnu dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.284) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 113 nəfər, 1886-cı ildə 154 nəfər, 1897-ci ildə 157 nəfər, 1914 - cü ildə 172, 1916-cı ildə 389 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.88-89, 156-157). 1918-ci ilin yazında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi ölü kənddir.

Toponim oğuzların yiva//yıva etnoniminin (238, s.334; 228, s.40) fonetik variantı olan çiva etnoniminə Azərbaycan dilində «dar və uzunsov əyri-üyrü çökək» mənasında işlənən dərə sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. B.Budaqov yivə (yıva) etnoniminin Çuva toponimində (59, s.184), H.Mirzəyev Dərələyəz mahalının Keşişkənd (Yeğeqnadzor) rayonundakı Çivə toponimində (211, s.202-203) qaldığını qeyd edirlər.

Türk dillərində y>c>ç səsəvəzlənməsi qanunauyğun haldır (369, s.54). Bu fikri türk dillərində eyni mənada («dik, sıldırım sahil, yarğan» mənasında) işlənən çar və yar sözləri bir daha sübut edir (339, s.607, 650; 339, s.238).

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çobanmaz -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 2022 km şimal-şərqdə, Hədis dağının ətəyində, Göykilsə (Kaputan) kəndinin yaxınlığında yerləşir. 15 mart 1972-ci il kinıi, Alagöz (Araqadz) rayonu təşkil edilənə qədər Abaran rayoıunun inzibati - ərazi bölgüsünə daxil olnuışdur. Erməni mənbələrində kəndin adı Çobangöməz, Çobangörükməz, Çobangərəkməz, Çobangerikməz formalarında da qeyd edilmişdir (415, s.5). Qafqazın 5 verstlik xəritəsində Çobangyərəkməz formasında əksini tapmışdır (348, s.286).

Kənddə 1873 - cü ildə 24 nəfər, 1886-cı ildə 36 nəfər, 1897-ci ildə 77 nəfər, 1905-ci ildə 88 nəfər, 1914 - cü ildə 97 nəfər, 1916-cı ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s.45, 96-97). 1850-ci ildə Qarsdan ermənilər, 1877-78-cı il rus-türk müharibəsi zamanı Türkiyədən kürdlər köçürülərək bu kənddə yerləşdirilmişdir (427, s.367) 1918-ci ilin yazında azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim çoban türk etnoniminə (ASE, Xc., B., 1987, s.369; 286, s.41) «təpə» mənasında işlənən mar sözünün (237, s.473) fonetik variantı olan maz sözünün qoşulmasından əmələ gəlmişdir. Türk dillərində, o cümlədən Azərbaycan dilində söz sonunda r~z səsəvəzlənməsi (gör~göz, yor (maq) - yoz (maq) qanunauyğun haldır (2, s.234-248; 70, s.116-122).

Deyilənlərdən bir daha bu qənaətə gəlirik ki, mar və maz eyni mənalı sözlərdir.

Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm.SSR AS RH-nin 25.l.1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Avşen qoyulmuşdur.

**Çobanlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 15 km şimal-şərqdə yerləşir.

Kənddə 1831-ci ildə 16 nəfər, 1873 - cü ildə 195 nəfər, 1886-cı ildə 96 nəfər, 1897-ci ildə 152 nəfər, 1904 - cü ildə 130 nəfər, 1914 - cü ildə 156 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra kəndi tərk edənlər öz evlərinə dönə bilmişdir. Burada 1926-cı ildə 42 nəfər, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1988-ci ilin noyabrın axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim oğuzların çapanlu (çobanlı - İ.B.) etnonimi (238, s.186) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Çopur Əli -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonu ərazisində kənd. Rayonun Qorçulu, Dədəqışlaq kəndlərinin ortasında yerləşirdi. 1831-ci ildə burada 28 nəfər azərbaycanlı yaşamışdır (415, s.102). XIX əsrin ortalarında kənd ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Çorlu -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Kəndin adı Çırpılı, Bostançı xaraba formalarında da qeyd edilir (415, s.20). Rayon mərkəzindən 17 km cənubda yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s.287) qeyd edilmişdir.

Toponim türk mənşəli çor etnoniminə (287, s. 106-107) mənsubluq bildirən -lu şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. «Çor tayfasının kəndi, yaşayış yeri» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə Kəndin adı dəyişdirilib Lernatsk, 21.X.1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Lernagyuğ (Dağkəndi) qoyulmuşdur.

**Çotur -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Hamamlı (Spitak) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-qərbdə yerləşir. Hamamlı (Spitak) rayonu təşkil edilənə kimi (1937) Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur.

Toponim türk dilində «uc, kənar» mənasında işlənən çotur sözü (359, III (2), s.20-25) əsasında formalaşmışdır.

Erm.SSR AS RH-nin 26.IV.1946dı il fərmanı ilə adı dəyişdirilib Sarameç qoyulmuşdur.

**Çölməkçi -** İrəvan şəhərində məhəllə. Şəhərin şimal-şərqində yerləşirdi. Toponim «gildən hazırlanmış qab» mənasında işlənən çölmək sözünə (12, s.451) -çi şəkilçisinin qoşulması yolu ilə yaranmış çölməkçi nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Çullu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur.

Kənddə 1897-ci ildə 109 nəfər, 1904 - cü ildə 85 nəfər, 1914 - cü ildə 110 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 39 nəfər, 1926-cı ildə 56 nəfər, 1931-ci ildə 69 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 40-cı illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qədim türk mənşəli çul (çol) türk etnoniminə (286, s.31) mənsubluq bildirən -lu şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir,«çul tayfasına mənsub yer» mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Çubuxlu-**İrəvan quberniyasının Yeni Bayazid qızasında,indi Sevan rayonunda kənd.Rayon mərkəzindən 15 km məsafədə, Göyçə gölünün yanında, İrəvan-Dilican yolunun üstündə yerləşir.

<<İrəvan əyalətinin icmal dəftəri>>ndə(143, s.53), Qafqazın 5 verstlik(348, s.288) qeyd edilmişdir.

Toponim çubuqlu türk etnonimi(193,s.160) əsasında əmələ gəlmişdir.Etnotoponimdir.Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Dzovagyuğ(Gölkənd) qoyulmuşdur.

**Çubuxlu-** Tiflis quberniyasının Borçalı qəzasında,indi Cəlaloğlu (Stepanavan) rayonunda kənd.Rayon mərkəzindən 7 km qərbdə yerləşir.Qafqazın 5 verstlik xəritəsində(348,s.288) qeyd edilmişdir.Kənddə tarixən azərbaycanlılar yaşamışdır.Rayonun ərazisi Rusiya tərəfindən işğal edildikdən sonra buraya XlX əsrin əvvəllərində ruslar köçürülmüşdür.

Toponim çubuqlu türk etnonimi (193,s.160) əsasında əmələ gəlmişdir.Anadoluda Çubuk və oğulları yaşamışdır.F.Sümər <<Çubukun qəti olaraq türkmən olduqların>>qeyd edir (238, s.148).Deməli, çubuqlu türk tayfasıdır və indi Ermənistan adlanan ərazidə bu tayfa yaşamışdır.Tayfa öz izini indi Ermənistan adlanan ərazinin bir çox toponimlərində öz izini qoruyub saxlamışdır.Etnotoponimdir.Quruluşca sadə toponimdir.Kəndə ruslar köçürüləndən sonra (1830-40-cı illərdə), 1840 –cı ildə adı dəyişdirilib Pakrovka qoyulmuşdur.Erm SSR AS RH-nin 4.V.1939-cu il fərmanı ilə kəndin adı yenidən dəyişdirilərək inqilabçı V.V.Kuybışevin şərəfinə Kuybışev qoyulmuşdur.

**Çubuqlu-**İrəvan quberniyasının Aleksandropol qəzasında,indiki Hamamlı(Spitak) rayonunda yaylaq.Rayondakı Saral kəndinin ərazisində yerləşir.Oronim çubuqlu türk tayfa adını (193, s.160) əks etdirir.Etnooronimdir.Sadə oronimdir.

**Çubuq körpü-**İrəvan quberniyasın Şərur-Dərələyəz qəzasında,indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda körpü.Körpü rayondakı Şatin kəndinin yanında yerləşir.Xlll-XlV əsrə aiddir.

**Çubuxçu -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 24 km məsafədə, Araz çayının yaxınlığında, Böyük Qarasu çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.288). Toponim çubuxlu türk etnoniminin (193, s.160) fonetik forması olan çubuxçu tayfa adı əsasında əmələ gəlmişdir. -lı şəkilçisi ilə -çı şəkilçisi sinonim şəkilçilərdir (dağlı-dağçı, kəndli-kəndçi və s.). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm.SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib, Vardanaşen (Güllükənd) qoyulmuşdur.

**Çuğulxuzan dərəsi** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Meğri rayonunda dərə. Nüvədə kəndinin ərazisindədir.

**Cul -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-şərqdə, Arpaçayın sağ qolu olan Culçayın yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.60), Qafqazın 5 verstlik xəritəsində (348, s.84) qeyd edilmişdir. Tarixi mənbələrdə XIII əsrdən xatırlanır (422, s.91).

Kənddə 1831-ci ildə 117 nəfər, 1873 - cü ildə 708 nəfər, 1886-cı ildə 899 nəfər, 1897-ci ildə 1214 nəfər, 1904 - cü ildə 1222 nəfər, 1914 - cü ildə 1344 nəfər, 1916-cı ildə 1607 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakmləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan sakinləri tarixi-etnik torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 717 nəfər, 1926-cı ildə 431 nəfər, 1931-ci ildə 950 nəfər azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). SSRİ hökumətinin xüsusi qərarı ilə kəndin sakinləri azərbaycanlılar 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci ildən burada ermənilər yaşayır.

Toponim çul türk etnonimi (287, s. 111-114; 211, s.190-194) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Artavan qoyulmuşdur.

**Çulçay -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonunda çay. Arpaçayın sağ qoludur.

Hidronim çul türk tayfasının adı ilə (286, s.31-32; 287, s. 111-114) çay coğrafi nomenin birləşməsindən yaranmışdır. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Çuxur Səd** - Səfəvilər dövründə Azərbaycan bəylərbəyliyi. XVI əsrin əvvəllərində yaradılmışdır. Mərkəzi İrəvan (Erivan) şəhəri idi. Arpaçayın Arazla birləşdiyi yerdən başlayaraq, iki çay arasında yerləşən Çuxur Səd oymağının qışlağı olduğu üçün buraya Səd çuxuru deyilmiş və sonralar bu, Çuxur - Səd şəklində işlənmişdir (55, s.15). Səd çuxurunun Çuxur-Səd formasına çevrilməsi fars dilinin təsiri ilə bağlıdır. İndiki Ermənistan ərazisi Çuxur-Səd bəylərbəyliyinin tərkibinə daxil idi. 1517-1527-cı illərdə Div Sultan Rumlu, 1527-1567-cı illərdə Şahqulu Sultan

Ustaclu, 1576-1577 cı illərdə Məhəmməd xan Ustaclı (ləqəbi Toxmaq xan idi) Çuxur-Səd bəylərbəyi olmuşdur. Azərbaycanda XVIII əsrdə xanlıq üsul idarəsinin yaradılması ilə əlaqədar XVIII əsrin ortalarında Çuxur-Səd bəylərbəyliyi ləğv edilmiş, ərazisində İrəvan və Naxçıvan xanlıqları yaradılmışdır.

Toponim Azərbaycan dilində «çala, çökək yer səthindən aşağı çökmüş, oyulmuş yer» mənasında işlənən çuxur sözü ilə (339, s.620; 12, s.454) ayrım türk tayfasından olan saatlı etnonimi (245, s.44) əsasında əmələ gəlmişdir.

H. D. Papazyanın fikrincə, saatlı tayfası orta əsrlərdə Ararat vilayətində hakimlik etmiş Saadın adı ilə əlaqədar saadlı saatlı adlandırılmışdır (93, s.73). Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Çuxur tala** - Tiflis quberniyasının Borçalı qəzasında, indi ki Şəmşəddin rayonu ərazisində qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim türk dilində «çala, çökək, qobu, dayaz dərə» mənasında işlənən çuxur sözü ilə (339, s.620; 12, s.454) «meşədə ağacsız, açıq yer» mənasında işlənən tala sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan quruluşca mürəkkəb toponimdir.

**Çürük qaya** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisyan rayonunun Ağudi kəndində dağ. Dağın daşları ovulub töküldüyü üçün Çürük qaya adlandırılmışdır.

## C

**Cağatay** - İrəvan quberniyasının, Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Arpaçayın yanında yerləşirdi. 1728-ci il tarixdə tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.59), Qafqazın 5 verstlik xəritəsində (348, s.79) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı Cağata formasında da qeyd edilir (415, s.90, 158).

Kənddə 1831-ci ildə 30 nəfər, 1873 - cü ildə 70 nəfər, 1886-cı ildə 86 nəfər, 1897-ci ildə 98 nəfər, 1904 - cü ildə 94 nəfər, 1914 - cü ildə 103 nəfər, 1916-cı ildə 135 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.90-91, 158-159). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s.158-159). Onlar 1923 - cü ildə sıxışdırılaraq kənddən çıxarılmışdır. 1925-cı ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim kəngərli türk tayfasının bir qolunu təşkil edən cığatay etnonimi (386, s.537) əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Cəlaloğlu -** Tiflis quberniyasının Borçalı qəzasında kənd. İndi Ermənistan adlanan respublikada inzibati rayon və rayon mərkəzi, şəhər tipli qəsəbə. Rayon ərazisi IX əsrə kimi Quqark əyalətinin Taşir qəzasının tərkibində olmuş, IX əsrdə Loru hakimiyyəti altında olmuşdur. 1089-1125-cı illərdə rayonun ərazisi gürcü padşahı Davidin hakimiyyətinə tabe olmuşdur. 1801-cı ildə Gürcüstanın Rusiyanın tərkibinə daxil olması ilə əlaqədar rayonun ərazisi Tiflis quberniyasının tərkibində Rusiyanın tabeliyinə keçmişdir. 1919 - cu ildən 1920-ci ilin noyabrınadək Loruya daxil olmuş, indiki Ermənistanda 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti qurulduqdan sonra Loru-Pəmbək qəzasının tərkibində Ermənistanın tabeçiliyinə keçmişdir. 1930 - cu il sentyabr 9-da Cəlaloğlu rayonu yaradılmışdır.

Toponim qızılbaşların tayfasından olan Əmir Məhəmməd bəy Calaloğlunun adı (176, s.14) əsasında yaranmışdır. Məhəmməd bəy Calaloğlu Gürcüstan padşahı Ləvasanı (Kartli hakimi Luar sab) qətlə yetirmiş və Şirvanda özünü öldürmüşdür (175, s.14). Həmin kənd (Cəlaloğlu kəndi) çəpni türk tayfasının əmiri Məhəmməd bəy Calaloğluna mənsub olduğu üçün Calaloğlu kəndi adlanmışdır. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

İndiki Ermənistanın Torpaq Komitəsinin 1923 - cü il qərarı ilə adı dəyişdirilib, azərbaycanlıların qənimi Stepan Şaumyanın adına uyğun Stepanavan qoyulmuşdur.

**Calakənd -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunda kənd.

Toponim Azərbaycan dilinin qərb qrupu dialektlərində «çay ətrafında kiçik ağaclıq, qalın meşə», «kiçik meşə» mənasında işlənən cala sözünə (8, s.453) «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün qoşulması əsasında əmələ gəlmimşdir. «Çala» sözü dialektlərdə həm də «daimi sulu otlu yer» mənasını bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı dəyişdirilib Liçkazor qoyulmuşdur.

**Camışbasan** - İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 22 km şimal-şərqdə, Ciğinsu çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s.80) qeyd edilmişdir. Burada 1828-ci ildə 51 nəfər (386, s.555-556), 1897-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır (415, s.88-89). 1905-1906-cı illərin hadisələri ilə bağlı kənd erməni təcavüzünə məruz qalmış, sakinləri 1906-cı ildə qırğınlarla deportasiya olunmuşdur. Kənd 1906-cı ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qızılbaşların camış közəkli tayfasının adında (91, s.192) əksini tapan camış etnoniminə basan feli sifətinin qoşulması yolu ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Camışlı -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayondakı Böyük Camışlı və Kiçik Camışlı kəndlərinin birləşdirilməsi əsasında yaradılmışdır. Alagöz (Araqadz) rayonu təşkil edilənədək, yəni 15 mart 1972-ci ilə kimi Abaran rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur.

Toponim camışlı türk tayfa adı (142, s.29) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Canı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Alagöz çayının yaxınlığında yerləşirdi. Kəndin adı .erməni mənbələrində Cani, Cani yuxarı kimi də qeyd edilir (415, s.92).

Kənddə 1873 - cü ildə 86 nəfər, 1886-cı ildə 169 nəfər, 1897-ci ildə 221 nəfər, 1904cü üdə 160nəfər, 1914 - cü ildə 176 nəfər, 1916-cı ildə 282 nəfər yalnız Azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanları ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 77 nəfər, 1926-cı ildə 78 nəfər, 1931-ci ildə 111 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1940-cı illərdə kənd sakinləri - azərbaycanlılar SSRİ hökumətinin xüsusi qərarı ilə kənddən çıxarılmış və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Canı şəxs adı əsasında yaranmışdır. «... vaxtilə Xələcistandan farsa köçmüş xələclərin şahılı tayfasının rəisi (Kələntəri və ya kəndxudası) Canı ağanın ətrafında birləşmək üçün toplanan tayfa və qəbilələr Qaşqay adı altında böyük bir el birliyinə çevrilmişdir...» Canı ağa Qaşqay elinə təyin edilmiş ilk elbəyidir (142, s.74-75). Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Cantəpə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda qışlaq. İki hissədən ibarət olmuş, Polad Ayrım kəndinin yaxınlığında yerləşirdi. 1931-ci ildə Dilican rayonun inzibati-ərazi bölgüsünə daxil idi (415, s.32). 1926-cı ildə birinci Cantəpədə 4 nəfər, ikinci Cantəpədə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 1930 - cu illərdə ləğv edilmişdir.

Toponim türk dilində «yan, tərəf» mənasında işlənən can sözünə (299, s.640) «kiçik dağ» mənasında işlənən təpə sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Canfida -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-qərbdə, Araz çayının sol sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Canfəda kimi (143, s.47), Qafqazın 5 verstlik xəritəsində Canfida formasında (348, s.81) qeyd edilmişdir. XVIII əsr mənbəyində göstərilir ki, kənddə oğuzların reyhanlı tayfası (238, s.187) yaşamışdır (143, s.47).

Kənddə 1831-ci ildə 283 nəfər, 1873 - cü ildə 999 nəfər, 1886-cı ildə 1165 nəfər, 1897-ci ildə 1071 nəfər, 1908-ci ildə 1172 nəfər, 1914 - cü ildə 1244 nəfər, 1916-cı ildə 1384 nəfər (415, s.64-65, 140-141), 1918-ci ildə 1318 nəfər (309, s.221), 1919cu ıldə 1815 nəfər (415, s.140-141) yalınz azərbaycanlı yaşamışdır. 1919 - cu ilin sonlarında kənd erməni təcavüzünə məruz qalaraq sakinləri - azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş (309, s.221) və 1915-1918-ci illərdə Türkiyənin Alaşgerd, Samson vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (85, s.120). İndi ermənilər yaşayır.

**Carğan -** Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonu ərazisində qışlaq. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. 1930 - cu illərdə Ləmbəli kəndinə birləşdirilmişdir.

Toponim türk dilində «dərə», «yarğan», «sıldırım dərə,uçurum» mənasında işlənən car sözünə (339, s.178-179) –ğan şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Carğan müasir Azərbaycan dilində işlənən yarğan sözünün fonetik variantıdır.Türk dillərində, o cümlədən Azərbaycan dilində c~y səsəvəzlənməsi qanunauyğun haldır (car~yar, col~yol, cer~yer; 369, s.55). Relyef əsasında yaranan düzəltmə toponimdir.

**Carcaris -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdar. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»fidə Cərcəyis kəndi adında qeyd edilmişdir (143, s.175). 15 mart 1972-ci ildə yaradılan Alagöz (Araqadz) rayonunun tabeliyinə verilmişdir. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrində «vəl əvəzində xırmanda istifadə edilən dəmir dişli kənd təsərrüfatı aləti mənasında işlənən carcar sözünə (8, s.455) -is topoformantının artırılması ilə düzəlmişdir. Bu döyüm aləti əsasən düzən yerlər üçün xarakterik olmuş və iş prosesində vəldən əvvəl işlədilmişdir (Г.Дж.Джавадов.Об орудиях молотьбы <<джарджар>> в Азербайджана,Доклады АН Азерб.ССР,т.XXXII, № 1976, с. 101-106). Toponim peşə, sənət mənasında işlənən carcaris sözü əsasında formalaşmışdır.

**Ceyranlı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd. Arpaçayın sağ qolu olan Muradtəpəsu çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81).

Kənddə 1873 - cü ildə 91 nəfər, 1886-cı ildə 84 nəfər, 1897-ci ildə 92 nəfər, 1904 - cü ildə 123 nəfər, 1914 - cü ildə 135 nəfər, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, $.90-91, 158-159). Kənd 1918-ci ildə erməni təcvüzünə məruz qalmış və sakinləri qırğınlarla deportasiya olunmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim Azərbaycan dilində heyvan anlayışı bildirən ceyran sözünə -lı şəkilçisini artırmaqla əmələ gəlmişdir. Zootoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Cəbəçili -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə yerləşir. Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə (143, s.160), Qafqazın 5 verstlik xəritəsində (348, s.78) qeyd edilmişdir. Mənbələrdə лəndin adı Cəbəçəlli şəklində də göstərilir (415, s.50). Kənddə 1831-ci ildə 275 nəfər, 1873 - cü ildə 252 nəfər, 1886-cı ildə 254 nəfər, 1897-ci ildə 264 nəfər, 1904 - cü ildə 355 nəfər, 1914 - cü ildə 575 nəfər, 1918-ci ildə 355 nəfər, 1919 - cu ildə 240 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131; 309, s.216). 1918-1919 - cu illərdə kənd ermənilərin təcavüzünə məruz qalmış və sakinləri - azərbaycanlılar 1919 - cu ildə tamamilə deportasiya olımaraq Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada ermənilərlə yanaşı 1922-ci ildə 101 nəfər, 1926-cı ildə 115 nəfər, 1931-ci ildə 131 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və xäricdən köçürülən ermənшlər yerləşdirilmişdir. İndi burada ermənilər yaşayır.

Toponim qapıqulu türk tayfasına mənsub olan cəbəçi nəsil adına (İslam Ansiklopedisi, İstanbul, 1993, cilt 7, s.182) mənsubluq bildirən - li şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 27. II. 1960-cı il fərmanı ilə лəndin adı dəyişdirilib Crahovid qoyulmuşdur.

**Cəngi təpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda kənd. Rayon mərkəzindən 12 km məsafədə, Abaran çayının yanında yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Alagöz (Araqadz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun tərkibindən çıxarılıb Alagöz (Araqadz) rayonunun inzibati - ərazi bölügüsünə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81).

Toponim «meşə Örtüyü olmayan dağ», «meşəsiz dağ» mənasında işlənən cəngi sözü ilə (339, s.178) təpə sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Erm. SSR AS RH-nin 19. IV. 1950-ci il fərmanı ilə adı dəyişdirilib Vardablur qoyulmuşdur.

**Cəngi təpə -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Alagöz (Araqadz) rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81). Oronim türk dilində «meşə örtüyü olmayan dağ» mənasında işlənən cəngi sözü (339, s.178) əsasında əmələ gəlmişdir. Mürəkkəb oronimdir.

**Cənnətli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd. Rayon mərkəzindən 12 km şimal-şərqdə, Gərni çayının sahilində yerləşir. Erməni mənbələrində лəndin adı Cahadlu formasında da qeyd edilir (415, s.50).

Kənddə 1831-ci ildə 59 nəfər, 1873 - cü ildə 173 nəfər, 1886-cı ildə 189 nəfər, 1897-ci ildə 219 nəfər, 1904 - cü ildə 184 nəfər, 1914 - cü ildə 228 nəfər, 1916-cı ildə 260 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdir. Burada 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 100 nəfər, 1931-ci ildə 114 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə kənddə yaşayan azərbaycanlılar zorla tarixi torpaqlarından Azərbaycana köçürülmüşdür. İndi ermənilər yaşayır. Toponim nəsil adı əsasında yaranmışdır. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 2. III. 1940-cı il fərmanı ilə лəndin adı dəyişdirilib Lancazat, 21. X. 1967-cı il fərmanı ilə yenidən dəyişdirilib Zovaşen (Gölkənd) qoyulmuşdur.

**Cəfərabad -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81). Tarixən burada azərbaycanlılar yaşamışdır. Kəndə ermənilər, əsasən, 1917-1918-ci illərdə Türkiyənin Xoy, Sürməli, Muş vilayətlərindən köçürülmüşdür (427, s.844). Toponim Cəfər şəxs adı ilə fars dilindən Azərbayca dilinə keçən abad sözünün birləşməsindən əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Getaşen (Çaykənd) qoyulmuşdur.

**Cəfərabad -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 13 km şimalda yerləşir. Zəngibasar rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.81).

Toponim Cəfər şəxs adı ilə fars dilində «müntəzəm və çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan yer» mənasında işlənən abad sözündən ( 9, s.25) əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 4.IV.1946-cı il fərmanı ilə adı dəyişdirilib Arqavand qoyulmuşdur.

**Ciğin -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Ciğin dərəsində, Ciğinsu çayının yanında yerləşirdi. 1590-cı il tarixli «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Ciqin kimi (143, s.172), 1728-ci il tarixli «İrəvan əyalətinin icmal dəftəri»ndə Ceqin, Caqin formasında (143,s.105), Qafqazın 5 verstlik xəritəsində Ciğin qaraqoyunlu şəklində (348, s.82), Z.Qorqodyanın əsərində Göl Ciğin kimi (415, s.84) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 178 nəfər, 1873 - cü ildə 160 nəfər,1886-cı ildə 210 nəfər, 1897-ci ildə 238 nəfər, 1904 - cü ildə 559 nəfər, 1914 - cü ildə 561 nəfər azərbaycanlı yaşamışdır (415,gs.84-85, 154-155). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 54 nəfər, 1926-cı(ildə 92 nəfər, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır(415, s.84-85, 154-155). SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1949 - cu illərdə zorla tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüş və kənd1950-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim qaşqayların cigini tayfasının adı (142, s.40) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Ciğin dərəsi -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda dərə. Ciğin kəndi, eləcə də Qaraqoyunlu, Kolanlı, Bağçacıq, Camışbasan, Küsüz, Məngük, Göl, Dəhnəz, Qarabağlar, Çimən, Zəncirli, Ərmik, Haxıs, Heyranıs kəndləri bu dərədə yerləşir (156, s.170). Oronim qaşqay türk tayfasının cigini tirəsi (142, s.40) əsasında formalaşmışdır. Etnooronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Ciğinsu -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda çay. Ciğin dərəsindən axdığı üçün çay Ciğinsu adlanmışdır. Hidronim cigin türk tayfasının adı ilə (142, s.40) su (çay) sözlərindən əmələ gəlmişdir. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Ciğdamlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) kənd. Kəndin başqa adı «Cilçay»dır (143, s.99). Erməni mənbələrində kəndin adı Çidəmli (415, s.50), Cidamlı, Cifdamlı (427, s.41) formalarında da göstərilir. Rayon mərkəzindən 5 km şimal-şərqdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Ciğdəmli (143, s.99), Qafqazın 5 verstlik xəritəsində Ciğdamlı formasında (348, s.284) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-1829 - cu illərdə İranın Salmas vilayətindən köçürülmüşdür (427, s.41).

Ermənilərlə yanaşı kənddə 1831-ci ildə 166 nəfər, 1873 - cü ildə 155 nəfər, 1886-cı ildə 161 nəfər, 1897-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qədim türk dilində «həsir toxunmasında istifadə olunan parlaq gözəl çay bitkisi» mənasında işlənən cıq sözünə (299, s.147) mənsubluq bildirən -lı şəkilçisinin qoşulduğu «ev, bina, tikili» mənasında işlənən dam sözünün (10, s.26; 339, s.170-171) birləşməsindən əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 20. VIII. 1945-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Azatavan (Azad qəsəbə) qoyulmuşdur.

**Cil -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 28 km cənub-şərqdə, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.82). F. Kırzıoğlu Cilkəndi formasında qeyd qeyd edir (F. Kırzıoğlu. Rəvan türkləri, «Vətən həsrəti» qəz., 18. VI. 1993). İndiki Çəmbərək (Krasnoselo) rayonu yaradılana qədər (31. XII. 1937) Basarkeçər rayonunun tərkibində olmuşdur. Tarixi mənbələrdə kəndin XII əsrdə salındığı göstərilir (Ermənistan Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983, s.514).

Kənddə 1831-ci ildə 265 nəfər, 1873 - cü ildə 287 nəfər, 1886-cı ildə 587 nəfər, 1897-ci ildə 442 nəfər, 1904 - cü ildə 975 nəfər, 1914 - cü ildə 1035 nəfər, 1916-cı ildə 893 nəfər, 1919 - cu ildə 888 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1919 - cu ilin yazında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalaraq qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri doğma yurdlarına dönə bilmişdir. 1922-ci ildə burada 697 nəfər, 1926-cı ildə 824 nəfər, 1931-ci ildə 1041 nəfər (415, s.26-27, 1121123), 1970-ci ildə 1595 nəfər, 1979 - cu ildə 1490 nəfər, 1987-ci ildə 1500 nəfər (85, s.9192) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «torpağın üstünü basan süpürgəvari ot» mənasında işlənən cil sözü (12, s.480, 484) əsasında əmələ gəlmişdir. Bu söz Qazax dialektində «otun bir növü» (Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, B., 1967, s.250), Naxçıvan dialektində «ağacın kökü» (8, s.458) mənasında işlənir. Ümumiyyətlə, cil otu bataqlıqlarda bitir və onun kökündə aşı maddəsi olur (12, s.480). Fitotoponimdir. Quruluşca sadə toponimdir.

**Cızıxlar -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Qızılqoç (Qukasyan) rayonunda kənd. Rayon mərkəzindən 15 km məsafə də yerləşir. 1937-ci ilə kimi Ağbaba rayonun tərkibində olmuşdur.

Toponim türk dilində «sərhəd», «hüdud», «mərz» mənasında işlənən cızıq sözündən (359, III (2), s.2096 ) əmələ gəlmişdir. Relyeflə bağlı yaranan düzəltmə quruluşlu toponimdir.

Erm.SSR AS RH-nin 12.XI.1946-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Tsoxamarq qoyulmuşdur.

**Cızıxlar qalası -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqaç (Qukasyan) rayonundakı Cızıxlar kəndində qala. Qalanın tikilməsini I əsrə aid edirlər (35, s.187).

**Cıbıllı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Rayon mərkəzindən 67 km cənub-şərqdə yerləşirdi. Kəndin digər adı Cibikli olmuşdur (415, s.60).

Kənddə 1897-ci ildə 82 nəfər, 1904 - cü ildə 80 nəfər,1914 - cü ildə 160 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61,» 136-137). 1918-ci ildə azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur (415, s.60-61, 136-137; 309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 52 nəfər, 1926-cı ildə 53 nəfər, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1930 - cu illərin axırlarında kənd ləğv edilərək azərbaycanlılar başqa kəndlərə köçürülmüşdür. İndi xaraba kənddir.

Toponim cibikli (> cıbıllı) tayfa əsasında yaranmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Cıvıxlı -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Kəndin adı Çivixli, Çibuxli, Çibixlı forimalarmda da qeyd edilir (415, s.32). Rayon mərkəzindən 13 km şimal-qərbdə, meşəlik yerdə yerləşir. Kölkənd sovetliyinə tabe idi.

Kənddə 1897-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 1919 - cu ilin martında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalaraq Azərbaycana qaçmışlar. İndiki Ermənisanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 137 nəfər, 1931-ci ildə 132 nəfər (415, s. 116-117), 1970-ci ildə 364 nəfər, 1979 - cu ildə 351 nəfər (85, s.92) yalnız azərbaycnlı yaşamışdır. 1988-ci ilin axırlarında (noyabr-dekabr aylarında) Kəndin sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir. İndı burada heç kim yaşamır. Kənd xarabalığa çevrilib.

Toponim çubuxlu türk tayfa adı (193, s.160) əsasında əmələ gəlmişdir. Cıvıxlı çubuxlu etnoniminin dialekt variantıdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Coğaz -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Karvansaray (İcevan) rayonunda kənd. Kəndin qədim adı Cuğaz olmuşdur (415, s.40). Rayon mərkəzindən 25 km məsafdə yerləşir.

Toponim qədim türk dilində su sözünün fonetik forması olan cu (> co) sözü ilə (339, s.181; 210 a., s.109), ğas//qaz//xaz qədim türk etnoniminin (78, s.29-36) variantı olan ğaz (< xaz < qaz < qas) etnonimi əsasında əmələ gəlmişdir. Bu etnonim Qa zax, Qafqaz toponimlərində öz izini aydın şəkildə qoruyub saxlamışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Su mənasında işlənən cu//co sözü, cuvar sözündə «cu», çamaşırxana» sözündə «ca», jiquli sözündə ji (ju), coqay (sucaq yer) sözündə «co», erməni dilində cur (su) sözündə «cu» formalarında öz əksini tapmışdır. «Su» sözü görkəmli Azərbaycan şairi Şah İsmayıl Xətainin «Dəhnamə» əsərində «cu» formasında işlənmişdir.

Culər axadur kənarı bağdan,
Su içməyə ahu gəldi dağdan.

Bununla yanaşı <<su>> sözü <<cu>>,<<cü>> fonetik formalarında Azərbaycan dilinin dialekt və şivələrində aşağıdakı söz və sözlərin tərkibində işlənmişdir: cu-balaca kanal, qanov, ləklərə gedən kiçik kanal,arx (239, s.200).

<<cü>> -ləklərin arasındakı su arxı. Əmbərcu-tağları suvarmaq üçün su yolu (131, s.83).

Cirat-böyük arxlardan ayrılıb ayrı-ayrı evlərin həyətinə gedən xırda arx.Culva- iki əkin sahəsinin arasından keçən arx (144, s.264).

Cülyə-quyu (Qazax dialektində). Cülgə - gölməçə (Cəbrayıl rayonu şivəsində) (8, s.463). Eyni zamanda Azərbaycan dilində «gildən, saxsıdan, şüşədən qayrılan darboğazlı su qabı» mənasında işlənən cürdək sözünün (12, s.492) ilk komponenti «cü»də su sözünün fonetik formasıdır.

**Coğtala -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Karvansaray (İcevan) rayonunda qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim qədim türk dilində su mənasında işlənən cu sözünün (339, s.181) fonetik variantı co sözü ilə türk dilində «düzənlik, çöl, sahə», «meşənin ortasında açıq yer», «meşədə ağacsız, çılpaq yer» mənasında işlənən tala sözünün (339, s. 169-170) birləşməsindən əmələ gəlmişdir. Toponimin birinci komponenti co (bu sözün ilk variantı cu olmuşdur) Azərbaycan dilində «suvarma suyunu bölüşdürən adam» mənasında işlənən cuvar sözündə, Zaqatala-Qax zonasında sucaq yer mənasında işlənən coqay sözündə öz izini saxlamışdır. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Comardlı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 14 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir (348, s.83).

Kənddə 1873 - cü ildə 208 nəfər, 1886-cı ildə 244 nəfər, 1897-ci ildə 333 nəfər, 1908-ci ildə 410 nəfər, 1914 - cü ildə 405 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1916-1918-ci illərdə azərbaycanlılar qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 87 nəfər, 1926-cı ildə 87 nəfər, 1931-ci ildə 149 nəfər (415, s.76-77, 146-147), 1979 - cu ildə 860 nəfər (85, s.191) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim comardlı türk tayfa adı əsasında əmələ gəlmişdir. Comardlı etnoniminin ilk komponenti com Azərbaycan dilinin Muğan şivələrində «tayfa, əqrəba mənalarında işlənir» (240, s.325). Etnotoponimdir. Qurluşca sadə toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin dəyişdirilib Tanahat qoyulmuşdur.

**Coratan -** Tiflis quberniyasının Borçalı qəzasında, indi Şəmşəddin rayonunda kənd. Rayon mərkəzindən 14 km məsafədə yerləşir. Erməni mənbələrində kəndin 1683 - cü ildə salındığı göstərilir (Ermənistan Sovet Ensiklopediyası. IXc., İrəvan, 1983, s. 60). Toponim monqolların corat etnoniminə (26, s.26-27; 26, s.28; 251, s.169) -an cəm şəkilçisinin artırılması yolu ilə əmələ gəlib «corat tayfasının yaşadığı, məskunlaşdığı kənd» mənasını bildirir. Corat etnonimi curyat etnoniminin (286, s.59) fonetik formasıdır. Bu tayfanın adı ilk dəfə XIV əsrdə yaşamış F.Rəşidəddinin əsərində çəkilir (228, s.58-59).

Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Crvej -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. 1590-cı ildə tərtib edilmiş «İrəvan əyalətinin müfəssəl dəftəri»ndə Cevriş formasında qeyd

edilmişdir (143, s.159). Erməni mənbələrində kəndin qədim adının Çivreş olduğu göstərilir (415, s. 46).

Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-1929 - cu illərdə İran və Türkiyədən köçürülüb yerləşdirilmişdir (85, s.270).

Burada ermənilərlə yanaşı 1873 - cü ildə 43 nəfər, 1886-cı ildə 31 nəfər, 1897-ci ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s.4447, 126-127). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdular. İndi burada ermənilər yaşayır.

**Culfa karvansarası -** İrəvan şəhərində karvansara.

**Curasdan -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican rayonunda qışlaq. Haqqıxlı kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 8 nəfər, 1926-cı ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s.3238). 1930 - cu illərdə ləğv edilmişdir.

**Cucevan -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Barana (Noemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km məsafədə yerləşir. Erməni mənbələrində kəndin 1873 - cü ildə salındığı göstərilir (Ermənistan Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983, s. 551). Bu, həqiqətə uyğun deyil. Belə ki, kənddə XII-XIII əsrlərə aid tarixi abidələr (türk qəbirləri, qala divarları) vardır (Ermənistan Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983,s.551).

Toponim Çingiz xanın böyük oğlu Cucinin adı ilə bağlı yaranan ulusun adını (ASE, X c., B., 1987, s.449; 66, s.36) əks etdirən cuce sözü ilə urartu dilində «ölkə», «yer» mənasını bildirən ebani (ubani) sözü (332, s.68) əsasında formalaşan van(<ban) sözünün birləşməsindən əmələ gəlib «cuci tayfasının ölkəsi, yaşadığı yer> mənasını ifadə edir. Patronim toponimdir.Quruluşca mürəkkəb toponimdir.

**Cücəkənd -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Kalinino rayonunda kənd. 1937-ci ilə kimi Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 15 km şimal-qərbdə, İlməzli kəndinin yaxınlığında birbirinə bitişik üç təpə üzərində, az bir hissəsi düzənlikdə yerləşir. Monqol istilası zamam bu kəndin adı Cüyцikənd olmuş və sonradan toponim fonetik hadisəyə uğrayaraq «y» səsi düşmüş, Cüycikənd i~ə səsəvəzlənməsi nəticəsində Cücəkənd formasında qalmışdır.

Kənddə 1886-cı ildə 205 nəfər, 1897-ci ildə 237 nəfər, 1904 - cü ildə 210 nəfər, 1914 - cü ildə 468 nəfər, 1916-cı ildə 399 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1918-ci ildə azərbaycanlılar deportasiyaya məruz qalmışdır. Indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz ocaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 474 nəfər, 1926-cı ildə 498 nəfər, 1931-ci ildə 623 nəfər (415, s.80-81, 150-151), 1987-ci ildə 1500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən qırğınlarla qovulmuşlar. İndi burada ermənilər yaşayır.

Toponim monqol sərkərdəsi Cuci xanın (ASE, X c., B., 1987, s.449) adı əsasında formalaşan cuci ulusunun adından (ASE, X c., B., 1987, s.449; 66, s.36) yaranmışdır. Yəni toponim cuci nəsil adı ilə «yaşayış məntəqəsi» mənasında işlənən kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 3.l. 1935-ci il fərmanı ilə adı dəyişdirilərək Qızıl Şəfəq qoyulmuşdur.

## Ş

**Şabadin -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkzindən 13 km şimal-şərqdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.289).

Kənddə 1831-ci ildə 51 nəfər, 1873 - cü ildə 198 nəfər, 1886-cı ildə 261 nəfər, 1897-ci ildə 316 nəfər, 1904 - cü ildə 317 nəfər, 1914 - cü ildə 275 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s.205). İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 151 nəfər, 1926-cı ildə 175 nəfər, 1931-ci ildə 213 nəfər (415, s.60-61, 136-137), 1959 - cu ildə 380 nəfər (415, s.157-158) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrın axırlarında azərbaycanlılar tamamilə öz doğma ocaqlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim türk dilində «bitkisiz qumlu, daşlı dağ yamacı», «yastı sıldırım sahili» (287, s.477), «uçurum, sıldırım», «yamac», «dərin dağarası çuxurda yüksəklik» (339, s.607) mənasında işlənən çap (> şab -İ. B.) sözü ilə türk dilində «dincəlmək üçün dayanmaq», «istirahət», «dincəlmək» mənasında işlənən din (dın) sözünün (367, s.341-343) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə adı dəyişdirilib Yeğek qoyulmuşdur.

**Şabadin axund yeri -** Yelizavetpol (Gəncə) quberniyasıtın Zəngəzur qəzasında, indiki Qafan rayonunda kənd. Rayondakı Oxçu kəndinin yaxınlığında yerləşirdi. Burada 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində, 1906-cı ildə ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş, kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir. Mürəkkəb quruluşlu toponimdir.

**Şaqarda -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Cəlaloğlu (Stepanavan) rayonu ərazisində kənd. Burada tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci ildə Türkmənçay müqaviləsi bağlanandan sonra, indiki Ermənistanın başqa bölgələri kimi buraya da Türkiyədən ermənilər köçürülüb yerləşdirilmişdir. Burada ermənilərlə yanaşı 1897-ci ildə 5 nəfər, 1916-cı ildə 21 nəfər, 1922-ci ildə 11 nəfər, 1926-cı ildə 67 nəfər, 1931-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948-1953 - cü illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq zorla Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Azərbaycan dilində s~ş səs əvəzlənməsinin qanunauyğun hal olduğunu nəzərə alıb qeyd edə bilərik ki, Şaqarda toponiminin birinci komponenti şaq, saq etnonimini əks etdirir. Saq etnonimi ilə bağlı ilk məlumata Strabonun «Coğrafiya» əsərində rast gəlinir. Saq etnonimi türk tayfasıdır (402, s.73, 91-96; 235, s 24-28; 287, s.82-101). Deməli, toponim saq türk etnonimi ilə türk dilində «dağbeli» (399,l, s.42), «arxa tərəf, yayla, dağ, dağ keçidi» (299, s.55), «təpə» (339, s.56) mənasında işlənən art sözünün birləşməsindən əmələ gəlib «dağ keçidində, yaylada, dağda sakların yaşadığı yer» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şalat -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 19 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Şələt formasında (143, s.150) qeyd edilmişdir.

Toponim türk dilində şala ağacını bildirən şala (şal formasında da işlənmişdir) sözünə (299, s.520) qədim türk dilində cəmlik bildirən -t şəkilçisinin (299, s.663) artırılması yolu ilə əmələ gəlmişdir. Azərbaycan dilində «qalın meşə» mənasında işlənən şellix sözü ilə (253, s.133) şal, şala eyniköklü sözlərdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir. Kəndin adı dəyişdirilib Şaqat qoyulmuşdur.

**Şamb -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 22 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Şamkəndi kimi qeyd edilmişdir (348, s.291). Toponimin ilkin forması «Şam»dır. Toponimin sonundakı «b» samiti sonradan artırılaraq erməni dilində «qarğı, qamış» mənasını verən şamb formasına uyğunlaşdırılmışdır.

Toponim «ağac» mənasında işlənən şam sözündən əmələ gəlmişdir. Fitotoponimdir. Qurluşca sadə toponimdir.

**Şamlıq -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Allahverdi (Tumanyan) rayonunda kənd. İndi şəhər tipli qəsəbədir. Rayon mərkəzindən 13 km şimal-şərqdə yerləşir. Kənddə filiz

yataqları (mis) vardır. Buna görə də burada mis mədənləri tikilmişdir. Kənddə 1886-cı ildə 7 nəfər, 1897-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s.1213, 100-101). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olnmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişdir. Burada 1922-ci ildə 62 nəfər, 1926-cı ildə.65 nəfər, 1931-ci ildə 166 nəfər (415, s. 12-13, 100-101), 1959 - cu ildə 260 nəfər, 1970-ci ildə 266 nəfər azərbaycanlı yaşamışdır. Qəsəbədə azərbaycanlılarla yanaşı, yunanlar, ermənilər və ruslar da yaşamısdır. Azərbaycanlılar 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada yunanlar və ermənilər yaşayır. Toponim «şam» ağac adına -lıq şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Şamud -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indiki Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 60 km məsafədə yerləşir. Kəndin adı Şamut formasında da qeyd edilir (266, s.222). Toponim ağac növü olan şam sözünə qədim türk dilində cəmlik bildirən -ud şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Şamsız -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda kənd.

Kənddə 1897-ci ildə 124 nəfər, 1914 - cü ildə 186 nəfər, 1916-cı ildə 911 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanalar tarixi-etnik torpaqlarına dönmüşdür. Burada 1926-cı ildə 54 nəfər, 1931-ci ildə 52 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). 1940-cı illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. tndi xaraba kənddir.

Toponim bitki adı bildirən şam sözünə -sız şəkilçisinin artırılması ilə düzəlmişdir. Fitotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Şirəqala -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Abaran rayonu ərazisində kənd. Abaran çayının sağ qolu olan Duluçay çayının yanında yerləşirdi. 1840-1850-ci illərdə ləğv edilmişdir. İndi xarabakənddir.

Toponim «gil növü, mavi gil» mənasında işlənən şirə sözü ilə (253, s.133) qala sözününə birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Şativəng -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində dini məbəd. Dağlıq yerdə 1656-cı ildə tikilmişdir (Сборник сведений о Кавказе, т. V.,Тифлис,1879, № 765). Qafqazın 5 verstlik xəritəsində (348, s.290) qeyd edilmişdir. Bu abidə Dərələyəzdə Həsənkənd və Alxanpəyəsi adlı kəndlərin qabağжтda, Təkədonduran dağının qərb tərəfində, dağın başında yerləşir. (211,s.210).

Toponim türk xanlarında hərbi rütbə mənasında işlənən şad sözünə (299, s.519; 229, s.383) türk dilində «qala», «istehkam» mənasında işlənən vəng sözünün qoşulması yolu əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Şahab -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Rayon mərkəzindən 3 km məsafədə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.77), Qafqazın 5 verstlik xəritəsində (348, s.240) qeyd edilmişdir.

Toponim şahablı nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 11.IV.1940-cı il fərmanı ilə adı dəyişdirilib Mayakovski qoyulmuşdur.

**Şahablı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 13 km cənub-şərqdə, Qırxbulaq çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.106), Qafqazın 5 verstlik xəritəsində (348, s.290) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 437 nəfər, 1886-cı ildə 606 nəfər, 1897-ci ildə 853 nəfər, 1904 - cü ildə 827 nəfər, 1914-cü ildə 910 nəfər, 1916-cı ildə 966 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. Türkiyənin Van və Şatax vilayətlərindən köçürülən ermənilər bu kəndə də yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Ermənilərlə yanaşı, burada 1922-ci ildə 64 nəfər, 1926-cı ildə 41 nəfər, 1931-ci ildə 79 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). SSRİ hökumətinin xüsusi qərarı ilə kənddə yaşayan

azərbaycanlılar 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. İndi burada yalnız ermənilər yaşayır.

Toponim şahablı nəsil adı əsasında əmələ gəlmişdir. Patronomik oykonimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə adı dəyişdirilib Şahap (Şaqap) qoyulmuşdur.

**Şahvarud -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonunda dağ. Rayondakı keçmiş Xaratlıq kəndinin ərazisində yerləşirdi. Oronim titul bildirən şah sözü ilə bulaq hidronimi əsasında yaranıb.

**Şalıbulaq -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd. Rayon mərkəzindən 9 km cənub-qərbdə, Araz çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.293). Erməni mənbələrində Şavarud kimi yazılır (415, s.64). Kənddə 1831-ci ildə 59 nəfər, 1873 - cü ildə 72 nəfər, 1886-cı ildə 116 nəfər, 1897-ci ildə 153 nəfər, 1908-ci ildə 96 nəfər, 1914 - cü il də 128 nəfər, 1916-cı ildə 132 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.64-65, 138-139). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 108 nəfər, 1926-cı ildə 106 nəfər, 1931-ci ildə 96 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.64-65, 138-139). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə kəndin sakinləri olan azərbaycanlılar 1948-1949 cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır.

Toponim fars dilində «qaya, möhkəm, bərk» mənasında işlənən şah sözündən (339, s.625) və Azərbaycan dilində «möhkəmləndirilmiş kənd, qala» mənasında işlənən var sözünə (339,s.113) -ud şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Relyef əsasında yaranmış mürəkkəb quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 3.VII.1968-ci il fərmanı ilə adı dəyişdirilib Uşakert qoyulmuşdur.

**Şaverdilər -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda kənd. Qafqazın 5 verstlik xəriətsində qeyd edilmişdir (348, s.293). Kəndin digər adı, «Şahverdiuşağı» olmuşdur (415, s.28). Kənddə 1886-cı ildə 238 nəfər, 1897-ci ildə 217 nəfər, 1904 - cü ildə 111 nəfər, 1914-cü ildə 147 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra 1923-1924 - cü illərdə sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Burada 1926-cı ildə 87 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29). 1930 - cu ildə kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim Şahverdilər (Şahverdilər uşağı) nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Quruluşca sadə toponimdir.

**Şahdağı -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dağ. Rayonun Cil kəndi ilə Azərbaycanın Gədəbəy rayonu arasında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.293). Oronim titul bildirən şah sözü ilə dağ sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu oronimdir.

**Şahəli -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Quqark rayonunda kənd. Rayon mərkəzindən 25 km məsafədə yerləşir. Şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Quruluşca sadədir.

Erm. SSR AS RH-nin 10. IV. 1947-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vahaqni qoyulmuşdur.

**Şahgəldi qışlağı -** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Rayondakı Hors kəndinin yaxınlığında, Səlim çayının sahilində, Arpaçayın sağ qolunun yanında yerləşirdi. Erməni (415, s.92), rus (348, s.135) mənbələrində həm də Qışlaq kimi qeyd edilir.

Kənddə 1831-ci ildə 36 nəfər, 1873 - cü ildə 80 nəfər, 1886-cı ildə 112 nəfər, 1897-ci ildə 133 nəfər, 1904 - cü ildə 133 nəfər, 1914 - cü ildə 146 nəfər, 1916-cı ildə 179 nəfər, 1919 - cu ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1919 - cu ilin sonlarında kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 42 nəfər, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 45 nəfər yalnız azərbaycanlı yaşamışdır (415,

s.92-93, 162-163). 1940-cı illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim Şahgəldi sözü ilə qışlaq sözünün birləşməsindən əmələ gəlmişdir. Qışlaq şaha məxsus olduğunu ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir.

**Şahmurad -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonu ərazisində qışlaq. Gölkənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.32-33). 1930 - cu ildə ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmiş antropotoponimdir. Quruluşca sadə toponimdir. ;

**Şahnəzər -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Kalinino rayonunda kənd. Rayon mərkəzindən 11 km məsafədə yerləşir. Kənddə ermənilərdən başqa, 1831-ci ildə 6 nəfər, 1897-ci ildə 3 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.80-81, 150-151). 1930 - cu illərdə azərbaycanlılar kənddən qovulmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim şəxs adı əsasında əmələ gəlib. Antropotoponimdir. Sadə quruluşlu toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Medzavan (Böyük qəsəbə) qoyulmuşdur.

**Şacquran -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Şəmşəddin rayonunda qışlaq. 1930 - cu ildə ləğv edilmişdir.

Toponim sacilər sülaləsinin başçısı Əbu-s-Sac Divdad İbn Yusif ibn Əl-Divdastın (ASE, VIII, B., 1984, s.313) adını əks etdirən Sac sözünün fonetik variantı olan Şac (Azərbaycan dilində s~ş səsəvəzlənməsi qanımauyğun haldır) sözünə monqol dilində «düşərgə, hərbi düşərgə», «hasar» mənasında işlənən quran (əsli xuren) sözünün (339, s.317-318) artırılması yolu ilə düzəldilmişdir. Antropotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şeyx Hacı -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Talin rayonunda kənd. Rayon mərkəzindən 17 km məsafədə, Alagöz dağının qərb ətəyində yerləşir. Kəndin adı erməni mənbələrində Shacı formasında da göstərilir (415, s.36). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.296).

Kənddə 1831-ci ildə 19 nəfər, 1873 - cü ildə 233 nəfər, 1886-cı ildə 245 nəfər, 1897-ci ildə 338 nəfər, 1908-ci ildə 337 nəfər, 1914 - cü ildə 337 nəfər, 1916-cı ildə 311 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.36-37, 118-119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri - azərbay,. canlılar qırğınlarla deportasiya olunmuş və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. İndi ermənilər yaşayır. :

Toponim Şeyx Hacı şəxs adı əsasında əmələ gəlib «Şeyx Hacıya mənsub kənd» mənasını ifadə edir. Antropotoponimdir. ,<Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 3.l.1935-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Şqarşik qoyulmuşdur.

**Şenqovit bayat -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonu ərazisində kənd. Qəmərli (Artaşat) rayonunun tabeliyində olarkən İrəvan şəhərinin genişləndirilməsi ilə əlaqədar 1935-ci ildə İrəvan şəhərinin tabeliyinə verlimişdir (227, s.217-218). Beləliklə, müstəqil yaşayış məntəqəsi (kənd statusunda) kimi ləğv edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar sıxışdırılaraq deportasiya olunmuş və kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir (386, s.547-550). Burada ermənilərlə yanaşı 1831-ci ildə 75 nəfər, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s.48-49, 128). XX əsrin əvəllərində onlar tamamilə ermənilərin təcavüzünə məruz qalaraq kənddən çıxarılmışdır.

Toponim türk dilində «yaşayış məntəqəsi», «şenlik» mənasında işlənən şen və «suyun əmələ gətirdiyi çökək» mənasında işlənən qovu (< qobu) sözü ilə (253, s.22) bayat türk tayfa adı (399,1, s.56) əsasında əmələ gəlib, «bayat tayfasının çökəklikdə olan kəndi, yaşayış yeri» mənasını ifadə edir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şəki** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 6 km şimal-qərbdə yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.150) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 148 nəfər, 1873 - cü ildə 445 nəfər, 1886-cı ildə 657 nəfər, 1897-ci ildə 1191 nəfər, 1908-ci ildə)1605 nəfər, 1914 - cü ildə 1584 nəfər nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ilin avqust ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya, edilmişdir (309, s.205). Xaricdən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönə bilmişdir. Burada

1922-ci ildə 282 nəfər, 12 erməni, 1926-cı ildə 385 nəfər azərbaycanlı, 407 nəfər erməni, 1931-ci ildə 557 nəfər azərbaycanlı,510 nəfər erməni yaşamışdır (415, s.76-77, 146-147). 1988-ci ilin noyabr ayında azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. İndi burada təkcə ermənilər yaşayır.

Toponim kimmerlərin tərkibində gələn sak (402, s.66-80; , 23, s. 102-104) əsasında əmələ gəlmişdir. Şəki sak // saka etnoniminin fonetik variantıdır.

Q. Qeybullayev saka türk etnoniminin həm də şaka formasında olduğu göstərir (168, s.6970). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şəki şəlaləsi -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda şəlalə. Rayon mərkəzindən 3 km şimal-qərbdə, Bazarçay dərəsində yerləşir. Hündürlüyü 18 metrdir (85, s.192). Şəlalə Şəki kəndində olduğu üçün Şəki şəlaləsi adlandırılmışdır. Quruluşca mürəkkəb hidronimdir.

**Şəmilər yurdu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda yurd. Oronim şəmilər nəsil adı ilə «yaşayış yeri», «məskən» mənasında işlənən yurd sözünün birləşməsindən əmələ gəlib «şəmilərin yaşadığı;, məskən, saldığı yer» deməkdir. Patronomik oronimdir. Quruluşca mürəkkəb oronimdir.

**Şəmşəddin -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında mahal. İndiki Ermənistanda inzibati rayon. Rayon kimi 1930 - cu il sentyabrın 9-da yaradılmışdır. Mir mehdi Xəzaninin «Kitabi-tarixi-Qarabağ» əsərində qeyd edilmişdir (207,s.120, 135).

Toponim şəmsəddinli türk etnonimi (214, s.253; 193, s.162) əsasında əmələ gəlmişdir. Şəmsəddinli etnoniminin qızılbaşların zülqədar tayfasına aid olduğu göstərilir (354, s.94; 286, s.56). Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şərbətli bulaq -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda bulaq. Hidronim «keyfiyyətli, dadlı, şirin, içməli» mənasında işlənən şərbətli sözü ilə bulaq sözünün birləşməsindən əmələ gəlmişdir. Mürəkkəb quruluşlu hidronimdir.

**Şərdərə -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonu ərazisində kənd olmuşdur. Xalac kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 59 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ermənilərin təcavüzü nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «pislik, yamanlıq» mənasında işlənən şər sözünə «iki dağ və ya təpə arasında, düzənlikdə dərin çüxup>, «çay yatağı» mənasında işlənən dərə sözünün (10, s.74) birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şəhər -** İrəvan şəhərində məhəllə. Şaqar, Şəkərək (Şakarak) formalarında da qeyd olunur. Xalq arasında Şəhər formasında işlənir. İrəvanın ən qədim məhəllərindən biridir. XIX əsrin ortalarından (1840-1850-ci illərdə) burada 792 ev olmuşdur (Сборник сведений о Кафказе, т. lll, Тифлис, 1875, c.260).

Toponim sak qədim türk tayfasının (168, s.59-78; 23, s. 102-104) fonetik forması olan şak // şaq sözünə türk dilində «igid, qoçaq», «kişi» mənasında işlənən ər sözünün artırılması yolu ilə əmələ gəlmişdir (Bu konstruksiya ilə düzələn türk etnonimləri çoxdur: kəngər, kəvər, göyər, xəzər, salur (salar), tatar və s.) Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şəhərcik -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonu ərazisində kənd. Rayon mərkəzindən 7 km şimalda, Oxçu çayının sol sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.290). Erməni mənbələrində Şharcik formasında qeyd edilir (415, s.60). Kənddə 1831-ci ildə 37 nəfər, 1873 - cü ildə 162 nəfər, 1886-cı ildə 371 nəfər, 1897-ci ildə 341 nəfər, 1904 - cü ildə 395 nəfər, 1914 - cü ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra öz yurd-yuvalaкжna dönə bilmişdir. Burada 1922-ci ildə 262 nəfər, 1926-cı ildə 316 nəfər, 1931-ci ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1988-ci ilin noyabrın axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşlar. İndi burada ermənilər yaşayır. Toponim cavanşir türk tayfasına mənsub olan şəhərcik etnonimi (286, s.73) əsasında əmələ gələn etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şəhriz -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Sevan rayonunda kənd. Rayon mərkəzindən 6 km məsafədə, Göyçə gölünün yaxınlığında, İrəvan - Sevan yolunun üstündə, Zəngi çayının yanında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.53), XIX əsr rus mənbələrində

(Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, № 1242) qeyd edilmişdir. Kəndin digər adı «Kərimkənd» olmuşdur (415, s.18). Ermənilər buraya 1828-1829 - cu illərdə Türkiyənin Alaşkert vilayətindən köçürülmüşdür (427, s.828). Sadə quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 26. IV. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Geğamavan qoyulmuşdur.

**Şəhriyar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.102), Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.290). Kənddə 1897-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87). 1905-1906-cı illərdə ermənilər tərəfindən azərbaycanlılar qovulmuşlar. 1922-ci ilə qədər burada yaşayış olmamışdır. İndiki Ermənistanda sovet hökumati qurulandan sonra burada 1922-ci ildə 44 nəfər, 1926-cı ildə 35 nəfər, 1931-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87. 156-157). SSRİ hökumətinin xüsusi qərarı ilə kəndin sakinləri azərbaycanlılar zorla 1948-1949 - cu illərdə Azərbaycana köçürülmüşdür. İndi xaraba kənddir.

Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Quruluşca sadə toponimdir.

**Şidli -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə, Araz çayının sol sahilində yerləşir. Kəndin adı Qafqazır 5 verstlik xəritəsində (348, s.295) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 263 nəfər, 1873 - cü ildə 806 nəfər 1886-cı ildə 823 nəfər, 1897-ci ildə 992 nəfər, 1904 - cü ildə 77 nəfər, 1914 - cü ildə 855 nəfər, 1916-cı ildə 842 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-ci ildə azərbaycanlılar qırğınlarla qovulmuşlar. İndiki Ermənistande Sovet hökuməti qurulandan sonra kəndin sakinləri doğma yurdlarına dönmüşdür. 1922-ci ildə 571 nəfər, 1926-cı ildə 60 nəfər, 1931-ci ildə 470 nəfər (415, s.86-87, 156-157), 1972-ci ildə 1357 nəfər, 1987-ci ildə 2000 nəfər (85, s.238-239; azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə öz kəndlərindən qovulmuşdur. İndi burada təkcə ermənilər yaşayır.

M. Kalankatuklu «Alban tarixi» əsərində Xosrov şahın hökmdarlığının otuz yeddinci ilinin əvvəlində Şimal çarı Xəzərlərin arasında, knyazlıq rütbəsinə görə Şad adlanan qardaşı oğlu olduğu qeyd edilir və Şadın öz düşərgəsini Araz çayının sahilində saldığı göstərilir (153, s.96). Bu əsərin «Qeydlər və şərhlər» hissəsində Z. Bünyadov qeyd edir ki, xəzərlər arasında IX əsrədək Şad Xaqandan sonra ikinci hökmran sayılırdı (153 s.218). L. Qumilyev qeyd edir ki, İl-xan Bumın vaxtında «İxtiyarında bölgələrin hakimiyyəti olan və xana qan qohumluqları çatan şahzadələr «şad» çağrılırdılar (180, s.67) və şad titulunu «şimal hökmdarı» Cabqu xanın qardaşları daşımışlar (180, s.188 189). «Şad» sözü qədim türk dilində «hərbi rütbə» mənasında işlənmişdir (299, s.519).

Bu deyilənlərdən belə qənaətə gəlirik ki, Şidli toponimi türklərdə, daha doğrusu xəzərlərdə hərbi titul mənasında işlənən şad sözünə (299, s.519) mənsubluq bildirən -lı şəkilçisinin artırılması yolu ilə əmələ gələn şadlı sözü əsasında formalaşıb «Şidli» kimi sabitləşmiş və etnonimə çevrilmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Yexeqnavan qoyulmuşdur.

**Şiləçi -** İrəvan şəhərində məhəllə. Urbonim boyaqçılıqla məşğul olan sənətkarların adını əks etdirir. İrəvan dialektində şilə qırmızı parça mənasını ifadə edir. Toponim şilə sözünə insan anlayışı bildirən -çi şəkilçisinin artırılması yolu ilə düzəlib «şilə boyayanlar» mənasını ifadə edir. Quruluşca düzəltmə toponimdir.

**Şinadağ** - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 35 km məsafədə yerləşir. Kəndin adı erməni mənbələrində Şnatağ, Şenatağ formalarında da qeyd edilir (415, s.76; 419, s.113).

Toponim qədim türk dilində «tikinti, tikili, qəsəbə, kənd, oba, yurd» mənasında işlənən şen sözünün (196, s.63-69) qədim forması olan şin sözü ilə (278, s.160; 196, s.67) Azərbaycan dilində «yerin hündür, dik, yamaclı və zirvəli hissəsi» mənasında işlənən dağ sözünün (10, s.11) qədim fonetik forması olan tağ sözü (299, s.526) əsasında əmələ gəlmişdir. «Kənd, oba, yurd, tikili, yaşayış məntəqəsi» mənasında işlənən şen sözü öz izini Azərbaycan dilində «abad yaşayış yeri, ümumiyyətlə məskun yer, məntəqə», «qəsəbə» mənasında işlənən şenlik sözündə (253, s.133; 12, s.506) və «adam az olan, əhalisi az olan» mənasında işlənən şenliksiz sözündə (12, s.507) saxlamışdır. Bu söz həm də şin, şın formasında toponimlərin tərkibində (Çavanşin, Buvırşın, Sarığşın, Şin, Şinçay) işlənməkdədir (278, s.160; 196, s.67). Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 2. III. 1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lernaşen (Dağkəndi) qoyulmuşdur.

**Şirazlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 5 km cənub-şərqdə, Vedi çayından axan arxın yanında yerləşir.

«İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.51), Qafqazın 5 verstlik xəritəsində (348, s.295) qeyd edilmişdir.

Kənddə 1873 - cü ildə 150 nəfər, 1886-cı ildə 235 nəfər, 1897-ci ildə 451 nəfər, 1904 - cü ildə 229 nəfər, 1914 - cü ildə 251 nəfər, 1916-cı ildə 480 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 216 nəfər azərbaycanlı, 114 nəfər erməni, 1926-cı ildə 243 nəfər azərbaycanlı, 130 erməni, 1931-ci ildə 256 nəfər azərbaycanlı, 182 nəfər erməni (415, s.86-87, 156-157), 1972-ci ildə 2616 nəfər azərbaycanlı, 873 erməni, 1987-ci ildə 3000 nəfər (415, s.239-240) yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla qovulmuşlar. İndi ermənilər məskunlaşıb.

Toponim oğuzların şirazlı etnonimi (F.Kirzıoğlu. Rəvan türkləri, «Vətən həsrəti» qəz., 18. VI. 1993) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Vosgetap qoyulmuşdur.

**Şirak -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Düzkənd (Axuryan) rayonunda kənd. Toponim siraq türk etnonimi (235, s.47-59) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şirak -** İndiki Ermənistanın şimal-qərb tərəfində yayla. Oronim siraq (şiraq) türk etnonimi (235, s.47-59) əsasında yaranmış etnooronimdir.

**Şirakavan -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Ağin (Ani) rayonunda kənd. Rayon mərkəzindən 24 km məsafədə yerləşir. Toponim qədim türk tayfalarından biri olan siraq (şiraq) etnonimi (235, s.47-59) ilə urartu dilində «yaşayış məntəqəsi», «şəhər» mənasında işlənən ebani sözünün fonetik forması hesab etdiyimiz avan sözündən əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şirvancıq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Artik rayonunda kənd. Rayon mərkəzindən 10 km cənub-qərbdə yerləşir. Kəndin qədim adı Sirvancıq olmuşdur (415, s.24). «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.127), Qafqazın 5 verstlik xəriətsində (348, s.295) qeyd edilmişdir.

Toponim türk mənşəli şirvan etnoniminə (286, s.70) -cıq şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

Erm. SSR AS RH-nin 15.VII.1948-ci il fərmanı ilə adı dəyişdirilib Lernakert qoyulmuşdur.

**Şirəqala -** İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Abaran rayonunda kənd. Rayon mərkəzindən 20 km məsafədə, Abaran çayının sağ qolu üstündə, Duluçay çayının sahilində yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.112), XIX əsrə aid rus mənbələrində (Сборник сведиений о Кавказе, т, V, Тифлис, 1879, № 338) qeyd edilmişdir. Erməni mənbələrində 1914-cü ildə burada 1172 nəfər azərbaycanlının yaşadığı göstərilir (415, s.97). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş, İran və Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndi ermənüər yaşayır.

Toponim «gil növü, mavi gil» mənasında işlənən şirə sözünə (253, s.133), «istehkam, müdafiə tikilisi», «həbsxana, zindan» mənasında işlənən qala sözünün qoşulması nəticəsində əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nшn 15. VII. 1946-cı il fərmanı ilə adı dəyişdirilib Vardenut qoyulmuşdur.

**Şirin bulaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonu ərazisində kənd. Yuxarı Kilsə kəndinin ilk adı olmuşdur. «Kilsənin (Yuxarı Kilsə kəndindəki XV əsrə aid alban kilsəsinin -İ. B.) böyük bir divar daşırım üzərində yazılmış tarixi yazıya əsasən kəndin adı (Yuxarı Kilsə kəndinin -İ. B.) «Şirin bulaq» olmuşdur» (85, s.317).

Toponim Azərbaycan dilində «içməyə yararlı, keyfiyyətli» mənasında işlənən şirin sözü ilə (12, s.525) bulaq hidroterminin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şirin bılaq -** İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Quqark rayonunda bulaq. Rayonun Yuxarı kilsə kəndinin ərazisində yerləşir. Hidronim Azərbaycan dilində «içməyə yararlı, keyfiyyətli su» mənasında işlənən şirin sözü əsasında yaranmışdır. Mürəkkəb quruluşlu hidronımdir.

**Şirin qala -** Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda qala. Rayonun Hallavar kəndinin ərazisində yerləşir.

**Şişqaya -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Basarkeçər (Vardenis) rayonunda kənd. Rayon mərkəzindən 9 km şimal-qərbdə, dağ ətəyində yerləşir.

Kənd qədim tarixə malikdir. Burada XIII-XVI əsrlərə aid bilavasitə Azərbaycan türklərinin həyatı, tarixi, məişəti ilə bağlı tarixi abidələr qalmaqdadır. Kənddə 1831-ci ildə 251 nəfər, 1873 - cü ildə 592 nəfər, 1886-ıc ildə 905 nəfər, 1897-ci ildə 1132 nəfər, 1908-ci ildə 1041 nəfər, 1914 - cü ildə 1088 nəfər, 1916-cı ildə 1232 nəfər, 1919 - cu ildə 632 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). 1918-ci ilin yazından başlayaraq azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Kənddə 1916-cı ildə 1232 nəfər azərbaycanlı yaşadığı halda, 1919 - cu ildə 632 nəfər azərbaycanlı yaşamışdır (415, s.26-27, 112-113). Təkcə 1918-ci ildə 600 nəfər azərbaycanlı qmlmış, yandırılmışdır (309, s.305) 1919 - cu ilin aprelin 13-20-də kəndinin sakinləri - azərbaycanlılar tamamilə doğma yurdlarından qırğınlarla qovulmuşlar (309, s.305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ilin payızında kəndin sakinləri ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 461 nəfər, 1926-cı ildə 612 nəfər, 1931-ci ildə 863 nəfər (415, s.26-27, 112-113), 1939-cu ildə 956 nəfər, 1987-ci ildə 4000 nəfər (85, s.294-295) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının 24-30 da azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır. Toponim Azərbaycan dilində «dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi» mənasında işlənən şiş sözü ilə (196, s.42), «sıra dağlardan ayrılmış qol», «dağların müəyyən hissəsində daş süxurlardan olan çətin keçilən yer» (196, s.36), «dağ,sıldırım» mənasında işlənən qaya sözünün birləşməsindən əmələ gəlib, «hündür, uca, dağın yanında salman, yerləşən kənd» mənasını ifadə edir. Orotoponimdir. Quruluşca mürəkkəb toponimdir. Ermənistan prezidentinin 19. IV. 1991-ci il fərmanı ilə Kəndin adı dəyişdirilib Quqariç qoyulmuşdur.

**Şişdağ -** İrəvan quberniyasının Areksandropol qəzasında, indi Amasiya rayonunda dağ. Rayonun Çaxmaq kəndinin cənub-qərbində yerləşir. Oronim «dağın, təpənin zirvəsi» mənasında işlənən şiş sözü ilə «düzənlikdən ətəkləri, yamacları və zirvəsi ilə seçilən, dik vəziyyətdə ucalmış, 500 metrdən artıq olan yüksəklik» mənasında işlənən dağ sözünün (196, s.37) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Şiştəpə** - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Qızılqoç (Qukasyan) rayonunda dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.297). Oronim «dağın, təpənin ən yüksək zirvəsi» mənasında işlənən şiş sözü ilə «alçaq dağ», «ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200 metrdən artıq olan yüksəklik» mənasında işlənən təpə sözünün (196, s.42) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Şınıx -** Tiflis quberniyasının Borçalı qəzasında, indiki Allahverdi (Tumanyan) rayonunda kənd. Rayon mərkəzindən 24 km məsafədə yerləşir. Kənddə 1897-ci ildə 5 nəfər, 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.1415). İndi ermənilər yaşayır.

Toponim türk dilində «əyri sıldırım dağ yamacı, əlçatmaz», «dərin çuxur, xəndək» mənasında işlənən şın sözünə (337, s.239) -ıx şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq Şnox kimi rəsmiləşdirilmişdir.

**Şırran -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd.

Kənddə 1897-ci ildə 148 nəfər, 1914 - cü ildə 185 nəfər, 1916-cı ildə 144 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1919 - cu ilin yazında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə kürdlər yerləşdirilmişdir.

Toponim Azərbaycan dilində «kiçik şəlalə», «fantan», «bulaq» mənasında işlənən şırran sözü (253, s.134) əsasında formalaşmışdır. Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

**Şırşır -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Meğri rayonu ərazisində qışlaq. 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s.68-69). 1930 - cu ildə ləğv edilmişdir. Toponim «şəlalə» mənasında işlənən şırşır sözü (253, s.134) əsasında formalaşmışdır. Hidrotoponimdir. Quruiuşca sadə toponimdir.

**Şıxlar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 36 km şimal-qərbdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə Şeyxler (143, s.150), Qafqazın 5 verstlik xəritəsində Şıxlar formasında (348, s.296) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 44 nəfər, 1873 - cü ildə 312 nəfər, 1886-cı ildə 306 nəfər, 1897-ci ildə 544 nəfər, 1908-ci ildə 590 nəfər, 1914 - cü ildə 585 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ildə azərbaycanlılar qırğınlarla deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdir. Burada 1922-ci ildə 326 nəfər, 1926-cı ildə 391 nəfər, 1931-ci ildə 411 nəfər azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1988-ci ilin sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. İndi burada ermənilər yaşayır.

Toponim qazax türk tayfasından olan şeyxlər (şıxlar) etnonimindən (386, s.535) əmələ gəlmişdir. Etnotoponimdir. Qurulşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 2. III. 1940-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Qızıl Şəfəq qoyulmuşdur.

**Şıxlar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Rayon mərkəzindən 19 km cənub-qərbdə, Vedi çayından axan arxın yanında yerləşir. Qafqazın 5 verstlik xərtisində qeyd edilmişdir (348, s.296).

Kənddə 1831-ci ildə 141 nəfər, 1873 - cü ildə 649 nəfər, 1886-cı ildə 714 nəfər, 1897-ci ildə 790 nəfər, 1904 - cü ildə 802 nəfər, 1914 - cü ildə 882 nəfər, 1916-cı ildə 723 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 156-157). 1918-1919 - cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuş, İran yə Türkiyədən köçürülən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 102 nəfər azərbaycanlı, 110 erməni, 1926-cı ildə 115 nəfər azərbaycanlı, 48 erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 94 erməni (415, s.86-87, 156-157), 1972-ci ildə 1500 nəfər azərbaycanlı, 220 erməni yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla qovulmuşdur. İndi burada yalnız ermənilər məskunlaşıb.

Toponim qazaxlar türk tayfasının bir qolunu təşkil edən şıxlar etnonimi (386, s.535) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

Erm. SSR AS RH-nin 26. XII. 1968-cı il fərmanı ilə kəndin adı dəyişdirilib Lusarat qoyulmuşdur.

**Şıxovuz -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd. Rayon mərkəzindən 23 km məsafədə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Şixauz (348, s.296), erməni mənbələrində Şikahoğ, Şxavuz (415, s.60) formalarında qeyd edilmişdir. Burada 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61). Toponim şeyx sözünün xalq danışıq dilində işlənən şıx sözü ilə oğuz türk tayfasının adını əks etdirən ovuz etnonimi (oğuz etnoniminin dialekt formasıdır) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq Şikaxox qoyulmuşdur.

**Şıxouz çay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda çay. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.296). Hidronim şıx (< şeyx)sözü ilə oğuz etnoniminin fonetik variantı olan oğuz (<ovuz<oğuz) etnonimi əsasında əmələ gəlmişdir. Etnohidronimdir.Quruluşca mürəkkəb hidronimdir.

**Şoran -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonunda kənd.

Kənddə 1897-ci ildə 148 nəfər, 1904 - cü ildə 80 nəfər,1914 - cü ildə 185 nəfər, 1916-cı ildə 144 nəfər azərbaycanlı ya,şamışdır (415, s.50-51,130-131).

1918-ci ilin yazında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və kəndə kürdlər yerləşdirilmişdir.

Toponim «şor sahə, əkinə yararsız yer» mənasında işlənən şoran sözü (253, s.134) əsasında formalaşmışdır. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir.

**Şoran dərə -** Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Barana (Noemberyan) rayonunda dərə. Oronim «şor (duzlu) sahə, əkinə yaramayan yer» mənasında işlənən şoran sözü ilə (253, s.134) «iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun, dərin çuxur» mənasında işlənən dərə sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu oronimdir.

**Şoragöl qalası -** İrəvan şəhərində qala. İrəvan qalasının yaxınlığında yerləşirdi. Şoragöl qalasını lll Muradxan dövründə böyük vəzir Fərhad paşa bərpa etdirmişdir (86, s.51).

Qala şirak < sirak qədim türk etnoniminin adını əks etidirir.

**Şorbulaq -** İrəvan quberniyasının İrəvan qəzasında, indi İrəvan şəhərinə daxil olan olan Orconikidze rayonunun tabeliyində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.297).

1931-ci ilə kimi Qəmərli (Artaşat) rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur.

Toponim Azərbaycan dilində «duzlu», «şoran» mənasında işlənən şor sözünə (12, s.532) «təbii su qaynağı» mənasında işlənən bulaq sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şor kolanlı -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 12 km cənub-qərbdə, Araz çayının sahilində yerləşir.

Zəngibasar (Masis) rayonu təşkil edilənə kimi Üçkilsə (Vağarşabad, Eçmiədzin) rayonunun tabeliyində olmuşdur. Rəsmi sənədlərdə kənd Rəncbər kimi göstərilir (415, s.82; 419, s.66).

Kənd Cəfərxan adlı bəyə mənsub olmuş və burada çalışanlar da onun rəncbəri (Rəncbər farscadır. Kəndli deməkdir.) idi. Bura, görünür, elə buna görə də Rəşbəri Cəfərxan (415, s.82) adlandırılmışdır. Sonrakı dövlərdə Cəfərxan şəxs adı ixtisar edilmiş, işlənməmiş və kənd Rəncbər kimi sənədlərdə sabitləşmişdir.

Kənddə 1873 - cü ildə 197 nəfər, 1886-cı ildə 230 nəfər, 1897-ci ildə 405 nəfər, 1904 - cü ildə 229 nəfər, 1914 - cü ildə 431 nəfər, 1916-cı ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1918-ci ilin yazında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Sovet hökuməti qurulandan sonra (indiki Ermənistanda) sağ qalanlar ata-baba yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 136 nəfər, 1926-cı ildə 204 nəfər, 1931-ci ildə 389 nəfər yalınz azərbaycanlı yaşamışdır (415, s.8286, 152-153). Azərbaycanlılar 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqdarmdan deportasiya olunmuşdur. İndi ermənilər yaşayır.

Toponim Azərbaycan dilində «şoran, duzlu» mənasında işlənən şor ilə kolani // kolanı (kolanlı tayfa adının fars dilində yazılış forması) türk etnonimi (212, s.92; 1, s.73) əsasında formalaşmışdır. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şorca** - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indiki Keşişkənd (Yeğeqnadzor) rayonu ərazisində kənd. Rayondakı Amağu, Arpa, Ertiş kəndlərinin yaxınlığında, Arpaçayın sahilində yerləşirdi. XIII əsrdə Amağu məbədinin tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.297).

Kənddə 1873 - cü ildə 31 nəfər, 1886-cı ildə 56 nəfər, 1897-ci ildə 73 nəfər, 1904 - cü ildə 76 nəfər, 1914 - cü ildə 83 nəfər, 1916-cı ildə 116 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.92-93, 162-163). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq kənddən deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. 1920-ci ildə kənd ləğv edilmişdir. İndi xaraba kənddir. Toponim Azəbaycan dilində «duzlu, şoranlıq yer» mənasında işlənən şor sözünə -ca şəkilçisinin artırılmasından düzəlmişdir.

**Şorca -** İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda kənd. Rayon mərkəzindən 13 km cənub-şərqdə Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.297). XIX əsrin 40-cı illərində kəndə ruslar (malakanlar) köçürüləndən sonra kənd həm də Nadejdino adlandırılmışdır (s.32). Kəndin adı erməni mənbələrində Şor Əli, Şorjalı (415, s.32), rus mənbələrində Şorcalı (Şordjalu) formalarında (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, № 1368) qeyd edilmişdir.

Toponim şorcalı tayfa adının əsasında yaranmışdır. Toponimin sonundakı -lı şəkilçsi sonralar ixtisar edilmiş və sənədlərdə Şorca kimi rəsmiləşmişdi. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

**Şotalı çayı -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda çay. Rayonun Kurud лəndinin ortasından axır. Hidronim qədim türk mənşəli hunlaкжn varisi şato etnonimi (180, s.253) əsasında əmələ gəlmişdir. Hidronimdəki -lı şəkilçisi mənsubluq bildirir. Etnohidronimdir. Quruluşca mürəkkəb hidronimdir.

**Şotanlı -** Yelizvetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Qafan rayonunda tarixi kənd. Oxçu çayının sağ sahilində yerləşmişdir. Erməni mənbələrində kəndin ilk adının Şatah olduğu göstərilir (415, s.60).

Kənddə 1897-ci ildə 30 nəfər, 1922-ci ildə 25 nəfər, 1926-cı ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s.60-61, 136-137). 1930 - cu illərdə kənd ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim «hunların varisi şato» etnoniminə (180, s.253) mənsubluq bildirən -lı şəkilçisinin qoşulması ilə düzəlib, «şato tayfasına mənsub kənd» mənasını ifadə edir. Mənbələrdə qeyd edilən şato tayfasının adı toponimdə şata, şota fonetik formasında öz əksini tapmışdır ki, Azərbaycan dilində o~a səsəvəzlənməsi qanunauyğun haldır. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir.

**Şotulkənd -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Qəmərli (Artaşat) rayonu ərazisində kənd. Kənddə 1897-ci ildə 148 nəfər, 1904 - cü ildə 353 nəfər, 1914 - cü ildə 388 nəfər, 1916-cı ildə 127 nəfər azərbaycanlı yaşamışdır (415, s.50-51, 130-131). 1918-ci ildə ermənilərin soyqırımına məruz qalan azərbaycanlılar deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. İndi xaraba kənddir.

Toponim təklə türk tayfasından olan şatul (> şotul) etnoniminə (mənbələrdə təklə - şotullu formasında qeyd edilir: 286, s.71) «yaşayış məntəqəsi», «şəhər» mənasında işlənən kənd sözünün qoşulması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

**Şöllü Mehmandar -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd. Rayon mərkəzindən 12 km qərbdə, Zəngi çayının yanında yerləşir. Zəngibasar rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. «İrəvan əyalətinin icmal dəftəri»ndə Mehmandari-Şollu (143, s.36), Qafqazın 5 verstlik xəritəsində Şorlu Mehmandar formasında (348, s.297) qeyd edilmişdir.

Kənddə 1831-ci ildə 406 nəfər, 1873 - cü ildə 1573 nəfər, 1886-cı ildə 1432 nəfər, 1897-ci ildə 1824 nəfər, 1904 - cü ildə 1455 nəfər, 1914 - cü ildə 1632 nəfər, 1916-cı ildə 2969 nəfər, 1919 - cu ildə 900 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). 1919 - cu ilin sonlarında azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya edilmişdir. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına dönə bilmişdir. Burada 1922-ci ildə 788 nəfər, 1926-cı ildə 1010 nəfər, 1931-ci ildə 778 nəfər azərbaycanlı yaşamışdır (415, s.82-83, 152-153). Kəndin sakinləri SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948-1949 - cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə köçürülən ailələrin bir hissəsi yenidən geri, öz yurdlarına dönə bilmişdir. 1988-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti azərbaycanlılar deportasiya etmişdir. İndi ermənilər yaşayır.

Toponim -lı mənsubluq şəkilçisi qəbul etmiş çol (şol -İ.B.) etnonimindən (287, s. 112-114) və Mehmandar şəxs adından əmələ gəlib «çol > şol tayfasından olan Mehmandara məxsus kənd» mənasını bildirir. Etnotoponimdir. Quruluşca mürəkkəb toponimdir.

Erm. SSR AS RH-nin 25. I. 1978-ci il fərmanı ilə adı dəyişdirilib Hovtaşad qoyulmuşdur.

**Şuqayıb -** İrəvan quberniyasının İrəvan qəzasında, indiki Vedi (Ararat) rayonunda kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.298).

Kənddə 1886-cı ildə 109 nəfər, 1897-ci ildə 163 nəfər, 1904 - cü ildə 90 nəfər, 1914 - cü ildə 200 nəfər, 1916-cı ildə 192 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). 1918-ci ildə azərbaycanlılar qırğınlarla öz doğma kəndlərindən qovulmuşlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 44 nəfər, 1926-cı ildə 35 nəfər, 1931-ci ildə 47 nəfər azərbaycanlı yaşamışdır (415, s.86-87, 154-155). SSRİ hökuməti xüsusi qərarı ilə 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüş və kənd 1950-ci ildə ləğv edilmişdir. İndi xaraba kənddir.

Toponim türk dilində (qırğız, qazax) «konusvari zirvə» mənasında işlənən çoku > şokı (şoku) sözü əsasında (339, s.618, 630) əmələ gəlmişdir.

**Şurnuxu -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Gorus rayonunda kənd. Rayon mərkəzindən 17 km cənub-şərqdə, Şurauxu çayının sol sahilində, Gorus-Qafan avtomobil yolunun sağ tərəfində yerləşir.

Kənddə 1831-ci ildə 84 nəfər, 1904 - cü ildə 117 nəfər, 1914 - cü ildə 104 nəfər azərbaycanlı yaşamışdır (415, s.28-29, 114-115). 1918-ci ildə kənd ermənilərin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hökuməti qurulandan sağ qalanlar öz tarixi-etnik torpaqlarına dönə bilmişdir. Burada 1926-cı ildə 101 nəfər, 1931-ci ildə 123 nəfər (415, s.28-29, 114-115), 1979 - cu ildə 560 nəfər azərbaycanlı yaşamışdır. Ermənistan dövləti tərəfindən kəndin sakinləri azərbaycanlılar deportasiya olunmuşdur. İndi ermənilər yaşayır. Toponim Azərbaycan dilində «kiçik şəlalə» mənasında işlənən «çırnox» sözünün (253, s.133) fonetik forması olan şumux // şırnıx sözü

əsasında əmələ gəlmişdir. Azərbaycan dilinin Qazax dialektində «sürətlə axın» mənasında «şırnoy» sözü də işlənir (253, s.134). Belə qənaətə gəlirik ki, çırnox, şırnoy, şurnux yaxınmənalı sözlərdir! Hidrotoponimdir. Quruluşca sadə toponimdir.

**Şurnuxuçay -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Gorus rayonunda çay.

**Şikar -** Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Sisyan rayonunda kənd. Rayon mərkəzindən 22-24 km şimal-qərbdə, Şağat kəndinin yaxınlığında yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə (143, s.151), Qafqazın 5 verstlik xəritəsində Şiqar formasında (348, s.295) qeyd edilmişdir. Erməni mənbələrində erməni dilinin qanunlarına uyğun olaraq Şukar formasında qeyd edilir (415, s.94).

Kənddə 1873 - cü ildə 186 nəfər, 1886-cı ildə 218 nəfər, 1897-ci ildə 238 nəfər, 1908-ci ildə 280 nəfər, 1914 - cü ildə 514 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s.76-77, 146-147). 1918-ci ilin iyun ayında azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş, xaricdən köçürülən ermənilər yerləşdirilmişdir.

Toponim xalac türk tayfasından olan şikarlı etnonimi (286, s.54) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Quruluşca sadə toponimdir.

## NƏTİCƏ

İndi Ermənistan adlanan Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin öyrənilməsi elmi əhəmiyyət kəsb etməklə yanaşı, siyasi mahiyyət də daşıyır. Ərazinin toponimləri (oykonim, oronim, hidronim) aydın şəkildə göstərir ki, Azərbaycan türkləri qədimdən bu ərazidə yaşamışlar. Bu da Azərbaycan türklərinin indi Ermənistan adlanan ərazinin aborigen xalqı olduğunu təsdiqləyir. Çar Rusiyası 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra Cənubi Qafqazda, o cümlədən indiki Ermənistan ərazisində müxtəlif illərdə kameral siyahıyaalmalar aparmışdır.

İndiki Ermənistan ərazisində ilkin siyahıyaalma 1831-ci ildə keçirilmişdir. 1831-ci il siyahıyaalmasından aydın olur ki, bu ərazidə 1830 - cu ilə kimi 54.857 nəfər azərbaycanlı, 14.469 erməni yaşamışdır (386, s.543-650;). Ermənilər 1828-ci ildən sonra İran və Türkiyədən kütləvi surətdə indi Ermənistan adlanan əraziyə köçürülmüşlər (386, s.543-650).

XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər bu ərazidə yaşayan əhalinin sayı və etnik tərkibini özündə əks etdirən Z.Qorqodyanın «1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi (İrəvan, 1932, erməni dilində) kitabında qeydə alınan 2310 oykonimin (yaşayış məntəqəsinin) 2000-dən çoxu türk mənşəli, 300-ə yaxını isə ərəb və fars mənşəlidir. Bu da təbiidir. Çünki hər bir xalq yaşadığı əraziyə, buradakı yer-yurd adlarına öz ana dilində ad verər. Bu ərazi Azərbaycan türklərinin tarixi vətənləri olduğu üçün toponimlərin 90% dən çoxu da yalnız türk mənşəlidir. Məhz ərazinin toponimləri tarixi həqiqətlərə şahidlik edir, ermənilərin gəlmə olduğunu göstərir. Əgər ermənilər buranın köklü sakinləri olsa idi, burada erməni dilinə məxsus toponimlər də olardı. Erməni mənşəli toponimlər 1935-ci ildən sonra indi Ermənistan adlanan Qərbi Azərbaycanda türk mənşəli toponimlərin kütləvi surətdə dəyişdirilməsindən sonra yaranmağa başlamışdır (266, s.249-280).

İndiki Ermənistanın toponimlərinin (oykonim, oronim, hidronim), urbonim, eləcə də qala, karvansara, körpü adlarının tarixi-linqvistik baxımdan araşdırılması ərazisinin etnik tərkibi, relyefi, flora və faunası haqqında aydın təsəvvür yaradır.

Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin tədqiqində əldə edilən nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Tədqiqat nəticəsində aydın olur ki, indiki Ermənistan ərazisi Azərbaycanın tarixi torpaqlarıdır. Bu ərazidə 1920-ci ilə qədər müstəqil erməni dövləti olmamışdır. 1917-ci Oktyabr çevrilişindən sonra ərazidə Rusiyanın bilavasitə himayəsi altında Azərbaycan torpaqları hesabına Ermənistan Respublikası yaradılmış (29 noyabr 1920), Zəngəzur, Göyçə, Dərələyəz mahalları Azərbaycandan alınaraq yeni yaradılan Ermənistan Respublikasının inzibati-ərazi bölgüsünə daxil edilmişdir.

2. İndiki Ermənistanın türk mənşəli toponimləri ilk dəfədir ki, tarixi-linqvistik baxımdan geniş şəkildə tədqiqata cəlb edilir.

3. Tədqiqat nəticəsində təhrif edilmiş, ermənilər tərəfindən tarixi həqiqətləri gizlətmək üçün toponimlərdə edilən ixtisarlar müəyyənləşdirilmiş, mənbələr əsasında onların ilkin formaları bərpa edilmiş, hər bir toponimin yerləşdiyi ərazi dəqiqliklə göstərilmiş, coğrafi mövqeyi müəyyənləşdirilmişdir.

4. İndiki Ermənistan ərazisindəki türk mənşəli toponimlər mənəvi soyqırımına məruz qalmışdır. Qədim türk torpaqları olan Ermənistanda türklərə - azərbaycanlılara qarşı fiziki soyqırımı siyasəti ilə yanaşı, mənəvi genosid siyasəti də yeridilmiş, qədim tarixə malik coğrafi adlar dəyişdirilmişdir. Bu siyasət bir neçə mərhələdə həyata keçirilmişdir:

1) 1801-1918-ci illərdə;
2) 1918-1920-ci illərdə;
3) 1920-1935-ci illərdə;
4) 1935-1989-cu illərdə;
5) 1989-1994-cü illərdə.

5. İndi Ermənistan adlanan ərazidə hun, sak, şirak, kimmer(qəmər), qarqar, gencək, peçeneq, abar, qazan, abdal, quşçu, kapan, qıpçaq, oğuz, avşar, bayat, bayandur, yayçı, ivə, qayı, çəpni, kəngər, qaşqay, ayrım, qaraqoyunlu, sarıcalı, barani, baharlı və s. türk tayfaları yaşamışdır. Türk tayfalarının Qərbi Azərbaycanda yaşamaları bizim eradan əvvəl VIII-VII əsrlərdən başlayır. Bunu yazılı qaynaqlar, antik mənbələr, daş kitabələrlə yanaşı, ərazinin türk etnonimləri əsasında formalaşan toponimlər

də(Hunud, Şəki, Gümrü, Ozanlar, Qəmərli, Qarqar, Şirak, Abaran,Qazan, Bayat, Afşar, Abdalağalı, Bcni, Polad Ayrım, Qaraqo.yunlu, Barana, Yayçı və s.) təsdiq edir. j

6. Qərbi Azərbaycanın oykonimləri qədim türk sözləri (balıq, art, alp, bək, bayır, arbat, saz, kömür, örən və s.), dialektizmlər (nüvək, binə, qılınc, qənşər, cəbə və s.), Azərbaycan dilinə məxsus ümumişlək xarakterli leksik vahidlər (kənd, oba, qara, şiş, əyri və s.), eləcə də başqa dillərdən (ərəb, fars, urartu) keçib Azərbaycan dilində sabitləşən və toponim yaradıcılığında iştirak edən sözlər (abad, gərni, ayar, van, qala, zeyvə və s.) əsasında formalaşmışdır. Bununla yanaşı, bir qrup oykonimlərin əmələ gəlməsində fərqləndirici əlamət bildirən sözlər (aşağı, yuxarı, böyük, kiçik, bala, birinci, ikinci) iştirak edir.

7. İndi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi dağlıqdır. Ərazi oroqrafık obyektlərlə zəngindir. Yazılı qaynaqlarda (Azərbaycan, erməni, rus dilli mənbələrdə) əksini tapan, informatorlardan topladığımız oronimlər tədqiqata cəlb edilmişdir. Bu oronimlər qədim tarixə malikdir. İndiki Ermənistanda erməni dilində yaranan oronimlər yoxdur. Oronimlərin hamısı Azərbaycan dilində yaranmışdır. Ərazinin oronimləri türk tayfalarının adları (şirak, arıqlı, bayat, abdal, varsaq, qazan, qaraqoyunlu, alagöz, kəngər, kənəkçi və s.), qədim türk sözləri (bak//bək, art, oy, yazı, bal, daşt, kömür və s.), müsbət (qaya, quzey, dik, yal, yoxuş, taxta və s.), mənfi (dərə, düz, qala, çuxur və s.) relyef bildirən sözlər, metoforikləşmiş sözlər (burun, daban, barmaq, bel, baş, qaş, və s.), Azərbaycan dilində işlənən ümumişlək sözlər (şiş, tüklü, arx, yaylaq, yayla, dəlik və s.) və coğrafi terminlər əsasında formalaşmışdır.

8. İndiki Ermənistan ərazisindəki su obyektləri - hidronimlər Azərbaycan dilində yaranmışdır.

9. Qərbi Azərbaycan ərazisi zəngin bitki örtüyünə malikdir. Ərazidəki bitki adları (ardıc, armud, bənövşə, baldırğan, buğda, yarpız, sarımsaq, qamış, şatn, qoz və s.) əsasında fitotoponimlər (Artız, Arcut, Baldırğanlıq, Baldırğanlı, Qozluca, Armudlu, Yarpızlı, Şamlıq, Bənövşəbuşt, Qamışgöl, Qamışlı və s.) formalaşmışdır.

10. Qərbi Azərbaycanın toponimləri (oykonim, oronim və hidronimlər) mənaca antropotoponim, etnotoponim, orotoponim, hidrotoponim, fitotoponim, zootoponim kimi qruplaşdırılır.

Bununla yanaşı ərazinin toponimlərinin müəyyən qismi təsvir əsasında formalaşmışdır.

11. Ərazinin toponimləri quruluşca üç yerə (sadə, düzəltmə, mürəkkəb) bölünür.

12. İndi Ermənistan adlanan Qərbi Azərbaycanda istər qədimdən, istərsə də müasir dövrdə mövcud olan mahal, rayon, karvansara, məhəllə, körpü, qala, meydan, tarla, meşə, çöl və s. adlar da tədqiqatdan kənarda qalmamışdır.

13. Ərazinin yaşayış məntəqələrinin əhalisinin etnik tərkibi ilk dəfə olaraq konkret mənbələrə istinadən verilmiş, ermənilərin haradan, nə vaxt köçürülmələri göstərilmişdir. Eyni zamanda hər hansı yaşayış məntəqəsindən azərbaycanlıların nə vaxt deportasiya olunması da öz əksini tapmışdır.

14. Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin formalaşmasında iştirak edən sözlərin başqa türk dillərində müxtəlif fonetik formalarda işləndiyi yeri gəldikcə qeyd edilir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**a) Azərbaycan dilində**


1. Abbasova M.Ə., Bəndəliyev N.S., Məmmədov X.H. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası, Bakı, «Elm», 1993, 196 səh.
2. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri, Bakı, «Bakı Universiteti», 1992, 329 səh.
3. Ağasıoğlu F. İrəvan mahalının qədim əhalisi. - Azərbaycanlıların Qərbi Azərbaycandan - indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları, Bakı, ADPU, 1998, səh.110-115.
4. Ağasıoğlu F. Azər xalqı (seçmə yazılar), Bakı, «Ağrıdağ», 2000, 436 səh.
5. Axundov A.A. Torpağın köksündə tarixin izləri, Bakı «Gənclik», 1983, 183 səh.
6. Anar. Dədə Qorqud dünyası. «Dünya bir pəncərədir», Bakı, «Gənclik», 1986, səh. 125-217.
7. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq, Bakı, «Qartal», 1998, 280 səh.
8. Azərbaycan dilinin dialektoloji lüğəti, bircildlik, Bakı, «Azərb.SSR Elmlər Akademiyası», 1964, 480 səh.
9. Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı, «Elm», 1966, 595 səh.
10. Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı, «Elm», 1980, 576 səh.
11. Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı, «Elm», 1983, 555 səh.
12. Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı, «Elm», 1987, 544 səh.
13. Azərbaycan filologiyası məsələləri, I buraxılış, Bakı, «Elm», 1983, 270 səh.; II buraxılış, Bakı, «Elm», 1984, 264 səh.
14. Azərbaycanlıların Qərbi Azərbaycandan - indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları, Bakı, ADPU, 1998, 220 səh.
15. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları, Bakı, APİ, 1987, 333 səh.
16. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II elmi-nəzəri konfransın materialları (15-16 aprel 1988), Bakı, APİ, 1988, 306 səh.
17. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri konfransın materialları (28-29 mart 1990-cı il ),; Bakı, APİ, 1990, 312 səh.
18. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş IV elmi-nəzəri konfransın materialları (26-27 mart 1992), Bakı,, ADPU, 1992, 243 səh.
19. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş V elmi-nəzəri konfransın materialları (20-21 oktyabr 1994 - cü il ), Bakı, ADPU, 1995, 164 səh.,
20. Azərbaycan onomastikası problemləri, VI (17 oktyabr 1996-cı ildə keçirilən konfransın materialları), Bakı, ADPU, 1996, 151 səh.
21. Azərbaycan onomastikası problemləri, VII (1998-cı il aprel ayının 24də keçirilən elmi-nəzəri konfransın materialları), Bakı,ADPU, 1999, 157 səh.
22. Azərbaycan Sovet Ensiklopediyası, I-X cild, Bakı, 1976-1987.23. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), I c.,Bakı, 1994, 688 səh. ,
24. Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçilər: S.S.Əliyarov,F.R.Mahmudov və b.), Bakı, 1989, 328 səh.
25. Azərbaycan toponimləri. Ensiklopedik lüğət, Bakı, «Azərbaycan Ensiklopediyası», 1999, 588 səh. :
26. Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş elmi konfransın materialları, Bakı, «Elm», 1973, 136 səh. ,
27. Babayev S. Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri,Bakı, Yeni Nəşrlər Evi, 1999, 224 səh. (şəkilli).
28. Bağdasaryan A., Cuqaryan A., Ohanyan K. Ermənistan SSR-in fiziki coğrafiyası (VII sinif üçün dərslik), Yerevan, 1961.
29. Bağırov İ., Əliyev V. Yurdun Oğuz elləri, «Azərbaycan müəllimi» qəz., 19 sentyabr 1986.
30. Bağramyan R.H., Xəlilov İ.H. Ermənicə-azərbaycanca lüğət, Yerevan, «Luys», 1978, 565 səh.

31. Bakıxanov A. Gülüstani -İrəm, Bakı, Azərb.SSR EA, 1951, 253 səh.
32. Bakıxanov A. Gülüstani- İrəm, Bakı, «Minarə», 2000, 224 səh.
33. Bayramsoylu A. Pəmbək və Tej toponimləri haqqında, «Ulu Göyçə» qəz., 14 iyul 1993.
34. Bayramov A. Ermənistanın Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin türk toponimləri, NDA, Bakı, 1995, 31 səh.
35. Bayramov A. Qədim Oğuz ellərinin - Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, 248 səh.
36. Bayramov A. «Kitabi-Dədə Qorqud» dastanları ilə bağlı olan Oğuz toponimləri. - Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, səh. 16-19.
37. Bayramov A. «Kitabi-Dədə Qorqud» dastanlarında tayfa adları. - Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, səh.47-61.
38. Bayramov A. Cənubi Azərbaycandakı türk mənşəli oykonimlərin leksiksemantik xüsusiyyətləri. – Filologiya məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, səh.105-108.
39. Bayramov A. Kitabi-Dədə Qorqud və Qafqaz, Bakı, 2001, 123 səh.
40. Bayramov İ. Unutqanlıq faciədir, «Zəka» jur., № 2, 1992,səh.27-29.
41. Bayramov İ. Toponimlərin öyrənilməsi tarixi zərurətdir, «Gənc müəllim» qəz., 13 oktyabr 1994.
42. Bayramov İ. Ermənistanın türk mənşəli toponimlərinə dair (oykonimlər). - Müasir dil fənlərinin tədrisi problemləri, Bakı, 1995, səh.69-73.
43. Bayramov İ. Qərbi Azərbaycan toponimlərində türk sözləri. Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1996, səh.52-56.
44. Bayramov İ. İndiki Ermənistan toponimlərində qədim türk tayfaların izləri. - Dil məsələlərinə dair tematik toplu, № 2, Bakı, 1997, səh.63-69.
45. Bayramov İ. Aşnak etnotoponimi haqqında. - Dil məsələ lərinə dair tematik toplu, № 1, Bakı, 1998, səh.184-187.
46. Bayramov İ. Öksüz toponiminin etimologiyası. – Dil məsələlərinə dair tematik toplu, № 1, Bakı, 1998, səh.78-80.
47. Bayramov İ. Babacan toponiminin etimologiyası haqqında. Pedaqoji Universitet Xəbərləri, humanitar elmlər ser., № 1, 1998, səh.70-79.
48. Bayramov İ. «Kitabi-Dədə Qorqud» dastanlannın tədrisində onomastik vahidlərin izahı. - Azərbaycan dili və ədəbiyyatı tədrisi, № 1, 1998, səh. 19-21.
49. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimlərin qrupları haqqında. - Azərbaycan onomastikası problemləri, VII (1998-cı il aprelin 24də keçirilən elmi-nəzəri konfransın materialları), Bakı, ADPU 1999, səh.77-82.
50. Bayramov İ. Toponimlərdə yaşayan tarixi həqiqətlər. Azərbaycan dili və ədəbiyyatı tədrisi, № 1, 1999, səh.58-60.
51. Bayramov İ. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti, Bakı, «Elm», 2000, 106 səh.
52. Bayramov İ. Göyçə mahalının türk mənşəli toponimləri haqqında. - ADPUnun professor-müəllim heyətinin 60-cı elmi konfransın materialları, I buraxılış, Bakı, 2000, səh.35-36.
53. Bayramov İ. Qədim Azərbaycan şəhəri - İrəvan. Birinci Beynəlxalq Türkoloji qurultayın 75-cı il dönümünə həsr olunmuş elmi konfransın materialları (67 mart 2001-cı il ), Bakı, 2001, səh.38-44.
54. Bayramov İ. Qərbi Azərbaycanın deportasiya olunmuş sonuncu azərbaycanlı kəndi - Nüvədi. - Elturan, 2000, 12, səh. 34-35.
54a. Bayramov İ. Qərbi Azərbaycanın oronimləri haqqında. Azərbaycan onomastikası problemləri, X, Bakı, 2002, s. 96-101.
55. Bayramov Z., Cəfərli N., Çuxur-Sə'd bəylərbəyliyi. Elm və həyat, № 6, 1990, səh.15.
56. Bəndəliyev N.S. Dağlıq Şirvanda landşaftların toponimik üsulla öyrənilməsi, NDA, Bakı, 1991, 19 səh.
57. Bilal Ənsər. Babamın mirası-torpağımız, «Yurddaş» qəz., 1 aprel 1992.
58. Budaqov B., Əliyev Ə. «Kitabi-Dədə Qorqud» dastanı və toponimlərimiz. - Elm və həyat, № 6, 1972, səh. 18-19.
59. Budaqov B.Ə. Türk ülularının yer yaddaşı, Bakı, «Elm», 1994, 272 səh.

60. Budaqov B. İndiki Ermənistan qədim türk yurdu idi- Elturan, № 1, 1992, səh.1718.
61. Budaqov B. Çobankərə eli, Bakı, «Elm», 1996, 200 səh.
62. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycanьənşəli toponimlərin izahlı lüğəti, «Natta Press», Bakı, 1998,452 səh.
62 a. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Gürcüstanın türk mənşəli toponimlərin izahlı lüğəti, Bakı, «İsmayıllı» Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002, 320. səh.
63. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə, Bakı, Azərnəşr, 1989, 336 səh.
64. Cabbarov X.M. Laçın toponimləri. - Elm və həyat, № 10, 1977,səh.15-16.
65. Cahangirov M. «Kitabi-Dədə Qorqud» boylarındakı cəmiyyətin zamanı və məkanı haqqında. - Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Elmi əsərləri», dil və ədəbiyyat ser., *№ 4,* 1976, səh.72-77.
66. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış (İslamdan əvvəl və islam dövrü). Başlanğıcından XVI əsrə qədər, Bakı, Azərnəşr, 1993, 176 səh.
67. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı, Bakı, ADU, 1960, 204 səh.
68. Cəfərov C.İ. Azərbaycan damğaları. - Azərbaycan filologiyası məsələləri, II buraxılış, Bakı, «Elm», 1984, səh.240-248.
69. Cəfərov C.İ. Bəzi damğa və işarələrin etimoloji izahı - Türk dillərinə dair etimoloji və tariximarfoloji tədqiqlər, (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, ADU, 1984, səh.31-36.
70. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası, Bakı, «Maarif», 1988, 285 səh.
71. Cəlilov F.A. Qədim türk etnonimləri (2. Qamər «kimmer»). Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları, Bakı, APİ, 1987, səh. 81-83.
72. Cəmşidov Ş. Kitabi-Dədə Qorqud, Bakı, 1969.
73. Coğrafiya terminlər lüğəti, Bakı, «Elm», 1972, 110 səh.
74. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan, «Bakı Universiteti» nəşriyyatı, 1993, 56 səh.
75. Çobanov M. Eçmiədzin nə deməkdir? «Vətən səsi» qəz., 20 noyabr1992.
76. Çobanlı Mədəd, Çobanlı Müşfiq. Borçalı toponimləri, Bakı, 1993, 64səh.
77. Dəmirçizadə Ə.M. «Qaspi», «Xəzər», «Qafqaz» sözlərinin etimologiyası. - Azərbaycan Dövlət Pedaqoji İnstitutunun əsərləri, VII cild, 1959, səh. 37.
78. Dəmirçizadə Ə. 50 söz, Bakı, 1968, 104 səh.
79. Dərələyəzli K. Dərələyəz od içində, Bakı, "Ağrıdağ", 2001, 564 səh.
80. Didərginlər, Bakı, «Gənclik», 1990, 384 səh.
81. Dilicanlı S. Dilican dərəsi, «Vətən səsi» qəz., 3 aprel 1992.
82. Dil, etnos və etnonimiya, Bakı, «Örnək», 1994, 116 səh.
83. Eldar İsraayıl. Ağrı dağı qədər ağrılarım var, Bakı, «Ağrıdağ», 1999, 372 səh.
84. Eldar İsmayıl, Hüseyn Ələsgəroğlu. Göyçənin qisası qalır (roman), Bakı, «Zaman», 1997, 384 səh.
85. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, «Gənclik», 1995, 464 səh.
86. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr), Bakı, «Azərnəşr», 1997, 92 səh.
87. Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər, Bakı, «Elm», 1995, 244 səh.
88. Eyvazova R.H. Əfqanıstanda türk mənşəli toponimlər, DDA, Bakı, 1995, 60 səh.
89. Əbdürrəşid ƏlBakuvi. Kitab təlxis Əl-asar və əcaib əl-Məlik əl-qəhhar («Abidələrin» xülasəsi və qüdrətli hökmdarın möcüzələri), Bakı, «Bakı-Şur», 1992, 176 səh.
90. Əfəndiyev N. Qızılquşa atılan güllə (roman), Bakı, «Yazıçı», 1983, 173 səh.
91. Əfəndiyev O. Azərbaycan səfəvilər dövləti, Bakı, Azərnəşr, 1993, 301səh.
92. Əhmədova E. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili, NDA, Bakı, 1995, 29 səh.
93. Əhmədov T.M. El-obamızın adları, Bakı, «Gənclik>, 1984, 128 səh.
94. Əhmədov T.M. Azərbaycan paleotoponimiyası, Bakı, ADU, 1985, 88 səh.
95. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları, Bakı, «Bakı Universiteti», 1991, 312 səh.
96. Əhmədov T.M. Qədim «şen» coğrafi terminin mənşəyinə dair. - Azərbaycan onomastikası problemləri, VI, Bakı, 1996, səh.63-69.

97. Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu - «Ermənistan», Bakı, «Sabah», 1994, 208 səh.
98. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski, Bakı, «Sabah», 1996, 320 səh.
99. Ələkbərli Ə. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı, «Ağrıdağ», 2000, 664 səh.
100. Əliyev F., Həsənov U. İrəvan xanlığı, Bakı, Azərnəşr, 1997, 224 səh.
101. Əliyev X. Gürcüstanın türk mənşəli toponimləri (el, oba, yer yurd adları), Gəncə, 1999, 160 səh.
102. Əliyev V. Azərbaycanın toponimiyası (dərs vəsaiti), Bakı,1999, 278 səh.
103. Əliyev V., Bayramov İ. Mənəvi soyqırımına məruz qalan adlarımız. - Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlarıdırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları, Bakı, 1998, səh. 104-110.
104. Ərəb və fars sözləri lüğəti, Bakı, Azərb.SSR Elmlər Akademiyası nəşriyyatı, 1966, 1036 səh.
105. Əsədoğlu F. İrəvan qədim Azərbaycan şəhəridir, «Aydınlıq» qəz., 23 noyabr 1990.
106. Əsədoğlu F. Asnı toponiminin etimologiyası, «Yeni fikir» qəz.,4 iyun 1992.
107. Əsgərov N. «Qala» apelyativ sözü areal türk onomastikasında. Dilçilik, № 3, Bakı, 1997, səh.37-43.
108. Əsgərov N. İki areal türk etnonimi haqqında (qaraman, qanlı). -Tarixi-linqvistik fənlərin tədrisi problemləri, Bakı, 1994, səh.104-106.
109. Əzizov E.İ. Söz xəzinəsi. Söz haqqında araşdırmalar, Bakı,«Maarif», 1995, 128 səh.
110. Fərzəli Ə. Dədə Qorqud yolu, Bakı, Azərnəşr, 1995, 360 səh.
111. Fərzəli Ə. Əfşarlar, «Günay» qəz., 4 yanvar 1995.
112. Fərzəli Ə. Dədə Qorqud yurdu, Bakı, Azərnəşr, 1989, 181 səh.
113. Fərzəliyev Ə. Sofulu bulağı, eşidirsənmi? «Bərəkət» qəz., 18 aprel 1993.
114. Filologiya məsələlərinə dair tematik toplu, №.1-2 Bakı, «Nurlan», 2001,252 səh.
115. Filologiya məsələlərinə dair tematik toplu, № 34. Bakı, 2001,272 səh.
116. Filologiya məsələlərinə dair tematik toplu,*№5,* Bakı, 2001,187səh.
117. Filologiya məsələlərinə dair tematik toplu, № 6, Bakı, «Adiloğlu», 2001, 118səh.
118. Geologiya terminləri lüğəti, Bakı, «Elm», 1958.
119. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məınınədov (Qaramanlı), Bakı, «Şuşa», 2000, 576 səh.
120. Hacıxəlilov M. Gürcüstanda Azərbaycan mənşəli kənd adları, Elm və həyat, № 11, 1983, səh.32-33.
121. Hacıyev A.Ş. Azərbaycan dilinin onomastik sistemi, APİ, Bakı, 1990, 102 səh.
122. Hacıyev T., Vəliyev K. Azərbaycan dili tarixi, Bakı, «Maarif», 1983, 187səh.
123. Hacıyev T. Azərbaycan dilinin yazıya qədərki izləri haqqında. - Azərbaycan filologiya məsələləri, Bakı, «Elm», 1983, səh.24-34.
124. Hacıyev T. Azərbaycanın qədim onomastikasına dair. Azərbaycan filologiyası məsələləri, II bur., Bakı, «Elm», 1984, səh. 125-136.
125. Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri, Bakı, «Örnəb>, 1995, 324 səh.
126. Həmzə Vəli. Tarixdən gələn səslər, «Vətən səsi» qəz., 1 avqust 1991.
127. Həmzə Vəli. Nüvədi kitabələri, Bakı, «Oğuz eli», 1998, 56 səh.
128. Həsənov A.Q. Coğrafi adlarda tarixin izləri. – ADU-nun «Elmi əsərləri», dil və ədəbiyyat ser., № 3, 1966, səh. 19-27.
129. Həsənov A.Q. Dərəşam toponimi haqqında. - Azərb.SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Elmi əsərləri», dil və ədəb.ser., № 4, 1976, səh.62-66.
130. Həsənov H. Ulu Göyçə. Ə.Yasinzadə. Göyçədən başlayan yol, Bakı, 1997, səh. 13.
131. Hüseynov A. Azərbaycan dialektologiyası (dərs vəsaiti), Bakı, APİ, 1979, 90 səh.
132. Hüseynzadə Ə.A. Müasir Azərbaycan toponimiyasında tayfa adlarının izləri. - Azərb.SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq ser., № 2, 1973, səh.21-30.
133. Hüseynzadə Ə.A. Sabımçu toponiminin mənşəyi. Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Elmi əsərləri», tarix və fəlsəfə ser., № 7, 1975, səh.44-49.

134. Hüseynzadə Ə. Boyat (Bayat) coğrafi adının mənşəyi. Azərb.SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin «Elmi əsərləri», tarix və fəlsəfə ser., № 5, 1976, səh.44-52.

135. Xalıqov F.P. Qayı etnonimi haqqında. - Dil məsələlərinə dair tematik toplu, Bata, № 1, 1994, səh.68-70.

136. Xalıqov F. Folklor onomastikası (I hissə), Bakı, «Elm», 1998, 137səh.

137. Xasiyev Z.Ə. Tovuzun toponim dünyası, Bah, «Sabah», 1997 ,112səh.

138. Xəlilov B. Gümrü və Güyümçü etnonimləri, «Yeni dünya»qəz., 27 fevral 1993.

139. Xəlilov İ. İrəvan xatirələri, «Vətən səsi» qəz., 31 oktyabr 1990.

140. Xəlilov P. «Kitabi-Dədə Qorqud» - İntibah abidəsi, Bakı, «Gənclik>, 1993, 176səh.

141. Xıdırov C.A. İraq türkmanları, Bakı, «Azərnəşr», 1993, 104 səh.

142. İbrahimov (Şahin) T.Ə.Qaşqaylar, Bakı, «Elm», 1988, 212 səh.

143. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı, «Elm», 1996, 184 səh.

144. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı, Azərb SSR EA Nəşriyyatı, 1968, 275 səh.

145. İsmayıl M. Azərbaycan xalqının yaranması, Bakı, 1995, 72 səh.

146. İsmayılov M.Ə. Sənin ulu baban, Bakı, Azərnəşr, 1989, 302 səh.

147. İsmayılov M., Əliyev F. İrəvan xanlığı. - Zəka, № 3-4, 1992, səh.68-70.

147 a. İsmayılov M. Azərbaycan tarixi, Bakı, 1994. s.4.

148. İsmayılov Rəşid bəy. Azərbaycan tarixi, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 163 səh.

149. İsrafilov V. Gürcüstan Respublikasının Dmanisi (Başkeçid) rayonundakı Azərbaycan mənşəli toponimlər - Dil məsələlərinə dair tematik toplu, Bakı, 1994, № 1, səh.118-120.

150. İsrafilov V. Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı, Bakı, 1999, 100 səh.
.

151. İsrafilova R.D., Məşədiyev Q.İ., Cəfərov Q.H. Azərbaycan dilinin onomastikası (oçerklər), Bakı, «Elm», 1987, 188 səh.

152. Jak Şarden. Parisdən İsfəhana səyahət, Bakı, «Elm». 1994, 196 səh.

153. Kalankatuklu M. Albaniya tarixi, Bakı, «Elm», 1993, 235 səh.

154. Kəngərli Q. Erməni lobbisi... Azərbaycan faciəsi, Bakı, «Gənclik>, 1992, 278 səh.

155. Kərimli A. Zəngəzurun qeyrət qalası - Nüvədi, Bakı, Azərnəşr, 1996, 64 səh.

156. Kərimzadə F. Vedinin yanı dağlar... (etnoqrafik eskizlər). Azərbaycan, № 9, 1988, səh. 104-134.

157. Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı), Bakı, «Gənclik», 1977, 183 səh.

158. «Kitabi-Dədə Qorqud» (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə), Bakı, «Yazıçı», 1988, 265 səh.

159. Kitabi-Dədə Qorqud dilinin izahlı lüğəti, Bakı, «Elm», 1999, 204 səh.

160. Qarabağnamələr, I kitab, Bakı, «Yazıçı», 1989, 192 səh.

161. Qarabağnamələr, II kitab, Bakı, «Yazıçı», 1991, 450 səh.

162. Qasımlı İ. Yurd düşüncələri, «Vətən həsrəti» qəz., 18 iyun 1993.

163. Qasımov A. Bayat boyu, «bayat» sözü, bayatlılar. Azərbaycan filologiyası məsələləri, II bur., Bakı, «Elm», 1984, səh.163-169.

164. Qayqocalı Z. O yerlərdə izim qaldı (Dərəçiçək mahalının etnik tarixindən), «Vətən səsi» qəz., 12 iyun 1992.

165. Qayqocalı Z. Dərəçiçək və erməni vandalizmi, «Ulu Göyçə» qəz., 8 iyun 1993.

166. Qeybullayev Q.Ə. Coğrafi adlar tarixi mənbədir. - Elm və həyat, 1975,№11 ,səh.l6-17.

166a. Qeybullayev Q.Ə. Azərbaycan toponiminin tədqiq edilməsi prinsipləri haqqında. - Azərbaycan SSR EAnın Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, № 2, 1976, səh.83-90.

167. Qeybullayev Q.Ə. Azərbaycanda qıpçaq mənşəli etnotoponimlər haqqında. - Azərbaycan SSR EA Məruzələri, 32ci cild,№ 4, 1976, səh.81-84.

168. Qeybullayev Q.Ə. Qarabağ (etnik və siyasi tarixinə dair), Bakı, «Elm», 1990, 248 səh.

169. Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan, Bakı, Azərnəşr, 1992, 140 səh.

170. Qeybullayev Q. Bəzz toponiminin mənşəyi. - Tarix və onun problemləri, *№ 2,* 1992, səh.135-140.

171. Qeybullayev Q.Ə. Qədim ellərdən biri - Qaraçorlu, «Millət» qəz., 31 iyun 1993.
172. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, Azərnəşr, 1994, 248 səh.
173. Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair, Bakı, «Elm», 1994, 102 səh.
174. Qəhrəmanov C., Xəlilov Ş. Mustafa Zərir. Yusif və Züleyxa (Poeraanın mətni və tarixi-qrammatik oçerk), Bakı, «Elm», 1991, 312səh.
175. Qızılbaşlar tarixi (tərcümə və şərhlər M.Ə.Məhəmmədindir), Bakı, «Azərbaycan», 1993, 48 səh.
176. «Qızıl Şəfəq» qəzeti (Ermənistan Kommunist Firqəsi Komitəsinin nəşriyyatı. Kəndli qəzetəsidir), 1929 - cu ilin nömrələri.
177. Quqasyan V.L. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər - Azərbaycan filologiyası məsələləri, Bakı, «Elm», 1983,səh.35-62.
177a. Quliyeva E.A. Azərbaycan toponomiyasında paralellik, NDA, Bakı, 1994, 26 səh.
178. Quliyev Ə. Ayrımlar haqqında. - Azərbaycan filologiyası məsələləri, III bur., Bakı, «Elm», 1991, səh.201-211.
179. Quliyev Ə. Naxçıvan etnotoponimləri. - Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan» Beynəlxalq simpoziumunun materialları), Bakı, ADPU, 1996, səh.206-208.
180. Qumilyev L.N. Qədim türklər (tərcümə edənlər: V.Quliyev, V.Həbiboğlu), Bakı, «Gənclik», 1993, 536 səh.
181. Qurbanov A. Azərbaycan onomastikası, Bakı, APİ, 1986, 116 səh.
182. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası, Bakı, «Maarif», 1988, 596 səh.
183. Qurbanov A. Cücəkəndin daşüstü yazıları, Bakı, «Elm», 2001, 15 səh.
184. Qurbanov A. Cücəkənd şivəsi, Bakı, «Elm», 2001, 38 səh.
185. Ləmbəli V. Nisgilli duyğular, «Vətən həsrəti» qəz., 30 aprel 1993.
186. Ləmbəli V. Susuz arx, «Ədəbiyyat qəzeti», 19 mart 1993.
187. Mehmed Solakzadə. Tarix, Bakı, 1992.
188. Mehrəliyev E. Xalq coğrafi terminlərin izahlı lüğəti, Bakı, «Maarif», 1987, 80 səh.
189. Məhərrəmov S. Ermənistan SSRdə Azərbaycan (türk) mənşəli toponimlər. - Elm və həyat, № 10, 1986, səh.26.
190. Məmməd Oruc. Köçürülmə (roman), Bakı, «Gənclik», 1992, 312səh.
191. Məmmədli H. Dədəm Qorqud gəzən yerdi bu yerlər, Bakı, «Elm», 1999, 330 səh.
192. Məmmədov A. Kəngərlər, Bakı, «Azərnəşr», 1996, 131 səh.
193. Məmmədov H. «Dəftəri - müfəssəli əyaləti Tiflis»də yer adları. - Azərbaycan filologiya məsələləri, II bur., Bakı, «Elm», 1984, səh. 156-163
194. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlılar və onların acı taleyi (qısa tarixi oçerk), Bakı, «Azərbaycan»,', 1992, 72 səh.
195. Məmmədov K. Dərələyəz mahalı, «Vətən səsi» qəz., 29 yanvar 1993.
196. Məmmədov N. Azərbaycanın yer adları (oronimiya), Bakı, «Azərnəşr», 1993, 184 səh.
197. Məmmədov N.G. Qarqar dağı və Biçənək aşırımı oronimlərinin mənşəyi. - Dilçilik, Bakı, 1997, № 2, səh.43-44.
198. Məmmədov N.G. Azərbaycan Respublikasının oronimləri, Bakı, Bakı Universiteti nəşriyyatı, 1999, 302 səh.
199. Məmmədov S.Qaynaqların sözü birdir. - Azərbaycan, № 9, 1989, səh. 162-171.
200. Məmmədov S. İrəvan şəhərində etnik çevrilişlər. - Azər: baycan, № 1-2, 1992, səh.151-158.
201. Məmmədov S. O yerlərdə izim qaldı, Bakı, ADPU, 1997, 84, səh.
202. Məmmədov S. Qərbi Azərbaycan deportasiyaya məruz qalan azərbaycanlıların qədim diyarıdır. Azərbaycanlıların Qərbi Azərbaycandan - indi Ermənistan adlarıdırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları, Bakı, ADPU, 1998, səh.43-53.
203. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası, Bakı, «Azərnəşr», 1993, 262 səh.
204. Məşədiyev Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri,Bakı, «Elm», 1990, 148 səh.

205. Məşədiyev Q.İ «Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi»ndə (СМОМПК) . qeydə alınmış alınmış Azərbaycan (türk) mənşəli toponimlərin tarixi-linqvistik təhlili, (dok.disser), Bakı, 1991.

206. Mxitar Qoş. Alban salnaməsi, Bakı, «Elm», 1993, 35 səh.

207. Mir Mehdi Xəzani. Kitabi-tarixi - Qarabağ, «Qarabağ- namələr», II kitab, Bakı, «Yazıçı», 1991, səh.94-202.

208. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, 1993.

209. Mirmahmudova S.N. Ermənistan SSR-in ərazisindəki , Azərbaycan mənşəli toponimlərin tədqiqinə dair -Azərb.SSR EA-nın Xəbərləri, yer elmləri ser., № 6, 1981,səh. 103-109.

210. Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları,Bakı, «Yazıçı», 1995, 72 səh.

210 a. Mirzəyev H. Azərbaycan dilində fel, Bakı, «Maarif», 1986, 320 səh.

211. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, Bakı, ADPU, 1997, 352 səh.

212. Mirzəyev H.Gülüdüzü kəndi və onun anomastik vahidləri haqqında, ''Filologiya məsələlərinə dair tematik toplu'',2001, № 5, səh.. 108-113.

213. Mirzəyev H.Əyər,Azaderek//Azadyer kəndləri ,''Filologiya məsələlərinə dair tematik toplu'',2001, № 6, s.3-6

214. Mirzəyev H. Gindivaz, Əynəzur kəndləri,'' Filologiya məsələlərinə dair tematik toplu'',2001, № 6, s.80-81.

215. Mirzəyev H. XX əsrdə Ermənistanda məcburi dəyişdirilən yer adlarımız. - Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları, Bakı, 1998, səh.153-156.

216. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı, Bakı Universiteti nəşriyyatı, 1990, 376 səh.

217. Mirzəyev H. Dərələyəzdəki Qızılqışlaq,Almalı kəndləri,''Filologiya məsələlərinə dair tematik toplu'', 2001,№ 6,s.91-92.

218. Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri: akad. Z.Bünyatov və t.e.n. H.Məmmədov (Гараманлы), Бакы, «Сабащ», 1997, 336 сящ..

219. Mirzəyev H.Qabaxlı kəndi və onun onomastik vahidləri, ''Filologiya məsələlərinə dair tematik toplu'' ,2001,№ 1-2 ,s.26-33.

220. Mirzəyev H.Ayısəsi(Qızılgül) kəndi və bu kəndin ərazisində olan onomastik vahidlər ''Filologiya məsələlərinə dair tematik toplu'', Bakı, 2001, № 1-2, s.76-87.

221. Nəbiyev N. Coğrafi adlar (izahlı lüğət), Bakı, «Azərnəşr», 1982, 282 səh.

222. Nuriyev E. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası, Bakı, «Elm», 1989, 112 səh.

223. Mirzəyev H.Dərələyəz mahalının oronimləri və hidronimləri,''Filologiya məsələlərinə dair tematik toplu'', 2001,№ 1-2,s 137-143.

224. Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), Bakı, Qarabağa XalqYardımı Komitəsi, 1991, 144 səh.

225. Paşayev A. Köçürülmə, Bakı, «Azərnəşr», 1995, 40 səh.

226. Rəfiq Özdək. Türkün qızıl kitabı, I kitab, Bakı, "Yazıçı",1992. 184 səh.

227. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, Bakı, «Azərnəşr», 1997, 260 səh.

228. Rəşidəddin Fəzlullah. Oğuznamə, Bakı, Azərbaycan Dövlət Nəşriyyat Poliqrafıya Birliyi, 1992, 72 səh.

229. Rəcəbov Ə., Məmmədov Y. OrxonYenisey abidələri, Bakı, «Yazıçı», 1993, 400 səh.

230. Rüstəmov Ə.M. Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri, (nam.disser.), Bakı, 1990, 158 səh.

231. Rüstəmli Ə. Qədim Oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları (toponimiyası), Bakı, «İşıq», 1998, 172 səh.

232. Seyidov M.Ə. Ağqoyunlu və qaraqoyunlu etnonimlərinin etimoloji araşdırılması. - Qobustan, № 3, 1979, səh.59-66.

233. Seyidov M.Ə. Qarabağ-Arsaq-Apuar toponiminin etimologiyası haqqında qeydlər. - Azərbaycan filologiyası məsələləri, Bakı, «Elm», 1983, səh. 142-153.

234. Seyidov M.Ə. Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı, «Yazıçı», 1983, 326 səh.
235. Seyidov M.Ə. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı, «Yazıçı», 1989, 496 səh.
236. Səlimov-Şağani T.Q. Abşeronun yer adları, Bakı, «Elm»,1993. 76 səh.
237. Sovet Ermənistanında Azərbaycan kitabı (1925-1985), biblioqrafiya, (tərtib edəni: Məmmədov S.İ.), Yerevan, Erm. SSR Dövlət Kitab Palatası, 1985, 164 səh.
238. .Sümər Faruq. Oğuzlar, Bakı, «Yazıçı», 1992, 432 səh.
239. Şirəliyev M.Ş. Bakı dialekti, II çapı, Bakı, Azərb.SSR EA nəşriyyatı, 1957, 226 səh.
240. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları, II nəşri, Bakı, «Maarif», 1967, 420 səh.
241. Şükürov S. Uluxanh elegiyası, «Azərbaycan müəllimi» qəz., 20 aprel 1990.
242. Şükürov S. Zəngibasarın səsi. Tariximizdən: toponimik və etnoqrafik notlar, «Azərbaycan müəllimi» qəz., 6 iyul 1990.
243. Şükürov S. Uluxanlı (Bədiitarixi, etnoqrafik oçerk), Gəncə,fın 1999, 282 səh.
244. Tannverdi Ə. «Kitabi-Dədə QorquAaida şəxs adları, Bakı,;«Elm», 1999, 157 səh.
245. Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etrioqrafik və iqtisadi mülahizat), Bakı, Azərnəşr, 1993, 208 səh.
246. Vəliyev K.N. Elin yaddaşı, dilin yaddaşı, Bakı, «Gənclik», 1988, 280 səh.
247. Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı, Bakı, «Gənclik», 1996, 172 səh.
248. Vəlizadə İ. Qandal Kənan (roman), Bakı, «Yazıçı», 304 səh.
249. Vətən qürbətdə qaldı. Göyçə mahalından toplanmış folklor örnəkləri (toplayanı, tərtib edən və ön sözün müəllifi: H.İsmayılov), Bakı, «Yazıçı», 1993, 544 səh.
250. Voroşil Q. Qafqaz Albaniyası, Bakı, «Öyrətmən», 1993, 104 səh.
251. Yusifov Y.B., Kərimov S.K. Toponimikanın əsasları, Bakı, «Maarif», 1987, 204 səh.
252. Yasinzadə Ə. Göyçədən başlayan yol, Bakı, «Göytürk» 1997, 94 səh.
253. Yüzbaşov R. Azərbaycan coğrafiya terminləri (tədqiqlər), Bakı, «Elm», 1966, 158 səh.
254. Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları (oçerklər), Bakı, «Maarif», 1972, 100 səh.
255. Zahidov Ə. Azərbaycanın bəzi toponimləri. Gəncə, 1995, 144 səh.
256. Zeynalov F. Türkologiyanın əsasları, Bakı, «Maarif», 1981, 347 səh.

**b) Rus dilində**

257. Абих Г. Геология армянского нагорья (западная часть), Пятигорск, Типография А.М. Мануйлова, 1899, 202 с.
258. Абрамян Г.С., Мурзаев Э.М. Армянская географическая терминология. - Вопросы ономастики (Межвузовский сборник научных трудов), Свердловск, 1982.
259. Аймуратов О. Тюркские этнонимы, Нукус, 1986.
260. Акты собранные Кавказской Археографической комиссией, т. Ш, Тифлис, 1873.
261. Алиев А.И. Топонимия западных районов Азербайджана, АКД, Баку, 1975.
262. Алиев А.И. Огузкие этнонимы в топонимии Азербайджана. - Ономастика Кавказа, Орджоникидзе, 1980, с.58-61.
263. Алиев А.И., Мамедов И.О. Об этнониме карапапах. Ономастика Кавказа, Орджоникидзе, 1980, с.61-63.
264. Анисимов С. Путеводитель по Кавказу Кавказский край, М., «Мосполиграф», 1924, 376 с.
265. Армянская география VII века по Р.Х. (К.П.Патканов), СПб, Типография Императорская АН, 1877, 84 с.
266. Армянская ССР. Административнотерриториальное деление, Ереван, «Айастан», 1976, 283 с.
267. Аристов Н.А.Заметки об этнических племен и народностей и сведения об их численности, вып.34, СПб, 1896, с.397.
268. Аристова Т.Ф. Названия Курдских селений в Закавказье. Ономастика Кавказа, Орджоникидзе, 1980, с.9296.
269. Арутюнян Н.В. Топонимика Урарту, Ереван, АН Арм.ССР, 1985, 308с.

269 а. Арутюнян В. Каменная летопись Армянского народа,Ереван, 1985. с.152.
270. Асадов С. Миф о «Великой Армении», Баку, «Азербайджан», 1999, 280 с.
271. Атаниязов С. Словарь туркменских этнонимов, Ашхабад, «Ылым», 1988, 180с.
272. Бакиханов А. Гюлистани - Ирам, Баку, «Элм», 1991,304 с.
273. Баскаков Н.А. Введения и изучения тюркских языков, Изд.2е, М., «Высш.школа», 1969, 383 с.
274. Баскаков Н.А. Модели тюркских этнонимов и их типологическая классификация. - Ономастика Востока, М., «Наука», 1980, с. 199-207.
275. Брук С.И. Население мира. Этнодемографический справочник, М., «Наука», 1986, 828 с.
276. Будагов Б.А. Тюркские топонимии Евразии, Баку, «О§иг еН», 1998,256 с.
277. Будагов Л.З. Сравнительный словарь турецкотатарских наречий, т., I, СПб, Типография Императорской АН, 1869, 810 с., т, II, СПб, 1871,415 s.
278. Бушуева Е.Н. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР, М., 1971, 192 с.
279. Вейденбаум Е. Путеводитель по Кавказу, Тифлис, Типография Канцел. Главноначальствующая гражд. частью на Кавказе, 1888, 434 с.
280. Вейденбаум Е. Кавказские этюды, Тифлис, скоропечатная ... ., М.Мартиросяна, 1901,320с.
281. Велиев М.Г. Населения Азербайджан. «Музей этнографический сокровищ». - Азербайджанский настольный календарь, Баку, 1925.
282. Величко В.А. Кавказ. Русское дело и междуплеменные вопросы, Баку, «Элм», 1990, 224 с.
283. Ган К.Ф. Опыт обьяснения Кавказских географических названий, СМОМПК, вып.40, Тифлис, 1909, с. 1-164.
284. Гандзакеци Кр. История Армении (перевод с древнеармянского, предисловие и комментарий А.А.Ханларян), М., «Наука», 1976.357 с.
284а. Гасанов А.Г., Гейбуллаев Г.А. О некоторых древнетюркских словах в топонимии Азербайджана, сер. язык и литературы АГУ им. С.М.Кирова, №1, 1979.
285. Гейбуллаев Г. Хазарские этнонимы в Азербайджане. Доклады АН Азерб.ССР, 1980, №10, с.95-96.
286. Гейбуллаев Г.А. Топонимия Азербайджана (историкоэтнографическое исследование), Баку, «Элм», 1986, 192 с.
288.Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т.1., Баку, «Элм», 1991,552с.
287. Глинка С.Н. Описание переселения армян азербайджанских в пределе России, Баку, «Элм», 1990, 144 с.
289. Гукасян В. Азербайджанские палеотопонимы в Закавказских источниках. – Azərbaycan filologiya məsələləri, II bur., Bakı, «Elm», 1984, 5.136-150.
290. Гулиева Л.Г. Типология семантической структуры топонимиконов разносистемных языков (на материале топонимии Азербайджана), Баку, АПИ, 1990, 204 с.
291. Гусейнзаде А.А. Паралелли огузские этнонимов в современной топонимии Азербайджанской ССР. - Советская тюркология, №4, 1977, с.47-51.
292. Гусейнзаде А. К этимологии топонима Kuşçu - Советская тюркология, №6, 1971, с.91-95.
293. Гусейнзаде А.А. Ойконимы Закавказья, включающие этнонимы «Биченек». - Советская тюркология, №5, 1982, с.20-24.
294. Деконский А.Г. Экономический быть государственных крестьян в заподной части Шарура - Даралагезского уезде, Эриванской губрнии. - Материалы для изучение экономического быта государственных крестьян Закавказского края, т.l, Тифлис, 1886, 5. 683-767.
295. Добродомов И.Г. О половецких этнонимах в древнерусской литературе. - Тюркологический сборник 1975, М., «Наука», 1978, с. 102-129.
296. Долженко И.В. Хозяйственный и общественный быт русских крестьян восточной Армении конец XIX - нач. XX вв., Ереван, ан. Арм.ССР, 1985, 179 с.

297. Донидзе Г.И. Отрицание в тюркской топонимии. Ономастика Средний Азии, М., 1978, с.48-52.

298. Дорога Мгера. Армянские легенды и предания. Составление, перевод с армянского, предисловие и комментарий Г.О.Карапетяна, М., «Наука», 1990, 176 с.

299.Древнетюркский словарь, Л., «Наука», 1969, 676 с.

300. Егиазаров С. Административноэкономический строй сельский общины в Эриванский губернии. - Свод материалов по изучению экономического быта государственных крестьян Кавказская края, Тифлис, 1887.

301. Ереван и его окрестности, Фотоалбом (Авт. Статьи Т.О.Асратян), Л., «Аврора», 1973, 17 с.

302. Ереван в цифрах (статистический сборник), Ереван, 1968, 224с.

303. Ереванци С. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола. Эчмиадзина и окрестых моностырей, М., Изд.во вост.литер., 1958,400 с.

303а. Еремеев Д.Е. Юрюки, М., Наука, 1969, 104 с.

304. Жучкевич В.А. Общая топонимика, Минск, «Вышэйш школа», 1980, 287с.

305. Зелинский С.П. Экономический быть государственных крестьян в Зангезурском уезде, Елисаветпольской губернии. - Материалы для изучения экономического быта государственных крестьян Кавказского края, т.lV, ч. l, Тифлис, 1886, с. 1-220.

306. Зелинский С.П. Экономический быть государственных крестьян в Бамбакском участке и в северной части Шорагяльского уезда, Эриванской губернии. - Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.lll, ч.2. Тифлис, 1886, с. 227-455.

307.Зелинский С.П. Экономический быть государственных крестьян в Шорагяле, Александропольского уезда, Эриванской губернии. - Материалы для изучение эконо мического быта государственных крестьян Закавказского края, т.l, Тифлис, 1886, с. 1-101.

308. Известия Кавказского отдела императорского Русского географического общества, т.Х., №1, Тифлис, 1889-1891 годы.

309. История Азербайджана по документам и публикациям,Баку, «Элм», 1990, 348 с.

310. Историческая география Западного Азербайджана, Баку,«Азербайджан», 1 998, 560 стр.

311. Кайдаров А. Т. К историколингвистической характе ристике этнонима канглы/Уканлы. - Тюркская ономастика, АлмаАта, «Наука», 1984, с. 34-47.

312. Кавказский календарь на 1847, Тифлис, 1846.

313. Кавказский календарь на 1879, Тифлис, 1878.

314. Кавказский календарь, Тифлис, Типография К.П. Козлов ского, 1907, с. 64, 150-157, 256-319.

315. Кавказский календарь, Тифлис, 1909.

316. Кавказский календарь, Тифлис, Типография канцелярии наместника Е.И.В. на Кавказе, 1916, с. 95-134.

317. Капанцян Гр. Обшие элементы между урартским ихеттским языкам, Эриван, ГИЗ ССРА, 1936, 76 с.

318. Капанцян Гр. Историколингвистическое значение топо нимики древней Армении, Ереван, Издательство Госу дарственного Университета, 1940, 113 с.

319. Капанцян Гр. Историколингвистические работы. К на чальной истории армян, Ереван, АН Арм.ССР, 1956, 471 с.

320. Кармышев Б.Х. Следы средневековых этнонимов и антропонимов в узбекских генеалогиях (ас, кышлык,урус). - Ономастика Средней Азии, М., 1978, с. 18-27.

321. Кононов А.Н. Родословная туркмен. Сочинение Абул Гази хана Хивинского, М. Л., Издство АН СССР, 1958,112с.

322. Кононов А.Н. Семантика цветообозначений в тюркских языках. - Тюркологический сборник 1975, М., «Наука», 1978.С.159-179.

323. Койчубаев Е. Краткий толковый словарь топонимов Казахстана, АлмаАта, «Наука», 1974, 110с.

324. Латышев В.В. Известия древних писателей (греческих и латинских) о скифнии и Кавказе, СПб, Типография Императорский АН, 1906, 454 с.
325. Лейстер А.Ф. К вопросу о происхождение озера Гокчи. Известия Кавказского отдела императорского русского ч географического общества, Т.ХХ1, 1911-1912, Тифлис,Типография К.П. Козловского, 1910, с.355-368.
326. Линч Ф.Б. Армения. Путевые очерки и этюды, т. I., Русские провинции. X-XIII, Тифлис, Изд. И.Е.Питоев и.К., 1910,597с.
327. Мамедов С.А. Азербайджан по источникам ХУпервой половины XVIII вв., Баку, «Элм», 1993, 240 с.
328. Маркова Ф.Т. Экономический быть государственных крестьян Эриванского уезда. - Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.Ш, ч.1, Тифлис, Типографии: А.А.Михельсона, 1886, с. 1-226.
329. Материалы для изучениях экономического быта государственных крестьян Закавказского края, т. IV, Тифлис, 1886.
330. Материалы докладов II научной конфренции посвященной изучению топонимии Азербайджанской ССР, сентябр 1981, Баку, «Элм», 1981, 88 с.
331. Машадиев К.И. Историколингвистический анализ топонимов азербайджанского (тюркского) происхождения зарегистрированных в «Сборнике материалов для описания местностей и племен Кавказа» (СМОМПК), АДД, Баку, 1991,56с.
332. Меликишвили Г.А. Урартский язык, М., «Наука», 1964, 74 с.
333. Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках, Баку, «Элм», 1988, 120с.
334. Мирмахмудова С.Н. Исследование Азербайджанскихойконимов на территории Армянской ССР, автореферат кандидат географических наук, Баку, 1986, 20 с.
335. Мирмахмудова С.Н. Азербайджанские гидронимическиеойконимы на территории Армянской ССР. - Всесоюзнаяконференция. Топонимика в региональныхгеографических исследованиях (13 февраля 1984 г.).Тезисы докладов, М., 1984, с.70-71.
336. Моллазаде С.М. Топонимия северных районов Азербайджана, Баку, «Маариф», 1979, 206 с.
337. Молчанова О.Т. Структурные типы тюркских топонимов Горного Алтая, Саратов, Издство Саратовского Университета, 1982, 256 с.
338. Муниснаме. Словарь собственных имен, географических[1] названий и непереведенных вочточных слов, Баку, 1991, с.574.
339. Мурзаев Э.М. Словарь народных географических терминов, М., «Мысль», 1984, 653 с.
340. Мурзаев Э.М. Топонимы в межнациональном общении. Топонимика и межнациональные отношение, М., 1992, с.14-19
341. Мусаев К.М. Лексика тюркских языков в сравнительномосвещении, М., «Наука», 1975, 357 с.
342. Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX начале XX в., т.1, Баку, «Элм», 1993, 382с.
343. Обзор Эриванской губернии за 1914, Эриван, Типография Эриванского Губернского Правления, 1915, 79 с.
344. Обозрение Армении, в географическом, историческом и литературном отношениях (собрал и составил А.Худабашев), СПб, 1859.
345. Ономастика Востока, М., 1980.
346. Ономастика Узбекистана, Ташкент, 1987. 347. Ономастика Средней Азии, М., 1978.
348. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карт Кавказского края, Тифлис, Типография К.П.Казловского, 1913,530 с.
349. Парвицкий В.А. Экономический быть государственных хн и крестьян северовосточной части Новобаязетского уезде, Эриванской губернии. - Материалы для государственных крестьян Кавказского края, т., IV, ч. 2, Тифлис, 1886, с. 1- 96
350. Парвицкий А.В. Экономический быть государственных крестьян северозаподной части Шарура и восточной части Даралагеза, ШаруаДаралагезского уезда, [г] Эриванской

губернии. - Материалы для изучения эко номического быта государственных крестьян Кавказского края, т.1У, ч.2, Тифлис, 1886, с.97-178.

351. Парвицкий В.А. Экономический быть государственных крестьян югозападной части Новобаязетского уезда Эриванской губернии. - Материалы для изучение экономического быта государственных крестьян Закавказ ского края, т.1, Тифлис, 1862, с.315-347.

352. Парвицкий А.В. Экономический быт государственных крестьян северозападной части Шарура - Даралегезского уезда, Эриванской губернии. - Материалы для изучения экономического быта государственных крестьян Кавказского края, т., IV, 2 ч., Тифлис, 1886, с.129-132.

353. Парсамян В. История армянского народа, 18011900 гг., кн. I, Ереван, «Айастан», 1972, 398 с.

354. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., Л., Издство Ленинградского Университета, 1949, 383 с.

355. Пигулевская Н. Сирийские источники по истории народов СССР, М.Л., АН СССР, 1941, 169 с.

356. Подольская Н.В. Связи демографоэтнических и топонимических процессов. - Топонимика и межнациональные отношение, М., 1992, с. 19-25.

357. Пиотровский Б.Б. Урарту древнейшее государство Закавказья, Л., 1939, 56 с.

358. Путеводитель по Армении, Ереван, 1939.

359. Радлов В.В. Опыт словарья тюркских наречий, т.l, ч. 1-2, СПб, 1893, 1914 стр.; т ll, ч.1-2, СПб, 1899, 1814 стр. т lll, ч.1-2, СПб, 1905, 2204 стр.; т.lV, ч. 1-2, СПб, 1911, 2230 стр.

360. Савина В.И. Типы тюркских топонимов и Иране. Топонимика Востока (исследования и материалы), М., «Наука», 1969, с.1671-72.

361. Савина В.И. Словарь географических терминов и других слов, формирующих топонимию Ирана, М., «Наука», 1971,346 стр.

362. Савина В.И. Этнонимы в топонимии Ирана. - Ономастика Востока, М., 1980, с. 147-154.

363. Сборник сведений о Кавказе, Тифлис, 1875.

364. Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область, т.У, ч.1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №1-1370.

365. Севортян Э.В. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.,«Наука», 1974,768 с.

366. Севортян Э.В. Этимологический словарь тюркских языков (Обшетюркские и межтюркские основы на букву «Б»), М., «Наука», 1978,352с.

367. Севортян Э.В. Этимологический словарь тюркских языков(Обшетюркские и межтюркские основы на букву «В», «Г»и «Д»), М., «Наука», 1980, 396 с.

368. Сейидов М. Некоторые заметки о гуннскоазербайджан ских мифологических связях (на основе этимологического анализа слова куар//гуар. – Azərbaycan dilçiliyi məsələləri, Bakı, Azərb. SSR EA nəşriyyatı, 1967, səh. 205-216.

369.Серебренников Б.А., Гаджиева Н.Э. Сравнительно историческая грамматика тюркских языков, Баку, «Маариф», 1979,304с.

370. СМОМПК, вып. 4, Тифлис, 1884.

371. СМОМПК, вып. 5, Тифлис, 1886.

372. СМОМПК, вып. 13, Тифлис, 1892.

373. СМОМПК, вып. 25, Тифлис, 1898.

374. СМОМПК, вып. 27, Тифлис, 1900.

375. Старостин Б. А. Несколько слов о топонимике Армянской ССР. - Всесоюзная конференция по топонимике СССР 29 января - 2 февраля 1965 г., Л., 1965, с. 156-158.

376. Статистическое описание Нахичеванской провинции, СПб, 1833,263 стр.

377. Страбон. География, В 17ти кн., Л., 1964, 943 с.

378. Султанов Т.И. Опыт анализа традиционных списков 9 племен платийа. В сб. «Средняя Азия в древности и средневековые», М., 1977, с. 166.

379. Сумбатзаде А.С. Азербайджанцы этногенезу и формирование народа, Баку, «Элм», 1990, 304 с.

380. Суперанская А. В. Топонимия Крыма как свидетельство межэтнических контактов. - Топонимика и меж национальные отношения, М., 1992, с.40-57.

381. Тюркская ономастика, АлмаАта, «Наука», 1984, 248 с.

382. Хан-Агов А.Е. Экономический быть государственных крестьян в Эчмиадзинском и Сурмалинском уездах, Эри ванской губернии. - Материалы для изучения экономического быта государственных крестьян За кавказского края, т.Ш, ч.2, Тифлис, 1886, с.227-455.

383. Хоренски М. Армянская история, ч. II, СПб, 1809, с.222.

384.Шаврова Н.Н. Новая угроза русскому делу в Закавказье: предстояшая распродажа Мугани инородцам, Баку, «Элм», 1990, 156с.

385.Шервашидзе И.Н. Еше раз об этимологии имени А§та, Аш1а - Авитохоль. - Советская тюркология, 1989, №3, с.79-81.

386.Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи, СПб, Типография императорский Академии Наук, 1852, 1231 с.

387. Шопен И. Новыя заметки по древния истории Кавказа и его обитателей, СПб, Типография Н.Тиблена и комп., 1866,501с.

388. Эзов Г.А. Внутренний быть Древней Армении, СПб, в типографии морского министерство, 1859, 146с.

389. Юсифов Ю.Б. Гунны в Закавказье этнические и исторические связи тюркских народов СССР. - Тезисы докладов и сообшений Всесоюзной тюркологической конференции, АлмаАта, 1976,0.120-122.

390.Ямпольский З.И. О значении слова «ван» в имени Нахичевань. К анализу имени Нахичевань - Изв. АН Азерб. ССР, сер. обществ, наук, 1961, №1, с.13-19.

391.Тер-Казарян. Ереван. Памятники и история. - Литература Армения, 1983, №7, с. 13-20.

**c) Türk dillərində**

392. Bayramov İ.M. Manevi soykrım türk toponimleri ve onların geleceyi. - Kiyasi C., Bozyel İ. Ermeni Kültür terörü, Ankara, 1996,s.l5-18.

393. Әбдирахианов А. Казакстан этнотопонимикасы (зерттелу тарихынан), Алматы, «Ғылым», 1979, 127 с.

394. Həmdi Özdamlar. Develi tarihi - Türk dünyası tarihi, mayıs, Ankara, 1995, s.44-45.

395. Faruk Sümer. Çepniler. Anadoludakı türk yerleşmesinde önemli rol oynayan bir oğuz boyu, İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1992, 139 s.

396. İğdıroğlu. Torpağın dili olsaydı..., «Azerbaycan türkleri», nisan, 1990, №1, s.37-40;

397. İslam Ansiklopedisı, cilt 9, İstanbul, Türkiye Diyanet vakfı, 1994, 560 s.

398. Kafesoğlu İ. Selçuklu tarihi, İstanbul, M.E.B., 1992, 125 s.

399. Kaşğari M. Divani - lügat - it türk, I- III cilt, Ankara, 1992.

400. Kirzıoğlu M. Fahrettin. Dede Korkut oğuznameleri, I kitab, Burhanettin Erenler Matbaası, İstanbul, 1952, 132 s.

401. Kirzıoğlu F. Revan türkleri. - Türk kültürü, 1963, sayı 11, s.31-36.

402. Kirzıoğlu F. Kars tarihi, I cilt, İstanbul, İşil matbası, 1953, 560 s.

403. A.Mecit Doğru. Kırım ve Maykopun yer adları. - Türk dünyası araştırmaları, hazıran, 1987, № 48, s.73-100.

404. Muharrem Ergin. Dede Korkut kitabı, I -II cilt, Ankara, 1989, 1991.

405. M.Fahreddin Çelik. Dede Korkut kitabındakı coğrafi isimlər. Ülkü, temmuz, 1941, s.449-456.

406. M.Fahrettin Kırzıoğlu. 1593 (H.1001) yılı Osmanh vilayet Tahrir defterinde anılan GenceKarabağ sancakları: «Ulus» ve «Oymak»lan. - Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979,8.199-222.

407. Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983,№ 26,s.1-38.

408. Нафасов Т. Жанубин Узбекистон топонимиясининг этнолингвистик анализи, Тошкент Давлат педагогика иниституту, 1985, 83 с.

409. Polat Kaya. Sümere ile türkçenin aynı kökten geldiğini işaretleyen sözcükler, zamirler, ekler ve dil özellikleri. - Yeni Forüm, cild 13, mayıs, 1992, s.60-66.

410. Türk yer adları sempozyumu bildirileri, 11-13 Eylül 1984, Ankara, Başbakanlık Basımevi, 1984, 288 s.

**ç) Ermәni dilindә**

(Ermәni dilindә istifadә olunan әdәbiyyatlar ermәni әlifbası latın qrafikalı Azәrbaycan әlifbasında verilir.)

411. Acaryan Hr. Ermәni dili kök sözlәrinin izahlı lüğәti, I c., İrәvan, «İrәvan Universiteti», 1971, 698 sәh.

412. Avetisyan K.M. Coğrafi adlar lüğәti, İrәvan, 1969, 362 sәh.

413. Arakelyan B.N. Qәdim Artaşat, İrәvan, Erm.SSR EA nәşriyyatı, 1975, 49 sәh (şәkilli)

414. Arakelyan H.M. Sisiyan, İrәvan, Erm.KP MK nәşri, 1987, 132 sәh.

415. Qorqodyan Z. 18311931-ci illәrdә Sovet Ermәnistanının әhalisi, İrәvan, «Melkonyan fond», 1932, 188 sәh.

416. Qafqazda ermәni-türk vuruşması (1905-1906), İrәvan, «Sparan Ayvazeansyev Nazareans», 1907, 464 sәh.

417. Ermәnistan Sovet Ensiklopediyası, IXII cild, İrәvan, 1974-1986.

418. Ermәnistanın Mәrkәzi Dövlәt Arxivi, fond 102, iş 999; fond 102, iş 1043.

419. Ermәnistan SSR. İnzibatiәrazi bölgüsü, İrәvan, «Ayastan», 1976, 283 sәh.

420. Ermәnistan SSR-in coğrafi adları, İrәvan, 1951.

421. Әrәb mәnbәlәrindә Ermәnistan vә qonşu ölkәlәr haqqında (tәrtibçi: Nalbandyan A.T.), İrәvan, 1965.

422. Yeğiazaryan O. Әzizbәyov rayonunun mәdәniyyәt abidәlәri, İrәvan, «Haypetrat», 1955, 110 sәh. (şәkilli)

423. Yefrikeyan H.S. İllüstrasiyalı coğrafi adlar lüğәti, Venesiya, 1900, 806 sәh.

424. Mәliksetyan O.U. Qәrbi ermәnüәrin deportasiyası vә xaricdә yaşayan ermәnilәrin Sovet Ermәnistanında repatritasiyası (qaytarılması), (19141940), İrәvan, «İrәvan Universiteti», 1975, 295 sәh.

425. Ohanyan K.O. Ermәnistan SSR-in çay vә göllәri, İrәvan, 1961.

426. Simonyan A.P. Yerevan (19201967), İrәvan, «Mitk», 1968, 343 sәh.

427. Hakopyan T.X., MәlikBaxşyan St.T., Barseğyan O.X. Ermәnistan vә әtraf vilayәtlәrin toponimlәr lüğәti, I c., AD, İrәvan, «İrәvan Universiteti», 1986, 991 sәh.

428. Heponyak T.X. Ermәnistanın tarixi coğrafiyası (oçerklәr), II nәşri, İrәvan, «Ayastan», 1968, 508 sәh.

429. Şahәziz Y. Köhnә İrәvan, İrәvan, 1956.

**D) Avropa dillәrindә**

430. Bayramov I.M. Cultural genocide turkish placenames and ther future. - Kiyasi C., Bozyel I. Armenian ackts of cultural terrorism, Ankara, 1997, p. 19-22

431. 2. Bayramov I.M. Cultural genocide continues. - Kiyasi C., Bozyel I. Armenian ackts of cultural terrorism, Ankara, 1997, p..39-41.

432. Budaqov B. Turkic Toponyms of Eurasia, Baku, «Elm», 1997, 174p.

433. Hübscman H. Die altarmenischen Ortsnamen, Verlag von Karl J.Trübner, Strassburq, 1904, s. 197-490.

**E) İnternet sәhifәsi**

434. Баблоян Роберт. Большое событие в Малишке.www. Guadroweb.ru//press-aboutmain, htm

435. Саркисов Грант.<<Вместе с нами>>.Вклад русского офицерства в боях за независимость Армении.Арменистика.http:// yerkramas. Al / archive/ aug 2000 /armen.htm, 06/ 12/2001(проверено 08.12.2001), 40 кв, Windows 1251/

**Ә) Xәritәlәr**

436. Карта Кавказа, составлена и литографирована в Военнотопографическом отдель Кавказского военного округа, Тифлис, 1903.

437. Армянская ССР, М, 1970.
438. Армянская ССР, ГУТК ССР, 1987.
439. Azərbaycanlıların soyqırımı, Bakı, 2002. tf

**ƏSƏRDƏ İSTİFADƏ OLUNMUŞ İXTİSARLAR**

1. ADİL - Azərbaycan dilinin izahlı lüğəti.
2. ASE - Azərbaycan Sovet Ensiklopediyası.
3. DDA - Doktorluq dissertasiyasının avtoreferatu
4. NDA - Namizədlik dissertasiyasının avtoreferatı. .